# Azad Zəngilan

**(Xronika AZƏRTAC-ın materialları əsasında tərtib edilir)**

***2024, 15 aprel***
- ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO
- Ağbənd qəsəbəsindən Bartaz yüksəkliyi istiqamətində elektrik xəttinin çəkilişinə başlanılıb

***2024, 9 aprel***
- Ağalı və Cocuq Mərcanlı kəndlərində sakinlərə tərəvəz şitilləri paylanılıb

***2024, 7 aprel***
- Laçında ödənişsiz peşə hazırlıq kursları təşkil olunur
- Füzulidə, Laçında və Zabuxda orta təhsil səviyyəsi üzrə ilk dəfə buraxılış imtahanı keçirilib

***2024, 6 aprel***
- AZAL Zəngilanda keçirilən əmək yarmarkasında iştirak edib

***2024, 5 aprel***
- Ağalıda keçirilən ilk əmək yarmarkasında 253 vakansiya təqdim olunub
- Zəngilan rayonunun Ağbənd qəsəbəsində qida təhlükəsizliyinə nəzarətin təmin edilməsi məqsədilə struktur yaradılacaq

***2024, 4 aprel***
- İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur

***2024, 19 mart***
- AFAQ layihəsi çərçivəsində Zəngilanda qadın fermerlərə dəstək göstərilib
- Ağalı sakinləri İlaxır çərşənbəni qeyd ediblər – FOTO VİDEO

***2024, 13 mart***
- Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu

***2024, 12 mart***
- Ağalı kəndində Yel çərşənbəsinin tonqalı qalanıb – VİDEO

***2024, 10 mart***
- Buraxılış imtahanı işğaldan azad olunan ərazilərdə ümumilikdə 4 binada təşkil edilib
- DİM Laçın şəhərində, Zabux kəndində və Füzulidə yerləşən məktəblərdə buraxılış imtahanı keçirir

***2024, 2 mart***
- Ağalıda uşaqların çərşənbə sevinci

***2024, 2 mart***
- İşğaldan azad olunan ərazilərdə işəgötürənlərin kadr ehtiyaclarının qarşılanması üzrə görüləcək birgə işlər müzakirə olunub

***2024, 29 fevral***
- Köçü planlaşdırılan sakinlərə məşğulluq tədbirləri ilə bağlı məlumat verilib
- Polis Ağalıda şagirdlərin iştirakı ilə ilk dəfə maarifləndirmə tədbiri keçirib

***2024, 27 fevral***
- Sahibkarlar Şərqi Zəngəzur iqtisadi rayonuna səfər ediblər

***2024, 23 fevral***
- Ağalı kəndində Şərqi Zəngəzur Regional Məşğulluq filialının xidmət şöbəsi istifadəyə verilib

***2024, 21 fevral***
- Zəngilanın Alıbəyli kəndinin yenidən salınması işlərinə başlanılıb - konseptual layihə - FOTO
- İşğaldan azad edilmiş ərazilərdə müasir hidrometeoroloji stansiyalar qurulub

***2024, 17 fevral***
- 30 ildən sonra Zəngilanda ilk toy - FOTO VİDEO

***2024, 15 fevral***
- Zəngilan rayonu ərazisində açıq sahədə yanğın baş verib – VİDEO

***2024, 12 fevral***

- Ermənistan silahlı qüvvələrinin mövqelərindən Zəngilan istiqamətində Ordumuzun mövqelərinə atəş açılıb, bir hərbçi yaralanıb – VİDEO

***2024, 7 fevral***
- Zəngilanın Alıbəyli kəndində seçkinin gedişatını 11 müşahidəçi izləyir

***2024, 26 yanvar***
- Cəbrayıl, Qubadlı və Zəngilanda hərraca çıxarılacaq yataqlar açıqlanıb
- Zəngilanda Ekoloji məsələlər üzrə işçi qrupunun iclası keçirilib
- Zəngilanda ekoloji məsələlər üzrə işçi qrupun bu il üçün ilk iclası keçirilir

***2024, 9 yanvar***
- 125 saylı Zəngilan-Qubadlı DSK-sı üzrə azad olunan ərazidə 4 seçki məntəqəsi fəaliyyət göstərəcək

***2023, 19 dekabr***
- Zəngilanda “Bilim hər yerdə” layihəsinə start verilib

***2023, 5 dekabr***
- Otuz ölkəni təmsil edən xarici ekspertlər Zəngilanda bir araya gəliblər

***2023, 4 dekabr***
- Zəngilanın Ağalı kəndində yaşıllaşdırma işlərində Dendrologiya İnstitutunda becərilən bitkilərdən istifadə olunub

***2023, 29 noyabr***
- Zəngilanda partlayıcı vasitələr aşkarlanıb

***2023, 24 noyabr***
- Zəngilanda silahların və partlamamış vasitələrin aşkar olunması istiqamətində tədbirlər davam etdirilir

***2023, 8 noyabr***
- Zəngilanda hərbçilərin iştirakı ilə Bayraq Yürüşü təşkil olunub

***2023, 6 noyabr***
- Komitə: Zəngilanın təsdiq edilən Baş planında şəhərin 40,5%-ni yaşıllıqlar təşkil edir

***2023, 4 noyabr***
- Zəngilanın Ağalı kəndinə infotur təşkil edilib

***2023, 1 noyabr***
- Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib - QƏRAR

***2023, 26 oktyabr***
- Ağalı kəndinə köç edən ailələrə mənzillərin açarı təqdim edilib
- Böyük Qayıdış: Daha 95 nəfər Ağalıya yola salınıb

***2023, 20 oktyabr***
- Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 2027-ci ilədək 5 qəsəbə və 24 kəndin salınması planlaşdırılıb
- Zəngilan Şəhəri Günündə hərbçilərin iştirakı ilə yürüş keçirilib
- Zəngilanın Ağalı kənd sakinləri aktiv məşğulluq proqramları ilə əhatə olunublar
- Zəngilanlılar bu gün sevinclə evlərinə qayıdırlar
- Zəngilan Şəhəri Gününü böyük fəxarət hissi ilə qeyd edirik – AÇIQLAMA
- Bu gün Zəngilan Şəhəri Günüdür: Zəngilanın işğaldan azad olunması Qarabağ düyününün açılmasında həlledici oldu

***2023, 18 oktyabr***
- Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl və Laçında yerquruluşu işləri yekunlaşaraq kadastr sisteminə miqrasiya olunub

***2023, 11 oktyabr***
- İşğaldan azad olunan Bəsitçay Dövlət Təbiət Qoruğu füsunkar gözəlliyinə qovuşur
- “Beynəlxalq nəqliyyat-logistika dəhlizi: Zəngilandan inkişaf impulsları” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçiriləcək

*2023, 6 oktyabr*

- Zəngilanda Azərbaycanla İran arasında avtomobil körpüsünün təməlqoyma mərasimi keçirilib

*2023, 3 oktyabr*

- Böyük Qayıdışın Zəngilan mərhələsi

*2023, 29 sentyabr*

- Prezident: Ağalı kəndinə həyat qayıdıb, orada sakinlər xoşbəxt yaşayırlar
- Prezident İlham Əliyev Zəngilan şəhərinə ilk qayıdışın vaxtını açıqladı
- Azərbaycan Prezidenti: Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik
- Prezident İlham Əliyev: 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiq edilib
- Prezident: Torpaqlarımızda separatçılığa son qoyulub, bu, bizim güclü siyasi iradəmizin göstəricisidir
- **Zəngilanda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib: Prezident İlham Əliyev Forumun açılış mərasimində çıxış edib**

*2023, 28 sentyabr*

- **Zəngilan şəhərində 160 yerlik uşaq bağçasının təməli qoyulub**
- **Prezident İlham Əliyev Zəngilan şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak edib**
- **Zəngilan şəhərində 3-cü yaşayış kompleksinin təməli qoyulub**
- **Heydər Əliyev Fondu tərəfindən inşa edilən Zəngilan şəhər məscidində görülən işlərlə tanışlıq**
- **Zəngilan şəhərində 2-ci yaşayış kompleksinin təməli qoyulub**
- **Azərbaycan Prezidenti İlham Əliyev Zəngilan kəndinin təməlini qoyub**
- **Prezident İlham Əliyev "AzərEnerji" ASC-nin "Cahangirbəyli" Su Elektrik Stansiyasının açılışında iştirak edib**
- **Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışı olub**
- **Prezident İlham Əliyev Zəngilan rayonunun Alıbəyli kəndinin təməlini qoyub**

*2023, 31 iyul*

- Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub

*2023, 17 iyun*

- **Tatarıstanın Rəisi Rüstəm Minnixanov Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə Zəngilan Beynəlxalq Hava Limanından Bakıya yola düşüblər**
- **Azərbaycan Prezidenti İlham Əliyevin Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub**
- **"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında"Avto Lizinq Azərbaycan" MMC-nin açılışı olub: Azərbaycan Prezidenti İlham Əliyev və Tatarıstanın Rəisi Rüstəm Minnixanov açılışda iştirak ediblər**
- **Azərbaycan Prezidenti İlham Əliyev və Tatarıstanın Rəisi Rüstəm Minnixanov Zəngilan rayonunun Ağalı kəndində olublar**
- **Rüstəm Minnixanov Zəngilan şəhərində görülən işlərlə tanış olub**

*2023, 23 may*

- Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarının Zəngilana səfəri başlayıb
- ATƏT PA-nın sədri Zəngilan rayonuna gedərək ərazilərimizin yenidən qurulması prosesi ilə tanış olacaq
- Bakıda keçirilən konfransın iştirakçıları Azərbaycanın Zəngilan rayonunda olublar
- Estoniyalı deputat: Zəngilanda bərpa və yenidənqurma işləri sürətlə həyata keçirilir

*2023, 4 may*

- **Zəngilanın Cahangirbəyli kəndində birinci mərhələdə 1200 nəfərin məskunlaşdırılması nəzərdə tutulur**

- **Təməli qoyulan Zəngilan Rayon Mərkəzi Xəstəxanası ən müasir tibbi avadanlıqla təchiz olunacaq**
- **Zəngilanda otel kompleksinin təməli qoyulub**
- **"Azərenerji" ASC-nin Zəngilanda "Sarıqışlaq" Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanışlıq**
- **Prezident İlham Əliyev Zəngilan şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib**
- **Prezident İlham Əliyev Zəngilan Konqres Mərkəzinin tikintisi ilə tanış olub**

***2022, 31 dekabr***

- Prezident: Zəngilanlıların doğma torpağına qayıtmaları tarixi hadisədir

***2022, 30 dekabr***

- Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi təyin olunub - SƏRƏNCAM

***2022, 10 dekabr***

- Türkiyədəki diplomatik korpusun nümayəndələri Zəngilana yola düşüblər
- Zəngilan aeroportu Belçika səfirini nə ilə təəccübləndirib?
- Fergus Auld: Zəngilan gələcəkdə çox gözəl olacaq
- Ağalı kəndi Küveyt səfirini heyrətləndirib
- Azərbaycanda akkreditə olunan diplomatlar və hərbi attaşelər Zəngilan və Qubadlıya səfər ediblər

***2022, 29 noyabr***

- Xarici jurnalistlər Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər

***2022, 25 noyabr***

- Prezident: Ağalı kəndi Qarabağın yenidən qurulmasının nümunəvi modeli olacaq

***2022, 21 noyabr***

- Moldovanın nüfuzlu telekanalı Ağalı kəndindən "Xarabalıqlar içində həyat" sərlövhəli xüsusi reportaj hazırlayıb

***2022, 23 oktyabr***

- Pərvin Kərimzadə: Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsi mühüm tarixi hadisədir
- Deputat: Türkiyə Prezidentinin Zəngilan aeroportunun açılışında iştirakı ölkəmizə yönələn təhdidlərə açıq mesaj oldu

***2022, 22 oktyabr***

- Azərbaycan və Türkiyə liderlərinin Zəngilanın azad olunmasının ikinci ildönümündə bir yerdə olmaları böyük mənəvi-siyasi önəm daşıyır
- Azərbaycan-Türkiyə qardaşlığının Zəngilan və Cəbrayıldan mesajları xüsusi məna daşıyır
- Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilanda hava limanın açılışında iştirakları ölkələrimizin birliyinin, qardaşlığının təntənəsidir
- Zəngilan aeroportu Zəngəzur dəhlizi ilə bağlı infrastrukturun yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir

***2022, 21 oktyabr***

- Zəngilandan dünyaya sülh mesajı verən türk gücü
- Türkiyə mediası: Prezident Rəcəb Tayyib Ərdoğan Zəngilan aeroportunun ilk rəsmi qonağı oldu
- Ukrayna və Moldova mediası Zəngilan aeroportunun açılışına geniş yer ayırıb
- Deputat: Zəngilan Beynəlxalq Hava Limanının inşası bölgənin yeni reallıqlar əsasında inkişafını göstərir
- Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilan və Cəbrayıl rayonlarına səfərləri Gürcüstan mətbuatının diqqət mərkəzindədir

- Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilan Beynəlxalq Hava Limanının açılışını birgə etməsi rəmzi məna daşıyır
- Yaponiya portalı Zəngilan Beynəlxalq Hava Limanının açılışı barədə məlumatlar yayıb
- Zəngilanda hava limanının açılması bölgənin parlaq gələcəyinin müjdəsidir
- Politoloq: Zəngilan aeroportunun açılışı Zəngəzurun Qafqazın ən önəmli turizm məkanlarından birinə çevriləcəyini göstərir
- Ərəb mediası Zəngilanda hava limanının açılış mərasimi, Türkiyə və Azərbaycan prezidentlərinin birgə mətbuat konfransını geniş işıqlandırıb

***2022, 20 oktyabr***

- Vüqar Rəhimzadə: Azad Zəngilan həyatının yeni mərhələsini yaşayır
- Cavanşir Feyziyev: Zəngilan keçmişdə olduğu kimi, indi də Azərbaycan üçün mühüm strateji əhəmiyyət kəsb edən bölgədir
- Türkiyə və Azərbaycan prezidentlərinin Zəngilan Beynəlxalq Hava Limanının açılışını birgə etmələri möhtəşəm dostluğun daha bir nişanəsidir
- Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər
- Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub: Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər
- Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfərə gəlib: Zəngilan Beynəlxalq Hava Limanında ilk rəsmi qarşılanma

***2022, 19 oktyabr***

- **Zəngilan şəhərində məktəb binasının təməli qoyulub**
- **Prezident İlham Əliyev Zəngilanda ilk yaşayış binasının təməlini qoyub**
- **Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyası işə salınıb**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olublar**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanın Ağalı kəndində sakinlərlə görüşüblər**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda olublar**

***2022, 27 avqust***

- Xüsusi nümayəndə: Zəngilanın bərpası işlərində BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri nəzərə alınır

***2022, 18 iyul***

- Sabahdan Zəngilanın Ağalı kəndinə sakinlərin köçürülməsinə başlanılır

***2022, 30 iyun***

- Brüsseldə Azərbaycanın “Ağıllı kənd” modelini təbliğ edən tədbirlər keçirilib

***2022, 24 iyun***

- Siyasi partiya nümayəndələrinin, tanınmış politoloq və siyasi şərhçilərin Zəngilana səfəri başlayıb
- Zəngilanda icra olunan bərpa-quruculuq layihələri ilə tanışlıq
- Araz Əlizadə: Zəngilana edilən səfər siyasi dialoqun təşviqi istiqamətində uğurlu nəticələr verə bilər
- Abutalıb Səmədov: Zəngilanda aparılan bərpa-quruculuq işləri bizi qürurlandırdı

***2022, 15 iyun***

- Avropa İttifaqı nəşrində “Ağalı ağıllı kənd” haqqında məqalə dərc olunub

***2022, 1 iyun***

- Deputat: “Ağıllı kənd” layihəsinin açılışı azad edilmiş ərazilərimizə Böyük Qayıdışın başlanmasıdır

*2022, 30 may*
- Deputat: Zəngilandan verilən mesajlar tarixi həqiqətə, beynəlxalq hüquqa və ədalətə söykənir

*2022, 28 may*
- Azərbaycan Prezidentinin Zəngilan rayonuna səfəri Gürcüstan mətbuatının diqqət mərkəzində olub
- Könül Nurullayeva: Zəngilanda əhalinin rifahı və rahat yaşaması üçün əlverişli infrastruktur qurulub

*2022, 27 may*
- **Prezident İlham Əliyev: Bu gün gözəl Zəngilan torpağında həyat qururuq**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər: Prezident İlham Əliyevin çıxışı**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanış olublar**

*2022, 26 may*
- **Zəngilan məscidinin tikintisi ilə tanışlıq olub, İşğal və Zəfər muzeylərinin təməli qoyulub, şəhərin Baş planı təqdim edilib**
- **Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq**
- **Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər**

*2022, 4 may*
- Prezident İlham Əliyev: Hazırda Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir
- Prezident: Zəngilan rayonunda yaradılan "DOST Aqropark"ı birinci və nümunəvi aqropark olacaq
- Prezident: Zəngilandakı və digər rayonlardakı qiymətli metal yataqlarını vəhşicəsinə istismar edənlər bizə təzminat ödəyəcəklər
- Prezident İlham Əliyev: Zəngilan rayonunun turizm imkanları dərindən təhlil edilməli, təxirəsalınmaz işlərə başlanmalıdır

*2022, 29 aprel*
- Azərbaycan Prezidenti Zəngilanda hava limanının bu il, Laçında isə 2024-cü ildə açılacağını bildirib

*2022, 13 aprel*
- Prezident İlham Əliyev: Cəbrayıl, Zəngilan rayonlarında Günəş Elektrik stansiyalarının potensialı həddindən artıq böyükdür

*2022, 12 aprel*
- Prezident: Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı, Hadrut və Suqovuşanın Baş planları hazırlanmalıdır

*2022, 2 fevral*
- Prezident İlham Əliyev: Bərpa işləri geniş vüsət alıb

*2022, 31 yanvar*
- Zəngilanda "Ağıllı kənd" layihəsinin həyata keçirilməsi başa çatmaqdadır

*2021, 26 oktyabr*
- **Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar**
- **Zəngilan rayonunda "Dost Aqropark"ın təməli qoyulub: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Zəngilan rayonunda "Dost Aqropark"ın təməlini qoyublar**

- **Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoyublar**

***2021, 21 oktyabr***

- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan ictimaiyyətinin nümayəndələri ilə görüşüblər**
- **"Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyası istifadəyə verilib**
- **Prezident İlham Əliyev Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın təməlini qoyub**
- **Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonundakı hərbi hissə kompleksində şəxsi heyət üçün bütün zəruri şərait yaradılıb**
- **Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanışlıq**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda səfərdə olublar: Rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanışlıq**

***2021, 20 oktyabr***

- Soltan Məmmədov: Zəngilanın azad olunması Vətən müharibəsinin gedişində Azərbaycan Ordusuna böyük strateji üstünlük qazandırdı
- Prezident İlham Əliyev: Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi, bütün infrastruktur qurulacaq
- Prezident: 20 oktyabr həm zəngilanlılar, həm də bütün xalqımız üçün əbədi Zəfər günü kimi qalacaq

***2021, 17 oktyabr***

- Prezident İlham Əliyev: Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır

***2021, 24 avqust***

- Vüqar Rəhimzadə: Füzuli, Zəngilan, Laçın Beynəlxalq Hava limanlarının inşa edilməsi və istismara verilməsi regionun inkişafı üçün strateji əhəmiyyətə malikdir

***2021, 3 iyul***

- Füzuli və Zəngilan rayonlarında basdırılan minalara dair xəritələr Azərbaycana təqdim edilib

***2021, 28 aprel***

- Türkiyə mediası Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfərini geniş işıqlandırıb

***2021, 27 aprel***

- Prezident İlham Əliyev: Ağalı kəndinin təməl daşının qoyulması böyük qayıdışın birinci addımıdır
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar: Prezident İlham Əliyevin çıxışı**

***2021, 13 aprel***

- Müdafiə Nazirliyi Zəngilan rayonunun Sarıqışlaq kəndinin videogörüntülərini paylaşıb

***2021, 28 mart***

- Müdafiə Nazirliyi Zəngilan rayonunun Çöpədərə kəndinin videogörüntülərini paylaşıb

***2021, 13 mart***

- Müdafiə Nazirliyi Zəngilan rayonunun Qıraq Müşlan kəndinin videogörüntülərini paylaşıb

***2021, 11 mart***

- Müdafiə Nazirliyi Zəngilan rayonunun Mirzəhəsənli kəndinin videogörüntülərini paylaşıb

***2021, 8 mart***

- Müdafiə Nazirliyi Zəngilan rayonunun Qaragöz kəndindən videogörüntülər yayıb

***2021, 6 mart***

- Müdafiə Nazirliyi Zəngilan rayonunun Qaradərə kəndinin videogörüntülərini yayıb

***2021, 4 mart***

- Müdafiə Nazirliyi Zəngilan rayonunun Keçikli kəndinin videogörüntülərini paylaşıb

***2021, 3 mart***
- Müdafiə Nazirliyi Zəngilan rayonunun Beşdəli kəndinin videogörüntülərini yayıb

***2021, 21 fevral***
- Müdafiə Nazirliyi Zəngilan rayonunun İkinci Alıbəyli kəndindən videogörüntülər paylaşıb

***2021, 19 fevral***
- Müdafiə Nazirliyi Zəngilan rayonunun Birinci Alıbəyli kəndinin videogörüntülərini yayıb

***2021, 16 fevral***
- Müdafiə Nazirliyi Zəngilan rayonunun Babaylı kəndinin videogörüntülərini yayıb

***2021, 15 fevral***
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar: Prezident İlham Əliyevin çıxışı**

***2021, 10 fevral***
- Müdafiə Nazirliyi Zəngilan rayonunun Vənədli kəndinin videogörüntülərini yayıb

***2021, 4 fevral***
- “France Inter” radiosu Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərindən reportaj hazırlayıb
- Fransanın “Atlantico” portalında Zəngilan rayonu ilə bağlı məqalə dərc edilib

***2021, 29 yanvar***
- Müdafiə Nazirliyi Zəngilan rayonunun Məmmədbəyli kəndinin videogörüntülərini yayıb

***2021, 7 yanvar***
- Müdafiə Nazirliyi Zəngilan rayonunun videogörüntülərini paylaşıb

***2021, 3 yanvar***
- Müdafiə Nazirliyi Zəngilan rayonunun Genlik kəndindən videogörüntülər paylaşıb

***2021, 2 yanvar***
- Müdafiə Nazirliyi Zəngilan rayonunun Yenikənd kəndindən videogörüntülər paylaşıb

***2021, 1 yanvar***
- MN: Zəngilan rayonunun Malatkeşin kəndindən videogörüntülər

***2020, 24 dekabr***
- Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olublar: Prezident İlham Əliyevin çıxışı

***2020, 10 dekabr***
- Rəcəb Tayyib Ərdoğan: Şuşa bir tarixdir. Şuşanı o tarixi ilə yaşamaq, görmək həqiqətən bizim üçün də bir sevgidir
- Türkiyə Prezidenti: Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür
- Prezident: Azərbaycan əsgər və zabiti böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi

***2020, 7 dekabr***
- Prezident İlham Əliyev: İşğaldan azad olunmuş ərazilərin bərpasında iştirakla bağlı İtaliya tərəfinə təkliflər verilib
- Prezident İlham Əliyev İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***2020, 3 dekabr***
- Zəngilanda keçirilən növbəti ağacəkmə tədbiri zamanı 400-ə yaxın tut ağacı əkilib

***2020, 2 dekabr***
- Qarabağ - Azərbaycan xalqının milli ruhunun formalaşdığı müqəddəs yerdir

***2020, 29 noyabr***
- Misirin “Cümhuriyyə” nəşri: Azərbaycan Prezidenti heç kimin İslam abidələrini təhqir etməsinə imkan verilməyəcəyini bəyan edib

- Vətən müharibəsi zamanı əməliyyatların minimum itkilərlə həyata keçirilməsi böyük uğurdur

**_2020, 26 noyabr_**

- Azərbaycan hərbi-diplomatik uğurları ilə BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasını da təmin etdi
- BMTM Kolumbiya Universitetinə etiraz məktubu ünvanlayıb

**_2020, 25 noyabr_**

- "Vətən müharibəsində möhtəşəm Qələbəyə görə sağ ol, Azərbaycan əsgəri!" devizi altında tədbirlər keçirilib
- Prezident: Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir, Azərbaycan zəfər çalmış ölkədir

**_2020, 24 noyabr_**

- Prezident İlham Əliyev: Müharibənin bütün sirlərini açmaq hələ tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq
- Prezident İlham Əliyev: Biz bütün dünyaya göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır

**_2020, 22 noyabr_**

- Azərbaycanın hərbi-diplomatik uğurları Ağdam rayonunun işğaldan azad olunmasını və 853 saylı qətnamənin icrasını şərtləndirdi
- TRT HABER: Ağdamdakı dəhşətli mənzərə Ermənistanın vəhşiliyinə daha bir nümunədir

**_2020, 21 noyabr_**

- Ağdamda ağacəkmə coşqusu

**_2020, 20 noyabr_**

- "Regional İnkişaf" İctimai Birliyi Ermənistanın ölkəmizə qarşı törətdiyi ekoloji və humanitar terrorun dayandırılması ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib

**_2020, 19 noyabr_**

- Sərhəd rayonların işğaldan azad edilməsi İran-Azərbaycan əlaqələrinin inkişafı üçün yeni perspektivlər açıb

**_2020, 18 noyabr_**

- Prezidentə yazırlar: Siz müdrik, cəsarətli siyasət yürüdərək Vətən müharibəsində tarixi zəfərə nail oldunuz

**_2020, 16 noyabr_**

- İşğaldan azad olunmuş ərazilərdə FHN-in növbəti yerli strukturları fəaliyyətə başlayıb

**_2020, 15 noyabr_**

- Vüqar Kərimov: Təbiətin məhv edilməsinə, qonşu xalqa nifrət və düşmənçiliyin bu cür vəhşi formada ifadəsinə son qoyulmalıdır

**_2020, 12 noyabr_**

- İşğaldan azad edilmiş ərazilərdə DTX-nin idarə və şöbələri fəaliyyətə başlayır
- İşğalın Dağlıq Qarabağ və ətraf rayonların fitosanitar vəziyyətinə təsiri

**_2020, 10 noyabr_**

- Misirli professor: Azərbaycanın tarixi Qələbəsi 30 il əvvəl işğal edilmiş torpaqlara qayıdış hüququnun bərpa olunmasıdır
- Azərbaycan dövlətinin şanlı Qələbəsi

**_2020, 9 noyabr_**

- Beynəlxalq Türk Akademiyasının prezidenti Şuşa zəfəri münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib
- Şuşa zəfərindən dərhal sonra Müzəffər Ali Baş Komandandan yeni böyük müjdə: 71 kənd, 1 qəsəbə, 8 strateji yüksəklik azad olundu
- Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 48 kəndi, 1 qəsəbəni və 8 strateji yüksəkliyi işğaldan azad edib

- Anar Eyvazov: Azərbaycan əsgəri bir əlində silah, bir əlində bayraq növbəti hədəfə doğru irəliləyir
- İşğaldan azad olunmuş ərazilərdə aparılan ekoloji monitorinqlərin nəticələri: minillik qədim ağaclar məhv edilib
- Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 23 kəndi işğaldan azad edib

***2020, 8 noyabr***

- İşğaldan azad edilmiş Zəngilan rayonu ərazisindəki sərhəd zastavalarında Azərbaycan bayrağı ucaldılıb
- Üçrəngli bayrağımız işğaldan azad edilmiş torpaqlarımızda qürurla, vüqarla dalğalanır
- İşğaldan azad edilmiş ərazilərdən olan daha bir qrup özünüməşğulluq proqramı iştirakçısı üçün kiçik müəssisələr yaradılıb

***2020, 7 noyabr***

- Rusiyalı ekspert: Paşinyan rejimi Qarabağda daha çox immiqrant yerləşdirəcəyini ümid edirdi
- Anar Eyvazov: Ordumuzun əməliyyatları nəticəsində xeyli itki verən düşmən geri çəkilməyə məcbur olub
- Səfir Hulusi Kılıç: Ermənistan qanunsuz məskunlaşdırma ilə Azərbaycana qarşı daha bir beynəlxalq cinayət törədib
- Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 16 kəndi işğaldan azad edib
- Suriyalı ermənilərin Ermənistan tərəfindən Zəngilana köçürülməsinə dair sənədlər aşkar olunub

***2020, 6 noyabr***

- COJEP beynəlxalq təşkilatının Ermənistanın Azərbaycanın mülki əhalisini qətlə yetirməsi ilə bağlı hesabatı eyniadlı jurnalda dərc olunub

***2020, 5 noyabr***

- Anar Eyvazov: Azərbaycan Ordusu yaşayış məntəqələrini atəşə tutmur, yalnız legitim hərbi hədəfləri məhv edir

***2020, 4 noyabr***

- Ermənistan ərazisindən Zəngilan istiqamətindəki bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı alınıb
- Anar Eyvazov: Hazırda qoşunlarımız döyüşləri tam üstünlüklə davam etdirir
- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha 7 kəndini işğaldan azad edib
- Pakistan səfiri Ermənistanın mülki əhalimizə qarşı törətdiyi cinayətlər barədə məlumatlandırılıb
- Baş prokuror Kamran Əliyev: Füzulidə bayraq sancmağa yer qalmamışdı
- Cəbhədə noyabrın 4-nə olan son vəziyyət

***2020, 3 noyabr***

- Paşinyan öz ölkəsinin darmadağın olmasında təqsirkarlar axtarır
- Anar Eyvazov: Ermənistanın Azərbaycanla dövlət sərhədindəki mövqelərimizi atəşə tutması ordumuzu açıq şəkildə təxribata çəkmək cəhdidir
- Müdafiə Nazirliyi: Zəngilan istiqamətində düşmənin kəşfiyyat-diversiya qrupu məhv edilib
- BERNAMA agentliyi Azərbaycan Ordusunun cəbhədəki uğurlarını geniş işıqlandırır
- Cəbhədə noyabrın 3-nə olan son vəziyyət

***2020, 2 noyabr***

- Anar Eyvazov: Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir
- Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha bir neçə kəndini işğaldan azad edib
- Düşmən cəbhənin Zəngilan istiqamətində mövqelərimizə hücum etməyə cəhd göstərib

***2020, 1 noyabr***

- Anar Eyvazov: Hazırda ordumuz əməliyyat şəraitinə tam nəzarət edir
- Düşmənin iki ədəd "Qrad"ı məhv edilib
- Zəngilan istiqamətində düşməndən növbəti hərbi qənimət götürülüb
- Prezident: Ermənistan öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaq
- Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***2020, 31 oktyabr***

- Azərbaycan QHT-ləri Ermənistanın qadağan olunmuş fosforlu silahdan istifadə etməsi ilə bağlı bəyanat yayıblar
- Ali Məhkəmə Ermənistan ordusunun Azərbaycanın dinc əhalisini hədəfə alması ilə bağlı bəyanat yayıb

***2020, 30 oktyabr***

- Anar Eyvazov: Cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır
- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Cəbrayılın, Zəngilanın və Qubadlının 9 kəndini işğaldan azad edib

***2020, 28 oktyabr***

- Prezident İlham Əliyev: Hərbi-siyasi nizamlama yeganə mümkün yoldur
- Prezident İlham Əliyev İran Prezidentinin xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib
- Anar Eyvazov: Heç bir təxribat qələbə əzmimizə və zəfər yolumuza mane ola bilməz
- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının 13 kəndini işğaldan azad edib
- Prezidentin köməkçisi: Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc yaşayış məntəqələrinə hərbi təcavüzü davam edir
- Ali Baş Komandan tarixi ədaləti uğurla və qətiyyətlə bərpa edir
- Cəbhədə oktyabrın 28-nə olan son vəziyyət

***2020, 27 oktyabr***

- Anar Eyvazov: Ermənistan silahlı qüvvələrinin bölmələri humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozub
- BMT böyük dövlətlərin əlində təsir mexanizmli təşkilata çevrilib
- İkinci Qarabağ müharibəsi: Otuz ildə bizi başa düşməyənlərə otuz gündə çox şeyi başa saldıq
- Atəşkəs rejiminin tarixi hazırkı vəziyyətə görə məhz Ermənistanın məsuliyyət daşıdığını aydın göstərir
- Azərbaycan MN: Ermənistan ərazisində sərhəd zastavasının vurulması barədə yayılan məlumat yalandır və təxribat xarakteri daşıyır

***2020, 26 oktyabr***

- BERNAMA agentliyi: Azərbaycan Ordusu Qubadlı şəhərini və bir neçə kəndi işğaldan azad edib
- Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin azad edilməsi münasibətlə xalqımızı təbrik edib

***2020, 25 oktyabr***

- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad edib
- Müdafiə Nazirliyi Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb
- Prezidentin köməkçisi: Ermənistan ərazisindən Azərbaycana hərbi hücumlar BMT Nizamnaməsində təsbit edilmiş təcavüz aktıdır

*2020, 24 oktyabr*
- Anar Eyvazov: Erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir
- Düşmənin bölmələrimizə hücum cəhdinin qarşısı alınıb
- Prezidentin köməkçisi: Ermənistan ərazisindən Azərbaycanın ərazisinə hücumların edilməsi növbəti hərbi təcavüz aktıdır
- Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir

*2020, 23 oktyabr*
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olublar**
- Anar Eyvazov: Ordumuzun zəfər yürüşü davam edir
- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Xocavəndin 2, Cəbrayılın 5, Zəngilanın 2 kəndini işğaldan azad edib
- Kürşad Zorlu: Azərbaycanın İranla dövlət sərhədinə nəzarəti tam bərpa etməsi çox mühüm hadisədir
- Prezidentə yazırlar: Düşmən üzərində qazandığımız qələbələr Sizin cəsarətinizin, uzaqgörənliyinizin və polad iradənizin nəticələridir

*2020, 22 oktyabr*
- Anar Eyvazov: Ordumuz qələbə əzmi ilə zəfər yoluna davam edir
- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan rayonunun 13 kəndini və Ağbənd qəsəbəsini işğaldan azad edib
- Prezident İlham Əliyev: Bizə hücum olunursa, nəinki özümüzü müdafiə etməliyik, eyni zamanda, əks-hücuma da keçməliyik
- Siyəzən, Qəbələ və Kürdəmirə raket hücumu: Düşmən müharibə cinayətləri törətməkdə davam edir
- Milli Məclisdə Xocavəndin Vəng kəndinin Çinarlı adlandırılması haqqında qanun layihəsinə baxılıb
- Prezident İlham Əliyev Türkiyənin Baş Ombudsmanını qəbul edib
- Cəbhədəki son vəziyyət

*2020, 21 oktyabr*
- Prezident İlham Əliyev: Azərbaycan ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsini və 13 kəndini işğaldan azad edib

*2020, 20 oktyabr*
- Anar Eyvazov: Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir
- Ali Məhkəmə Ermənistan ordusunun mülki şəxsləri hədəfə alması ilə bağlı bəyanat yayıb
- Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib
- Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib: Prezident İlham Əliyevin müraciəti
- Prezident İlham Əliyev: Zəngilan şəhəri və rayonun 6 kəndi, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndi işğaldan azad edilib
- Cəbhədə son vəziyyət

*2020, 16 oktyabr*
- Vətəndaş məktubları: Cənab Prezident, biz Sizi sevirik, Sizə inanırıq və Sizi daim dəstəkləyirik
- Prezident: Fərq ondadır ki, bu müharibə Azərbaycan xalqı üçün azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir

*2020, 6 oktyabr*

- Milli Məclisin iclasında Madagiz kəndinin Suqovuşan adlandırılması təsdiqlənib

**Milli Məclisin iclasında Madagiz kəndinin Suqovuşan adlandırılması təsdiqlənib**

[16:09] 06.10.2020

Oktyabrın 6-da Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bu gün hər birimizin ürəyinin qürurla dolub-daşdığını bildirib. Qurtuluş savaşı aparan Ordumuz yeni-yeni ərazilərimizi düşməndən təmizləyərək zəfər yürüşünü davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dediyi kimi, "Dağlıq Qarabağ bizim torpağımızdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir! Mən heç zaman imkan verməyəcəyəm ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Bütün imkanlardan istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna yaxınlaşırıq".

Bu gün döyüş meydanında xalqımızın taleyi və müqəddəratı ilə bağlı məsələnin həll olunduğunu bildirən Sədr deyib: "Mən əminəm ki, qarşıda bizi yeni böyük uğurlar gözləyir.

İndiyədək Cəbrayıl şəhəri və həm bu rayonda, həm də digər ərazilərdə çoxlu sayda kənd düşməndən təmizlənib. Kəlbəcərin, Laçının, Zəngilanın, Qubadlının, Şuşanın, işğal altında olan digər torpaqlarımızın azad ediləcəyi gün uzaqda deyil.

Əldə edilən hərbi qələbələr, təəssüf ki, itkisiz başa gəlmir. Azərbaycanın qəhrəman əsgər və zabitləri Vətən torpağını düşməndən xilas etmək üçün ölümün gözünə dik baxırlar. Bununla birlikdə, döyüş meydanında duruş gətirə bilməyən xain düşmən öz terrorçu mahiyyətini göstərərək, mülki obyektləri, yaşayış məntəqələrini raket atəşinə tutur. Dinc əhali arasında həlak olan və yaralananlar var".

Milli Məclisin Sədri bütün şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyib.

Sonra Sahibə Qafarova diqqətə çatdırıb ki, bu gün Azərbaycan xalqı dövlətimizin başçısının və Ali Baş Komandanın ətrafında sıx birləşib, hərb tariximizi yeni hünər və qələbələrlə zənginləşdirən müzəffər Ordusunun yanındadır. Əminəm ki, bu birlik, bu dəstək, bu qüvvət sayəsində tezliklə Qarabağın hər yerində şanlı Azərbaycan bayrağı dalğalanacaq. Qəhrəman Ordumuza, mətin xalqımıza, müdrik rəhbərimizə eşq olsun!

Milli Məclisin Sədri bir məlumatı da nəzərə çatdırıb ki, parlamentin deputatları, Aparatın və İşlər İdarəsinin əməkdaşları dövlətimizin başçısının və Birinci vitse-prezidentimizin başladıqları aksiyaya qoşularaq, Silahlı Qüvvələrə Yardım Fonduna vəsait köçürüblər. Sədrin çıxışı alqışlarla qarşılanıb.

İclasın gündəliyi təsdiq edildikdən sonra deputatlar cari məsələlər barədə fikirlərini bildiriblər.

Çıxış edən deputatlar Cavanşir Feyziyev, Naqif Həmzəyev, Rəşad Mahmudov, Emin Hacıyev, Əli Məsimli, Müşfiq Cəfərov, Səttar Möhbalıyev, Cavid Osmanov, Azər Badamov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, Zahid Oruc, Erkin Qədirli Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatlar, ölkəmizin haqq savaşı, şanlı Ordumuzun zəfər yürüşü, ATƏT-in Minsk qrupunun fəaliyyəti, Fransanın Ermənistan-Azərbaycan münaqişəsindəki mövqeyi ilə bağlı fikirlərini ifadə ediblər.

İclasda çıxış edən Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib ki, erməni lobbisi Amerika Birləşmiş Ştatları Konqresinin Nümayəndələr Palatasında Azərbaycan əleyhinə 1165 saylı qətnamə layihəsinin müzakirəyə çıxarılmasına hazırlaşır. Bu işə Konqresin erməni qrupunun iki həmsədri rəhbərlik edir. Həmin şəxslərin hər ikisi demokratdır, onlar erməni soyqırımı üzrə aktın sponsoru olublar. Onlardan biri Cek Spear 1165 saylı qətnamə ilə bağlı Nümayəndələr Palatasının 46 üzvündən dəstək alıb. Ümumiyyətlə isə Konqresin erməni qrupunun 116 üzvü var.

Adil Əliyev deyib ki, hazırda ABŞ-da yaşayan Azərbaycanlı icmasının üzvləri ABŞ Nümayəndələr Palatası tərəfindən 1165 saylı qətnamənin qəbulunun dayandırılması üçün

imzatoplama kampaniyasına başlayıblar. Lakin bu iş lazımi səviyyədə deyil. Adil Əliyev ABŞ-da 40 mindən çox azərbaycanlının yaşadığını nəzərə alaraq onları bu məsələdə daha fəal olmağa çağırıb. Sədr müavini Milli Məclisin deputatlarını da bu məsələyə kömək göstərməyə səsləyib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Tərtər rayonunun Madagiz kəndi erməni işğalından azad edilən kimi Prezident İlham Əliyev onun tarixi adını geri qaytararaq həmin kəndi Suqovuşan adlandırıb. Bu gün Milli Məclis həmin məsələni qanuniləşdirəcək. Qanun layihəsi bir oxunuşda təsdiqlənəcək.

"Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında" qanun layihəsi barədə məlumat verən Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, məsələ komitənin iclasında müzakirə olunub. Komitə üzvləri məsələni yekdilliklə Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

Qanun layihəsi səsə qoyularaq təsdiqlənib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, gündəliyin növbəti 14 məsələsi parlamentin oktyabrın 2-də keçirilən iclasında ikinci oxunuşda müzakirədən keçmiş qanun layihələridir. Bu gün həmin qanun layihələri üçüncü oxunuşda müzakirəyə təqdim edilib. Bildiyiniz kimi, üçüncü oxunuşda qanun layihəsinin mətninə dəyişiklik edilmir.

Əvvəlcə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Dəmir Yollarının 140 illiyi (1880-2020)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda müzakirəyə təqdim edib. Qanun layihəsinə əsasən, Azərbaycan Dəmir Yollarının 140 illiyi ilə əlaqədar olaraq təsis edilən yubiley medalı ilə vəzifələrini nümunəvi icra edən, fəaliyyətində yüksək nəticələr göstərən, dəmir yolu nəqliyyatı sahəsində çalışan işçilər, dəmir yolu nəqliyyatı sahəsinin inkişafında və təkmilləşdirilməsində xüsusi xidmətləri olan şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif olunacaqlar.

Qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

Sonra "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə də üçüncü oxunuşda baxılıb. Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, bu medalla həqiqi hərbi xidmət keçən və xidməti vəzifələrini nümunəvi yerinə yetirən zabit və gizirlər, müddətdən artıq hərbi xidmət keçən hərbi qulluqçular, ehtiyatda olan və istefaya buraxılmış hərbçilər, həmin orqanda səmərəli fəaliyyət göstərən mülki işçilər, habelə bu sahədə xüsusi xidmətləri olan digər şəxslər təltif ediləcəklər.

Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini şərh edib. Deputat bildirib ki, Azərbaycan Prezidenti 2018-ci il dekabrın 28-də tikinti obyektlərinə tikintiyə icazə və obyektin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb. Tikintiyə dövlət nəzarəti prosedurlarında nəzərdə tutulan sadələşdirmələrlə əlaqədar müvafiq qanunların təkmilləşdirilməsi ilə əlaqədar təkliflərin hazırlanması barədə Nazirlər Kabinetinə tapşırıq verilib. Təqdim edilən qanun layihəsi həmin təkmilləşdirilməyə dair təklifləri nəzərdə tutur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

"Dövlət rüsumu haqqında" Qanuna təklif edilən dəyişikliklər barədə danışan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, qanun layihəsi barədə komitənin rəyi müsbətdir. Qeyd olunub ki, qanun layihəsinə təklif olunan dəyişikliklər minik avtomobillərinin özgəninkiləşdirilməsi haqqında müqavilələrin dövlət qeydiyyatına alınmasına

görə dövlət rüsumunun məbləğinin hər il üçün təsdiqlənməsi mexanizmindən imtina olunmasını və rüsumların daimi əsasda müəyyən edilməsini nəzərdə tutur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin üçüncü oxunuşu barədə məlumat verib. Bildirib ki, qanun layihəsi daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya birinci dərəcə əlilliyi olan şəxsə baxan, onunla birlikdə yaşayan valideynin, arvadın (ərin), himayəçinin və ya qəyyumun gəlirlərinin gəlir vergisindən azad olunan hissəsinin artırılaraq 200 manat məbləğində müəyyən edilməsini, güzəşt tətbiq olunan kateqoriyaya sağlamlıq imkanları məhdud uşaqları övladlığa götürən şəxslərin də aid edilməsini nəzərdə tutur. Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Sonra Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə məsələnin üçüncü oxunuşu ilə bağlı bildirib ki, layihə "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğun olaraq hazırlanıb. Düzəliş övladlığa götürülən uşaqların təhsil xərclərinin dövlət vəsaiti hesabına ödənilməsini ehtiva edir. Bu, ölkəmizdə övladlığa götürməni, xüsusilə az və orta təminatlı ailələr tərəfindən valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsini təşviq edəcək. Sənəd səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) məlumat verib ki, bu qanun layihəsi də valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıyır. Təklif olunan qanun layihəsinə əsasən övladlığa götürülmüş uşaqların dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində və ali məktəblərin magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət hesabına ödənilməsi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

"Sosial müavinətlər haqqında" Qanuna təklif olunan dəyişikliklərlə bağlı qanun layihəsini (üçüncü oxunuş) şərh edən Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı bildirib ki, bu sənəd də "Övladlığa götürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Prezidentin 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğun olaraq, valideyn himayəsindən məhrum uşaqların övladlığa götürülməsini stimullaşdırmaq və uşaqları övladlığa götürən ailələri dəstəkləmək məqsədilə hazırlanıb.

Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı Əmək, Cinayət və İnzibati Xətalar məcəllələrinə, "Uşaq hüquqları haqqında" Qanuna təklif edilən dəyişiklikləri üçüncü oxunuşda təqdim edərkən bildirib ki, layihə "Gənclər siyasəti haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğunlaşdırma xarakteri daşıyır. Layihə üçüncü oxunuşda təsdiq edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Mülki Prosessual, Cinayət, Miqrasiya və İnzibati Xətalar məcəllələrinə, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlara (üçüncü oxunuş) təklif edilən dəyişikliklərin "Vergi Məcəlləsinə dəyişiklik edilməsi barədə" 2018-ci il 30 noyabr tarixli qanun layihəsinə uyğunlaşdırma məqsədilə hazırlandığını bildirib. Deputat qeyd edib ki, qanun layihəsinin ikinci oxunuşda müzakirəsindən sonra komitəyə heç bir yeni qeyd və təklif daxil olmayıb. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini üçüncü oxunuşa təqdim edib. Bildirilib ki, təklif olunan dəyişikliklər məcburi nişanlama malların uçotdan yayındırılmasının,

saxta məhsulların bazara daxil olmasının qarşısının alınması məqsədilə onlara məcburi nişanlama kodunun və digər qoruyucu elementlərin vurulması məqsədilə hazırlanıb. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin üzvü İlham Məmmədov Əmək Məcəlləsində, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Təhsil haqqında”, “Məktəbəqədər təhsil haqqında”, “Peşə təhsili haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Ümumi təhsil haqqında” qanunlarda dəyişiklik edilməsi barədə sənədi təqdim edib. İkinci oxunuşdan sonra qanun layihəsi üzərində heç bir düzəlişin aparılmadığı diqqətə çatdırılıb. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda təqdim edərkən vurğulayıb ki, Məcəlləyə yeni 192.12-ci maddə əlavə olunur. Əlavəyə əsasən, qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlanılmasına görə vəzifəli şəxslər üç min manat məbləğində cərimə olunacaqlar. Sənəd səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “Publik hüquqi şəxslər haqqında” qanunda dəyişiklik edilməsi barədə sənədlə əlaqədar məlumatında qeyd edib ki, təklif olunan dəyişikliyə əsasən publik hüquqi şəxsin təsisçisi onun strukturu və işçilərin say həddi ilə yanaşı, əməkhaqqı fondunun həcmini də təsdiq edəcək. Sənəd səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

Daha sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, üçüncü oxunuşda olan qanun layihələrinin müzakirəsi başa çatıb. Növbəti məsələ texniki xarakterli olduğu üçün bir oxunuşda qəbul ediləcək.

Sonra Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məlumat verib ki, "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihəsi "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 12 iyun tarixli Qanununun tətbiqi ilə əlaqədar irəli sürülüb. Belə ki, həmin Qanunla Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməklə Babək qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Babək qəsəbəsinə şəhər statusu, Cəhri kənd inzibati ərazi dairəsi tərkibindəki Cəhri kəndinə qəsəbə statusu, Nehrəm kənd inzibati ərazi dairəsi tərkibindəki Nehrəm kəndinə qəsəbə statusu verilib. Bununla əlaqədar olaraq “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda uyğunlaşdırma məqsədilə dəyişiklik edilməsi zərurəti yaranıb. Dəyişikliklər texniki xarakter daşıyır.

Layihə səsə qoyularaq qəbul edilib.

Sonra Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə Komitəsinin sədri Ziyafət Əsgərov “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) məlumat verib. Bildirib ki, bu dəyişiklik hərbi sahədə kadr hazırlığının keyfiyyətinin daha da artırılmasına xidmət edir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda ayrı-ayrı məsələlərin müzakirəsi zamanı deputatlar Qüdrət Həsənquliyev, Fazil Mustafa, Arzu Nağıyev və Aydın Mirzəzadə çıxış edərək fikirlərini bildiriblər.

Sonra millət vəkilləri "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsini ikinci oxunuşda müzakirə etdilər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov qeyd edib ki, bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasında insan orqanlarının və toxumalarının (bundan sonra - orqanlar) donorluğunun və onların transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, orqan transplantasiyası sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin və tibb işçilərinin hüquqlarını və vəzifələrini müəyyən edəcək, bu sahədə yaranan münasibətləri tənzimləyəcək. Komitə sədri layihənin birinci oxunuşu zamanı deputatların qaldırdıqları məsələlərə münasibət bildirib.

Müzakirələr zamanı çıxış edən deputatlar Razi Nurullayevin və Etibar Əliyevin fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Bununla da Milli Məclisin bugünkü iclası başa çatıb.

**AZƏRTAC**

**Prezident: Fərq ondadır ki, bu müharibə Azərbaycan xalqı üçün azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir**

[00:33] 16.10.2020

Bilirsiniz, hər bir müharibə qəddarlıq, qurbanlar, insanların iztirabları, yaxın adamların itirilməsi deməkdir. Fərq ondadır ki, Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir. Heç kəs üçün gizli deyil və bu faktı artıq beynəlxalq vasitəçilər də bilir ki, qondarma "Dağlıq Qarabağ ordusu" yoxdur. Bu gün erməni tərəfin belə adlandırdığı birləşmədəki hərbi qulluqçuların 90 faizi Ermənistan vətəndaşıdır. Onlar hərbi xidmətə Ermənistanın hərbi komissarlıqları tərəfindən çağırılır və Azərbaycanın işğal edilmiş ərazilərinə - Ağdama, Füzuliyə, Cəbrayıla, Kəlbəcərə, Qubadlıya, Laçına, Zəngilana göndərilir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibəsində bildirib.

"Bu gün Ermənistanın işğalçı qüvvələri Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərindədir. Buna heç nə ilə haqq qazandırmaq olmaz - istər beynəlxalq hüquq baxımından, istərsə də bəşəri əxlaq baxımından. Başa düşürsünüzmü, 30 il ərzində azərbaycanlıların öz əzəli torpaqlarına buraxılmaması siyasətini yürütmək mümkün deyil. Axı, erməni əhalisi bu ərazilərdə heç vaxt yaşamayıb. Başqa bir məsələ də var ki, orada hər şey dağıdılıb, oraya qayıtmaq üçün çox böyük qüvvə və vaxt sərf etmək lazımdır. Ermənilərin bu siyasətinə heç cür haqq qazandırmaq olmaz. Ona görə ki, bizim hərbi qulluqçular Azərbaycan torpağında döyüşür və həlak olur. Erməni hərbi qulluqçular isə onların hökumətinin işğal altında saxlamaq istədiyi torpaqda həlak olurlar", - deyə dövlətimizin başçısı əlavə edib.

Tarixdə rol məsələsinə münasibət bildirən Prezident İlham Əliyev deyib: "Mən əvvəllər heç vaxt, indi isə xüsusən bu barədə düşünməmişəm. Mənim əsas amalım Azərbaycan xalqının etimadını doğrultmaq, bu vəzifədə olduğum bütün illər ərzində verdiyim vədləri yerinə yetirmək və ölkəni inkişaf yolu ilə aparmaq, onun ərazi bütövlüyünü təmin etməkdir. Mənim rolumun gələcəkdə necə qiymətləndiriləcəyi isə artıq bizim nəyə nail olacağımızdan, Azərbaycan xalqının iradəsindən asılı olaraq müəyyən ediləcək".

**Vətəndaş məktubları: Cənab Prezident, biz Sizi sevirik, Sizə inanırıq və Sizi daim dəstəkləyirik**

[19:58] 16.10.2020

Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Ali Baş Komandan İlham Əliyevə məktublar yazmaqda davam edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Türkiyənin Balıkesir şəhərindən Mehmet Bingöl yazır: "Hörmətli cənab Prezident, bütün varlığımla, qəlbimin dərinliklərindən gələn hisslərlə qardaş Azərbaycana müqəddəs Vətən müharibəsində müzəffər olmasını arzulayır, işğal altında olan digər doğma torpaqların da tezliklə azad olunmasını, bu zəfərin uğurla başa çatmasını diləyirəm. Ürəyim cəbhə xəttində fədakarlıqla vuruşan qəhrəman Azərbaycan Ordusu ilə birlikdə döyünür. Qələmin iti, qılıncın kəskin olsun Azərbaycan!".

İstanbul şəhərindən Cemail Bakındı, Yusuf Kutlu, Ali Şahin, Yücəl Köksal, Taner Şener, Yusuf Erbaş, Murat Bakındı, Taner Şəkər, Mustafa Çelik, Metin Sav və Mustafa Öksüz yazırlar: "Hörmətli cənab Prezident, Azərbaycanın 30 ildir işğal altında olan torpaqlarını geri qaytarmaq üçün başladığı mübarizəni bütün qəlbimizlə dəstəkləyirik. Ürəyimiz "iki dövlət, bir millət" anlayışı ilə hər mübarizədə Sizin üçün döyünməkdədir. İşğal altındakı torpaqlar mütləq geri alınacaqdır. Başqa bir alternativ fikirləşmirik. Bu mübarizədə şəhid olan əsgərlərimizə Allahdan rəhmət diləyirik. Qələbə mütləq və mütləq Azərbaycanın olacaqdır. Bu münasibətlə Sizi Ali Baş Komandan kimi təbrik edirik. Azərbaycan varsa, Türkiyə var, Türkiyə varsa, Azərbaycan var. Türkiyə Hotel, Restoran, İstirahət Mərkəzləri İşçilərinin (TOLEYİS) Həmkarlar İttifaqının Ali Məclisinin üzvləri olaraq haqq mübarizənizi dəstəklədiyimizi bildiririk".

Rusiyanın Tula şəhərindən Asya Əliyeva: "Hörmətli Prezident İlham Əliyev, mən əslən Balakən rayonundan, milliyyətcə avar olan azərbaycanlıyam. Hazırda Rusiyada, Tula şəhərində yaşayıram. Xalqımıza verdiyiniz sevinc və qürur hislərini ifadə etmək üçün söz tapmaq çətindir. Həyəcanla Vətənimizdə baş verən hadisələri müşahidə edir, bu günlərdə həmvətənlərimlə bir sırada olmadığıma görə təəssüf edirəm.

Rusiya mətbuatı bəzən hadisələri öz marağı ətrafında təqdim edir, bəzən isə Ermənistan hakimiyyətini dəstəkləyir. Xalqımızın əzmi qarşısında bunların da əhəmiyyəti yoxdur. Artıq ermənilər itkiləri barədə məlumatları aldıqca mənən tükənirlər. Sizin savadınıza, intellektual və mədəni ifadə olunmaq bacarığınıza, ensiklopedik biliyinizə heyranıq, həmçinin Sizinlə qürur duyuruq. Ətrafımda olan rusların, digər millətdən olan insanların da Sizdən təsirləndiyini görürük. Sizinlə və Vətənimizlə fəxr edirik. İnşallah, qələbə bizim olacaq. Dualarımız Sizinlədir".

Lerik rayonunun sakini Eldar Əliyevin məktubunda deyilir: "Hörmətli cənab Prezident, Sizinlə fəxr edirəm. Siz başda olmaqla, şanlı Ordumuzun qazandığı zəfərlərə görə təşəkkür edirəm. Qoy şəhidlərimizin qanı yerdə qalmasın, torpaqlarımız mənfur düşmən tapdağı altında qalmasın. Azərbaycan Ordusu ilə qürur duyuram. Sizə və Ordumuza güvənirik. Nə yaxşı ki, belə mərd, qorxmaz igidlərimiz var. Cənab Prezident, iki oğlum, beş qızım var. Hazırda bir oğlum - Qurbanəli Əliyev ön cəbhədə döyüşür. Mən bütün əsgərlərimizlə fəxr edirəm. Allah onların hamısını qorusun! Lazım gələrsə, özüm də və o biri oğlum da Vətən uğrunda döyüşməyə hər an hazırıq. 1992-1993-cü illərdəki hadisələri, namərd qonşumuzun, düşmənlərimizin dinc əhalimizin başına gətirdiyi müsibətləri, Xocalıda törətdikləri qətliamı ürək ağrısı ilə xatırlayırıq. İnanırıq ki, o zaman həlak olan günahsız insanların qanı yerdə qalmayacaq. Qüdrətli Ordumuzun sayəsində onların intiqamı alınacaq. Qoy ulu öndər Heydər Əliyevin ruhu şad olsun ki, övladı İlham Əliyev Qarabağ torpaqlarını düşməndən azad edir. Eşq olsun Azərbaycan Prezidentinə! Qarabağ Azərbaycandır!".

Bakı şəhərinin sakini Kürdoğlu Əsgərov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, işğal olunmuş torpaqlarımızın Sizin qüdrətli və yüksək komandanlğınızla müzəffər Ordumuz tərəfindən azad olunması və düşmənə sarsıdıcı zərbələr endirilməsi hər bir Vətən övladı kimi mənim də ürəyimi dağa döndərir. Biz hazırda erməni əsirliyində olan Dilqəm Əsgərovun ailəsi adından yazaraq ölkəmizin ərazi bütövlüyü uğrunda başlatdığınız əks-hücum əməliyyatına görə Sizi alqışlayırıq və hər zaman Sizinlə həmrəy olduğumuzu bildiririk. Bütün torpaqlarımızın yağı düşmən tapdağından azad olunacağına, əsirlikdə olan bütün həmvətənlərimizin və atamın azad olunaraq öz doğma yurdlarına dönəcəklərinə əminəm. Fürsətdən istifadə edərək bildirirəm ki, biz də Kəlbəcər rayonundan didərgin düşərək məcburi köçkün həyatı yaşayırıq. Sizin hər bir Azərbaycan vətəndaşının prezidenti olacağınız barədə dediyiniz fikirlər sadə bir vətəndaş olan bizim də həyatımızın bəzəyi olmuşdur. Belə ki, atamın icarəyə götürdüyü ərazidə

mülkiyyətə dəymiş zərərə görə kompensasiya ödənilməsi barədə Sizə ünvanladığımız müraciətimizə də həssas yanaşılmış və problem həllini tapmışdır. Bu, Sizin hər bir Azərbaycan vətəndaşına göstərdiyiniz diqqət və qayğının təzahürüdür. Cənab Prezident, Allahdan Sizə cansağlığı və haqq yolunda qələbə arzulayırıq! Qarabağ Azərbaycandır!".

Bakı sakini Dəniz Babayeva: "Hörmətli cənab Prezident, bu məktubu Sizə Zəngilan rayonundan məcburi köçkün olan Babayev Elnur Vidadi oğlunun qızı Dəniz Babayeva yazır. Hazırda ailəmiz Nərimanov rayonu, Böyük Şor qəsəbəsi, 4 nömrəli trestin binasında müvəqqəti məskunlaşıb. Mən isə həmin rayonun 73 saylı tam orta məktəbinin 6-cı sinif şagirdiyəm. Əziz Prezidentimiz, mən torpaqlarımızın bir hissəsinin işğaldan azad edilməsi münasibətilə Sizi təbrik edirəm. İnanıram ki, işğal altında olan bütün torpaqlarımız düşmən tapdağından azad olunacaq və bütün məcburi köçkünlər kimi bizim ailəmiz də öz doğma yurd-yuvasına qayıdacaq. Biz Sizi sevirik, Sizə inanırıq və Sizi daim dəstəkləyirik. Yaşasın bizi qələbədən-qələbəyə səsləyən ər sərkərdəmiz İlham Əliyev! Yaşasın şanlı Ordumuz! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

Ağdam rayonundan Səfalı Bağırov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, mən, Ağdam rayonu Muğanlı kənd sakini, məcburi köçkün Bağırov Səfalı Rizvan oğlu həm öz adımdan, həm də bütün ağdamlılar adından Sizə təşəkkürümü bildirirəm. Erməni təxribatları səbəbindən başlanan əks-hücum əməliyyatlarında Ulu Tanrı Sizə və Ordumuza yar olsun. Amin. Mən öz növbəmdə, bu günlərə, Sizin kimi Ali Baş Komandana və qüdrətli Azərbaycan Ordusuna görə ulu öndərimiz Heydər Əliyevin o böyük ruhu qarşısında baş əyirəm. Allah Ulu Öndərimizə və bütün şəhidlərimizə rəhmət etsin. Cənab Prezident, Sizə möhkəm cansağlığı və böyük zəfər arzu edirəm".

Bakı şəhər sakini İntizam Məmmədov: "Hörmətli Prezidentimiz, mən Ordumuzun qələbələrinə çox sevinirəm. Anam isə sevincindən ağlayır. Əziz Prezidentimiz, mən də əsgər olmaq istəyirəm. 12 yaşında olmağıma baxmayaraq, mən də ön cəbhəyə getmək, Vətən uğrunda döyüşmək istəyirəm. Şəhidlərimiz tarixə düşür, mən də tarixə düşmək istəyirəm. Vətənimi, Azərbaycanı anam qədər sevirəm. Qardaşlarımı vuruşan görəndə, mən də onların yanında olub, kömək etmək istəyirəm. Bunun üçün mən balaca deyiləm. Erməniləri Sizin dediyiniz kimi, "iti qovan kimi" qovmaq istəyirəm. Mən Vətənimi sevirəm! Mən torpağımı sevirəm! Mən Prezidentimi sevirəm!".

Balakən rayon sakini Qahirə Balayeva: "Hörmətli cənab Ali Baş Komandan, mən bu məktubu Sizə yazmaya bilməzdim. Cənab Prezident, uzun illərdir ki, düşmən tapdağında olan torpaqlarımız bu gün Sizin qətiyyətiniz nəticəsində geri alınır. Sizə bu çətin və şərəfli işinizdə uğurlar arzu edirəm. Sizin hər dəfə televiziyada çıxışlarınızı izləyərkən evdə ailəlikcə sevinir və bir daha qürur duyuruq ki, dünya liderləri arasında tanınan, sözünü kəskin deyə bilən Prezidentimiz var. Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirəm. Arzu edirəm ki, Siz daim bizim dövlətimizin rəhbəri olasınız. Sizin alternativiniz yoxdur. Biz Sizinləyik! Allah Sizi və Ordumuzu qorusun! Qarabağ Azərbaycandır!".

Lənkəran sakini Rza Rzayev dövlətimizin başçısına yazır: "Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə qüdrətli Ordumuzun işğal olunmuş torpaqlarımızı azad etməsi xəbərləri bütün vətəndaşlar kimi biz ruhanilərin də böyük sevincinə səbəb oldu. Rəşadətli Ordumuzun bu minvalla Şuşada üçrəngli bayrağımızı dalğalandıracağı gün çox yaxındadır. Cənab Prezident, ehtiyac yaranarsa, biz ruhanilər də müqəddəs torpaqlarımızın mənfur düşmənin tapdağından azad edilməsi uğrunda canımızla, qanımızla döyüşməyə hazırıq. Sizin kimi Ali Baş Komandanımız olduğuna görə fəxr edirik. Bu haqq işimizdə Allah Sizi, millətimizi və dövlətimizi qorusun!".

Gəncə şəhərindən Tərlan Ələsgərova: "Hörmətli cənab Prezident, Sizin kimi dahi rəhbəri Azərbaycana bəxş edən Heydər Əlirza oğlunun ruhu şad olsun! Sizin apardığınız uğurlu daxili və xarici siyasət nəticəsində dövlətimiz güclənmiş, ölkəmiz çiçəklənmiş və xalqımızın rifahı yüksəlmişdir. Son illər Ordumuzu gücləndirmək istiqamətində apardığınız işlər bu gün öz bəhrəsini verməkdədir. Şanlı Ordumuz işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda böyük zəfərlər qazanır. Cənab Ali Baş Komandan, Siz Qarabağ daxil olmaqla bütün Azərbaycanın bayraqdarısınız! Gün o gün olsun ki, üçrəngli bayrağımız Şuşaya sancılsın!".

Xocalı sakini Vəsilə Məhərrəmova: "Möhtərəm cənab Prezident, mən Xocalı şəhərindən məcburi köçkün düşmüş və hər iki valideynini itirmiş 25 nəfərdən olan bir şəhid qızı kimi bizə indiyə qədər göstərdiyiniz qayğı və diqqətə görə həmişə Sizi öz arxamızda hiss etmişik. İndi də biz hər iki valideynini itirmiş uşaqlar olaraq Sizin arxanızdayıq. Sizin bu çətin anlarda xalqa müraciətinizə baxaraq həsrət göz yaşlarımız sevinc göz yaşları ilə əvəz olunur. Sizinlə hər zaman qürur duyuruq və fəxr edirik. İnşallah, Sizin yürütdüyünüz siyasət nəticəsində tezliklə Xocalımıza, Şuşamıza, Laçınımıza və bütün Qarabağımıza

qovuşacağıq, şəhidlərimizin qanı yerdə qalmayacaq və bayrağımızı Sizin sayənizdə Qarabağımızda dalğalandıracağıq. Siz bizim inandığımız və arxalandığımız Prezidentimizsiniz. Siz bizim qüdrətli Ali Baş Komandanımızsınız. Qarabağ Azərbaycandır!”.

Füzuli rayon sakini Mədinə Quluzadə: “Cənab Ali Baş Komandan, son günlərdə gedən Qarabağ müharibəsində əldə edilən uğurlara biganə qala bilmədim. Əldə etdiyimiz uğurlara görə öz təşəkkürümü və sevincimi Sizə bildirmək istədim. Ata-babalarımızdan eşidib də görmədiyimiz o doğma yurdumuzun xəyalı ilə keçirdiyimiz günlər Sizin və ordumuzun sayəsində artıq geridə qalır. Cəbhədən gələn sevincli xəbərlərin davamında öz yurdum Füzulinin, ardınca isə bütün Qarabağın işğaldan azad olunması xəbərini Sizdən duymağı səbirsizliklə gözləyirəm. Füzuli rayonunda ön cəbhədə necə həvəslə və qürurla döyüşən əsgərlərimizi, arxa cəbhədə isə hər an təhlükə ilə üzbəüz qalmalarına baxmayaraq, yerli əhalinin ordumuza verdiyi dəstəyi gördükdə qürurlanmamaq mümkün deyil. Bütün qarabağlılar öz torpaqlarının düşmən tapdağından azad ediləcəyi anı səbirsizliklə gözləyir və bu anın çox da uzaqda olmadığına inanırlar. Sizə və ordumuza bütün qəlbimizlə güvənir, 30 ildir həsrətində olduğumuz torpaqlarımıza qısa zamanda qovuşacağımıza inanırıq. Biz əminik ki, Sizin və rəşadətli ordumuzun sayəsində şəhidlərimizin qanının bir damlası belə yerdə qalmayacaq. Qarabağ Azərbaycandır! Sayənizdə bütün dünya tez bir zamanda bunu görəcək və dərk edəcək!”.

Sumqayıt şəhərindən Vüqar Məmmədov: “Cənab Ali Baş Komandan, ölkəmiz Sizin rəhbərliyiniz altında bir çox uğurlar əldə etmiş, böyük inkişaf yolu keçmişdir. Hazırda isə Siz xalqımızın şanlı tarixinin ən parlaq səhifəsini yazmaqdasınız. Müzəffər ordumuzu qələbədən qələbəyə apardığınız bir dönəmdə Sizə möhkəm cansağlığı və bol uğurlar arzulayıram. Sizin komandanlığınızla şanlı ordumuzun və bütün xalqımızın apardığı bu Vətən savaşının böyük qələbə ilə bitəcəyinə, gələcək nəsillərin sülh və firavanlıq şəraitində yaşayacağına tam əminik. Hər bir Azərbaycan vətəndaşı kimi, mən də Sizin müsəlləh əsgərinizəm. Allah bu haqq işində Sizin yardımçınız olsun. Qələbə bizimlədir! Qarabağ-Azərbaycandır!”.

Beyləqandan Məmməd Məmmədov: “Hörmətli cənab Prezident İlham Əliyev, bu gün Azərbaycan xalqının igid oğulları coşqun ruh yüksəkliyi ilə Qarabağı düşmən işğalından azad etmək üçün Sizin ətrafınızda birləşərək vuruşurlar. Sizin ardıcıl, dönməz iradəniz sayəsində 27 ildən sonra Qarabağın düşmən işğalından azad olunması gününü gördüm. Suqovuşanda, Cəbrayılda üçrəngli bayrağımız dalğalandığı üçün sevincimin həddi-hüdudu yoxdur. Sizin kimi dəyanətli, qətiyyətli dövlət başçımız, Prezidentimiz olduğu üçün özümüzü çox qürurlu hiss edirik. Son günlər cəbhədən gələn zəfər xəbərlərinə görə xalqımız adından Sizə dərin minnətdarlığımı bildirirəm. Cəsarətli Ali Baş Komandan, verdiyiniz qələbə xəbərlərinə görə Sizə təşəkkür edirik, uzun ömür, cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayırıq! Qarabağ Azərbaycandır!”.

Masallı sakini Əlipənah Əhədov: “Möhtərəm cənab Prezident, Ali Baş Komandan, Sizin simanızda polad, iradə, qəhrəmanlıq görürəm və Sizinlə qürur hissi keçirirəm. Siz bəşəri və milli-mənəvi dəyərlərə sadiqliyinizi sözdə deyil, əməli işdə dünyaya nümayiş etdirdiniz. Sülhsevərliyin, humanizmin bəşəriyyətin ən böyük dəyəri olduğunu, dünyada sülhün bərqərarlığının vacibliyini müsahibələrinizdə bütün dünyaya bəyan etdiniz. Allahdan bu şərəfli işinizi başa çatdırmaq üçün Sizə uzun ömür, cansağlığı və Qələbə arzulayıram”.

Xaçmaz sakini Ramin Abbasov: “Çox hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizə bu məktubu yazan Xaçmaz şəhəri, Fikrət Əmirov küçəsi, ev 9-da yaşayan Abbasov Ramin Abbas oğludur. Mən hazırda təqaüddəyəm, ehtiyatda olan zabitəm. Vaxtilə kifayət qədər hərbi təlim keçmişəm. Vətənimin bu ağır günündə zabit və ya sıravi əsgər kimi könüllü olaraq ordumuzun sıralarına qoşulmaq üçün bir neçə dəfə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz rayon şöbəsinə müraciət etmişəm. Hələ ki, mənə ehtiyac duyulmur. Amma, hər zaman cəbhəyə yollanmağa özümü hazır hesab edirəm. Cənab Prezident, Siz xalqımızın başını ucaltdınız, düşmənlərimizin önündə bizi məğrur etdiniz. Hər zaman yüksəklərdə olasınız. Sizə Qələbə yaraşır!”.

Bakı şəhər sakini Xalidə İmanova: “Hörmətli, cənab Prezident, Sizə minnətdarlıq hissi bildirən 76 yaşlı nənədir. Torpaqlarımızı qarış-qarış bizə qaytardığınız və qaytarmaqda davam etdiyiniz üçün Sizin komandanlığınız altında Azərbaycan Ordusunu Uca Yaradan qorusun. Artıq Füzuli qaçqını deyil, daimi Füzuli sakiniyəm. Mənə böyürtkən yığdığım yerləri qaytardığınız üçün Sizə və Orduma minnətdaram. Qarabağda görüşərik Sizinlə. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan Ordusu!”.

**Cəbhədə son vəziyyət**

[07:54] 20.10.2020

Oktyabrın 19-u gün ərzində və 20-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

Eyni zamanda məlum olub ki, Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri kapitan Vahab Asetryan da zərərsizləşdirilib.

Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində 2-ci motoatıcı alayın müdafiə sahəsində düşmənin bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib.

5-ci motoatıcı alayın müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Yaralılar arasında bölük komandiri Norik Ağakelyanın da olduğu bildirilir.

18-ci motoatıcı diviziyasının müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət “Legion” dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina edib. Məlum olub ki, ağır itkilərə məruz qalan bu dəstələr onlara tapşırılmış müdafiə sahələrində tab gətirməyərək kütləvi şəkildə fərarilik edir.

Bundan əlavə, 10-cu dağatıcı diviziyanın müdafiə zolağına gətirilmiş kəşfiyyat bölüyü də canlı qüvvə baxımından itkilərə məruz qalıb. Şəxsi heyətin üçdə ikisini itirən bölmə mövqeləri ataraq geri çəkilməyə məcbur edilib.

Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.

246-ci alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Ğazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilib.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Zəngilan şəhəri və rayonun 6 kəndi, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndi işğaldan azad edilib**

[15:15] 20.10.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də xalqa müraciətində işğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını açıqlayıb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı aşağıdakı yaşayış məntəqələrinin azad olunduğunu bildirib:

**Füzuli rayonu:** Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri.

**Cəbrayıl rayonu:** Sarafşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri.

**Xocavənd rayonu:** Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng kəndləri. Vəng kəndinə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

**Zəngilan rayonu:** Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

**AZƏRTAC**

**Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib**

[14:50] 20.10.2020

Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.

**Prezident İlham Əliyevin müraciəti**

- Əziz həmvətənlər, müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq.

Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram. Hər bir kəndin, hər bir şəhərin, hər bir strateji yüksəkliyin işğalçılardan azad edilməsi böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb edir. Bizim hərbçilərimiz şəhid olurlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimiz həmişə bizim qəlbimizdə yaşayacaq. Bizim hərbçilərimiz döyüş meydanında yaralanırlar. Allah bütün yaralı hərbçilərimizə şəfa versin! Eyni zamanda, mənfur düşmən bizim yaşayış məntəqələrimizi daim atəşə tutur, hər gün cəbhəboyu şəhərlərimiz, kəndlərimiz mənfur düşmənin atəşinə məruz qalır. Bu namərd atəşə ən çox məruz qalan Tərtər rayonudur, eyni zamanda, Ağdam, Goranboy, Ağcabədi, Bərdə, digər şəhər və rayonlarımız düşmən tərəfindən atəşə tutulur. Gəncə şəhərinə namərd zərbələr nəticəsində dinc əhali həlak olur - uşaqlar, qadınlar, qocalar. Düşmən üçün bunun fərqi yoxdur. Belə bir fərq onlar üçün mövcud deyil. Onlar döyüş meydanında məğlubiyyətə uğrayır, Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmir və bizi durdurmaq üçün, bizə zərbə vurmaq üçün bütün dünyanın gözü önündə mülki əhaliyə qarşı cinayət törədir. Bütün dünya görür ki, Azərbaycan hansı mənfur, vəhşi düşməndən öz doğma torpaqlarını azad edir. Otuz il ərzində bizim torpaqlarımızda oturub bizə meydan oxumağa çalışırdı. Otuz il ərzində bizim torpaqlarımızı istismar edirdi, bizim təbii resurslarımızı istismar edirdi, oğurluq, talançılıq onların xislətidir. Dağıdılmış kəndlərin, şəhərlərin vəziyyətinə baxmaq kifayətdir, hər kəs görsün ki, bizim qarşımızda hansı vəhşilər dayanıb. İşğal olunmuş və artıq azad edilmiş torpaqlarda bir dənə də salamat bina qalmayıb. Bütün binalar sökülüb, talan edilib, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz dağıdılıb, talan edilib, təhqir edilib. Onlar hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Onlar hesab edirdilər ki, bu torpaqları əbədi işğal altında saxlayacaqlar. Onlar bizim şəhərlərimizin adlarını dəyişdiriblər, rayonlarımızın sərhədlərini dəyişdiriblər, kəndlərimizin adlarını dəyişdiriblər, bizim torpaqlarımızı erməniləşdirmək istəyiblər, amma buna nail ola bilmədilər, Azərbaycan xalqının iradəsini qıra bilmədilər.

Öz doğma dədə-baba torpaqlarını görməyən, işğaldan sonra dünyaya göz açan hər bir azərbaycanlı bir arzu ilə yaşayıb ki, doğma dədə-baba torpaqlarına qayıtsın. Biz bunu Cocuq Mərcanlının timsalında gördük. İşğaldan sonra doğulmuş gənclər, onların hər biri Cocuq Mərcanlıya qayıtmaq arzusu ilə yaşayıb və qayıdıbdır. Əminəm ki, bu gün işğalçılardan azad edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşları qayıdacaqlar. O torpaqlarda yaşayacaqlar, sülh, əmin-amanlıq şəraitində yenə də qurub-yaradacaqlar. Necə ki, vaxtilə bizim işğal edilmiş bütün torpaqlarımızda Azərbaycan xalqının mədəni irsi yaradılıbdır. Amma mənfur düşmən bu irsi məhv etmək istəyirdi, bizim məscidlərimizi dağıdırdı. Biz Çocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzərini inşa edəndə və onun açılışında demişdim ki, məscidlərin binalarını onlar dağıda bilərlər, amma bu məscidləri biz öz qəlbimizdə yaşadırıq və gün gələcək bizim dağıdılmış bütün məscidlərimiz bərpa ediləcəkdir, bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, Azərbaycan vətəndaşları işğal olunmuş və azad edilmiş torpaqlara qayıdaraq rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaqdır.

Bizim məcburi köçkünlərimiz bütün bu illər ərzində bir arzu ilə yaşayıblar, baxmayaraq ki, onların bir çoxları üçün gözəl şərait yaradılıb və bildiyiniz kimi, təkcə bu il biz məcburi köçkünlər üçün 7 min mənzilin istifadəyə verilməsini nəzərdə tuturuq. 300 mindən çox məcburi köçkünə evlər, mənzillər verilibdir. Onlar bu qayğıya görə bizə minnətdarlıq edirlər və mənim onlarla çoxsaylı görüşlərimdə bunu ifadə edirdilər. Ancaq, eyni zamanda, mən bilirdim və onlar mənə deyirdilər ki, bizi qaytarın, öz

torpağımıza qaytarın. Başa düşürdülər ki, bu, çətin məsələdir, başa düşürdülər ki, bunun üçün müəyyən geosiyasi şərait yetişməlidir. Mənə inanırdılar və mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq, mən deyirdim ki, bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır. Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik.

30 ilə yaxın aparılan danışıqlar heç bir nəticə vermədi. İşğal edilmiş torpaqlarda Ermənistan tərəfindən qurulmuş istehkamlar onu göstərir ki, onlar bu torpaqları bizə vermək fikrində deyildilər. Sadəcə olaraq, bizi və beynəlxalq vasitəçiləri aldadırdılar. Sadəcə olaraq, vaxtı uzadırdılar və bununla bərabər işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparırdılar, Laçın şəhərində minlərlə insanı yerləşdiriblər, Kəlbəcərdə minlərlə insanı yerləşdiriblər. Bu gün işğaldan azad edilmiş torpaqlarda da - Füzuli, Cəbrayıl və digər rayonlarımızda da onlar bizim kəndlərimizdə yaşayıblar. O kəndlərin böyük hissəsi dağıdılıb, ancaq bəzi evlərdə onlar bizim torpağımızda yaşayıblar. Azərbaycanlılara qarşı etnik təmizləmə aparmaq, azərbaycanlılara qarşı soyqırımı törətmək, bizim vətəndaşlarımızı doğma torpaqdan didərgin salmaq və ondan sonra “referendum” keçirmək tamamilə insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Heç kim qondarma “Dağlıq Qarabağ respublikasını” tanımayıb. İndi onlar əlləşirlər, vurnuxurlar ki, dünya ölkələri qondarma kriminal qurumu tanısınlar. Ağıllarını itiriblər, başa düşmürlər ki, heç kim bunu etməyəcək, başa düşmürlər ki, bunu edən hər bir ölkə artıq Azərbaycan üçün dost ölkə sayıla bilməz. Nəinki dost ölkə, bu ölkə ilə biz bütün əlaqələri kəsəcəyik. Amma onlar ağılını itiriblər. Bu gün çalışırlar ki, status-kvonu bərpa etsinlər. Mən demişəm, status-kvo yoxdur. Status-kvonu biz məhv etmişik və düz də etmişik. 30 ilə yaxın gözləmişik. On il bundan əvvəl Minsk qrupunun həmsədrləri, onların prezidentləri səviyyəsində açıqlama verilmişdir ki, status-kvo qəbuledilməzdir. Biz də bunu dəstəklədik, biz bunu bəyəndik və bizdə böyük ümidlər yarandı, ondan sonra danışıqlar masasında əldə edilmiş müəyyən tərəqqi bizim ümidlərimizi artırdı. Amma sən demə, mənfur düşmən, sadəcə olaraq, bizi və beynəlxalq aləmi aldadırdı. Bu, beynəlxalq vasitəçilərə hörmətsizlikdir.

Biz döyüş meydanında güc göstərərək status-kvonu dəyişdirdik. Mən bunu bu toqquşmalardan əvvəl demişdim, bir neçə dəfə demişdim, bu gün əfsuslar olsun ki, beynəlxalq münasibətlərdə beynəlxalq hüquq işləmir. Əgər işləsəydi, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi çoxdan icra edilərdi. Biz iyirmi il gözləyirdik ki, bu qətnamələr icra edilsin. Onlar, sadəcə olaraq, kağızda qaldı. Nə üçün? Çünki siyasi iradə göstərilmədi, bu qətnamələrin icra mexanizmi müəyyən edilmədi. Mənfur düşmən hesab etdi ki, o, bundan sonra da buna məhəl qoymaya bilər. Bundan sonra da beynəlxalq hüququ əzə bilər. Bundan sonra da bizim torpaqlarımızda istənilən çirkin əməllər törədə bilər. Biz onları məcbur etdik. Bax, bizim yumruğumuz, sadəcə olaraq, düşmənin başını yaran yumruq deyil. Bizim yumruğumuz bizim birliyimizdir, xalqımızın birliyidir, məqsədyönlü fəaliyyətdir, beynəlxalq müstəvidə bizə sərf edən və ədaləti əks etdirən qərarların, qətnamələrin qəbul edilməsidir.

Mən görürdüm, bəzi hallarda bu hadisələrə qədər Azərbaycan vətəndaşları, o cümlədən köçkünlər hesab edirdilər ki, belə diplomatik uğurlar, əlbəttə, önəmlidir, ancaq onlar məsələnin həllini təmin etmir. Mən isə həmişə onlara izah edirdim ki, bu, beynəlxalq qanun çərçivəsində həll olunası bir məsələdir. Buna görə biz bütün aparıcı beynəlxalq təşkilatlarla işləməliyik ki, bu münaqişənin həlli üçün hüquqi bazanı genişləndirək. BMT Təhlükəsizlik Şurasının qətnamələri işləmirdi. Biz böyük səylər göstərdik, BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar qətnamə qəbul etdi. Avropa İttifaqı ilə bizim aramızda paraflanmış sənəddə də sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilir. Yəni, budur bu münaqişənin həlli üçün əsas. Ona görə bu gün artıq özünü lap dilənçi kimi, lap düşük kimi, - bağışlayın, ifadəmə görə, amma onlar hər bir ifadəyə layiqdirlər, - aparan Ermənistan rəhbərliyi gecə-gündüz bütün beynəlxalq təşkilatlara zəng edir, məktublar göndərir, bəyanatlar verir ki, niyə, səsinizi çıxarmırsınız? Onlar necə səsini çıxara bilərlər? Onlar artıq bu qətnamələri, bu qərarları qəbul ediblər və Azərbaycan döyüş əməliyyatını beynəlxalq birlik tərəfindən tanınan öz ərazisində keçirir. Biz Ermənistan ərazisində hər hansı bir əməliyyat keçirmirik, - bizim belə planlarımız yoxdur, - baxmayaraq ki, onlar Gəncəni Ermənistan ərazisindən iki dəfə bombalamışdılar. Biz cavab vermədik onların yolu ilə. Biz döyüş meydanında cavab verdik. Mən bildirmişdim ki, biz onların intiqamını döyüş meydanında alacağıq və alırıq. Biz şəhidlərimizin qanını yerdə qoymayacağıq və qoymuruq. Bax, beynəlxalq təşkilatlarda bizim fəaliyyətimizin əsas məqsədi o idi ki, bu hüquqi baza təkmil olsun, genişlənsin və biz buna nail ola bildik.

Ona görə, bu gün Ermənistan rəhbərliyi yaxşı fikirləşməlidir. Artıq bizim qarşımızda diz çöküb, onlara diz çökdürmüşük, onlara layiq olan yeri göstərmişik. Qovuruq onları bizim torpaqlarımızdan, bundan sonra da qovacağıq! Hər gün xoş xəbərlər gəlir. Hər gün bayrağımız yeni bir yaşayış məntəqəsində ucaldılır. Budur, Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücü. Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradırdı. Haradadır bu "yenilməz Ermənistan ordusu?". Görün, necə qaçır bizim qabağımızdan. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq. Otuz il bizi təhqir edirdi. Otuz il idi ki, işğal edilmiş torpaqlarda abidələrimizi dağıdırdı, tarixi-mədəni irsimizi silmək istəyirdi. Otuz il ərzində beynəlxalq aləm nə üçün sanksiya tətbiq etmədi təcavüzkar dövlətə qarşı? Mən dəfələrlə demişəm ki, sanksiyalar tətbiq edilməlidir. Bu ölkə, bu ölkənin rəhbərliyi öz xoşu ilə bu torpaqlardan çıxmaq istəmir. O, bizi aldadır, danışıqları imitasiya üçün aparır. Onlara inam yoxdur və mən haqlı çıxdım. İndi baxın orada qurulmuş istehkamlara. Belə istehkam quran ölkə, bu qədər oraya vəsait xərcləyən ölkə oradan çıxarmı? Çıxmaq istəsəydilər, bunu etməzdilər. Yəni, onların hər bir sözü yalandır. Bu gün də onların dövlətinin rəhbərləri gecə-gündüz yalan, uydurma yayırlar Azərbaycan haqqında, döyüş meydanında baş verən hadisələr haqqında. Sanki kimsə gəlib bizim əvəzimizə vuruşur. Azərbaycan xalqı, Azərbaycan gəncləri, Azərbaycan əsgəri onlara dərs verir. Təkbaşına vuruşuruq, hər kəs bunu bilir. Amma özlərinə sığışdıra bilmirlər, çünki miflər dağılır, miflər onların ideologiyasının əsasdır. Tarix haqqında yalan. Əfsuslar olsun ki, onu da indi bir çox ölkələrə qəbul etdirə biliblər, tarixi yalanı. Xocalı haqqında yalan, guya ki, Azərbaycan özü Xocalı soyqırımını törədib. Gəncənin bombalanması haqqında onların rəsmi nümayəndələri yalan bəyanat veriblər ki, Ermənistan bu raket atəşini təşkil etməyib. Nə vicdan var, nə əxlaq var, nə mənəviyyat var. Ağıl da yoxdur. Ağıl olsaydı deyərdilər ki, baxın, bu ballistik raketin start nöqtəsi və atış istiqaməti dünyada aparıcı ölkələr tərəfindən izlənilir, haradan atılıb, hara dəyib. Ballistika raketlərə döyüş tapşırığı verilir. O təsadüfən o yaşayış massivinə düşməmişdir. Gecə vaxtı, qəsdən. Amma ağıllarını itiriblər, guya, dünyanı aldatmağa davam edirlər ki, bəs kim atıb Gəncəyə bu raketi? Biz özümüzə atmışıq? Necə ki, yalan danışırdılar, Azərbaycan özü Xocalı soyqırımını törədib, indi də yalan danışırlar. Bütün dünyaya yalan danışır, bütün müsahibələrdə yalan danışır. Bu yalançıları biz bundan sonra da qovacağıq. Onlar gördülər ki, kim kimdir. Gördülər ki, biz onlara elə dərs veririk ki, bu dərsi heç vaxt unutmayacaqlar. İndi isə imdad diləyirlər. Ona-buna zəng edirlər, kömək edin, kömək edin! Bəs, hanı sənin "müzəffər ordun", hanı sənin "yenilməz ordun?!". Bizim üçün müqəddəs olan Cıdır düzündə Ermənistanın baş naziri sərxoş vəziyyətdə rəqs edirdi. Fikirləşməli idi ki, bu təhqir Azərbaycan xalqına necə təsir edə bilər? Amma hesab edirdi ki, heç kim onlara toxunmayacaq. Hesab edirdi ki, bütün ölkələr onları bundan sonra da müdafiə edəcək, dünya erməniliyi, erməni lobbiləri, ondan sonra onların bəzi dost ölkələri. Ona görə azğınlaşmışlar, ona görə qudurmuşlar. Onlara yerlərini göstərdik, onların başından elə zərbə vurduq ki, çətin ayılsınlar. Onların ordusunu, texnikasını demək olar ki, məhv etmişik. Qaçırlar, hələ qaçacaqlar.

Bir sözlə, döyüş meydanında bizim üstünlüyümüz artıq heç kimə sirr deyil. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, şəhidlər veririk, öz ərazi bütövlüyümüzü bərpa edirik. Bundan sonra da bu addımlar atılacaq. Ermənistan hələ nə qədər gec deyil bəyanat verməlidir ki, işğal edilmiş torpaqlardan çıxıram. Ondan sonra döyüşlər dayana bilər.

Mən hər dəfə xalqıma müraciət edərkən xoş xəbərlər çatdırıram. Eyni zamanda, demək olar ki, hər gün öz "Twitter" hesabımda, "Twitter" vasitəsilə işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adlarını çəkirəm. Mən bilirəm ki, Azərbaycan xalqı bu xəbərləri hər gün gözləyir, hər gün! Hər gün, hər saat ki, nə vaxt bu xəbər olacaq, nə vaxt bu xəbər çıxacaq? Amma istəyirəm, əziz xalqım bilsin ki, hər kəndin, hər yüksəkliyin götürülməsi böyük rəşadət tələb edir. Çünki təkcə orada qurulmuş istehkamlar deyil, eyni zamanda, azad edilmiş torpaqların hərbi relyefi də ermənilər üçün daha sərfəlidir. Çünki biz indi həm onların istehkamlarına, onların toplarına, onların raketlərinə qarşı, eyni zamanda, təbii relyefə qarşı vuruşmalıyıq və torpaqlarımızı işğalçılardan qarış-qarış azad edirik. Çox çətin məsələdir.

Gün gələcək, bu haqda geniş məlumat veriləcəkdir. Əminəm, Azərbaycan xalqı yaxşı başa düşür ki, bu gün nəyi demək mümkündürsə onu deyirik. Çünki döyüşlər gedir və biz istəyirik ki, tezliklə bu döyüşlər başa çatsın, tezliklə ərazi bütövlüyümüz bərpa edilsin. Ona görə hesab edirəm ki, Azərbaycan ictimaiyyətinə verilən məlumat və məlumatın həcmi tam kifayətdir.

Bu gün ənənəyə, gözəl ənənəyə sadiq qalaraq Azərbaycan xalqına yeni bilgilər vermək istərdim. Düşmənin məhv edilmiş və hərbi qənimət kimi götürülmüş texnikaları ilə bağlı məlumatı əziz xalqıma çatdırıram.

Beləliklə, düşmənin 241 tankı məhv edilib, 39 tank hərbi qənimət kimi götürülüb - toplam 280 tank. Amma yenə də hələ ki, tanklar var, həm işğal edilmiş torpaqlarda, həm Ermənistan ərazisində. Haradandır onlarda bu qədər tank? Bir də ki, bu, bütün bu məsələni tənzimləyən beynəlxalq konvensiyalara ziddir. Bəs bu konvensiyalara monitorinq aparmalı olan qurumlar niyə buna fikir verməyiblər? Bax, biz deyirik 241 tank məhv edilib. Biz sonra onların nümayişini təşkil edəcəyik. 39 tank saz vəziyyətdə götürülüb və bu gün bizim əsgərlərimiz o tanklarda oturub düşmənə onların öz tankları ilə atəş açırlar.

Piyadaların 50 döyüş maşını məhv edilib, 24-ü qənimət kimi götürülüb və bu gün bizim əlimizdədir. Özüyeriyən 17 artilleriya qurğusu məhv edilib, 198 top məhv edilib. 58 minaatan məhv edilib, 12 minaatan qənimət kimi götürülüb. 25 qumbaraatan hərbi qənimət kimi götürülüb. 53 tank əleyhinə vasitə məhv edilib. 70 "Qrad" qurğusu məhv edilib. İki "Uraqan", iki YARS (Yaylım Atəş Raket Sistemi) məhv edilib. Bir TOS məhv edilib. Dörd "S-300" zenit-raket kompleksi məhv edilib. Son dəfə mən bu məlumatı Azərbaycan ictimaiyyətinə çatdıranda iki "S-300" zenit-raket kompleksi məhv edilmişdi. Bu gün artıq dörd kompleks məhv edilib. Hər bir kompleksin, hər bir qurğunun qiyməti bəllidir, çox bahalı hərbi texnikadır. Üç TOR zenit-raket kompleksi məhv edilib. Qırxa yaxın OSA zenit-raket kompleksi məhv edilib. Beş KUB və KRUQ zenit-raket kompleksi məhv edilib. Altı pilotsuz uçuş aparatı, iki əməliyyat-taktiki raket kompleksi - "Elbrus", bir ballistik raket, bir "Toçka-U" raketi, səkkiz radioelektron mübarizə vasitəsi məhv edilib. 198 yük avtomobili məhv edilib. Onlardan 15-i sursatlarla dolu yük avtomobilləri idi. 102 yük avtomaşını hərbi qənimət kimi götürülüb. Biz düşmənin hərbi texnikasını bundan sonra da məhv edəcəyik. Olan-qalan da məhv ediləcəkdir.

İndi isə əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram.

Füzuli rayonu – azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.

Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.

Xocavənd rayonu – azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Əziz xalqım, əziz zəngilanlılar, füzulilər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq!

Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!

**AZƏRTAC**

**Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib**

[17:12] 20.10.2020

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".

**AZƏRTAC**

## Ali Məhkəmə Ermənistan ordusunun mülki şəxsləri hədəfə alması ilə bağlı bəyanat yayıb

[19:43] 20.10.2020

Azərbaycan Respublikasının Ali Məhkəməsi Ermənistan ordusunun dinc əhalini hədəfə alması nəticəsində mülki şəxslərin həlak olması və xəsarət alması ilə bağlı bəyanat yayıb.

Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda qeyd olunub ki, Ermənistanın silahlı birləşmələri oktyabrın 17-də gecə saatlarında öz ərazilərindən fəal hərbi zonadan təxminən 100 kilometr aralıda yerləşən, Azərbaycanın sıx məskunlaşmış əhalisi olan ikinci böyük şəhərinə - tarixi Gəncəyə yenidən raket zərbəsi endirib. Azərbaycanın mülki əhalisinə qarşı törədilən terror aktları nəticəsində 5-i uşaq olmaqla 15 mülki şəxs həlak olub, 57 nəfərdən çox insan müxtəlif dərəcəli bədən xəsarətləri alıb. İnsan itkisi ilə yanaşı, mülki infrastruktura ciddi şəkildə ziyan dəyib.

Azərbaycan hökuməti silahlı qüvvələrin mülki şəxslərə hücum etməsinə və mülki insanlara zərər vuran hücumlara qarşı mütləq bir qadağaya riayət etməsini tələb edən beynəlxalq humanitar hüququn əsas prinsipinə həmişə əməl etdiyini bildirir. Azərbaycan Silahlı Qüvvələri mülki əhaliyə qarşı deyil, əksinə, döyüş meydanında düşmənin hərbi hədəflərinə ciddi zərbələr endirmək öhdəliklərini bir daha təsdiqləyir.

Dağlıq Qarabağ bölgəsi və ona bitişik yeddi rayon üzərindəki beynəlxalq səviyyədə tanınmış sərhədlərini bərpa etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsinə tam uyğun olaraq özünümüdafiə hüququnun həyata keçirilməsi nəticəsində son həftələrdə Azərbaycanın Silahlı Qüvvələri Cəbrayıl, Füzuli və Zəngilan şəhərləri də daxil olmaqla, bir sıra şəhər və qəsəbələri erməni işğalından azad edib.

“Beynəlxalq ictimaiyyəti Gəncə şəhərinə və Azərbaycanın digər yaşayış məntəqələrinə qarşı törədilən terror aktlarını qətiyyətlə pisləməyə çağırırıq. İnsanlığa qarşı bu dəhşətli cinayətləri, o cümlədən 1992-ci ilin fevralında Xocalı şəhərində Azərbaycanın mülki əhalisinə qarşı misli görünməmiş soyqırımı törədənlər dərhal tutulmalı və ədalət mühakiməsinə cəlb olunmalıdırlar.

Ərazi bütövlüyünü bərpa etmək, Dağlıq Qarabağ və ona bitişik rayonları Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyan və Ermənistan silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələrinin müddəalarını həyata keçirən Azərbaycan hökumətinin səylərini dəstəkləyirik”, - deyə bəyanatda qeyd olunur.

Bəyanatı Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev imzalayıb.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir**

[19:33] 20.10.2020

Ötən müddət ərzində cəbhədə və dövlət sərhədi boyu müdafiə mövqelərimizi, eləcə də yaşayış məntəqələrimizi atıcı silahlarla və artilleriya vasitələri ilə atəşə tutan düşmən qüvvələri ordumuz tərəfindən darmadağın edilib. Ermənistan ordusu Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu, Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki döyüş mövqelərimizi, o cümlədən Goranboy, Tərtər və Ağdam rayonlarında yaşayış məntəqələrimizi artilleriya və iriçaplı silahlarla atəşə tutub. Atəş nəticəsində mülki şəxslərdən iki nəfər həlak olub, bir nəfər ağır yaralanıb. Ordumuz tərəfindən adekvat cavab tədbirləri görülüb.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 20-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Bildirilib ki, cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində itirdiyi mövqeləri bərpa etməyə cəhd edən düşmənə qarşı bölmələrimiz uğurlu əməliyyatlar yerinə yetirib. Artilleriya atəşləri ilə gücləndirilmiş bölmələrimizin xüsusi əməliyyatları nəticəsində düşmənin 1-ci, 2-ci, 5-ci və 246-cı alaylarının, eləcə də 10-cu dağatıcı, 18-ci motoatıcı diviziyalarının komandir heyəti və muzdlu döyüşçülər daxil olmaqla xeyli sayda canlı qüvvəsi məhv edilib və yaralanıb. Ümumilikdə düşmənin xeyli sayda canlı qüvvəsi, döyüş və avtomobil texnikası, artilleriya və zenit-raket qurğuları, silah və döyüş sursatları, əməliyyat-taktiki və ballistik raket qurğuları, yaylım atəşli, radioelektron mübarizə və tank əleyhinə vasitələri, o cümlədən S-300 tipli zenit-raket kompleksləri məhv edilib. Xeyli sayda silah-sursat, tank və artilleriya qurğuları ələ keçirilib.

Polkovnik-leytenant Anar Eyvazov qeyd edib ki, aparılan əməliyyatlar nəticəsində böyük itkilər verən düşmən bölmələri döyüşə girməkdən imtina edir, tutduqları mövqeləri tərk edib geriyə çəkilməyə məcbur olub. Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan rayonlarında bir neçə kənd və Zəngilan şəhəri uzunmüddətli işğaldan azad edilib. Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir. Düşmən qüvvələri itkilər verərək döyüş meydanından fərarilik edir, geriyə çəkilir.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, erməni mətbuatında düşmənin guya Xudafərin ərazisində əməliyyat keçirdiyi iddia edilir. Bildiririk ki, bu məlumatların hamısı yalandır. Ermənistan ordusu Xudafərin ərazisində əməliyyat keçirmək iqtidarında deyil və Xudafərini birdəfəlik unutmaları daha yaxşı olar.

Əməliyyatların gedişində Azərbaycan Ordusunun müasir silahları və döyüş texnikası yalnız düşmənin hərbi hədəflərinin məhv edilməsinə və preventiv tədbirlər çərçivəsində mülki əhalini hədəfə almış legitim hədəflərin dəqiq atəşlə məhv edilməsinə yönəldilib.

Brifinqdə media nümayəndələrinin diqqətinə çatdırılıb ki, bəzi sosial şəbəkə istifadəçilərinin əməliyyatlarla bağlı paylaşdığı şəxsi fikirlər məxfilik rejiminin pozulmasına və ən əsası hərbi qulluqçularımızın həyatına təhlükə yarada bilər. Bu məsələni nəzərə alaraq, bir daha sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini yalnız Ali Baş Komandanımızın ictimaiyyətə çatdırdığı məlumatlara və Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq.

"Sonda yeni uğurlar münasibətilə ordu rəhbərliyi adından xalqımızı bir daha təbrik edirik. Əmin edirik ki, ordumuz işğal altında qalan digər torpaqlarımızı da tezliklə və mütləq şəkildə azad edəcək. Qələbə bizimlədir", - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Azərbaycan ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsini və 13 kəndini işğaldan azad edib**

[20:24] 21.10.2020

Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

**Cəbhədəki son vəziyyət**

[08:51] 22.10.2020

Oktyabrın 21-i gün ərzində və 22-sinə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Qubadlı istiqamətində Ermənistan silahlı qüvvələrinin müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək vacib yüksəklik və bir sıra mövqelərdən geri çəkilməyə məcbur edilib.

Ermənistan silahlı qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan var. Onların təxliyəsi üçün nəqliyyat vasitəsinin çatışmazlığı və yolların bağlı olması məlum olub.

Hadrut qəsəbəsindən şimalda yerləşən düşmənin artilleriya bölmələrinə yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıb.

Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayın müdafiə sahəsinə endirilən artilleriya zərbələri nəticəsində düşmən ölən və yaralanan olmaqla çoxlu sayda itki verib. Alayın 3-cü taborunun komandiri Robert Hambartsumyan itkin düşüb, taborun qərargah rəisi isə məhv edilib. Yeraltı sığınacağın sıradan çıxarılması nəticəsində düşmənin şəxsi heyət arasında xeyli itki olub.

543-cü alayın müdafiə sahəsinə vurulan atəş zərəri nəticəsində şəxsi heyət arasında xeyli itki var. Alay komandiri yaralanıb, onun müavini, tabor komandiri Araik Hovakimyan, onun müavinləri, minaatan batareyası və bölüyünün komandirləri məhv edilib. 1-ci taborun bir bölüyünün şəxsi heyəti döyüşə girməkdən imtina edib.

Hazırda bütün cəbhə boyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**Prezident İlham Əliyev Türkiyənin Baş Ombudsmanını qəbul edib**

[10:07] 22.10.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçu qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonağı salamlayan **Prezident İlham Əliyev** dedi:

-Salam, xoş gəlmisiniz.

**Şərəf Malkoç**: Xoş gördük.

**Prezident İlham Əliyev**: Şadam ki, gəlmisiniz. İndiki şəraitdə sizin Azərbaycanda olmağınızın xüsusi mənası var. Bildiyiniz kimi, Ermənistan Azərbaycana qarşı növbəti təcavüz aktı törədib, növbəti terror aktı törədib. Həm bizim mülki vətəndaşlara, həm də hərbçilərimizə qarşı hərbi cinayət törədib. Bilirəm ki, siz səfər çərçivəsində Gəncə şəhərinə gedəcəksiniz. Orada özünüz görəcəksiniz ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Onlar döyüş meydanında bizim qarşımızda duruş gətirə bilmirlər və çalışırlar ki, bu acı məğlubiyyətin əvəzini dinc insanlardan çıxsınlar. Gəncəyə iki namərd hücum və Gəncə şəhərinin ballistik raketlərlə vurulması hərbi cinayətdir. Ermənistan rəhbərliyi bu cinayətə görə cavab verəcək. Bu, qəsdən törədilmiş cinayətdir. Məhz mülki əhalinin yaşadığı yerləri məqsədyönlü şəkildə atəşə tutublar. Bildiyiniz kimi, çoxlu itkilərimiz var, yaralılarımız var, o cümlədən uşaqlar, qadınlar, qocalar. Bu, bir daha erməni faşizminin yırtıcı mahiyyətini göstərir. Bu, bir daha göstərir ki, biz erməni faşizminin belini qırmaqla bölgəmizi böyük bəladan, böyük faciədən xilas etmiş oluruq.

Bununla bərabər, bizim bütün cəbhəboyu şəhərlərimiz və kəndlərimiz hər gün atəşə tutulur. Bu gün mənə verilən məlumata görə, səhər saat 6-dan 8-ə qədər təkcə Tərtər rayonuna 190 mərmi düşüb. Ağdam rayonuna 90-dan çox mərmi düşüb. Elə günlər var idi ki, Tərtər rayonuna 2 min mərmi düşüb. Yəni, onlar bizim şəhərlərimizi dağıtmaq istəyirlər, Azərbaycan xalqının iradəsini qırmaq istəyirlər. Ancaq buna nail ola bilmirlər və daha da çox azğınlaşırlar. Biz intiqamımızı döyüş meydanında alırıq. Biz heç zaman mülki əhaliyə qarşı heç bir addım atmamışıq və atmayacağıq. Baxmayaraq ki, onlar bizim qədim tarixi şəhərimizi – Gəncəni atəşə tuturlar, biz nə Ermənistan şəhərlərini, nə də ki, Dağlıq Qarabağda yerləşən şəhərləri atəşə tutmuruq və tutmayacağıq. Bizim üstünlüyümüz, bax, bu mənəvi dəyərlər çərçivəsində də bir daha özünü büruzə verir və bir daha bütün dünyaya göstərir ki, Ermənistan dünya üçün böyük təhlükədir. Ermənistanda hökm sürən kriminal faşist rejimi bölgəmiz üçün ən böyük təhdiddir və Azərbaycan bu təhdidin aradan qaldırılması üçün əlindən gələni edir. Hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün yeni şəhərləri, kəndləri işğalçılardan azad edirik. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını icra edir.

Sizin bu gün Azərbaycanda olmağınızın çox böyük mənası var. Bildiyiniz kimi, qardaş Türkiyə ilk saatlardan bizə öz dəstəyini göstərmişdir. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan, mənim əziz qardaşım ilk saatlardan bildirmişdir ki, Türkiyə Azərbaycanın yanındadır. Türkiyənin digər yüksək vəzifəli şəxsləri də buna oxşar bəyanatlar vermişlər. Türkiyə xalqı bizə öz dəstəyini göstərir. Türkiyə mətbuatında bu münaqişə geniş işıqlandırılır. Azərbaycanın haqq işi Türkiyə mətbuatı vasitəsilə dünyaya çatdırılır. Bunun da çox böyük önəmi var. Çünki əfsuslar olsun ki, bir çox ölkələrin mətbuatı birtərəfli qaydada Ermənistanın tərəfini tutur. Bu, böyük ədalətsizlikdir. Bu, saxtakarlıqdır. Bu, hadisələrin təhrifi deməkdir. Azərbaycanı işğalçı, yaxud da ki, təcavüzkar dövlət kimi təqdim etmək cəhdləri, əlbəttə, heç bir əsasa malik deyil. Ona görə, Türkiyə mətbuatının ilk günlərdən burada olması və döyüş bölgələrindən reportajların verilməsi dünyada da bu məsələ ilə bağlı düzgün məlumatın olmasına xidmət göstərir.

Bir də ki, biz bu illər ərzində beynəlxalq aləmə sübut edirdik və hesab edirəm, sübut edə bilmişik ki, biz haqlıyıq, biz işğala məruz qalmışıq. Bu gün işğaldan azad edilmiş şəhərlərin, kəndlərin mənzərəsi göstərir ki, biz hansı vəhşilərlə üz-üzəyik. O şəhərlərdə, o kəndlərdə, onların böyük əksəriyyətində bir dənə də salamat bina qalmayıb. Füzuli şəhərini tamamilə dağıdıblar. Bir salamat bina tapa bilmədik ki, orada Azərbaycan bayrağını qaldıraq və nəhayət, bu mərasim də keçirildi. Bütün kəndlərimizin binaları dağıdılıb, məscidlərimiz dağıdılıb. Dünən internetdə Zəngilanın bir kəndində dağılmış məscidin görüntülərini bütün dünya gördü. O məsciddə donuzlar saxlayıblar. Bizim məscidlərimizi təhqir ediblər. Bizim bütün tarixi abidələrimizi dağıdıblar. Evlərdən demək olar ki, yalnız daşlar qalıb. Bütün dam örtükləri, pəncərələr, əşyalar talan edilib.

Əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində xaricdən gələn dəstək hesabına onlar bizim torpaqlarımızı zəbt ediblər. İndi də, indiki şəraitdə də biz görürük ki, onlara xaricdən yardım edilir. Oraya muzdlular, pullu əsgərlər göndərilir. Oraya böyük silahlar göndərilir. Buna baxmayaraq, biz bu çirkin

rejimin belini qırırıq, qıracağıq. Haqq işimizi davam etdiririk, Türkiyə kimi qardaş ölkə yanımızdadır, hər zaman birlikdəyik. Bir daha sizə təşəkkür edirəm, xoş gəlmisiniz.

x x x

Türkiyənin Baş Ombudsmanı **Şərəf Malkoç** dedi:

-Xoş gördük, cənab Prezident. Çox sıx iş qrafikinizdə vaxt ayırıb bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik, sağ olun.

Azərbaycan torpaqları 30 ildir işğal altındadır. Bütün danışıqlara baxmayaraq, 30 il boyunca irəliləyiş olmadı. Ona görə Sizin bu gün apardığınız mübarizə bir haqq mübarizəsi, hüquq mübarizəsidir, insan haqları sahəsində bir mübarizədir - öz vətəninizdən işğalçıları qovmaq. Bu, beynəlxalq hüququn da, insan vicdanının da, insan əxlaqının da ən təbii və doğru haqqıdır. Siz bunu qeyri-adi dərəcədə gözəl həyata keçirirsiniz.

Sizin hər axşam neçə kəndin, neçə şəhərin işğaldan azad edildiyi barədə açıqlamalarınız bütün Türkiyədə insanların könlünə fərəh, sevinc gətirir.

Biz Türkiyə Ombudsmanı olaraq, eyni zamanda, İslam Ölkələri Ombudsmanları Assosiasiyasına sədrlik edirik.

**AZƏRTAC**

**Milli Məclisdə Xocavəndin Vəng kəndinin Çinarlı adlandırılması haqqında qanun layihəsinə baxılıb**

[13:14] 22.10.2020

Oktyabrın 22-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanın Xocavənd rayonunun Vəng kəndinin Çinarlı kəndi adlandırılması haqqında qanun layihəsinə baxılıb.

Komitə sədri Siyavuş Novruzov Dağlıq Qarabağ bölgəsində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində yaranmış vəziyyət barədə danışıb. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün artıq başa çatmaqda olduğunu bildirən S.Novruzov Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarix yazdığını qeyd edib. Rəşadətli Ordumuz artıq Cəbrayıl, Füzuli, Zəngilan rayonlarını işğaldan azad edib, strateji yüksəklikləri ələ keçirib. Bu, böyük qələbədir. Zəfər yürüşünün davam etdiyini vurğulayan Siyavuş Novruzov Azərbaycanın öz ərazi bütövlüyü uğrunda mübarizəsinin haqq mübarizəsi olduğunu vurğulayıb.

Komitə sədri Xocavənd rayonunun Vəng kəndinin adının dəyişdirilərək Çinarlı adlandırılmasının xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. Onun sözlərinə görə, ermənilər tərəfindən saxtalaşdırılan yer adlarının dəyişdirilməsi davam edəcək.

Deputatlar İsa Həbibəyli, Elşən Musayev, Tahir Rzayev, Səttar Möhbalıyev, Nizami Cəfərov, Emin Hacıyev, Cavid Osmanov, Aqil Məmmədov məsələ ilə bağlı fikir və mülahizələrini bildiriblər.

Müzakirələrdən sonra qanun layihəsi plenar iclasa tövsiyə edilib.

**AZƏRTAC**

# Siyəzən, Qəbələ və Kürdəmirə raket hücumu: Düşmən müharibə cinayətləri törətməkdə davam edir

[14:32] 22.10.2020

Azərbaycan Ordusunun sentyabrın 27-də ermənilərin növbəti təxribatından sonra başladığı əks-hücum əməliyyatı uğurla davam edir. Artıq Cəbrayıl, Füzuli və Zəngilan şəhərləri də daxil olmaqla, 120-dən çox yaşayış məntəqəsi düşməndən azad edilib. Əsgərlərimizin böyük qələbə uğrunda mübarizəsi davam edir. Döyüş meydanından qaçan düşmən isə müharibə cinayətlərindən əl çəkmir. Demək olar ki, hər gün yaşayış məntəqələrimiz, dinc sakinlər, mülki obyektlərimiz Ermənistan silahlı qüvvələrinin atəşinə məruz qalır. Məğlub ölkənin, məğlub ordunun çarəsizliyindən irəli gələn bu cinayət əməlləri isə nə xalqımızı, nə də Ordumuzu əsas amaldan yayındıra bilməz.

Ötən günlərdə düşmənin Gəncə, Mingəçevir şəhərləri, Tərtər, Ağdam, Şəmkir, Bərdə, Naftalan, Ağcabədi, Xızı, Füzuli, Cəbrayıl, Beyləqan və digər yaşayış məntəqələrimizə xain hücumlarının şahidi olmuşduq. Bu gün səhər isə Siyəzən, Qəbələ və Kürdəmirin raket atəşinə tutulmasının şahidi olduq. Əsas turizm məkanlarımızdan olan Qəbələnin raket atəşinə tutulması da düşmənin hiyləgər niyyətindən xəbər verir. Qəbələdə 2003-cü il təvəllüdlü Əmirbəyov Murad Ceyhun oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb, kənd ərazisində 5 evə ciddi ziyan dəyib. Həmçinin düşmən silahlı qüvvələri Abşeron yarımadasını içməli su ilə təchiz edən və ölkəmiz üçün xüsusi strateji əhəmiyyətə malik Oğuz-Qəbələ-Bakı su kəmərini hədəfə alaraq raket atıb. Lakin raketin Azərbaycan Ordumuzun Hava Hücumundan Müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilməsi nəticəsində onun hissələri su kəmərinin yaxınlığına düşüb.

Müharibə dövründə Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 63 nəfər həlak olub, 292 nəfər isə xəsarət alıb. Yalnız düşmənin hərbi obyektlərini, mövqelərini hədəfə alan Azərbaycan Ordusu məhz döyüş meydanında düşmənə ağır zərbələr endirməklə ermənilərin bu cinayətlərinin qisasını alır.

Azərbaycan xalqı bu cinayətlərə baxmayaraq, Ali Baş Komandanın ətrafında sıx birləşərək Ordumuza dəstəyini ifadə edir. Düşmənin mülki insanlara qarşı bu cinayətlərindən əziyyət çəkən insanlar heç nədən çəkinmədiklərini, baş verənlərin onları qorxutmadığını bildirir və əldə silah torpaqlarımızın müdafiəsinə hazır olduqlarını bildirirlər.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri, torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri bir daha bizləri əmin edir ki, dövlətimizin başçısının sarsılmaz iradəsi, Ordumuzun qüdrəti sayəsində bütün torpaqlarımız işğalçılardan azad ediləcək və üçrəngli bayrağımız zəbt olunmuş bütün torpaqlarımızda dalğalanacaq. Bu gün hər kəs bu məqsəd ətrafında sıx birləşib. Evləri, mülki obyektləri dağılan insanlar qətiyyən narahat deyillər, əksinə, bütün əmlaklarını, mülklərini ərazi bütövlüyümüzün bərpası yolunda fəda etməyə hazır olduqlarını vurğulayırlar.

Qeyd edək ki, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1981 ev, 90 çoxmənzilli yaşayış binası və 386 mülki obyekt yararsız vəziyyətə düşüb.

Əlbəttə ki, güclü dövlətimiz tərəfindən bu ziyan tam aradan qaldırılacaq. İnsanlar bundan sonra o ərazilərdə qəhrəman və qalib xalqın nümayəndələri kimi firəvan yaşayacaqlar.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Bizə hücum olunursa, nəinki özümüzü müdafiə etməliyik, eyni zamanda, əks-hücuma da keçməliyik**

[14:27] 22.10.2020

Atəşkəsə nail olmaq üçün ikinci cəhd ona görə uğursuz oldu ki, atəşkəs qüvvəyə mindikdən 2 dəqiqə sonra onlar atəşkəsi pozdular, onlar yenə də bizim dinc şəhərlərimizə hücum etdilər. Bu səhər saat 6-dan 8-ə qədər onlar dinc əhalinin yaşadığı və ən çox ziyan görən Tərtər şəhərinə 100-dən çox raket atıblar. Onlar bizim hərbi mövqelərimizə hücum edirlər. Onlar artıq azad edilmiş əraziləri yenidən geri götürmək istəyirdilər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bunu Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində ikinci atəşkəsin uğursuz olmasının səbəblərindən danışarkən bildirib.

Dövlətimizin başçısı deyib: "Bildiyiniz kimi, birinci atəşkəs cəhdindən sonra 24 saatdan az müddətdə onlar Ermənistan ərazisindən ballistik raketlə Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəyə hücum etdilər. Bu da hərbi cinayətdir və Ermənistan hökuməti buna görə məsuliyyət daşıyacaq. Beləliklə, onlar atəşkəsi pozublar. Mən həmişə demişəm ki, atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əgər bizə hücum olunursa, biz nəinki özümüzü müdafiə etməliyik, eyni zamanda, əks-hücuma da keçməliyik".

Onlar ikinci dəfə atəşkəsi pozandan sonra Azərbaycan Ordusunun Zəngilan şəhərini və bir çox kəndləri azad etdiyini bildirən Prezident İlham Əliyev vurğulayıb ki, döyüş meydanında nə qədər çox vaxt keçirsə, biz bir o qədər də əraziləri azad edirik. "Ona görə Ermənistan hökuməti öz davranışı haqqında ciddi düşünməlidir və əgər atəşkəsin səmərəli olmasını istəyirsə, birincisi, atəşkəsi pozmamaq, ikincisi, artıq işğaldan azad edilmiş əraziləri geri götürməyə cəhd etməmək və işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması üçün üzərinə ciddi öhdəlik götürməlidir", - deyə dövlətimizin başçısı əlavə edib.

## Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan rayonunun 13 kəndini və Ağbənd qəsəbəsini işğaldan azad edib

[18:39] 22.10.2020

Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuz qələbə əzmi ilə zəfər yoluna davam edir**

[19:58] 22.10.2020

Oktyabrın 21-i gün ərzində və 22-sinə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən Füzuli rayonundakı və digər ərazilərdəki müdafiə mövqelərimizi atıcı silahlardan, minaatanlardan, toplardan və reaktiv artilleriya sistemlərindən atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 22-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov bildirib ki, düşmən dinc əhalini və mülki infrastrukturu hədəfə alaraq Ermənistan ərazisindən əməliyyat-taktiki raket kompleksindən Siyəzən, Qəbələ və Kürdəmir rayonları istiqamətində 6 ədəd ballistik raket atıb. Nəticədə bir mülki şəxs yaralanıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Azərbaycan Ordusu tərəfindən cəbhənin Qubadlı, Xocavənd və Ağdərə istiqamətində keçirilən əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələri şəxsi heyət və döyüş texnikası baxımından ağır itkilər verərək mühüm yüksəkliklərdən və bir sıra mövqelərdən geriyə çəkilməyə məcbur edilib. 155-ci artilleriya alayına, 5-ci dağatıcı alaya və 543-cü alaya vurulan artilleriya zərbələrimiz nəticəsində komandir heyəti daxil olmaqla, çoxlu sayda canlı qüvvə məhv edilib, yaralanıb və itkin düşüb. Düşmənin yeraltı sığınacaqları dağıdılıb. Yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıb, döyüşə girməkdən imtina edib. Əlavə yolların bağlı olması və nəqliyyat vasitələrinin çatışmazlığı səbəbindən düşmən yaralıların təxliyəsində ciddi çətinliklərlə üzləşib.

Qeyd edilib ki, cəbhəni genişləndirmək istəyən düşmənin Naxçıvan Muxtar Respublikasının Sədərək və Şərur rayonları istiqamətində uçuş keçirməyə cəhd göstərən taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edilib.

Diqqətə çatdırılıb ki, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev özünün rəsmi "Twitter" hesabında Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayılın Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili, Zəngilanın Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin və Ağbənd qəsəbəsinin işğaldan azad edildiyini bildirib. Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olunub.

"Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuz qələbə əzmi ilə zəfər yolunda irəliləyir. Qələbə bizimlədir!", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Prezidentə yazırlar: Düşmən üzərində qazandığımız qələbələr Sizin cəsarətinizin, uzaqgörənliyinizin və polad iradənizin nəticələridir**

[10:40] 23.10.2020

Müzəffər Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları, torpaqlarımızın ard-arda işğaldan azad edilməsi vətəndaşlarımızda, xaricdə yaşayan soydaşlarımızda, eləcə də qardaş Türkiyədə və digər ölkələrdə yaşayan azərbaycansevərlərdə böyük sevinc hissi yaradıb. Onlar dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə yazdıqları məktublarda bu sevinc hisslərini ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Türkiyənin Ankara şəhərindəki qazilər dövlətimizin başçısına yazırlar: "Möhtərəm cənab Prezident, biz Türkiyə üçün hər zaman xainlərə, separatçı qüvvələrə qarşı mübarizə aparan qazilərik. Bu məktubu yazdığımız vaxtda Sizin, Azərbaycan dövlətinin şanlı ordusunun və xalqınızın tarixin ən böyük qəhrəmanlıq dastanlarından birini yazdığınızı görürük. Bu qəhrəmanlıq eposunun yazılmasında hər zaman Sizinlə olduğumuzu bildiririk. Azərbaycan tək deyil, türk dövləti və milləti həmişə olduğu kimi, yenə də Azərbaycanın yanındadır. Biz Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü hədəf alan hər cür cəhd və təxribatına qarşıyıq. Qarabağın işğalının sona çatması üçün Vətən müharibəsini və Azərbaycanın milli mübarizəsini bütün gücümüzlə dəstəklədiyimizi bəyan edirik. Böyük türk milləti, o cümlədən biz qazilər Sizin rəhbərliyinizlə işğalçı Ermənistana qarşı Azərbaycan Silahlı Qüvvələrinin hər bir qələbəsini böyük sevinc və həvəslə qarşılayırıq. Əminik ki, gələcək nəsil türk dünyasının ortaq coğrafiyasını, mədəni, mənəvi dəyərlərinin yaşadılmasını, ümumi tarixi və mədəni dəyərləri qoruyacaq. Bir daha Vətən bildiyimiz Azərbaycanın haqq mübarizəsində yanınızda olmaq üçün hər an Azərbaycana gəlməyə hazır olduğumuzu bildirir, şəhid ailələrinə başsağlığı diləyir, yaralı Azərbaycan qazilərinə şəfa diləyirik".

Moskva şəhərindən Tarix Verdiyev və Yaqut Verdiyeva yazırlar: "Cənab Ali Baş Komandan, hörmətli İlham Heydər oğlu, Moskvada yaşayan biz azərbaycanlılar ordumuzun qələbələrinə sevinir, dinc insanlarımızın həlak olmasına çox kədərlənirik.

Cənab Ali Baş Komandan, mən vaxtilə tank qoşunlarında xidmət etmişəm. Əmr etsəniz, istənilən vaxt Vətənimizə qayıdıb tarixi torpaqlarımızın işğalçılardan azad edilməsi uğrunda döyüşməyə hazırıq. Bizim işimiz haqq işidir! Vətən hər şeydən ucadır!".

Minsk şəhərindən Tatyana Laputskaya və Oruc Orucov yazırlar: "Cənab Prezidentimiz, Belarusdan Orucovlar – Laputskilər ailəsi Sizi salamlayır. Sizin komandanlığınız altında Azərbaycan əsgərlərinin işğalçı erməni terrorçuları üzərində qazandığı qələbələrlə qürur duyuruq. Qarabağ həmişə Azərbaycanın olub və əsrlərboyu da Azərbaycanın olacaq. Azərbaycandan gələn hər bir şad xəbəri uzaq Belarusda səbirsizliklə gözləyir, diqqətlə izləyirik. Haqq-ədalətin zəfərinə Sizinlə, Azərbaycan xalqı ilə birlikdə sevinirik. Ordumuzun qələbələrinə görə Sizin sevinc və qürur hissiniz sanki televiziya ekranından bizlərə də sirayət edir. Allah Sizə güc-qüvvət versin ki, Azərbaycan xalqının mənafeyi naminə müdrik siyasətinizi bundan sonra da davam etdirə biləsiniz. Allah Sizi qorusun!".

Rusiyanın Tümen vilayətindən Füzuli Burcuyev: "Möhtərəm cənab Prezident, Rusiya Federasiyasının Tümen vilayətinin çoxminlik Azərbaycan diasporu adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımızı bildiririk, Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına tam dəstəyimizi ifadə edirik. Sizin ətrafınızda birləşərək daxili və xarici siyasətinizi dəstəkləyən, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün cəsarətlə mübarizə aparan şanlı Azərbaycan Ordusuna hərtərəfli dəstək verən bütün Azərbaycan xalqının ruh və güc birliyindən qürur və sevinc hissi keçiririk. Ölkədə müxtəlif sahələrdə Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar sayəsində Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası yüksək səviyyəyə çatdırılmışdır ki, Sizin Ali Baş Komandan kimi qarşınıza qoyduğunuz bütün vəzifələrin uğurla yerinə yetirilməsindən əminliklə danışmağa imkan verir. Biz, Tümen vilayətinin Azərbaycan diasporunun nümayəndələri olaraq, Azərbaycanın atəş altında olan kəndləri və şəhərlərinin mülki əhalisinin, eləcə də silahlı qüvvələrinin şəxsi heyəti ailələrinin ehtiyacları üçün dərman, qida, zəruri ehtiyaclar şəklində lazımi humanitar yardım göstərməyə mütləq hazır olduğumuzu bildiririk".

Tatarıstandan Ramiz Məmmədovun məktubunda deyilir: "Hörmətli cənab Prezident, Ali Baş Komandan olaraq Sizin qətiyyətli addımlarınız sayəsində Azərbaycanın hərb tarixinə yeni səhifələr yazılır. Məhz buna görə də hazırda dünya azərbaycanlıları çox qürurlu anlar yaşayırlar. Bu sevinci və fərəhi bizlərə bəxş etdiyiniz üçün Tatarıstanda yaşayan soydaşlarımız adından Sizə minnətdarlığımızı bildiririk. Bizlər hər zaman xalqımızla nəfəs alırıq, ürəyimiz Vətənlə döyünür. Sizin "Qarabağ Azərbaycandır!" şüarınızı

rəhbər tutaraq, Qarabağ həqiqətlərini Tatarıstanda qürurla təbliğ edirik. Erməni terrorçularına qarşı mübarizədə iştirak etməyə hər an hazır dayanmışıq və Ali Baş Komandan kimi Sizin əmrinizi gözləyirik. Tanrı Sizi və xalqımızı qorusun!".

Şəki sakini Rauf Ağayev yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, hazırda məhkumluq həyatı yaşayıram. Televiziya vasitəsilə cəbhədə gedən hərbi əməliyyatları davamlı olaraq izləyirəm. Ordumuzun düşmən işğalından azad etdiyi kəndləri, şəhərləri gördükcə çox qürurlanıram. Buna görə Sizə və Ordumuza minnətdaram. Lakin ermənilərin bizim dinc əhaliyə qarşı törətdikləri vəhşilikləri gördükcə, şəhid olmuş günahsız körpələrin, anaların qisasını almaq hissi məni bir an belə rahat buraxmır. Cənab Ali Baş Komandan, bildirmək istəyirəm ki, igid əsgərlərimizlə birlikdə döyüşmək üçün hər an əmrinizə hazıram".

Bərdə sakini Fərman Əkbərli: "Əziz Prezidentim, mənim adım Fərmandır, 12 yaşım var. Bərdə şəhərində yaşayıram. Mən fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var. İnşallah, torpaqlarımız azad ediləcək, çünki bizim igid əsgərlərimiz var. Düşmənlərimiz xain və acgözdürlər. Biz onlara qalib gələcəyik. Qarabağ bizimdir, bizim olacaq! Qarabağ Azərbaycandır!".

Zəngilan sakini Ruslan Şirinov: "Hörmətli Ali Baş Komandanımız, şanlı Azərbaycan Ordusu 29 il həsrətini çəkdiyim, doğma torpağım olan Zəngilan rayonunu mənfur işğalçı düşmənlərdən azad etdi. Ailəm adından Sizə və şanlı Ordumuza minnətdarlığımızı bildirirəm. İnşallah, tezliklə Bayrağımız Qarabağda dalğalansın. Biz Sizinlə fəxr edirik! Uca Tanrı Sizi və Ordumuzu qorusun!".

Ağdam sakini Elbrus Abdullayev: "Möhtərəm cənab Prezident, Cəbrayıl, Füzuli, Zəngilan şəhərlərinin, Hadrut qəsəbəsinin və bir sıra kəndlərimizin işğaldan azad olunması münasibətilə Ağdam rayon əhalisi adından Sizi təbrik edirəm. Torpaqlarımızın azad olunacağına ümidimizi heç vaxt itirməmişdik. Çünki Sizin rəhbərliyinizlə ölkəmizin iqtisadi baxımdan inkişafı, ordumuzun qüdrətlənməsi və onun maddi-texniki bazasının möhkəmləndirilməsi bizi nikbin düşünməyə sövq edirdi. Bu nailiyyətlərin sonda bizi Qarabağa aparacağına tam qəlbimizlə inanırdıq. Nəhayət həmin gün gəlib çatdı. Bu gün biz addım-addım Qarabağa doğru gedirik. "Hər işin başı səbirdir" – deyirlər. Biz 30 il dözdük, səbir etdik, möhkəmləndik və bu da nəticəsi... Cənab Prezident, Sizdən tezliklə Şuşanın, Xankəndinin azad olunduğu xəbərlərini gözləyirik. Ulu Tanrı hər bir işinizdə köməyiniz olsun".

Qusar rayonundan Şahin Ağabalayev dövlətimizin başçısına yazır: "Möhtərəm cənab Prezident, Zəngilan şəhərinin və ətraf kəndlərinin erməni işğalından azad edilməsi haqqında verdiyiniz zəfər soraqlı xoş xəbər bütün xalqımız kimi, qusarlıları da hədsiz sevindirmişdir. Sizin komandanlığınızla şanlı ordumuz tarixin yeni silinməz səhifələrini yazır, mümkünlüyü çətin olan xarüqələr yaradır. Artıq ordumuz qələbənin astanasındadır. Xalqımızın 30 ildir gözlədiyi torpaqlarımızın düşmən tapdağından azad edilməsi arzusu artıq reallığa çevrilir. Düşmən üzərində qazandığımız qələbələr Sizin bilavasitə cəsarətiniz, uzaqgörənliyiniz və polad iradənizin gözəl nəticələridir. Tanrı Sizi qorusun. Qələbə bizimdir, Qarabağ Azərbaycandır!".

Şəki sakini Nicat Qurbanzadə: "Hörmətli cənab Prezident, hamılıqla Qarabağ uğrunda yürütdüyünüz siyasəti dəstəkləyirik. Bu gün mübarizənin ölkəmizin lehinə davam etməsi Sizin uğurlu siyasətinizin və qüdrətli Azərbaycan Ordusunun yüksək döyüşkənlik əzmində olmasının nəticəsidir. İnanırıq ki, tezliklə tarixi torpaqlarımız tam geri alınacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Sizin kimi dəyanətli, qətiyyətli dövlət başçımız, Prezidentimiz olduğu üçün özümüzü çox qürurlu hiss edirik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Zaqatala sakini Hüseyn Qazıxanov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizi və bütün Azərbaycan xalqını torpaqlarımızın azad olunması uğrunda erməni qəsbkarları ilə gedən döyüşlərdə qazandığımız uğurlara görə təbrik edirəm.

Hər dəfə televiziya ilə torpaqlarımızın azad olunması barədə verdiyiniz məlumatlar bizi ziyalıları çox qürurlandırır. Sizin uzaqgörən siyasətinizi dəstəkləyirəm. İşğal olunmuş hər bir qarış torpağın azad olunması, Azərbaycanın çiçəklənməsi naminə Sizin ətrafınızda yumruq kimi birləşdiyimizi əminliklə bildirirəm. Cənab Prezident, Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri kimi biz – saxurlular da Sizinlə fəxr edir, Azərbaycanın xoş gələcəyi naminə Sizə, əsgər və zabitlərimizə cansağlığı arzu edirik. Üçrəngli bayrağımızın Şuşada, Xankəndidə, bütün qalan şəhər və kəndlərdə dalğalanması ümidi ilə Tanrı Sizə yar olsun".

Gəncə şəhərindən Natiq Bayramov yazır: "Hörmətli cənab Prezident, nəhayət illərdir işğal altında qalan torpaqlarımız Sizin qətiyyətiniz, şücaətiniz və uzaqgörən siyasətiniz sayəsində yadelli işğalçılardan azad olunur. Bütün xalq əmindir ki, tezliklə yağı düşmən torpaqlarımızdan qovulacaq, o torpaqlar öz əzəli

və əbədi sahiblərinə qovuşacaq. Mən birinci Qarabağ müharibəsində iştirak etmişəm və Qarabağ veteranıyam. Yenidən könüllü olaraq cəbhəyə getmək üçün rəsmi qeydiyyatdan keçdim. Lakin yaşıma və qismən səfərbərlik olduğuna görə aparmadılar. Cənab Ali Baş Komandan, bir daha öz bilik və təcrübəmi doğma Vətənimin erməni işğalçılarından azad edilməsinə sərf etməyə hazır olduğumu bildirirəm. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Füzuli sakini Mənsur Əliyev: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, işğal altında olan torpaqlarımızın azad edilməsi, Vətənimizin bütövləşməsi uğrunda apardığınız müdrik siyasət öz bəhrəsini verir. Bu gün Azərbaycanın üçrəngli bayrağı Füzulidə, Cəbrayılda, Zəngilanda dalğalanır. İnşallah, tezliklə Azərbaycanın digər dilbər guşələri də azad olunacaq. Ulu Tanrı Sizi və Azərbaycanın müzəffər Ordusunu qorusun. Qarabağ bizimdir!”.

Naxçıvandan İmaməli Məmmədov: “Cənab Ali Baş Komandan, Vətənimizin bütövlüyü, torpaqlarımızın yağı düşməndən təmizlənməsi uğrunda apardığınız qətiyyətli siyasətiniz hər bir vətəndaşımızın ürəyindən xəbər verir. Sizə və komandanlığınız altında vuruşan igid əsgər və zabitlərimizə bu haqq işində yeni-yeni zəfərlər, qələbə sevincləri arzu edirəm. Bütün naxçıvanlılar kimi, mən də hər an cəbhəyə getməyə, Vətən uğrunda döyüşərək canımdan, qanımdan keçməyə hazıram. Yaxşı ki, Sizin kimi Prezidentimiz var. Hər bir azərbaycanlı Sizinlə qürur duyur. Allahdan Sizə möhkəm cansağlığı, hər zaman ucada olmağı arzu edirəm”.

Bakı şəhər sakini Sabir Alışov: “Hörmətli cənab Prezident, üç cəbhədə Azərbaycan xalqı naminə uğur qazandığınıza görə Sizə minnətdaram və Sizi təbrik edirəm. Bəli, Siz, eyni zamanda, 3 cəbhədə vuruşursunuz. Koronavirusla mübarizə, informasiya müharibəsi və hazırda torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlər. Böyük və Qadir Allahın köməyi ilə uğurlar əldə edirik. Sizin zəhmətinizi Allah yerdə qoymaz. Mən bir sadə vətəndaş kimi bütün ziyalılarımızdan xahiş edirəm ki, informasiya müharibəsində öz güclərindən maksimum istifadə etsinlər. Ləyaqətli xalqımın ləyaqətli rəhbəri, on milyonluq xalqımın arzusudur ki, Yeni ili Şuşada, Xankəndidə qeyd edək. Haqq-ədalət bizimlədir, Qələbə də bizimlə olacaqdır! Qələbəyə doğru İlhamla irəli!”.

Şamaxı sakini Anar Xanaliyev: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bu gün Sizin rəhbərliyinizlə bizim şanlı Ordumuz düşmənə qalib gəlir, bizə qələbə, zəfər əzmini yaşadır və biz bundan qürur duyuruq. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz və Ali Baş Komandanımız var. Siz həmişə xalqa, ölkəmizə qayğı göstərir, çətinlikləri üzərimizdən yox edirsiniz. Ona görə də hər zaman xalq Sizi sevib və Sizə güvənib. Siz xalqın böyük sərkərdəsi, Milli Qəhrəmanımızsınız. “Qarabağ Azərbaycandır!” deyib bizi Qələbəyə doğru apardınız. Mən Sizi çox sevirəm və qürur hiss keçirirəm ki, azərbaycanlıyam, Siz isə Azərbaycanın Prezidentisiniz. Şanlı Ordumuz qazandığı qələbələr məni də böyüyəndə hərbçi olmağa ruhlandırır. Bu zəfəri bizə yaşatdığınız üçün Sizə minnətdaram, cənab Prezident. Mən Sizinlə və şanlı Ordumuzla fəxr edirəm”.

Culfadan Nahid Babayev yazır: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizi həyata keçirdiyiniz uğurlu siyasət münasibətilə təbrik edirəm. 30 ilə yaxın bir müddətdə ev-eşiyindən didərgin düşmüş 1 milyondan çox məcburi köçkün Sizin və rəşadətli Ordumuzun hünəri sayəsində öz yurd-yuvasına qayıdacaq. Cənab Prezident, Sizin çıxışlarınızı və verdiyiniz müsahibələri dinlədikcə biz daha da qürrələnirik. Fəxr edirik ki, bizim güclü Liderimiz və qüdrətli Ordumuz var. Allah Sizi və hazırda cəbhəboyu inamla irəliləyən qəhrəman əsgərlərimizi qorusun! Allah amanında. Qarabağ Azərbaycandır!”.

Füzuli sakini Rəhman Rüstəmov: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, bütün ailə üzvlərim adından Sizə dərin minnətdarlığımızı bildirirəm. Doğma Füzulimizin hər qarışının artıq azad olunduğunu düşündükcə qəlbimiz dağa dönür.

Hörmətli Ali Baş Komandan, Azərbaycanın işğal olunmuş torpaqlarını murdarlardan təmizlədiyiniz üçün Sizə canımız və qanımızla borcluyuq. Eşq olsun Prezidentimizə!”.

**AZƏRTAC**

**Kürşad Zorlu: Azərbaycanın İranla dövlət sərhədinə nəzarəti tam bərpa etməsi çox mühüm hadisədir**

[11:43] 23.10.2020

Azərbaycan Silahlı Qüvvələri işğal altındakı torpaqları terrorçu və quldur erməni dəstələrindən təmizləməklə bütün region ölkələri üçün ortaq təhlükəni aradan qaldırır. Bu mənada, Zəngilanın Ağbənd qəsəbəsinin işğaldan azad olunması ilə Azərbaycanın İranla dövlət sərhədinə nəzarəti tam bərpa etməsi strateji əhəmiyyətli məsələdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Bozok Universitetinin dekanı, professor Kürşad Zorlu bildirib.

Yaxın Şərqdəki münaqişə bölgələrinin Türkiyə kimi İran üçün də ciddi təhlükə mənbəyi olduğunu diqqətə çatdıran professor deyib ki, heç bir normal dövlət istəməz ki, onun sərhəd qonşuluğunda münaqişə ocağı olsun. Bu baxımdan bu mühüm hadisə İran üçün də önəmlidir.

Azərbaycanın zəngin təbii sərvətlərə və böyük resurslara malik olduğunu diqqətə çatdıran professor əminliklə bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası bütün Qafqaz bölgəsi üçün yeni bir sosial-iqtisadi mənzərə yaradacaq.

**Sabir Şahtaxtı,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Xocavəndin 2, Cəbrayılın 5, Zəngilanın 2 kəndini işğaldan azad edib**

[17:31] 23.10.2020

Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuzun zəfər yürüşü davam edir**

[19:26] 23.10.2020

Oktyabrın 22-si gün ərzində və 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Düşmən müdafiə mövqelərimizi, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atıcı silahlardan və artilleriya qurğularından atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 23-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, vacib ərazi və yüksəkliklər azad edilib.

Ağcabədi rayonu və digər istiqamətlərdə uçuş keçirməyə cəhd göstərən düşmənin 3 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib, 2-si isə xüsusi texniki vasitələrlə yerə endirilib.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Döyüş texnikası, silah və sursat, ərzaq ehtiyatları azalan düşmən artıq qoşunlarını praktiki olaraq idarə edə bilmir. Məlum olub ki, Ermənistanın Tavuş və Sisian rayonlarından Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət də Azərbaycan əsgərləri ilə döyüşlərə girməkdən imtina edir, mövqeləri qoyub qaçır. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir. Düşmənin vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdləri də tam olaraq iflasa uğrayıb.

Diqqətə çatdırılıb ki, bu gün Prezident, müzəffər Ali Baş Komandanımız İlham Əliyev özünün rəsmi “Twitter” hesabında qüdrətli Azərbaycan Ordusunun Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq, Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərinin işğaldan azad edildiyini bildirib.

“Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuzun zəfər yürüşü davam edir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir**

[07:58] 24.10.2020

Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir.

Bu fikri AZƏRTAC-a açıqlamasında Əməkdar jurnalist Rəşad Nəsirov söyləyib. O bildirib ki, reparasiya bir ölkənin digər ölkəyə vurduğu ziyana görə maddi məsuliyyət formasıdır.

Qeyd edək ki, Ermənistanın təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli və 330 yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi, 40 mindən çox eksponatın toplandığı 22 muzey, 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi dağıdılıb. Ağdam Çörək muzeyi yerlə-yeksan edilib, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir eksponatı Ermənistana daşınıb. Şuşanın işğalı nəticəsində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi viran edilib. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyinin Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək eksponatı, dahi bəstəkar Üzeyir Hacıbəylinin, böyük müğənni Bülbülün, görkəmli musiqiçi və rəssam Mir Mövsüm Navabın xatirə muzeylərinin, Ağdam, Qubadlı və Zəngilan tarix-diyarşünaslıq muzeylərinin fondları qarət edilib. Görkəmli Azərbaycan musiqiçisi Qurban Pirimovun Ağdam rayonundakı xatirə muzeyi, Cəbrayıl, Füzuli və Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri də dağıdılıb. Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında qeyri-qanuni arxeoloji qazıntılar aparıb, məzarlar, qəbirüstü abidələr dağıdılıb.

Otuz ilə yaxındır ki, işğal altında qalan ərazilərdə ekoloji cinayətlər törədilib. Bölgədəki biomüxtəliflik məhv edilib, meşələr qırılıb, faydalı qazıntı yataqları talan edilib, su anbarları və ətraf mühit qəsdən çirkləndirilib. Ən əsası isə təcavüz nəticəsində on minlərlə Azərbaycan vətəndaşı həlak olub və yaralanıb, bir milyondan çox insan isə doğma yurdundan didərgin düşüb. Törətdiyi bu bəşəri cinayətlərə görə Ermənistanın keçmiş və indiki rəhbərliyi məsuliyyət daşıyır. Azərbaycana vurulan maddi-mənəvi ziyanın ödənilməsi beynəlxalq hüquq və beynəlxalq təşkilatlar səviyyəsində gündəmə gətirilməlidir.

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Ermənistan ərazisindən Azərbaycanın ərazisinə hücumların edilməsi növbəti hərbi təcavüz aktıdır**

[17:28] 24.10.2020

Ermənistanın öz ərazisindən Azərbaycan Ordusunun bölmələrini Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan, Qubadlı və Laçın rayonları istiqamətində atəşə tutması, Ermənistan ərazisindən Azərbaycanın ərazisinə hücumların edilməsi növbəti hərbi təcavüz aktıdır.

AZƏRTAC xəbər verir ki, bunu KİV-ə açıqlamasında Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: "Bu hallar Ermənistan ərazisindən Azərbaycanın Gəncə, Mingəçevir, Kürdəmir, Siyəzən, Qəbələ, Xızı və digər şəhərlərinə, mülki insanlara və mülki obyektlərə ballistik və reaktiv raketlərlə olan təcavüzkar hücumların davamıdır. Bu il iyulun 12-də Ermənistanın dövlət sərhədinin Tovuz istiqamətində Azərbaycana qarşı hücumları da təcavüz aktı kimi qiymətləndirilmişdi.

Bu kimi təcavüzkar aktlar, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu və Azərbaycana qarşı gücdən istifadə etməsi Ermənistanın açıq-aşkar Azərbaycana qarşı müharibə apardığını bir daha nümayiş etdirir.

Hərbi təcavüz aktı olmaqla bərabər Ermənistanın bu kimi hərbi avantüraları siyasi təxribat və münaqişənin coğrafiyasının genişləndirilməsi məqsədini daşıyır.

Bununla Ermənistan üzv olduğu siyasi-hərbi təşkilat çərçivəsində digər ölkələrə qarşı güc tətbiq etmək və güc tətbiq edərək hədələməkdən çəkinmək barədə üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozur.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən bəyan edildiyi kimi, Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi hədəfləri yoxdur.

Azərbaycan Respublikasının BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə məqsədilə hərbi təcavüz və hücum hallarının qarşısını almaq üçün legitim hərbi hədəflərə qarşı atmağa məcbur ola biləcəyi addımların məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə düşür".

**AZƏRTAC**

**Düşmənin bölmələrimizə hücum cəhdinin qarşısı alınıb**

[18:53] 24.10.2020

Oktyabrın 24-də günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Sünik-Zəngilan yolu istiqamətindən bölmələrimizə hücum etməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimizin sərt müqaviməti ilə rastlaşan düşmən geri çəkilməyə məcbur edilib. Düşmən qüvvələrindən əsir götürülənlər var.

**AZƏRTAC**

## Anar Eyvazov: Erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir

[20:13] 24.10.2020

Oktyabrın 23-də gün ərzində və 24-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Müdafiə mövqelərimizi atıcı silahlardan, minaatanlardan və toplardan atəşə tutan düşmən yaylım atəşli reaktiv sistemlərdən və digər artilleriya qurğularından istifadə edərək, həmçinin Tərtər, Bərdə, Goranboy və Naftalanı atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 24-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatlara qarşı mütəşəkkil müqavimət göstərə bilməyən və döyüş mövqelərini itirərək geri çəkilməyə məcbur edilən düşmən Ermənistanın Gorus və Qafan rayonları ərazisindən raket və artilleriya qurğuları ilə Laçın və Qubadlı ərazilərini güclü atəşə məruz qoyub. Ermənistan tərəfinin bu təxribatı törətməkdə məqsədi Azərbaycan Ordusunu cavab tədbirləri olaraq Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

Bildirilib ki, Azərbaycan Ordusu əməliyyat planına uyğun olaraq cəbhənin müxtəlif istiqamətlərində əks-hücumu davam etdirir. Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin bölmələrinə ciddi atəş zərbələri endirilib, onun silah-sursat və yanacaq anbarları sıradan çıxarılıb. Kommunikasiya xətləri nəzarətə götürülüb, dayaq məntəqələri dağıdılıb. Könüllülərdən ibarət dəstələri və döyüş texnikası məhv edilərək bir neçə vacib yüksəkliklər azad edilib. Sünik-Zəngilan yolunda hücum etməyə cəhd göstərən düşmən bölmələrimizin sərt müqaviməti ilə rastlaşaraq geri çəkilməyə məcbur edilib. Düşmən qüvvələrindən əsir götürülənlər var.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, bundan başqa, Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi və Ağdərə rayonu istiqamətində bir pilotsuz uçuş aparatı Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib. Cəbrayıl rayonu istiqamətində düşmənə məxsus "BZEZ" zərbə pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən aşkarlanaraq xüsusi texniki vasitələrlə yerə endirilib və ələ keçirilib.

Hazırda bütün cəbhəboyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun əks-həmlə əməliyyatı başlandıqdan sonra döyüş sahəsində aciz qalan düşmən bütün vasitə və resurslardan istifadə etməklə informasiya mühitində dezinformasiya və təxribat xarakterli məlumatlar yayır. Düşmən rəsmiləri guya ordumuzun texnika itirdiyi, xüsusi təyinatlı bölmələrimizə ziyan vurulduğu, bir pilotsuz uçuş aparatının Ermənistan ərazisində vurulması, digərinin isə İran ərazisinə keçdiyi və bu ölkə tərəfindən qoşunlarımıza qarşı atəş açılması kimi feyk məlumatlar verməklə vəziyyətin gedişatına təsir etməyə çalışır. Onlar çoxsaylı feyk foto və videolar yaymaqla, beynəlxalq aləmdə Azərbaycan Ordusu barədə mənfi rəy formalaşdırmağa cəhd edirlər.

Anar Eyvazov deyib: Bildiririk ki, peşəkar Azərbaycan Ordusu yalnız düşmənin silahlı birləşmələrini və legitim hərbi obyektləri hədəfə alır. Bu hədəflər dəqiq atəş zərbələri ilə məhv edilir. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin ictimaiyyətə təqdim etdiyi foto və video görüntülər də buna əyani sübutlardır. Hər bir Azərbaycan əsgəri mülki şəxslərlə, hərbi əsirlərlə və düşmən meyitləri ilə davranış qaydalarını mükəmməl bilir. Onlara qarşı beynəlxalq humanitar hüququn prinsip və normalarına, eləcə də Cenevrə konvensiyalarına və ona əlavə olunmuş protokollara uyğun davranırlar. Buradan döyüşlər gedən istiqamətlərdə məskunlaşan dinc erməni əhalisinə və aldadılaraq Ermənistan ərazisindən işğal olunmuş ərazilərimizə gətirilən əsgər və könüllülərə Azərbaycanın Hərbi Komandanlığının müraciətini çatdırıram.

Azərbaycanın Hərbi Komandanlığı bir daha döyüşlər gedən istiqamətlərdəki dinc əhalini hərbi obyekt və infrastrukturdan uzaq durmağa çağırır. Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq ölkəmizin işğal olunmuş ərazilərinə gətirilən əsgər və könüllülərə silahı yerə qoyaraq təslim olmağı təklif edir. Azərbaycan tərəfinə keçən mülki əhalinin təhlükəsizliyinin, qida, tibbi yardım və digər ehtiyaclarının təmin edilməsi üçün komandanlıq bütün müvafiq zəruri tədbirləri görməyə hazırdır. Bundan əlavə, beynəlxalq humanitar hüquqa uyğun olaraq hərbi əsirlərin, mülki şəxslərin bütün hüquqları qorunacaq və üçüncü dövlətlərə keçmək istəyən şəxslərə beynəlxalq təşkilatlar vasitəsilə lazımi şərait yaradılacaq.

"Azərbaycan əsgərlərinə qarşı döyüşən erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir. Qələbə bizimlədir!", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Ermənistan ərazisindən Azərbaycana hərbi hücumlar BMT Nizamnaməsində təsbit edilmiş təcavüz aktıdır**

[14:05] 25.10.2020

Ermənistan ərazisindən Zəngilan, Qubadlı və Laçının sərhəd rayonları boyunca Azərbaycana hərbi hücumlar BMT Nizamnaməsində təsbit edilmiş təcavüz aktıdır.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün “Twitter” səhifəsində bildirib.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb**

[19:13] 25.10.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla videogörüntüləri təqdim edib.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad edib**

[23:09] 25.10.2020

Bu gün Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna!

Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

**AZƏRTAC**

## Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin azad edilməsi münasibətlə xalqımızı təbrik edib

[11:04] 26.10.2020

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC həmin paylaşımı təqdim edir:

Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndləri və Qubadlı şəhəri işğaldan azad edildi! Bu münasibətlə bütün xalqımıza səmimi təbriklərimi çatdırıram! Hər bir yeni qələbənin əldə edilməsi əsgərlərimizin qəhrəmanlığı, şücaəti, cəsarəti, igidliyi və mətanəti sayəsində mümkün olur. Onların hər birinə hədsiz dərəcədə minnətdaram! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

**BERNAMA agentliyi: Azərbaycan Ordusu Qubadlı şəhərini və bir neçə kəndi işğaldan azad edib**

[19:50] 26.10.2020

Azərbaycan Prezidenti İlham Əliyev ölkə ordusunun Qubadlı şəhərini, Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının kəndlərini erməni işğalından azad etdiyini bildirib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, bu barədə Malayziyanın BERNAMA Agentliyi Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) istinadla xəbər yayıb. Bildirilir ki, Azərbaycan Prezidentinin rəsmi "Twitter" hesabında bu barədə paylaşdığı statusu "Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır! " sözləri ilə tamamlanıb.

Bununla yanaşı, məlumatda Azərbaycan Müdafiə Nazirliyinə istinadla Ordumuzun bazar günü Ermənistanın hərbi texnikasını və döyüş sursatını məhv etməsi də əksini tapıb.

Məlumatda deyilir: "Müdafiə Nazirliyinin məlumatına əsasən, oktyabrın 25-də günortadan sonra cəbhənin müxtəlif istiqamətlərində aparılan döyüşlər zamanı Azərbaycan Ordusunun bölmələri düşmənə dəqiq zərbələr endirib. Bu zərbələr nəticəsində düşmənin 6 ədəd D-30 və 1 ədəd D-1 haubitsa silahı, 2 ədəd BMP (piyadaların döyüş maşını), 1 ədəd avtomobili və böyük miqdarda döyüş sursatı məhv edilib".

**Vüqar Ağayev,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kuala Lumpur**

**AZƏRTAC**

## Azərbaycan MN: Ermənistan ərazisində sərhəd zastavasının vurulması barədə yayılan məlumat yalandır və təxribat xarakteri daşıyır

[12:02] 27.10.2020

Ermənistanın bu gün guya Azərbaycana məxsus pilotsuz uçuş aparatı (PUA) və raket-artilleriya vasitələrindən istifadə etməklə Ermənistan ərazisinin atəşə tutulması barədə yaydığı məlumat yalandır və təxribat xarakteri daşıyır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan yeni humanitar atəşkəs rejiminə tam riayət edir. Əksinə oktyabrın 27-də saat 09:30-dan başlayaraq indiyədək Ermənistan tərəfi Zəngilan rayonunun Ağbənd kəndi istiqamətində ərazilərimizi minaatanlardan intensiv atəşə tutur.

**AZƏRTAC**

**Atəşkəs rejiminin tarixi hazırkı vəziyyətə görə məhz Ermənistanın məsuliyyət daşıdığını aydın göstərir**

[16:32] 27.10.2020

1993-1994-cü illərdə BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasını, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən dörd qətnamə qəbul edib, amma onların heç biri yerinə yetirilməyib.

Tərəfləri danışıqlar masasına gətirmək cəhdləri fərqli səviyyələrdə edilib. Ancaq hər dəfə Ermənistanda və ya Azərbaycanda liderlər dəyişəndə danışıqlara yenidən başlamaq lazım gəlib. Danışıqlar Rusiya, ABŞ və Fransanın həmsədrliyi ilə ATƏT-in Minsk qrupu tərəfindən aparılıb: bu qurum 1992-ci ilin martında Minskdə keçirilən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi (ATƏM) konfransında yaradılıb.

-1991-ci ilin noyabrın 20-də Qarakənd üzərində Mi-8 helikopterinin vurulması məhz ilk atəşkəs razılaşmasının ermənilər tərəfindən pozulması faktı olub;

-İranın Xarici İşlər naziri Əli Əkbər Vilayəti vasitəçilik səylərinə 1992-ci il fevralın 25-də başladı. İran İslam Respublikası BMT-nin Təhlükəsizlik Şurası atəşkəs üçün müraciət etdi. Buna baxmayaraq, 1992-ci il 26 fevral tarixində Xocalıda azərbaycanlıların soyqırımı törədildi;

-İran tərəflər arasında atəşkəs müqaviləsinin imzalanmasına 1992-ci il martın 15-də, 1992-ci il mayın 8-də də vasitəçilik etdi. Lakin 1992-ci il mayın 8-də ermənilər Şuşanı işğal etdilər;

-1992-ci il avqustun 27-dən başlayaraq Qazaxıstan tərəflər arasında vasitəçilik etməyə cəhd göstərdi və nəticədə, 1992-ci il avqustun 28-də atəşkəs razılaşması imzalandı. Atəşkəs razılaşması 1992-ci il sentyabrın 1-də qüvvəyə mindi, lakin bir neçə gün sonra Ermənistan tərəfindən pozuldu;

-1992-ci il sentyabrın 19-da Rusiya tərəflər arasında atəşkəs razılaşmaya vasitəçilik etdi və atəşkəs 1992-ci il sentyabrın 25-də qüvvəyə mindi. Bu dəfə də ermənilər öz xislətinə uyğun olaraq razılaşmanı pozdular;

-1993-cü il aprelin 8-də Rusiya tərəflər arasında atəşkəs müqaviləsinin imzalanmasına vasitəçilik etdi və atəşkəs 1993-cü il iyunun 27-də qüvvəyə minsə də, qısa müddət sonra ermənilər tərəfindən pozuldu;

-İran Prezidenti Həşimi Rəfsəncaninin vasitəçiliyi ilə 1993-cü ilin oktyabrın 28-də atəşkəs razılaşması əldə olunmuşdu. Ermənistanın sabiq prezidenti Robert Köçəryan "Həyat və azadlıq: Dağlıq Qarabağla Ermənistanın sabiq prezidentinin tərcümeyi-halı" kitabında yazıb: "Azərbaycanla atəşkəs anlaşmalarından həmişə öz xeyrimizə istifadə etməyə çalışmışdıq. 1993-cü ilin oktyabrında da belə oldu. Atəşin qarşılıqlı şəkildə dayandırılması ilə bağlı razılaşmadan istifadə edərək hücuma keçdik və oktyabrın 29-da Zəngilanı aldıq";

-1994-cü ilin mayın 12-də vasitəçilər Qarabağda atəşkəsə nail ola bildilər. Həmin dövrdə muxtar vilayətin ərazisi və ona bitişik yeddi rayon ermənilərin işğalı altında idi.

Ötən dövr ərzində Ermənistan və Dağlıq Qarabağdakı qondarma rejim faktiki olaraq hər gün atəşkəs rejimini pozublar:

-2010-cu il iyunun 18-də Ermənistanın atəşkəsi pozması nəticəsində Ermənistan tərəfdən 4, Azərbaycan tərəfdən 1 hərbçi həlak olub;

-2010-cu il avqustun 31-də güclü atışma, sentyabrın 4-də Ağdərədə silahlı toqquşma qeydə alınıb;

-2012-ci il 4-8 iyunda Ermənistanla sərhəddə silahlı toqquşma nəticəsində Azərbaycan ordusu 5 şəhid verib, Ermənistan ordusunda 11 nəfər həlak olub;

-2014-cü il mayın 28-də Füzuli rayonunda atəşkəs rejimini pozan Ermənistan birləşmələri mövqelərimizə hücum ediblər.

-Həmin ilin noyabr ayında erməni birləşmələri mövqelərimizi iriçaplı pulemyotlardan və artilleriya qurğularından atəşə tutaraq atəşkəs rejimini pozublar;

-Ən ciddi toqquşma 2016-cı ilin aprelində baş verib. Aprelin 2-də Ermənistan atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan ordusunun mövqelərinə hücuma keçib. Azərbaycan Ordusunun əks-həmləsi nəticəsində düşmən itki verərək geri çəkilib. Həmin dövrdə Azərbaycan bir sıra strateji yüksəklikləri və böyük ərazini geri qaytarıb;

-2020-ci ilin iyul ayının 12-də Ermənistan ordusu Azərbaycan-Ermənistan dövlət sərhədində növbəti dəfə təxribat törədib və Tovuz rayonundakı mövqelərimizə hücum edib.

Beləliklə, yuxarıda deyilənlərə əsasən yekunda onu qeyd etmək olar ki, Ermənistanın Azərbaycana təcavüzü başlandıqdan sonrakı dövrdə atəşkəs rejiminin tətbiq olunması ilə bağlı bütün razılaşmalar Ermənistan tərəfindən pozulub. Faktlar hazırda hərbi əməliyyatların başlanmasına görə məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü təsdiq edir.

**İkinci Qarabağ müharibəsi: Otuz ildə bizi başa düşməyənlərə otuz gündə çox şeyi başa saldıq**

[17:09] 27.10.2020

Ermənistanın hərbi təxribatından sonra Azərbaycan Ordusunun başlatdığı əks-hücum əməliyyatı artıq bir aydır ki, uğurla davam edir. Bu müddət ərzində bütün dünya Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsinin, xalqımızın birliyinin, Ordumuzun qüdrətinin şahidi oldu. Yalnız bir fakt söyləmək kifayət edir ki, uğurumuzu tam əks etdirə bilək: Bir neçə il ərzində işğal edilən ərazilər bir ay ərzində düşməndən geri alındı. Bu, əlbəttə ki, Azərbaycan Ordusunun qüdrətindən xəbər verir.

**Otuz gün: Ordu quruculuğu istiqamətində görülən işlərin nəticəsi**

1994-cü ilin mayında atəşkəs haqqında Bişkek Protokolunun qüvvəyə minməsindən 2020-ci il sentyabrın 27-dək olan müddətdə Azərbaycan Silahlı Qüvvələrinin formalaşdırılması, peşəkar ordu quruculuğu istiqamətində görülən işlərin nəticəsidir ki, bu gün düşmən döyüş meydanında darmadağın edilir.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi islahatları daha da genişləndirməklə davam etdirən Prezident İlham Əliyev Cənubi Qafqazın ən güclü Ordusunu formalaşdırdı.

Müasir silah-sursata, hərbi texnikaya, peşəkar kadrlara, yüksəksəviyyəli nizam-intizama malik Azərbaycan Ordusu bu gün bir daha sübut edir ki, qarşıya qoyulan bütün tapşırıqların icrasını həyata keçirmək iqtidarındadır.

Bu gün Ordumuz arsenalında olan ən müasir texnikadan yüksək peşəkarlıqla istifadə edərək düşmənə yaddaşlarına əbədi həkk olunacaq zərbələr endirir. Düşmən canlı qüvvə sarıdan minlərlə itki verib, bundan əlavə, Ermənistan ordusuna məxsus çoxlu sayda tank, döyüş maşınları, toplar, minaatanlar, tank əleyhinə vasitələr, "Qrad" qurğuları, "Uraqan" Yaylım Atəşli Raket Sistemi, zenit-raket kompleksləri məhv edilib və ya qənimət olaraq götürülüb. Bu texnikanın qiymətlərinin cəmi isə milyardlarla ölçülür.

"Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir". Prezident İlham Əliyevin 2018-ci il iyunun 26-da keçirilən hərbi paraddakı çıxışındakı bu fikirlər əslində Ermənistanın hərbi-siyasi rəhbərliyinə bir mesaj kimi də qiymətləndirilməli idi. Son illər təkcə ölkəmizin müdafiə xərclərinə ayırdığı pulun Ermənistanın dövlət büdcəsindən çox olması faktı bir daha sübut edir ki, düşmən heç bir halda bütün komponentlərdə onu üstələyən Azərbaycan Ordusunun qarşısında müqavimət göstərə bilməz.

**Otuz gün: 4 şəhər, 3 qəsəbə və 165 kənd işğalçılardan təmizlənib**

Azərbaycan Ordusu cəmi bir ay ərzində düşmənin ordusu haqqında illərdir formalaşdırdığı "yenilməzlik" mifini darmadağın etdi. Bu gün düşmən artıq Azərbaycan Ordusunun gücünü görür və onunla hesablaşmaqdan başqa yolunun olmadığını dərk edir.

"Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Biz 1990-cı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün hələ bir ay keçməyib artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Yenə də deyirəm, hər gün cəbhədən yaxşı xəbərlər gəlir". Bu fikirləri Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirilən operativ müşavirədəki çıxışında səsləndirilib.

Bir ay ərzində 4 şəhər, 3 qəsəbə və 165 kənd, Murov dağındakı yüksəklik işğalçılardan təmizlənib. Hər bir kəndin, yüksəkliyin işğaldan azad edilməsi uğrunda rəşadətlə mübarizə aparan Ordumuz hər gün, hər saat böyük tarixi nailiyyətlərə imza atıb.

Nəzərə almaq lazımdır ki, düşmən işğal altında saxladığı ərazilərdə güclü müdafiə istehkamları qurmuşdu. Bu müdafiə səddinin qırılması, sadəcə, böyük qəhrəmanlıq tələb edirdi ki, Azərbaycan Ordusu da bu vəzifəni böyük peşəkarlıq və şücaətlə yerinə yetirdi.

Beləliklə, bu 30 gün ərzində düşmənə başa sala bildik ki, nəinki Ermənistan ordusu, hətta bu illər ərzində onun qurduğu və keçilməz saydığı sədlər belə Azərbaycan Ordusunun qələbə əzminin qarşısında məhvə məhkumdur.

**Otuz gün: Azərbaycan müstəqil xarici siyasət kursuna sadiqliyini nümayiş etdirdi**

Hərbi əməliyyatlardan əvvəl, həmçinin əks-hücum əməliyyatının ilk günündən başlayaraq müxtəlif dövlət və hökumət başçıları, beynəlxalq təşkilatlar, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri dəfələrlə münaqişənin hərbi həlli olmadığına dair bəyanatlarla çıxış etdilər.

Azərbaycan Prezidenti oktyabrın 9-da xalqa müraciəti zamanı bir daha bu cür bəyanatlar səsləndirənlərə cavab verərək dedi: "Azərbaycan xalqı da bunu vasitəçilərdən, bəzi beynəlxalq təşkilatların rəhbərlərindən dəfələrlə eşidib ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən isə demişdim ki, bu tezislə razı deyiləm və mən haqlı çıxdım, mən! Otuz ilə yaxındır danışıqlar aparılır. Bir məsələ yerindən tərpəndi? Bir santimetr torpaq bizə danışıqlar yolu ilə verildi? Təcavüzkarı məcbur etdilərmi ki, bizim torpağımızdan çıxsın, BMT Təhlükəsizik Şurasının qətnamələrini yerinə yetirsin? Yox. Bəs, bu məsələ indi necə həll olunur? Bu, hərbi yol deyilmi? Məhz hərbi yolla bu məsələ həll olunur".

Bəli, Azərbaycan Prezidentinin xalqın milli maraqlarına söykənən xarici siyasətinin nəticəsidir ki, heç bir kənar qüvvə bu gün bizim ədalətli mübarizəmizə mane ola bilmir. Hər zaman xalqına arxalanan Azərbaycan Prezidenti bütün təzyiqləri dəf edir və hər kəsə layiq olduğu cavabı verir.

Xarici media jurnalistlərinin lentə aldığı kadrlardan da göründüyü kimi, Azərbaycan Prezidentinin dərin məzmunlu çıxışlarını Dağlıq Qarabağda yaşayan erməni əhali də böyük maraqla izləyir. Yəqin ki, otuz gün ərzində onlar da başqasının torpağını işğal edib, orada əbədi yaşaya bilməyəcəklərini başa düşüblər.

Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan Prezidenti də çıxışlarında Dağlıq Qarabağın erməni icmasının üzvlərinin Azərbaycan vətəndaşları olaraq ləyaqətli yaşamalarının təmin ediləcəyini söyləyib.

Bu gün Azərbaycanın münaqişənin həlli üçün illər ərzində formalaşdırdığı hüquqi bazanın da böyük önəm daşıdığı qeyd olunmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə yanaşı, BMT Baş Assambleyasının, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, Avropa Parlamentinin və digər təşkilatların münaqişə ilə bağlı qəbul etdikləri sənədlərdə ölkəmizin suverenliyi, sərhədlərimizin toxunulmazlığı və ərazi bütövlüyü haqqında xüsusi müddəalar yer alıb. Təbii ki, bütün bunlar da döyüş meydanında uğur qazanan Azərbaycanın beynəlxalq müstəvidə də bu nailiyyətlərinə hüquqi əsas yaratmağa imkan verir.

**Otuz gün: Bütün dünya həmrəyliyimizin şahididir**

Bu günlər ərzində bütün dünya Azərbaycan xalqının həmrəyliyinin, Ali Baş Komandanına inamının şahidi oldu.

Bu müddət ərzində düşmən müxtəlif təxribatlara əl ataraq bu birliyi sarsıtmağa cəhdlər etdi. Lakin başa düşmədi ki, bu xalqı daha da birləşdirən onun keçdiyi ağır günlər olub. Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqla, dinc insanları, uşaqları qətlə yetirməklə xalqımızı parçalamaq gücündə deyil. Prezidentin "Biz birlikdə güclüyük!" şüarı ətrafında bir yumruq kimi birləşən xalqın qalib ölkənin qalib vətəndaşı olmaq üçün çıxdığı yolda düşmənin silahı yerə qoyub, ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yoxdur. Bəli, artıq 30 gün ərzində düşmən də bunu başa düşür.

**Əsəd Məmmədov,**
**AZƏRTAC-ın redaksiya müdiri**

**AZƏRTAC**

## BMT böyük dövlətlərin əlində təsir mexanizmli təşkilata çevrilib

[18:15] 27.10.2020

1995-ci ildən sonra ilk dəfə olaraq Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Dağlıq Qarabağda başlanılan Vətən müharibəsinin 2-ci günü, yəni, sentyabrın 29-da Estoniya və Almaniya dövlətlərinin təklifləri əsasında mövcud hərbi vəziyyətlə bağlı məsələyə baxılıb və hər hansı bir yekun sənəd səsləndirilməyib.

Dağlıq Qarabağ ətrafında yerləşən rayonlarımız (Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı) Azərbaycanın rəşadətli Ordusu tərəfindən işğaldan azad olunub, oradakı terrorçu qruplaşmalara və Ermənistanın silahlı qüvvələrinə aid hərbi texnika məhv edilib.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Məzahir Əfəndiyev deyib.

Deputat qeyd edib ki, ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri humanitar atəşkəsin imzalanmasına dair birgə bəyanat səsləndirdikdən sonra Rusiya və Fransanın təklifləri əsasında oktyabrın 19-da BMT Təhlükəsizlik Şurası bir daha münaqişənin həlli ilə bağlı müzakirə keçirib və bəyanat hazırlayıb. Lakin təəssüflə qeyd olunmalıdır ki, dünyadakı siyasi riyakarlıq və ikili standartlar burada da özünü göstərib. Bu bəyanatda 1993-cü ildə münaqişənin ədalətli həlli istiqamətində qəbul olunan məlum dörd qətnaməyə heç bir istinad edilməyib. Yalnız BMT Təhlükəsizlik Şurasının digər qeyri-daimi üzvləri və Qoşulmama Hərəkatının üzv dövlətlərinin BMT-dən fərqli israrlı və prinsipial mövqeyindən sonra bəyanat qəbul olunmayıb və rəsmən geri götürülüb. Bununla da həmin dövlətlər BMT Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, Bandunq prinsiplərinə - dövlətlərin ərazi bütövlüyünə hörmət, daxili işlərə qarışmamaq, qarşılıqlı mənafelərin qorunması və sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyi, Qoşulmama Hərəkatının sənədlərinə sadiqliyini növbəti dəfə nümayiş etdiriblər.

“Beləliklə, BMT-nin öz Nizamnaməsini yerinə yetirə bilməməsinə dair fikirlər artıq təsdiqini tapır. BMT böyük dövlətlərin əlində təsir mexanizmli təşkilata çevrilməklə 2020-ci ildə demək olar ki, olan-qalan nüfuzunu da itirdi. ATƏT-in Minsk qrupunun həmsədr institutu isə artıq ədalətli qərarlar qəbul etmək şansını tamamilə itirib. BMT Təhlükəsizlik Şurasının bu biabırçı vəziyyətdən çıxmasına, yuxarıda qeyd olunduğu kimi, Qoşulmama Hərəkatının üzv dövlətləri kömək etməyə çalışır və hesab edirəm ki, Təhlükəsizlik Şurasının oktyabrın 19-da keçirilən iclasında nümayiş etdirdiyi ikili standartlara söykənən siyasi oyunbazlıq bütün dünya üçün ibrət olmalıdır”, - deyə deputat qeyd edib.

M.Əfəndiyev bildirib ki, bu gün Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirən nümunəvi üzv dövlətdir. Eyni zamanda, Azərbaycan Qoşulmama Hərəkatına şərəflə, ləyaqətlə rəhbərlik etməkdədir. Ölkəmiz Qoşulmama Hərəkatının prinsiplərinə uyğun verilmiş bütün qərarların icrasına nəzarəti gücləndirərək, dünyada haqqın, ədalətin bərqərar olunması üçün bütün imkanlarını bundan sonra da səfərbər edəcək.

“Bütün Azərbaycan xalqı, başda Müzəffər Ali Baş Komandan olmaqla ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunanadək haqq-ədalət mübarizəsini aparacaq, heç vaxt bu yoldan dönməyəcək. Nə qədər ki, gec deyil dünya dövlətlərini BMT-nin sülhün, əmin-amanlığın qorunması prinsiplərinə sadiq qalması, haqqın, ədalətin bərqərar olunması üçün bu təşkilata təsir göstərməyə çağırıram”, - deyə deputat vurğulayıb.

**AZƏRTAC**

**Anar Eyvazov: Ermənistan silahlı qüvvələrinin bölmələri humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozub**

[20:18] 27.10.2020

Ötən müddət ərzində humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozan Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini, o cümlədən Zəngilan rayonunun Ağbənd kəndi istiqamətindəki ərazilərimizi müxtəlif silahlardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 27-də Hərbi İnformasiya Mərkəzində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, vəziyyəti daha da gərginləşdirmək istəyən düşmən yaylım atəşli reaktiv sistemlərdən və artilleriya qurğularından istifadə etməklə cəbhəboyu bölgəyə yaxın bir sıra yaşayış məntəqələrimizə də atəş zərbələri endirib. Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində hücum etməyə cəhd edən düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Keçirilən adekvat tədbirlər nəticəsində düşmən diviziyalarından birinin qərargah rəisi daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir tankı, dörd artilleriya qurğusu, “Osa” tipli zenit raket kompleksi, “Qrad” tipli yaylım atəşli reaktiv sistemi, radiolokasiya stansiyası və altı avtomobil texnikası və diviziyasının əsas komanda məntəqəsi bölmələrimiz tərəfindən məhv edilib. Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Ermənistan ərazisini guya pilotsuz uçuş aparatı və raket-artilleriya sistemlərindən atəşə tutmağımız barədə düşmənin yaydığı məlumat növbəti dezinformasiyadır. Yeni humanitar atəşkəs rejiminə tam riayət edən bölmələrimiz bütün cəbhəboyu düşmənin törətdiyi təxribatlara təmkinlə yanaşaraq yalnız adekvat tədbirlər görür.

“Ermənistan cəbhənin müxtəlif istiqamətləri, xüsusilə də bərpa edilmiş dövlət sərhədləri üzrə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməyə hesablanmış təxribatçı hərəkətlərinə son qoymalıdır. Ermənistan rəhbərliyi dərk etməli və hesablaşmalıdır ki, bərpa edilmiş dövlət sərhədləri artıq münaqişə bölgəsi deyil və Azərbaycanın tamhüquqlu suveren ərazilərini müəyyən edən, beynəlxalq birlik tərəfindən tanınan dövlət sərhədidir. Dövlət sərhədinin toxunulmazlığı təmin edilməlidir. Bu istiqamətdə baş verən istənilən təxribat ərazi bütövlüyümüzə təcavüz kimi dəyərləndirilir. Bu baxımdan bir daha bəyan edirik ki, Azərbaycan öz ərazilərinə təhdid edən istənilən legitim hərbi hədəfləri yerləşdiyi ərazidən asılı olmayaraq məhv etmək hüququna malikdir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Cəbhədə oktyabrın 28-nə olan son vəziyyət**

[08:45] 28.10.2020

Humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-si gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb, o, itki verərək geri çəkilib.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var. Onun bir neçə döyüş texnikası məhv edilib. Düşmənin artilleriya bölməsinə atəşlə zərərvurma nəticəsində atəş mövqeyində onun toplarla bir yerdə döyüş sursatları da məhv edilib.

Məlum olub ki, düşmənin avtomobil texnikalarının sayının əhəmiyyətli dərəcədə azalması ön xətdəki bölmələrin ərzaq, silah və sursatla təminatında problemlər yaradıb.

Ermənistandan toplanan hərbi vəzifəlilərin Azərbaycanın işğal olunmuş ərazilərinə göndərilməsi prosesi davam edir. Döyüşlərə cəlb etmək məqsədilə 2000 nəfərdən ibarət heyətin toplanması barədə tapşırığın verilməsinə baxmayaraq cəmi 300 nəfəri toplamaq mümkün olub. Hətta bir çox hərbi müqavilələr və polis əməkdaşları cəbhəyə getməkdən imtina edirlər.

Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd “Osa” ZRK, 3 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 “Qiasint-B” topu, 1 ədəd 120-mm minaatan, 1 ədəd “Konkurs” tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Ali Baş Komandan tarixi ədaləti uğurla və qətiyyətlə bərpa edir**

[11:57] 28.10.2020

Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyət, iradə, əzm, milli ruh və yüksək idarəçilik dəyərləri və rəhbərliyi, xalqımızın vətənpərvərlik duyğularının birgə həmrəyliyi ilə Azərbaycan Ordusu tarixinin ən şanlı və şərəfli qələbəsini qazanmaqdadır. Nəsillərdən bizə miras qalan ən ülvi hislərimizlə qələbə dəyərlərini gələcək nəsillərə daşıyırıq.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyevin "Müzəffər Ali Baş Komandan tarixi ədaləti uğurla və qətiyyətlə bərpa edir" sərlövhəli məqaləsində yer alıb. Məqaləni təqdim edirik.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək dinc sakinlərimizin qətlinə yönəlmiş məqsədlə bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutması, düşmən ordusunun açıq-aşkar yeni ərazi iddialarının və havadarlarına böyük etiqad və inamla regionda münaqişənin daha da gərginləşdirilməsi niyyətlərinin riyakar nümunəsidir. Azərbaycanın region və dünyada xüsusi əhəmiyyət və sürətlə artan nüfuzu, beynəlxalq təşkilatlarda həmsədrlik, söz haqqının olması, həyata keçirilən strateji layihələrlə ölkəmizin dünya iqtisadiyyatına verdiyi töhfələr düşməndə qıcıq və qısqanclıq yaratması, özünün müqayisəolunmaz dərəcədə bütün sahələrdə geriləməsinin nəticəsidir və təzahürüdür.

Milli Ordumuz sahib olduğu qətiyyət sayəsində Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması ordumuzun çeviklik və peşəkarlıq səviyyəsinin çox yüksək olmasını nəinki düşmənə bütün dünyaya nümayiş etdirdi. Qısa zamanda əldə olunan nailiyyətlər peşəkar idarəçilik, döyüş hazırlığının və hərbi vətənpərvərlik ruhunun daima yüksək olması şəxsi heyətin uğurla irəliləyərək Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikalarının aşkar edilərək məhv edilməsi və onların hərəkət trayektoriyasına nəzarət aparılmasına imkan verir. Azərbaycanın dünya miqyasında 50 ən güclü orduya sahib dövlətlərin siyahısında olması bizi çox qürurlandırır və yalnız qələbə ümidlərini yaşadır!

Hər bir Azərbaycan vətəndaşı artıq əmindir ki, hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası Ali Baş Komandanın güclü siyasəti və iradəsi, ordumuzun əzmi və qətiyyəti, xalqımızın həmrəyliyi sayəsində mümkündür.

**Vətən çağırışına olan mənəvi səfərbərliyimizin qarşısında düşmən tab gətirməyəcək!**

İllərlə düşmən tapdağı altında olan torpaqlarımızın çağırışına canı, qanı, ruhu və bütün varlığı ilə irəliləyən hər bir azərbaycanlı igid oğullarımıza, bu müqəddəs çağırışa "canım fəda" deyib şəhidlik zirvəsinə ucalan övladlarımıza və onlarla birgə yetişən və yetişməkdə olan nəsillərimizə qələbə sevincimizi yaşatmaq qədər ülvi hissləri yaşadığımız üçün çox qürurluyuq. Torpaqlarımızı işğaldan azad etməklə nəinki ərazi bütövlüyümüzü təmin edirik, eyni zamanda, illərlə kimsəsiz qalan, təhqir olunan, dağıdılan, ancaq hər daşı bir tarix danışan abidələrimizi, irsimizi, dəyərlərimizi və ənənələrimizi millətimizə geri qaytarmış və yenidən qazanmış oluruq. Azərbaycan hər zaman dünyada sülhün, tolerantlıq və dialoqun, mədəniyyətlər və sivilizasiyalara xüsusi hörmət, ehtiram və qayğısı ilə seçilən öncül ölkələr siyahısındadır. Ancaq buna baxmayaraq, işğal altında olan torpaqlarımızda tarixi abidələrimiz, maddi-mənəvi irsimizin qəsdən və riyakarcasına dağıdılması və təhqir olunması beynəlxalq hüquq və ədalət prinsiplərinə sığmayan vandalizm aktının şahidi oluruq. İşğaldan azad olunan rayon və kəndlərimizdə abidələrimizi, səfalı guşələrimizi yararsız və dağıdılmış vəziyyətdə görmək çox ağrılıdır. Müharibə şəraitində belə sahib olduğu humanizm dəyərlərinə sadiq qalaraq mülki insanlara, tarixi-dini abidələrə, sosial-ictimai obyektlərin təhlükəsizliyinə xüsusi həssaslıq və diqqətlə yanaşan Ali Baş Komandanımızla hər birimiz qürur duyuruq.

**Hər bir şəhid olan hərbçi və mülki şəxslərimizin qisasını alacağıq!**

Ermənistan hərbçilərinin hədəfinə çevrilmiş Azərbaycanın mülki əhalisinin raket və top atəşinə tutulması nəticəsində 69 nəfər həlak olmuş və 314 nəfər yaralanıb. Bu bir daha riyakar düşmənin hərb meydanında ağır məğlubiyyətinin nəticəsidir. Hərbçilərinin cəsədlərinin toplanmasına belə maraqlı olmayan düşmən ölkəsinin real siyasi, ictimai, sosial-iqtisadi vəziyyətinin necə olduğunu açıq-aşkar nümayiş etdirir. Düşmənin dünya ölkələrinə əsassız yalvarışları, müraciətləri nəticəsiz qaldığı halda Azərbaycan Ordusu cənab Ali Baş Komandanının güclü siyasəti və qətiyyətinə inanaraq, iradə və əzmi ilə zəfər çalır.

Prezident İlham Əliyev çıxışlarında da hər zaman xüsusi əhəmiyyətlə hərbi texnika və avadanlıqların istehsalı istiqamətində uğurlu inkişafı qeyd edərək daima yeni və strateji planların icrasını vurğulamışdır. Bütün həyata keçirilən fəaliyyət və uğurlu nəticələr bu gün ölkəmizin hərbi potensialının, döyüş qabiliyyətinin ən yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir və ordumuzun potensialını, güc və peşəkarlığını sübut etdirir. Ölkəmizin hərb potensialı və resursunu düzgün qiymətləndirə bilməyən, statistik göstəriciləri analiz etmək qabiliyyətinə malik olmayan Ermənistan hökuməti və dövləti ölümə göndərdiyi minlərlə əsgərlərin ana-atalarına cavab verməli olacaq! Azərbaycan öz ərazi bütövlüyü və torpaqları uğrunda döyüşür və zəfər çalır ancaq Ermənistan acgöz və riyakarcasına yeni ərazi iddiaları ilə, terror planları və regionda sülh və ədalət prinsipləri pozmaq məqsədləri ilə vətəndaşlarını məcburi surətdə ölümə göndərir. Bu əlbəttə ki, təbii bir haldır ki, Azərbaycan əsgərinin mübarizə və hərbi vətənpərvərlik ruhu ermənilərlə müqayisə olunmayacaq dərəcədədir, çünki xalqımız bu günləri, zəfər anlarının həsrətini illərlə gözlədiyi halda ermənilər özgə torpaqlarda öz xoşbəxtliklərini qurmağa cəhd edirdilər. Hər vasitə ilə status-kvonu öz maraqlarına uyğun şəkildə saxlayaraq tarixi, əbədi-əzəli torpaqlarımızdan öz mənfur terror siyasəti, Avropa və Qara dəniz hövzəsi ölkələrinə, həmçinin digər dövlətlərə narkotik maddələrin daşınmasının həyata keçirilməsi, Dağlıq Qarabağ ərazisindən narkotik tranziti, narkotiklərin becərilməsi, satılması, terrorçuların yetişdirilməsi üçün nəzarətsiz zona kimi istifadə edirdilər.

**Azərbaycan xalqı Ali Baş Komandanın qələbə müjdəsini hər an səbirsizliklə gözləyir**

Artıq 30 gündür güclü Azərbaycan Ordusunun, rəşadətli əsgərlərimizin şücaəti nəticəsində cəbhədən sevindirici xəbərlər alırıq və bu xəbərlər Azərbaycan Prezidentinin şəxsən özünün xalqa müraciəti ilə çatdırılır. Ali Baş Komandanın hər zaman səsləndirdiyi kimi “Bizim işimiz haqq işidir. Azərbaycan Ordusu hazırda öz torpaqları uğrunda döyüşür”.

Vətən Müharibəsi Azərbaycan Ordusunun uğurları və şücaəti ilə davam edir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hər gün cəbhədən aldığımız sevindirici xəbərlərlə, beynəlxalq KİV rəhbərlərinə verdiyi səlis və qətiyyətli müsahibələri ilə işğalçı Ermənistanı siyasi-diplomatik sferada da məğlubiyyətə uğradır.

**Xalqımız işğaldan azad olunmuş torpaqlara tezliklə qovuşacaq, həsrət sona çatacaq**

Müzəffər Azərbaycan Ordusunun hər bir uğurlu əməliyyatı, xalqımızın qələbə ruhlu və qətiyyətli millət kimi dünya tarixinin heç zaman unudulmayacaq səhifələrinə həkk olunmasına səbəb oldu. Şanlı Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərini, bir çox kəndləri, qəsəbələri və eyni zamanda, strateji yüksəklikləri işğaldan azad etməsini çox qürurverici həyəcan və sevinclə qarşıladıq. Azərbaycan xalqının həmrəylik nümayiş etdirərək Ali Baş Komandanın ətrafında sıx birləşməsi və yalnız qələbə ümidi ilə Azərbaycan Ordusuna dəstək olması həqiqətən çox həssas və qürurvericidir. Yaşlı bir azərbaycanlı nənənin nəvəsinə “Bala bircə dənə də olsa erməni tankı vurmasan geri gəlmə”, şəhid ana-atalarımızın “Vətən sağ olsun” demələri, erməni terroru nəticəsində gecə vaxtı evləri dağıdılan mülki şəxslərin Şanlı Ordumuzu “İrəli - Qələbəyə doğru” səsləmələri, körpə balalarımızın gözündəki qisas və qələbə əzmi milli kimliyimizi özümüzə xatırlatdı, güclü millət olduğumuzu, dəyərlərimizə sahiblənməyi bacaran, torpaqları və ərazi bütövlüyü uğrunda qorxmadan həlak olmağı və öldürməyi bacaran məğrur və qalib millət olduğumuzu növbəti dəfə özümüzə və bütün dünyaya sübut etdi. Hər bir evdə, hər ocaqda hər qarış torpağımızda qalib Azərbaycan bayrağımız var. Bu əzmin, ruh yüksəkliyinin, iradə və qətiyyətin qarşısında heç bir düşmən dayana bilməyəcək!

Qarabağ uğrunda mübarizə bizim haqq və ədalət savaşımızdır. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc yaşayış məntəqələrinə hərbi təcavüzü davam edir**

[15:05] 28.10.2020

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc yaşayış məntəqələrinə hərbi təcavüzü davam edir.

AZƏRTAC xəbər verir ki, bunu oktyabrın 28-də ADA Universitetində səfirlər üçün keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, Ermənistan hərbi birləşmələri Azərbaycanın Gəncə şəhərində, Bərdə və digər rayonlarında dinc sakinləri atəşə tutur. Dünən Bərdəyə atılan raket nəticəsində biri uşaq olmaqla 4 nəfər həlak olub, 14 nəfər mülki şəxs yaralanıb. Bu gün Ermənistanın daha bir terrorunun şahidi olduq. Onlar Bərdədə dinc sakinləri yenidən atəşə tutublar. Əsasən şəhərin mərkəzinə raket zərbələri endirilib, ölən və yaralananlar var. Bu dünya bəşəriyyətinə qarşı atılan addımdır.

Hikmət Hacıyev bildirib ki, Ermənistan tərəfi, həmçinin dünyanın mədəni irsinə də təcavüz edir. Beynəlxalq humanitar hüququn normalarında da birmənalı olaraq mədəni irsin qorunmasına dair müddəalar var. Ermənistan bu müddəaları da pozur. Biz, ümumiyyətlə, mədəni irsə qəsdin şahidi oluruq. Ermənistanın davam edən təcavüzkarlığı insanlara dünyasını dəyişən qohumlarının məzarlarını ziyarət etməyə də imkan vermir. Qəbiristanlıqlar, qəbirüstü abidələr atəşə tutulur, dağıdılır. Ermənistan işğal olunan ərazilərdə də mədəni, dini abidələri məhv edib. Şuşadakı məscidin dağıdılması bunun bariz nümunəsidir. Müqəddəs məbədlərdə mal-qara saxlayan Ermənistan təkcə insanlara deyil, həm də mədəni irsə təcavüz edir. Münaqişə başlayandan indiyə kimi Azərbaycan UNESCO-nun mədəni abidələrinin qorunması müddəalarına əməl edir. Mədəni abidələrin qəsdən dağıdılması cinayətdir. Hazırda Azərbaycan Silahlı Qüvvələri sülhməramlı niyyətini həyata keçirir, sülhün bərqərar olunmasını istəyir. Ermənistan isə təcavüzünü davam etdirir. Füzuli, Cəbrayıl, Zəngilan və işğaldan azad olunmuş digər ərazilərdə biz bu faktların şahidi olmuşuq. Dini abidələrdə mal-qara saxlamaq da bir qəsddir.

Prezidentin köməkçisi bildirib ki, Gəncə şəhərindəki məbəd də Ermənistan tərəfindən dağıntıya məruz qalıb. Bunu təəssüf hissi ilə qeyd edirik və dünya ictimaiyyətinin diqqətinə çatdırırıq. Azərbaycan tərəfindən heç bir mədəni abidə dağıdılmayıb. Əksinə, həmin abidələrin qorunması üçün əlimizdən gələni əsirgəmirik. Əgər bu, davam edərsə, Ermənistan daha çox abidənin dağıdılmasına səbəb olacaq.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının 13 kəndini işğaldan azad edib**

[16:34] 28.10.2020

Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Heç bir təxribat qələbə əzmimizə və zəfər yolumuza mane ola bilməz**

[20:05] 28.10.2020

Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə dinc əhaliyə qarşı "Smerç" tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində mülki əhalimiz arasında xeyli sayda ölənlər və yaralılar var. Azərbaycan Ordusu ilə üzləşməyi bacarmayan qorxaq düşmən bu dəfə də xaincəsinə mülki əhalimizi və yaşayış məntəqələrimizi atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 28-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ali Baş Komandanımızın qeyd etdiyi kimi, Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara bundan sonra da layiqli cavab veriləcək. Təkcə Bərdəni deyil, ötən müddət ərzində humanitar atəşkəs rejimini kobud şəkildə pozan düşmən Ermənistanın Berd, Çəmbərək, Vardenis və Gorus rayonları ərazisindən və işğal edilmiş ərazilərdən cəbhənin müxtəlif istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini və cəbhəboyu bölgəyə yaxın yaşayış məntəqələrimizi artilleriya qurğularından, o cümlədən "Smerç" və "Qrad" tipli yaylım atəşli reaktiv sistemlərdən atəşə tutub. Bundan başqa, Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində hücuma cəhd edən düşmən bölmələrimizin qətiyyətli zərbəsi ilə itki verərək geri çəkilməyə məcbur edilib. Nəticədə düşmənin xeyli sayda canlı qüvvəsi, bir neçə döyüş texnikası, o cümlədən "Osa" tipli zenit raket kompleksi, "Konkurs" tipli tank əleyhinə raket kompleksi, 3 "Qrad" tipli yaylım atəşli reaktiv sistemi, 2 "Qiasint" topu, 12 artilleriya topu, minaatan və 6 avtomobil texnikası dəqiq atəş zərbələri ilə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünün rəsmi "Twitter" hesabında qeyd etdiyi kimi, həyata keçirilən tədbirlər nəticəsində Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının ümumi olaraq 13 kəndi azad olunub.

"Ermənistanda hərbi müqavilələr və polis əməkdaşları Azərbaycan Ordusu ilə döyüşə girməkdən imtina edirlər. Düşmənin ordu rəhbərliyi şəxsi heyət çatışmazlığını aradan qaldırmaq üçün 2000 nəfərdən ibarət heyətin toplanması barədə göstəriş verməsinə baxmayaraq, heç 300 nəfəri də yığa bilməyiblər. Eyni zamanda, düşmən bölmələrində ərzaq, silah, sursat və nəqliyyat vasitələrinin çatışmazlığı kəskin olaraq özünü büruzə verib.

"Düşmən bilməlidir ki, Azərbaycanda dövlət–xalq-ordu birliyi sarsılmazdır. Heç bir təxribat qələbə əzmimizə və zəfər yolumuza mane ola bilməz. Humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələri ordumuz tərəfindən darmadağın edilib. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

## Prezident İlham Əliyev İran Prezidentinin xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

[20:15] 28.10.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də İran İslam Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Seyid Abbas Əraqçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər ki, qonaqları salamlayan **Prezident İlham Əliyev** dedi:

-Xoş gəlmisiniz. Şadam sizi görməyimə.

Artıq bir aydır ki, müharibə gedir. Bizim xalqımız üçün bu, Vətən müharibəsidir. Biz torpaqlarımızı işğalçılardan azad edirik. Bu, beynəlxalq hüququn və tarixi ədalətin bərpasıdır.

Bu gün bir neçə kənd işğalçılardan azad edildi. Ancaq Ermənistan namərd hücumlarla bizim mülki vətəndaşlarımızı hədəfə alıb. Bir neçə saat bundan əvvəl Bərdəyə bir neçə raketlə atəş açmışdır və bu atəş nəticəsində 21 nəfər mülki şəxs həlak oldu, 70-dən çox dinc insan yaralandı. Ölənlərin sayı arta bilər.

Dünən də Ermənistan Bərdəyə, yenə də mülki əhaliyə zərbə vurmuşdur. Bu zərbə nəticəsində dörd nəfər həlak oldu, onlardan biri yeddi yaşlı qız uşağıdır. Döyüş meydanında qabağımızda dura bilməyən Ermənistan bax, belə əxlaqsız addımlarla bizə zərbə vurmaq istəyir, bizi durdurmaq istəyir. Amma buna nail ola bilməyəcək.

Bir də ki, üçüncü dəfə elan olunmuş və Ermənistanın xahişi ilə razılaşdırılmış atəşkəsi kobudcasına pozur. Birinci dəfə oktyabrın 10-da Moskvada o məlum bəyannamə qəbul olunandan sonra bir gün keçməmiş Ermənistan öz ərazisindən ballistik raketlərlə Gəncə şəhərini atəşə tutmuşdur. Hər kəs bilir ki, bu atəşkəsi Ermənistan pozub, bu dəfə də Ermənistan pozub. İndi işğaldan azad edilmiş şəhər və kəndlərimizdə mövcud olan vəziyyət tam aydındır. Demək olar ki, bütün şəhər və kəndlərimiz dağıdılıb. Qəbirlər, tarixi abidələr, bütün binalar dağıdılıb. Elə bil ki, vəhşi qəbilə bu torpaqları işğal altında saxlayıb. Bizim məscidlərimiz ermənilər tərəfindən dağıdılıb və təhqir edilib. Zəngilan rayonunda ermənilər tərəfindən dağıdılmış məsciddə onlar donuz saxlayırdılar. Bu kadrlar internetdə var. Bütün dünya, bütün müsəlman aləmi görür ki, biz hansı vəhşilərlə mübarizə aparırıq. Amma bir daha demək istəyirəm ki, bizi heç nə durdura bilməz. Əgər Ermənistan öz xoşu ilə işğal edilmiş qalan torpaqlardan çıxmasa, onları oradan da qovacağıq.

Məmnunluq hissi ilə deyə bilərəm ki, Azərbaycan-İran dövlət sərhədi tam bərpa edilib. Bu münasibətlə mən Azərbaycan və İran xalqlarını təbrik etmişəm. Göstəriş vermişəm ki, bizim sərhəd xidmətimiz tezliklə bu sərhədin bütün mühafizə infrastrukturunu yaratsın. Bu işlərə start verildi. İran-Azərbaycan sərhədinin digər istiqamətlərindəki kimi, bu istiqamət də dostluq, qardaşlıq sərhədi olacaqdır.

Bildiyiniz kimi, bir neçə il bundan əvvəl Xudafərin və Qız qalası hidroqovşaqları və su anbarları haqqında İran-Azərbaycan müqaviləsi imzalanmışdır. Mən indi hökumətə göstəriş vermişəm ki, biz tərəfdən işçi qrup yaradılsın. Mən xahiş edirəm ki, İran tərəfindən də müvafiq qurum təhkim edilsin ki, tezliklə bu məsələləri müzakirə edək və bu obyektin birgə istismarı haqqında razılığa gələk.

Xahiş edirəm ki, hörmətli cənab Prezident Həsən Ruhaniyə mənim təşəkkürümü çatdırın. O, bu müddət ərzində mənə telefonla zəng etmişdi. Bizim çox yaxşı söhbətimiz olub. Sizi də Azərbaycana ezam edib, biz bunu yüksək qiymətləndiririk. İran-Azərbaycan əlaqələri son illər ərzində çox sürətlə inkişaf edib və hesab edirəm ki, tarixdə ən yüksək səviyyəyə qalxıb. İmzalanmış bütün sənədlər və əldə edilmiş razılaşmalar icra olunur. Bizim möhkəm tarixi köklər üzərində qurulmuş əlaqələrimiz əminəm ki, gələcəkdə də uğurla inkişaf edəcək. Bir daha xoş gəlmisiniz.

**Seyid Abbas Əraqçi** dedi:

-Cənab Prezident, mənə vaxt ayırdığınıza görə çox təşəkkür edirəm.

Hər şeydən əvvəl bu gün Bərdə şəhərinin raket hücumuna məruz qalması ilə əlaqədar həyatını itirmiş mülki insanlara, dinc insanların ölümünə səbəb olmuş bu hadisə ilə əlaqədar, orada şəhid olmuş insanlarla əlaqədar Sizə, Azərbaycan xalqına, Azərbaycan dövlətinə başsağlığı vermək istəyirəm. Siz də yaxşı bilirsiniz ki, İran İslam Respublikası elə ilk günlərdən Azərbaycanın ərazilərinin işğal olunmasına müxalif olub və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Mən özümə borc bilirəm, son günlərdə Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi qələbələr, işğal olunmuş ərazilərin bir hissəsinin azad edilməsi münasibətilə Sizi təbrik etmək istəyirəm. Bu yolda öz canını fəda edən bütün şəhidlər qarşısında baş əyirəm.

Cənab doktor Həsən Ruhaninin isti salamlarını Sizə çatdırıram.

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Hərbi-siyasi nizamlama yeganə mümkün yoldur**

[22:00] 28.10.2020

Azərbaycan Ordusu döyüş meydanında öz üstünlüyünü sübut etdi. İşğal edilmiş ərazilərin xeyli hissəsi bu bir ay ərzində azad olundu. Erməni tərəfinin təqribən 30 il ərzində işğal olunmuş torpaqlarda möhkəmləndirilmiş rayonlar yaratmasını nəzərə alsaq, orada bir neçə müdafiə xətti var idi. Ərazinin relyefi də erməni tərəfi üçün daha əlverişlidir, çünki ora dağlıq ərazidir və bizim hərbi qulluqçular əks-hücum əməliyyatlarını həyata keçirərkən həm mühəndis qurğularını, həm də dağlıq relyefi adlamalı olurdu. Buna görə də bütün bu amillər nəzərə alınmaqla, ölkəmizin ərazilərinin xeyli hissəsi bir ay ərzində azad edildi və bu, göstərir ki, Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu fikirləri Rusiyanın İnterfaks agentliyinə müsahibəsində ötən bir ayı münaqişənin hərbi-siyasi nizamlanması baxımından dəyərləndirərkən söyləyib.

Dövlətimizin başçısı sözünə davam edərək deyib: “Ölkələrin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır. Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, ən başlıcası mənəvi döyüş ruhu, əlbəttə ki, Azərbaycan Ordusunun texniki təchizatı da çox cəhətdən bizim uğurumuza kömək edib. Biz Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərini, Xocavənd rayonunun bir hissəsini azad etmişik. Azərbaycan Ordusunun uğurlu fəaliyyəti, uğurla irəliləməsi davam edir”.

Prezident qeyd edib ki, Azərbaycan münaqişənin nizamlanmasının hərbi mərhələdən siyasi mərhələyə keçməsini istəyir. “Lakin təəssüf ki, erməni tərəfi atəşkəs rejimini artıq üçüncü dəfə kobud şəkildə pozaraq, bizim azad etdiyimiz əraziləri yenidən işğal etməyə cəhd göstərərək qarşıdurmanı davam etməyə doğru yönəldir. Buna görə sizin sualınıza bir daha cavab verirəm - hərbi-siyasi nizamlama yeganə mümkün yoldur. Biz istərdik ki, hərbi faza danışıqlar masası arxasında başa çatsın, Azərbaycan ərazilərinin bundan sonra da işğaldan azad olunması məsələləri həll edilsin”, - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Cəbrayılın, Zəngilanın və Qubadlının 9 kəndini işğaldan azad edib**

[15:01] 30.10.2020

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır**

[19:34] 30.10.2020

Ötən müddət ərzində humanitar atəşkəs rejimini pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarını, o cümlədən Gorus rayonu istiqamətindən Qubadlı rayonunun ərazilərini raket və artilleriya vasitələrindən atəşə tutub. Cəbhənin əsasən Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində hücuma keçməyə cəhd edən düşmən bölmələrinin qarşısı qətiyyətlə alınıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 30-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, döyüş texnikası və canlı qüvvə baxımından xeyli sayda itki verən düşmən geri çəkilməyə məcbur edilib. Bərdə və Tərtər şəhərlərinə raket hücumları həyata keçirən düşmənin üç ədəd "Smerç" yaylım atəşli reaktiv sistemi və ermənilərin qondarma özünü müdafiə ordusu adlandırdıqları Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun komandan müavini, o cümlədən düşmənin xeyli sayda canlı qüvvəsi, "Qrad" yaylım atəşli reaktiv sistemi, "Osa" zenit raket kompleksi, P-18 radiolokasiya stansiyası, 2 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 10 ədəd artilleriya topu, piyada döyüş maşını, 3 ədəd tankı, 4 ədəd avtomobil texnikası və yeni istismara verilmiş raket-artilleriya silahları anbarı bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Azərbaycan Ordusunun uğurlu əməliyyatları çərçivəsində Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının ümumilikdə 9 kəndi işğaldan azad edilib.

"Uğursuz fəaliyyətlərini gizlətmək məqsədilə müxtəlif dezinformasiyalar yayan düşmənin guya Azərbaycan Ordusuna aid silah anbarının və pilotsuz uçuş aparatının məhv edilməsi ilə bağlı məlumatları həqiqəti əks etdirmir. Hazırda cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Ali Məhkəmə Ermənistan ordusunun Azərbaycanın dinc əhalisini hədəfə alması ilə bağlı bəyanat yayıb**

[16:42] 31.10.2020

Azərbaycan Respublikasının Ali Məhkəməsi Ermənistan ordusunun dinc əhalini hədəfə alması nəticəsində mülki şəxslərin həlak olması və xəsarət alması ilə bağlı bəyanat yayıb.

Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda qeyd olunub ki,

Ermənistan Respublikasının silahlı qüvvələri oktyabrın 27-də və 28-də rəsmi olaraq elan edilmiş humanitar atəşkəs rejimini yenidən pozaraq "Smerç" yaylım atəşli reaktiv sistemdən və beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə etməklə fəal hərbi zonadan təxminən 40 kilometr məsafədə yerləşən, sıx məskunlaşmış əhalisi olan Azərbaycan Respublikasının Bərdə şəhərinə zərbələr endiriblər.

Azərbaycanın mülki əhalisinə qarşı qəsdən və heç bir fərq gözlənilmədən törədilən hücumlar nəticəsində uşaqlar da daxil olmaqla 26 mülki şəxsin öldüyü və 83-dən çox insanın müxtəlif dərəcəli bədən xəsarəti aldığı bildirilir. Dinc əhali arasında itkilərlə yanaşı, mülki infrastruktura da ciddi ziyan dəyib. Bərdədə mülki əhaliyə qarşı qəsdən və heç bir ayırım gözənilmədən törədilən bu son hücumlar "Amnesty International", "Human Rights Watch" və digər insan hüquqları təşkilatlarının yayımladığı hesabatlarda ətraflı şəkildə sənədləşdirilib.

Ümumiyyətlə Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-dən başlayaraq Azərbaycana qarşı hücumları nəticəsində bu günədək 91 mülki şəxs öldürülüb, 400-dən çox insan müxtəlif dərəcəli bədən xəsarəti alıb və Azərbaycanın müxtəlif şəhər və qəsəbələrində xüsusi mülkiyyət daxil olmaqla 3000-dən artıq mülki obyekt məhv edilib və ya zədələnib.

Diqqətə çatdırılıb ki, Ermənistan silahlı qüvvələri bu günədək dinc əhaliyə öz ərazilərindən və işğal olunmuş Azərbaycan ərazilərindən atəş açmaqda davam edir. Ermənistan hökuməti Azərbaycanın işğal olunmuş ərazilərindəki cinayətkar rejimə hərbi, siyasi, maliyyə və digər maddi dəstək verir, o cümlədən silahlı qüvvələrini, hərbi texnikasını və "könüllülər" adlandırdıqları, əslində isə muzdlular olan şəxsləri suveren Azərbaycan ərazisinə göndərir.

Bu halları təsdiq edən xeyli sayda əsaslı sübutların olması nəzərə alınaraq, Azərbaycan hökuməti 2020-ci il oktyabrın 27-də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət göndərərək Məhkəmədən Ermənistanı yuxarıda göstərilən qanunsuz tədbirlərin dayandırılmasına, silahlı qüvvələrini və qanunsuz olaraq Azərbaycanda yerləşdirilmiş silahlılarını geri çəkməyə, Azərbaycana və onun vətəndaşlarına qarşı nifrət siyasəti yürütməkdən çəkindirməyə çağırmağı tələb edib.

Azərbaycan hökuməti, öz növbəsində silahlı qüvvələrin mülki şəxslərə hücum etməsinə və mülki insanlara zərər vuran hücumlara qarşı mütləq bir qadağaya riayət etməsini tələb edən beynəlxalq humanitar hüququn əsas prinsipinə həmişə əməl etdiyini bildirib. Azərbaycan silahlı qüvvələri mülki əhaliyə hücumlara olan qadağaya riayət edilməsinə dair bağlılığını bir daha təsdiqləyərək, əksinə, döyüş meydanında düşmənin hərbi hədəflərinə ciddi zərbələr endirir.

Beynəlxalq səviyyədə tanınmış öz sərhədləri daxilində dövlət suverenliyini bərpa etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsinə tam uyğun olaraq özünümüdafiə hüququnun həyata keçirilməsi nəticəsində son həftələrdə Azərbaycan Silahlı Qüvvələri Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərləri də daxil olmaqla, bir sıra şəhər və qəsəbələri erməni işğalından azad edib.

"Biz beynəlxalq ictimaiyyəti Bərdə şəhərinə və Azərbaycanın digər yaşayış məntəqələrinə qarşı törədilən terror aktlarını qətiyyətlə pisləməyə çağırırıq. İnsanlığa qarşı bu dəhşətli cinayətləri, o cümlədən 1992-ci ilin fevralında Xocalıda Azərbaycanın mülki əhalisinə qarşı törədilən misli görünməmiş soyqırımını törədənlər dərhal tutulmalı və ədalət mühakiməsinə cəlb olunmalıdırlar.

Biz ərazi bütövlüyünü bərpa etmək, Dağlıq Qarabağ və ona bitişik rayonları Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyan və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələrinin müddəalarını həyata keçirən Azərbaycan hökumətinin səylərini dəstəkləyirik", - deyə bəyanatda qeyd olunub.

Bəyanatı Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev imzalayıb.

Ali Məhkəmənin Bəyanatı dünya ölkələrinin, o cümlədən Avropa Şurasının üzv dövlətlərinin Ali Məhkəmələrinə göndərilib.

**AZƏRTAC**

**Azərbaycan QHT-ləri Ermənistanın qadağan olunmuş fosforlu silahdan istifadə etməsi ilə bağlı bəyanat yayıblar**

[18:14] 31.10.2020

Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları Ermənistanın qadağan olunmuş fosforlu silahdan istifadə etməsi ilə bağlı bəyanat yayıblar. AZƏRTAC bəyanatı təqdim edir.

Azərbaycan Ordusunun son 1 ayda işğal olunmuş ərazilərimizin böyük bir hissəsini, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları da daxil olmaqla 200 kənd və qəsəbəni azad etməsi, Ermənistanın döyüş meydanında darmadağın edilməsi, üçüncü ölkəni münaqişəyə cəlb etmək cəhdinin iflasa uğraması düşmənin ağır məğlubiyyətini qaçılmaz etmişdir.

Çarəsiz durumda olan Ermənistanın hərbi-siyasi rəhbərliyi vəziyyətdən çıxış yolu kimi Azərbaycanın münaqişə zonasından uzaqda yerləşən şəhər və rayonlarını ballistik raket atəşlərinə məruz qoyur və qadağan olunmuş kasetli bombalardan istifadə etməklə çoxlu sayda mülki əhalimizi qətlə yetirməkdə və yaralamaqda davam edir. Oktyabrın 31-nə olan məlumata əsasən, Ermənistanın törətdiyi hərbi cinayət nəticəsində 91 nəfər həlak olub, 404 nəfər isə yaralanıb.

Ermənistan insanlığa qarşı törədiyi cinayətlərin Azərbaycan xalqını qorxutmadığını və torpaqlarını işğaldan azad etməkdə qərarlı olduğunu görərək yeni və daha təhlükəli metodlara və təxribatlara əl atmağa başlayıb.

Belə ki, bu gün Azərbaycan Müdafiə Nazirliyinin verdiyi rəsmi məlumata görə, işğal altında olan Xocavənd istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının müdafiə sahəsindəki bölmələrinə xeyli sayda fosfor tərkibli yükün gətirildiyi barədə kəşfiyyat məlumatı daxil olub.

Ehtimal olunur ki, fosfor tərkibli döyüş sursatının qeyd olunan ərazilərə gətirilməsində Ermənistanın hərbi-siyasi rəhbərliyinin məqsədi, ilk növbədə, onun Azərbaycan Ordusunun bölmələrinə qarşı tətbiq edilməsidir. Digər tərəfdən isə həmin sursatın guya Azərbaycan tərəfindən əraziyə səpələndiyi barədə dezinformasiya yaymaqdır.

Artıq Ermənistanın təbliğat maşını guya Azərbaycan Ordusunun ağ fosfor tərkibli silah tətbiq etməsi barədə yalan və saxta məlumat yayaraq gələcək təxribatlar üçün zəmin yaratmağa başlayıb. Belə ki, bu gün Ermənistan silahlı qüvvələri Şuşa meşələrində qadağan olunmuş ağ fosfordan istifadə etməklə qəsdən yanğın törətmiş və bunu Azərbaycanın üzərinə atmağa çalışmışdır. Ermənistanın qadağan olunmuş fosforlu silahdan istifadə etməsi qəbul olunmuş müvafiq beynəlxalq konvensiyaların növbəti dəfə kobud şəkildə pozulması və dəhşətli müharibə cinayəti aktıdır.

Hesab edirik ki, aidiyyəti beynəlxalq təşkilatlar Ermənistan tərəfindən törədilən bu hərbi cinayətə laqeyd qalmamalı və ona adekvat qiymət verməlidir. Eyni zamanda, beynəlxalq ictimaiyyət Ermənistanın hərbi-siyasi rəhbərliyini tarix və hüquq qarşısında məsuliyyət daşıyacağı beynəlxalq cinayətlər törətməyi dayandırmağa, xalqının gələcək taleyini düşünərək işğal olunmuş Azərbaycan ərazilərini tərk etməyə, regionda sülhün və təhlükəsizliyin yaranmasına mane olmamağa çağırmalıdır.

Bəyanat 31 QHT tərəfindən imzalanıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib**

[12:08] 01.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, hörmətli Mövlud bəy, əziz qonaqlar.

Sizi görməyimə şadam. Sizin səfəriniz bir daha Türkiyə-Azərbaycan həmrəyliyini göstərir. Müharibənin ilk günlərindən, ilk saatlarından başlayaraq Türkiyə bizim yanımızdadır. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır, Azərbaycan tək deyil. Bu siyasi və mənəvi dəstək bu gün də davam edir. Həm hörmətli Prezident, eyni zamanda, Türkiyə Böyük Millət Məclisinin Sədri, siz - Xarici İşlər naziri, Müdafiə naziri və digər yüksəkvəzifəli şəxslər dəfələrlə Azərbaycana dəstək göstərmisiniz. Bu, bizi, Azərbaycan xalqını çox məmnun edir. Bu, bir daha göstərir biz bütün dövrlərdə - yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq. Bu siyasi və mənəvi dəstək əlbəttə ki, bizi ruhlandırır və biz haqq işimizi davam etdiririk.

Bildiyiniz kimi, əməliyyat uğurla davam etdirilir. Bu günə qədər bir çox kəndlər, şəhərlər, qəsəbələr işğalçılardan azad edilibdir, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri. Ümumiyyətlə, təqribən 200-ə yaxın yaşayış məntəqəsi düşməndən azad edilib və bu, davam edir. Mən hər həftə azad edilmiş yeni şəhərlər və kəndlər haqqında məlumat verirəm və ümid edirəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Mən bu müddət ərzində dəfələrlə bildirmişdim ki, biz istəyirik bu məsələ artıq danışıqlar masasında öz həllini tapsın. Ancaq Ermənistan buna imkan vermir, 3 dəfə elan edilmiş atəşkəsi kobudcasına pozmuşdur, o cümlədən Gəncəni ballistik raketlərlə bombalamışdır, ondan sonra Bərdə şəhərini bombalamışdır və çoxsaylı itkilərimiz olubdur. Bu, bir daha Ermənistanın qeyri-insani davranışını göstərir və onu göstərir ki, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu işğal əbədi olsun. Onlar bizim ordumuz tərəfindən azad olunmuş yaşayış məntəqələrini yenidən işğal etmək istəyirlər. Müharibənin davam etməsinin əsas səbəbi də məhz budur. Əgər Ermənistan artıq öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaqdır.

Ancaq ümid edirəm ki, bu proses uzun sürməyəcək. Çünki biz 30 il gözləmişik. Biz istəyirik ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş digər torpaqlardan çıxarılması danışıqlar masası arxasında qısa müddət ərzində təmin olunsun. Əks təqdirdə, biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa etməyə davam edəcəyik və dediyim kimi, sona qədər gedəcəyik.

Ermənistan faktiki olaraq öz məğlubiyyətini etiraf edib. Bildiyiniz kimi, bu yaxınlarda Ermənistanın baş naziri Rusiya Prezidenti cənab Putinə məktub göndərmişdir. Bu məktub, əslində, məğlubiyyətin etirafıdır. Çünki Rusiyadan hərbi dəstək istənilmişdir, halbuki, buna heç bir əsas yoxdur. Azərbaycan öz hərbi əməliyyatlarını beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycan ərazisində keçirir, Ermənistan ərazisində hər hansı bir əməliyyat keçirilmir, bizim belə planlarımız da yoxdur. Əgər olsaydı, biz bunu bu ilin iyul ayında edərdik. Bildiyiniz kimi, o vaxt dövlət sərhədində Ermənistan bizə hücum etmişdir və biz dövlət sərhədini keçmədən Ermənistanı öz torpaqlarımızdan çıxartdıq. Ona görə bir tərəfdən, məğlubiyyəti etiraf edir, - bu məktubun göndərilməsi bunu göstərir, - digər tərəfdən, tam təslim olmaq istəmir. Bu gün müharibənin davam etdirilməsi və hər iki tərəfdən itkilərin olması Paşinyanın üzərinə düşən böyük məsuliyyət və çirkin əməllər nəticəsində baş verir. Bütün məsuliyyət Ermənistan tərəfindədir və bu məğlubiyyəti etiraf edib torpaqlarımzdan çıxsa, danışıqlar masası arxasında məsələnin çözülməsi ən məqbul variantdır. Bir sözlə, bu məsələnin həlli artıq baş verir. Mən demişdim ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edir və təməl prinsiplərinin böyük hissəsini icra edibdir. Ümid edirəm ki, təməl prinsiplərinin qalan hissəsi də icra ediləcək və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Mən bu fürsətdən istifadə edərək, eyni zamanda, bu günlər ərzində bizə Türkiyə vətəndaşları, bizim qardaşlarımız tərəfindən göstərilən dəstəyə görə bütün qardaş Türkiyə xalqına təşəkkürümü bildirmək istəyirəm. Onlar mənə çoxsaylı məktublar göndərirlər, çox səmimi məktublardır və bu, bizim hamımızı duyğulandırır. Eyni zamanda, Türkiyənin media nümayəndələri də gecə-gündüz döyüş meydanlarında öz həyatlarını risk altına atırlar və bu görüntüləri dünya daha çox Türkiyə mediası vasitəsilə görür və bilir.

Gəncənin, Bərdənin namərdcəsinə bombalanmasından sonra buraya ilk gələn bizim Türkiyədən olan qardaşlarımızdır. Ona görə bu, bir daha Türkiyə-Azərbaycan birliyini göstərir. Hər zaman mən əziz Qardaşımla bu barədə danışanda biz bilirdik ki, bu birlik sözdə deyil, əməldədir və bunu bu gün bütün dünya bilir. Bir daha xoş gəlmisiniz.

**Mövlud ÇAVUŞOĞLU** dedi:

-Bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm, cənab Prezidentim.

Cənab Prezidentimizin təlimatı, tapşırığı ilə gəlmişəm. Hər gün özü ilə danışırsınız, ən azı gündə iki dəfə, amma yenə də Sizə salamlarını göndərdi. Prezidentimizin bizə bir tapşırığı var, bu prosesdə qardaş Azərbaycanı tək qoymayın və davamlı olaraq oraya - Bakıya gedin və birlikdə hərəkət edin. Müdafiə nazirimiz, digər yoldaşlarımız, Binəli bəy də gələcək, Məclis sədrimiz buradadır.

Biz Sizin döyüş meydanındakı qələbələrinizlə fəxr edirik. Bütün dünyaya türkün gücünü göstərdiniz, qürur duyuruq. İnşallah, öz əzəli torpaqlarımızı bu uğurlu əməliyyatlarla geri qaytaracağıq.

Qarabağ məsələsini, davam edən bu əməliyyatları vətəndaşlarımız çox yaxından izləyir və bizə daim “Azərbaycana daha çox dəstək verin, onu tək qoymayın”, - deyə xəbərdarlıqlar edirlər. “Bizi də cəbhəyə göndərin” deyən çoxları var. Əminəm ki, Sizə yazılan məktublarda da bunlar vardır.

**Prezident İlham ƏLİYEV:** Bəli, bəli.

**Mövlud ÇAVUŞOĞLU:** Bütün bu üstünlüyə - həm döyüş meydanındakı üstünlüyə, həm hüquqi üstünlüyə, həm də haqlı olmağımıza baxmayaraq, atəşkəs məsələsində və danışıqlarda da özünə güvənən bir dövlət və millət kimi Sizin liderliyinizlə Azərbaycan güclü dövlət olduğunu bütün dünyaya göstərdi. Bunu anlayan var, anlamayan var, anlamaq istəməyən var.

Ermənistanın da nə etdiyini və atəşkəsi hər dəfə pozduğunu hər kəs görür. Amma bunu söyləmək istəməyən çoxdur, biz bunu bilirik. Bu səbəbdən də biz öz aramızdakı həmrəyliyi daha da gücləndirərək haqqımızı müdafiə etməkdə davam edəcəyik.

**X X X**

Dövlətimizin başçısı Türkiyənin İzmir şəhərində zəlzələ zamanı həlak olanlarla bağlı bir daha başsağlığı verdi. Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

**Prezident: Ermənistan öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaq**

[14:47] 01.11.2020

Əməliyyat uğurla davam etdirilir. Bu günə qədər bir çox kəndlər, şəhərlər, qəsəbələr işğalçılardan azad edilibdir, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri. Ümumiyyətlə, təqribən 200-ə yaxın yaşayış məntəqəsi düşməndən azad edilib və bu, davam edir. Mən hər həftə azad edilmiş yeni şəhərlər və kəndlər haqqında məlumat verirəm və ümid edirəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşdə söyləyib.

“Mən bu müddət ərzində dəfələrlə bildirmişdim ki, biz istəyirik bu məsələ artıq danışıqlar masasında öz həllini tapsın. Ancaq Ermənistan buna imkan vermir, 3 dəfə elan edilmiş atəşkəsi kobudcasına pozmuşdur, o cümlədən Gəncəni ballistik raketlərlə bombalamışdır, ondan sonra Bərdə şəhərini bombalamışdır və çoxsaylı itkilərimiz olubdur. Bu, bir daha Ermənistanın qeyri-insani davranışını göstərir və onu göstərir ki, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu işğal əbədi olsun. Onlar bizim ordumuz tərəfindən azad olunmuş yaşayış məntəqələrini yenidən işğal etmək istəyirlər. Müharibənin davam etməsinin əsas səbəbi də məhz budur. Əgər Ermənistan artıq öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaqdır”, - deyə dövlətimizin başçısı qeyd edib.

**Zəngilan istiqamətində düşməndən növbəti hərbi qənimət götürülüb**

[16:25] 01.11.2020

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində gedən döyüşdə zərərsizləşdirilən düşmən bölmələrindən hərbi qənimət kimi silah və sursat götürülüb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən əldə edilən silah və sursatın videogörüntüsünü təqdim edir.

**AZƏRTAC**

**Düşmənin iki ədəd "Qrad"ı məhv edilib**

[18:04] 01.11.2020

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizin mövqelərini atəşə tutan düşmənin 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib.

AZƏRTAC-a bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda ordumuz əməliyyat şəraitinə tam nəzarət edir**

[20:07] 01.11.2020

Ötən sutka ərzində düşmən Tərtər və Ağcabədi rayonlarında yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Gorus rayonlarından Tovuz, Gədəbəy və Qubadlıda yerləşən bölmələrimizin mövqelərini artilleriya və digər atıcı silahlardan atəşə tutub. Əsasən Ağdərə, Ağdam, Xocavənd, Qubadlı və Zəngilan istiqamətlərində aparılan döyüş əməliyyatlarında ordumuzun cavab tədbirləri nəticəsində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd piyada döyüş maşını, dörd ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi, 8 ədəd müxtəlif tipli topu, 2 rabitə qülləsi, ikisi sursatla dolu olmaqla 7 ədəd avtomobil texnikası dəqiq atəş zərbələri ilə məhv edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 1-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi bildirib ki, düşmənə məxsus silah və sursat ələ keçirilib. Cəbhənin müxtəlif istiqamətlərində gün ərzində düşmənin iki artilleriya batareyası məhv edilib. “Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan Ordusunun Ermənistan ərazisində heç bir hərbi məqsədi yoxdur. Bununla yanaşı, biz xəbərdarlıq etmişik ki, Ermənistan ərazisindən bölmələrimizin mövqelərinə və yaşayış məntəqələrimizə atəş açan düşmən mövqeləri və döyüş vasitələri adekvat tədbirlər çərçivəsində legitim hərbi hədəflərə çevrilir”, - deyə o bildirib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusu müasir texnoloji silahlarla düşmənin komanda-idarəetmə məntəqələrini, raket və artilleriya vasitələrini, döyüş texnikasını və təminatını sıradan çıxararaq onu faktiki olaraq iflic vəziyyətinə gətirir. Müasir texnoloji silahlar ordumuzun güc alətlərindən yalnız biridir. Müharibənin taleyini müəyyən edən başda Müzəffər Ali Baş Komandanımız olmaqla döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandiridir. Məhz onların səyi nəticəsində iflic vəziyyətinə düşən Ermənistan ordusu arsenalında olan köhnə və istismar müddəti bitmiş silah sistemlərini də döyüşə cəlb edir.

"İstisna olunmur ki, Ermənistan ərazisindən Azərbaycanın mülki əhalisini hədəfə alan düşmənin bu tip sistemlərdən atdığı raketlərin bəziləri uçuş trayektoriyalarını dəyişərək işğal altında olan yaşayış məntəqələrinin və oradakı mülki obyektlərin üzərinə düşür. Hazırda ordumuz əməliyyat şəraitinə tam nəzarət edir. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Düşmən cəbhənin Zəngilan istiqamətində mövqelərimizə hücum etməyə cəhd göstərib**

[10:57] 02.11.2020

Noyabrın 1-də gün ərzində Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində Ermənistan silahlı qüvvələrinin bölmələri hücum etməyə cəhd göstərib.

AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, düşmən bu istiqamətdə bir sıra əlverişli yüksəklikləri ələ keçirmək məqsədilə minaatanlardan və müxtəlif iri çaplı silahlardan istifadə etməklə bölmələrimizin mövqelərini atəşə tutub.

Düşmənin hücuma keçmək niyyəti bölmələrimiz tərəfindən vaxtında aşkar edilib və həyata keçirilən uğurlu əməliyyat nəticəsində qarşı tərəf ciddi itkilərə məruz qalıb.

Döyüş nəticəsində canlı qüvvə sarıdan 30-dək itki verən düşmən, Ermənistan ərazisinə çəkilməyə məcbur edilib.

Bölmələrimizin şəxsi heyətinin sayıqlığı nəticəsində mövqelərimizə havadan hücum edən düşmənin Su-25 döyüş təyyarəsi də məhv edilib.

**AZƏRTAC**

**Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha bir neçə kəndini işğaldan azad edib**

[16:19] 02.11.2020

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

**AZƏRTAC**

## Anar Eyvazov: Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir

[18:52] 02.11.2020

Ötən sutka ərzində döyüş əməliyyatları cəbhənin əsasən Ağdam, Xocavənd, Qubadlı və Zəngilan istiqamətlərində davam edib. Düşmən bölmələri Ermənistanın Noyemberyan, Berd və Vardenis rayonlarından Qazax, Tovuz və Daşkəsəndə, o cümlədən cəbhənin müxtəlif istiqamətlərində yerləşən mövqelərimizi, həmçinin Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının kəndləri daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi atıcı silahlardan, raket və artilleriya vasitələrindən atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 2-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi bildirib ki, Zəngilan istiqamətində əlverişli yüksəklikləri ələ keçirmək məqsədilə hücum edən Ermənistanın hərbi qruplaşmaları bölmələrimiz tərəfindən vaxtında aşkarlanıb. Keçirilmiş uğurlu əməliyyatla düşmən itki verərək geri çəkilməyə məcbur edilib. Cəbhənin digər istiqamətlərində də ordumuzun fəaliyyəti nəticəsində düşmən şəxsi heyət və hərbi texnika baxımından itki verib. Səngərlərdə və yeraltı sığınacaqlarda gizlənən düşmənin canlı qüvvəsi Hərbi Hava Qüvvələrimizin zərbələri ilə məhv edilib. Hərbi sığınacaqlar darmadağın olunub.

Anar Eyvazov qeyd edib ki, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının ümumilikdə 8 kəndi işğaldan azad edilib. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi ilə yanaşı, 8 ədəd “Qrad” yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını, 5 ədəd digər avtomobil texnikası və mövqelərimizə hücum edən “Su-25” tipli döyüş təyyarəsi məhv edilib. Hazırda ordumuza qarşı döyüşən hərbi qruplaşmalarda silah-sursat, ərzaq və hərbi texnika üçün ehtiyat hissələri çatışmazlığı müşahidə olunur.

“Ordumuzun sayıqlığı nəticəsində düşmən bölmələrinin istənilən fəaliyyətinin qarşısı dərhal alınır. Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir. Bu gün Azərbaycan əsgəri Ali Baş Komandanımızın rəhbərliyi ilə döyüş meydanında düşməni ağır məğlubiyyətə uğradaraq Ermənistan rəhbərliyinin uzun müddətdir yaratdığı mifi yox edir. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Cəbhədə noyabrın 3-nə olan son vəziyyət**

[07:45] 03.11.2020

Noyabrın 2-də gün ərzində və 3-ə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd KUB zenit-raket kompleksi, 9 ədəd müxtəlif tipli topu və 2 ədəd sursatla dolu yük maşını məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**BERNAMA agentliyi Azərbaycan Ordusunun cəbhədəki uğurlarını geniş işıqlandırır**

[09:43] 03.11.2020

Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Azərbaycan Silahlı Qüvvələrinin işğal altında olan torpaqların azad olunması uğrunda gedən döyüşlərdə əldə etdiyi qələbələri geniş işıqlandırır.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, agentlik Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) istinadla Ermənistan tərəfindən uzun illərdir ki, işğal altında saxlanılan tarixi Azərbaycan torpaqları Dağlıq Qarabağın və ətraf rayonların azad olunması istiqamətində artıq bir aydan çoxdur ki, davam edən müharibə barədə malayziyalı oxuculara həm ingilis, həm də Malay dilində obyektiv xəbərlər çatdırır. Belə ki, agentliyin son məlumatlarında Azərbaycan hava hücumundan müdafiə qüvvələri tərəfindən Ermənistana məxsus SU-25 qırıcı təyyarəsinin məhv edilməsi barədə informasiya yer alıb. Bildirilir ki, bu, son dörd gündə Ermənistanın məhv edilən üçüncü hərbi təyyarəsidir.

Döyüşlərin gedişi ilə əlaqədar verilən digər məlumatda isə Azərbaycan Prezidenti İlham Əliyevin öz “Twitter” hesabında paylaşdığı daha bir neçə kəndin düşmən işğalından azad edilməsi barədə informasiya barədə xəbər verilir.

Həmin xəbərdə Azərbaycan Prezidentindən sitat gətirilərək deyilir: “Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”.

Xəbərlərdə münaqişənin tarixi və səbəbləri barədə də malayziyalı oxuculara geniş məlumatlar çatdırılır. Qeyd edilir ki, Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddialarına 1988-ci ildə başlanıb. 1992-ci ildə iki keçmiş sovet respublikası arasında müharibəyə çevrilən münaqişə xarici havadarlarına arxalanan Ermənistanın qələbəsi ilə yekunlaşıb. 1994-cü ilin mayında tərəflər arasında atəşkəs elan olunsa da, Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edib. Dağlıq Qarabağda yaşayan separatçı ermənilər müstəqil respublika elan etsələr də bu qondarma “dövlət” heç bir beynəlxalq qurum və dövlət tərəfindən tanınmayıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan ordusunun Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması barədə dörd qətnamə qəbul etsə də, Ermənistan hökuməti bu sənədləri icra etməyib.

Cari il sentyabrın 27-də Ermənistan ordusunun növbəti təxribatının qarşısını alan Azərbaycan Silahlı Qüvvələri əks-hücuma keçərək işğal altında olan torpaqları azad etməyə başlayıb.

**Vüqar Ağayev,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kuala Lumpur**

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Zəngilan istiqamətində düşmənin kəşfiyyat-diversiya qrupu məhv edilib**

[13:57] 03.11.2020

Noyabrın 2-də Azərbaycan Respublikasının Zəngilan rayonu istiqamətində Ermənistan ilə dövlət sərhədində düşmənin növbəti təxribatının qarşısı alınıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan ərazisindən bölmələrimizə hücum edərək dövlət sərhədindəki əlverişli yüksəklikləri ələ keçirməyə cəhd edən düşmənin kəşfiyyat-diversiya qrupu zərərsizləşdirilib.

Düşmən döyüş itkilərini və silah-sursatlarını ərazidə ataraq geri qaçmağa məcbur edilib.

**Anar Eyvazov: Ermənistanın Azərbaycanla dövlət sərhədindəki mövqelərimizi atəşə tutması ordumuzu açıq şəkildə təxribata çəkmək cəhdidir**

[16:33] 03.11.2020

Ötən sutka ərzində Ermənistanın Berd, Çəmbərək, Vardenis və Qafan rayonlarından Tovuz, Gədəbəy, Daşkəsən, Qubadlı və Zəngilanda yerləşən mövqelərimiz atəşkəs rejimini kobud şəkildə pozan düşmən tərəfindən atəşə tutulub. Ermənistanın, xüsusilə Azərbaycanla dövlət sərhədində yerləşən mövqelərimizi atıcı silahlar, top və minaatanlardan atəşə tutması təhrikedici mahiyyət daşımaqla ordumuzu açıq şəkildə təxribata çəkmək cəhdidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 3-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi qeyd edib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Cəbhənin bir neçə istiqamətindəki mövqelərimizə, xüsusən azad edilmiş ərazilərə yenidən hücumlar edən düşmən şəxsi heyət və texnika baxımından itkilər verərək geri çəkilməyə məcbur edilib. Sutka ərzində daimi dislokasiya məntəqəsində, səngərlərdə və atəş mövqelərində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd KUB zenit-raket kompleksi, 9 ədəd müxtəlif tipli topu, 2 ədəd sursatla dolu yük maşını və sursat anbarı, o cümlədən cəbhədə uçuş keçirməyə cəhd göstərən taktiki pilotsuz uçuş aparatı məhv edilib.

“Əminliklə deyə bilərik ki, Azərbaycan Ordusunun döyüş taktikası ilə məqsədyönlü şəkildə bütün istiqamətlərdə sıxışdırılan düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur edilir, həmçinin xeyli sayda hərbi qənimət ələ keçirilir. Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir”, - deyə Anar Eyvazov vurğulayıb.

Mətbuat katibi bildirib ki, Ermənistan tərəfindən fərqli olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatını beynəlxalq humanitar hüquq norma və prinsiplərinə uyğun olaraq həyata keçirir. Düşmənin canlı qüvvəsi və legitim hərbi hədəfləri dəqiq atəş zərbələri ilə məhv edilir. Pərakəndə şəkildə fəaliyyət göstərən düşmənin döyüş meydanındakı vəziyyətdən xəbəri olmayan hərbi-siyasi rəhbərliyi hələ də uydurma məlumatlarla daxili auditoriyaya təsəlli verir. Bu yalanlarla aldadılaraq işğal altındakı ərazilərə gətirilən döyüşçülərin məhv edilmədən öncə həqiqəti dərk etmələri və silahı yerə qoyub könüllü şəkildə təslim olmağı onların sağ qalmaları üçün yeganə yoludur. Qələbə bizimlədir.

**AZƏRTAC**

**Paşinyan öz ölkəsinin darmadağın olmasında təqsirkarlar axtarır**

[17:53] 03.11.2020

Ermənistan hökumətinin başçısı Nikol Paşinyan noyabrın 3-də "Jerusalem Post" nəşrinə müsahibəsində İsraili "iblis ilə müttəfiqlikdə" ittiham edib (bax: https://www.jpost.com/middle-east/armenian-pm-to-post-israel-joins-forces-with-the-devil-647790).

AZƏRTAC xəbər verir ki, Ermənistanın baş nazirinin sözlərinə görə, İsrail "Türkiyə ilə, suriyalı muzdlular və terrorçularla əlbir olaraq Dağlıq Qarabağ ermənilərinə qarşı soyqırımında iştirak edir". Qəzet xatırladır ki, Yerevan özünün İsraildəki səfirini geri çağırandan az sonra yəhudi dövlətinin başçısı Reuven Rivlin Paşinyana zəng vurub və onun ölkəsinə humanitar yardım təklif edib. Ermənistan hökumətinin başçısı müxbirin "Ermənistan bu yardımı almaqda maraqlıdırmı" sualına kobud şəkildə cavab verərək İsrailin həmin yardımı "muzdlulara və terrorçulara" göndərməsini məsləhət görüb, bununla da bir daha sübut edib ki, Paşinyan Yerevandakı Teatr meydanından yüksək hökumət kabinetinə keçməklə siyasətçi olmayıb, əvvəlki kimi xuliqan küçə uşağı olaraq qalıb.

Ümumiyyətlə, mən maraqlı bir xüsusiyyət müşahidə etmişəm. Hər dəfə erməni ordusu kiçik bir qələbə qazananda onu bu ordunun "rəşadəti", "istedadı", "mərdliyi" və s. kimi qələmə verirlər. Amma işləri özlərinin istədiyi kimi getməyəndə (yəni, döyüş meydanında zərbə alanda) "təbii ki," Ermənistan özündən başqa hamını təqsirkar hesab edir.

Birinci Dünya müharibəsi dövründə də belə olub. O vaxt Şərqi Anadoluda baş vermiş üsyan ara-sıra qələbələrlə (əlbəttə, "rəşadət" sayəsində) bərabər sonda məğlubiyyətlə müşayiət olunurdu ("Antantanın satqınlığı"nın nəticəsi). Bu gün də eyni vəziyyət müşahidə olunur.

Baş nazir Nikol Paşinyanın "Jerusalem Post" nəşrinə müsahibəsi Ermənistanın min illik göz yaşları tökməsi salnaməsinə daxil olacaq. Sən demə, Ermənistan ordusunun Qarabağda bugünkü məğlubiyyətlərində başqa ölkələrlə bərabər, İsrail də təqsirkar imiş. Onun təqsiri... Azərbaycana silah satmasıdır.

Fikir verin, bağışlamır ha, satır.

Yəni, əlin cibində olsun, sən də al. Kim sənə mane olur?

Amma yox! Ermənistanın dilənçi ölkə olması və özünü dolandıra bilməməsi, əlbəttə, onun yox, ətrafdakıların təqsiridir. Hamı "təqsirkardır", bircə Ermənistanın özündən başqa. Azərbaycan da "təqsirkardır" ki, onun zəngin resursları var, səmərəli iqtisadiyyat qura bilib. Hərçənd indiyə qədər başımız-qulağımız getmişdi ki, Ermənistan özünün intellektual potensialı hesabına ölkədə texnoloji cənnət, ikinci "Silikon vadisi", ikinci "İsveçrə" yarada bilər. Amma həmin potensial o qədər dərində gizlənib ki, indiyə qədər üzə çıxa bilmir.

Ey bizim "əziz" qonşularımız, son 30 il ərzində nəyə görə heç nə yaratmamısınız? Kim sizə mane olurdu? Axı, özünüz deyirdiniz ki, resurslar olmasa belə, intellekt hesabına güclü dövlət yaratmaq olar – yerin təkində heç bir sərvəti olmayan Yaponiya kimi, yaxud hər hansı təbii ehtiyatları olmayan Macarıstan kimi.

İşğal etdiyiniz Kəlbəcər, Laçın və Zəngilan rayonlarında Azərbaycanın ələ keçirdiyiniz qızıl yataqları sizə kömək etmədi? Siz 30 il ərzində bizim qızılı çıxarıb satırdınız. Axı bu, ilkin kapital kimi sizə "çatışmayan" resurslar idi. Bəs nə üçün siz (Azərbaycanın hərbi sənayesi kimi) yüksək dəqiqlikli silahlar istehsal edə bilən iqtisadiyyat yaratmamısınız, yaxud elə həmin İsraildən silahlar almamısınız? Sizin "intellekt xəzinəniz" hara getdi? Deməli, bizim qızılı xərcləyib yediniz?

"Hörmətli" Nikol Vayvayeviç! Ermənistandan fərqli olaraq Azərbaycan... (ölkənin adını demirik) pulsuz silah almır. Biz nə alırıqsa, halal pulumuzla alırıq. Amma sizə nədənsə pulsuz verilən silahlar da kömək etmir. İndi siz müftə canlı qüvvə almaq istəyirsiniz. Necə fikirləşirsiniz, pulsuz əldə etdiyiniz silahlar döyüş meydanında sizə nə üçün kömək etmir?

Cavab məlumdur: ona görə ki, "sizin özünüzdən başqa hamı təqsirkardır".

İndi də İsrail "təqsirkardır". "Jerusalem Post" nəşrində bu gün dərc edilmiş müsahibədə lap ağ eləmisiniz!

Əgər Azərbaycan ümumiyyətlə xaricdən silah almasa, bu silahları özündə istehsal etməyə başlasa (yeri gəlmişkən, o, tədricən buna başlayıb), onda kim "təqsirkar" olacaq?

Əlbəttə ki, sizdən başqa bütün dünya. Təqsir ondan ibarət olacaq ki, dünya Zori Balayanın sayıqlamalarına uyaraq qan tökməyə, onun ölkəsinin ələ keçirdiyi özgə torpaqlarını əldə saxlamasına kömək etməyib.

**Pərvanə Qarayeva,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Budapeşt**

**AZƏRTAC**

**Cəbhədə noyabrın 4-nə olan son vəziyyət**

[07:45] 04.11.2020

Noyabrın 3-ü gün ərzində və 4-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd D-30 topu, “Zastava M-55” zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

## Baş prokuror Kamran Əliyev: Füzulidə bayraq sancmağa yer qalmamışdı

[11:28] 04.11.2020

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev noyabrın 3-də Böyük Britaniyanın "Reuters" İnformasiya Agentliyinə müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibə zamanı Baş prokuror Azərbaycan Qoşunlarının Füzuliyə daxil olarkən bayraq sancmağa salamat bina tapa bilmədiyini deyib: "Hərbçilərimiz orada bayraq sancmağa bir yer tapmadı, çünki salamat bina yox idi. SSRİ dövründə böyük bir şəhər olan Füzulidən geriyə yerlə yeksan edilmiş şəhər qalmışdı. Zəngilanda isə yeganə dağıdılmamış bina hərbi qulluqçuların uşaqları üçün nəzərdə tutulmuş məktəb binası idi…".

"Reuters"ə Ermənistanın Azərbaycanın dinc sakinlərinə qarşı törətdiyi cinayətlər barədə ətraflı məlumat verən Baş prokuror, həmçinin bölgədəki 700 tarixi bina və abidələrin əksəriyyətinin dağıdılması faktı ilə bağlı cinayət işi açıldığını qeyd edib.

https://uk.reuters.com/article/uk-armenia-azerbaijan-idUKKBN27J1P7

**AZƏRTAC**

**Pakistan səfiri Ermənistanın mülki əhalimizə qarşı törətdiyi cinayətlər barədə məlumatlandırılıb**

[15:18] 04.11.2020

Noyabrın 4-də Azərbaycanın Müdafiə Sənayesi naziri Mədət Quliyev Pakistan İslam Respublikasının Azərbaycandakı səfiri Bilal Haye ilə görüşüb.

Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nazir Mədət Quliyev Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu vurğulayıb. Ermənistan silahlı qüvvələrinin hazırda davam edən təcavüzü ilə bağlı dost ölkənin qəti mövqeyini və hər zaman Azərbaycanın yanında olmasının xalqımız tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

M.Quliyev son günlərdə Pakistanda baş verən terror aktları ilə əlaqədar günahsız insanların öldürülməsi və yaralanması ilə bağlı səfirə dərin hüznlə başsağlığı verib. Nazir bildirib ki, Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən başlayaraq Tərtər, Ağdam, Mingəçevir, Ağcabədi, Beyləqan, Gəncə, Bərdə şəhərlərini, bir sıra kənd və qəsəbələri, yaşayış məntəqələrini ağır artilleriya və raket qurğularından atəşə tutması nəticəsində mülki əhalimizə qarşı insanlıq əleyhinə cinayətlər törədilib.

Səfirin diqqətinə çatdırılıb ki, dinc sakinlərə qarşı raket hücumları nəticəsində ümumilikdə 91 nəfər qətlə yetirilib, 405 nəfər yaralanıb, minlərlə yaşayış evinə və mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəyib. Bu, bir daha sübut edir ki, döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistan ordusu çıxış yolunu mülki əhaliyə qarşı yönəlmiş cinayətlərdə görür.

Nazir M.Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmənə hərb meydanında yetərli cavab verməsi, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, onlarla kənd, qəsəbə və yaşayış məntəqələrinin işğaldan azad edilməsi, qədim Xudafərin körpüsünə Azərbaycan bayrağının sancılması ilə bağlı səfiri məlumatlandırıb.

Səfir Bilal Haye Pakistanın həmişə Azərbaycanın yanında olduğunu bildirib.

Görüşdə iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha 7 kəndini işğaldan azad edib**

[17:52] 04.11.2020

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda qoşunlarımız döyüşləri tam üstünlüklə davam etdirir**

[19:05] 04.11.2020

Ötən sutka ərzində düşmənin bölmələri Ermənistanın Berd rayonu istiqamətindən Tovuz və Ağstafa rayonlarında yerləşən mövqelərimizi və cəbhənin müxtəlif istiqamətlərində ordumuzun digər mövqelərini, o cümlədən Ağdam, Ağcabədi, Tərtərdəki yaşayış məntəqələrimizi atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 4-də Hərbi İnformasiya Mərkəzində keçirdiyi brifinqdə bildirib.

Mətbuat katibi deyib ki, Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma keçməyə cəhd edən düşmən bölmələrimizin qəti cavab tədbirləri nəticəsində şəxsi heyət və hərbi texnika baxımından itkilər verərək geri çəkilməyə məcbur edilib. Aparılan əməliyyatlar nəticəsində düşmənin 10-cu dağatıcı və 37-ci atıcı diviziyaları, 2-ci motoatıcı, 5-ci dağatıcı və 543-cü alayları ordumuzun ağır zərbələrindən sonra ciddi itkilərə məruz qalıb.

Sutka ərzində düşmənin alay komandiri, tabor komandiri, snayper qrupu və tank heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, 2 tankı, 3 topu, 1 pilotsuz uçuş aparatı, 3 hərbi yük maşını, “Zastava M-55” tipli zenit qurğusu və şəxsi heyətlə dolu UAZ markalı avtomobili məhv edilib. Hazırda qoşunlarımız əməliyyat sahəsində döyüşləri tam üstünlüklə davam etdirir.

Mətbuat katibi bildirib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi indi bir tərəfdən çoxsaylı feyk məlumatlar yaymaq və fantastik ssenarilər qurmaqla hansısa “qələbələr”dən danışır. Digər tərəfdən, hədəflərimiz barədə saxta fikirlər aşılayaraq erməni cəmiyyətini Azərbaycan Ordusuna qarşı döyüşə cəlb etməyə çalışır. Bu cür hekayələrlə döyüşə cəlb edilən döyüşçülər müdafiə mövqelərində, yeraltı sığınacaqlarda, topların atəş nöqtələrində və tankların içində ordumuz tərəfindən məhv edilir, geriyə çəkilib itkin və əsir düşür. Ordumuza qarşı asimmetrik döyüş taktikaları ilə mübarizə aparan düşmən qruplaşmaları bölmələrimiz tərəfindən cəbhənin dərinliklərində belə aşkarlanır və onlar darmadağın edilir. Dağlarda, meşələrdə və səngərlərdə mərdliklə vuruşan Azərbaycan əsgəri bağçalarda, məktəblərdə və digər mülki obyektlərdə gizlənən namərd düşmənə qarşı mübarizə aparır.

“Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanımızın tapşırığı ilə irəliləyərək işğal altında qalan torpaqları düşməndən təmizləyir. Bu fəaliyyətlə beynəlxalq humanitar hüququn norma və prinsiplərinə ciddi riayət edərək yalnız legitim hərbi hədəflərə atəş açır. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Ermənistan ərazisindən Zəngilan istiqamətindəki bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı alınıb**

[21:14] 04.11.2020

Ermənistan ərazisindən Zəngilan istiqamətindəki bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı alınıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 4-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı qətiyyətlə alınıb.

Ciddi döyüş itkiləri verən düşmənin kəşfiyyat-diversiya qrupu geri çəkilməyə məcbur edilib.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusu yaşayış məntəqələrini atəşə tutmur, yalnız legitim hərbi hədəfləri məhv edir**

[19:12] 05.11.2020

Ötən sutka ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində və cəbhənin müxtəlif istiqamətlərində yerləşən mövqelərimizi, həmçinin Goranboy, Tərtər, Ağdam və Ağcabədi daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 5-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi qeyd edib ki, əsasən Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumlarının, Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Tərtər istiqamətində endirilən artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu darmadağın edilib.

Anar Eyvazov deyib ki, Ali Baş Komandanın rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatı nəticəsində məğlubiyyətə məhkum edilmiş Ermənistan çıxış yolunu yenə də yanlış olaraq dezinformasiya və feyk məlumatlar yaymaqda görür. Ermənistandan fərqli olaraq, biz Azərbaycan xalqına və dünya ictimaiyyətinə Ordumuzun uğurları barədə döyüş meydanında müasir avadanlıqlarla çəkilmiş foto və videogörüntülər əsasında məlumat çatdırırıq. Bu video təsvirlərdə aydın şəkildə görünür ki, Azərbaycan Ordusu yaşayış məntəqələri və mülki infrastrukturu atəşə tutmur, dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edir.

“Hazırda qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**COJEP beynəlxalq təşkilatının Ermənistanın Azərbaycanın mülki əhalisini qətlə yetirməsi ilə bağlı hesabatı eyniadlı jurnalda dərc olunub**

[19:30] 06.11.2020

Fransada fəaliyyət göstərən COJEP beynəlxalq təşkilatının Ermənistanın Azərbaycanın mülki vətəndaşlarını qətlə yetirməsi ilə bağlı hesabatı "COJEP" jurnalında tam şəkildə dərc olunub.

AZƏRTAC xəbər verir ki, hesabatın əvvəlində Ermənistan-Azərbaycan münaqişəsi barədə ətraflı məlumat verilir. Qeyd edilir ki, Ermənistan-Azərbaycan münaqişəsi regionda ən uzun sürən (təxminən 30 il) münaqişədir. Bu münaqişə nəticəsində Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf 7 rayonu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan Ermənistan tərəfindən işğal edilib. Münaqişə Dağlıq Qarabağ regionunda və ətraf 7 rayonda yaşayan bir milyondan çox azərbaycanlının həyatına mənfi təsir göstərib, sosial, iqtisadi və humanitar problemlər yaradıb. Qeyd edilən 7 rayon Dağlıq Qarabağ regionuna daxil deyil. Dağlıq Qarabağ regionunun ümumi ərazisi 4400 kvadratkilometrdir. Ətraf 7 rayonun ümumi ərazisi isə bundan demək olar ki, 3 dəfə böyükdür – 11000 kvadratkilometrdir. Məcburi köçkünlərin 90 faizdən çoxu həmin 7 rayondandır. Dağlıq Qarabağ regionundan qovulan azərbaycanlıların sayı isə 86 mindir.

Qeyd edilir ki, BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilməsinə dair dörd qətnamə qəbul edib. Bu qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal çıxarılması tələb olunur.

Hesabatda bildirilir ki, bu il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bütün cəbhə xətti boyunca genişmiqyaslı təxribata başlayıb. Ermənistan silahlı qüvvələri intensiv şəkildə yaşayış məskənlərini, tarixi və mədəni tikililəri, strateji əhəmiyyət daşıyan obyektləri, cəbhə bölgəsindən uzaqda yerləşən və əhalinin sıx məskunlaşdığı əraziləri qəsdən ağır artilleriyadan, raket sistemlərindən və beynəlxalq konvensiyalarla qadağan olunmuş silahlardan atəşə tutur.

BMT Baş Məclisinin 14 dekabr 1974-cü il tarixli Qətnaməsi ilə qəbul edilmiş "Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında bəyannamə"də qeyd edilir ki, mülki əhalinin, xüsusilə qadınların və uşaqların hücumlara məruz qalması qadağandır. Bütün ölkələr 1925-ci il tarixli Cenevrə Protokoluna və 1949-cu il tarixli Cenevrə Konvensiyalarına, hərbi münaqişələr zamanı insan hüquqlarına hörmət edilməsi, xüsusilə qadınların və uşaqların qorunmasının təmin olunması ilə bağlı digər sənədlərə əməl etməlidirlər.

Hesabatda sentyabrın 27-dən oktyabrın 28-dək Azərbaycanın mülki əhalisinin sıx məskunlaşdığı şəhər və rayonların Ermənistan silahlı qüvvələri tərəfindən raket hücumlarına məruz qalması ilə bağlı faktlar və rəqəmlər, fotolar əks olunub. Ermənistanın Azərbaycan şəhərlərinə atdığı mərmilərin, dağılan evlərin sayı, həlak olan və yaralanan insanların adları verilib. Vurğulanıb ki, Ermənistan qadın, uşaq, yaşlı demədən mülki əhalini, dinc sakinlərlə yanaşı, mülki, eləcə də strateji əhəmiyyətə malik obyektləri hədəfə alır.

Qeyd edilir ki, bu hesabat Ermənistanın cari il sentyabrın 27-dən etibarən beynəlxalq humanitar hüququ pozaraq Azərbaycana qarşı həyata keçirdiyi müharibə cinayətlərini sistemləşdirmək məqsədilə hazırlanıb.

**AZƏRTAC**

## Suriyalı ermənilərin Ermənistan tərəfindən Zəngilana köçürülməsinə dair sənədlər aşkar olunub

[10:23] 07.11.2020

İşğaldan azad edilmiş Zəngilan rayonu ərazisində Ermənistan Milli Təhlükəsizlik Xidmətinin istifadəsində olmuş binaya baxış zamanı bəzi sənədli materiallar aşkarlanıb.

AZƏRTAC xəbər verir ki, həmin materiallar təhlil olunarkən onların arasında Suriya vətəndaşlarına aid siyahı və pasportların surətlərinin olduğu müəyyən edilib.

Məlum olub ki, siyahıda adları qeyd olunmuş 60 suriyalı erməni (cəmi 19 ailə) işğal olunmuş ərazilərdə Ermənistan tərəfindən aparılmış qanunsuz məskunlaşma prosesində Zəngilan rayonu ərazisinə köçürülüb.

Həmçinin 02.05.1964-cü il təvəllüdlü, Suriya vətəndaşı, Suriyanın Haseke bölgəsinin sakini Baazo Hraj Sepob (pasport: 015-11-L021693), 12.11.1969-cu il təvəllüdlü, Suriya vətəndaşı, Suriyanın Hələb şəhərinin sakini İskandarian Hartion Avadis (Pasport: 004-11-L128622) və 01.01.1962-ci ildə Suriyada anadan olmuş Ermənistan vətəndaşı Kirakos Babkin (pasport: AM 0709227) adına verilmiş pasportların kserosurətləri də aşkarlanıb.

Qeyd olunan istiqamətdə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 16 kəndi işğaldan azad edib**

[12:31] 07.11.2020

Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi "Twitter" hesabında bildirib.

**Səfir Hulusi Kılıç: Ermənistan qanunsuz məskunlaşdırma ilə Azərbaycana qarşı daha bir beynəlxalq cinayət törədib**

07.11.2020 [19:05]

Ermənistan tərəfi dünya birliyinin birmənalı şəkildə terrorçu olaraq tanıdığı PKK kimi təhlükəli bir təşkilatın üzvlərini işğal altında saxladığı Azərbaycan torpaqlarında yerləşdirməklə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq cinayət törədib. Ümumiyyətlə, başqa ölkənin ərazisində icazəsiz məskunlaşdırma həyata keçirmək bütün parametrlərinə görə cinayətdir. Belə bir qanunsuzluq terror təşkilatı ilə əməkdaşlığa yönəlirsə, ortaya iki beynəlxalq cinayət çıxır.

Bu sözləri Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Rəşadətli Azərbaycan Ordusunun uğurla həyata keçirdiyi əks-hücum əməliyyatlarının yaxın zamanda Qafqaz və Anadolu da daxil olmaqla, böyük bir coğrafiyaya sülh, əmin-amanlıq və inkişaf gətirəcəyinə əminliyini ifadə edən səfir Hulusi Kılıç deyib: “İndi söz bir daha insan haqqlarından, milli müqəddəratla bağlı geninə-boluna danışan beynəlxalq təşkilatlarındır: İşğaldan azad edilmiş Zəngilan rayonunun ərazisində Ermənistan Milli Təhlükəsizlik Xidmətinin istifadəsində olduğu aşkarlanan Suriya ermənilərinin Azərbaycan torpağında qanunsuz məskunlaşdırılmasına nə deyəcəksiniz? BMT, Avropa İttifaqı, ATƏT kimi təşkilatlar məsələnin əsl mahiyyətini bilmək istəyirsə, bu faktla bağlı dərhal araşdırıcı missiya yaratmalıdırlar. Ermənistan bu qanunsuz məskunlaşdırma ilə Azərbaycana qarşı işğala bərabər ikinci beynəlxalq cinayət törədib”.

Fikirlərini “Qarabağ Azərbaycandır!” şüarı ilə tamamlayan səfir əminliklə bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şərəfli hərb tarixi yaradan Azərbaycan Ordusu ən qısa zamanda torpaqlarımızın işğalına son qoyacaq və bununla da bölgəyə yeni nəfəs gələcək.

**Sabir Şahtaxtı,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

# Anar Eyvazov: Ordumuzun əməliyyatları nəticəsində xeyli itki verən düşmən geri çəkilməyə məcbur olub

[19:10] 07.11.2020

Ötən sutka ərzində düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində və Ermənistan ərazisindən Qubadlıda yerləşən bölmələrimizin mövqelərini, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonları daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Düşmənin atəş nöqtələrinin susdurulması üçün ordumuz tərəfindən yalnız sərhədlərimiz çərçivəsində adekvat tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 7-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov bildirib ki, düşmənin Ağdərə istiqamətində müdafiə olunan 5-ci dağatıcı alayının xeyli sayda şəxsi heyəti, avtomobil texnikası və minaatanları ordumuzun atəş zərbələri ilə məhv edilib. Bu istiqamətdə atış mövqelərinə çıxarılan D-30 haubitsasının şəxsi heyəti bölmələrimizin dəqiq atəşi ilə zərərsizləşdirilib.

Ordumuzun həyata keçirdiyi digər əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının bir taborunun şəxsi heyəti arasında itkin düşənlər var, artilleriya divizionunda isə bir batareyanın topları sıradan çıxarılıb.

Döyüşlər başlayandan indiyədək canlı qüvvə baxımından ağır itkilərə məruz qalan, buna görə də bir müddət əvvəl yerli sakinlər və Ermənistandan cəlb edilən könüllülərlə gücləndirilmiş düşmənin 022-ci xüsusi təyinatlı hərbi hissəsinin şəxsi heyəti bölmələrimiz tərəfindən mühasirəyə alınaraq darmadağın olunub. Qalan xüsusi təyinatlılar tutduqları mövqeləri tərk edərək geri çəkilməyə məcbur ediliblər. Döyüşlərə cəlb olunan Ermənistan silahlı qüvvələrinin 178-ci əlahiddə kəşfiyyat taborunda şəxsi heyətin bir hissəsi bölmələrimiz tərəfindən məhv edilib.

Mətbuat katibi qeyd edib ki, əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə xeyli sayda şəxsi heyət və hərbi texnika itkisi verən düşmən bir qədər də geriyə çəkilməyə məcbur edilib.

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocalı və Xocavəndin ümumilikdə 16 kəndi ordumuz tərəfindən işğaldan azad olunub.

“Zəngilanda və işğaldan azad edilmiş digər ərazilərə baxış zamanı əldə olunan sənədlər və digər kəşfiyyat materialları təsdiqləyir ki, Azərbaycan Ordusu təkcə Ermənistan silahlı qüvvələri ilə deyil, həmçinin muzdlu əcnəbilərdən ibarət hərbi qruplaşmalarla da mübarizə aparır. Düşmən bilməlidir ki, nə əcnəbi döyüşçülər, nə də ki hansısa könüllü dəstələr Azərbaycan əsgərini dayandıra bilməz. Sağ qalmaq üçün onların bir yolu var: vaxt itirmədən silahı yerə qoyaraq döyüş meydanını tərk etmək.

Hazırda əməliyyat şəraiti ordumuzun nəzarətindədir. Cəbhənin bütün istiqamətlərində döyüşlər davam edir. Qələbə bizimlədir”, - deyə mətbuat katibi vurğulayıb.

**AZƏRTAC**

**Rusiyalı ekspert: Paşinyan rejimi Qarabağda daha çox immiqrant yerləşdirəcəyini ümid edirdi**

[22:38] 07.11.2020

Suriyadakı ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərinə kütləvi şəkildə köçürülməsindən bəhs edən Ermənistan Milli Təhlükəsizlik Xidmətinin aşkar olunan sənədləri, İrəvanın Rusiyanın səyləri ilə əvvəllər əldə olunmuş razılaşmalara əsasən, işğal altındakı torpaqları təhvil verməyi planlaşdırmadığını göstərir.

Bunu AZƏRTAC-a beynəlxalq münaqişələr üzrə tanınmış rusiyalı ekspert, jurnalist Yevgeni Mixaylov Azərbaycan Ordusu tərəfindən azad edilən Zəngilan rayonunda Suriya vətəndaşlarının siyahılarının və pasportlarının surətlərinin aşkar edilməsinə münasibət bildirərkən deyib.

"Yəni Paşinyan rejimi daha çox miqrantı Qarabağda yerləşdirəcəyinə və daha sonra Qarabağda ermənilərin böyük varlığının olduğu və onların öz müqəddəratını təyin etməsinin lazım olduğunu əsas götürərək danışıqlara davam etməyə ümid bəsləyirdi. Planlar alınmadı, Azərbaycan bu təxribat xarakterli hərəkətlərə qarşı qabaqlayıcı tədbirlər gördü", - deyə o qeyd edib.

Ekspertin fikrincə, Ermənistan bununla yalnız dünya birliyini deyil, yaxın müttəfiqi olan Rusiyanı da aldatmağa çalışdı: "İrəvan, əslində, oyun oynamağa çalışdı, amma hər şey ona qarşı çevrildi. Düşünürəm ki, dünya ictimaiyyəti bu siyahıları oxumaqda və dünya ermənilərinin işğal altındakı torpaqları qorumaq üçün şovinist məqsədlərinə çatmağı planlaşdırdıqlarını anlamaqda maraqlı olacaq".

Xatırladaq ki, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin Zəngilan rayonunda istifadə etdiyi binaya baxış zamanı Suriya vətəndaşlarının siyahılarının və pasportlarının surətləri aşkar edilib. Siyahıda adları göstərilən 60 suriyalı ermənin (ümumilikdə 19 ailə) Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə həyata keçirdiyi qanunsuz məskunlaşma prosesində Zəngilana köçürüldüyü məlum oldu.

**Fəridə Abdullayeva,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**İşğaldan azad edilmiş ərazilərdən olan daha bir qrup özünüməşğulluq proqramı iştirakçısı üçün kiçik müəssisələr yaradılıb**

[11:18] 08.11.2020

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi müzəffər Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdən olan vətəndaşların kiçik bizneslərinin qurulması üçün özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təminatını davam etdirir.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, bu gün Bakının bir neçə rayonunda həmin kateqoriyadan olan daha bir qrup proqram iştirakçısına biznes planlarına uyğun aktivlər verilərək, istehsal və xidmət sahələri üzrə kiçik müəssisələri yaradılıb.

Onlar doğma torpaqlarının işğaldan azad edildiyinə, 30 ilə yaxın davam edən yurd-yuva həsrətlərinə son qoyulduğuna görə, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər, qüdrətli Ordumuzun rəşadətindən qürur hissi keçirdiklərini vurğulayıblar. Artıq kiçik müəssisə sahibi olan vətəndaşlar onların sahibkarlığa çıxışı üçün yaradılan bu imkana görə də dövlətimizin başçısına təşəkkürlərini ifadə ediblər. Onların yolunu gözləyən yurdlarına kiçik sahibkar kimi qayıdacaqlarını fərəhlə bildiriblər.

Zəngilan şəhərindən olan Şirin Cəfərov proqram çərçivəsində dülgər avadanlığı ilə təmin edilib. O, biznesini doğma şəhərində - Zəngilanda davam etdirəcəyini, bacardığı dülgərlik işi sahəsində öz bölgəsində əhaliyə xidmət göstərəcəyini deyib.

"Artıq məcburi köçkün deyiləm, öz yurduma qayıtmağa hazırlaşan kiçik biznes sahibiyəm, bundan gözəl nə ola bilər!", - deyən Ş.Cəfərov kimi düşünənlərdən biri də özünüməşğulluq proqramı çərçivəsində musiqi avadanlıqları ilə təmin edilən, Cəbrayıl rayonunun işğaldan azad olunan Sirik kənd sakini Əhməd Şükürovdur. O, Cəbrayıl rayonunun azad edilməsi xəbərini aldıqdan sonra özünün və doğmalarının sonsuz sevinc içində olduğunu vurğuladı. Yurduna qayıdaraq doğma torpağını sevə-sevə yaşayacağını, verilmiş aktivlər hesabına qurduğu biznesini də elə Cəbrayılda inkişaf etdirmək üçün çalışacağını bildirib.

Laçın rayonundan olan Maisə Səmədovaya broyler inkubatoru sahəsi üzrə aktivlər təqdim edilib. Laçının da qələbə xəbərini səbirsizliklə gözlədiyini deyən Maisə Səmədova təsərrüfatını doğma yurdunda – Laçında genişləndirmək arzusunu da ifadə edib.

2020-ci il ərzində proqram çərçivəsində 12 min ailənin kiçik biznesə çıxışının təmin edilməsi işləri aparılır. Dövlət Məşğulluq Agentliyi tərəfindən bu il artıq 8300-ə yaxın işsiz və aztəminatlı şəxs özünüməşğulluq proqramına cəlb olunub, onlardan 4500-ə yaxını mal və materiallarla təmin edilib və bu proses davam edir.

Proqramın icrası zamanı əlilliyi olan şəxslər, şəhid ailələri, ünvanlı sosial yardım alan ailələrin üzvləri və digər həssas qruplarla yanaşı, məcburi köçkünlərə də üstünlük verilir.

**AZƏRTAC**

**Üçrəngli bayrağımız işğaldan azad edilmiş torpaqlarımızda qürurla, vüqarla dalğalanır**

[09:59] 08.11.2020

Suverenliyimizin rəmzi, qürur və güvənc yerimiz üçrəngli bayrağımız bu gün qürurla illərdən bəri düşmən tapdağı altında qalan torpaqlarımızda dalğalanır, xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideyalara sadiqliyini nümayiş etdirir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

Millət vəkili qeyd edib ki, 30 ilə yaxındır, üçrəngli bayrağımızın təcavüzkar qonşularımızın işğal etdiyi torpaqlarda dalğalanacağı günü gözləyirdik. İllərlə arzuladığımız, həsrətlə gözlədiyimiz bu gün artıq reallığa çevrilib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz işğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda müzəffər yürüşünü inamla davam etdirir, özünütəsdiqin simvolu kimi bayrağımızı tarixi torpaqlarımıza sancır.

Deputat əlavə edib ki, ümummilli lider Heydər Əliyevin, Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin uğurla həyata keçirdiyi uzaqgörən və müdrik siyasət nəticəsində dövlət bayrağımız dünyanın ən mötəbər təşkilatlarının qarşısında, ən mühüm beynəlxalq tədbirlərdə dalğalanır. Bu bayraq indi işğaldan azad edilmiş, Zəngilanda, Qubadlıda, Füzulidə, Cəbrayılda qürurla, vüqarla dalğalanır. Üçrəngli bayrağımızının Laçında, Kəlbəcərdə, Şuşada, Xocalıda, Xacavənddə, Xankəndində dalğalanacığı günə isə az qalıb.

**AZƏRTAC**

## İşğaldan azad edilmiş Zəngilan rayonu ərazisindəki sərhəd zastavalarında Azərbaycan bayrağı ucaldılıb

[21:50] 08.11.2020

İşğaldan azad edilmiş Zəngilan rayonu ərazisindəki Məmmədbəyli, Şərifan, Muğanlı, Tiri və Mincivan sərhəd zastavaları üzərində bu gün Azərbaycan Respublikasının dövlət bayrağı ucaldılıb.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə Azərbaycanın dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi yad olunub. Bildirilib ki, Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin işğaldan azad edilməsi Azərbaycan Respublikasının dövlət sərhədlərinin təhlükəsizliyinin təminatı üçün son dərəcə vacib hadisə olub və hər bir Azərbaycan sərhədçisi tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

Qeyd olunub ki, sentyabrın 27-dən bu günədək 218 kənd və qəsəbənin, Cəbrayıl, Zəngilan, Qubadlı, Füzuli şəhərlərinin, bu gün isə Şuşa şəhərinin düşmən tapdağından azad etməsi Müzəffər Ali Baş Komandanı olan Azərbaycan Silahlı Qüvvələrinin, qüdrətli Prezidenti olan Azərbaycan dövlətinin, müdrik və qətiyyətli lideri olan Azərbaycan xalqının böyük qələbəsidir.

**AZƏRTAC**

## Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 23 kəndi işğaldan azad edib

[13:48] 09.11.2020

Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

**AZƏRTAC**

**İşğaldan azad olunmuş ərazilərdə aparılan ekoloji monitorinqlərin nəticələri: minillik qədim ağaclar məhv edilib**

[16:47] 09.11.2020

“Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə verilmiş tapşırıqlara əsasən ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə yaradılmış Əməliyyat qərargahlarında təmsil olunan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində monitorinqlərə başlayıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən xəbərə görə, Arazboyu ərazilərdə aparılan monitorinq və müşahidələr göstərib ki, bütün evlər, binalar, tarixi abidələr, qəbristanlıqlar tamamilə dağıdılıb, yolların kənarındakı tut, qovaq, çinar, şam və meyvə ağacları kəsilib, bəzi yerlərdə isə tamamilə yandırılıb.

Meşələrdə və yaşıllıq massivlərində qəsdən törədilmiş yanğınlar nəticəsində bitki örtüyü, münbit torpaq qatı və digər canlı aləm məhv edilib.

Erməni vandallığını sübut edən faktlardan biri də, keçmiş Sovet dövründən xüsusi qorunma statusu olan unikal təbiət abidələri siyahısına daxil edilmiş minillik qədim ağacların qəsdən kəsilməsi və zəngin təbiət tarixinin bilərəkdən silinməsinə şərait yaradılmasıdır. Belə ki, bir neçə gün ərzində aparılan monitorinqlərin nəticələrinə görə, Qubadlı, Füzuli və Cəbrayıl rayonlarının ərazisində yaşı 1600, 900 və 500 il olan Şərq çinarlarının məhv edildiyi müəyyən olunub. Bu ağacların yerində bitən 2 metrə qədər pöhrələr bu qədim çinarların bir neçə il əvvəl kəsildiyini təsdiq edir.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan əsgəri bir əlində silah, bir əlində bayraq növbəti hədəfə doğru irəliləyir**

[19:10] 09.11.2020

Ötən sutka ərzində düşmən qüvvələri Ermənistanın Berd, Çəmbərək rayonları və müxtəlif istiqamətlərdən Tovuz, Gədəbəy və digər istiqamətlərdəki mövqelərimizi, o cümlədən Tərtər, Ağdam və Bərdə daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi toplardan və minaatanlardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 9-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov deyib ki, ordumuz tərəfindən yalnız sərhədlərimiz çərçivəsində legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görülüb. Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. “Su-25” həmlə təyyarəsi və pilotsuz uçuş aparatlarının tətbiqi ilə hərbi hava qüvvələrimizin cəbhənin Xocavənd istiqamətində endirdiyi aviasiya zərbələri nəticəsində düşmənin səngər və sığınacaqları darmadağın edilib. Əsas komanda məntəqəsində bir neçə yüksək vəzifəli şəxs məhv edilib. Ordumuzun bu istiqamətdə və Qırmızı Bazar məntəqəsi ətrafındakı mövqelərə hücumları qarşısında aciz qalan düşmənin 2-ci və 3-cü motoatıcı alaylarının bölmələri ağır itkilər verərək müdafiə hədlərini atıb qaçmağa məcbur olub. Ermənistan silahlı birləşmələri xeyli sayda canlı qüvvə itirib. Cəbhənin Tərtər istiqamətindən bölmələrimizi atəşə tutan düşmənin 10-cu dağatıcı diviziyasının minaatan heyəti də ordumuzun dəqiq atəş zərbəsi ilə zərərsizləşdirilib.

Mətbuat katibi qeyd edib ki, düşmənin Şuşa istiqamətində mühasirədən çıxmaq məqsədilə bölmələrimizə hücum etməyə cəhd edən qüvvələri və Xankəndi istiqamətində hərəkət edən qoşqulu yük avtomobili “Zərbə” pilotsuz uçuş aparatları ilə məhv edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 tankı, 1 piyada döyüş maşını, 2 topu, minaatan heyəti, döyüş sursatı və 2 yük avtomobili sıradan çıxarılıb. Ağır itkilər verən qarşı tərəf bir neçə istiqamətdə geri çəkilməyə məcbur edilib. Füzuli, Xocalı, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanın 23 kəndi işğaldan azad olunub.

“Düşmən ictimai fikri öz uğursuzluqlarından və işğal altındakı ərazilərimizdə törətdiyi hərbi cinayətlərdən yayındırmaq məqsədilə müxtəlif dezinformasiyalar yayır. Azərbaycan Ordusu beynəlxalq humanitar hüququn norma və prinsiplərini rəhbər tutaraq düşmənin yalnız hərbi təyinatlı obyektlərini hədəfə alır. Mənəvi-psixoloji vəziyyəti və maddi-texniki təminatı yüksək səviyyədə olan Azərbaycan əsgəri bir əlində silah, bir əlində bayraq növbəti hədəfə doğru irəliləyir”, - deyə Anar Eyvazov vurğulayıb.

Dövlət Bayraq Günü və şanlı bayrağımızın azad olunmuş Şuşa şəhərində dalğalanması münasibətilə ordu rəhbərliyi və şəxsi heyət adından təbriklərini çatdıran mətbuat katibi deyib: “Biz bu cəsarəti və döyüş ruhunu Müzəffər Ali Baş Komandanımızdan və sarsılmaz xalqımızdan alırıq. Hazırda Xocavənd istiqamətində hücumu genişləndirən Azərbaycan Ordusu əməliyyat şəraitini nəzarətdə saxlamaqla döyüşləri böyük ruh yüksəkliyi və mətinliklə davam etdirir. Qələbə bizimlədir!”.

**Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 48 kəndi, 1 qəsəbəni və 8 strateji yüksəkliyi işğaldan azad edib**

[20:05] 09.11.2020

Müzəffər Azərbaycan Ordusu Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şükürataz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbürd, Səfiyan, Türklər kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün “Twitter” hesabında bildirib.

## Şuşa zəfərindən dərhal sonra Müzəffər Ali Baş Komandandan yeni böyük müjdə: 71 kənd, 1 qəsəbə, 8 strateji yüksəklik azad olundu

[20:56] 09.11.2020

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa zəfərindən dərhal sonra xalqımıza yeni böyük müjdə verdi. Belə ki, noyabrın 9-da 71 kənd, 1 qəsəbə, 8 strateji yüksəklik işğaldan azad olunub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı rəsmi "Twitter" hesabında Azərbaycan Ordusunun Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şükürataz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbürd, Səfiyan, Türklər kəndlərini işğaldan azad etdiyini bildirib.

Bu gün Prezident İlham Əliyev, həmçinin Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərinin işğaldan azad olunduğunu elan edib.

**AZƏRTAC**

**Beynəlxalq Türk Akademiyasının prezidenti Şuşa zəfəri münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib**

[22:42] 09.11.2020

Beynəlxalq Türk Akademiyasının Prezidenti Darxan Kıdıralı qədim Şuşa şəhərinin işğaldan azad olunması və Azərbaycanın Dövlət Bayrağı Günü münasibətilə xüsusi məqalə hazırlayıb. Məqalədə Darxan Kıdıralı Azərbaycan Prezidenti İlham Əliyevi və xalqımızı təbrik edib.

AZƏRTAC məqaləni təqdim edir:

"Qələbəniz mübarək, qalib Prezident!

Böyük xalqlar dünyaya dahi şəxsiyyətlər bəxş edir, dahilər isə tarixi yaradır. Türk xalqları tarix boyunca dünya sivilizasiyasına, onun inkişafına istiqamət verən nəhəng şəxsiyyətlər qazandırmışdır. Bu baxımdan, Azərbaycan xüsusi olaraq seçilib, türk dünyasında bir çox ilklərə imza atmışdır.

Şərqlə Qərb, Şimalla Cənub arasında körpü rolunu oynayan, tarixi İpək Yolunun önəmli kəsişmə nöqtələrindən biri olan Azərbaycanda ədəbiyyat, elm, sənət və sənətkarlıq yüksək səviyyədə inkişaf etmişdir. Həm Orta əsrlərin İntibah dövrü, həm də son 200 ildə cədidçilik və maarifçilik hərəkatının meydana çıxması və yayılmasında bu türk dövlətinin əvəzsiz rolu olmuşdur. Bu da öz növbəsində milli düşüncənin, idarəçilik təfəkkürünün inkişafında əhəmiyyətli rol oynamışdır.

Hələ XIX əsrdə əlifba islahatları ideyasının ortaya çıxması, bütün müsəlman Şərqində ilk demokratik respublikanın yaradılması, müasir musiqinin, Şərqdə ilk opera və baletin, teatrın əsasının Azərbaycanda qoyulması, neft bumu nəticəsində sənayenin sürətli inkişafı qonşu ölkələrin də həyatına ciddi təsir etmişdir.

Tarixi şərait və coğrafi üstünlüklərdən böyük məharətlə faydalanan Azərbaycan xalqı nəticə etibarilə inkişafın davamlılığını və sistemliliyini təmin edə bilmişdir. Bütün bunların nəticəsidir ki, bu gün Azərbaycan dövləti yenə də tarix səhnəsindədir və yeni ilklərə, qələbələrə imza atmaqda davam edir. Heç şübhəsiz ki, bu uğurların mənbəyi xalq, memarı isə Prezidentdir.

Bu tarixi günlərdə qardaş Azərbaycanda baş verənlər bütün türk dünyası tərəfindən böyük həyəcan və maraqla izlənməkdədir. Azərbaycan dövləti öz sərkərdəsi, Ali Baş Komandanının rəhbərliyi ilə yeni tarix yaradır. Amma bu tarix adi bir tarix deyil. Bu, illərdir gözlədiyimiz bir qalibiyyətin tarixi, ədalətin təntənəsidir.

Azərbaycandan aldığımız xoş xəbərlər, 30 ildir işğal altında inləyən müqəddəs torpaqların, şəhər və kəndlərin bir-birinin ardınca azad olunması, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı zəfərlərinin Şuşa şəhərinin işğaldan qurtarılması ilə taclandırılması böyük Qələbənin müjdəsi oldu. Bütün türk dünyasının musiqi beşiyi, Azərbaycanın mədəniyyət paytaxtı, Qafqazın incisi tarixi Şuşa şəhərinin işğaldan azad edilməsi ilə xalqın milli-mənəvi dəyərlərinin məhv olmasının qarşısı alındı, millət yenidən mənəvi istiqlalına qovuşdu.

Təbii ki, bu qələbə asan başa gəlmədi. Minlərlə igid oğul və qızlarımızın həyatını qurban verdiyi bu yolda dövlət başçısının nə qədər böyük əzm nümayiş etdirdiyini gördük. Azərbaycanın 30 ilə yaxınlaşan müstəqillik dövrünün, xüsusilə İlham Əliyevin prezidentlik müddətinin təhlili dövlət başçısının bu qalibiyyət üçün nə qədər böyük səbir, yüksək iradə, böyük müdrikliklə çalışdığını göstərir. Prezident İlham Əliyev inanılmaz peşəkarlıq nümunəsi ortaya qoymuş, bütün məqamları incəliklə hesablamış, nəinki özünü, bütün xalqı böyük Qələbəyə həm fiziki, həm psixoloji həm də mənəvi cəhətdən hazırlamışdır.

Bu böyük Qələbə Prezident İlham Əliyevin yorulmaz əməyinin, illər boyu müdrikcəsinə formalaşdırdığı xarici siyasət və diplomatiyanın, sarsılmaz daxili harmoniyanın, Azərbaycan xalqının birlik və bərabərliyinin məhsuludur.

Əcdadlarımız təsadüfən deməyiblər ki, "Həqiqət incələr, amma qırılmaz". Ortaq tariximizdə milli kimliyimizi, suverenliyimizi və torpaqlarımızı qoruyan, ədaləti təmin edən Bilgə xaqanlar, atatürklər hər zaman olmuşdur və bu gün Prezident İlham Əliyevin timsalında bundan sonra da olacağına şahidlik etməkdəyik. Azərbaycan dövləti ortaya qoyduğu qətiyyətlə yalnız müqəddəs torpaqları düşmən tapdağından qurtarmadı, haqsızlıqların, ikili standartların hökm sürdüyü dünyada həqiqəti, ədaləti də tamamilə ölməkdən, yox olmaqdan xilas etdi!

Dövlət başçısının yüksək əzmi sayəsində qardaş Azərbaycan xalqı tarixinin ən böyük zəfərlərindən birinə şahidlik etmiş oldu. Prezident İlham Əliyev bu addımı ilə atası, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək xalqın qəlbinin fatehi oldu, tarixə qalib Prezident kimi düşdü! Əminəm ki, tarix onun xidmətlərini heç zaman unutmayacaq.

Beynəlxalq Türk Akademiyası olaraq bu tarixi günlərdə biz də qardaş Azərbaycan xalqı ilə birlikdə olmaqdan fəxarət hissi duyuruq. Çünki Azərbaycanın məsələsi bütün türk dünyasının məsələsidir. Füzuli şəhərinin azad olunduğu gün – oktyabrın 17-də və Azərbaycanın Dövlət Müstəqilliyi Günü məhz Türk Akademiyasının təşəbbüsü ilə Qazaxıstanın paytaxtı Nur-Sultanın mərkəzindəki ən böyük ekranda Azərbaycan bayrağı nümayiş etdirildi. Gəncə və Bərdə kimi mülki yaşayış yerlərinə xain hücumları qınadıq. Qarabağ, onun tarixi, mədəniyyəti, təbiəti ilə bağlı məlumatların, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul olunan sənədlərin yer aldığı kitab-fotoalbom nəşr edən ilk beynəlxalq təşkilat olduq. Müqəddəs Şuşa şəhərinin dünya mədəniyyətinə bəxş etdiyi onlarca böyük şəxsiyyətdən Üzeyir Hacıbəylinin 135, Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyləri Beynəlxalq Türk Akademiyasının fəaliyyət planına daxil olundu. Təbii ki, yuxarıda qeyd edilənlər, sadəcə, Azərbaycan dövlətinin, xalqının böyük Qələbə sevincinə şərik olmağa çalışmağımızın göstəricisidir.

Beləliklə, türklər yalnız tarix yaratmır, həm də tarixi yazırlar. Bu gün qardaş Azərbaycan xalqı bunun əyani örnəyini ortaya qoymaqdadır. Qəhrəman Azərbaycan xalqını bu önəmli gün, tarixi zəfər, eyni zamanda, Dövlət Bayrağı Günü münasibətilə təbrik edir, ölkənin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərin ruhunu ehtiramla yad edir, onlara Allahdan rəhmət, yaralılara şəfa diləyirəm. Qoy, ədalətli qələbəmiz daimi olsun, Azərbaycan bayrağı ölkənin hər yerində dalğalansın!”.

**AZƏRTAC**

**Azərbaycan dövlətinin şanlı Qələbəsi**

[16:52] 10.11.2020

**Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaradır**

Azərbaycan tarixində bir çox şərəfli anlar olmuş, xalqımızın qürur mənbəyinə çevrilmiş hadisələr yaşanmışdır. Amma bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun zəfərləri, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malikdir. Hər bir Azərbaycan vətəndaşı çox xoşbəxtdir ki, bu tarixi, şərəfli anlara şahidlik edir, möhtəşəm tarixi günləri yaşayır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Milli Məclisin sədri Sahibə Qafarovanın məqaləsində yer alıb.

Məqalədə deyilir: "Bəli, bu gün Azərbaycan xalqının 30 illik həsrətinə son qoyulur. Bu 30 ildə Azərbaycan xalqı əzmlə, səbrlə, durmadan çalışaraq, öz dövlətini gücləndirərək tarixi anın yetişməsini, bu möhtəşəm xəbəri gözlədi. Heç bir beynəlxalq ədalətsizlik, heç bir əziyyət xalqımızın qələbəyə olan inamını sarsıtmadı, Azərbaycan xalqının, Azərbaycan dövlətinin, Azərbaycanın liderinin iradəsinə təsir göstərmədi. Xalqımız "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar", - deyən Liderinin, Ali Baş Komandanının ətrafında hər gün daha sıx birləşdi, birliyimiz hər gün daha da möhkəmləndi. "Qarabağ Azərbaycandır və nida" ifadəsi bizim milli mübarizəmizin rəmzinə çevrildi. Bu birlik bizi Qarabağa qaytardı!".

Məqalədə qeyd edilir ki, sentyabrın 27-də Ermənistanın cəbhə xəttində törətdiyi hərbi təxribatlardan sonra Şanlı Ordumuzun əks-hücum əməliyyatları - Azərbaycan xalqı və dövləti üçün Vətən müharibəsi başladı. Bu haqq savaşında bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Hadrud qəsəbəsi, Suqovuşan qəsəbəsi, digər qəsəbələr və nəhayət iki gün öncə qədim Şuşa şəhəri Ordumuzun döyüş meydanındakı qəhrəmanlıqları nəticəsində işğaldan azad edildi. Azərbaycan Ordusunun şücaəti, yüksək döyüş qabiliyyəti və apardığı əməliyyatlar dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Ötən illər ərzində məqsədyönlü şəkildə inkişaf etdirilən, maddi-texniki bazası gücləndirilən, dünyanın ən güclü orduları sırasında olan Şanlı Azərbaycan Ordusunun sarsıdıcı zərbələri nəticəsində ağır itkilər verən Ermənistanın silahlı qüvvələrinin müqaviməti sındırıldı. İşğalçı ölkə artıq Azərbaycanın Şanlı Ordusu qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olduğunu dərk etdi və diz çökdü!

"Qeyd etməliyəm ki, Azərbaycan Ordusu döyüş meydanında Zəfər yürüşünü davam etdirdiyi günlərdə Prezident İlham Əliyev beynəlxalq mediaya müsahibələrində, bir çox ölkələrin liderləri ilə telefon danışıqlarında Azərbaycanın haqq səsini dünyaya çatdırdı, ölkəmizin ədalətli və beynəlxalq hüququn ali prinsip və normalarına söykənən mövqeyini qətiyyətlə müdafiə etdi. Bütün dünya həqiqətləri məhz Azərbaycanın dövlət başçısından, ən etibarlı mənbədən əldə etdi. Azərbaycan işğalçı ölkənin və erməni diasporunun yalan təbliğatını, çirkin qara piar kampaniyasını dövlət başçısının qətiyyəti sayəsində darmadağın etdi. "Mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi", - deyən möhtərəm Prezident İlham Əliyevin yüksək diplomatik səriştəsi, sarsılmaz iradəsi və möhtəşəm liderliyi ilə diplomatiya sahəsində də parlaq qələbələr təmin olundu. Xalqımızın öz lideri ətrafında bir yumruq kimi birləşməsi düşməni bütün cəbhələrdə məğlubiyyətə uğratdı və Azərbaycan hər bir platformada gücünü göstərdi. Son illər ərzində ölkəmizdə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə görülən işlər və həyata keçirilən çoxşaxəli islahatlar, möhkəm əsaslara malik xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyədə qurulması və həmrəyliyin təmin olunması, Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi və bu kimi əhəmiyyətli nailiyyətlər bu Qələbəni şərtləndirən mühüm məsələlər sırasındadır", – deyə Sahibə Qafarova vurğulayır.

Məqalədə daha sonra bildirilir ki, nəhayət, noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti arasında bəyanat imzalandı. Birmənalı şəkildə qeyd etməliyik ki, bu bəyanat Azərbaycan dövlətinin şanlı Qələbəsi, Ermənistan üçün isə faktiki olaraq hərbi kapitulyasiya deməkdir. Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi möhtəşəm qələbələr, Azərbaycan Liderinin, Ordumuzun, xalqımızın dəmir yumruğu Ermənistanı bu bəyanata imza atmağa məcbur etdi.

Bu bəyanatın tarixi əhəmiyyəti olduqca böyükdür. İlk növbədə, bu bəyanat 30 ilə yaxındır davam edən işğala son qoyur. Bu sənəd hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən geri qaytarmağa imkan verir. Həmçinin Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olunur və azərbaycanlılar öz doğma torpaqlarına, yurd-yuvalarına qayıdırlar. Budur, Qələbənin, Zəfərin xoşbəxtliyi! Möhtərəm Prezident İlham Əliyevin təbirincə desək, "Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!".

Spiker yazır: "Azərbaycan dövləti bu zəfəri həm döyüş meydanında, həm də siyasi müstəvidə qazandı. Öz Liderinin, öz Ordusunun gücü, xalqın sarsılmaz birliyi sayəsində zəfər əldə etdi. Qəhrəman əsgərlərimizin şücaəti, fədakarlığı nəticəsində biz torplaqlarımızı işğaldan azad etdik. Vətən müharibəsində öz qanı, canı bahasına torpaqlarımızı qoruyan şəhidlərimizə Allah rəhmət eləsin, onlar bizim qəlbimizdə əbədi yaşayacaq. Bütün yaralı hərbçilərimizə şəfa diləyirəm.

Beləliklə, əldə etdiyimiz bu tarixi zəfər, torpaqlarımızın azad edilməsi həm də Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Dünyanın harasında olmasından, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz dövləti, onun zəfərləri ilə haqlı olaraq qürur duyur, azərbaycanlı olmağı ilə fəxr edir. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Bu müharibə Azərbaycan xalqının, onun Liderinin, Şanlı Ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaradır.

Eşq olsun Ali Baş Komandan İlham Əliyevə! Eşq olsun qüdrətli Azərbaycan Ordusuna!

Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!".

**AZƏRTAC**

**Misirli professor: Azərbaycanın tarixi Qələbəsi 30 il əvvəl işğal edilmiş torpaqlara qayıdış hüququnun bərpa olunmasıdır**

[21:23] 10.11.2020

Mən Azərbaycan Prezidenti İlham Əliyevi, doğma Azərbaycan xalqını tarixi Qələbə münasibətilə təbrik edirəm. Bu qələbə azərbaycanlıların Ermənistan tərəfindən 30 il əvvəl işğal olunmuş torpaqlara qayıdış hüququnun bərpasıdır.

Bu sözləri AZƏRTAC-ın müxbirinə müsahibəsində Misirin Həlvan Universitetinin professoru, politoloq Adel Dərviş söyləyib.

O bildirib: "Mən hələ iyulda sizə verdiyim müsahibədə qeyd etmişdim ki, hərbi təxribatlara əl atan Ermənistan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində maraqlı deyil. Onu da bildirmişdim ki, COVID-19 pandemiyası dövründə dərin böhran keçirən Ermənistanın baş naziri bu təxribatlarla öz xalqının diqqətini yayındırmaq istəyir. Lakin hər şeyin sonu olduğu kimi, bu təhlükəli oyunların da axırı gəlməli idi. Ermənistanın sentyabrın 27-də hərbi təxribatından sonra başlayan döyüşlər işğalçı ölkənin təslim olması ilə başa çatdı. Mən Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərlərinin, 300-dən çox yaşayış məntəqəsinin cəmi 40 gün ərzində işğaldan azad edilməsini böyük hərbi zəfər hesab edirəm. Ümidvaram ki, Dağlıq Qarabağda nəhayət ki, sülh və təhlükəsizlik bərqərar olacaq. Doğma Azərbaycan xalqına öz torpaqlarında sülh və əmin-amanlıq arzu edirəm".

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**

**İşğalın Dağlıq Qarabağ və ətraf rayonların fitosanitar vəziyyətinə təsiri**

[14:12] 12.11.2020

Bitki mühafizəsinin əsas vəzifələrindən biri də müxtəlif vasitələrlə fərqli zoocoğrafi ərazilərdən təsadüfən yeni əraziyə keçmiş invaziv zərərli orqanizmləri tədqiq etmək və ehtiyac olduğu təqdirdə lazımi mübarizə tədbirləri tətbiq etməkdən ibarətdir. Bu məqsədlə respublikamızın müxtəlif rayonlarına daxil olan fərqli ekosistemlərdə vaxtaşırı monitorinqlər aparılır və bitki sağlamlığı istiqamətində lazımi tədbirlər həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Qida Təhlükəsizliyi İnstitutunun Elmi-tədqiqat və risklərin qiymətləndirilməsi departamentinin Bitki sağlamlığı şöbəsinin mütəxəssisləri Camal Quliyev və Gülnar Qəhrəmanovanın hazırladığı məqalədə deyilir.

Müəlliflər daha sonra yazırlar: Təəssüf ki, uzun illər erməni işğalına məruz qalan ərazilərimizdə bu cür tədbirlər planı həyata keçirmək mümkün olmayıb. Belə ki, ölkəmizdə karantin zərərvericiləri, xəstəlik və alaq otlarının yayılması haqqında 1997-ci il yanvarın 2-nə aid hesabatda göstərilən məlumatlar işğaldan əvvəlki son illərə aiddir.

İşğaldan əvvəl həmin ərazilərdə Kolorado kartof böcəyi, filloksera, komstok yastıcası, sitrus ağqanadlısı, sürünən kəkrə, qızılsarmaşıq kimi karantin tətbiq edilən zərərli orqanizmlər qeydə alınıb. Ağdərə rayonunda 292 hektar, Xocavənd rayonunda 114 hektar, Xocalı rayonunda 293 hektar, Şuşa rayonunda isə 39 hektar sahədə Kolorado kartof böcəyinin yayıldığı müəyyən edilib. Bundan başqa, Qubadlıda 8 hektar, Zəngilanda 0,1 hektar, Ağdamda 2 hektar, Füzulidə 15,1 hektar ərazidə Kolorado böcəyinə rast gəlinib.

Filloksera zərərvericisi Ağdərə rayonunda 3000 hektar, Xocalı rayonunda 600 hektar, Xocavənd rayonunda 3750 hektar ərazidə qeydə alınıb. İşğal altında olan Ağdam rayonunda isə 2834 hektar ərazini əhatə edən üzüm sahəsində zərərvericinin yayıldığı məlumdur.

Komstok yastıcasına Ağdərə rayonunda 45 hektar, Xocavənd rayonunda 6 hektar, Xocalıda 14 hektar ərazidə rast gəlinib. İşğala məruz qalmış digər rayonlarımızdan Ağdamda 32 hektar, Zəngilanda 8 hektar, Tərtərdə 5 hektar, Füzulidə 6,9 hektar sahədə komstok yastıcası aşkar edilib.

Ərazidə həşəratlarla yanaşı, kənd təsərrüfatı sahələrinə ciddi ziyan vuran və karantin tətbiq edilən qızılsarmaşıq, sürünən kəkrə kimi alaq otları da qeydə alınıb. Qızılsarmaşığa Ağdam rayonunda 601,5 hektar, Zəngilan rayonunda 72 hektar, Laçın rayonunda 121 hektar, Füzuli rayonunda 1003 hektar, Ağdərə rayonunda 1500 hektar, Xocavənd rayonunda 2400 hektar, Xocalıda 1400 hektar, Şuşada isə 200 hektar ərazidə rast gəlinib. Bundan başqa, Ağdam rayonunda 300 hektar ərazidə sürünən kəkrə də yayılıb.

Lakin işğala məruz qalan ərazilərimizdəki fitosanitar vəziyyət haqqında sonralar heç bir məlumat toplamaq mümkün olmayıb.

Həmin zərərli orqanizmlərin vaxtaşırı monitorinqinin və onlara qarşı fitosanitar tədbirlərin aparılmaması onların kütləvi artımına və areallarının işğal olunmayan digər Azərbaycan ərazilərinə doğru genişlənməsi ilə nəticələnib. Digər tərəfdən, həmin ərazilərdə həyata keçirilən hərbi əməliyyatlar zamanı tətbiq edilən dağıdıcı vasitələr, yaşıllıqların, meşə və kənd təsərrüfatı sahələrinin yandırılaraq və ya digər üsullarla məhv edilməsi, kənd təsərrüfatına yararlı ərazilərə çirkab sularının axıdılması, aqrosenozların yerində narkotik xassəli bitkilərin əkilməsi, müəyyən məqsədlər üçün meşələrin qırılaraq daşınması və s. həmin ərazilərin flora və fauna tərkibinin dəyişməsi fonunda zərərli orqanizmlərin də növ tərkibinin və populyasiya sıxlığının dəyişməsinə səbəb olub.

Ekoloji terror - konkret ölkə tərəfindən və ya şəxs tərəfindən digər ölkənin flora və faunasına zərər yetirməklə, təbii sərvətlərini məhv etməklə, biləraəkdən vurulan ziyandır.

Ermənistan tərəfindən həyata keçirilən ekoloji terrorlardan biri də işğala məruz qalmış Azərbaycan torpaqlarında məqsədyönlü şəkildə törədilmiş yanğınlar və deqradasiyadır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına əsasən, respublikamızın meşə fondu sahəsi 1213,7 min hektar olmaqla ümumi ərazinin 14 faizini təşkil edir. Təəssüflə qeyd olunmalıdır ki, Ermənistanın təcavüzü nəticəsində meşələrimizə külli miqdarda ziyan dəyib. Belə ki, Kəlbəcər, Laçın, Zəngilan, Xankəndi, Şuşa, Xocavənd, Ağdərə meşə təsərrüfatlarının 261 min hektardan artıq sahəsi qırılaraq məhv edilib. Orada yetişən çox qiymətli palıd, fıstıq, vələs, ağcaqayın, ayı fındığı, qoz, Şərq çinarı kəsilərək Ermənistan ərazisinə daşınıb. 25-26 faizi meşə olan işğal altındakı torpaqların məhv edilməsi,

həm də regiondakı heyvan və bitki növlərinin zərər görməsi deməkdir. Aparılan hesablamalara görə, meşə sahələrinin təqribən 8-10 faizi məhv edilib.

Məlumdur ki, 261 min hektar meşə, o cümlədən 13197,5 hektar qiymətli meşə sahələri, hündürlüyü 45, diametri 6-8 metrədək, yaşı 120 ildən 2 min ilədək olan pasportlaşdırılmış 145 Şərq çinarı və digər təbiət abidələri işğal edilmiş ərazilərdə qalıb. Böyük əhəmiyyətə malik olan bu təbiət abidələrinin əksəriyyəti həmin ərazilərdə məskunlaşmış ermənilər tərəfindən məhv edilib.

Ermənistan ordusunun əsgərləri və orada məskunlaşan gəlmə əhali tərəfindən mütəmadi olaraq qəsdən törədilmiş yanğınlar nəticəsində 100 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv edilib, torpağın üst münbit qatı yararsız hala düşüb. Müxtəlif vaxtlarda ermənilər işğal etdikləri ərazilərin geniş hissəsində (Xocavənd, Ağdam, Qubadlı, Zəngilan) yanğınlar törədiblər. Qeyd edək ki, yanğınlar zamanı ətraf mühitə təxminən 300 milyon manat məbləğində ziyan dəyib. Yanğın nəticəsində torpağın üst qatı və bitki örtüyü, ərazidə olan qiymətli ağac və kollar məhv edilib. Orada olan fauna və floradan əsər-əlamət qalmayıb, təbiətə xeyli ziyan vurulub. Həmin yanğınlar ekoloji tarazlığın pozulmasına, heyvanat aləminin və bitki örtüyünün tələf edilməsinə, atmosferin çirklənməsinə səbəb olub.

Lakin törədilən yanğınların fəsadları bununla bitmir. Belə ki, təbii ekosistemlərin və aqrosenozların məhv edilməsi orada məskunlaşan zərərli orqanizmlərin qida bitkilərinin müxtəlifliyinin artmasına təkan verən amillərdəndir. Biçənəklərin və əkin sahələrinin yandırılması bir çox təhlükəli zərərvericilərin, xüsusən də ev siçanı, çöl siçanı, adi çöl siçanı, qırmızıquyruq qum siçanı, kiçik Asiya qum siçanı, boz siçan, boz siçovul və s. kimi siçanabənzər gəmiricilərin, Mərakeş çəyirtkəsi, Asiya çəyirtkəsi, İtaliya çəyirtkəsi kimi sürü halında köç edən zərərvericilərin kütləvi şəkildə sərhədboyu yaşayış ərazilərinə doğru yayılmasına və xüsusilə taxıl sahələrinin kütləvi məhvinə səbəb olub. Gəmiricilər kənd təsərrüfatına ziyan vurmaqla yanaşı, insanlara və kənd təsərrüfatı heyvanlarına bir çox xəstəliklər yoluxdurub.

Qeyd edək ki, son illər işğal altında olan ərazilərdən ölkə ərazisinə Mərakeş çəyirtkəsinin və siçanabənzər gəmiricilərin miqrasiyası fitosanitar vəziyyəti mürəkkəbləşdirən başlıca amillərdən biridir. Rəşadətli ordumuz tərəfindən işğal altında olan ərazilərimizin azad edilməsi həmin sahələrdə fitosanitar sabitliyin təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə şərait yaradıb.

**AZƏRTAC**

**İşğaldan azad edilmiş ərazilərdə DTX-nin idarə və şöbələri fəaliyyətə başlayır**

[14:10] 12.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” 2020-ci il 29 oktyabr tarixli Fərmanına uyğun olaraq, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı rayonlarında və Xocavənd rayonunun Hadrut qəsəbəsində yerli şöbələri xidmətə başlayıb.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Şuşa şəhərinin strateji əhəmiyyəti nəzərə alınaraq, DTX-nin Şuşa şəhər idarəsi təsis edilib və yaxın günlərdə onun fəaliyyəti təmin olunacaq.

**AZƏRTAC**

**Vüqar Kərimov: Təbiətin məhv edilməsinə, qonşu xalqa nifrət və düşmənçiliyin bu cür vəhşi formada ifadəsinə son qoyulmalıdır**

[17:10] 15.11.2020

Ekologiya və Təbii Sərvətlər Nazirliyi, ekoloji qeyri-hökumət təşkilatları, Azərbaycan ictimaiyyəti dünən sosial şəbəkələrdə və televiziyalarda Kəlbəcər ərazisində ermənilərin barbarlığını nümayiş etdirən foto və videolarda əks olunanları qətiyyətlə pisləyir və bu hərəkətləri insanlığa, təbiətə qarşı əsil düşmənçilik kimi qiymətləndirir.

AZƏRTAC xəbər verir ki, bunu ekologiya təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov jurnalistlərə açıqlamasında bildirib.

Nazirlik rəsmisinin sözlərinə görə, təcavüzkar Ermənistan tərəfindən işğal altındakı ərazilərdəki flora və faunanın məhvi, xüsusən də Cəbrayıl, Zəngilan, Qubadlı və işğaldan azad olunmuş digər ərazilərimizdə yaşı iki min ildən artıq olan təbiət abidələrinin - çinarların kəsilməsi, Şuşa ətrafındakı Topxana meşəsinin qadağan olunmuş ağ fosforla yandırılması, indi də Kəlbəcərdə ağacların kəsilməsi, meşələrin yandırılması və ətraf mühitə qəsdən zərər verilməsi təbiətə qarşı ən ağır cinayətdir: "Bu barbarlığa biz dünən yayılan foto və videolarda bir daha şahid olduq. Həmin ekoloji cinayətlər illərlə Azərkosmosdan alınmış foto faktlarda da təsdiq olunub. Eyni zamanda, yaşıllıqlara, meşə sahələrinə, bölgənin biomüxtəlifliyinə qarşı törədilən soyqırımı, yaradılmış əməliyyat qrupunda təmsil olunan nazirliyimizin əməkdaşlarının keçirdiyi monitorinqlərin ilkin nəticələrində də öz əksini tapıb".

Nazir müavini qeyd edib ki, mövcud faktlar müvafiq beynəlxalq konvensiyaların katibliklərinə təqdim edilib: "Təbiətin məhv edilməsinə, qonşu xalqa nifrət və düşmənçiliyin bu cür vəhşi formada ifadəsinə son qoyulması, talançılığın qeydə alınması və ziyanların hesablanması üçün beynəlxalq müşahidə və qiymətləndirmə qrupları Azərbaycana dəvət olunacaq.

Ekoloji terror faktlarına qiymət verilməsi üçün səylərimizi davam etdirməklə yanaşı, işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində işlərə artıq başlamışıq. İşğaldan azad olunmuş ərazilərdə noyabrın 11-dən başlayaraq müxtəlif növ ağac tingləri əkilir, meşə örtüyünün və yaşıllıqların bərpası istiqamətində tədbirlər görülür. Qarabağ ərazisində fəaliyyətimiz bundan sonra daha da intensivliklə davam etdiriləcək".

## İşğaldan azad olunmuş ərazilərdə FHN-in növbəti yerli strukturları fəaliyyətə başlayıb

[09:40] 16.11.2020

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (FHN) işğaldan azad olunan ərazilərimizdə yerli strukturlarının təşkilini davam etdirir.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin Şuşa şəhər, Cəbrayıl, Zəngilan və Qubadlı rayon Dövlət Yanğından Mühafizə hissələri müvafiq olaraq, Şuşa, Cəbrayıl, Zəngilan və Qubadlı şəhərlərində fəaliyyətə başlayıb. Bütün hissələr xidmətin yüksək səviyyədə həyata keçirilməsi üçün müvafiq texnika və avadanlıqla təchiz edilib.

Xatırladaq ki, bundan əvvəl Dövlət Yanğından Mühafizə Xidmətinin Füzuli şəhərində və Xocavənd rayonunun Hadrut qəsəbəsində yerli strukturları fəaliyyətə başlamışdı.

**AZƏRTAC**

**Prezidentə yazırlar: Siz müdrik, cəsarətli siyasət yürüdərək Vətən müharibəsində tarixi zəfərə nail oldunuz**

[11:02] 18.11.2020

Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. Onlar Qarabağ müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Türkiyənin İstanbul şəhərindən Fuat Aytan yazır: "Hörmətli cənab Prezident, mən bir türk vətəndaşı kimi ata dediyim Azərbaycanla, Sizinlə, ölkənizlə, dövlətinizlə, əsgərinizlə qürur duyuram. Var olun, sağ olun, Müzəffər Ali Baş Komandan! Ata-baba yurdumun yerləşdiyi torpaqların işğaldan qurtulması məni xoşbəxt etdi. Azərbaycan üçün nələr edə biləcəyimi bilmirəm. Bir evim, bir az da pulum var. Lazım olsa, onları böyük məmnuniyyətlə Azərbaycanın gələcəyi üçün fəda etməyə hazıram. İnşallah, azad olunmuş torpaqları ziyarət etmək, həmin torpaqları öpmək arzum da həyata keçər. Sizin kimi Ali Baş Komandanın qarşısında baş əyirəm".

Antalya şəhərindən Hakan Yağmur: "Hörmətli cənab Prezident, Qarabağın azadlığı üçün göstərdiyiniz əzmkarlıq, qətiyyət və cəsarət Azərbaycan xalqı kimi bizi də qürurlandırdı. Sizin kimi qardaşlarımız olduğu üçün biz xoşbəxtik. Azərbaycan xalqı isə Sizin kimi Lideri olduğuna görə xoşbəxtdir. Hamımız ona görə xoşbəxtik ki, eyni qanı daşıyır, eyni tarixə malikik, ürəklərimiz eyni həyəcanı paylaşır. Mən Türkiyə Respublikasının vətəndaşı olaraq ən səmimi hisslərlə bildirirəm ki, canımızla, qanımızla sizlərin yanında olmaqdan qürur duyuruq. Heç bir qarşılıq gözləmədən hər zaman Azərbaycan xalqının yanındayıq. Bütün cəbhələrdə Sizinlə çiyin-çiyinə dayanmaq, əlimizdən gələni etmək bizim borcumuzdur. Sizə və Azərbaycan xalqına sonsuz sevgi və ehtiramımı çatdırmaq istəyirəm. Unutmayaq ki, bizlər bazara qədər deyil, məzara qədər qardaşıq. Zəfər Azərbaycan xalqınındır!".

Rusiyanın Omsk şəhərindən soydaşımız Emil Cəfərov yazır: "Müzəffər Ali Baş Komandan, Sizi Rusiya Federasiyasının Omsk şəhərindən salamlayıram. Bu məktubu yazmaqda məqsədim bir azərbaycanlı kimi öz səmimi duyğularımı Sizə bildirməkdir. Əziz Prezidentim, xarici dövlətdə yaşamağımıza baxmayaraq, uzun illər Rusiya Federasiyasında məskunlaşan mənfur qonşularımızın vətəndaşları ilə qarşılaşdıqda içimdən utancverici bir hiss keçirdi. Əslində, bu hissləri hər bir Azərbaycan vətəndaşı yaşayıb. Mən bu hissləri büruzə verməsəm də, düşmənə hiss etdirməsəm də qəlbimdə böyük əzab çəkirdim. Qarabağda itirilmiş torpaqlarımız, qətlə yetirilmiş vətəndaşlarımız, körpələr, qocalar, bacı və qardaşlara edilmiş zülmlər bizi çox sarsıtmışdı. Nəhayət, o gün yetişdi. 2020-ci il sentyabrın 27-dən etibarən hər şey dəyişdi. İşğalda olan şəhər, rayon, qəsəbə və kəndlərimizin Ordumuz tərəfindən ard-arda azad edilməsi xəbərlərini verdiyiniz hər çıxışınızı səbirsizliklə gözləyirdik. 30 ildən sonra üzümüzə təbəssüm bəxş etdiniz, bizə əzmkarlıq hissini yaşatdınız. Böyük işlər gördünüz, ölkəmizi dünya səviyyəsində təmsil etdiniz. Dünyaya sübut etdiniz ki, biz birlikdə güclüyük. Azərbaycan xalqı Sizinlə qürur duyur, hər zaman yanınızdayıq. Şəxsən öz adımdan və Omsk vilayətində yaşayan bütün azərbaycanlılar adından 2020-ci il noyabrın 10-da böyük Qələbə sevincini bəxş etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram. Yaşasın xalqımız və şanlı Ordumuz! Vətən uğrunda şəhid olmuş bütün qardaşlarıma Allahdan rəhmət, ailələrinə səbir diləyirəm. Qarabağ Azərbaycandır!".

Türkiyənin Bolu şəhərindən Ömər Cengizhanoğlu, Mehmetcan Cengizhanoğlu və Doğanacan Cengizhanoğlu yazırlar: "Hörmətli cənab Prezident, Sizi uca Allahın adı ilə salamlayır, gözəl Türkiyəmizdən, türk xalqının adından sevgi və ehtiramımı bildirirəm. Zəfəri zəfərə calamaqla tarixə düşən Azərbaycan Ordusunu səmimi qəlbdən təbrik edir, hər əsgərin alnından öpürük. Çanakkale, Sakarya döyüşləri ilə türk və dünya tarixinə qızıl hərflərlə yazan türk ordusunun qardaşı olan, ermənilərə tarixi dərs verən Azərbaycan Ordusu bu gün cəbhədən Qələbə ilə qayıdır. Bir yumruq kimi birləşmiş Azərbaycan Ordusu qazandığı qələbələrlə ulu öndər Heydər Əliyevin və minlərlə şəhidin ruhlarını şad etmişdir. Dəyərli Prezidentimiz, bütün sahələrdə apardığınız uğurlu siyasətlə tarixə ad salmış türk fatehlərinin davamçısı olduğunuzu dünyaya göstərdiniz. Mən təqaüddə olan müəlliməm. İnşaat mühəndisi olan və Gülhanə tibb fakültəsində oxuyan oğlumla birlikdə Azərbaycan Ordusu üçün əlimizdən gələn köməyi etməyə hazırıq. Dünyanın hələ də unutmadığı Çanakkale zəfərindən sonra sizlər Qarabağ zəfərini tarixə yazdınız. Bütün türk xalqları Sizin bu qəhrəmanlığınızı unutmayacaqdır. Heç şübhəm yoxdur ki, Qarabağdan zəfərlə dönən

şanlı Azərbaycan Ordusu əsl qəhrəmanlar kimi qarşılanacaq. Onlara bir daha Azərbaycan xalqına və bizlərə yaşatdıqları sevinc və xoşbəxtliyə görə minnətdarlıq bildirirəm. Qarabağın azad olunması münasibətilə keçiriləcək şənliklərdə iştirak etmək ümidi ilə müraciətimi ən ülvi hisslərimi ifadə edən sözlərlə bitirmək istəyirəm:

Salam olsun qızıl qəlbli rəhbərimiz İlham Əliyevə!

Salam olsun Qarabağ yolunda dastan yazan şanlı Azərbaycan Ordusuna!

Salam olsun ordusu ilə milli birlik göstərən qardaş Azərbaycan və türk xalqlarına!".

Zaqataladan Elxan Şabanovun məktubunda deyilir: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, noyabrın 8-də Siz Şuşamızın alınması xəbərini verməklə xalqımıza qələbə sevincini yaşatdınız. Otuz illik böyük bir yükü çiyinləri üzərində gəzdirən, ağrıdan-acıdan qovurulan xalqımız məhz Sizin sayənizdə indi sevinc, zəfər salnaməsinin himni altında qürurla addımlayır. Allah Sizi və rəşadətli Ordumuzu qorusun!".

Gəncə şəhərinin sakini Tahir Cəbrayılov: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, müharibə başlayandan hər gün Sizə məktub yazıb ürək sözlərimi çatdırmaq istəyirdim. Amma böyük günü – Şuşanın işğaldan azad olunması gününü gözləyirdim. Mən Azərbaycanın bir vətəndaşı olaraq ailəmlə birlikdə həmişə Sizə inanmışıq və güvənmişik. Yaşasın Müzəffər Ali Baş Komandanımız və rəşadətli Azərbaycan Ordusu! Elimin şanlı, qəhrəman oğlu, bu böyük Qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm".

Ağdam sakini Dilrubə Behbudova: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, əzəli və əbədi torpaqlarımız olan Qarabağın düşmənlərdən azad edilməsi haqqında verdiyiniz əmri eşidəndə çox sevindim. Siz bütün dünyaya bizim xalqın, millətin gücünü və qüdrətini bir daha sübut etdiniz. Mənim bu gün sevincimin həddi-hüdudu yoxdur. Mənim oğlum Zəngilan rayonu uğrunda gedən döyüşlərdə - 1992-ci ildə itkin düşüb. Zəngilanın işğaldan azad edilməsi xəbərini eşidəndə çox qəhərləndim, çox sevindim ki, oğlumun uğrunda vuruşduğu torpaq alındı, qisası yerdə qalmadı. Sevimli oğlum, Sizi dünya durduqca yaşayasınız. Siz mənə bu yaşlı vaxtımda bu sevinci yaşatdınız. Allah Sizi və övladlarınızı qorusun. Allah şanlı və qüdrətli Ordumuzu qorusun. Siz biz məcburi köçkünlərin 30 ilə yaxın olan Vətən-torpaq həsrətinə son qoydunuz. Mən ürəyimdən gələn xoş arzuları Sizə çatdırmağı özümə borc bilirəm. Arzu edirəm ki, bütün Qarabağ torpaqlarımız düşmən işğalından tamamilə azad olunsun, Azərbaycanımızın bütövlüyü təmin edilsin və mən Sizi öz torpağımda - Ağdamda öz evimdə çay süfrəsinə qonaq edim. Mən Sizin sözlərinizi çox böyük fəxrlə təkrar edirəm: Qarabağ Azərbaycandır!".

Bakı şəhər sakini Sayad Cəbrayılova: "Hörmətli Cənab Prezident, Müzəffər Ali Baş Komandan, torpaqlarımızın işğaldan azad edilməsinə çox sevinirik. Qarabağımızın 30 illik işğalına son qoyuldu. Qazandığınız hərbi-siyasi uğurlarla qürur duyuruq. Allah Sizi, Ordumuzu və millətimizi qorusun. Şəhidlərimizə Allah rəhmət eləsin. Şəhid analarının qarşısında baş əyirəm. Ümummilli Qələbə təbrikləri Sizindir. Qarabağ Azərbaycandır!".

Beyləqan sakini Nilay Cahangirli: "Möhtərəm cənab Prezident, mənim adım Nilaydır. 10 yaşım var. Mən çox xoşbəxtəm, çünki Sizin komandanlığınız altında torpaqlarımızı geri aldıq. Sizin kimi Prezidentimiz olması ilə, azərbaycanlı olmağım ilə fəxr edirəm. Mən bilirdim ki, Azərbaycan Ordusuna qarşı heç bir ordu qalib gələ bilməz. Mən və ailəm hər zaman Sizə dəstəyik. İnşallah tezliklə bütün həmyerlilərimiz öz ata-baba yurdlarına geri dönərlər. Qələbəmizə görə Sizə təşəkkür edirəm. Sizi və ailənizi də bu qələbə münasibətilə təbrik edirəm. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Ali Baş Komandan!".

Naftalan sakini Natiq Məmmədov: "Müzəffər Ali Baş Komandan, mən bu məktubu Sizə fəxrlə, dolu ürəklə və göz yaşı ilə yazıram. Şuşa şəhərinin azad edilməsi bu hissləri keçirməyimə səbəb oldu. Öncə Ulu Öndərimizin ruhu qarşısında baş əyirəm. Məhz onun səyi ilə Orduda vahid Ali Komandanlıq yaradıldı, ölkədə hərc-mərcliyə son qoyuldu. Əldə olunmuş uğurlar gələcək böyük Qələbənin təməlini qoydu. Siz də atanız kimi müdrik, cəsarətli siyasət yürüdərək Ordumuzu gücləndirdiniz, onun siyasətini davam etdirərək Vətən müharibəsində bu uğurlara nail oldunuz. Allah Sizi heç vaxt Azərbaycan Respublikasının Ali Baş Komandanlığından əskik etməsin! Daim ölkəmizin qoruyucu mələyi olasınız!".

Şəmkir sakini Brilyant Quliyeva: "Hörmətli Prezidentimiz cənab İlham Əliyev, hamımıza məlumdur ki, Azərbaycan qədim dövlətçilik ənənələrinə malik bir ölkədir. Xalqımızın tarixdə üzləşdiyi ən böyük fəlakətlərdən biri XX əsrin 90-cı illərinin əvvəlində mənfur düşmənlərimiz olan ermənilər tərəfindən işğala, soyqırımları və vəhşiliklərə məruz qalmasıdır. İki əsrdir torpaqlarımız yadellilərin işğalına məruz qalmış, zaman-zaman torpaqlarımız işğal olunmuşdu. Cənab Prezident, bu gün mən özümü xoşbəxt sayıram. Siz

müdrik və uzaqgörən siyasətinizlə Azərbaycan xalqına şərəfli bir tarix yaşatdınız. Azərbaycan xalqının bu günü və xoşbəxt gələcəyi naminə yorulmadan çalışdınız. Xalq Sizi sevir və ürəkdən dəstəkləyir. Hörmətli Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, Sizə Kəlbəcər, Şuşa dağları, Zəngilan, Laçın çinarları kimi ucalıq, uzunömürlülük arzulayıram".

Füzuli sakini Məlahət Cəfərova: "Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyinizlə doğma torpaqlarımızın öz həqiqi sahiblərinə - bizə qaytarılması uğrunda başladığımız haqq mübarizəsində Qələbə bizim oldu. Azərbaycan xalqının necə igidlər yetirdiyini bütün dünya gördü. Qalibiyyəti bizə bəxş edən Sizi və müzəffər Ordumuzu Allah daim qorusun! Qarabağ bizimdir!".

Ağcabədidən Telman Hacıyev: "Hörmətli cənab Prezident, rəhbərliyiniz altında şanlı Ordumuzun işğal altında inləyən torpaqlarımızı azad etməsi və Vətən müharibəsinin bizim Qələbəmizlə başa çatması münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Yorulmaz fəaliyyətinizdə Sizə uğurlar arzulayıram. Qarabağımızı bizə qaytaran Müzəffər Ali Baş Komandan, Allahdan Sizə uzun ömür, cansağlığı diləyirəm. Yaşasın Azərbaycan!".

Xaçmazdan Elxan Mövlamov: "Müzəffər Ali Baş Komandan, Azərbaycanın könüllülərindən ilk şəhid Mövlamov Elçinin ailəsi adından Sizə dərin təşəkkürümüzü bildiririk. Çox sağ olun ki, Siz bu böyük Qələbə sevincini bizə yaşatdınız. Cənab Prezidentimiz, biz Mövlamovlar ailəsi hər il şəhidimizin anım gününü böyük üzüntü və kədərlə keçirirdik. Lakin bundan sonra oğlumuzu qürurla ana biləcəyik. Çünki Elçinimizin və bütün şəhidlərimizin qanı Siz və rəşadətli Ordumuz sayəsində yerdə qalmadı. Rəbbim Sizi və şanlı Ordumuzu qorusun!".

**AZƏRTAC**

**Sərhəd rayonların işğaldan azad edilməsi İran-Azərbaycan əlaqələrinin inkişafı üçün yeni perspektivlər açıb**

[15:11] 19.11.2020

İranın IRNA xəbər agentliyinin saytında Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş rayonlarının azad edilməsi və hərbi əməliyyatların başa çatması ilə bağlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə regionun gələcək inkişafına toxunulub. Diqqətə çatdırılıb ki, regionun bir dövləti olaraq İran sərhədlərində sülhün və əmin-amanlığın hökm sürməsində maraqlıdır. İran hərbi əməliyyatların yekunlaşmasını region üçün əməkdaşlıq və inteqrasiya imkanlarının yaranması kimi dəyərləndirir.

Qeyd olunub ki, işğaldan azad edilən Füzuli, Cəbrayıl və Zəngilan rayonları İran ilə 130 kilometrlik sərhədə malikdir. Artıq bu rayonlar Azərbaycanın nəzarətindədir. Yaxın gələcəkdə bu ərazilərdə İran ilə Azərbaycan arasında gömrük-keçid məntəqələri yaradılacaq ki, bu da iqtisadi-ticarət əlaqələrinin inkişafına səbəb olacaq. Bu fakt hər iki qonşu dövlətin qarşılıqlı faydalı əməkdaşlığı üçün yeni perspektivlər vəd edir.

**Rabil Kətanov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tehran**

**AZƏRTAC**

**“Regional İnkişaf” İctimai Birliyi Ermənistanın ölkəmizə qarşı törətdiyi ekoloji və humanitar terrorun dayandırılması ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib**

[14:21] 20.11.2020

“Regional İnkişaf” İctimai Birliyi (RİİB) Ermənistanın hərbi-siyasi hakimiyyətinin Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasət nəticəsində uzun illərdir işğal altında saxladığı ərazilərdə törətdiyi cinayətlərin, xüsusilə ekoloji cinayətlərin, vandalizm aktlarının dayandırılmasına dəstək verilməsi ilə bağlı 40-dan çox beynəlxalq təşkilata müraciət ünvanlayaraq, baş verən hadisələrə laqeyd qalmamağa çağırıb.

İctimai birlikdən AZƏRTAC-a verilən məlumata görə, müraciətdə bildirilir ki, dünya ictimaiyyəti tərəfindən ərazi bütövlüyü birmənalı olaraq tanınan Azərbaycanın torpaqlarının 20 faizini işğal edən Ermənistan 1 milyondan çox soydaşımızın məcburi köçkün həyatı yaşamasına səbəb olmaqla, onların yaşamaq və mülkiyyət hüququnu pozmuş, illərdir bu torpaqlarda mədəni və ekoloji terror törətməklə Azərbaycana maddi-mənəvi zərər vurmuşdur.

Birinci Qarabağ müharibəsi dövründə işğal olunmuş torpaqlarda Azərbaycanın mədəni irsi - tarixi və dini abidələri məhv edilmiş, sənət əsərləri talan olunmuş, müxtəlif ölkələrdə hərraca çıxarılaraq satılmış, antik sikkələrin, qızıl və gümüş məmulatlarının, nadir və qiymətli daşların, xalçaların və əl işlərinin saxlandığı Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Şuşa Tarix Muzeyi, Ağdamda yerləşən və dünyada yeganə olan Çörək Muzeyi və Daş Abidələr Muzeyi dağıdılmışdır.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri tərəfindən erməni işğalından azad edilmiş Zəngilan rayonundakı tarixi məscidin, Ağdam Cümə Məscidinin donuz tövləsi kimi istifadə edildiyi aşkar olunmuş, bu barədə müxtəlif xarici KİV-də məlumat yayımlanmışdır.

Azərbaycanın işğal altında olmuş 25 faiz meşə massivinə, həmin ərazilərdəki ekoloji mühitə, təbii sərvətlərə, bioloji müxtəlifliyə Ermənistan bu gün də qəsd etməkdə davam edir. Azərbaycan, Ermənistan və Rusiya arasında 10 noyabr 2020-ci il tarixdə əldə edilmiş üçtərəfli razılaşmaya əsasən, ermənilər qanunsuz olaraq məskunlaşdıqları əraziləri tərk edərkən ölkəmizin özünəməxsus ekosistemini məqsədli şəkildə məhv edir, ağacları kütləvi şəkildə kəsir, evləri yandırırlar. Şuşa şəhərinin meşə zolaqlarının zəhərli maddələrdən istifadə edilərək yandırılması təcavüzkar ölkənin qeyri-insani mahiyyətini bir daha nümayiş etdirir.

İndiyədək təqribi hesablamalara görə, ümumilikdə 1815 hektar meşə sahəsi məhv edilib. İşğalçı ölkənin təbiətə və ekologiyaya vurduğu zərər Ermənistanın 2002-ci ildən tərəfdaşı olduğu İqlim Dəyişikliyi üzrə BMT Çərçivə Konvensiyasının müddəaları ilə də qadağan edilir.

Müraciətdə, həmçinin Ermənistanın Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərində, Tərtər, Naftalan, Bərdə, Ağcabədi, Ağdam, Xızı və Abşeron rayonlarında yaşayış məntəqələrinə raket zərbələri endirərək, mülki vətəndaşların həyatına son qoyması, yaşayış evlərinə, infrastruktura ciddi ziyan vurması barədə ətraflı məlumat verilib.

**AZƏRTAC**

**Ağdamda ağacəkmə coşqusu**

[17:01] 21.11.2020

İşğaldan azad olunmuş Ağdam rayonu ərazisində karantin rejiminin tələblərinə əməl olunmaqla və böyük ruh yüksəkliyi ilə ağacəkmə aksiyası keçirilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin Ağdamda ağac əkilməsi çağırışına rayon icra hakimiyyətinin əməkdaşları ilə birgə digər qurumların təmsilçiləri və ictimaiyyət nümayəndələri də sevinc və fəxrlə qatılıb.

Hər kəs Qarabağ bölgəsində Ermənistanın işğalçı ordusu tərəfindən məhv edilmiş yaşıllıq massivlərinin yenidən bərpasına, Ağdamın gözəlləşməsinə, doğma torpaqlarımıza Böyük Qayıdış təntənəsinə öz töhfəsini verməyə çalışıb.

Ölkə üzrə həyata keçirilən payız ağacəkmə kampaniyası çərçivəsində Ağdam rayonu ərazisində də baş tutan aksiyada, əsasən yerli şəraitə uyğun Şərq çinarı olmaqla, 1000-dək müxtəlifcinsli ağac əkilib, palıd və digər meşəcinsli ağac toxumları səpilib.

Xatırladaq ki, işğaldan azad olunmuş Füzuli və Zəngilan rayonlarının ərazilərində də yaşıllıqların bərpası məqsədilə ağacəkmə aksiyaları keçirilib və bu cür kütləvi ağacəkmə tədbirlərinin bütün Qarabağ bölgəsində təşkili nəzərdə tutulur.

**AZƏRTAC**

**TRT HABER: Ağdamdakı dəhşətli mənzərə Ermənistanın vəhşiliyinə daha bir nümunədir**

[14:54] 22.11.2020

Türkiyənin “TRT Haber” televiziya kanalı Ermənistan işğalından xilas edilən Ağdam rayonundakı tükürpədici vəziyyətlə bağlı geniş reportaj yayıb.

AZƏRTAC xəbər verir ki, talan edilən, qapı və pəncərələrinə, divarlarına qədər sökülüb aparılan evlərin dəhşətli mənzərəsini canlı yayımla tamaşaçılara çatdıran aparıcı real mənzərənin rayon mərkəzi də daxil olmaqla, bölgənin 27 il işğalda saxlanıldığını deyil, sanki əsrlər əvvəl dağıdılıb məhv edilməsi barədə acı təəssürat yaratdığını vurğulayıb. Ağdamdakı dəhşətli mənzərə Ermənistanın vəhşiliyinə daha bir nümunədir. Ağdamda da eynilə Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlıda qarşılaşdığımız acınacaqlı vəziyyətin şahidi olduq.

Diqqətə çatdırılıb ki, artıq Ağdam Cümə məscidinin işıqlandırılıb, hərbi birliklər rayonun minalardan təmizlənməsini davam etdirir.

Qeyd edək ki, Azərbaycanın işğal altındakı torpaqlarını düşməndən azad etmək üçün Silahlı Qüvvələrimizin rəşadətli Qələbəsi ilə nəticələnən möhtəşəm zəfər və təcavüzkar Ermənistanın təslim olması Türkiyənin kütləvi informasiya vasitələri tərəfindən ən əsas mövzu kimi diqqət mərkəzində saxlanılmaqdadır.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Azərbaycanın hərbi-diplomatik uğurları Ağdam rayonunun işğaldan azad olunmasını və 853 saylı qətnamənin icrasını şərtləndirdi**

[21:55] 22.11.2020

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə Müzəffər Ali Baş Komandanın ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də bir sıra mühüm əhəmiyyətli şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

Bu ilin noyabrın 8-i tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

E.Əhmədov deyib ki, 27 il ərzində təcavüzkara qarşı nəinki heç bir təzyiq edilməyib, hətta dünya birliyi Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinə, bütün dünyanın gözü qarşısında baş verən bu qanlı terror hadisələrinə seyrçi mövqedən yanaşaraq, xüsusilə onu sülhə məcbur etmək üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr əsasında qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını birmənalı şəkildə tələb etməyib.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərini, 17-də Füzuli şəhərini, 22-də Zəngilan şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

1993-cu il iyulun 23-də Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra iyulun 29-da BMT Təhlükəsizlik Şurasının 3259-cu rəsmi iclasında Təhlükəsizlik Şurasının sədri Devid Henney (Böyük Britaniya) Şura üzvlərinə məlumat verərək bu iclasın Azərbaycan dövləti adından Təhlükəsizlik Şurasına göndərilən və BMT-dəki daimi nümayəndəlik tərəfindən yayılmış məktubdakı təkidli xahişə müvafiq surətdə keçirildiyini bildirdi. Müzakirələrdən sonra BMT Təhlükəsizlik Şurası Azərbaycanın Ağdam rayonunun işğal edilməsi ilə bağlı 853 saylı qətnamə qəbul etdi. Bu qətnamədə də Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin olduğu göstərilir, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilərin zor gücünə ələ keçirilməsinin yolverilməzliyi bir daha təsdiq olunur, hərbi əməliyyatların təxirə salınmadan dayandırılması və işğalçı qüvvələrin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu.

2020-ci il noyabrın 20-də Ağdam rayonunun işğaldan azad olunması mühüm tarixi hadisədir. Ağdamın işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müvafiq maddəsinin yerinə

yetirilməsidir. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Ağdam rayonundan çıxmasını nəzərdə tutan 853 saylı qətnamə də məhz Azərbaycanın şərtləri ilə icra edildi.

Ağdam rayonu Kiçik Qafqaz dağları ilə Kür-Araz ovalığının təmas zonasında, yəni Qarabağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərb hissəsində yerləşir. Relyefi əsasən düzənlik, qismən dağlıqdır. Rayonun ərazisindən Qarqar və Xaçın çayları axır. Şimalda Tərtər və Bərdə rayonları, cənubda Xocavənd, şərqdə Ağcabədi rayonu, qərbdə isə Kəlbəcər rayonu və Xocalı şəhəri ilə həmsərhəddir.

Bununla yanaşı, işğal nəticəsində Ağdam rayonu ərazisindəki memarlıq abidələri bütünlüklə talan edilmiş, yandırılmış, dağıdılmış və məhv edilmişdir. Aparılan arxeoloji tədqiqatlar zamanı aydın olmuşdu ki, Üçoğlantəpə deyilən yerdə ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni, eneolit dövründə (e.ə. IV-VI minilliyi əhatə edir) yaşamış, qədim əkinçilik və maldarlıq mədəniyyətinə yiyələnmişlər. Rayonun digər ərazilərində qədim yaşayış məskəni olmuş Leylatəpə və Üzərliktəpə deyilən yerlərdə apardığı arxeoloji tədqiqatlar zamanı eneolit və orta tunc dövrünə aid (e.ə. II minilliyin birinci yarısı) dulusçuluq, metaləritmə, zərgərlik və digər sahələrə aid maddi-mənəvi abidələr aşkarlanıb.

Tarixi və memarlıq abidələrindən Sarıhacılı kəndindən 3 kilometr cənub-şərqdə Çinartəpə yaşayış yeri (e.ə. II-I minilliklər), Göytəpə kəndinin qərbində Göytəpə yaşayış yeri (tunc dövrü), Papravənd kəndinin cənub-şərqində Güllütəpə - II yaşayış yeri (son tunc dövrü, ilk orta əsrlər), Güllütəpə - I yaşayış yeri (III-XIII əsrlər), Ağdam şəhərinin şimal-qərbində Xındırıstan kəndində yerləşən Üzərliktəpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələr (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), Şeyx Nigari türbəsi, türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr) və türbəsi, iki sandığabənzər abidə (XVI əsr), o cümlədən görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Ağdam şəhərinin Qaraağacı qəbiristanında Uğrulla bəyin türbəsi (XIX əsr), Şahbulaq ərazisində Şahbulaq qalası və Karvansara, eləcə də rayonun ərazisində mövcud olan çoxlu sayda tarixi, mədəni və dini abidələr məhv edilmişdir.

Bununla yanaşı, Ağdamda bütün dünyada yeganə olan "Çörək muzeyi" ilə yanaşı, tarzən Qurban Pirimovun xatirə muzeyi, Ağdam Şəkil Qalereyası və şəhərin mərkəzində yerləşən qədim memarlıq abidəsi sayılan Məscid və onun minarələri də erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılmışdır. Ümumilikdə, 130-dan çox tarixi abidə və maddi-mədəniyyət nümunələri yer üzündən silinmişdir.

Bundan əlavə, işğaldan əvvəl Ağdamda 1898 sayda sosial-iqtisadi tikinti obyekti, 17 sənaye, 31 tikinti, 753 ticarət, 397 ictimai iaşə, 220 məişət müəssisəsi, 480 sosial bina, 24 min 446 yaşayış tikililəri, həmçinin 54 məktəbəqədər uşaq, 116 ümumtəhsil müəssisəsi, bir neçə ali məktəb filialı, 13 mədəniyyət evi, muzeylər, 109 mədəniyyət klubu fəaliyyət göstərmişdir.

Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycan Prezidenti deyib: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq".

Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisə kimi dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 20-də xalqa müraciətində qeyd etmişdir ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur, işğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı, hazırda isə Ağdam rayon sakinlərinin sayı 204 mindir.

Prezident İlham Əliyev indi Ağdam üçün yeni dövrün başladığını vurğulayaraq demişdir: "Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün olmuşdur. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş istehkamlar, oraya böyük vəsait xərclənib. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə

bilməsin. Amma yenə də səhv etdilər. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bilmirdilər ki, bizi o Qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi".

**Prezident İlham Əliyev: Biz bütün dünyaya göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır**

[11:23] 24.11.2020

Tam qətiyyətlə deyə bilərəm, biz işğal olunmuş torpaqlarımızı onsuz da azad edəcəkdik. Ancaq düşmən hesab edirdi ki, ona kimsə kömək edəcək. Hesab edirdi ki, onun bütün havadarları gəlib onun yerinə bizimlə vuruşacaq. Səhv etdi, böyük səhv etdi. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra düşmən diz çökdü və bu gün diz üstədir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu barədə işğaldan azad edilmiş Ağdam şəhərində olarkən bildirib.

Dövlətimizin başçısı sözünə davam edərək deyib: “Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq. Biz bütün dünyaya sübut etdik ki, onların əfsanələri, onların mifləri hamısı boş şeydir. On mindən çox fərari var Ermənistan ordusunda və daha da çox olacaqdı. Əgər biz Ağdama planlaşdırdığımız əməliyyatı həyata keçirsəydik, bax, burada minlərlə erməni hərbçisi ya fərari olacaqdı, ya da məhv olacaqdı. Biz göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Biz göstərdik ki, heç vaxt bu işğalla barışmayacağıq. Açsınlar baxsınlar mənim çıxışlarıma, mən son 17 il ərzində bəlkə də min dəfə demişəm, biz bu işğalla barışmayacağıq. Hesab edirdilər ki, bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaqlar. Çünki bu qədər xərc qoyan, burada, Füzulidə, Cəbrayılda bu qədər istehkam quranlar onu da istəyirdilər”.

Prezident qeyd edib ki, Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda bir neçə gün şiddətli döyüşlər gedirdi. “Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb. Nə üçün? Çıxmaq istəmirdilər. Hesab edirdilər ki, orada əbədi oturacaqlar. Erməniləşdirmək istəyirdilər. Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin”, - deyə Prezident İlham Əliyev əlavə edib.

**AZƏRTAC**

## Prezident İlham Əliyev: Müharibənin bütün sirlərini açmaq hələ tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq

[11:18] 24.11.2020

Mən bilirəm və hiss edirəm ki, bizim şəhərlərimiz, rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca ağdamlılar da fikirləşirdilər ki, nə vaxt onların kəndləri, Ağdam şəhəri azad olunacaq. Cəbrayıl azad olundu, Füzuli azad olundu, Hadrut azad olundu, Zəngilan, Qubadlı, Suqovuşan, Şuşa azad olundu və yəqin ki, ağdamlılar fikirləşirdilər ki, nə üçün Ağdam azad olunmur? İndi mən bunu deyə bilərəm.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu fikirləri Ağdam məscidinin qarşısında çıxışı zamanı deyib.

"Amma mən istəyirdim, bunu hansısa formada ağdamlılara çatdırım, amma onlar da başa düşürlər ki, müharibə dövründə bunu edə bilməzdim. Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar mələyə-mələyə, sürünə-sürünə, onun-bunun dabanlarını yalaya-yalaya torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik, amma, bax, buradan yox, arxa tərəfdən", - deyə Müzəffər Ali Baş Komandan bildirib.

Müharibənin bütün sirlərini açmağın hələ tez olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi".

**Prezident: Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir, Azərbaycan zəfər çalmış ölkədir**

[13:22] 25.11.2020

Mən ilk günlərdən deyirdim ki, bu məsələ öz həllini hərbi, siyasi yollarla tapmalıdır. Deyirdim ki, biz məsələnin hərbi yollarla həllini hər an dayandıra bilərik və buna hazırıq. Bir şərtlə, Paşinyan şəxsən özü deməlidir ki, nə vaxt o, bizim torpaqlarımızdan çıxır. Öhdəlik götürməlidir, tarix verməlidir. Deməlidir ki, nə vaxt bizim torpaqlarımızdan çıxır. Bu olan kimi, mən bizim hücum əməliyyatlarımızı dayandırıram.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə xalqa müraciətində müharibənin nəticələrindən danışarkən bildirib.

“O, artıq cəzasını alıb. Halbuki o vaxt o, 7 şərti bizə irəli sürəndə demişəm: Mənim bir şərtim var, - sənin yeddi şərtini zibil yeşiyinə atıram, - rədd ol, çıx get torpağımızdan. Öz xoşunla çıx get. Əgər qulaq assaydı, bu rəzil vəziyyətə düşməzdi”, - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident sözünə davam edərək deyib: “Müharibənin nəticələri də mən deyən kimi oldu. Biz Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Murovdağı, Suqovuşanı, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı hərbi yollarla azad etdik. Döyüş meydanında düşmənin belini qırdıq. Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü, kapitulyasiya aktına imza atdı”.

Azərbaycan Prezidenti xalqa müraciətini bu sözlərlə tamamlayıb: “Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir. Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!”

**“Vətən müharibəsində möhtəşəm Qələbəyə görə sağ ol, Azərbaycan əsgəri!” devizi altında tədbirlər keçirilib**

[17:12] 25.11.2020

Vətən müharibəsinin od-alovundan keçərək qələbə bayrağımızı zirvələrə ucaltmış mübariz döyüşçülərlə Müdafiə Nazirliyinin təşkilatçılığı ilə görüşlər keçirilib, incəsənət ustalarının çıxışları təşkil olunub, ədəbi-bədii kompozisiyalar təqdim edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, işğaldan azad edilmiş Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan rayonlarında və Şuşa şəhərində “Vətən müharibəsində möhtəşəm qələbəyə görə sağ ol, Azərbaycan əsgəri!” devizi altında keçirilən vətənpərvərlik tədbirlərində əvvəlcə ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Layihənin müəllifi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlardan, ordu ilə xalqın sağlam mənəvi birliyindən, döyüşlərdə yeni tarix yazan qüdrətli sərkərdəmizin və mərd oğullarımızın fədakarlıqlarından iftixarla söhbət açıb.

Xalq artisti Samir Cəfərov, Əməkdar artist Cahangir Qurbanov və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı qrupunun iştirakı ilə Müzəffər Ali Baş Komandanı, rəşadətli Azərbaycan Ordusunu və qələbəni tərənnüm edən vətənpərvərlik mahnıları, hərbi marşlar səsləndirilib.

Bəstəkar Azad Zahidin A.Qurbaninin sözlərinə yazdığı “Qələbəyə gedən yollar”, “Qalib Sərkərdə”, “Müzəffər Ordumuz”, “Qələbə müjdəsi”, “Biz gəlmişik, Qarabağ” mahnılarını döyüşçülər alqışlarla qarşılayıblar.

Şuşada klassik Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylinin, böyük sənətkarımız Bülbülün ev muzeyləri, görkəmli şair Molla Pənah Vaqifin məzarı, eləcə də Gövhər Ağa məscidi, Şuşa qalası, Cıdır düzü və dağıdılmış digər tarixi memarlıq abidələrimiz ziyarət olunub.

Bülbülün ata ocağında iməcilik keçirilib. Bülbülün repertuarından “Sənsiz”, “Sevgili canan” romansları və “Koroğlu” operasından parçalar ifa edilib.

Tədbirin təşkilatçıları əminliklə bildiriblər ki, xalqımızın xilaskar oğlu, qalib sərkərdəmiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən bütün bölgələrimizdə, o cümlədən Şuşada tezliklə böyük quruculuq işləri aparılacaq, köçkünlər öz doğma yaşayış məntəqələrinə qayıdacaq, Azərbaycan əsgəri bundan sonra da əzəli və əbədi torpaqlarımızın müdafiəsində mərdliklə dayanacaq.

Vətənpərvərlik tədbirləri Ağdam, Laçın və Kəlbəcər rayonlarında davam etdiriləcək.

**BMTM Kolumbiya Universitetinə etiraz məktubu ünvanlayıb**

[04:45] 26.11.2020

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ABŞ-ın Kolumbiya Universitetinin İnsan Hüquqlarının Tədqiqatı Mərkəzi İnstitutuna etiraz məktubu ünvanlayıb.

BMTM-dən AZƏRTAC-a daxil olan məktubda bu institutun Azərbaycan-Ermənistan münaqişəsinə qərəzli və birtərəfli münasibətinə etiraz öz əksini tapıb. Belə ki, Kolumbiya Universitetinin qeyd edilən institutu noyabrın 12-də öz səhifəsində Qarabağda insan hüquqları və guya hansısa xarici terror fəaliyyətlərinə dair araşdırma proqramına başlandığını bəyan edib. Noyabrın 13-də universitet tərəfindən ABŞ-dakı erməni lobbisi ilə yaxın münasibətləri olan müxtəlif universitetlərdə və institutlarında çalışan bir qrup şəxsin nümayəndələrinin müraciəti dərc edilib.

Həmin müraciətdə noyabrın 10-da imzalanan Azərbaycan, Rusiya və Ermənistan dövlət başçılarının imzaladığı atəşkəs razılaşması pislənir, ABŞ rəsmilərinin prosesə müdaxiləsinə çağırılır və bu razılığın bölgədəki ermənilərə qarşı etnik təmizləmə aparmasına rəvac verdiyi iddia edilir.

BMTM-nın Kolumbiya Universitetinə ünvanlandığı məktubda belə nüfuzlu ali təhsil ocağı tərəfindən münaqişəyə birtərəfli və qərəzli münasibətinin təəccüb və təəssüf doğurduğu diqqətə çatdırılaraq, bu cür münasibətin universitetin tərəfsiz, azad söz üçün platforma kimi imicinə zərbə vuracağı vurğulanıb. Məktubda noyabrın 10-da imzalanmış müqavilə əleyhinə çıxış edənlərin mövqeyini anlamağın çətin olduğu diqqətə çatdırılıb. Belə ki, bu müqavilənin müharibənin və qan tökülməsinin qarşısını almaqla yanaşı heç bir şəkildə beynəlxalq hüququn hansısa prinsip və müddəasını pozmadığı vurğulanıb. O da xüsusilə sual edilir ki, insan həyatının hər bir şeydən dəyərli olduğu halda nə üçün qan tökülməsinin qarşısını alan müqaviləyə etiraz edilir. Belə ki, imzalanan müqavilə ilə Azərbaycan özünün suveren torpaqlarında ermənilərin sıx yaşadığı ərazilərə gələrək, iki icma bir yerdə yaşamağı öyrənənə qədər onların təhlükəsizliyinə təminat verəcəyini göstərib. Digər tərəfdən işğaldan azad edilən Ağdam, Kəlbəcər, Zəngilanın və digər ərazilərin hər birinin azad edilməsinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən icra edildiyi və baş verdiyi göstərilib. Eyni zamanda digər tərəfdən həmin ərazilərin Dağlıq Qarabağa aid olmadığı qeyd edilib. Məktubda Azərbaycan tərəfdən muzdluların döyüşməsi iddiasına cavab verilib. Qeyd edilib ki, ölkə prezidenti özünün müsahibələrində və Fransa prezidenti ilə telefon danışığında bu ittihamları sübut edə biləcək konkret faktların təqdim edilməsini tələb edib. Eyni zamanda Azərbaycanın uzun illər ərzində silahlı qüvvələrinə milyardlarla dollar vəsait xərcləyərək böyük və müasir ordu qurduğunu diqqətə çatdırıb. Azərbaycan ordusunun 100 minlik şəxsi heyətinin olduğu bildirilib.

Sonda Kolumbiya Universitetinin müvafiq institutu münaqişədə qərəzli formada tərəf tutmaq deyil, obyektiv və bitərəf kimi iki xalq arasında dialoqun və birgəyaşayışın yollarının axtarılması üçün vasitəçi olmağa dəvət edilib.

**AZƏRTAC**

**Azərbaycan hərbi-diplomatik uğurları ilə BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasını da təmin etdi**

[13:47] 26.11.2020

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə Müzəffər Ali Baş Komandanın ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də bir sıra mühüm əhəmiyyətli şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

İyirmi yeddi il ərzində təcavüzkara qarşı nəinki heç bir təzyiq edilməyib, hətta dünya birliyi Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinə, bütün dünyanın gözü qarşısında baş verən bu qanlı terror hadisələrinə seyrçi mövqedən yanaşaraq, xüsusilə onu sülhə məcbur etmək üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr əsasında qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını birmənalı şəkildə tələb etməyib.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərini, 17-də Füzuli şəhərini, 22-də Zəngilan şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

Ağdamın işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsidir. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi.

Qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Ermənistan təkcə Qarabağın dağlıq hissəsini tutmaqla kifayətlənmədi və təcavüzkarlığını daha da genişləndirdi. 1993-cü il martın 27-dən aprelin 2-dək Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Kəlbəcər rayonu işğal edilmişdi. Azərbaycan Kəlbəcər rayonuna erməni təcavüzü başlayandan dərhal sonra bölgədə yaranmış vəziyyət haqqında BMT-nin Baş Katibinə və Təhlükəsizlik Şurasının sədrinə məlumat verdi. Azərbaycanın bu tələbi Türkiyə tərəfindən müdafiə olundu. Məhz Kəlbəcərin işğalından sonra Türkiyə dövləti Ermənistanla sərhədini bağladı.

1993-cü il aprelin 30-da BMT TŞ-nın 3205-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 822 saylı qətnamə qəbul edildi. Qətnamədə Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin olduğu göstərilirdi. Sənəddə bütün hərbi əməliyyat-ların dərhal dayandırılması, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılması tələb edilirdi. Bundan əlavə, sənəddə ərazi bütövlüyünə hörmət, eləcə də beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilərin zor gücünə ələ keçirilməsinin yolverilməzliyi təsdiq olunurdu.

Kəlbəcər rayonu Azərbaycanın qərbində, Tərtər çayı vadisində, Böyük Qafqaz dağlarında, dəniz səviyyəsindən 1500-3800 metr hündürlükdə yerləşir. Ən uca nöqtəsi dəniz səviyyəsindən 3724 metr yüksəkdəki Camışdağ zirvəsidir (Murovdağ). Rayonun ərazisindən axan əsas çaylar Tərtər, Bazarçay və onların qollarıdır. Ərazisinin çox hissəsində qışı quraq keçən soyuq və dağlıq tundra iqlim tipləri hakimdir. Kəlbəcər rayonu qərbdə Ermənistan Respublikası, şərqdə Ağdam və Tərtər, şimalda Daşkəsən, Göygöl və Goranboy rayonları ilə, cənubda isə Laçın rayonu və Xocalı şəhəri ilə həmsərhəddir.

İşğal nəticəsində Kəlbəcər rayonu ərazisindəki memarlıq abidələri bütünlüklə talan edilmiş, yandırılmış, dağıdılmış və məhv edilmişdir. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli, ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları, sənaye əhəmiyyətli ümumi ehtiyatları 850 ton olan 3 - Ağyataq, Levçay, Çorbulaq və ehtiyatları 200 tondan çox olan Qamışlı və Ağqaya civə yataqları, ehtiyatları 10941 min kubmetr olan və mişar daşı istehsalına yararlı Kilsəli tuf yatağı, ehtiyatları 1312 min kubmetr olan və kərpic istehsalına yararlı Keşdək gil yatağı, ehtiyatları 4473 min kubmetr olan və yüngül beton doldurucusu kimi istifadə olunan Keçəldağ perlit yatağı, ümumi ehtiyatları 2,2 milyon kubmetr olan 2 üzlük daşı yatağı, ehtiyatları 2540 min kubmetr olan Çəpli qum-çınqıl qarışığı yatağı; gözəl dekorativliyə malik 4 mərmər oniksi (ehtiyatları 1756 ton), nefroid (ehtiyatları 801 ton) yatağı; ehtiyatları 2337 ton olan 1 obsidian (dəvə gözü) yatağı, ehtiyatları 1067 min kubmetr olan 1 listvenit yatağı qalmışdır.

Bundan əlavə, Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da (ümumi istismar ehtiyatları 3093 m3/gün) işğal ərazisində yerləşir. Murovdağ, Şahdağ, Vardenis, Mıxtökən, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsinin əhatəsində yerləşən Kəlbəcər şəhərinin ən yüksək zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m). Ərazidə Yura, Təbaşir, Paleogen, Neogen və Antropogenin çökmə, vulkanogen-çökmə və vulkanik süxurları yayılıb. Ən böyük çayı Tərtər (yuxarı axını) və onun qolları Lev çayı, Tutqunçay və başqalarıdır.

Kəlbəcər rayonunun işğaldan azad olunması tarixi hadisə kimi dəyərləndirən və ərazi baxımından bizim ən böyük rayonlarımızdan biri olduğunu vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 25-də xalqa müraciətində qeyd etmişdir ki, Kəlbəcər bizim qədim torpağımızdır: “Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni “tarixçiləri” və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər”. Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malik olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev qeyd etdi ki, bir neçə böyük çayımızın mənbəyi Kəlbəcər rayonundadır. Onların arasında ən böyüyü Tərtər çayıdır, uzunluğu 200 kilometrdir.

Kəlbəcərdə mənfur düşmənin digər cinayətlər də törətdiyini, qanunsuz məskunlaşma aparıldığını bildirən Prezident İlham Əliyev demişdir: “Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. Bu isə hərbi cinayətdir və Cenevrə Konvensiyasına görə hərbi cinayət sayılır. Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də həmçinin, Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan”.

Prezident İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. “Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir” fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycan Prezidenti deyib: “Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq”.

Qeyd etmək vacibdir ki, rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirilməklə yanaşı, düşmənin bu illər ərzində yaratdıgı “yenilməzlik” mifologiyasını darmadağın etdi. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslananaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Eyni zamanda, bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi. Bu, informasiya müharibəsində Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin zəfər çaldığını şərtləndirdi. Xüsusilə, son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratdı.

Nəticədə, informasiya müharibəsində Azərbaycan Prezidenti İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və artıq danışıqların şərtlərini Azərbaycan tərəfi müəyyən etdi və ölkəmizin ikinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi. Təhlil onu söyləməyə əsas verir ki, bütün bunlar Azərbaycanın böyük hərbi-diplomatik uğuru və beynəlxalq birliyin Azərbaycana olan inamının, etimadının təzahürü, ölkəmizin, xüsusilə dövlət başçısının qlobal miqyasda olan nüfuzunun göstəricisidir.

**AZƏRTAC**

**Vətən müharibəsi zamanı əməliyyatların minimum itkilərlə həyata keçirilməsi böyük uğurdur**

[18:26] 29.11.2020

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altındakı torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Bu əməliyyatlar və 44 gün davam edən Vətən müharibəsi zamanı Zəngilan, Füzuli, Cəbrayıl, Qubadlı şəhərləri və həmin rayonların kəndləri, Şuşa şəhəri, eləcə də bir neçə strateji yüksəkliyin işğaldan azad olunması azərbaycanlılara böyük sevinc və qürur hissi yaşadıb. Bu zəfər və Prezident, Ali Baş Komandanı İlham Əliyevin nümayiş etdirdiyi qətiyyətli mövqe hərbçilərimizdə və xalqımızda böyük ruh yüksəkliyi yaradıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri bu hərbi uğurun Azərbaycan Ordusu üçün əhəmiyyətini şərh edən ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib.

Polkovnik Şair Ramaldanov bildirib ki, düşmən mürəkkəb relyefə malik işğaldan azad edilmiş ərazilərdə otuz il istehkamlar yaradaraq Ordumuzun böyük itkilər verəcəyinə zənn edirdi: “Lakin Ordumuzun ən müasir silahlarla təchiz olunması zamanı bu relyef, dağlıq, meşəlik ərazilər nəzərə alınmaqla təmin edilmişdi. Həmçinin Azərbaycan Ordusunun şəxsi heyəti döyüş meydanında irəlilədikcə onun vətənpərvərlik ruhu yüksəlir, qələbəyə inam daha da artırdı. Digər tərəfdən işğaldan azad edilmiş ərazilər bizə başqa istiqamətlərdə növbəti addımlar atmaq üçün şərait yaradırdı. Bunların hamısının strateji önəmi vardı.

Müharibəyə hazırlıq dövründə Azərbaycan Ordusu daim kəşfiyyat aparırdı. Təlimlər və döyüş hazırlıqlarında məhz həmin ərazilər və düşmənin istehkamları nəzərə alınmışdı. İrimiqyaslı təlimlər döyüş başlayacağı halda müəyyən ssenarilər nəzərə alınaraq təşkil edilmişdi. Azərbaycan Ordusu XXI əsrdə döyüş əməliyyatlarını aparmağa imkan verən ən müasir, beşinci nəsil silahlarla təchiz olunmuşdu. Bütün bu illərdə Silahlı Qüvvələrimiz torpaqlarımızı güc yolu ilə azad etməyə hazırlığı davam etdirirdi. Biz bu kompleks hazırlıqların nəticəsini Ordumuzun yüksək döyüş ruhunu və vətənpərvərliyini əməliyyatlar başlayan zaman müşahidə etdik. Döyüşlərə atılan əsgərlərimiz Qarabağın işğalı ilə barışmadığı vətənpərvər mühitdə tərbiyə alıblar. Dövlətimizin başçısı işğal altındakı torpaqlarımızın tezliklə azad olunacağını hər zaman bəyan etmişdi. Məhz belə mühitdə gənclərimiz böyüyürdü. Şəhid Mübariz İbrahimov və digər qəhrəmanlarımız gənclərimizin daxilindəki Qarabağ alovunu göstərirdi”.

Ş.Ramaldanov qeyd edib ki, əsgərlərimiz qısa müddətdə Ermənistanın keçilməz saydığı müdafiə xətlərini yarıb, düşməni torpaqlarımızdan qovmağa başlayıb. Sonra ən strateji istiqamət olan Şuşa şəhəri düşməndən azad edilib. Bu, Azərbaycan Ordusunun yüksək döyüş hazırlığının göstəricisidir. Cənub istiqamətində Şuşayadək döyüşlər Ordumuzun daha çox müasir texnika və silahlarla təminatını, onları idarə edən heyətin peşəkarlığını göstərib. Şuşa əməliyyatı isə Azərbaycan Ordusunun peşəkarlığını, yüksək səviyyədə hazırlığını və döyüş ruhunu nümayiş etdirib. Sıldırım qayalardan çıxılaraq düşmənlə yaxın döyüşdə qəhrəmanlıq nümunələri göstərilib və Şuşa işğaldan azad edilib. Bu döyüşdə taktiki cəhətdən düzgün istiqamətlər seçilib, bütün hesablamalar dəqiqliklə aparılıb və böyük uğur qazanılıb. Düşmənin ürəyinə Azərbaycan bayrağı sancılıb. Həmçinin 70 yaşayış məntəqəsi düşməndən təmizlənib və Ermənistanın kapitulyasiya bərabər bəyanatı imzalamasına nail olunub.

Ermənistanın çoxsaylı silah-sursatının, hərbi texnikasının məhv edilməsindən danışan ehtiyatda olan polkovnik qazanılan hərbi uğurlarda Ali Baş Komandan İlham Əliyevin hərbi sahədə siyasətindən, müharibəyə kompleks hazırlıqdan, ordumuzun arsenalındakı müasir hərbi silahlarından söz açıb. Vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələri Prezident İlham Əliyevin bilavasitə diqqəti və qayğısı sayəsində sürətlə inkişaf edərək bu gün dünyanın ən peşəkar ordular arasında yer alıb. Dövlətimizin başçısı ordumuzun ən müasir silah-sursatlarla, eləcə də maddi-texniki təminatına yüksək diqqət göstərib.

Azərbaycan Ordusunun texniki üstünlüyü barədə məlumat verən polkovnik deyib ki, vaxtilə keçirilən genişmiqyaslı təlimlər döyüş zamanı aparılan əməliyyatların uğurla keçirilməsinə töhfə verib. Azərbaycan Ordusunda hərbi döyüş qabiliyyətini müəyyənləşdirən vəzifələrdə müddətdən artıq xidmət edən heyət çoxluq təşkil edir. Bu da Azərbaycan Ordusunun peşəkarlığını göstərir. Bu gün Azərbaycan Ordusunun cəmiyyətdəki nüfuzu da yüksəkdir.

Hərbi ekspert vurğulayıb ki, Azərbaycan Ordusunun yeni müharibə strategiyası əsgərlərimizin həyatının daha çox qorunmasına imkan verib. Qazanılan hərbi qələbələrin əsasında Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşmış və ən son texnoloji silahlarla təchiz edilmiş müasir ordu dayanır. Azərbaycan Ordusu ən müasir döyüş standartları əsasında hərbi əməliyyatlar aparıb.

İkinci Qarabağ müharibəsində itkilərin az olduğunu bildirən Ş.Ramaldanov qeyd edib ki, hətta NATO-nun Baş Qərargah rəisi Azərbaycan Ordusunun həyata keçirdiyi bu nümunəvi əks-hücum əməliyyatlarının gələcəkdə öyrənilməsinin vacibliyini vurğulayıb. Çoxsaylı müdafiə-istehkam qurğuları, mürəkkəb relyef şəraitində Şuşanın işğaldan azad edilməsi nəticəsində düşmən kapitulyasiyaya imza atıb. Minimum itkilərlə bu əməliyyatların həyata keçirilməsi böyük uğurdur. Hərb elmində döyüşdəki bütün mərhələlər planlaşdırılır. Xarici hərbi ekspertlərin qiymətləndirmələrinə əsasən, Azərbaycan Ordusu bütün torpaqları işğaldan azad etmək üçün qarşıdan gələn qış mövsümündəki şəraiti də nəzərə alsaq, çoxsaylı itki verə bilərdi. Məhz Prezident İlham Əliyevin müdrik qərarları sayəsində və Ali Baş Komandan bir sərkərdə kimi istiqamətləri müəyyənləşdirməklə döyüşlərdə Azərbaycan Ordusunun şəxsi heyəti arasında itkilərin minimum olmasına nail olunub. Dövlətimizin başçısının bu sərkərdəlik məharəti və Azərbaycan Ordusunun yüksək döyüş hazırlığı, həmçinin müasir silahların və texnikaların peşəkarlıqla idarə edilməsi sayəsində XXI əsrin tələblərinə cavab verən əməliyyatlar aparılıb. Azərbaycan Ordusu düşmənə maksimum zərbə endirməklə onu zəiflədib və beləliklə öz şəxsi heyəti arasında itkilər az olub.

Döyüşlərdə düşmənin çoxsaylı canlı qüvvə itkilərinə məruz qalmasının, onun texnikasının, döyüş infrastrukturunun, hərbi sursatının məhv edildiyini bildirən polkovnik xatırladıb ki, Ermənistan müharibə zamanı dağıdıcı silahlardan, artilleriyadan, raket-yaylım sistemlərindən istifadə edib. Zəfərlə yekunlaşan müharibədə az da olsa, itkilər olur. Bu gün əsgər analarımız səbir, təmkin nümayiş etdirir və deyirlər ki, təki Vətən sağ olsun. Onlar bu gün qürur hissi keçirirlər ki, övladları qələbə qazanan Ordunun sıralarında döyüşlərdə iştirak edib və torpaqlarımızın azadlığı uğrunda şəhid olublar. Xalqımızın və dövlətimizin şəhid ailələrinə qayğısı onların ağrı-acılarını azaldır. Artıq Vətən müharibəsi zəfərlə yekunlaşıb, düşmən diz çöküb və Azərbaycan ərazi bütövlüyünü bərpa edib. Bu gün Azərbaycan Ordusunun müasir döyüş strategiyasına hərbi aləmdə yeni təcrübə kimi yanaşılır. Ordumuzun arsenalındakı ən müasir silahlar və texnikalar isə Vətən müharibəsi zamanı şəxsi heyətimiz arasında itkiləri minimuma endirmiş döyüş taktikasını seçməyə imkan verib.

**AZƏRTAC**

**Misirin "Cümhuriyyə" nəşri: Azərbaycan Prezidenti heç kimin İslam abidələrini təhqir etməsinə imkan verilməyəcəyini bəyan edib**

[15:39] 29.11.2020

Misirin "Cümhuriyyə" nəşri "Azərbaycan Prezidenti heç kimin İslam abidələrini təhqir etməsinə imkan verilməyəcəyini bəyan edib" sərlövhəli məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, jurnalist Mustafa Yasinin müəllifi olduğu məqalədə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin işğaldan azad edilmiş Ağdam məscidinin qarşısında etdiyi çıxışdan sitatlar yer alıb. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı məscidləri bağlayan, islamofobiya yayan dairələrin, yaxud müsəlman məbədlərinə kəsilmiş donuz başları atanların tolerantlıq nümunəsi olan Azərbaycana irad tuta bilməyəcəyini vurğulayıb.

Məqalədə Azərbaycanın dövlət başçısının dini-mənəvi dəyərlərə verdiyi əhəmiyyət diqqətə çatdırılıb. Qeyd olunub ki, Prezident İlham Əliyev bu kontekstdə deyib: "Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax, bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb".

O əlavə edib ki, bir neçə il əvvəl Ağdam məscidində olan ATƏT-in Minsk qrupunun həmsədrləri ermənilərin bu vəhşiliyinə biganə qalıb, beynəlxalq ictimaiyyət qarşısında heç bir məsələ qaldırmayıb. Eyni zamanda, bu cür vəhşiliklər Qərb liderlərində də heç bir narahatlıq yaratmayıb.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olublar**

*(23 dekabr 2020-ci il)*

Xəbər verdiyimiz kimi, dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, Qubadlıya gedən yolda avtomobili özü idarə edən Prezident **İlham Əliyev** dedi:

-Cəbrayıl rayonunun ərazisindəyik. Azad edilmiş torpaqlardayıq. Sağ tərəfdə ermənilər tərəfindən dağıdılmış kəndlərimizdir. Gedirik Qubadlı rayonuna.

Dağıdılmış üzüm bağları. Bütün kəndlər dağıdılıb. Yolun sol və sağ tərəflərində olan dirəklər torpaqlar işğaldan azad olunandan sonra qısa müddət ərzində qoyulmuşdur.

Bütün kəndlər dağıdılıb. Düşmən bu cinayətlərə görə cavab verəcək. Bütün kəndlərimiz, tarixi abidələrimiz, dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Bütün dünya bunu görməlidir.

Sovet vaxtından qalan abidə. İkinci Dünya müharibəsinə həsr edilmiş abidədir. Onu da dağıdıblar.

Növbəti dağıdılmış kənd.

**Birinci xanım Mehriban Əliyeva**: Kəndin adı nədir?

**Prezident İlham Əliyev:** Göyərçin Veysəlli kəndi. Erməni faşistlər tərəfindən dağıdılıb. Heç İkinci Dünya müharibəsi zamanı faşistlər belə vəhşilik törətməyib. Görün, biz hansı vəhşi düşmənlə üz-üzə idik, biz hansı şər qüvvələri məğlub etdik?! Bölgəmizi, Qafqazı faşistlərdən azad etdik. Bütün bu kəndləri bərpa edəcəyik. Ancaq, ilk növbədə, bütün kəndlər, o dağıntılar sənədləşdiriləcək, uçota alınacaq.

Zəngilan rayonunun ərazisindən keçirik.

Babaylı kəndi. Bu da dağıdılıb.

Bir dənə də salamat bina yoxdur. Baxın, bütün binalar dağıdılıb. Köhnə qəbiristanlıq.

Zəngilan rayonunun gözəl mənzərəsi, səfalı məkan. Hamısını bərpa edəcəyik. Bu da Üçüncü Ağalı kəndi. Görünür burada ermənilər yaşayıblar. Amma görün nə gündə yaşayıblar. Mən deyəndə ki, işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, budur bunun sübutu. Bizim kəndimizə gəliblər, kəndimizin böyük hissəsini dağıdıblar.

Ermənilərin zəbt etdikləri evlərimiz. İndi Üçüncü Ağalı kəndinin sakinləri yəqin ki, tanıyar bu ev kimindir. Gələsən, başqasının torpağını zəbt edəsən, insanları evsiz-eşiksiz qoyasan, onların evində yaşayasan, xarabalığa çevirəsən, sonra da deyəsən ki, bu, qədim erməni torpağıdır. Saxtakarlar, oğrular, yalançılar, vəhşilər bizim torpaqlarımızı 30 ilə yaxın müddət ərzində işğal altında saxlayıblar. Bütün bu videosənədlər hüquqi müstəvidə bizim təzminat davamız üçün əşyayi-dəlil olacaq.

Birinci Ağalı kəndi. Bura da dağıdılıb. Amma bəzi evlər qalıb. Ermənilər bizim evlərimizdə yaşayıblar. Bundan sonra özümüz yaşayacağıq öz evlərimizdə. Onlar da getsinlər öz vətənlərində yaşasınlar.

Seləli kəndi. Bu kənd də dağıdılıb. Görün nə günə qoyublar. Mən hələ müharibədən əvvəl deyirdim ki, bizim bütün kəndlərimiz, şəhərlərimiz talan edilib. Ermənilər dam örtüklərini, pəncərə çərçivələrini, hər şeyi aparıblar. Açıq-aşkar oğurluq ediblər, bizim torpaqlarımızı istismar ediblər.

Evin yarısını söküb, o biri tərəfdə yaşayıb. Baxın, nə günə qoyublar. Talançılar!

Vəhşi düşmən keçib bu torpaqlardan, dağıdıb ki, heç vaxt Azərbaycan əhalisi buraya qayıtmasın. İnşallah, hamımız qayıdacağıq. Hər şey dağıdılıb.

**Birinci xanım Mehriban Əliyeva:** Yəqin ora hərbi hissədir.

**Prezident İlham Əliyev:** Orada artıq Azərbaycan bayrağı ucaldılıb. Hərbi hissələr tikiblər ki, torpaqlarımızı əbədi işğal altında saxlasınlar, amma rədd etdik onları, qovduq torpaqlarımızdan. Torpaqların sahibləri qayıdır.

Baxın, ağacları necə qırıblar. Baxın, vəhşi düşmən neyləyib, bütün ağacları kəsib. Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər açın gözlərinizi, baxın. Sizin parlamentləriniz qətnamələr qəbul edib. Bizim üçün o qətnamələrin heç bir əhəmiyyəti yoxdur, bir kağız parçasıdır. Amma iş ondadır ki, bizə qarşı yenə əsassız ittihamlar irəli sürülür. Fransa parlamentinin deputatları, Belçika, Hollandiya parlamentlərinin deputatları, baxın, sizin sevimli ermənilər nələr ediblər bu torpaqlarda? Açın xəritəyə

baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr. Azərbaycanı ittiham edirlər.

Qubadlının Xanlıq kəndi. Xanlıq kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Ermənilər bizim bu tarixi, qədim kəndimizə eybəcər ad veriblər. Xanlıq kəndi Qubadlı rayonunun ərazisində yerləşir. Biz indi Qubadlı rayonunun ərazisindəyik. Ermənilər Xanlıq kəndində özləri üçün hərbi istehkam, hərbi baza qurmuşdular. Xanlıq kəndində qanunsuz məskunlaşma aparılmışdı. Xaricdən gətirilən ermənilər burada qanunsuz yollarla yerləşdirilmişdilər. Bu da hərbi cinayət sayılır. Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Baxın, xaricdən gələn ermənilər üçün xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salınıb.

Kənd təsərrüfatı texnikası. XX əsrin 50-ci illərində istehsal olunub. Xaricdə yaşayan ermənilər cinayət törədiblər. Xaricdən erməniləri gətirib bizim torpaqlarımızda məskunlaşdırıblar. Xanlıq qəsəbəsində azərbaycanlıların evlərini söküb sonra ermənilər üçün evlər tikiblər. Bu da ermənilərin maşını. Bax, bu maşınları sürürdülər onlar. Bu da bizim qəhrəman əsgərlərimizin adları. Öz adlarını yazıblar bu evlərin üzərində. Biləsuvar, Şabran, Sabirabad, Şuşa, Oğuz. Bax, qanunsuz məskunlaşmaya cavab budur. Bu da ermənilərin növbəti maşınları, baxın.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəldilər, burada hərbçilərlə görüşdülər.

**Prezident İlham Əliyev:** Salam uşaqlar.

**Əsgərlər**: Sağ olun!

**Prezident İlham Əliyev**: Nə var, nə yox, necəsiniz?

**Əsgərlər:** Çox sağ olun!

**Prezident İlham Əliyev:** Xidmət necə keçir?

**Əsgərlər**: Əla. Hər şey yaxşıdır.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Bu, ermənilərin bizim qədim kəndimizdə saldığı bir qəsəbədir. Bizim evlərimizi söküb, ondan sonra da xaricdən gələn ermənilərin pulu ilə bu qəsəbə salınıb. İndi biz burada yaşayırıq. Siz burada məskunlaşmısınız, xidmət göstərirsiniz. Biz öz doğma torpaqlarımıza qayıtmışıq. Bu torpaqları döyüş meydanında azad etmişik. Düşməni öz torpaqlarımızdan qovmuşuq, bax, sizin kimi əsgərlərin sayəsində. Bütün dünya gördü ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti nəyə qadirdir.

Gəlin uşaqlar, gəlin.

**Əsgərlər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Xoş gördük. Bu, bizim qədim torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb.

**Əsgər:** Ay maşallah, igiddir, əsl igid.

**Prezident İlham Əliyev:** Salam, salam. Sonra şəkil çəkdirək.

Döyüş meydanında gücümüzü göstərdik. Erməniləri torpaqlarımızdan qovduq. Azərbaycan bayrağını torpaqlarımızda ucaltdıq. Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdik, döyüş meydanında, danışıqlar yolu ilə yox. Bizim başımızı aldadırdılar. Bu 27 il ərzində ermənilər burada özləri üçün qəsəbə salıblar, xaricdən erməniləri gətiriblər. Xanlıq qəsəbəsinə bir eybəcər erməni adı veriblər.

**Əsgərlər**: "Onları iti qovan kimi qovduq" sözləriniz şüarımızdır.

**Prezident İlham Əliyev:** Gördülər bizim gücümüzü. Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli.

**Əsgərlər:** Var olun, var olun, var olsun Azərbaycan! Allah Sizi bizim başımızın üstündən əskik etməsin!

**Prezident İlham Əliyev:** Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi. Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.

**Əsgərlər:** Sizin başçılığınız və iradəniz sayəsində.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Əsgərlər**: Biz sizinlə fəxr edirik. Yaşasın Azərbaycan!

**Prezident İlham Əliyev:** Yaşasın Azərbaycan əsgəri!

**Əsgərlər:** Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev:** Gəlin, şəkil çəkdirək.

**Əsgər**: Ad gününüz mübarək, yüz yaşayın, Allah ömrünüzü uzun eləsin!

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşdülər.

**Prezident İlham Əliyev:** Qubadlı rayonunun ərazisindən iki böyük çay keçir: Həkəri çayı və Bazarçay. Onlardan biri də budur, baxın. Çox güman ki, bu, Həkəri çayıdır. Bura isə Aşağı Mollu kəndidir. Şəhidimiz Əsgərov Rüfətin şəkli. Allah rəhmət eləsin! Bütün şəhidlərimizə Allah rəhmət eləsin!

**Birinci xanım Mehriban Əliyeva:** Allah rəhmət eləsin!

**Prezident İlham Əliyev**: Qubadlı rayonunun gözəl mənzərəsi. Yenə də dağıdılmış kənd. Hər şeyi yenidən quracağıq, yolları da, bütün infrastrukturu da. Gözəl mənzərədir.

Bu da yəqin ki, Bazarçaydır. Çünki Qubadlının bir tərəfindən Həkəri çayı axır, digər tərəfindən Bazarçay, bax, buradan görünür. Ona Bərgüşad çayı da deyirlər. Qəzyan kəndi. Bax, ermənicə nəsə yazıblar orada. Bunu sökmək lazımdır, gəlin sökün.

Diləlimüskənli kəndi. Bu kənd də dağıdılıb. Bütün evlər dağıdılıb. Bir-iki ev qalıb, orada da düşmən yaşayıb. Bu da Saray kəndidir. Saray kəndi Qubadlı şəhərinin yaxınlığında yerləşir. Bu kənd də dağıdılıb.

Baxın, Qubadlı şəhərini düşmən nə günə qoyub. Bütün binalar dağıdılıb. Ancaq özləri üçün hərbi hissə tikiblər. Bu da Qubadlı şəhəri. Bu, yəqin ki, onların anbarları olub. Bu ev də sökülüb. Qubadlı şəhərinin girəcəyində ermənilər hərbi baza tikiblər. Gün də çıxdı. Təbiət də bizi alqışlayır, salamlayır. Sahibləri gəlib bu torpağa. Gör nə gündədir Qubadlı şəhəri? Nə günə qoyub düşmən bizim şəhərimizi?

Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı.

Dövlətimizin başçısı burada çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidova mən Milli Qəhrəman adını Aprel döyüşlərindən sonra verdim, göstərdiyi qəhrəmanlığa görə. Allah ona rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan hərbçiləri, o cümlədən Şükür Həmidov dövlət tərəfindən yüksək döyüş ordenləri ilə təltif edilmişdir.

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, bizim növbəti istiqamətimiz Qubadlı rayonu idi və şəhərdə ermənilər güclü istehkam qurmuşdular. İndi şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar dağıdılıb, sökülüb və yol boyunca Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bütün kəndləri, qəsəbələri dağıdılıb. Ancaq burada, şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdirilib. Bu, özlüyündə hərbi cinayətdir. Bu cinayətə və bütün digər cinayətlərə görə Ermənistan dövləti cavab verəcəkdir.

Qubadlını azad etmək üçün, ilk növbədə, biz bu yüksəklikləri götürməli idik. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Eyni zamanda, Ermənistan ərazisindən bizə atəş açılırdı. Nəzərə alsaq ki, Azərbaycan Ermənistan ərazisinə keçmək fikrində deyildi və mən bunu müharibə zamanı dəfələrlə bildirmişdim. Onlar hesab edirdilər ki, bu imkanlardan istifadə edib, bizim hücumumuzun qarşısını ala bilərlər. Buradan, Qubadlı şəhərindən Ermənistan sərhədinə, bax, o istiqamətdən 5 kilometr məsafədir. Həm oradan ağır artilleriya ilə, həm də bu yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək bizim əsgərlərimizi, hərbçilərimizi atəşə tutmuşlar. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər.

Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim

tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi - gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda, strateji yüksəkliklər ələ keçiriləndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün.

Düşmən bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya gedəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Biz Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığnaq, Çanaxçı və Daşaltı kəndini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu.

Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat – bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət göstərir. Bu da böyük nailiyyətdir. Biz mütləq o bölgələri də, o rayonları da döyüşərək alacaqdıq. Amma çox itkilər verə bilərdik, xüsusilə Ağdam istiqamətində, hər tərəf minalanmışdı və bir neçə müdafiə xətti var idi. Eyni zamanda, xüsusilə hava şəraitini nəzərə alsaq, Kəlbəcər, Laçın rayonlarının döyüşlə azad edilməsi də böyük itkilərə gətirib çıxaracaqdı. Artıq qış başlamışdı, yolları buz bağlamışdı. Kəlbəcərə Göygöl rayonundan keçmək üçün saatlarla vaxt lazımdır.

Ona görə noyabrın 10-da imzalanmış Bəyanatın çox böyük əhəmiyyəti var. Təbii ki, əgər biz o günə qədər böyük ərazini işğalçılardan azad etməsəydik, düşmənin belini qırmasaydıq, düşmən ordusunun məhv edilməsində istədiyimizə nail olmasaydıq, əlbəttə, düşmən onun üçün bu alçaldıcı sənədə qol

qoymazdı. Biz onu məcbur etdik, torpaqlarımızdan qovduq və mən verdiyim sözə həmişə olduğu kimi sadiq qaldım. Müharibənin ilk günlərindən demişdim, Ermənistan rəhbərliyi açıq-aşkar bəyan etməlidir ki, nə vaxt, hansı tarixdə bizim torpaqlarımızdan çıxır. Tarix verməlidir bizə. Əgər bu olarsa, biz müharibəni dayandırarıq. Amma bizə tarix verilmədi. Çalışırdılar ki, müxtəlif yollarla xarici ölkələri bu işlərə qoşaraq öz çirkin əməllərini davam etdirsinlər, işğalı davam etdirsinlər. Əgər Ermənistan rəhbərliyi o vaxt mənim sözümə baxıb düzgün addım atsaydı, belə alçaldıcı vəziyyətə düşməzdi. Mən demişdim ki, axıra qədər gedəcəyik və axıra qədər də getdik, lazım olan anda dayandıq, üç rayonu bir güllə atmadan, bir itki vermədən qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, bax, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub, bizim qabağımızda diz çöküb və düzgün nəticə çıxarmalıdır. Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar.

Biz öz istəyimizə nail olduq. Dekabrın 10-da Zəfər paradı keçirildi. Zəfər paradında biz düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasını nümayiş etdirdik və öz hərbi potensialımızı nümayiş etdirdik. Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. İndi gələn ilin büdcəsi müzakirə olunur. Mənim təşəbbüsümlə hərbi xərclər artırılır. İlk növbədə, ona görə ki, müharibə zamanı biz bir çox silah-sursatdan istifadə etdik, onları bərpa etmək lazımdır. Eyni zamanda, müasir texnikanın bundan sonra da alınması nəzərdə tutulur. Bundan sonra da ordumuzun müasirləşdirilməsi, ordumuzun döyüş potensialı, ordumuzun peşəkarlığı daim diqqət mərkəzində olacaqdır.

Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır. Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik.

Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanır, bütün dəymiş ziyan hesablanacaq. Bizim torpaqlarımız istismar edilirdi, təbii ehtiyatlarımız istismar edilirdi. Zəngilan rayonunda qızıl yatağı istismar edilirdi. Azad edilmiş digər ərazilərdə də, həmçinin. Bütün bunların hesabını Ermənistan dövləti verəcək. Bununla paralel olaraq bütün bərpa işləri təmin ediləcək və biz bütün şəhər və qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik, insanlar buraya qayıdacaq və biz öz torpağımızda bundan sonra əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi öz torpağımızdan çıxara bilməz.

Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!

**x x x**

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşdülər.

**Prezident İlham Əliyev**: Zəngilan. Zəngilan şəhərinə az qalıb.

Düşmən Zəngilanda da hər şeyi dağıdıb. Baxın, dağılmış evlər. Baxın, bu evi nə günə qoyublar.

Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaltdı.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəldilər.

Məscidin qarşısında çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib.

Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl, gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu “dost ölkəyə” 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan “beynəlxalq məmurlar” öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.

**x x x**

**Prezident İlham Əliyev:** İndi isə Zəngilandan Bakıya qayıdırıq. Yolboyu Zəngilanın gözəl təbiətini seyr edirik. Görün, necə gözəl yerlərdir. Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, İnşallah.

İndi istiqamət Bakı şəhəridir. Çəkilişi aparan Mehriban xanıma da təşəkkürümü bildirirəm. Xahiş edirəm özünü də çəksin.

**Birinci xanım Mehriban Əliyeva:** Dərin hörmət və məhəbbətlə sizin Mehriban.

**Prezident İlham Əliyev:** Sağ olun, əziz bacı və qardaşlar. Qarabağ Azərbaycandır!

**AZƏRTAC**
**2020, 24 dekabr**

**Qarabağ - Azərbaycan xalqının milli ruhunun formalaşdığı müqəddəs yerdir**

[18:53] 02.12.2020

Macarıstanın “Daily News Hungary” populyar ingilisdilli informasiya-analitik portalında Azərbaycanın bu ölkədəki səfiri Vilayət Quliyevin müsahibəsi çıxıb.

AZƏRTAC xəbər verir ki, nəşrin jurnalisti ilə V. Quliyevin söhbəti Azərbaycan xalqının işğal edilmiş torpaqların azad edilməsi uğrunda bu yaxınlarda zəfərlə başa çatan Vətən müharibəsinə həsr olunub.

Jurnalist müsahibənin giriş hissəsində görüşün məqsədini ifadə edir: bir az keçmişdən, xeyli indiki zamandan və daha çox gələcəkdən danışmaq.

Vilayət Quliyev münaqişənin başlanğıcı barədə sualı cavablandıraraq, 1917-ci ildə Rusiya imperiyasının süqutu anında Cənubi Qafqazın etnik xəritəsi barədə söhbət açıb. Gürcü və Azərbaycan xalqları keçmişdə bu ərazidə dövlətçiliyə sahib olublar, onlara öz sərhədlərini müəyyən etmək daha asan olub, həmin dövrdən 90 il əvvəl çar hökuməti tərəfindən buraya yerləşdirilən ermənilər haqqında isə bunu demək mümkün deyil. Narazılıqlar, iddialar və onlara heç vaxt mənsub olmayanı ələ keçirmək cəhdi məhz ermənilərdən gəlib. Qarabağda erməni və azərbaycanlı əhali qarışıq olub, Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) illərində o, AXC-nin tərkibinə daxil idi və bu, 1919-cu ildə Paris Sülh Konfransı tərəfindən tanınmışdı.

İddialar Ermənistanın sovetləşdirilməsindən sonra da davam edib. Yeri gəlmişkən, bu gün Ermənistanın sovetləşməsindən (2 dekabr 1920-ci il) 100 il keçir. V.Quliyev xatırladıb ki, lakin həmin tarixdən 7 ay sonra Rusiya Kommunist (bolşeviklər) Partiyasının Qafqaz Bürosu Qarabağın AZƏRBAYCANIN TƏRKİBİNDƏ QALMASINA qərar verib.

Səfir Qarabağın Azərbaycana guya “Stalin tərəfindən verilməsi” barədə Avropa dairələrində tirajlanan uydurmanı da tənqid edib. Ermənilərin iddiaları göz önündə zəifləyən Qorbaçov hakimiyyətinin sonunda yenidən irəli sürüldü, daha sonra tammiqyaslı təcavüz və BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinin qəbul edilməsi ilə nəticələndi.

Atəşkəs illərində (1994-2020) erməni tərəfi öz təxribatlarını davam etdirib. 2016-cı ilin aprelində erməni tərəfi Azərbaycanın əsəblərini sınağa çəkdi, lakin cavabında belə adlandırılan “Ohanyan xətti”nin yarılmasına və bəzi mühüm yüksəkliklərin itkisinə məruz qaldı.

Səfir qeyd edir ki, lakin bu da ona az göründü. Ermənistan Müdafiə Nazirliyinin ovaxtkı rəhbəri David Tonoyan “Yeni müharibə - yeni ərazilər” şüarını irəli sürdü və bu ilin iyulunda dövlət sərhədinin Tovuz hissəsində yeni erməni provokasiyası baş verdi. Bu sahə isə strateji boru kəmərlərinin keçdiyi marşrutun çox yaxın hissəsində yerləşir.

Səfir cari ilin avqustunda Ermənistan tərəfindən təxribat qrupunun göndərilməsini də xatırladıb. Lakin sentyabrın 27-də Azərbaycan mövqelərinin atəşə tutulmasına başlandı, Bakının səbri tükəndi və atəş nöqtələrini məhv etmək barədə qərar qəbul edildi. Əslində, Vətən müharibəsi bax belə başlandı.

Səfir müharibə zamanı Azərbaycanın guya torpaqları işğal etməsi barədə jurnalistin fikri ilə razılaşmayıb. O qeyd edib ki, bütün hərbi əməliyyatlar Azərbaycan ərazilərində aparılıb və belə şəraitdə işğaldan danışmaq mümkün deyil. Əksinə, işğalçı qismində məhz Ermənistan çıxış edib. Bu ölkənin baş naziri ötən il “Qarabağ Azərbaycandır və nöqtə” deməklə Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ətrafında danışıqlar prosesini faktiki olaraq pozmuşdu.

V.Quliyev, həmçinin vurğulayıb ki, Azərbaycan Ordusu ilk gündən yalnız hərbi obyektləri hədəfə alıb və onun guya mülki əhalini atəşə tutması barədə bütün abstrakt mühakimələr əsassızdır. Digər tərəfdən, məhz Ermənistan Gəncə, Bərdə, Tərtər, Beyləqan şəhərlərini qəsdən hədəfə alaraq strateji obyektləri, məsələn, Mingəçevir bəndini raketlə vurmağa çalışırdı, bu obyektlərin dağılması mülki vətəndaşlar arasında böyük itkilərlə nəticələnə bilərdi.

Azərbaycan Ordusunun qalibiyyətli hücumu nəticəsində Yerevan öz ordusunun darmadağın edildiyini başa düşdü və kapitulyasiya elan etdi.

Səfir bildirib ki, regiona sülh lazımdır. Özü də bu sülh məhz özünün dövlətçiliyini itirən Ermənistana daha çox lazımdır. Bakı isə regiona təhlükəsizlik, inkişaf və Qarabağda iki icmanın çoxmillətli Azərbaycan dövlətinin tərkibində dinc yanaşı yaşamasını təklif edir. İlk növbədə, Ermənistan özü dəyişməli, fobiyalardan, qonşularla ədavət kompleksindən xilas olmalıdır.

V.Quliyev, həmçinin münaqişənin dini xarakteri barədə bütün uydurmaları təkzib edərək xatırladıb ki, Azərbaycanda ermənilərin özü də daxil olmaqla, bir çox konfessiyaların nümayəndələri yaşayır və öz dini ayinlərini yerinə yetirirlər. O, eyni zamanda, Ağdamda, Zəngilanda və digər işğal olunmuş torpaqlardakı məscidlərin ermənilər tərəfindən təhqir olunması faktına jurnalistin diqqətini çəkib. Bakı işğal illəri ərzində Ermənistan tərəfindən vurulmuş ziyana görə təzminat ödənilməsi barədə mütləq iddia irəli sürəcək.

Lakin bütün torpaqlar mütləq bərpa olunacaq. Səfir deyib: “Qarabağ - Azərbaycan xalqının milli ruhunun formalaşdığı müqəddəs yerdir. Ümidvaram ki, mənim yenidən Şuşaya getmək barədə çoxdankı arzum tez bir zamanda reallığa çevriləcək”.

**Pərvanə Qarayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Budapeşt**

**Zəngilanda keçirilən növbəti ağacəkmə tədbiri zamanı 400-ə yaxın tut ağacı əkilib**

[12:44] 03.12.2020

Növbəti ağacəkmə işğaldan azad olunmuş Zəngilan rayonunun Ağalı kəndi ərazisində keçirilib.

Meşələrin İnkişafı Xidmətinin rəis müavini Mehman Səfərov AZƏRTAC-a bildirib ki, Ekologiya və Təbii Sərvətlər və Kənd Təsərrüfatı nazirliklərinin əməkdaşlarının iştirakı ilə keçirilən ağacəkmə tədbirində karantin rejiminin tələblərinə əməl olunmaqla 400-ə yaxın tut ağacı əkilib.

M.Səfərovun sözlərinə görə bu, Zəngilan rayonu ərazisində keçirilən ikinci əkin-bərpa tədbiridir, bundan əvvəl rayon ərazisində Şərq çinarları əkilmişdi: “Xatırladım ki, payız ağacəkmə kampaniyası çərçivəsində işğaldan azad olunmuş Füzuli, Ağdam və Qubadlı rayonlarının ərazilərində də ağacəkmə tədbirləri keçirilib, yerli şəraitə uyğun müxtəlifcinsli ağaclar əkilib və meşəcinsli ağac toxumları səpilib. Respublikanın bütün bölgələrində əkin-bərpa işləri davam edir”.

**AZƏRTAC**

**Prezident İlham Əliyev İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib**

[15:37] 07.12.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham Əliyev** dedi:

-Xoş gəlmisiniz. Mən sizi ürəkdən salamlayıram. Şadam ki, siz Azərbaycana səfər edirsiniz. Müharibədən sonra Azərbaycana səfər edən ilk Avropa nümayəndə heyətisiniz. Yəqin ki, bu, təsadüfi deyil, çünki İtaliya ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf edir və bu gün ən yüksək səviyyədədir. Hesab edirəm ki, siyasi əlaqələr ən yüksək səviyyədədir. Mənim bu ilin əvvəlində İtaliyaya etdiyim dövlət səfəri bunun bariz nümunəsidir. Səfər zamanı bir çox önəmli sənədlər imzalanmışdır. Onların arasında Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi yer tutur. Bu sənəd bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədi. Səfər zamanı həm Prezident, həm Baş nazirlə görüşlərim əsnasında bir çox önəmli məsələlər müzakirə olundu. Eyni zamanda, Senatın və Nümayəndələr Palatasının rəhbərləri ilə mənim görüşlərim də çox gözəl keçdi.

Bildiyiniz kimi, iki il bundan əvvəl İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda rəsmi səfərdə idi. Bu səfərlər ikitərəfli əlaqələrimizin çox möhkəm zəmində olmasını göstərir. Bu gün İtaliya-Azərbaycan əlaqələri həm siyasi, həm iqtisadi, həm bütün başqa sahələrdə çox uğurla inkişaf edir. Siz də bilirsiniz ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 6 milyard dollara çatmışdır. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Amma mən hesab edirəm ki, gələcək illərdə qeyri-neft sektoru da bizim aramızda xüsusi çəkiyə malik olacaq. Energetika sektoruna gəldikdə, bildiyiniz kimi, yaxın gələcəkdə TAP layihəsi istismara veriləcək və şübhəsiz ki, bu, İtaliya-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək.

Bizim humanitar sahə ilə bağlı da böyük planlarımız var və artıq bir çox reallaşan layihələrimiz var. İtaliyaya dövlət səfərim çərçivəsində, eyni zamanda, təhsil sahəsində əməkdaşlıq müzakirə olundu. İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığa gəlmişik. Bakıya qayıdandan sonra mənim tərəfimdən bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir. Hesab edirəm ki, yaxın gələcəkdə universitet üçün bina da inşa ediləcək. Mən bu məsələni diqqətimdə saxlayıram və mənə müntəzəm olaraq bu məsələ ilə bağlı məlumatlar verilir. Onu da bildirməliyəm ki, mənə verilən məlumat əsasında orada bir neçə fakültə fəaliyyət göstərəcək. O siyahıya baxanda gördüm ki, orada memarlıq fakültəsi yoxdur və təklif etdim ki, bu da əlavə olunsun. Çünki İtaliya memarlığı ümumbəşəri dəyərdir və ölkəmizdə geniş vüsət almış tikinti sektorunun əlbəttə ki, müasir görkəmi olmalıdır. Əlbəttə, İtaliya-Azərbaycan Universitetində təhsil alacaq gənclər iki ölkə arasındakı əlaqələrə xüsusi töhfə verəcəklər.

Mən, eyni zamanda, sizə təşəkkürümü bildirmək istəyirəm ki, siz həm Gəncəyə, həm Ağdama səfər etmisiniz, Ermənistan dövlətinin törətdiyi hərbi cinayətləri görmüsünüz. Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlər göz qabağındadır. Döyüş meydanında məğlubiyyətə uğrayarkən Ermənistan mülki vətəndaşları atəşə tutub. Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutmuşdur. Bu, hərbi cinayətdir və bu cinayətə görə Ermənistan rəhbərliyi cavab verəcək. Müharibə zamanı 94 mülki şəxs həlak olmuşdur, 400-dən çox yaralanmışdır. Ballistik raketlərlə bu zərbə təsadüfi xarakter daşımırdı, məqsədyönlü şəkildə məhz mülki vətəndaşların yaşadığı məkana gecə vaxtı istiqamətləndirilmişdir ki, daha çox qurbanlar olsun. Ağdam şəhərini də gördünüz. Daha doğrusu, artıq şəhərdən bir şey qalmayıb, orada bütün binalar dağıdılıb. Bu, Ermənistan faşizminin eybəcər sifətini göstərən cinayətdir. Onlar hesab edirdilər ki, azərbaycanlılar bu torpaqlara heç vaxt qayıtmayacaqlar. Amma biz qayıtmışıq, döyüşə-döyüşə onları torpaqlarımızdan qovduq. Onlar bizim qabağımızda diz çökdülər.

İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib. Amma demək olar ki, Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb, Cəbrayıl şəhərində də. Zəngilan, Qubadlı eyni vəziyyətdədir. Kəlbəcər və Laçın rayonlarında Ermənistan dövləti qanunsuz məskunlaşma siyasəti aparmışdır. Bu da hərbi cinayət sayılır, Cenevrə Konvensiyalarına zidd olan bir addımdır. Ona görə bu rayonlarda bəzi yaşayış məntəqələrində bəzi evlər qalıb. Orada ermənilər yaşayırdılar. Ancaq noyabrın 10-dan dekabrın 1-nə qədər - o vaxt çərçivəsində onlar bu bölgələri tərk etməli idilər - onlar orada da vəhşilik törətdilər, evləri yandırdılar, sökdülər. Halbuki o evləri onlar yox,

o vaxta qədər - 30 il bundan əvvəl orada yaşamış azərbaycanlılar tikmişdilər. Meşələri yandırdılar, ağacları kəsdilər, yəni, dünyanın gözü qarşısında vəhşilik törətdilər. Beynəlxalq media qurumları da bu barədə reportajlar hazırlayıb mətbuata vermişlər. Bütün dünya indi gördü ki, Azərbaycan hansı vandallarla üz-üzə qalmışdır və bu vandallara qarşı təkbaşına müharibə apararaq öz ərazi bütövlüyünü bərpa etmişdir.

İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq. Əlbəttə, bir daha demək istəyirəm ki, dost ölkələrin şirkətləri bu işlərdə iştirak edəcəklər. Əsl dostluq isə özünü çətin anlarda büruzə verir. Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur. Bir daha xoş gəlmisiniz.

İtaliya Deputatlar Palatasının sədr müavini **Ettore Rosato** dedi:

- Cənab Prezident, bizi qəbul etdiyinizə görə sağ olun. Sizin ölkəniz üçün olduqca xüsusi əhəmiyyət kəsb edən belə bir dövrdə burada olmaqdan məmnunluq hissi duyuruq. Buna görə də Sizə olan dostluq hisslərimizi ifadə etmək üçün əslində, bu səfərə çoxdan hazırlaşırdıq. Dedik ki, belə bir əhəmiyyətli dövrdə biz mütləq Sizin ölkənizə gəlməliyik. Zati-aliləri, Sizin də söylədiyiniz kimi, bizim aramızdakı dostluq, onun əlamətləri son illərdə xüsusi olaraq öz təzahürünü tapıb. Əslində, ölkələrimiz arasındakı səfərlərə gəldikdə, bu səfərlər çox yüksək səviyyədə təşkil olunmuşdur. İtaliya Respublikası Prezidentinin Sizin ölkənizə rəsmi səfəri münasibətlərimizin inkişafında çox mühüm bir addıma çevrildi. Sizin də Romaya etdiyiniz dövlət səfəri də bizim tərəfimizdən strateji əhəmiyyət kəsb edən bir hadisə kimi qəbul olunur. Biz də Sizə dost olaraq bilirik ki, səfər çərçivəsində bir çox razılaşmalar və xüsusən də, strateji tərəfdaşlıq haqqında mühüm sənəd imzalanıb. Əslində, bunlar elə sazişlərdir ki, onlarda çox konkret öhdəliklər və olduqca vacib mahiyyət əks olunubdur.

Azərbaycan İtaliya üçün enerji daşıyıcılarının ilk ixracatçısıdır. Belə bir keşməkeşli vaxtlarda enerji təhlükəsizliyini etimad göstərib o ölkəyə həvalə edə bilirik ki, o ölkə ilə həqiqətən dostluq münasibətləri olsun. Biz bu dostluğu daha da gücləndirmək istəyirik və münasibətlərimizi daha da şaxələndirmək fikrindəyik.

**X X X**

İtaliya parlamentinin Deputatlar Palatasının sədr müavini Ettore Rosato Azərbaycanın münaqişədə həyatını itirən mülki şəxslərinə görə başsağlığı verdi, Gəncə və Ağdama səfərlərinə toxundu. O qeyd etdi ki, 30 illik işğal dövründə Ağdamda törədilmiş viranəliyin şahidi olublar. "Hətta inanmaq belə çətin idi ki, burada nə zamansa insanlar yaşayıb", - deyə vurğuladı.

Ettore Rosato Prezident İlham Əliyevə İtaliya Deputatlar Palatası və İtaliya Senatı sədrlərinin salamlarını çatdırdı.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: İşğaldan azad olunmuş ərazilərin bərpasında iştirakla bağlı İtaliya tərəfinə təkliflər verilib**

[16:15] 07.12.2020

İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib. Sizin Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb. Cəbrayıl, Zəngilan, Qubadlı eyni vəziyyətdədir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə danışıb.

Gəncəyə və Ağdama səfər etdiklərinə görə qonaqlara minnətdarlığını bildirən dövlətimizin başçısı deyib: "İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq".

Prezident İlham Əliyev qeyd edib ki, əsl dostluq özünü çətin anlarda göstərir. "Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur", - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**

**Prezident: Azərbaycan əsgər və zabiti böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi**

[15:37] 10.12.2020

Vətən müharibəsinin hər gün bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişdik. Bu istehkamlar elə qurulmuşdur ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda, Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında çıxışı zamanı hərbçilərimizin göstərdiyi qəhrəmanlıqdan danışarkən bildirib.

“Azərbaycan əsgər və zabiti böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda, Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı. Şanlı müharibəmizin yekunu da Şuşa şəhərində vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad olunan sonuncu şəhər oldu”, – deyə dövlətimizin başçısı vurğulayıb.

Şuşanın azad edilməsini tarixi hadisə kimi dəyərləndirən Azərbaycan Prezidenti deyib: “Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalar vasitəsilə dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşündə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan azad ediləndən sonra Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi. Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilər tərəfindən uzun illər yaratdıqları mifi darmadağın etdik. Onlar öz ordusu haqqında yalan məlumat ötürərək mif yaratmışdılar, sanki Ermənistan ordusu yenilməz ordudur. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü göstərdi, öz qüdrətini göstərdi”.

**AZƏRTAC**

**Türkiyə Prezidenti: Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür**

[16:45] 10.12.2020

Gözəlliyinə qurban olduğumuz Laçın, Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər artıq azaddır. Bu gün Azərbaycanın mili şairi, böyük mücahid Əhməd Cavadın, Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın Vətən müharibəsində Qələbəsinə həsr olunmuş Zəfər paradında çıxışında söyləyib.

Rəcəb Tayyib Ərdoğan deyib: "Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq ana vətəni ilə qucaqlaşmış, otuz illik həsrət sona çatmışdır. Bundan sonra Türkiyə və Azərbaycan olaraq hədəfimiz bu torpaqları firavan, inkişaf etmiş, övladlarımız üçün yaşana bilən bir yerə çevirmək uğrunda mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir".

Türkiyə Prezidenti çıxışının sonunda Azərbaycan xalqını, Prezident İlham Əliyevi və şanlı Azərbaycan Ordusunu, Türk Ordusunu ürəkdən təbrik edib, əziz şəhidlərimizi bir daha rəhmətlə yad edib, qazilərimizə tezliklə sağalmalarını arzulayıb.

**AZƏRTAC**

**Rəcəb Tayyib Ərdoğan: Şuşa bir tarixdir. Şuşanı o tarixi ilə yaşamaq, görmək həqiqətən bizim üçün də bir sevgidir**

[21:16] 10.12.2020

Bugünkü mərasimlər, bugünkü həyəcan təbii ki, fərqli bir vəziyyət ortaya qoydu. İndi inanıram ki, artıq Azərbaycan bu yeni vəziyyətdən sonra bölgədə çox ciddi infrastruktur formalaşdırmaq istiqamətində addımlar atacaq. Bu addımlarla yanaşı, bildiyimə görə, inşallah, yollar tikiləcək, dəmir yolları inşa ediləcək, bununla bağlı qərarı cənab Prezident verib və Naxçıvandan Zəngilana, Zəngilandan şimala bütün bu yollar tikildikdən sonra vəziyyət dəyişəcək.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə mətbuata bəyanatında bölgədə infrastrukturu formalaşdırmaq istiqamətində atılacaq addımlardan danışarkən söyləyib.

Rəcəb Tayyib Ərdoğan sözünə davam edərək deyib: “Arzu edirik ki, inşallah, bu yolları başa çatdırdıqdan sonra yay mövsümündə yeni yollarla birlikdə Şuşaya gedək, inşallah, Şuşada birlikdə olaq. Şuşa bir tarixdir. Şuşanı o tarixi ilə yaşamaq, görmək həqiqətən bizim üçün də bir sevgidir. Bu sevgini də yaşamaq istəyirik. Şəhidlərimizin ruhlarını da şad edək. Bu qədər şəhidlərimiz var, qazilərimiz yaralıdır. Onlara Allahdan şəfalar diləyirik. Şəhidlərimiz bir amala inanaraq şəhid oldular. Bütün şəhidlərimizin ruhunu şad etmək lazımdır. Onların ruhlarının məkanlarından bu sədanı duymalıyıq. Duya biləcəyikmi? İnşallah, duyacağıq. Çünki onlar ölməyiblər, onlar yaşayırlar. Bu gün qazilərimizi gördükdə xüsusilə məmnun olduq. Onlar boş yerə qazi olmadılar. Bu qaziliyin altında yatan bir amal var. O nədir? Bu qazilik Qarabağı əsl sahiblərinə qaytarmaq üçün idi və bu qazilər bunu şəhidlərlə birlikdə bacardılar”.

**AZƏRTAC**

**MN: Zəngilan rayonunun Malatkeşin kəndindən videogörüntülər**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad olunmuş Zəngilan rayonunun Malatkeşin kəndindən çəkilən videogörüntüləri yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 1 yanvar**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Yenikənd kəndindən videogörüntülər paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Zəngilan rayonunun işğaldan azad edilmiş Yenikənd kəndindən videogörüntülər paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 2 yanvar**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Genlik kəndindən videogörüntülər paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Zəngilan rayonunun işğaldan azad edilmiş Genlik kəndindən videogörüntülər paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 3 yanvar**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad olunmuş Zəngilan rayonunun videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 7 yanvar**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Məmmədbəyli kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Məmmədbəyli kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Məmmədbəyli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 20-də kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 29 yanvar**

**Fransanın “Atlantico” portalında Zəngilan rayonu ilə bağlı məqalə dərc edilib**

Fransanın “Atlantico” portalında Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonu ilə bağlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi jurnalist Sebastyan Bussua 27 il erməni işğalı altında qalmış Zəngilanın 44 günlük döyüşlər zamanı azad edildiyini bildirir. O vurğulayır ki, beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi bu ərazilərin Azərbaycana məxsus olduğunu təsdiqləsə də, buna əməl edilmirdi. Səkkiz yüz min azərbaycanlı Qarabağdan didərgin salınıb. Onlar 30 il ərzində işğaldan əvvəlki həyatlarından uzaq düşməli olublar, evlərində isə ermənilər məskunlaşdırılıb.

Fransız jurnalist məqalədə Zəngilandan olan köçkünlər Rəsul və Aygünün fikirlərinə də yer verib. Rəsul birinci Qarabağ müharibəsində iştirak edib, onun oğlu isə İkinci Qarabağ müharibəsində döyüşüb.

Məqalədə Zəngilan kimi Ağdam, Füzuli şəhərlərinin də işğal dövründə eyni tale yaşadığı diqqətə çatdırılır. Bütün bu şəhərlərin yerlə-yeksan edildiyi, bəzi yerlərdə isə ermənilərin məskunlaşdırıldığı qeyd edilir.

Ağdamda gördüyü vəziyyətdən dəhşətə gəldiyini qeyd edən jurnalist burada daşın-daş üstündə qalmadığını, şəhərin tamamilə dağıdıldığını vurğulayır.

Fransız jurnalist Zəngilanın uzaqdan gördüyü füsunkar təbiətini təsvir edir, bu gözəlliyin hələ ki, əlçatmaz olduğunu yazır. Çünki şəhərə daxil olmaq üçün əvvəlcə ərazi minalardan təmizlənməlidir. O, həmçinin ətrafdakı mənzərənin burada necə qızğın döyüşlər getdiyini əks etdirdiyini yazır.

S.Bussua Azərbaycan üçün çox vacib olan, Naxçıvanla əlaqə yaradacaq yolun tikintisindən də söz açır. O, Naxçıvan və onun tarixi haqqında məlumat verir, uzun illərdən sonra yenidən quru yolla Naxçıvana getməyin mümkün olacağını diqqətə çatdırır.

**AZƏRTAC**
**2021, 4 fevral**

## “France Inter” radiosu Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərindən reportaj hazırlayıb

“France Inter” radiosu Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərindən reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, verilişdə erməni işğalından azad edilmiş rayonlarımızdakı vəziyyət haqqında məlumat verilir, Ağdamdan, Zəngilandan olan köçkünlərin fikirləri təqdim edilir. Jurnalistin olduğu şəhər və kəndlərdən çəkilmiş şəkillər və məcburi köçkünlərlə söhbət radionun internet səhifəsində yerləşdirilib.

Qeyd edilib ki, Birinci Qarabağ müharibəsinin 30 min qurbanı olub və yüz minlərlə azərbaycanlı doğma evindən qovularaq məcburi köçkün həyatı yaşayıb. Həmin köçkünlər tezliklə evlərinə qayıtmaq arzusu ilə yaşayırlar.

Jurnalist əvvəlcə Ağdam haqqında məlumat verərək, Ermənistan silahlı qüvvələrinin onu Dağlıq Qarabağ ətrafında bufer zona kimi istifadə etməsindən, şəhəri yerlə-yeksan etməsindən söhbət açır. Bildirir ki, şəhərdə yalnız ermənilərin hərbi məqsədlər üçün istifadə etdikləri tikili və tövləyə çevrilmiş məscid qalıb. Kabusu xatırladan Ağdamdan çəkilmiş şəkillər radionun internet səhifəsində yerləşdirilib.

“Bu torpaq bizim əcdadlarımızın torpağıdır. Bura bizim Vətənimizdir. Bu torpaq uğrunda mənim üçün ən əziz insanı itirdim. Qızım atasız böyüdü”, - deyə azərbaycanlı məcburi köçkün yaşadığı dəhşətlərdən söz açır.

Zəngilan rayonuna səfər etmiş fransız jurnalist bu rayonun aparılan döyüşlər nəticəsində azad olunduğunu qeyd edir. O bildirir ki, hazırda Zəngilanda yalnız minatəmizləyənlər gözə dəyir.

Zəngilanda döyüşmüş və yaralanmış Qədir jurnalistlərlə söhbətində xalqın Prezident İlham Əliyevin arxasında dayandığını bildirir. O, Prezident İlham Əliyevin qalib Ali Baş Komandan olduğunu vurğulayır: “Birinci Qarabağ müharibəsi zamanı hazırlıqlı deyildik. Ancaq ikinci müharibədə Ali Baş Komandanın yolu bəlli idi və xalq onun qələbəsinə inanırdı. Mən inanırdım ki, biz qısa zamanda qələbə qazanacağıq. Bu qələbədən sonra Prezidentimizə hörmətimiz daha çox artdı”.

Verilişdə ölkənin hər yerində “Qarabağ Azərbaycandır!” şüarının nümayiş etdirildiyi, qəhrəman əsgərlərin şücaətini əks etdirən videoların yayıldığı bildirilir.

Verilişdə mədəniyyət naziri Anar Kərimovun fikirlərinə də yer verilir. O, birgə yaşamağın davamlı həllin tapılması baxımından əhəmiyyətini qeyd edir. “Ermənilərin etdiklərini unutmuruq, ancaq hər iki icmanın barışığına açığıq”, - deyə nazir bildirir.

Sonda qeyd olunur ki, ki, müharibə yaralarının sağalması vaxt tələb edir. Həmçinin yüz minlərlə azərbaycanlı köçkünün qayıdışı, ilk növbədə, ərazilərin minalardan təmizlənməsi, infrastrukturun bərpası üçün hələ müəyyən vaxt lazımdır.

**Şəhla Ağalarova**
AZƏRTAC-ın xüsusi müxbiri
Paris

**AZƏRTAC**
**2021, 4 fevral**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Vənədli kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Vənədli kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Vənədli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 23-də kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 10 fevral**

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar
*(14 fevral 2021-ci il)*

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaq üçün Füzuli rayonuna gəldi.

Məlumat verildi ki, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Dövlətimizin başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu.

XXX

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Üçüncü Ağalı kəndində olublar.

**Zəngilana gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:**

-Zəngilan rayonuna gəlmişik. Yolumuz Laçın rayonunadır. Yol boyunca Zəngilan rayonunda da tədbirlər var. Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlamışdır.

Bura Zəngilan şəhəridir. Biz burada artıq olmuşuq, yenə də gəlmişik. Zəngilan şəhəri də digər şəhərlər kimi düşmən tərəfindən demək olar tamamilə dağıdılmışdır. Bir neçə ev qalmışdır. Burada onların hərbi hissəsi, polis bölməsi yerləşirdi. Bir də ki, xaricdən gələn ermənilər, burada qanunsuz yaşayan ermənilər. Zəngilanı, bax, bu günə qoyub mənfur düşmən.

Bütün şəhərlərimizin baş planları hazırlanır. Təqdim olunacaq, müzakirə ediləcək. Ondan sonra bərpa işlərinə start veriləcək. Keçən dəfə Zəngilan şəhərinə gələndə bu bayrağı burada mən ucaltdım.

Zəngilan rayonunda birinci "ağıllı kənd" layihəsi icra ediləcək. Bu gün layihəyə start verilir. Artıq ilkin araşdırmalar aparılıb. Bu, dağılmış Ağalı kəndidir. Bərpa ediləcək birinci kənd məhz bu kənddir.

Dövlətimizin başçısına Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq "ağıllı kənd" layihəsi barədə məlumat verildi.

Bildirildi ki, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir.

Qeyd edək ki, Prezident İlham Əliyev çıxışlarında azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevriləcəyini dəfələrlə bildirib. Erməni işğalından azad olunmuş ərazilərin dövlətimizin başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

XXX

Daha sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Laçın rayonuna yola düşdülər.

Yol boyunca Qubadlı rayonunun işğaldan azad edilən kəndləri barədə danışan Prezident İlham Əliyev dedi:

-Bura Qubadlı rayonunun Xəndək kəndidir. Burada da şiddətli döyüşlər gedib. Ordumuz düşməni buradan qovaraq, məhv edərək bu əraziləri də azad etmişdir. Düşmən burada da qanunsuz olaraq məskunlaşmışdı. Çox ağır şəraitdə yaşayıblar. Baxın, görün, onların yaşadıqları evlər it damından artıq deyil. Mən deyəndə ki, o vaxt işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, bunu nəzərdə tuturdum. Aclıq, səfalət, qanunsuzluq hökm sürürdü. Belə bərbad yollardan istifadə edirdilər. Bu işıq dirəklərini biz torpaqları azad edəndən sonra quraşdırdıq.

Qubadlı rayonunun Muradxanlı kəndi, ermənilər burada yaşayıblar, buranı da dağıdıblar. Artıq bərpa işləri gedir. Bu da Həkəri kəndidir. Baxın, nə gündədir, ermənilər bu it damında yaşayıblar. Dağıdılmış bu evlər erməni faşizminin törətdiyi əməllərdir. Bütün dünya görsün bunları. Bu da onların traktorudur.

Bala Soltanlı kəndi. Burada evlərin böyük hissəsi dağıdılıb, amma bəzi evlərdə düşmən qanunsuz məskunlaşma aparmışdı. Bu da hərbi cinayət sayılır. Bütün bu cinayətlərə görə düşmən artıq öz payını alıb, cavabını verib, beynəlxalq müstəvidə də cavabını verəcəkdir. Bizim şanlı ordumuz, bax, bu yolla Laçın rayonuna keçmişdir və Laçın rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. O cümlədən Güləbird kəndi də ordumuz tərəfindən işğalçılardan azad edilmişdir. Bura Laçın rayonunun cənub hissəsidir. Ordumuz işğalçılardan azad etmişdir. Şimal hissəsi isə Ermənistanın kapitulyasiyasından sonra bizə qaytarıldı.

Bu da Padar kəndidir.

Qubadlı rayonunun Yusifbəyli kəndi. Bu kənd də düşmən tərəfindən tamamilə dağıdılıb. Biz indi Laçın rayonuna gedirik. Laçın rayonunun Güləbird kəndinə. Zəngilan rayonunun İkinci Ağalı kəndində olduq, kəndin inkişafı ilə bağlı təqdimat edildi. Bir neçə aydan sonra İkinci Ağalı kəndinin yenidən qurulması prosesinə start veriləcək. Bu, bərpa ediləcək birinci kənd olacaq. İkinci Ağalı kəndi “ağıllı kənd” konsepsiyası əsasında qurulacaq. Eyni zamanda, Birinci və Üçüncü Ağalı kəndlərinə qayıdacaq soydaşlarımız da eyni imkanlardan istifadə edəcəklər.

İndi isə Mərdanlı kəndinə daxil oluruq. Günəş də çıxır, yolumuzu işıqlandırır. Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik.

Bura artıq Laçın rayonunun ərazisidir. Bu, Həkəri çayıdır. Görün, nə gözəl çaydır? Çayımızı da düşmən istismar etmişdir, təbiətimizi də istismar etmişdir. Biz buna son qoyduq, düşməni rədd etdik.

Artıq Güləbird kəndindəyik. Güləbird kəndini də düşmən dağıdıb, talan edib. Güləbird kəndinə gəlməyimizin səbəbi qısa müddət ərzində inşa edilmiş su elektrik stansiyasının açılışıdır və bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq, digər stansiyalar da tikiləcək. Azad edilmiş bütün torpaqlarda su, Günəş, külək enerjisindən istifadə edəcəyik.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı və çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

-Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin. Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. “Azərişıq” artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün “Azərenerji” Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir.

Bu gün isə Laçın rayonunun cənub hissəsindəyik, Güləbird kəndinin ərazisində. Bu gün Güləbird kəndində Su Elektrik Stansiyasının açılışıdır. Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş – ay yarımdan sonra artıq burada Su Elektrik Stansiyası istismara verilir. Bu Su Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik.

Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyalarını darmadağın edib, avadanlığı buradan çıxarıb, stansiyaların binalarını da dağıdıb. O cümlədən Güləbird Su Elektrik Stansiyası düşmən tərəfindən dağıdılmışdır. Əks-təqdirdə, bu stansiya elə dekabrın 1-dən bizə xidmət göstərəcəkdi. Ancaq verilən tapşırıqlarım qısa müddət ərzində yerinə yetirildi və bu gün

biz 8 meqavat gücündə Güləbird Su Elektrik Stansiyasının açılışını qeyd edirik. Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpaolunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında ən böyük potensiala “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyaları malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni, biz bir neçə ildən sonra 120 meqavat “Xudafərin” və “Qız Qalası” stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin. Belə bir göstəriş verildi və bu gün Zəngilan rayonunda birinci pilot “ağıllı kənd” layihəsi də məhz bərpaolunan enerji ilə təchiz ediləcəkdir.

Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar “yaşıl enerji” zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı “yaşıl enerji” zonasına çevirəcəyik.

Mən bu proqramı elan edəndə bunu nəzərdə tuturdum və bu gün birinci layihə - bax, orada gördüyünüz Güləbird Su Elektrik Stansiyası artıq istismara verilir.

Bizim böyük planlarımız var. Biz bərpa işlərinə start verdik. Çalışacağıq ki, minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatsın, dəymiş ziyanın qiymətləndirilməsi aparılsın və bununla paralel olaraq, artıq infrastruktur layihələrinə start verildi. Bu gün Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək.

Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir - biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik. Eyni zamanda, ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq önəmli sənədləri imzaladıq. Noyabrın 10-da imzalanmış Birgə Bəyanat, əlbəttə ki, Laçın, Kəlbəcər və Ağdam rayonunun qaytarılmasını təmin etdi, bir güllə atmadan biz bu torpaqlara qayıtdıq. Eyni zamanda, Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsi də məhz o Bəyanatda təsbit olunur. Həmçinin bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır. Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Deməli olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər.

Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər.

Onu da bildirməliyəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək yüklər daşınmağa başlamışdır. Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişdik, böyük iradə göstərmişdik. Eyni zamanda, maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolları bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Çünki biz etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti var.

Bu, eyni zamanda, ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın. Çünki danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdi. Danışıqlarda razılığa gəlməməsinin əsas səbəbi də məhz bunda idi. Əfsuslar olsun ki, Ermənistanın və onun bəzi xarici havadarlarının mövqeyi ondan ibarət idi ki, beş rayon Azərbaycana qaytarılsın, Azərbaycan bununla kifayətlənsin və Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilsin, Kəlbəcər və Laçın rayonları Ermənistanın əbədi nəzarəti altında qalsın. Mən bu təklifi rədd etdim.

Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək, bax, buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq bu istiqamətdən hərəkət edərək biz strateji əməliyyatlarımızı aparmışdıq. Eyni zamanda, əks tərəfdən - Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat apara bilmişik. Laçın rayonunun, bax, bu cənub hissəsi hərbi əməliyyat nəticəsində azad edilmişdir. Biz döyüş meydanında düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik.

Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. Halbuki sovet vaxtında bu bağlantı yox idi. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, böyük faciə idi. Hər bir rayonun itirilməsi böyük faciə idi. İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada -

Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

XXX

Sonra Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyasının açılışında iştirak etdi.

Erməni qəsbkarlar işğal dövründə xislətlərinə uyğun olaraq digər yerlərdəki kimi, bu stansiyanı da darmadağın ediblər. Dövlətimizin başçısının tapşırığı ilə qısa müddət ərzində istismara verilən bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır.

Prezident İlham Əliyev "Güləbird" Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, "Güləbird" Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

XXX

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə gəldilər.

Erməni qəsbkarlar işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğunda da ekoloji terror törədiblər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıb. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulub.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər.

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Bəsitçaya balıq buraxdılar.

Prezident İlham Əliyev: Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi.

Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. Ancaq hər halda öz borcumuzu yerinə yetirdik.

Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilmişdir.

XXX

Sonra dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndinə yola düşdülər.

Prezident İlham Əliyev: Tapşırıq verilib tədbirlər görülsün ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilsin. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evləri də, təbiəti də bərpa

edəcəyik. Eyni zamanda, göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Biz qısa müddət ərzində bütün imkanlarımızı, texnikanı, işçi qüvvəsini səfərbər etmişik və 7 min hektarda əkin işləri aparılmışdır. O əkin sahələrinə də baxacağam. Builki mövsümdə təqribən 20-25 min hektarda əkin işləri aparılacaq. Yəni, biz vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Əlbəttə ki, azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlirlər əldə etmişdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək.

Cəbrayıl rayonunun Soltanlı kəndinin ərazisinə gələn Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, hazırda əkin sahələrinin monitorinqi davam etdirilir. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.

**AZƏRTAC**
**2021, 15 fevral**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Babaylı kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Babaylı kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Babaylı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 21-də kəndi işğalçılardan azad edib.

Məqalədə karbohidrogen ehtiyatlarla zəngin olan Azərbaycanın çox mühüm geostrateji məkanda yerləşdiyi bildirilir. İpək Yolunun keçmişdə qalmadığını qeyd edən jurnalist indi bu yolun yenidən Çin və Avropanı birləşdirən əsas mehvər olduğunu yazır, bütün dünya ölkələrinin bu yoldan faydalanacağını qeyd edir. Vurğulayır ki, Zəngilan məhz belə bir strateji yolun üzərində yerləşir.

Məqalədə azad olunmuş ərazilərin sakinlərinin doğma yurdlarına qayıdışlarını səbirsizliklə gözlədikləri diqqətə çatdırılır. Sakinlərin geri qayıdışının gələcək uğurların əsas hissəsi olduğu vurğulanır.

***Şəhla Ağalarova***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Paris***

**AZƏRTAC**
**16 fevral 2021**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Birinci Alıbəyli kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Birinci Alıbəyli kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Birinci Alıbəyli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 25-də kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**19 fevral 2021**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun İkinci Alıbəyli kəndindən videogörüntülər paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Zəngilan rayonunun İkinci Alıbəyli kəndindən videogörüntülər paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**21 fevral 2021**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Beşdəli kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Beşdəli kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Dağətəyi ərazidə yerləşən Beşdəli kəndi 1993-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu noyabrın 7-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**3 mart 2021**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Keçikli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Keçikli kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Keçikli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu noyabrın 9-da kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**4 mart 2021**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Qaradərə kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Qaradərə kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Dağətəyi ərazidə yerləşən Qaradərə kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 22-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**6 mart 2021**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Qaragöz kəndindən videogörüntülər yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Qaragöz kəndindən videogörüntülər yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**8 mart 2021**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Mirzəhəsənli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Mirzə Həsənli kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Mirzəhəsənli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində parlaq Qələbə qazanan rəşadətli Azərbaycan Ordusu oktyabrın 23-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**11 mart 2021**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Qıraq Müşlan kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Qıraq Müşlan kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Oxçu çayının sahilində yerləşən Qıraq Muşlan kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində parlaq Qələbə qazanan rəşadətli Azərbaycan Ordusu oktyabrın 21-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**13 mart 2021**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Çöpədərə kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Zəngilan rayonunun Çöpədərə kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**28 mart 2021**

**Müdafiə Nazirliyi Zəngilan rayonunun Sarıqışlaq kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Zəngilan rayonunun işğaldan azad edilmiş Sarıqışlaq kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**13 aprel 2021**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar**
*(26 aprel 2021-ci il)*

Xəbər verildiyi kimi, aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, birinci xanım və qızları Cəbrayıl rayonunun girişində "Cəbrayıla xoş gəlmişsiniz!" sözləri yazılmış lövhənin qarşısına gəldilər.

**Prezident İlham Əliyev:** Cəbrayıl rayonuna gəlmişik. Vaxtilə Cəbrayıl rayonunun girişində ucaldılmış lövhəni biz indi yenidən qurduq və eyni formada, eyni dizaynla. Biz "Cəbrayıla xoş gəlmişsiniz!" lövhəsini bərpa etdik. Sovet vaxtında bu abidə, - əgər belə demək mümkündürsə, - qoyulmuşdur, ucaldılmışdır və işğal dövründə tamamilə sökülmüş, paslanmışdır. Bunun paslanmış görüntüləri artıq mətbuatda da var. Ona görə tarixi ədaləti bərpa edərək, Cəbrayıl rayonunun girişində yerləşən bu "Xoş gəlmişsiniz!" lövhəsini, abidəni biz yenidən bərpa etdik. Azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bütün şəhərləri, kəndləri bərpa edəcəyik.

**X X X**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirak etdilər.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

**Elçin Quliyev dedi**: Xoş gəldiniz cənab Prezident!

**Prezident İlham Əliyev**: Salam.

**Elçin Quliyev**: Salam. Yaddaş daşı yazılmışdır gəlişiniz münasibətilə, cənab Prezident, işğaldan azad olunmuş ərazilərdə.

Məruzə edirəm ki, verdiyiniz göstərişlərin icrası üzrə işğaldan azad edilmiş ərazilərdə tikinti-təmir işlərimiz davam edir. Göstərilən ərazidə köhnədən belə bir bina qalmışdı, möhtərəm cənab Prezident, tapşırıqlarınızın icrası ilə əlaqədar 5339 kvadratmetr ərazidə hərbi hissə yaradılmışdır, hazırkı vəziyyət gördüyünüz kimidir.

**X X X**

Dövlət Sərhəd Xidmətinin hərbi arsenalı müasir silahlarla daha da zənginləşdirilir və silahlanmaya yeni pilotsuz uçuş aparatları da daxil edilir.

Prezident, Ali Baş Komandan İlham Əliyevə pilotsuz uçuş aparatları barədə məlumat verən **Elçin Quliyev** dedi: Möhtərəm cənab Prezident, müharibə vaxtı haropların tətbiqi ilə əlaqədar çəkilişlər aparılmışdır. Sağ tərəfdə hazırda həmin çəkilişlər göstərilir, TOR sistemi.

**Prezident İlham Əliyev:** Bəli, yadımdadır, qarajın içində idi.

**Elçin Quliyev**: Elədir ki var, cənab Prezident. Burada onların bir çox raket kompleksləri, S-300 sistemləri, SKAD raket kompleksləri. Onlar Horadiz kəndi istiqamətində əks-hücum həmləsi etmək niyyətində olduqda isə haroplar tərəfindən 2 saat ərzində onların 14 tankı məhv edilmişdir. Bu çəkilişlərdə o tankların məhv edilməsi əks olunub. Təqribən 10-12 tankı da düşmən qoyub qaçmışdır.

**Prezident İlham Əliyev:** Onların özləri də bunu etiraf edirlər.

**Elçin Quliyev:** Elədir ki var, cənab Prezident. Bu, S-300-ün vurulması anı idi. Haropların vurma qabiliyyəti 97 faizdir, cənab Prezident. Bu, ən yüksək göstəricidir.

**Prezident İlham Əliyev:** Bu, dağın başında idi.

**Elçin Quliyev:** Şükrataz dağının, cənab Prezident. Hazırda ən yüksək nöqtədə Azərbaycan sərhədçiləri yerləşmişlər.

Dövlətimizin başçısına məlumat verildi ki, yeni hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün şərait var. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməklə, eyni zamanda, dövlət sərhədinin bərpası kimi çox mühüm bir missiyanı icra etdi. Silahlı Qüvvələrimizin tərkib hissəsi kimi Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də yüksək peşəkarlıqla düşmənə sarsıdıcı zərbələr endirdi və onu torpaqlarımızdan qovdu.

Sonra Prezident İlham Əliyev yeni hərbi maşınlarla tanış oldu və onlardan birini idarə etdi.

**Elçin Quliyev:** Cənab Prezident, bu isə növbəti qayğınızın təzahürüdür. Bu maşınlar yeni alınmışdır və Sizin göstərişiniz üzrə bizim çevik heyətimizə təqdim olunmuşdur. Möhtərəm cənab Prezident, Sizin verdiyiniz xüsusi göstərişin icrası üzrə 44 günlük Vətən müharibəsinin ən itisürətli hücumu məhz bu ərazidən başlamışdır.

Dövlətimizin başçısı hərbi hissənin idman zalında oldu.

**Prezident İlham Əliyev:** Bunu çək, bu birini. Bu, ancaq isinmə hərəkətidir. Göstərirəm ki, şəxsi heyət mənim kimi məşğul olsun və 59 yaşında bunları edə bilsin. İndi gəl bunu çək.

İdmançılar bilirlər ki, burada bir az qaydaları pozmuşam. Ancaq 59 yaşında 40 kiloqramla qaydaları pozmasan olmur.

**X X X**

Hərbi hissədə yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə görüşdü və çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

- Əziz sərhədçilər, bu gün ölkəmizin həyatında əlamətdar bir gündür. Azərbaycan-İran sərhədində Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsi açılır. Bu açılışda mən iştirak edirəm və bu, bir daha Sərhəd Xidmətinin işinə verdiyimiz diqqətin təzahürüdür.

Vətən müharibəsi dövründə Azərbaycan-İran sərhədi tam bərpa edilib, işğal altında olmuş 132 kilometr sərhəd bərpa edilibdir. Müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işləri görülməyə başlamışdır. Bu hərbi hissənin fəaliyyətə başlaması bunun bariz nümunəsidir. Bütün sərhəd boyunca - həm Azərbaycan-İran, həm Azərbaycan-Ermənistan sərhədləri boyunca lazımi işlər aparılır.

Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Bu sərhədin qorunması Azərbaycan-İran əlaqələrinin inkişafı üçün də çox böyük önəm daşıyır. Bizim İran İslam Respublikası ilə digər istiqamətlərdə sərhədimiz var və bu, sözün əsl mənasında, dostluq, əməkdaşlıq sərhədidir. Hər iki ölkənin sərhəddən keçən vətəndaşları bundan faydalanırlar. Eyni zamanda, ildən-ilə artan yüklərin həcmi Azərbaycan-İran əlaqələrinin inkişafından xəbər verir.

Buraya yaxın məsafədə yerləşən Xudafərin körpüsü Azərbaycan-İran dostluğunun rəmzidir. Xudafərin körpüsü Müstəqillik Günündə - keçən il oktyabrın 18-də düşməndən azad edilmişdir. Bu ərazinin düşməndən azad edilməsində sərhədçilər xüsusi rol oynamışdır. Azadlıq mübarizəmiz məhz bu istiqamətdən başlamış və Vətən müharibəsi 44 gündən sonra Ordumuzun, Silahlı Qüvvələrimizin Qələbəsi ilə nəticələnmişdir. Bu ərazidə şiddətli döyüşlər gedirdi, hər bir kənd uğrunda şiddətli döyüşlər gedirdi, biz şəhidlər verirdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır. İtkilərə baxmayaraq, biz hər gün irəli gedirdik. 44 günlük müharibə dövründə bir gün belə geriyə addım atmamışıq. 44 gün ərzində hər bir gün Zəfər günü idi. 44 gün ərzində Ermənistanın bütün cəhdlərinə baxmayaraq, bir dənə də uğurlu əməliyyat keçirə bilməmişlər. Bax, bu istiqamətdə onlar əks-hücum əməliyyatı planlaşdırmışdılar və bunu həyata keçirməyə başlamışdılar. Amma bu, onların sonunun başlanğıcı olmuşdur. Çünki həmin əks-hücum əməliyyatı Azərbaycan Silahlı Qüvvələri tərəfindən tamamilə darmadağın edilmişdir, düşmən böyük sayda itki vermişdir və düşmənin onlarla texnikası məhv edilmişdir. Biz məhz bu istiqamətdən – Füzuli-Cəbrayıl istiqamətindən bir çox müdafiə xətlərini keçərək azadlığa yol açmışdıq.

Bu gün müzəffər Azərbaycan Silahlı Qüvvələri qarşıda duran bütün vəzifələri icra edir. Eyni zamanda, sərhədçilərimiz hazırda işğaldan azad edilən ərazilərdə Azərbaycan-Ermənistan sərhədini də qoruyur. Bu sərhəd də bərpa edilib və sərhəd boyunca bütün lazımi infrastruktur işləri aparılır, bütün texnika səfərbər edilib. Bu sərhədin uzunluğu 500 kilometrə yaxındır. Bu sərhəd 30 ilə yaxın müddət ərzində işğalçı qüvvələrin əlində idi. Biz Vətən müharibəsində Qələbə qazanaraq bu sərhədi də tam bərpa etdik, Zəngilan və Qubadlı rayonlarını, Laçın rayonunun bir hissəsini döyüşərək azad etdik. Laçın rayonunun böyük hissəsini və Kəlbəcər rayonunu düşmən artıq məcbur olub kapitulyasiya aktını imzalayaraq bizə qaytarıb. Hazırda o ərazilərdə lazımi işlər aparılır.

Ancaq əfsuslar olsun ki, Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də bizə qarşı ittihamlarla çıxış edərək, bizə qarşı ərazi iddiası irəli sürürlər. Onlara, bax, buradan xəbərdarlıq etmək istəyirəm ki, bu çirkin əməllərdən əl çəksinlər, yoxsa onların axırı pis olacaq. Biz Vətən müharibəsi dövründə kimin kim olduğunu göstərdik. Dəmir yumruq düşmənin başını əzdi. Bu yaxınlarda Azərbaycan-Ermənistan sərhədinin Zəngilan istiqamətində bizim sərhədçilərimizə qarşı edilən hərbi təxribat sonuncu belə cəhd olmalıdır. Biz təmkinlik göstərərək bu təxribata cavab vermədik. Amma bu, sonuncu xəbərdarlıqdır. Əgər bir daha buna oxşar cəhd göstərilərsə, düşmən yerindəcə məhv ediləcək. Biz öz sərhədimizi qoruyuruq və bundan sonra da qoruyacağıq. Hər bir ölkənin sərhədi onun dövlət rəmzlərindən biridir. Azərbaycan öz sərhədlərini, ərazi bütövlüyünü tam bərpa edib. Bizim Silahlı Qüvvələrimiz rəşadət, qəhrəmanlıq göstərərək Vətən müharibəsində Zəfər çaldılar. Sərhədçilərin ümumi zəfərimizdə rolu çox böyükdür. Mən bunu qiymətləndirirəm. Təsadüfi deyil ki, bir çox hərbçilər dövlətimizin yüksək orden və medalları ilə təltif edilmişlər.

Mən sizi bir daha bu hərbi hissənin açılışı münasibətilə təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

**X X X**

Dövlətimizin başçısı sərhədçilərlə birgə foto çəkdirdi.

**X X X**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Ağalı kəndinə gəldilər.

**Kənd təsərrüfatı naziri İnam Kərimov:** Cənab Prezident, Sizə fevral ayında məlumat təqdim ediləndən sonra artıq intensiv işlərə başlanılıb, mobilizasiya edilib. İlkin söküntü işləri aparılıb.

**Prezident İlham Əliyev**: Burada nə olub?

**İnam Kərimov**: Evlər olub burada. Otuza yaxın ev olub. Kəndarası yollar artıq çəkilməkdədir. Kəndin içində də bu işlər aparılır. Hazırda 110-a yaxın işçi çalışır. İşlərin intensiv getdiyi vaxtda təqribən 600-700-ə yaxın işçi çalışacaq.

**Prezident İlham Əliyev:** Kəndin bir hissəsi yolun o tərəfindədir?

**İnam Kərimov:** Bəli, bir hissəsi üst hissədə olub.

**Prezident İlham Əliyev:** Əsas hissə bura olub?

**İnam Kərimov:** Bəli, əsas hissə bura olub. Bura birinci Ağalıdır.

Ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış kəndlərimizin ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb.

Kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısına və birinci xanıma məlumat verdi ki, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə, ilk olaraq, tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaq. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.

Dövlətimizin başçısı xarici şirkət nümayəndələri ilə videoformatda söhbət etdi.

**Prezident İlham Əliyev:** salam əleyküm.

**Türkiyə şirkətinin əməkdaşı:** Əleyküm salam, cənab Prezident.

**Kənd təsərrüfatı naziri İnam Kərimov:** Onay bəy buyurun.

**Prezident İlham Əliyev:** Buyurun, söyləyin nədir bu qurğu?

**Türkiyə şirkətinin əməkdaşı:** "Bir millət, iki dövlət" can Azərbaycana Türkiyədən salamlar, cənab Prezident.

**Türkiyə şirkətinin əməkdaşı:** Həqiqi sahibinə yenidən qovuşmuş bu torpaqlar uğrunda canını qurban vermiş bütün şəhidlərin xatirəsini uca tutduğunuz üçün Sizə təşəkkürlərimi bildirirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Türkiyə şirkətinin əməkdaşı:** Cənab Prezident, yaradılacaq bu "Ağıllı kənd"də apardığımız çoxistiqamətli təhlillər nəticəsində müəyyənləşdirdik ki, bu, dünyanın təbii dostu olan bərpaedilən enerji qurğusu "Arximed" sistemidir. Bununla yanaşı, karbon dioksid emissiyası sertifikatına malik olan "Arximed" qurğusu "Ağıllı kənd"in bütün daxili elektrik enerjisi ehtiyacını ödəyəcək və artıq qalan enerjini xaricə satmaq mümkün olacaq. Bununla bərabər, sistemdən çıxan isti suyu kənddəki evlərə və otelə ötürəcəyik. Bu qurğu çox sürətlidir, yüksək məhsuldarlıqla işləyir. Heç bir səs-küy yaratmır, suyu oksigenləşdirir ki, bu da balıqlar və yaşıllıqlar üçün çox faydalıdır. Bu sistem günəş enerjisi və digər alternativ enerjilərə nisbətən artıq, yəni 24 saat işlədiyi üçün daha çox enerjini daha az güclə əldə etməyə imkan verir. Bu layihə, sadəcə, enerji istehsal etmək məqsədi daşımır, eyni zamanda, turizm infrastrukturu üçün şərait yaradır. Cənab Prezident, əlbəttə, Sizin dəstəyinizlə, bütün ehtiyaclarını öz daxili imkanları hesabına ödəyə bilən bir "Ağıllı kənd" layihəsi yaratmağı planlaşdırırıq. Minnətdarlığımı bildirirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Mən çox şadam ki, birinci layihədə Türkiyə şirkəti iştirak edir. Bu, təbiidir. Çünki qardaş ölkə olan Türkiyə bizim bütün bərpa işlərində fəal iştirak edəcək. Bildiyiniz kimi, artıq bir neçə Türkiyə şirkəti bərpa işlərində, infrastruktur layihələrində iştirak edir. Şadam ki, biz burada da - yaşıl enerji sahəsində də Türkiyə şirkətinin fəaliyyətini görürük. Əslində, bu, azad edilmiş torpaqlarda inşa edilən birinci kənddir. Əlbəttə ki, bu kəndin çox böyük önəmi var. Çünki "Böyük qayıdış" bu gün başlayır. Əmin olduğumu bildirmək istəyirəm ki, siz gələcək layihələrdə də iştirak edəcəksiniz.

**Türkiyə şirkətinin əməkdaşı:** İnşallah, cənab Prezident.

**Prezident İlham Əliyev:** Bir daha sizə uğurlar arzulayıram.

**Türkiyə şirkətinin əməkdaşı:** Təşəkkür edirəm, cənab Prezident.

**X X X**

**"Huayvei-Azərbaycan" şirkətinin baş meneceri**: Salam, hörmətli cənab Prezident Əliyev. Mənim adım Deyviddi. Mən "Huayvei-Azərbaycan" şirkətinin baş meneceriyəm. Bizim "Ağıllı kənd" rəqəmsal texnologiyamızı Sizə təqdim etmək mənim üçün böyük şərəfdir. Biz bu texnologiyadan Qarabağda yenidən qurulacaq ərazilərdə istifadə edəcəyik.

Əvvəlcə, mən böyük Zəfər münasibətilə, cənab Prezident, Sizə təbriklərimi və dərin ehtiramımı çatdırmaq istəyirəm. Dünya üzrə aparıcı İKT texnologiyaları şirkəti olaraq biz bütün ən son qabaqcıl texnologiyalarımızı Qarabağda təqdim etməyə və gələcəkdə "Ağıllı kənd"lərin inkişafında iştirak etməyə hazırıq. Aparıcı "Ağıllı şəhər" və "Ağıllı kənd" texnologiyalarının təchizatçısı kimi şirkətimizin bu sahədə böyük təcrübəsi var və bizim 100-dən çox qlobal layihəmiz mövcuddur. Qarabağda "Ağıllı kənd" üzrə qabaqcıl texnologiyaları təmin etmək üçün biz ən son məhsul və texnologiyaları təchiz edəcəyik. Biz Azərbaycanda ilk dəfə "Qiqabit AirPON" texnologiyasını istifadə edəcəyik. "AirPON" cihazı hazırda cənab Prezidentin qarşısındadır. Bu texnologiya fiber-optik xətlərin çəkilişini 10 kilometrdən 1 kilometrə qədər qısalda bilər. Beləliklə, biz şəbəkənin qurulmasını sürətləndirə və xərclərə qənaət edə bilərik. Biz "Ağıllı kənd" layihəsinin birinci mərhələsində Qarabağda təhlükəsiz yaşayış mühiti yaradaraq, "ağıllı tədris", "ağıllı səhiyyə" və "ağıllı kənd təsərrüfatı" sistemlərini həyata keçirəcəyik. Bu, tərəfimdən hazırlanmış qısa hesabat idi. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Mən sizə uğurlar arzulayıram. Bu, Qarabağ regionunda ölkənin birinci layihəsidir. Mən şadam ki, Azərbaycanın yaxşı tərəfdaşı olan "Huayvei" şirkəti bu layihədə iştirak edir. Xatırlayıram ki, Çinə səfərlərimin birində mən sizin Pekindəki mənzil-qərargahınızı ziyarət etmişdim və orada mənə sizin fəaliyyətinizlə bağlı təqdimat verilmişdir. Həmçinin Bakı ofisi ilə birbaşa əlaqə də yaradılmışdır. Bilirəm ki, Bakı ofisi çox uğurlu fəaliyyət göstərir və işğaldan azad olunmuş ərazilərdə çoxlu işlər olacaq. Çünki bu, yalnız bir kənddir. Erməni təcavüzkarlar tərəfindən dağıdılmış yüzlərlə kənd və şəhərlərimiz var. Bizə indi onları bərpa etmək lazımdır. Biz onları müasir standartlar, yaşayış standartları əsasında bərpa etməliyik. Beləliklə, mən sizə uğurlar arzulayıram və ümid edirəm ki, işğaldan azad olunmuş ərazilərin digər hissəsində işləmək üçün sizin başqa fürsətiniz olacaq.

**Baş menecer:** Təşəkkür edirəm, cənab Prezident. Biz əlimizdən gələni edəcəyik.

**Kənd Təsərrüfatı naziri İnam Kərimov:** Bu qurğu yüz meqabitə qədər kabelsiz internet paylayacaq. Bir də telefon antenası quraşdırılandan sonra kənd internetlə təmin oluna bilər.

X X X

**Prezident İlham Əliyev:** Sabahınız xeyir.

**İtaliya şirkətinin əməkdaşı:** Salam cənab Prezident, sabahınız xeyir. Necəsiniz?

**Prezident İlham Əliyev:** Çox yaxşıyam, təşəkkür edirəm. Sizin layihəniz necə irəliləyir? Bu gün biz ona start veririk. Odur ki, tikintini başa çatdırandan sonra bizim yaxşı nəticələrimiz olmalıdır. Layihənin işlək vəziyyətə gətirilməsi üçün vaxt cədvəli necədir?

**İtaliya şirkətinin əməkdaşı:** Onlar süd ferması layihəsinin noyabr ayında istismara verilməsini istəyirdilər. Lakin ehtimal edirəm ki, fermanın daxilində yaşayış yerləri ilə birlikdə noyabr ayında bu, kifayət qədər tezdir. Lakin bunu biz nə qədər tez lazımdırsa edə bilərik. Bizim yenidənqurma işlərini aparmaq üçün bacarıqlarımız və tərəfdaşlarımız var.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Deməli, əlbəttə ki, bu, noyabr və ya dekabr ola bilər. Bilirəm ki, planlamaq, təşkil etmək və icra etmək asan deyil, çünki biz bütün infrastrukturu, 200-dən çox evi olan kəndi, qəsəbəni salmalıyıq. Çünki buraya yaşamağa gələn insanların iş yerlərinə və istehsalata ehtiyacı olacaq. Mən burada şəkillərə baxıram, onlar çox yaxşı görünür. Məşhur "motsarella" pendiri.

**İtaliya şirkətinin əməkdaşı:** Bəli, təşəkkür edirəm. Bizim evlər və fermalar üçün birgə modelimiz də var. Beləliklə, Siz insanları kənddə evlərlə təmin etməzdən əvvəl onları fermada işləmələri üçün tez bir şəkildə yerləşdirə bilərsiniz.

**Prezident İlham Əliyev:** Çox yaxşı, təşəkkür edirəm.

X X X

**İsrail şirkətinin əməkdaşı:** Sizə təqdimatımızı göstərə bilərikmi?

**Prezident İlham Əliyev:** Bəli, buyurun.

**İsrail şirkətinin əməkdaşı:** İlk növbədə, Sizin qarşınızda dayanmaqdan, Sizinlə görüşməkdən böyük qürur hissi keçirirəm. Bu imkana görə təşəkkür edirəm. Mən Sizi Qarabağ ərazilərinin işğaldan azad edilməsi münasibətilə təbrik etmək istəyirəm. Biz Sizin tərəfdaşınız olmaqdan həqiqətən də şadıq. İsrail Zəngilanda, əvvəlcə, 300-400 başlıq camış ferması tikəcək, sonra biz onu 1000 başa çatdırmaq istəyirik. Şirkətimiz ağıllı fermalar üzrə texnologiya ilə işləyir. Bizdə bütün fermanı məlumatların təhlili üzrə proqram təminatına birləşdirən ötürücülər var ki, bu da göründüyü kimi, mal-qaranın yemlənməsi, sağlamlığı və sağılması ilə əlaqədardır. Biz bunu "açar təslimi" layihəsi kimi həyata keçiririk. Buraya texniki-iqtisadi əsaslandırma, tikinti, planlaşdırma, komandanın hazırlanması və mal-qaranın idxalı daxildir. Qeyd etdiyim kimi, heyvanlar sensorlarla təchiz ediləcək. Biz peyin emalı ilə də məşğul oluruq. Peyindən gübrə və bioqaz əldə edə bilirik. Fərqli variantlar var. Tullantı sularının təmizlənməsi, günəş enerjisi. Bu, o deməkdir ki, Sizdə böyük elektrik enerjisi infrastrukturu qurmadan böyük həcmdə elektrik enerjisi istehsal olur. Bu cür ferma çox maraqlı olacaq. Beləliklə, biz İsrailin sahib olduğu süd ferması texnologiyasında bilik və təcrübəmizi Azərbaycana, Qarabağ bölgəsinə gətirmək istəyirik. Bu imkana görə çox sağ olun. Biz Sizinlə əməkdaşlıq etməyi səbirsizliklə gözləyirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Mən bilirəm ki, İsraildə inəklər ən yüksək keyfiyyətli məhsul verir və orada inəkbaşına ən yüksək həcmdə süd alınır.

**İsrail şirkətinin əməkdaşı:** İsraildə elə fermalar var ki, orada hər inəkdən 40-45 litr süd alınır.

**Prezident İlham Əliyev**: Bilirəm.

**İsrail şirkətinin əməkdaşı:** Biz camışlarla da əlimizdən gələni etməyə çalışacağıq.

**Prezident İlham Əliyev:** Bəs, hər camışdan orta hesabla nə qədər süd alınır?

**İsrail şirkətinin əməkdaşı:** Camışlarda bu, orta hesabla sağmal inəyin verdiyi məhsulun üçdəbiri qədərdir. Bu, bir camış başına gündə 8-12 litr arasındadır.

**Prezident İlham Əliyev:** Aydındır. Camışlar İsraildən idxal olunacaq?

**İnam Kərimov:** İtaliyadan.

X X X

**Layihə meneceri:** Salam, cənab Prezident. İlk növbədə, Sizi ərazilərinizin işğaldan azad edilməsi və suverenliyinizin bərpası ilə əlaqədar tarixi nailiyyətiniz münasibətilə təbrik edirəm. Bu, mühüm strateji bölgədə sabitlik və firavanlıq dövrü olacaq. Burada olmaq, Sizə İtaliya məhsulları və xidmətləri barədə

məlumat vermək mənim üçün həqiqətən də şərəfdir. Mənim adım Cüzeppe Grisoliyadır və mən camış sağmalçılığı ilə bağlı layihə meneceriyəm. Bizim biznes ideyamız strateji regionda tam avadanlıqla təchiz edilmiş camış sağmalçılıq fermasının və ya yüksək keyfiyyətli "motsarella", "burrata" və digər növ camış pendirlərinin istehsalının həyata keçirilməsi ilə bağlıdır. Biz istehsal prosesinə öz təcrübə və biliyimizi gətiririk. Çünki cənab Prezident, bildiyiniz kimi, camış "motsarella"sı bütün dünyada istehsal olunur, istənilən ölkə həmin keyfiyyətə və səviyyəyə çatmağa cəhd göstərir. Lakin "motsarella di buffalo" pendiri həmişə italyan məhsulu olaraq qalır. Südçülük sahəsində uğurun ən mühüm amili ondan ibarətdir ki, söhbət təkcə bizdə olan texnologiyadan, avadanlıqdan getmir, həm də pendir hazırlayanların əllərindən gedir. Çünki hər kəs bahalı avadanlıq ala bilər, amma yalnız bacarıqlı pendir hazırlayan bənzərsiz "motsarella" hazırlaya bilər. Bu səbəbdən də biz südçülük fermasını qurandan sonra tam təlim kursu keçəcəyik. Bu təlim sayəsində Azərbaycanda birinci nəsil bacarıqlı pendir hazırlayanlar yetişdiriləcək. Biz Azərbaycanda sadə keyfiyyətdə camış pendirinin istehsal olunmasını istəmirik. Bizim hədəfimiz yüksək keyfiyyətli südçülük sektorunun yaradılmasından ibarətdir ki, Azərbaycan da İtaliya kimi mükəmməl "motsarella di buffalo" pendirlərinin istehsalçısı olsun. Bu sahədə güzəştdən söhbət gedə bilməz, yalnız birinci səviyyəli istehsal ola bilər. Biz azərbaycanlı dostlarımızla əlimizdən gələni edəcəyik. Təşəkkür edirəm, cənab Prezident. Yaradılmış imkana görə çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Bu, işğaldan azad edilmiş ərazilərdə ilk pilot layihədir. Ona görə də, qeyd etmək istəyirəm ki, biz buna xüsusi diqqət yetiririk. Bu layihənin uğurlu icrası sözsüz ki, bizim əraziləri mümkün qədər tez bir zamanda dirçəltmək və bərpa etməklə bağlı güclü iradəmizi nümayiş etdirəcək. Müharibədən və qələbəmizdən sonra dəfələrlə qeyd etdiyim kimi, bizimlə işləmək üçün dost ölkələrdən şirkətlər dəvət edəcəyik. Şadam ki, bu gün İsrail şirkəti, İtaliya şirkəti, Azərbaycanın iki dost ölkəsindən olan şirkətlər bu mühüm layihəyə qoşulur və bizim beynəlxalq əməkdaşlığımız var. Türkiyədən, Çindən, İsraildən, İtaliyadan olan şirkətlər var, hamısı dost ölkələrdir. Bu, həqiqətən də yaxşı beynəlxalq əməkdaşlıqdır və mən əminəm ki, bu, sadəcə olaraq, ilk addımdır. Bu layihənin uğurlu icrası sözsüz, bizə imkan verəcək ki, bu təcrübədən Qarabağın digər yerlərində istifadə edək. Çünki biz yüzlərlə kənd, qəsəbə və şəhərləri bərpa etməliyik.

Ümid edirəm ki, siz bu məhsulları nümayiş etdirəcəksiniz və onların dadına baxacaqsınız.

**İsrail şirkətinin əməkdaşı:** Cənab Prezident, qarşımıza çətin vəzifə qoydunuz. Biz hazırıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**İsrail şirkətinin əməkdaşı:** Çox sağ olun, cənab Prezident, gününüz uğurlu olsun. Təşəkkür edirəm.

**X X X**

Sonra dövlətimizin başçısı Zəngilan rayonunun sakinləri ilə görüşdü.

**Prezident İlham Əliyev:** Salam, gəlin yaxına, gəlin, yaxınlaşın.

**Qadın sakin:** Ağalı kəndinə xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Qadın sakin:** Bu, bizim kəndimizdir. Mən Ağalı kəndində, bu kənddə anadan olmuşam, burada boya-başa çatmışam. Atamın, anamın, həyat yoldaşımın, əmilərimin, dayılarımın məzarları bu qəbiristanlıqdadır. Həyat yoldaşımın məzarı o görünən ağacın yanındadır, iş başında həlak olubdur.

**Prezident İlham Əliyev:** Eviniz harada, hansı tərəfdə olub?

**Qadın sakin:** Evimiz aşağıdadır.

**Prezident İlham Əliyev**: Böyük Ağalıda.

**Qadın sakin:** Siz birinci dəfə maşınla keçəndə göstərirsiniz ki, bu ev kimindir, yəqin tanıyacaq. O, bacımın evidir. Çox sağ olun, çox şadam ki, Sizinlə, xanımınızla, qızınızla burada görüşürəm. Hamınızı bağrıma basıram, öpürəm.

**Prezident İlham Əliyev:** Sizi təbrik edirəm, Ağalıya qayıtmısınız.

**Qadın sakin**: Sağ olun, mən də Sizə cansağlığı, uzun ömür arzulayıram ki, bizi gətirib öz yerimizə çıxartdınız, torpağımızı gördük. Torpağımızı azad etmisiniz. Siz torpaqlarımızla bərabər şəhidlərimizin qisasını almısınız, qazilərimiz var. Qazilərimizə Allahdan sağlıq, şəhidlərimizə rəhmət diləyirəm. Onların analarının qarşısında baş əyirəm. Sizin qarşınızda baş əyirəm ki, Ali Baş Komandan kimi onları ətrafınıza toplayıb dünyada görünməyən 44 günlük müharibədə qalib gəlmisiniz. Birinci Qarabağ müharibəsində mənim dayımın oğlu, üzr istəyirəm, həm də kürəkənim 5 il 8 ay müharibədə iştirak etdi. 44 günlük müharibədə könüllü iştirak edən nəvəm qazidir. Allah Sizə cansağlığı versin, ömrünüz uzun olsun. Ağalı camaatı bu dəqiqə startda durub, hamımız bir nəfər kimi. Uşaqdan böyüyə hamı deyir ki, gedirik Ağalıya qurub-yaradaq. Ağalı camaatı zəhmətkeşdir. Mən 28 ildir şəhərdə yaşayıram.

**Prezident İlham Əliyev:** Harada, Bakıda yaşamısınız?

**Qadın sakin**: Bəli, Biləcəridə yaşayıram.

**Prezident İlham Əliyev:** Biləcəridə yataqxanada, yoxsa?

**Qadın sakin:** Xeyr, öz evimizdə yaşayırıq. Öz torpağımıza gəlməyə hazırıq. Bir arzum var, o gün olsun, bu layihə başa çatdırılsın, Ağalı camaatımız gəlsin kəndə yığışsın. Çünki camaatımız zəhmətkeş adamlardır, bərpa edəcəyik. Sizdən xahiş edirəm ki, ikinci dəfə bu kəndə gələndə mənim evimə gəlib bir stəkan çayımı içəsiniz.

**Prezident İlham Əliyev**: Yaxşı. Söz verirəm sizə. Mütləq gələcəyəm, açılışa da gələcəyəm və İnşallah, yaxın zamanlarda kənd yenidən qurulacaq. Bilirsiniz ki, birinci bərpa olunacaq kənd Ağalı kəndidir.

**Qadın sakin:** Bu kənd varlı kənd olub, kolxozu ilə. Mənim belə bir bayatım var:

Mən aşiqəm kəndə gəl,
Mən gəlmişəm, sən də gəl.
Ermənilərin dağıtdığı kəndə baxıb,
Təzə tikilən texnikalı kəndə bax.

**Prezident İlham Əliyev:** Özü də bu kənd nümunəvi bir kənd olacaq.

**Qadın sakin**: Bəli, çox sağ olun. Çox şadam ki, Sizinlə burada görüşdüm. Canım mənim, hamınızı bağrıma basıram, öpürəm Sizi.

**Prezident İlham Əliyev:** Siz nə vaxt çıxmısınız Ağalıdan?

**Qadın sakin:** 1993-cü ildə çıxmışam və həmişə Siz yumruğunuzu göyə qaldıranda Sizinlə bərabər mən də qaldırmışam, yenə də qaldırıram və deyirəm: Qarabağ bizimdir! Ağalı bizimdir! Zəngilan bizimdir! Gənclərimiz Sizin arxanızdadırlar. Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

**Prezident İlham Əliyev:** Sağ olun. Ağalı kəndi oktyabrın 28-də işğalçılardan azad edildi. Bilirsiniz ki, burada Zəngilan uğrunda, bütün kəndlər uğrunda şiddətli döyüşlər gedirdi. Biz qan tökərək bu torpaqları qaytardıq.

**Qadın sakin:** Bəli, nəvəm də burada döyüşlərdə iştirak edib.

**Prezident İlham Əliyev:** Düşmənləri qovduq və mən birinci dəfə buraya gələndə, dağıntıları görəndə və maşınla keçəndə dedim ki, görəsən, bu ev kimindi? Çünki o evin bir hissəsi qalmışdı.

**Qadın sakin**: Bəli, indi də qalır, gördüm.

**Prezident İlham Əliyev:** Qanunsuz məskunlaşmışdılar, dedim ki, yəqin Ağalı camaatı tanıyar kimin evidir.

**Qadın sakin:** Bəli, mən qulaq asmışam.

**Prezident İlham Əliyev:** İndi isə yeni layihə ilə yəqin ki, tanış olmusunuz. Burada 200-dən çox ev, məktəb, uşaq bağçası, poliklinika tikiləcək, iş yerləri yaradılacaq. Bu gün mənə verilən təqdimatda göstərilir ki, böyük ferma - camış ferması yaradılacaq, pendir istehsal ediləcək, burada əkin sahələri nəzərdə tutulub, su elektrik stansiyası olacaq, yəni, bütün şərait. Burada yaşamaq üçün nə lazımdırsa olacaq. Burada tətbiq olunacaq texnologiyaların bir çoxu Azərbaycanda yoxdur. Bu, birinci layihədir, pilot layihədir və əminəm ki, maksimum gələn ilin əvvəlində bütün işlər hazır olacaq. Evlər tikilməlidir, kommunikasiyalar tikilməlidir, ondan sonra iş yerləri yaradılmalıdır, əkin yerləri olmalıdır və burada yaşayacaq insanların hər biri işlə təmin edilməlidir. Mən burada gəncləri də görürəm, onlar yəqin ki, müharibədən sonra dünyaya gəliblər, ya da ki, müharibədən əvvəl.

**Qadın sakin:** Bir yaşında, yeddi aylığında köçkün düşən uşaqlardır.

**Prezident İlham Əliyev:** Neçə yaşın var?

**Oğlan:** Möhtərəm cənab Prezident, mən Sizi kəndimizdə görməyimə çox məmnunam. Mən Zəngilanda doğulan ən son körpələrdənəm, buranı məcburi köçkün kimi tərk edəndə yeddi aylıq olmuşam. Bu gün, 28 ildən sonra ilk dəfədir ki, biz öz dədə-baba torpağımıza qədəm qoyuruq və sevindirici hal ondan ibarətdir ki, cənab Prezident, Sizinlə bir yerdə ayaq basırıq.

Cənab Prezident, biz Sizin siyasətinizi hər zaman dəstəkləmişik. Biz Sizin çıxışlarınızı hər zaman izləmişik, 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinə həsr olunmuş hərbi paradda Sizin çıxışınızda bir ifadə bizim diqqətimizi çəkdi. Siz dediniz ki, Qarabağ əzəli Azərbaycan torpağıdır və tezliklə Şuşada dalğalanan Azərbaycan bayrağı nümayiş üçün Azadlıq meydanına gətiriləcək.

**Prezident İlham Əliyev:** Bəli.

**Oğlan**: Cənab Prezident, biz 2020-ci ildə o möhtəşəm Qələbə paradında buna şahidlik etdik. Cənab Prezident, ümumiyyətlə, biz Zəngilan gəncləri daim öz dövlətinə, millətinə, Ali Baş Komandanına sadiq

gənclərdir. Ümumiyyətlə, Zəngilan mühüm coğrafi-strateji əhəmiyyətə malik bir rayondur. Zəngilan bizim Naxçıvana keçid qapımızdır. Zəngilan bizim tarixi torpaqlarımız olan Zəngəzura giriş qapısıdır. Zəngilan burada bir çox yolların qovuşuğunda yerləşir. Ümumiyyətlə, Zəngilanda kənd təsərrüfatının inkişafı üçün çox böyük potensial var. Zəngilanda münbit torpaqlar, bol sular, təmiz hava var. Zəngilanda əkib-becərmək üçün hər cür şərait var.

**Prezident İlham Əliyev:** Zəngilanı görməyib, baxın, görün Zəngilanı necə sevir. Bax, budur Vətən sevgisi. Vətən sevgisi budur.

**Qadın sakin:** Zəngilan bizim uşaqlıq nağıllarımızdır.

**Oğlan:** Cənab Prezident, yeri gəlmişkən deyim ki, Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları bizim hər birimizin evində oldu. Bizimlə ayrıca sorğular keçirildi, orada əhalinin yaş qrupu müəyyənləşdirildi, əhalinin əmək fəaliyyətinin istiqaməti müəyyən olundu. Sizi əmin edirəm ki, o sorğuda iştirak edən hər bir Zəngilan sakini Zəngilana qayıdacağını qeyd edib. Mən əminəm və Sizi də əmin edirəm. Çünki bura bizim dədə-baba yurdumuzdur. Mənim babam uzun illər burada kolxoz sədri işləyib, cənab Prezident. Atam daş ustası olub. Öz əlinin zəhməti ilə bu Ağalı kəndində 30-a yaxın ev inşa edib. Təəssüflər olun ki, erməni vəhşiliyi nəticəsində o evlərdən heç bir əsər-əlamət yoxdur. Ancaq biz kədərlənmirik, əksinə, sevinirik ki, bu gün "ağıllı kənd" layihəsinə start verilir və ikiqat sevinirik ki, bu layihə məhz bizim kəndimizdən başlayır. Bunun üçün Sizə ikiqat təşəkkür edirik, cənab Prezident, var olun.

Cənab Prezident, biz həmişə oktyabr ayında hüznlə bir yerə toplaşırdıq, Zəngilanın işğal gününü qeyd edirdik. Amma bu ildən etibarən biz oktyabr ayında qələbə gününü, bayram gününü qeyd edəcəyik. Əminəm ki, Siz də bizimlə bir yerdə Ağalı kəndində bayram şənliklərində iştirak edəcəksiniz. Var olun, cənab Prezident, təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Mütləq. Bundan sonra oktyabr ayı zəngilanlılar üçün ancaq bayram ayı olacaq. Çünki həm Ağalı kəndi, həm Zəngilan şəhəri oktyabr ayında azad edildi. Bu gəncin sözlərinə qulaq asaraq bir daha görürük ki, Azərbaycan xalqının nə qədər güclü iradəsi və öz doğma torpağına bağlılığı var. Ermənilərin aləmində əsas ümidverici amil o idi ki, bizim camaat bu yerləri unudacaq, yaşlı camaat unudacaq, sonra vaxt keçəcək yaşlı camaat təbii olaraq həyatdan gedəcək. Gənclər, başqa şəraitdə böyüyüb başa çatan insanlar isə heç vaxt buraya qayıtmaq istəməyəcəklər. Bax, bu, onların böyük səhvi idi. Çünki biz qəlbində güclü Vətən sevgisi olan bir gənc nəsil tərbiyə edib yetişdirdik. Hətta buranı görməyən hər bir gənc, - indi sən görməmisən buraları, sən də görməmisən, - bir arzu ilə yaşayıb ki, qayıtsın öz doğma torpağına, ədalət bərpa olunsun və artıq biz bunu görürük. Ağalı kəndi heç bir il keçmədən yenidən qurulacaq, - yəqin ki, siz maketlərdə görmüsünüz, layihə ilə tanış olmusunuz, - dünyanın bəlkə də ən mütərəqqi kəndlərindən birinə çevriləcək.

**Kişi sakin**: Ona görə Sizə minnətdarıq, cənab Prezident, çox sağ olun.

**Prezident İlham Əliyev**: Sağ olun. Siz də burada yaşamısınız?

**Kişi sakin:** Bəli, hazırda Sumqayıtda məskunlaşmışıq.

**Qadın sakin:** Mənim nəvəm Bakıda anadan olub. Ancaq hərbi xidmətini qurtarandan sonra özü gəlmişdi buraya. Gəlib Füzulinin kəndindən zəng etmişdi ki, məndən nigaran olmayın, amma Şuşada imiş. Yəni, demək istəyirəm ki, o uşaq burada anadan olmasa da, buranın havası, buranın torpağı, danışdığımız nağıllar o uşağı çəkib buraya gətirdi. Şükür Allaha sağ-salamatdır, Allah-Təala qazilərimizə də şəfa versin. Mehriban xanım Sizin sayənizdə qazilərimiz xaricdə müalicə alırlar, onlara köməklik göstərirsiniz.

**Prezident İlham Əliyev:** Zəngilan çox səfalı yerdir, gözəl yerdir. Dağları, çayları, meşələri.

**Kişi sakin:** Bizim kəndimizə dəyər verdiyinizə görə, cənab Prezident, Sizə çox minnətdarıq. Allah Sizdən razı olsun.

**Qadın sakin:** Allah Sizə cansağlığı versin. O körpə uşaq ki var, Siz bir ana kimi ona qayğı göstərdiniz, Sizə minnətdarıq, çox sağ olun.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ olun.

**Kişi sakin**: Bunlar hamımızın ürəyindən gələn sözlərimizdir.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Biz həmişə Sizin arxanızda durmuşuq.

**Prezident İlham Əliyev:** Gəlin indi birlikdə təməl daşını qoyaq. Böyük qayıdış bu gün başlayır.

**Kişi sakin:** İnşallah.

**X X X**

Daha sonra Prezident İlham Əliyev Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməlini qoydu.

**Prezident İlham Əliyev:** "Ağalı kəndində "Ağıllı kənd" layihəsinin təməl daşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulmuşdur. Qarabağ Azərbaycandır!". Həmin bu yazı gilizdədir.

**Kişi sakin:** Qoy hamının burada zəhməti olsun.

**Prezident İlham Əliyev:** Əlbəttə, bu, tarixdir. Kişilər özlərini qabağa verirlər.

**Qadın sakin**: Xeyirli, uğurlu olsun.

**Prezident İlham Əliyev**: Burada da abidə ucaldılacaq.

**Kişi sakin**: Cənab Prezident, buraya gəlməyən sakinlər də bizə tapşırdılar ki, Sizə təşəkkür edək. Çox sağ olun ki, bizim kəndə bu cür dəyər verdiniz.

**Prezident İlham Əliyev:** Sağ olun məndən də onlara salam söyləyin. Kənd hazır olanda bir də gələcəyik.

**Qadın sakin:** Mütləq bizə gəlin.

**Birinci xanım Mehriban Əliyeva:** Mən də istəyirəm.

**Prezident İlham Əliyev**: Hə, əlbəttə. Sən yaddan çıxdın. Leyla sən də gəl.

**Qadın sakin:** Bu həyəcanı bizə yaşatdığınız üçün sağ olun. 70 yaşım var özümü 15 yaşda hiss edirəm. O qədər cavanlaşdırdınız ki.

**Birinci xanım Mehriban Əliyeva**: Göyərçinlər indi uçmalıdır. Çəkin şəkilini.

**Kişi sakin:** Cənab Prezident, mən bu kənddə doğulmuşam amma burada olmamışam.

**Prezident İlham Əliyev:** Gələn ilin əvvəlində, inşallah, bir də görüşəcəyik, Ağalı kəndinin bütün camaatı ilə.

**X X X**

Sonda xatirə şəkilləri çəkdirildi.

**X X X**

Daha sonra Prezident İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının təməlini qoydu.

Şübhəsiz ki, bu hava limanı bölgənin inkişafında mühüm rol oynayacaq.

**Prezident İlham Əliyev** çıxış edərək dedi:

-Bu gün Zəngilan Beynəlxalq Hava Limanının təməl daşını qoyduq. Yaxın gələcəkdə Zəngilanda beynəlxalq hava limanı inşa ediləcək. Bu hava limanının uçuş-enmə zolağı üç kilometrə bərabər olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etməyə qadir olacaq.

Azad edilmiş torpaqlarda ikinci hava limanının tikintisinə start verilibdir. Artıq Füzuli Beynəlxalq Hava Limanının tikintisi uğurla gedir. Bu il Füzuli hava limanının uçuş-enmə zolağı istismara veriləcəkdir. Beləliklə, biz bu il ilk təyyarələri Füzulidə qəbul edə biləcəyik.

Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır. Təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır.

Zəngilanda bu gün birinci kənd layihəsi artıq icra edilməyə başlamışdır. Ağalı kəndinin təməl daşı qoyulmuşdur. Bu, böyük qayıdışın birinci addımıdır. Biz müharibədən bir neçə ay keçəndən sonra artıq bu işlərə də start verdik. İnfrastruktur işləri öz qaydasında davam edir. İndi birinci "ağıllı kənd" layihəsi olan Ağalı kəndinin bərpasına start verilib. Ağalı kəndi, əslində, üç kənd – Birinci, İkinci, Üçüncü Ağalı kəndləri oktyabrın 28-də işğalçılardan azad edilmişdir. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu və bu nümunəvi kənd olacaq. Çünki bu kənddə tətbiq olunacaq texnologiyalar ən müasir standartlara cavab verir. Həm tikiləcək evlər, ictimai binalar, sosial obyektlər, həm də iş yerləri, əkin sahələri müəyyən edilibdir. Zəngilanın bütövlükdə təbiəti və təbii sərvətləri bu rayonu Azərbaycanın ən qabaqcıl rayonlarının birinə çevirmək üçün imkanlar verəcəkdir.

Böyük qayıdış başlayıb. Bu gün burada təməl daşını qoyduğum hava limanı dövlətimizin gücünü göstərir. Bir qədər bundan aralıda yeni Horadiz-Zəngilan avtomagistral yolunun təməli də qoyulacaq. Mövcud yola paralel olan 4-6 zolaqlı bu yol geniş imkanlar açacaq. Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu layihələrin çox böyük əhəmiyyəti vardır. Bu hadisə münasibətilə zəngilanlıları və bütün Azərbaycan xalqını təbrik edirəm.

**X X X**

Sonra Prezident İlham Əliyev Zəngilan-Horadiz avtomobil yolunun təməlini qoydu.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə dövlətimizin başçısının tapşırığı ilə artıq bir neçə yol layihəsinin icrasına başlanılıb və uğurla davam etdirilir. Bu layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. Bu baxımdan Zəngilan-Horadiz avtomobil yolu da strateji əhəmiyyəti ilə seçilir. Yolun ümumi uzunluğu 124 kilometrdir və 6 zolaqdan ibarət olacaq.

**X X X**

**Prezident İlham Əliyev:** Zəngilan rayonunun təbiəti çox gözəldir. Yaşıl dağlar, meşələr, çaylar. Cənnət kimi bir yerdir. Zəngilanı biz cənnətə çevirəcəyik. Adam baxdıqca baxmaq istəyir. Hər tərəf yaşıllıq. Gözəl təbiət. Baxın, gözəl çay.

**Birinci xanım Mehriban Əliyeva**: Hansı çaydır bu?

**Prezident İlham Əliyev**: Oxçu çayı olmalıdır. Oxçu çay, Bəsit çay. Onu biz dəqiqləşdirərik. Burada çox güman ki, yarımstansiya inşa edilir. Polis məntəqəsi. Toxunulmamış təbiətdir. Gözəl mənzərə açılır. Əsas məsələ odur ki, şəhərlər, kəndlər bərpa olunarkən bu təbiətə toxunulmasın. Çox ciddi nəzarət olmalıdır ki, bizim təbiətimizə ziyan vurulmasın. Baxmayaraq ki, ermənilər bizim təbiətimizə də qəsd etdilər. 54 min hektar meşə zolaqlarını məhv etdilər. Kəsib aparıb satdılar. Amma biz bütün meşələri bərpa edəcəyik.

**Birinci xanım Mehriban Əliyeva:** Bu, çinar ağaclarıdır?

**Prezident İlham Əliyev:** Bəli, çinar ağacıdır. Bu isə Bəsitçaydır. Zəngilanın gözəl təbiətinin bir hissəsi. Bəsitçay və qədim çinar ağacı. Gözəl Azərbaycanın gözəl təbiəti. Bu torpaqları biz qaytarmışıq, düşmənin əlindən almışıq. Bundan sonra Azərbaycan xalqı əbədi bu torpaqlarda yaşayacaq. Qarabağ Azərbaycandır!.

**X X X**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Heydər Əliyev Fondu tərəfindən bərpa olunacaq Zəngilan məscidinə gəldilər.

**Memar**: Xoş gəlmisiniz, cənab Prezident,

**Prezident İlham Əliyev:** Salam. Məlumat ver, hansı işlər görülür?

**Memar:** Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına uyğun olaraq, Fond tərəfindən təşkil olunan həm xarici, həm yerli ekspertlərdən ibarət olan komissiya məscidin mövcud binasını qiymətləndirmişdir. Həmçinin bir şeyi də qeyd etmək istəyirəm ki, məşhur Otelye Kummer Agentliyinin nümayəndələri buraya qısamüddətli missiya ilə gəlmişlər və mövcud binanı qiymətləndirmişlər. Hazırda bizim tərəfimizdən mövcud binanın konservasiyası və bərpası ilə bağlı təkliflər hazırlanır, o cümlədən, bu ərazidə yeni məscidin tikilməsi ilə bağlı təkliflərimizi və layihəni hazırlamışıq.

**Prezident İlham Əliyev:** Yenidən, yoxsa qiymətləndirmə nə göstərir? Daşlar belə salamat daşlardır.

**Memar:** Biz təklif edərdik ki, daha geniş ərazidə yeni məscid tikilsin. Burada ümumi ərazi 50 sota yaxındır, cənab Prezident. Bu köhnə bina konservasiya olunandan sonra həmin məscid-kompleksin içində qalsın.

**Prezident İlham Əliyev**: Baxın, ola bilər ki, əgər bu daşlar, divarlar belə sağlamdırsa, bəlkə bunun üstünü bağlamaq, onu da etmək olar. Təkliflər hazır olanda.

**Birinci xanım Mehriban Əliyeva:** Balaca məscid olub, yəqin ki, balaca da olmalıdır.

**Prezident İlham Əliyev**: Balaca, özü də birmərtəbəli olub, kümbəz o qədər də böyük olmayıb.

**Birinci xanım Mehriban Əliyeva:** Minarəsi də olmayıb.

**Memar:** 1988-ci ildə, sovet dönəmində həmin bina qiymətləndirilib.

**Prezident İlham Əliyev:** Şəkili olub? Yoxsa tapılmadı?

**Memar**: Sxemləri var.

**Prezident İlham Əliyev:** Sxemləri var o vaxtdan?

**Memar:** Bəli. 1988-ci ilin məlumatlarıdır.

**Prezident İlham Əliyev:** Belə olub. Faktiki olaraq bunun bir divarını və dam örtüyünü uçurublar. Üst divar qalıb.

**Birinci xanım Mehriban Əliyeva:** Onlar təkliflərdir?

**Memar**: İlkin təkliflərdir.

**Prezident İlham Əliyev:** Elə bu daşdan tikilib.

**Birinci xanım Mehriban Əliyeva**: Həmin daşdan, içərisi də belə olmuşdu. Təkliflərdə o əski divarlar içində qalır?

**Memar:** Bəli, kompleks kimi yaradılır.

**Prezident İlham Əliyev**: Bu divarlar içində qalır.

**Memar**: Bu, əlavə tikili idi. Sonradan tikilib, sovet dönəmində, 1930-cu illərdə.

**Prezident İlham Əliyev:** Əsas bina orada olub?

**Memar:** Bəli, burada məktəb olub, sonra təsərrüfat məqsədləri ilə o binadan istifadə ediblər.

**Prezident İlham Əliyev:** Necə olub, elə də bərpa etmək lazımdır.

**X X X**

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva üzərində "Zəngilan məscidinin təməli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 26 aprel 2021-ci il tarixində qoyulmuşdur" sözləri yazılmış xatirə daşını məscidin divarına hördülər.

**Prezident İlham Əliyev** dedi:

- Zəngilan məscidi bərpa ediləcək. Bu məscid mənfur düşmən tərəfindən dağıdılmışdır. Müharibədən sonra Zəngilana səfər edərkən buraya da gəldim, mənzərə ilə tanış oldum və bildirdim ki, hər kəs bunu görməlidir. Bütün beynəlxalq təşkilatlar bunu görməlidir, erməni vəhşiliyini görməlidir. Bir daha demək istəyirəm ki, bu gün ermənilərə havadarlıq edənlər gəlsinlər, görsünlər, bizim məscidlərimizi nə günə qoyublar və təkcə bu məscidi deyil. Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb.

Zəngilan rayonunda yarıdağıdılmış bəzi məscidlərdən tövlə kimi istifadə olunub, orada donuz saxlanılıb. Bu videokadrlar var. Ağdam məscidində donuz saxlanılıb və bu, bütün müsəlman aləminə qarşı cinayətdir, İslam dininə qarşı cinayətdir. Bütün müsəlman dövlətləri bunu görməlidir və biz bu həqiqətləri bütün müsəlman ölkələrinin rəhbərlərinin diqqətinə çatdırırıq. Azad edilmiş torpaqlara bu gün gələn xarici qonaqlar erməni vəhşiliyini öz gözləri ilə görürlər. Bu yaxınlarda Azərbaycanda səfərdə olmuş İslam Əməkdaşlıq Təşkilatının Baş katibi öz etiraz səsini ucaltmışdır. ICESCO-nun Baş katibi azad edilmiş torpaqlarda olub, dağıdılmış Ağdam məscidini görüb və erməni vəhşiliyi haqqında artıq bütün müsəlman ölkələrini məlumatlandırır. Biz də bu işdə fəal olmalıyıq. Bütün dövlət qurumlarına göstəriş verildi, ictimai təşkilatlardan xahiş edildi ki, bütün beynəlxalq qurumlarda erməni vəhşiliyi haqqında məlumatlar verilsin - faktlarla, sübutlarla, şəkillərlə.

Ermənilər tərəfindən dağıdılmış və təhqir edilmiş bütün dini məbədlərimizin əvvəlki görüntüləri və işğaldan sonrakı görüntüləri tərtib edilir və dünya birliyinin diqqətinə çatdırılır. Bu gün ermənilərin mədəni irsi ilə əlaqədar öz narahatlığını ifadə edən bəzi xarici nümayəndələr, bax, bunu görsünlər, Zəngilan məscidinin qalıqlarını görsünlər, Şuşa məscidlərinin qalıqlarını görsünlər və görsünlər ki, Ermənistan dövləti bizə qarşı mədəni soyqırımı da törədib.

Biz isə bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik. Şuşa şəhərində artıq məscidlərin bərpasına start verilib. Ağdam Cümə məscidinin bərpası ilə əlaqədar hazırlıq işləri gedir. Bu gün Zəngilan şəhərində yerləşən məscidin yenidən bərpası, konservasiyası işlərinə start verilir.

**X X X**

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Mincivan qəsəbəsinə yola düşdülər.

**Prezident İlham Əliyev**: Biz gedirik Mincivan qəsəbəsinə. Mincivan qəsəbəsi qədim yaşayış məntəqəsidir.

Orada dəmir yolu stansiyası var idi. Birinci Qarabağ müharibəsindən sonra ermənilər bütün dəmir yolunu söküb aparmışlar. O relslərin bir hissəsini satmışdılar, bir hissəsindən isə tank əleyhinə istehkamlar qurmuşdular. Biz indi yenidən dəmir yolunu çəkəcəyik. Bu işlərə start verildi. Mən bir müddət əvvəl Horadiz qəsəbəsində Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoydum. Bu dəmir yolu Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcəkdir. Əslində, Zəngilan rayonu coğrafi baxımdan Şərqi Zəngəzur mahalında yerləşir və Şərqi Zəngəzuru Qərbi Zəngəzurla birləşdirib Naxçıvana dəmir yolu açacağıq və həmçinin avtomobil yolu açılmalıdır.

Buranın da çox gözəl təbiəti vardır - uca dağlar, meşələr. Burada da şiddətli döyüşlər gedib, düşməni sərhədə qədər qovmuşuq, şəhidlər vermişik. Ağbənd qəsəbəsini - Ermənistan sərhədinə yaxın yerləşən o qəsəbəni azad edərək düz Ermənistan sərhədinə çıxdıq. İndi bu sərhəddə möhkəmlənirik, burada da sərhəd zastavası fəaliyyət göstərir. Bütün sərhədimizi bərpa etmişik.

Dövlətimizin başçısı erməni işğalçıların viran qoyduğu Mincivan dəmir yolu stansiyasının binasının yerləşdiyi əraziyə gəldi.

**Prezident İlham Əliyev** dedi:

-Bura Mincivan dəmir yolu vağzalı olub. Mənfur düşmən bu binanı da yerlə-yeksan edib, dağıdıb, dəmir yolunu söküb, relsləri aparıb, satıb, əridib və tank əleyhinə istehkamların quraşdırılması üçün istifadə edib. Bu bina erməni faşizminin növbəti qurbanıdır, növbəti şahididir. Ermənilər bütün binalarımızı - ictimai binaları, evləri, məscidləri, muzeyləri dağıdıblar, söküblər, talayıblar, daşları oğurlayıb aparıblar, özləri üçün evlər tikiblər.

Biz onları buradan qovduq. Burada şiddətli döyüşlər gedib. Mincivan qəsəbəsi uğrunda şiddətli döyüşlər gedirdi. Bizim Silahlı Qüvvələrimiz burada böyük qəhrəmanlıq göstərdi, düşməni buradan qovdu və Mincivan qəsəbəsini azad etdi. Bundan sonra Ermənistan sərhədinə qədər, Ağbənd qəsəbəsinə qədər uğurla irəliləyərək düşməni torpağımızdan çıxartdı. İndi dəmir yolu yenidən qurulacaq, vağzal da, həmçinin. Dəmir yolunun yenidən qurulması prosesinə start verildi. Horadizdən Ağbəndə qədər dəmir yolu çəkiləcək. Ondan sonra Zəngəzur dəhlizi ilə dəmir yolu Naxçıvan Muxtar Respublikasına qədər uzadılacaq. Zəngilan coğrafi nöqteyi-nəzərdən Şərqi Zəngəzur bölgəsinə aiddir və Şərqi Zəngəzurda yerləşir. Qərbi Zəngəzur da bizim tarixi torpaqlarımızdır və o torpaqlardan Zəngəzur dəhlizi keçəcəkdir. Beləliklə, Azərbaycanın əsas hissəsi Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu vasitəsilə birləşəcək.

**AZƏRTAC**
**2021, 27 aprel**

**Prezident İlham Əliyev: Ağalı kəndinin təməl daşının qoyulması böyük qayıdışın birinci addımıdır**

Zəngilanda bu gün birinci kənd layihəsinin icra edilməyə başlaması, Ağalı kəndinin təməl daşının qoyulması böyük qayıdışın birinci addımıdır. İnfrastruktur işləri öz qaydasında davam edir. İndi birinci "ağıllı kənd" layihəsi olan Ağalı kəndinin bərpasına start verilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının təməlqoyma mərasimində çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, Ağalı kəndi oktyabrın 28-də işğalçılardan azad olundu və altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Bu, nümunəvi kənd olacaq, çünki bu kənddə tətbiq olunacaq texnologiyalar ən müasir standartlara cavab verir. Həm tikiləcək evlər, ictimai binalar, sosial obyektlər, həm də iş yerləri, əkin sahələri müəyyən edilib. Zəngilanın bütövlükdə təbiəti və təbii sərvətləri bu rayonu Azərbaycanın ən qabaqcıl rayonlarının birinə çevirməyə imkan verəcək.

"Böyük qayıdış başlayıb. Bu gün burada təməl daşını qoyduğum hava limanı dövlətimizin gücünü göstərir. Bir qədər bundan aralıda yeni Horadiz-Zəngilan avtomagistral yolunun təməli də qoyulacaq. Mövcud yola paralel olan 4-6 zolaqlı bu yol geniş imkanlar açacaq. Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu layihələrin çox böyük əhəmiyyəti vardır. Bu hadisə münasibətilə zəngilanlıları və bütün Azərbaycan xalqını təbrik edirəm", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

**AZƏRTAC**
**2021, 27 aprel**

**Türkiyə mediası Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfərini geniş işıqlandırıb**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyevanın aprelin 26-da Cəbrayıl və Zəngilan rayonlarına səfəri Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, “Haber global”, “TRT Haber”, “TRT Avaz” telekanalları, “Sabah”, STAR və digər qəzetləri Prezident İlham Əliyevin Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirakı, buradakı hərbi arsenal, o cümlədən avtomobil və avadanlıqlarla tanış olması, hərbi qulluqçular ilə görüşü və çıxışı, bölgədə yeni təməlqoyma mərasimlərində iştirakı, bərpa işləri ilə tanışlığı, vətəndaşlarla söhbəti və səfərin digər mühüm məqamları barədə materialları video və fotoların müşayiəti ilə təqdim ediblər.

Bir sıra materiallarda AZƏRTAC-ın fotolarından da istifadə olunub.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Ankara***

**AZƏRTAC**
**2021, 28 aprel**

## Füzuli və Zəngilan rayonlarında basdırılan minalara dair xəritələr Azərbaycana təqdim edilib

Ermənistan işğal dövründə Füzuli və Zəngilan rayonlarında basdırdığı təqribən tank və piyada əleyhinə 92 min minaya dair xəritələri iyulun 3-də Rusiya Federasiyasının təşəbbüsü ilə Azərbaycan tərəfinə təqdim edib.

Mina xəritələrinin alınması üzrə humanitar təşəbbüsün həyata keçirilməsində göstərdiyi vasitəçilik xidmətlərinə görə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin komandanı Rüstəm Muradova təşəkkürümüzü ifadə edirik.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mina xəritələrinin əldə edilməsi on minlərlə vətəndaşımızın, o cümlədən minatəmizləyənlərin həyatını təhlükədən xilas edəcək və işğaldan azad edilmiş ərazilərimizdə Prezident İlham Əliyev tərəfindən əsası qoyulan tikinti və yenidənqurma layihələrini və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirəcək.

Humanist addım olaraq Azərbaycan tərəfi məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilmiş və təyin edilmiş cəza müddəti bitmiş 15 nəfər erməni əsilli şəxsi Ermənistana təhvil verib.

**AZƏRTAC**
**2021, 3 iyul**

**Vüqar Rəhimzadə: Füzuli, Zəngilan, Laçın Beynəlxalq Hava limanlarının inşa edilməsi və istismara verilməsi regionun inkişafı üçün strateji əhəmiyyətə malikdir**

Ötən ilin noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından dərhal sonra işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinə start verildi. Öncə diqqət yetirilən əsas məsələlərdən biri infrastrukturun yenilənməsi və bərpası oldu. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin cari ilin yanvarında Qarabağın tacı olan Şuşamıza səfəri çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının təməli qoyulmuşdur. Bu addımı azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihə kimi dəyərləndirən ölkə Prezidenti uçuş-enmə zolağının cari ildə istifadəyə veriləcəyini bildirmişdir. Artıq eniş-uçuş zolağı hazır olan Füzuli Beynəlxalq Hava Limanında ilk sınaq uçuşu həyata keçirilib.

Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Füzuli Beynəlxalq Hava Limanı regionda ən qısa zamanda inşa edilən aeroportlardan biridir: "Cari ilin əvvəlində təməli qoyulan hava limanında artıq növbəti ay ilk uçuşların həyata keçirilməsi nəzərdə tutulur. Digər iki hava limanı isə Zəngilanda və Laçında inşa ediləcək. Prezident İlham Əliyev hər iki hava limanının təməlqoyma mərasimində iştirak edib. Atılan bu addımlar artıq Böyük Qayıdışın başlandığının təsdiqidir. Ölkə Prezidenti İlham Əliyev bu əminliyi ifadə edir ki, necə düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik. Qarabağ Azərbaycandır!"

Baş redaktor bildirib ki, işğaldan azad olunan ərazilərdə 3 hava limanının fəaliyyət göstərməsi iqtisadi baxımdan kifayət qədər səmərəli olacaq: "Qeyd etdiyimiz kimi, Füzuli Hava Limanı Qarabağa getmək istəyən yerli və xarici turistlər üçün cəlbedici olacaq. Bu hava limanı Zəfər Yoluna, Zəngilan Hava Limanı Zəngəzur dəhlizinə, Zəngəzur dəhlizinin də Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya olunacağı nəzərə alınaraq həm sərnişin, həm də beynəlxalq yük daşımaları baxımından Zəngilanda da hava limanına ehtiyacın olduğu önə çəkildi. İşğaldan azad edilmiş ərazilərimiz öz potensial imkanları ilə diqqətdədir. İnfrastrukturun beynəlxalq standartlara uyğunlaşdırılması, yenidən bərpası bu potensialdan səmərəli istifadəyə geniş imkanlar açacaq. Eyni zamanda, bu fakt da inkaredilməzdir ki, işğaldan azad edilmiş torpaqlarımız yerli və xarici turistlər üçün diqqətçəkəndir. Bu ərazilərimizdə üç Beynəlxalq Hava Limanının fəaliyyət göstərməsi qət olunacaq məsafənin azaldılmasına, bununla, həmçinin turist axınının sürətləndirilməsinə də öz böyük təsirini göstərəcək".

Baş redaktor üçüncü hava limanının Laçında inşa edilməsinin vacibliyini də diqqətə çatdırıb: "Laçının strateji əhəmiyyətini nəzərə aldıqda beynəlxalq standartlara uyğun infrastrukturun formalaşdırılması çox vacib idi. İnşa edilən hava limanlarının hər birinin bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanında olmaları onların strateji əhəmiyyətini göstərən amillərdəndir. Dövlət başçısı İlham Əliyev Kəlbəcər və Laçın rayonlarına səfəri çərçivəsində Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilərkən bu məqamı da xüsusi qeyd edib ki, Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Seçilən yerdə yenə də böyük torpaq işlərini aparmaqla hava limanının tikintisi mümkündür. Dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir".

V.Rəhimzadə vurğulayıb ki, azad edilmiş bölgələrin-Şərqi Zəngəzurun, Qarabağın bərpası, vətəndaşlarımızın bu regiona qayıtmaları üçün yeni imkanlar yaranır: "Kəlbəcər-Laçın zonasında hava limanının tikintisi çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Dövlət başçısı "Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir" söyləyərək bu işlərin görülməsi üçün texniki, maliyyə imkanlarımızın və güclü iradəmizin mövcudluğunu bir daha diqqətə çatdırır. Bir sözlə, Füzuli, Zəngilan, Laçın Beynəlxalq Hava limanlarının inşa edilməsi və istismara verilməsi regionun inkişafı üçün strateji əhəmiyyətə malikdir".

**AZƏRTAC**
**2021, 24 avqust**

**Prezident İlham Əliyev: Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır**

Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

Dövlətimizin başçısı deyib ki, uzun illər həm torpaqlarımızı azad etmək üçün ordumuzu gücləndirmişik, həm postmüharibə dövründə quruculuq, bərpa işlərini görmək üçün texniki imkanlar, intellektual potensial, kadr potensialı və maliyyə resursları yaratmışıq.

**AZƏRTAC**
**2021, 17 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda səfərdə olublar**
**Rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanışlıq**
*(20 oktyabr 2021-ci il)*

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda səfərdə olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış oldular. İlk "Ağıllı kənd" layihəsinin təməli 2021-ci ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulub.

Kənd təsərrüfatı naziri İnam Kərimov məlumat verdi ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Kənddə yaradılacaq "Ağıllı məktəb"də distant təhsilin aparılması üçün bütün imkanlar olacaq. Yeraltı kommunikasiya işlərindən içməli su, çirkab və sel suları xətlərinin qazma işlərinə başlanılıb. Park meydanında nəzərdə tutulmuş fəvvarənin ərazisində abadlıq işləri yekunlaşıb. Fəvvarədə quraşdırılacaq memarlıq abidəsi hazırlıq mərhələsindədir. Burada müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait olacaq.

Onu da qeyd edək ki, burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Bundan əlavə, "Ağıllı kənd" layihəsi üçün əkin planı hazırlanıb. Planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilib və əkin üçün hazırlığa başlanılıb. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. "Ağıllı kənd"də kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması nəzərdə tutulur. Fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq. Burada "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək.

**AZƏRTAC**
**2021, 21 oktyabr**

**Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanışlıq**
*(20 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "AzVirt" MMC-nin baş direktoru Kamil Əliyev dövlətimizin başçısına və birinci xanıma hava limanında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, uçuş-enmə zolağının uzunluğu 3 min metr olan hava limanında tikinti işlərinə bu ilin may ayında başlanılıb. Zəngilan Hava Limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq.

Qeyd edək ki, rayonun coğrafi yerləşməsi və burada olan imkanlar Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün əlverişli şərait yaradır. Bundan əlavə, bu hava limanı Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafında böyük rol oynayacaq. Tikinti işlərinin 2022-ci ildə tamamlanması planlaşdırılır.

**AZƏRTAC**
**2021, 21 oktyabr**

**Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonundakı hərbi hissə kompleksində şəxsi heyət üçün bütün zəruri şərait yaradılıb**

*(20 oktyabr 2021-ci il)*

Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleks barədə məlumat verdi.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad olunmuş ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Dövlət Sərhəd Xidmətinin Azərbaycan Respublikasının İran və Ermənistanla dövlət sərhədlərinin Zəngilan rayonu ərazisindən keçən hissələrinin mühafizəsini həyata keçirən yeni hərbi hissə kompleksi 15 hektar ərazini əhatə edir. Buraya qərargah binası və əsgər yataqxanası, şəxsi heyətin xidmətinin yüksək səviyyədə aparılması üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları, yeməkxana və digər tikililər daxildir. Kompleksdə hərbi hissənin təyinatına uyğun xidməti-döyüş fəaliyyətinin təşkilinə, hərbi qulluqçuların peşəkar və döyüş qabiliyyətlərinin yüksəldilməsinə, şəxsi heyətin hərbi biliklərinin və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsinə imkan verən zəruri şərait yaradılıb.

Dövlətimizin başçısına hərbi hissənin xidməti istifadəsində olan zirehli döyüş maşınları, atıcı silahlar, qumbaraatanlar, iriçaplı pulemyotlar, zenit qurğuları və digər texniki vasitələr təqdim olundu. 44 günlük Vətən müharibəsi zamanı Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də torpaqlarımızın işğaldan azad olunmasında, dövlət sərhədinin bərpası kimi çox mühüm və müqəddəs bir missiyanın uğurla həyata keçirilməsində böyük şücaət və qəhrəmanlıq göstərib. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr vurub və işğalçıları torpaqlarımızdan qovub.

**AZƏRTAC**
**2021, 21 oktyabr**

**Prezident İlham Əliyev Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın təməlini qoyub**
*(20 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın təməlqoyma mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına və birinci xanıma Zəngilanda tikiləcək Rəqəmsal Yarımstansiya və rayonun elektrik təchizatı sxemi barədə məlumat verdi. Bildirildi ki, 35/10 kV-luq 240 kilometrlik və 0.4 kV-luq 1050 kilometrlik elektrik veriliş xətti tamamilə yenidən qurulacaq. Ənənəvi təchizat sxemindən fərqli olaraq, yeni struktur şəbəkə iqtisadi baxımdan daha səmərəlidir. Yeni qurulacaq şəbəkədə "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrinin infrastrukturu üçün bütün imkanlar mövcud olacaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamında qarşıya qoyulan vəzifələrin icrası məqsədilə "Azərişıq" ASC tərəfindən Paylayıcı Şəbəkələrin Yaşıl Enerji Zonası tələbləri üzərində qurulmasına start verilib, "Ağıllı şəbəkələr" konsepsiyasının təməl elementlərindən biri olan Rəqəmsal Yarımstansiya layihəsi işlənib hazırlanıb. Bu cür yarımstansiyalar elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayır, emal edir, avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edir. Nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsi olan bu yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanması təmin edilir, bütün ölçülər yüksək dəqiqliklə aparılır. Avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri minimuma endirməyə imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır. Rəqəmsal yarımstansiyalarda iş alınan və ötürülən elektrik enerjisinin miqdarına görə multifunksional rejimdə qurulur, cihaz və avadanlıqlar bir-birilə koordinasiya vəziyyətində işləyir, əməliyyatlar paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılır, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyəti təmin edilir. Ən əsası, "Yaşıl enerji" mənbələri şəbəkəyə inteqrasiya olunur. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. İstehlakçılar yarana biləcək texniki fasilə barədə məlumatı onlayn qaydada əvvəlcədən alır.

Diqqətə çatdırıldı ki, Kəlbəcərdə hərbi hissələri elektrik enerjisi ilə təchiz etmək üçün 132 kilometrlik yeni xətt çəkiləcək, 42 kilometrlik xətt isə bərpa olunacaq. Hazırda bu istiqamətdə işlər davam edir.

Prezident İlham Əliyev Rəqəmsal Yarımstansiyanın təməlini qoydu.

**AZƏRTAC**
**2021, 21 oktyabr**

**“Azərenerji” ASC-nin 110/35/10 kV-luq “Zəngilan” yarımstansiyası istifadəyə verilib**
*(20 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də “Azərenerji” ASC-nin 110/35/10 kV-luq “Zəngilan” yarımstansiyasının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yarımstansiya barədə məlumat verdi.

Bildirildi ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi Zəngilan rayonunun elektrik enerjisi ilə təchiz edilməsi üçün “Azərenerji” ASC tərəfindən genişmiqyaslı işlər həyata keçirilib. Elektroenergetika infrastrukturu tamamilə dağıdılmış Zəngilan rayonuna Füzulidəki “Şükürbəyli” yarımstansiyasından ümumi uzunluğu 110 kilometr olan ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yarımstansiya binası müasir avadanlıqla təchiz olunub, 25 MVA gücündə 2 transformator quraşdırılıb. Gələcəkdə şəbəkənin genişləndirilməsi nəzərə alınaraq lazımi infrastruktur yaradılıb. Burada mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub ki, bu da yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunmasına və göstəricilərin “Azərenerji” ASC-nin SCADA sisteminə ötürülməsinə imkan verir.

Qeyd edək ki, işğala qədər 40 min nəfərdən çox əhalisi olan Zəngilan rayonunun ümumi enerji tələbatı orta hesabla 7 MVt olub. Hazırda ərazisində hava limanı, qızıl, mis yataqları, dağ-eko, aqro və mədəni turizm, “Ağıllı şəhər”, “Ağıllı kənd” də daxil olmaqla qeyri-əhali abonentlərin və 50 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Zəngilanda 2040-cı il üçün elektrik enerjisi tələbatının 40 MVt-dan artıq olacağı gözlənilir. Məhz bu səbəbdən də Zəngilan rayonunun və ümumilikdə Şərqi Zəngəzur iqtisadi rayonunun gələcək inkişaf istiqamətləri nəzərə alınaraq artacaq güc tələbatlarının qarşılanması məqsədilə yeni çəkilən 110 kV-luq ikidövrəli elektrik verilişi xəttinin gücötürmə qabiliyyəti 150-160 MVt-dır. “Zəngilan” yarımstansiyası, ilk növbədə, Zəngilan rayonunda yerləşən hərbi hissələri, sərhəd xidmətinin obyektlərini, bir sıra infrastruktur layihələri həyata keçirən müxtəlif dövlət strukturlarının, yol-tikinti şirkətlərinin obyektlərini elektrik enerjisi ilə təmin edəcək.

Prezident İlham Əliyev “Zəngilan” yarımstansiyasını işə saldı.

**AZƏRTAC**
**2021, 21 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan ictimaiyyətinin nümayəndələri ilə görüşüblər**
*(20 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, rayon ictimaiyyətinin nümayəndələrini salamlayan **Prezident İlham Əliyev dedi**: Xoş gəlmisiniz Zəngilana. Uzun fasilədən sonra – 27 il erməni işğalından sonra artıq Zəngilan Vətənə qayıtdı, qaytardıq. Şanlı Ordumuz qəhrəmanlıq göstərərək Zəngilan şəhərini və bir neçə kəndi məhz düz bir il bundan əvvəl işğalçılardan azad etdi və beləliklə, 27 illik işğala son qoyuldu. İndi mən "Xoş gəlmisiniz" deyirəm, çünki mən sizi dəvət etmişəm ki, bu gözəl tarixi birlikdə burada qeyd edək. Amma bundan sonra mən Zəngilana gələndə zəngilanlılar "Xoş gəlmisiniz" deyəcəklər.

**Milli Məclisin deputatı İmamverdi İsmayılov**: Cənab Prezident, sağ olun. Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, icazə versəydiniz, Sizi qədim Zəngəzurumuzun bu dilbər guşəsi olan Zəngilanda salamlayardıq. Siz bizi artıq məcburi köçkünlükdən çıxarmısınız. Zəngilan çox bərəkətli torpağa malik olan bir diyardır, gözəl meşələri, təbii sərvətləri, filiz yataqları, çayları və dünyada ikinci, Avropada birinci olan təbii çinar meşələri - saymaqla qurtaran deyil. Amma cənab Prezident, vaxt var idi ki, biz gəlirdik Horadizə, sonra da Cocuq Mərcanlıya, oradan həsrətlə boylanırdıq öz yurdumuza. Amma taleyin hökmünə bax, dünən ayağımızla gələ bilmədiyimiz, maşınımızla gələ bilmədiyimiz diyarımıza indi hətta müasir hava limanı olan təyyarələrimizlə gələ bilirik. Çox sağ olun, var olun. Arzularımızdan Qarabağdakı reallığa gəldik. Gördüklərimiz düşüncələrimizi çox geridə qoyub. Bu gün ulu öndərimiz, böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin ruhu şaddır. Çünki zəngilanlılar Heydər Əliyevin xilaskarlıq missiyasını heç vaxt unutmurlar və unutmayacaqlar. Əgər o, böyük tarixi şəxsiyyət olmasaydı, 1993-cü ildə zəngilanlılar özünü Araza vurar, yolları hər yerdən bağlanmış və Araza qərq olmuş camaat növbəti Xocalı sakinlərinin taleyini yaşayacaqdı. İndi taleyin ədalətli məntiqinə baxın. Heydər Əliyev zəngilanlıların xilaskarı oldu, Siz isə Zəngilanın xilaskarı oldunuz.

**Prezident İlham Əliyev**: Sağ olun. Zəngilan doğrudan da çox füsunkar təbiətə malik olan bir diyardır. Mən ilk dəfə Zəngilana keçən ilin sonlarında gəldim, dekabr ayında və o vaxt heyran oldum bu diyara. Əzəmətli dağlar, yaşıl meşələr, çaylar, iqlim - bura doğrudan da Azərbaycanın ən gözəl yerlərindən biridir və məqsədimiz də odur ki, Zəngilanı yenidən quraq. Çünki köhnə Zəngilandan bir şey qalmayıb. Siz indi görürsünüz, mənfur düşmən demək olar ki, bütün binaları dağıtmışdır. Bir neçə bina qalıb ki, orada hərbçilər yerləşirdi. Qalan bütün binaları, bütün kəndlərin binalarını bir məqsədlə dağıtmışlar ki, biz buraya qayıtmayaq. Amma biz qayıtmışıq, şanlı Ordumuz düz bir il bundan əvvəl Azərbaycan bayrağını Zəngilanda qaldırdı və düşməni bu torpaqlardan qovdu. Zəngilan azad olunandan sonra artıq yolumuz Qubadlıya açıldı və beş gün sonra Qubadlı azad olundu, ondan sonra da Laçın dəhlizinə çıxdıq. Laçın dəhlizinə çıxdıqda demək olar, düşmən də bildi ki, artıq müqavimət göstərməyin mənası qalmayıb.

Amma indi Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Bir xarici şirkət müsabiqədə qalib gəldi və hesab edirəm ki, yaxın aylarda baş plan təqdim ediləcək. Bütün bu təbii gözəllik nəzərə alınaraq müasir, çox gözəl bir şəhər qurulacaq, həmçinin də kəndlər. Siz də bilirsiniz ki, azad edilmiş bütün torpaqlarda birinci "Ağıllı kənd" layihəsi məhz Zəngilan rayonunda həyata keçirildi.

Aprel ayında Ağalı kəndinin təməli qoyuldu. Bu gün mən buraya gəlməzdən əvvəl işin gedişatı ilə tanış oldum. Artıq bəzi binalar hazırdır və çalışacağıq ki, gələn ilin əvvəli, bəlkə də bu ilin sonu zəngilanlıları Zəngilana köçürməyə başlayaq.

**Sakin:** Cənab Prezident, dünyanın bir çox aparıcı dövlətləri indi Azərbaycanın hərb modelini öyrənir. Özü də o model ki, Zəfər tarixi modelidir və dərsliyə düşüb. Siz Qarabağın və Zəngəzurun xilaskarı, Ali Baş Komandan kimi Azərbaycan dövlətini də, Azərbaycan Ordusunu da, Azərbaycan xalqını da müzəffər edən tarixi şəxsiyyət olaraq öz adınızı tarixə qızıl hərflərlə yazdırdınız.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** İyirmi birinci əsrdə indiyədək görünməmiş tarixi möcüzə yaratdınız. Bu Qələbənin müəllifi, memarı özünüzsünüz. Ona görə də biz hamımız, bütün Azərbaycan xalqı Sizi çox istəyir və qəlbən sevir.

**Prezident İlham Əliyev**: Sağ olun. Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu. Birinci sırada gedən məhz o uşaqlar idi ki, işğaldan sonra dünyaya gəliblər və bəlkə də işğal

dövründə onların 5-10 yaşı var idi. Yəni, bu, onu göstərir ki, xalqımız müqəddəs Zəfər gününü gözləyirdi, bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq, bu günü gözləyirdi və inanırdı ki, bu gün gələcək və biz də, sadəcə olaraq, bütün xalqımızı səfərbər etmək, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək üçün səylər göstərdik. Əlbəttə ki, ordumuzu gücləndirdik, iqtisadiyyatı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq, tarixi ədalətə nail olduq. Bu gün sizinlə bərabər buradayıq. Mən dördüncü dəfədir ki, Zəngilana gəlirəm. Dekabr ayında gəlmişdim, o vaxt vəziyyətlə tanış olduq. Ondan sonra fevral ayında gəlmişdim, o vaxt ermənilər tərəfindən bir çox hissəsi dağıdılmış Bəsitçay qoruğunda çinar ağacları əkdik. Aprel ayında gələndə hava limanının təməli qoyuldu. İndi oraya baş çəkdim, artıq zolağın torpaq işləri hazırlanır. Bilirsiniz ki, sovet vaxtında Zəngilanda hava limanı yox idi. Amma indi nəinki hava limanı, beynəlxalq hava limanı olacaq və Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək. Çünki Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Birinci mərhələdə Ermənistan tərəfi müqavimət göstərsə də, indi özləri artıq buna razılaşıblar. Burada, əlbəttə ki, yumşaq desək, bizim rolumuz az deyil. Ona görə artıq avtomobil yolunun açılışı məsələsi həll olunur, dəmir yolu məsələsi həll olunur. Bu gün Moskvada Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri növbəti dəfə görüşəcəklər və bizim mövqeyimiz orada bir daha səslənəcək. Beləliklə, Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi, yük təyyarələri, sərnişin təyyarələri, dəmir yolu qovşağı, avtomobil yolları - bütün infrastruktur qurulacaq, paralel olaraq təbiətin qorunması, çayların qorunması. Bilirsiniz ki, Oxçuçayı ermənilər nə günə qoymuşlar. Oxçuçay təbii fəlakət zonasıdır. Oradan götürülən analizlər göstərir ki, zəhərli maddələrin həcmi normadan bəlkə də 10 dəfə, 20 dəfə artıqdır. Biz bu çayları təmizləyəcəyik və burada dağ-mədən sənayesi inkişaf edəcək. Vejnəli qızıl yatağını ermənilər xarici şirkətlərlə birlikdə qanunsuz olaraq istismar edirdilər. O xarici şirkətlərin məhkəməyə verilməsi prosesinə start verdik, yaxın gələcəkdə eşidəcəksiniz. Onların bu işdən boyun qaçırmaq cəhdləri demək olar ki, imkansızdır. Çünki hər şey göz qabağındadır. Başqa ölkənin ərazisində qanunsuz işlər görüb, buradan qızılı qanunsuz olaraq daşıyıb və dünya bazarlarında satıb. Biz onlarla əlbir olanları da məsuliyyətə cəlb edəcəyik. Beynəlxalq hüquqşünasları da cəlb etdik.

Artıq turizm, kənd təsərrüfatı, nəqliyyat, logistika, ətraf mühitin qorunması və əlbəttə ki, insanlar üçün şəraitin yaradılması istiqamətində işlər görülür. İndi Ağalı kəndi inşa edilir, Zəngilan şəhərinin baş planı təsdiq olunandan sonra burada da inşaat işlərinə start verəcəyik. Zəngilan ölkə üzrə çox müasir və böyük əhəmiyyətə malik olan bölgəyə çevriləcəkdir. Şübhəm yoxdur, bunu sizinlə birlikdə edəcəyik və sizin də məsləhətinizə ehtiyac olacaq. Ona görə ki, baş plan təqdim olunandan sonra gərək ictimaiyyət də öz fikrini desin. Çünki siz - burada yaşamış insanlar yaxşı bilirsiniz, harada nə olub. Yəqin ki, siz də bu dağıntıları görüb yadınıza salırsınız ki, burada nə olub.

**Sakin:** Cənab Prezident, xatırlamasam, günah olar, bizim Zəngilan rayonunun ərazisində böyük Mincivan stansiyası yerləşirdi. Sovetlər dönəmində oraya hansı qatarlar gəlmirdi - Bakı-Qafan, Bakı-Noraşen, Bakı-Mincivan. O qatarlar bizim arzularımız idi. Bu yerlərin, yurdların insanları öz vaxtını, zamanının ölçüsünü o qatarların hərəkət qrafiki ilə qururdular. İndi Siz Azərbaycanın dəmir yollarını Zəngəzura və dünyaya açırsınız. Tezliklə o yollarla böyük qatarlar gələcək. Bu qatarlar Azərbaycanı dünya ilə qovuşduracaq. Bu da Sizin böyük quruculuq əzminizdən xəbər verir.

**Prezident İlham Əliyev:** Mən birinci dəfə gələndə Mincivana getdim, orada dəmir yolu stansiyasının önündə Azərbaycan xalqına müraciət etdim. Orada demək olar ki, hər şey dağıdılıb. Bir şey yoxdur, dəmir yollarını onlar çoxdan daşıyıb aparmışdılar. O relslərdən tank əleyhinə istehkamlar qurmuşdular. Stansiyanın binası da tamamilə dağılmış vəziyyətdə idi.

**Sakin**: Cənab Prezident, Siz Mehriban xanımla qoşa qanad kimi Azərbaycanın bütün kəndlərini, Zəngəzuru, Qarabağı diyar-diyar gəzmisiniz, qarış-qarış gəzib ziyarət etmisiniz. Ən vacibi nədir? Siz o kəndləri, toponimlərin qədim adlarını bilirsiniz, bərpa edirsiniz, onları bizə öyrədirsiniz, həm də tarixi ədaləti bərpa edirsiniz. Bu, çox vacib amildir. Çünki bizim tariximizdə bunlar unudulmuş məqamlardır. Biz bunları bərpa etməliyik. Ona görə də biz Sizə böyük minnətdarlığımızı bildiririk.

**Prezident İlham Əliyev:** Çox sağ olun, buradan Naxçıvana yol açılacaq. Oradan da Türkiyəyə, oradan da Avropaya.

**Əməkdar artist Almaz Orucova**: İcazə verin, mən dayandığımız bu torpağın müqəddəsliyini, şərəfini, qürurunu, dünyada başımızın ucalığını bizə təqdim etdiyiniz üçün Sizə dərin, sonsuz minnətdarlığımı çatdırım.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Almaz Orucova**: Bir az əvvəl mən doğma ocağıma getdim.

**Prezident İlham Əliyev:** Haradadır, sizin eviniz burada idi?

**Almaz Orucova:** Bəli, bir az qabağa gedib sola çıxırsan, bizim evimizdir.

**Prezident İlham Əliyev:** Ev qalıb, yoxsa dağıdılıb?

**Almaz Orucova:** Heç nə qalmayıb, bir az yeri qalıb, daş qalıb. O doğma hissləri, o şirin hissləri, o xatirələri yaşamağı heç nə ilə əvəz edə bilmərəm. Siz bizim başımızı dünyada uca etdiniz. Azərbaycan Ordusunun, Azərbaycan xalqının dəyərli bir sərkərdəsinin olduğunu göstərdiniz. Var olun, sağ olun. Varlığınızla, sağlığınızla hər zaman bu xalqın, bu Ordunun başında olasınız.

**Sakin:** Cənab Prezident, Elnur mənə dedi ki, kamançanı gətirməmişik. Mehriban xanım, dedim ki, kamançasız Zəngilana gəlmək olmaz.

**Əməkdar artist Elnur Əhmədov:** Doğma Zəngilan torpağında Sizi salamlayıram, Mehriban xanımı ürəkdən salamlayıram. Mən bu torpaqda dünyaya göz açmışam, məhz daşıyıcısı olduğum bu sənəti Zəngilan rayonunun Məmmədbəyli kəndində sevmişəm. Allah Sizləri var eləsin. Mehriban xanıma mən məxsusi təşəkkürümü bildirirəm ki, bizim muğamımızın dünyaya inteqrasiya olunmasında məxsusi xidmətləri var.

Cənab Prezident, biz “Qarabağ” muğam qrupu olaraq xanəndə, Xalq artisti Mənsum İbrahimov, sənət dostlarım Elçin Həşimov və Kamran Kərimov ilə birgə dünyanın demək olar, elə bir ölkəsi yoxdur ki, orada konsert proqramı ilə çıxış etməyək. Amma hər birimizin böyük arzumuz, bizim üçün dünyanın ən böyük səhnəsi Siz başda olmaqla, Mehriban xanım başda olmaqla Şuşada Cıdır düzündə keçirilən “Xarıbülbül” festivalı idi. Çünki bizim üçün ondan böyük, şərəfli gün yox idi. Cənab Prezident, hörmətli Mehriban xanım, mənim ən böyük arzum o idi ki, anadan olduğum o kənddə, uçuq da olsa, o evdə kamançamın səsi gəlsin.

**Sakin:** Kamançanın səsi gəlsin.

**Elnur Əhmədov:** O şəraiti bizə yaratdığınıza görə Sizə dərin təşəkkürümü bildirirəm.

Almaz Orucova Elnur Əhmədovun müşayiəti ilə muğam ifa edir.

**Sakinlər:** Sağ olun.

**Almaz Orucova**: Çox sağ olun, Mehriban xanım.

**Prezident İlham Əliyev**: Salam, necəsiniz? Bu kişini tanıyırsan, Mehriban?

**Birinci xanım Mehriban Əliyeva**: Salam, necəsiniz? Şəhriyar Məmmədyarovun atasıdır?

**Prezident İlham Əliyev:** Şəhriyar Məmmədyarovun atasıdır.

**Birinci xanım Mehriban Əliyeva:** Xoş gördük.

**Prezident İlham Əliyev:** Şəhriyar necədir?

**Həmid Məmmədyarov:** Çox sağ olun. Hər şey gözəldir, sağ olun.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Sakin:** Cənab Prezident, mən də təşəkkür edirəm. Biz 27 il idi ki, həmişə oktyabrın 30-u dost-tanışla müzakirə edirdik ki, Zəngilanın işğalı günü gəlir, nə edək, nə tədbir keçirək? Daim o qəmi, qüssəni yaşayırdıq. Sağ olun ki, biz bu gün artıq Zəngilanın işğaldan azad olunmasının bir illiyini qeyd edirik. Siz az öncə qeyd etdiniz ki, Zəngilan böyük nəqliyyat dəhlizinə çevrilir və bu, bölgənin inkişafına çox böyük təsir göstərəcək. Dünyanın super gücləri bu gün nəqliyyat dəhlizləri uğrunda mübarizə aparırlar. Siz böyük işlərə imza atmısınız. Bütün zəngilanlılar, bütün Azərbaycan bu işdə Sizə uğurlar arzulayır. Biz Sizi həmişə dəstəkləyirik, yanınızdayıq. Uğurlar arzulayırıq. Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. İşğal tarixi artıq tarixdə qaldı, əbədi silindi. İndi yeni tarix var - 20 oktyabr tarixi.

**Sakin:** Əsas məsələ də odur. Bu gün Zəngilanın azad olunan günüdür, cənab Prezident. Zəngilana ən böyük payınız, ən böyük ərməğanınız budur. Sağ olun.

**Sakin:** Cənab Prezident, mən də Zəngilan gəncləri və idmançıları adından Sizə dərin təşəkkürümü bildirirəm ki, bizi görmədiyimiz bu ata-baba yurdumuza gətirib çıxardınız. Allah Sizə bu işlərinizdə kömək olsun, var olun.

**Professor Adilə Abbasova:** Cənab Prezident, Sizə çox böyük minnətdarlığımızı bildiririk. Bu gözəl diyarda, Odlar Yurdu Azərbaycanımızın dilbər guşəsi olan Zəngilanda, qızıl Zəngilanda, azad Zəngilanda, zəngin Zəngilandayıq. Bu hissləri Siz bizə yaşatdınız. Biz bu dəqiqə Sizə qürurla baxırıq, Sizinlə danışırıq, söhbət edirik. Çox həyəcanlıyıq. Allah bizə bunu qismət etdi. Mən Sizə bütün zəngilanlılar adından minnətdarlığımı bildirirəm. Cənab Prezident, Siz Azərbaycan xalqının bütün arzularını yerinə yetirən böyük şəxsiyyətsiniz. Siz böyük, Müzəffər Sərkərdəsiniz. Dünyanın heç bir yerində Sizin kimi dövlət

xadimi görməmişik. Siz 44 günlük Vətən müharibəsi ərzində Qarabağ məsələsinin mümkünsüzlüyünü mümkün etdiniz. Siz Azərbaycanın Zəfər tarixinə adınızı əbədi yazdınız. İndi bizim nəsildən qalanlardan biri mənəm. Atam da Zəngilan rayonunda çox işləyib, 14 il icraiyyə komitəsinin sədri olub. Demək istəyirəm ki, uşaqlıq illərim burada keçib. Siz Zəngilanı bütün dünyaya tanıtdınız. Ulu Öndər Sizin haqqınızda belə deyirdi: “Mən ona özüm qədər inanıram və onun gələcəyinə çox böyük ümid bəsləyirəm”. Siz hər bir azərbaycanlının Prezidentisiniz. Ata vəsiyyətini yerinə yetirdiniz, Azərbaycan xalqının başını uca etdiniz, Azərbaycanı qalib dövlətə çevirdiniz.

**Prezident İlham Əliyev:** Çox sağ olun, çox təşəkkür edirəm.

**Adilə Abbasova:** Bu haqda çox fikirləşmişəm, mənə elə gəlir, dünyada elə bir dövlət xadimi yoxdur ki, Sizin kimi 44 gün ərzində belə bir Zəfər əldə etsin. Ona görə Siz dünyanın ən böyük mükafatına layiqsiniz. Sizə çox minnətdarıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Biz hələ Moskvadan bir-birimizi tanıyırıq. O vaxt azərbaycanlıların vətəndaş cəmiyyətində, Azərbaycan Assambleyasında bərabər iştirak etmişik.

**Adilə Abbasova:** Sizin fəaliyyətinizi mən hələ Moskvadan bilirəm, çox görmüşəm, eşitmişəm. Mənim yadımdadır, o cəmiyyət yaradılanda Ulu Öndər onunla maraqlanırdı. Azərbaycanlıların qurultayı keçirildi.

Demək istəyirəm ki, Sizin Azərbaycana bəxş etdiyiniz bu hisslər, bu sevinc xüsusi qeyd olunmalıdır. Mən ürəkdən danışan adamam, bəlkə də bir az həyəcanla danışıram. Amma ürəkdən danışıram. Cənab Prezident, Sizi bütün Azərbaycan xalqı ürəkdən sevir. Siz dünyanın ən böyük mükafatına layiqsiniz.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Ən böyük mükafatım bu gün burada Sizinlə bərabər olmağımdır.

**Adilə Abbasova:** Azərbaycan xalqının milli qüruruna çevrilən bir ifadə var: Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan! Eşq olsun, eşq olsun!

**Prezident İlham Əliyev:** Azərbaycan xalqına eşq olsun!.

**Adilə Abbasova:** Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Ali Baş Komandanımız, Prezidentimiz İlham Əliyevə!

**Prezident İlham Əliyev:** Sağ olun. Çox sağ olun.

**Sakin:** Cənab Prezident, Vətən Müharibəsi Qəhrəmanı şəhid Surxay Noçuyevin atasıdır. Siz ona fəxri ad vermisiniz.

**Şəhid atası Əbdül Noçuyev:** 44 günlük müharibə dövründə Sizin xalqa müraciətlərinizi mütəmadi olaraq izləmişik. Hər dəfə işğaldan azad olunan ərazilərin adları sadalandıqca bizim sevincimizin həddi-hüdudu olmayıb. Mənim oğlum, tabor komandiri, kapitan Surxay Noçuyev Şuşa uğrunda gedən döyüşlərdə müharibənin 44-cü günündə qəhrəmancasına şəhid oldu.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Əbdül Noçuyev:** Siz müvafiq Sərəncamınızla ona Vətən Müharibəsi Qəhrəmanı adı verdiniz. Buna görə Sizə minnətdarlığımızı bildiririk. 2021-ci il sentyabrın 27-də Sizin və Mehriban xanımın iştirakı ilə yürüş keçirildi. Orada Surxay Noçuyevin şəkli həkk olunmuş lövhə ön cərgədə idi. Həmin lövhəni Sizin göstərişinizlə bizim ailəyə təqdim etdilər. Bu, bizim ailəmiz üçün ən böyük hədiyyə oldu. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz torpaqlarımızı onların canı-qanı bahasına işğalçılardan azad etmişik. Şəhid olmuş hər bir insan, gənc bizim ürəyimizdə, Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Şəhidlərin adlarının əbədiləşdirilməsi üçün əməli işlər gedir, bundan sonra da gedəcək. Anım Günündə təşkil olunan yürüş bütün Azərbaycan xalqının birliyini göstərdi, şəhidlərimizin xatirəsinə olan hörmətimizi göstərdi. Yürüşdə aparılan portretlər mənim göstərişimlə gözəl bir xatirə kimi şəhid ailələrinə təqdim edildi. Çünki onlar bizimlə olmasalar da, bu Zəfər yürüşünə bizimlə bərabər çıxıblar. Yəni, bütün Azərbaycan o gün orada idi. Onların ruhu bu gün şaddır. Onlar az yaşayıblar, dünyadan gənc gediblər, şəhid olaraq gediblər. Amma onlar hər zaman ürəyimizdə yaşayacaqlar. Sizin simanızda onların valideynlərinə mən Prezident, Ali Baş Komandan kimi öz təşəkkürümü bildirmək istəyirəm. Çünki doğrudan da bizim şəhidlərimiz şüurlu şəkildə ölümə gedirdilər. Hamımız yaxşı bilirik ki, ağır döyüşlərdə o istehkamları yarmaq, oradan keçmək, dağlara qalxmaq, dağlara dırmaşmaq, xüsusilə Şuşa əməliyyatı tarixdə bəlkə də misli görünməmiş qəhrəmanlıq nümunəsidir. Bunu ancaq milli ruhda böyüyən insanlar edə bilərdilər. Sizin kimi valideynlər onları milli ruhda böyüdüb Vətənə bəxş etdiniz. Onlar da öz həyatlarını Vətənə bəxş etdilər. Mən sizi ürəkdən təbrik edirəm, təşəkkürümü bildirirəm və qucaqlayıram, bağrıma basıram.

**Əbdül Noçuyev:** Çox sağ olun, cənab Prezident.

**Sakin:** Cənab Prezident, biz orta məktəbdə oxuyanda Zəngilanda xoş bir ənənə var idi. Biz bu dağlara, təbiətin bu gözəl guşələrinə çaylardan çınqıllar yığıb gətirərdik. Orada o çınqıllardan ürək sözlərimizi, Vətənlə bağlı sözlərimizi yazardıq. Yeni tarixi Siz diktə etdiniz, yeni tarixin müəllifisiniz. Ona görə Zəngilanda tikiləcək məktəbin şagirdləri, bugünkü müasir tariximizə, Zəfər tariximizə şahidlik edən gənclərimiz yenidən çınqıllar və daşlar daşıyıb bu təpələrdə Azərbaycanın əzəmətlə dalğalanan o bayraqlarının altında Azərbaycanın xəritəsini çəkəcək və yeni sözlər yazacaqlar. Yazacaqlar "Qarabağ Azərbaycandır!". Bu yurdların xilaskarına eşq olsun! Böyük Qayıdışımız mübarək, cənab Prezident!

**Prezident İlham Əliyev:** Bu gün yarımstansiyanın da açılışını etdik. Mənə məlumat verildi ki, sovet vaxtında Zəngilan rayonunun ümumi enerji tələbatı cəmi 7 meqavat idi, çünki əhali o qədər də çox deyildi. İndi isə biz gələcək inkişafı nəzərə almaq şərti ilə yarımstansiyanı 50 meqavatlıq etdik. Bir də ki, əhali artıb. İşğala qədər Zəngilan rayonunun əhalisi təqribən 30 mindən bir qədər çox idi. İndi 45 minə çatıb və əminəm ki, zəngilanlıların hamısı gəlib burada, belə bir gözəl yerdə, doğma vətəndə yerləşəcək.

**Sakin:** Təşəkkür edirik, cənab Prezident.

**Prezident İlham Əliyev:** Biz indi məscidi də bərpa edirik.

**Axund:** Bu məsciddə axund işləmişəm. Mehriban xanıma da təşəkkür edirik. Bu xoş günləri bizə yaşatdığınıza görə Sizə bir daha təşəkkür edirəm. Əslində, Siz bizə ikinci dəfə Zəngilanda yaşamağı qismət edibsiniz. Cənab Prezident, Sizə bütün Zəngilan camaatı adından təşəkkür edirəm.

**Birinci xanım Mehriban Əliyeva**: Çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ ol. Heydər Əliyev Fondu məscidin bərpası ilə məşğuldur, artıq orada lövhələr də qoyulub. Biz də burada olanda simvolik olaraq təməl daşını da qoyduq. Onu da bərpa edəcəyik.

**Birinci xanım Mehriban Əliyeva:** O qalan hissəni.

**Prezident İlham Əliyev:** Bəli, qədimdən qalan o hissəni bərpa edəcəyik. Mənə dedilər ki, sovet vaxtında ora klub idi, ya da anbar.

**Sakin:** Ora bizim kəndimizin meşəsidir. Azərbaycanın böyük münbit meşələrindən biridir.

**Prezident İlham Əliyev:** Sizin kəndiniz buradadır?

**Sakin:** Bəli, Vənədli kəndi, aşağıdadır. Bütün ağacları qırıblar - cökə, palıd, vələs, ulas. Tarixin çox məşhur ağacları olan böyük meşələrdən biri olub.

**Prezident İlham Əliyev:** Kəsib daşıyıblar ağacları. Biz Bəsitçayda olanda gördük ki, hətta kötükləri yandırıblar. Kəsiblər ağacları, yandırıblar. Bəsitçay qoruğunun bir hissəsi qalıb, ora 100 hektardan böyük bir ərazi idi.

**Sakin:** Bəli, dövlət qoruğu olub əvvəllər.

**Prezident İlham Əliyev:** Bəli, Siz də dediniz, Avropada birinci çinar meşəsidir.

**Sakin:** Cənab Prezident, Ali Baş Komandan, Sərkərdə kimi 44 günü nə qədər narahat keçirdiniz. Dünyanın bu vaxtında belə qərar qəbul etmək, savaşı bu cür Zəfərlə başa çatdırmaq, bunları belə peşəkarlıqla idarə etmək Sizin əsl Liderliyinizdən xəbər verir. Cənab Prezident çox sağ olun, çox minnətdarıq.

**Prezident İlham Əliyev:** Siz sağ olun.

**Sakin:** Zəngilan azad olunan gün zəngilanlıları bu ocağa topladınız. Çox sağ olun, minnətdarıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Sakin:** Tarix unudulmur.

**Prezident İlham Əliyev:** Tarixi gündür. Tarix həmişə olacaq. 20 oktyabr həm zəngilanlılar üçün, həm bütün xalqımız üçün əbədi bir Zəfər günü kimi qalacaq. Çünki azad edilmiş hər bir şəhərin azad olunma günü tarixi Zəfər günüdür.

**Sakinlər:** Cənab Prezident, Mehriban xanım, gün o gün olsun ki, Sizi abad Zəngilanda qarşılaya bilək. Sizə uğurlar arzu edirik. Qədəmləriniz uğurlu olsun. Çox sağ olun, İnşallah, abad Zəngilanda gözləyəcəyik.

**Birinci xanım Mehriban Əliyeva:** İnşallah. Allah amanında. Sağ olun.

**Prezident İlham Əliyev:** Bir daha təbrik edirəm.

**Sakinlər:** Sağ olun, hər şeyə görə sağ olun.

**AZƏRTAC**
**2021, 21 oktyabr**

**Prezident: 20 oktyabr həm zəngilanlılar, həm də bütün xalqımız üçün əbədi Zəfər günü kimi qalacaq**

20 oktyabr həm zəngilanlılar, həm də bütün xalqımız üçün əbədi Zəfər günü kimi qalacaq. Çünki azad edilmiş hər bir şəhərin azad olunma günü tarixi Zəfər günüdür.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib.

**AZƏRTAC**
**2021, 20 oktyabr**

**Prezident İlham Əliyev: Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi, bütün infrastruktur qurulacaq**

Bu gün Moskvada Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri növbəti dəfə görüşəcəklər və bizim mövqeyimiz bir daha orada səslənəcək. Beləliklə, Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi, yük təyyarələri, sərnişin təyyarələri, dəmir yolu qovşağı, avtomobil yolları, bütün bu infrastruktur qurulacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

**AZƏRTAC**
**2021, 20 oktyabr**

**Soltan Məmmədov: Zəngilanın azad olunması Vətən müharibəsinin gedişində Azərbaycan Ordusuna böyük strateji üstünlük qazandırdı**

Zəngilanın işğaldan azad olunması Vətən müharibəsinin gedişində Azərbaycan Ordusuna böyük strateji üstünlük qazandırdı. Çünki bu tarixi Qələbə nəticəsində Azərbaycanın İran İslam Respublikası ilə 132 kilometrlik məsafəni əhatə edən sərhədi tam bərpa edildi.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Soltan Məmmədov deyib.

Deputat bildirib ki, Zəngilanın işğaldan azad olunması üçün 2020-ci il oktyabrın 18-də başlanan hərbi əməliyyatın qısa müddətdə müvəffəqiyyətlə başa çatması Azərbaycan Ordusunun gücünü və dövlət rəhbərliyinin qətiyyətini bir daha nümayiş etdirmiş oldu.

Zəngilanın Naxçıvan Muxtar Respublikası ilə ən yaxın quru sərhədimiz olduğunu xatırladan Soltan Məmmədov qeyd edib ki, Zəngəzur dəhlizinin açılmasından sonra bütün regionun həyatında yeni mərhələ başlayacaq: “Zəngəzur dəhlizinin fəaliyyətə başlaması Naxçıvanı blokadadan çıxarmaqla yanaşı, regionda iqtisadi əlaqələrin bərpası üçün də çox geniş imkanlar yaradacaq. Bu baxımdan, Zəngilanın işğaldan azad olunması yalnız hərbi, siyasi baxımdan deyil, həm də iqtisadi perspektivlər kontekstində böyük strateji əhəmiyyət daşıyırdı. Horadiz-Zəngilan-Ağbənd dəmir yolu, Zəngilan-Horadiz avtomobil yolu, inşa ediləcək hava limanı bu rayonun Azərbaycan üçün nə qədər mühüm logistik əhəmiyyətə malik olduğunu bir daha təsdiqləyir”.

Deputat Zəngilanın ölkəmizin iqtisadi inkişafında da mühüm rol oynayacağını, rayonun təbii resurslarının, eyni zamanda, kənd təsərrüfatı potensialının ölkə iqtisadiyyatının güclənməsi üçün yeni mənbələr yaradacağını vurğulayıb: “Zəngilan rayonunun iqtisadiyyatı əsasən kənd təsərrüfatı istiqamətli olub. Rayonda tikinti daşı, qızıl, qara mərmər, əhəng xammalı və digər faydalı qazıntı yataqları mövcuddur. Yaşıl enerji potensialı, bundan başqa, müharibədən sonra yaranmış logistika imkanları Azərbaycanın iqtisadiyyatına, o cümlədən ticarət dövriyyəsinin artmasına müsbət təsir göstərəcək”.

Zəngilanın Ağalı kəndində həyata keçirilən “Ağıllı kənd” layihəsinin əhəmiyyətini vurğulayan Soltan Məmmədov qeyd edib ki, bu təşəbbüs Azərbaycan dövlətinin və xalqının iradəsini, qətiyyətini, gücünü bir daha dünyaya nümayiş etdirəcək. Qafqazda müasir standartlara cavab verən ilk kənd kimi tarixə düşəcək bu layihənin məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışını sürətləndirəcəyini, bölgənin iqtisadiyyatının bərpasına böyük stimul yaradacağını bildirib.

**AZƏRTAC**
**2021, 20 oktyabr**

**Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoyublar**
*(26 oktyabr 2021-ci il)*

Oktyabrın 26-da Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan əvvəlcə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış oldular.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçılarına məlumat verdi.

**Saleh Məmmədov** dedi: Möhtərəm cənab Prezident, hərəkət etdiyiniz bu yol Əhmədbəyli-Füzuli-Şuşa yoludur. Bu yol altı-dörd cərgədən ibarət olacaq. Yolun uzunluğu 81 kilometrdir. Bu yolun başlanğıcdan 50-ci kilometrədək 51 kilometrlik hissəsini Azərbaycan şirkətləri, əllinci kilometrdən 81-ci kilometrə qədər hissəni isə Türkiyənin "Kolin İnşaat" və "Çingiz İnşaat" şirkətləri işləyir. Türkiyə şirkətlərinin işlədiyi hissədə 6 kilometr uzunluqda tunel tikilir və 7 yol ötürücüsü tikiləcək. Tunellərin ümumi uzunluğu 6500 metrdir. Hazırda Şuşa şəhərinin girişində olan 4-cü və 5-ci tunellər artıq tikilmişdir. Biri 431 metr, digəri isə 530 metr uzunluğundadır.

**Prezident İlham Əliyev:** Kəlbəcərdə tunellər inşa edilir, 12 kilometr.

**Saleh Məmmədov:** Bəli, Azərbaycanda ən böyük tuneli "Çingiz İnşaat" inşa edir, Toğanalı-Kəlbəcər yolundakı Murovdağ tuneli. Bu, Azərbaycanda ən böyük tuneldir, 11 min 600 metrdir. Artıq o tunelin 350 metri qazılmışdır. Şəkilləri var, mən Sizə göstərəcəyəm.

**Prezident İlham Əliyev:** Bir də Laçın-Kəlbəcər tuneli.

**Saleh Məmmədov:** Bəli, Qorçu aeroportunun 3,5 kilometrlik Laçın-Kəlbəcər tuneli də var.

**Prezident İlham Əliyev**: Tunellərin toplam uzunluğu nə qədərdir?

**Saleh Məmmədov:** Azərbaycanın Qarabağ ərazisində Türkiyə şirkətləri tərəfindən toplam 62 kilometr uzunluqda tunel tikilir. Hazırda Türkiyə şirkətlərində 6587 işçi çalışır. Onların 1832 nəfəri Türkiyə vətəndaşı, 4500 nəfəri isə Azərbaycan vətəndaşıdır. Ümumilikdə Qarabağ zonasında işləyən şirkətlərdə toplam 13 min 280 nəfər çalışır.

Bu gün təməli qoyulacaq yol isə Zəngəzur dəhlizi yoludur. Başlanğıcını dayandığımız bu yerdən götürəcək. Birinci qovşaq budur. Buradan Ağbəndə, Ermənistan sərhədinə qədər məsafə 123,6 kilometrdir.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Ermənistan sərhədinə qədər gedirsiniz, elədirmi? Daha irəli gedəcəksiniz.

**Saleh Məmmədov:** Bəli, oradan da o tərəfə keçəcəyik. Allahın köməyi ilə düz İstanbula qədər gedəcəyik, Avropaya qədər gedəcəyik. Allah Sizləri qorusun.

Bu yolun üzərində də 3 tunelimiz var. Uzunluğu toplam 3610 metrdir. Hazırda Zəngilan ərazisində dördüncü tunel tikilir. Tuneldə artıq 160 metr iş görülüb. Bu hissədə bütün yolu "Kalyon" şirkəti tikir. Həmin yolun üzərində Zəngilan hava limanı da yerləşir. Hava limanına gedən yolun 20 kilometrlik hissəsini "Kalyon" şirkəti ilə birlikdə Azərbaycan şirkəti tikir. Bu yolun üzərində rayon mərkəzləri ilə hava limanını birləşdirən 7 qovşaq tikiləcək. Bu qovşaq təməli qoyulan yolun sıfırıncı kilometrində olacaq.

Bu, bizim dayandığımız 6-4 cərgəli Əhmədbəyli-Füzuli ana yoludur. Bu isə, həmin bu qovşaqdan çıxıntılarla Zəngəzur dəhlizi ilə Naxçıvana, oradan da İstanbula gedən yol olacaq, İnşallah. Bu da Əhmədbəyli-Füzuli-Şuşa yolunda gedən tikinti işlərinin şəkilləridir, "Çingiz İnşaat"ın işlədiyi tunellərdir. Burada işlər həm partlatma üsulu ilə gedir, həm də sıxma üsulu ilə.

Hazırda qısa tunellərdə işlərin 45-50 faizi yerinə yetirilib. Bunlar da tikinti vaxtı görülən işlərdir. Biz möhtərəm cənab Prezidentin göstərişi ilə orada tikintiyə qışda başlamışdıq. Bunlar həmin dövrdə çəkilən şəkillərdir. Ümumiyyətlə, Qarabağ zonasında heç vaxt 4-6 cərgəli avtomobil yolu olmamışdır. İlk dəfədir Qarabağda belə yollar tikilir. Bu isə Zəngəzur dəhlizi üzrə "Kalyon" şirkətinin çəkdiyi yollardır. Burada da həyat olmayıb. Bu yolun mövcud Horadiz yoluna ən uzaq məsafəsi 1,6 kilometr, ən yaxın məsafəsi 200 metrdir. Böyük işlər görülüb, "Kalyon" şirkəti tərəfindən işin demək olar ki, 45 faizdən çoxu yerinə yetirilib. Allahın köməyi ilə gələcəkdə, yəqin ki, 2023-cü ilə qədər bu yolun açılışında da iştirak edərsiniz.

**X X X**

Sonra Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoydular.

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Zəngilan rayonunda “Dost Aqropark”ın təməli qoyulub**
*(26 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Zəngilan rayonunda “Dost Aqropark”ın təməlini qoyublar.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları əvvəlcə aqroparkın ərazisində çinar ağacı əkdilər.

Sonra prezidentlər Anadolu Agentliyinin Vətən müharibəsini özündə əks etdirən fotosərgisinə baxdılar.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ön sözünü yazdığı və Anadolu Agentliyi tərəfindən hazırlanan “Qarabağ Zəfəri” kitabını Prezident İlham Əliyevə təqdim etdi.

Tədbirin aparıcısı **Günel Mövsümova** dedi: Bəli, zəngilanlılar bu ili 27 il idi gözləyirdi. 27 il biz bunun xəyalları ilə yaşadıq. Bu xəyallarla yaşayan keçmiş məcburi köçkünlərdən biri də mən idim. 27 il idi mən Zəngilanın işğaldan azad olunma xəbərini bir jurnalist olaraq səsləndirmək xəyalı ilə yaşadım və xəyallar gerçək oldu. Bəli, bu gün tarixi gündür. Bu gün Zəngilanın torpaqlarına can verilən gündür. Bu gün o torpaqları cənnət məkana çevirdiyimiz gündür. İndi Zəngilan yenidən qurulur və əvvəlkindən də gözəl əzəmətə qovuşur.

Cənab prezidentlər və əziz qonaqlar. Bildiyimiz kimi, bu torpaqlar 27 il ərzində erməni vandalları tərəfindən tar-mar olundu, daş üstündə daş qalmadı. Evlərimiz talan olundu. O evlərdən biri də mənim evim idi. 27 ildən sonra öz torpağıma qayıdarkən evimin bir daşını belə tapa bilmədim. Nəinki evlərimiz, meşələrimiz, ağaclarımız tar-mar olundu. 27 ildən sonra biz qardaş Türkiyə ilə əl-ələ verib bu torpaqları yenidən ayağa qaldırırıq. Bu torpaqlara yenidən can verməyə gəlmişik, viran qalmış torpaqlarımızı cənnətə çevirməyə gəlmişik.

İndi icazə verin, “Dost Aqropark” ilə tanış olaq.

**X X X**

Türk və azərbaycanlı sərmayədarlar tərəfindən Zəngilanda həyata keçiriləcək “Dost Aqropark” layihəsi üç mərhələdə icra olunacaq. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Dövlət başçıları “Dost Aqropark”ın təməlini qoydular.

Layihə başa çatdıqda 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı sistemi inşa ediləcək.

Daha sonra aqroparkda əkinə start verildi.

Prezidentlər “Dost Aqropark”ın fəaliyyətinə xeyir-dua verdilər.

Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. “Dost Aqropark” kompleksində ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulacaq. Aqropark tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq.

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar**

*(26 oktyabr 2021-ci il)*

Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov dövlət başçılarına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. "Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait yaradılacaq.

Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. Burada "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək.

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Zəngilanda “Ağıllı kənd” layihəsinin həyata keçirilməsi başa çatmaqdadır**

Müharibədən sonrakı mərhələdə Böyük Qayıdış üçün surətlə davam edən yenidənqurma işlərinin şahidiyik. Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd” layihəsinin həyata keçirilməsi başa çatmaqdadır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri yanvarın 31-də keçirilən “Qadın, sülh və təhlükəsizlik: Postmünaqişə dövründə bərpa işlərində qadınların rolu” mövzusunda konfransda çıxışı zamanı Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov ifadə edib.

**AZƏRTAC**
**2022, 31 yanvar**

**Prezident İlham Əliyev: Bərpa işləri geniş vüsət alıb**

Bu il isə həm ənənəvi işlər, yəni, infrastruktur işləri, eyni zamanda, məcburi köçkünlər üçün nəzərdə tutulmuş yaşayış binalarının inşası da artıq başlanacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev fevralın 2-də Gənclər Forumunda gənclərin suallarını cavablandırarkən bildirib.

Dövlətimizin başçısı bildirib ki, azad edilmiş torpaqlarda bu il 5 su elektrik stansiyası inşa ediləcək. Nəzərdə tutulan layihələr arasında Ağalı kəndinin inşasının artıq tamamlanmasını qeyd edən Prezident deyib ki, bunun böyük rəmzi mənası var: "Çünki artıq bu il ilk keçmiş köçkünlər öz doğma torpağına qayıdacaqlar və Ağalı kəndi elə bil bizim istədiyimizin təcəssümüdür".

Prezident İlham Əliyev cari ildə Zəngilan Hava Limanının açılacağını, 2023-cü ildə dəmir yolunun Ermənistan sərhədinə gətiriləcəyini, avtomobil yolunun tikintisinin isə davam etdiyini diqqətə çatdırıb. Bütün bu işlərdə gənclərin fəal iştirak etdiklərini söyləyən dövlətimizin başçısı deyib: "İndi azad edilmiş ərazilərdə müxtəlif kənd təsərrüfatı layihələri icra edilir. Deyə bilərəm ki, bu il 40-50 min hektarda əkin işləri nəzərdə tutulur. Bu, bizim ərzaq təhlükəsizliyimizi təmin edəcək. Orada da işləyənlərin əksəriyyəti gənclərdir. Ona görə gənclər, əlbəttə ki, bu işlərdə qabaqcıl rol oynayacaq, onlar öz təşəbbüslərini də gərək ortaya qoysunlar".

**AZƏRTAC**
**2022, 2 fevral**

**Prezident: Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı, Hadrut və Suqovuşanın Baş planları hazırlanmalıdır**

Bu ilin sonuna qədər və növbəti bir-iki il ərzində görüləcək işlərlə bağlı öz tapşırıqlarımı bir daha vermək istəyirəm. Birincisi, şəhərlərin Baş planları ilə bağlıdır. Bizim hazırda Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və Baş planlar əsasında işlərə start verilib. Artıq mən işlərin gedişatı ilə tanış olmuşam.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bildirib.

"Dövlətimizin başçısı deyib: Digər şəhərlərin Baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Çünki burada da qeyd olundu, 2,2 milyard manat vəsait nəzərdə tutulur. Amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olundu. Əlbəttə ki, Baş planlar təsdiq olunandan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən, ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir".

**AZƏRTAC**
**2022, 12 aprel**

**Prezident İlham Əliyev: Cəbrayıl, Zəngilan rayonlarında Günəş Elektrik stansiyalarının potensialı həddindən artıq böyükdür**

Cəbrayıl, Zəngilan rayonlarında Günəş Elektrik stansiyalarının potensialı həddindən artıq böyükdür.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bildirib.

Dövlətimizin başçısı deyib: “Yəni, bütün bunlardan biz səmərəli şəkildə istifadə etməliyik. Həm bərpaolunan enerji növlərinin ümumi enerji balansımızdakı payını 30 faizə artırmalıyıq, - mən bu göstərişi vermişdim, bəlkə də gələcəkdə daha çox olacaq, - həm də ki, təbii qaza qənaət edib onu indiki yüksək qiymətlərlə ixrac edə biləcəyik”.

**AZƏRTAC**
**2022, 13 aprel**

**Azərbaycan Prezidenti Zəngilanda hava limanının bu il, Laçında isə 2024-cü ildə açılacağını bildirib**

Bildiyiniz kimi, Laçında beynəlxalq hava limanının tikintisi davam etməkdədir. Eləcə də Zəngilanda hava limanı bu il açılacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda bildirib.

Dövlətimizin başçısı Laçında hava limanının yəqin ki, 2024-cü ildə açılacağını qeyd edib.

**AZƏRTAC**
**2022, 29 aprel**

**Prezident İlham Əliyev: Zəngilan rayonunun turizm imkanları dərindən təhlil edilməli, təxirəsalınmaz işlərə başlanmalıdır**

Zəngilan rayonunda böyük turizm potensialı vardır. Çünki gözəl meşələr, dağlar, bulaqlar, çaylar və beynəlxalq hava limanı, dəmir yolu, avtomobil yolları bütün bunlar böyük bir sərvət olacaq. Zəngilan rayonunun turizm potensialı, əlbəttə ki, digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılmalıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Vahid Hacıyevi Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bildirib.

Dövlətimizin başçısı deyib: "İndi Zəngilan, Qubadlı, Laçın yolu ilə Şuşa şəhərinə də məsafə çox qısa olacaq, çox rahat olacaq. Yəni, Zəngilan rayonunun turizm imkanları dərindən təhlil edilməlidir, təxirəsalınmaz işlərə biz dərhal başlamalıyıq. Yeni otellər, istirahət zonaları yaradılmalı, kənd turizmi inkişaf etdirilməlidir. Bu, oraya qayıdacaq insanlar üçün də məşğulluq və gəlir mənbəyi olacaq".

Prezident qeyd edib ki, bütün sahələrdə ən mütərəqqi təcrübə, ən şəffaf mexanizmlər, insanlar üçün rahatlıq təmin edildiyi halda biz istədiyimizə nail olacağıq.

"İstədiyimiz isə odur ki, keçmiş məcburi köçkünlər tezliklə öz dədə-baba torpaqlarına qayıtsınlar, orada rahat yaşasınlar və maksimum çox adam oraya qayıtsın, orada yaşasın. Biz elə şərait yaratmalıyıq ki, onlar da həvəsli olsunlar", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**
**2022, 4 may**

## Prezident: Zəngilandakı və digər rayonlardakı qiymətli metal yataqlarını vəhşicəsinə istismar edənlər bizə təzminat ödəyəcəklər

Ermənistan Zəngilandakı və digər rayonlardakı qızıl və digər qiymətli metallar yataqlarını da vəhşicəsinə istismar etmişdi. Zəngilanda Vejnəli qızıl yatağını vəhşicəsinə istismar edərək oranı da ekoloji fəlakət zonasına çevirmiş və qanunsuz olaraq orada çıxarılan qızıl xaricə aparılıb satılmışdı.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Vahid Hacıyevi Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bildirib.

Dövlətimizin başçısı deyib ki, indi bütün hüquqi prosedurlara start verilib. Bir cinayət də cavabsız qalmayacaq: “Birincisi, biz dəymiş bütün ziyanı hesablayırıq, bütün şəhər və kəndlərimizin pasportlaşdırılması prosesi gedir. Hər bir binanın, yaxud da ki, o binadan qalan dağıntıların video-foto çəkilişi aparılır. Bu, sübutdur və biz beynəlxalq məhkəmələrə də müraciət etmək əzmindəyik, hazırlıq işləri gedir. Həmçinin Vejnəli qızıl yatağının xarici vətəndaşlar tərəfindən, o cümlədən erməni əsilli xarici vətəndaşlar tərəfindən qanunsuz istismar edilməsi onlara baha başa gələcək. Biz o adamların adlarını bilirik. Biz onları dünya qarşısında ifşa edəcəyik və bizə təzminat ödəyəcəklər. Vurulmuş ziyanın təzminatını mütləq ödəyəcəklər”.

**AZƏRTAC**
**2022, 4 may**

**Prezident: Zəngilan rayonunda yaradılan "DOST Aqropark"ı birinci və nümunəvi aqropark olacaq**

Azad edilmiş ərazilərdə birinci aqropark məhz yenə də Zəngilan rayonunda yaradılır. Keçən il mən qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti ilə birlikdə "DOST Aqropark" adlandırılan aqroparkın təməlini qoyduq. Bu yaxınlarda aqroparkın fəaliyyəti ilə bağlı mənə məlumat verildi. Çox şadam ki, hər şey plan üzrə gedir. Bu, birinci, nümunəvi bir aqropark olacaq.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Vahid Hacıyevi Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib.

Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, azad edilmiş torpaqlarda aqroparkların sayı çox olacaq. İndi Cəbrayıl və Ağdam rayonlarında sənaye zonaları yaradılır.

"Hesab edirəm ki, Zəngilan rayonunda əsas məşğulluq və iqtisadiyyatın əsas hissələrindən biri də kənd təsərrüfatı olmalıdır. Çünki təbii iqlim çox əlverişlidir və yenə də "DOST Aqropark"ın timsalında biz azad edilmiş bütün torpaqlarda gələcəkdə yaradılacaq mənzərəni görməliyik", - deyə Prezident İlham Əliyev qeyd edib.

**AZƏRTAC**
**2022, 4 may**

## Prezident İlham Əliyev: Hazırda Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir

Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Bildiyiniz kimi, birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bildirib.

Dövlətimizin başçısı deyib: "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər. Biz azad edilmiş torpaqları necə görmək istəyirik? Biz insanlara, oraya qayıdacaq insanlara hansı şəraiti yaratmaq istəyirik? Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq – təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf".

Prezident qeyd edib ki, hazırda Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir. "Onların arasında Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturunu mən qeyd etmək istərdim. Bu il Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcəkdir. Əminəm ki, bu hava limanının çox böyük funksiyaları olacaqdır. Çünki biz Zəngilanı gələcəkdə beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi görürük. Rayonun yerləşməsi, beynəlxalq bazarlara yaxın olması və digər amillər bunu təmin edəcək. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci hava limanının məhz Zəngilanda yaradılması əlbəttə ki, coğrafi vəziyyəti nəzərdə tutur, buna əsaslanır, eyni zamanda, bizim həm iqtisadi, nəqliyyat, həm də təhlükəsizliklə bağlı məsələlərimizi həll etmək üçün vacib vasitə olacaqdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**
**2022, 4 may**

**Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər**

*(26 may 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış olub, Cəbrayıl rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin Soltanlı stansiyasının və "Azərenerji" ASC-nin 330/110 kV-luq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimində iştirak ediblər.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonuna gəldilər.

Dövlətimizin başçısı və birinci xanım Zəngilan Beynəlxalq Hava Limanının və "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidinin tikinti işləri ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Daha sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Zəngilan şəhərinin Baş planı təqdim olunub.

**AZƏRTAC**
**2022, 26 may**

**Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq**
*(26 may 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Zəngilan rayonuna da səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya hava limanında görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, perronda torpaq işləri tamamlanıb, uçuş-enmə zolağında asfalt-beton işləri davam edir. Zolağın uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul edəcək.

Aeroportun hava hərəkəti qülləsinin tikintisinin iyulda tamamlanması planlaşdırılır. Avqustun sonunda isə terminal binasında işlərin başa çatdırılması nəzərdə tutulur. Beynəlxalq standartlara uyğun inşa edilən terminal binası saatda 200 sərnişinə xidmət edəcək. Terminal daxilində VIP zallar, kafelər, tibb xidməti və ofis otaqları yaradılacaq. Avadanlıq və materiallar İtaliya, Almaniya və Türkiyədən gətirilib.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas amillərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika habına çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Onu da deyək ki, işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra beynəlxalq statuslu daha iki aeroport tikilməkdədir. Onlardan biri də Zəngilan hava limanıdır. Digəri isə Laçın rayonunun ərazisində inşa olunur.

**AZƏRTAC**
**2022, 26 may**

**Zəngilan məscidinin tikintisi ilə tanışlıq olub, İşğal və Zəfər muzeylərinin təməli qoyulub, şəhərin Baş planı təqdim edilib**
*(26 may 2022-ci il)*

Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Paşa Holding” MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Qeyd edək ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub.

Rayonun işğaldan azad edilməsi nəticəsində buradakı tarixi, memarlıq abidələri də erməni əsarətindən qurtuldu. Otuz ilə yaxın işğal dövründə dağıdılan, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesində Heydər Əliyev Fondu müstəsna xidmət göstərir. Qarabağdakı dini abidələrin, məscidlərin bərpası işləri sürətlə davam etdirilir.

Zəngilan məscidinin bərpasının təməl daşı dövlətimizin başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə ötən il aprelin 26-da qoyulub, bərpa işləri fasiləsiz həyata keçirilir.

**x x x**

Sonra dövlətimizin başçısı və birinci xanım İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak etdilər.

Məlumat verildi ki, Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi layihəsinin əsas məqsədi müharibənin ətraf mühitə dağıdıcı təsirləri barədə məlumatlılığı artırmaqdır. Layihə hazırlanarkən dayanıqlılığın müxtəlif aspektləri həm landşaft, həm də bina dizaynı üçün nəzərə alınıb və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq hədəflənib.

Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntıları əks etdirən Memorial Parkdan ibarət olacaq.

Dövlətimizin başçısı və birinci xanım İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoydular.

İşğal Muzeyi düşmənin işğalı zamanı şəhərin və bölgənin məruz qaldığı vandallığın əyani surətdə nümayiş etdirilməsi məqsədi daşıyır. Zəngilan şəhərinin müəyyən hissəsinin dağıdılmış vəziyyətdə qalması və Ermənistanın işğalçılıq siyasətinin ümumi mənzərəsini əks etdirən açıq səma altında muzey kimi nümayiş etdirilməsi nəzərdə tutulur. İşğal Muzeyində ətraf mühitə vurulan ekoloji zərərlər, xüsusilə Zəngilan şəhərində ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara ciddi ziyan vurmaq məqsədilə törədilən ekoloji terror aktları barədə məlumatlar diqqətə çatdırılacaq. Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaq. Muzey binasının şüşədən hazırlanacaq fasadının üzərindəki təsvirlər və naxışlar çinar yarpağına bənzəyəcək ki, bu da Zəngilan şəhərinin təbiətlə sıx əlaqəsini tərənnüm edəcək.

Zəngilan Zəfər Muzeyi Azərbaycan xalqının və şanlı Ordumuzun 44 günlük Vətən müharibəsi zamanı nümayiş etdirdiyi əzmkarlıq, rəşadət və peşəkarlığı əbədiləşdirən kompleks, həmçinin qazanılmış Qələbəni müasir təqdimat metodları ilə insanlara çatdıran məkan olacaq. Zəfər Muzeyinin binasının çinar meşəsini xatırladacaq fasadı dünyada sahəsinə görə ikinci ən böyük təbii çinar meşəsi olan Zəngilan meşələrinə həsr olunacaq. Muzeyin foyesi vizual texnologiyalar vasitəsilə Zəfərə həsr olunan məlumatları nümayiş etdirmək üçün sərgi məkanı kimi istifadə olunacaq. Həmçinin muzeydə 80 tamaşaçı yeri olan 4D kinoteatr da yaradılacaq. Bu muzeyin inşasında əsas məqsədlərdən biri də məhz gələcəkdə burada “Zangilan Earth Film Festival”ın təşkil olunması və Zəngilanda törədilmiş ekoloji terroru beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdır.

Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək məqsədilə Zəfər Muzeyi binasının yanında qəhrəmanlarımızın adlarının qeyd olunduğu beton hasar formasında “Memorial lövhə” yaradılacaq.

Hər iki muzey Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilən Şanlı Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edən,

beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyünü bərpa etməyə nail olan Azərbaycanın haqq səsini dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

Zəngilanla bağlı tarixi faktların yaradıcı üsulla dağıntılar üzərində əks etdirilməsi üçün xüsusi layihə həyata keçiriləcək. Dünyanın müxtəlif ölkələrindən cəlb olunacaq rəssamlar dağıntılar üzərində fərqli divar rəsmləri (“Street art”) yaradacaqlar. Beləliklə, 10 min 500 kvadratmetr sahəni əhatə edən dağıntılardan ibarət Memorial Park boyunca açıq səma altında sərgi təşkil olunacaq.

**x x x**

Daha sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Zəngilan şəhərinin Baş planı təqdim olundu.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev məlumat verdi ki, Baş plan Komitənin sifarişi əsasında bu sahədə böyük təcrübəyə malik nüfuzlu beynəlxalq şəhərsalma qrupu - İsveçrənin “sa_partners” şirkəti tərəfindən yerli mütəxəssislərin iştirakı ilə hazırlanıb. Layihəyə əsasən, Zəngilan şəhəri beynəlxalq əhəmiyyətli Zəngəzur nəqliyyat dəhlizi ilə sıx əlaqələri olan strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcək. Belə ki, Araz vadisinin yaxınlığında, həm Zəngəzur nəqliyyat dəhlizindən, həm də Zəngilan Beynəlxalq Hava Limanından cəmi 10 kilometr məsafədə yenidən qurulacaq şəhər yaradılacaq əhəmiyyətli nəqliyyat şəbəkəsini müasir infrastrukturu ilə tamamlayacaq. Şəhərin strateji əhəmiyyəti nəzərə alınaraq Baş planda Zəngilanın beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqəsi olan logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdirilməsi nəzərdə tutulur.

Diqqətə çatdırıldı ki, Baş planın konseptual əsasını “rahat yaşayış”, “yaşıl və təmiz”, “mütərəqqi innovasiyalar” kimi şəhər yanaşmaları təşkil edir. Gələcəyin şəhəri mənzərəli landşaftı, çayətrafı ictimai məkanları, sağlam ətraf mühiti sayəsində sakinləri və qonaqları üçün rahat həyat şəraiti ilə seçiləcək. Şəhərin yerləşdiyi Oxçuçay çayının sahilində geniş parkın, həmçinin dağüstü parkın və daxili yaşıl dəhlizlərin salınması əhalinin asudə vaxtının səmərəli və maraqlı təşkili ilə yanaşı, təmiz ekoloji mühitin formalaşmasına imkan yaradacaq. Burada “ağıllı şəhər” yanaşmasının tətbiqi, müasir texnologiyalardan və bərpaolunan enerji mənbələrindən geniş istifadə edilməsi isə Zəngilanın yaşayış üçün əlverişliliyini artıracaq, nəqliyyat sistemini ekoloji təmiz, müasir və davamlı edəcək, onu iqtisadiyyatın inkişafı baxımından region səviyyəsində nümunəvi şəhərə çevirəcək.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “sa_partners” şirkətinin nümayəndələri ilə söhbət etdilər.

**Prezident İlham Əliyev** dedi: Salam. Siz görməyimə şadam. Təbrik edirəm. Bilirsiniz ki, çoxlu ideyalar, təkliflər olur. Lakin yekdil qərarla sizin konsepsiya ən yaxşı kimi qəbul olundu. Mən belə hesab edirəm ki, o, təbiətə yaxşı inteqrasiya edilib. Xüsusilə, burada, Zəngilanda biz şəhəri təbiətə inteqrasiya etməliyik və onu park şəhərinə çevirməliyik. Küçə boyu gəzərkən insanlar sanki özlərini parkda hesab etsinlər. Bəli, parkda, təbiətdə. Yaşayış binalarının konsepsiyası da yüksəkmərtəbəli olmayan, şəffaf, çox gözəl olmalıdır.

**Şirkətin nümayəndəsi:** Əvvəla, təşəkkürümüzü bildirməliyəm. Biz çox şadıq ki, burada - Azərbaycanın çox gözəl guşəsindəyik. Bura ən yaxşı yerlərdən biridir. Biz buraya öz töhfəmizi verdiyimizə görə fərəhlənirik. Hesab edirəm ki, eyni konsepsiya ölkənizin digər əraziləri üçün örnək olmalıdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Oxçuçayın mənzərəsini seyr etdilər.

**AZƏRTAC**
**2022, 26 may**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanış olublar**
*(27 may 2022-ci il)*

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov ilə bağban Qalib Hümbətov dövlətimizin başçısına və birinci xanıma intensiv meyvə bağında görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, burada 40 hektar sahədə intensiv ərik bağı salınıb. Hər biri 10 hektar olmaqla 4 çeşiddə ting əkilib. Tinglərdən ikisi İspaniya çeşididir, ikisi isə yerli növdür. Gələcəkdə burada 60 hektar sahədə nektarin bağının salınması nəzərdə tutulur.

İntensiv meyvə bağında yetişdirilən məhsulu saxlamaq və çeşidləmək üçün Zəngilan Logistika Mərkəzi tikiləcək. Mərkəzdə tutumu 5 min ton olan 36 soyuducu kameradan ibarət saxlama anbarı, yetişdirmə kameraları, avtomatlaşdırılmış terminallar, qablaşdırma, çeşidləmə, tərəzi sahələri, yükdaşıma, nəqliyyat parkı və ofis binası yaradılacaq.

Qeyd edək ki, "Ağıllı təsərrüfat" "Ağıllı kənd" fəlsəfəsinin 3 sütunundan biridir. Burada toxumun seçimindən başlamış aqrotexniki qulluq məsələlərinə qədər hər bir detal nəzərə alınır, nəticədə vahid sahədən maksimum məhsul götürmək mümkün olur.

**AZƏRTAC**
**2022, 27 may**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər**
*(27 may 2022-ci il)*

Mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Ağalı kənd meydanı ilə tanış olublar. Kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi yaradılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fəvvarəni işə saldılar.

Sonra dövlətimizin başçısı və birinci xanım kənd meydanında yaradılmış Dövlət Xidmətləri Mərkəzi ilə tanış olublar. Bildirilib ki, burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcək. Bunlardan məqsəd kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışı təmin etməkdir. Məsələn, kənd sakinlərinin "ASAN" və ya "DOST" xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə ehtiyac qalmayacaq. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək. Vətəndaş birbaşa videobağlantı ilə "DOST" mərkəzlərinin sosial agentinə müraciət edəcək və müraciəti yerindəcə həll olunacaq.

Kənd ağıllı idarəetmə mərkəzi (situasiya mərkəzi) ilə tanışlıq zamanı SİNAM şirkətinin rəhbəri Elçin Əliyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi ki, "Ağıllı kənd" üçün "ağıllı həllər" də nəzərdə tutulub. Bundan əsas məqsəd istismar xərclərinin azalmasından, yaşayış səviyyəsinin isə yüksəldilməsindən ibarətdir. Əsas məsələ yüksək sürətli internetdir. Ağalı kəndindəki internetin sürəti ölkə üzrə orta sürətdən dəfələrlə artıqdır.

Dövlətimizin başçısı və birinci xanım Ağalı kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri ilə də tanış oldular.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "golf car"la kəndin ərazisini gəzdilər, 5 nömrəli üçotaqlı evə baxdılar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndində "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi ilə də tanış oldular.

Ailə sağlamlıq mərkəzində tele-tibb sisteminin təqdimatı zamanı dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, tele-tibb vasitəsilə xəstənin qanında arterial təzyiq, oksigen təchizatı, triqleserin və şəkər ölçülür, ürək ritmi, dəri örtüyü və göz bəbəyinin görüntüsü əldə edilir. Cihazlardan toplanan məlumatlar xüsusi planşetlə platformaya ötürülür, ürək, ağ ciyər, böyrək, dalaq, lor (qulaq, burun, boğaz), dermatoloji xəstəliklərin, həmçinin qalxanabənzər və mədəaltı vəzin müayinəsində istifadə edilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Salam Doktor" platforması üzərindən əhaliyə xidmət göstərən azərbaycanlı həkimlərlə videobağlantı vasitəsilə söhbət etdilər.

**Mehriban xanım Əliyeva**: Salam.

**Prezident İlham Əliyev**: Salam.

Danimarkada yaşayan həkim **Məsud Aşina**: Möhtərəm cənab Prezident, salam. Mehriban xanım, salam.

Sizi öz adımdan və həmkarlarım adından Danimarkadan salamlayıram. Mən Bakıda anadan olmuşam, 33 ildir Danimarkada yaşayıram, nevrologiya üzrə professoram. Bakıdan olan travmatoloq Siyamak Nani, - beş ildir İsveçdə yaşayır və mənim kiçik qardaşım Harvarddan, Bostondan Sait Aşina da bizimlə bir yerdədir. O da Bakıda anadan olub, amma Tibb Universitetini Danimarkada bitirib.

Həkim Cavid Baloğlanov da bizimlə bir yerdədir, "Salam Doktor"u təmsil edirik. Fürsətdən istifadə edərək Sizə təşəkkürümü bildirmək istəyirəm ki, belə bir imkan yaradılıb. Biz bu texnologiyadan istifadə edəcəyik. Əsas məqsəd ondan ibarətdir ki, seminarlar, konsultasiyalar, konsiliumlar keçirək, tele-tibb imkanından maksimum istifadə edib hər zaman Qarabağ zonasında, bizim Zəngəzurda olaq. Sizə təşəkkürümü bildirmək istəyirəm, çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

"Salam Doktor" şirkətinin tibbi direktoru **Cavid Baloğlanov:** Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, bir məsələni də vurğulamaq istəyirəm, bizim "Salam Doktor" platformamızın xüsusiyyəti ondan ibarətdir ki, bu, Azərbaycanda ilk milli platformadır və tərəfimizdən istehsal olunmuş milli proqram təminatıdır.

**Prezident İlham Əliyev**: Sağ olun. Sizi görməyimə şadam. Bu təşəbbüsə qoşulduğunuza görə sizə minnətdaram. Mən çox şadam ki, xaricdə yaşayan azərbaycanlılar azad edilmiş torpaqların bərpası ilə bağlı fəal çalışırlar, işləyirlər. Bu platformanın həyata keçirilməsində, əlbəttə ki, xaricdə yaşayan soydaşlarımız da mühüm rol oynayıblar. Bildiyiniz kimi, keçən ay Dünya Azərbaycanlılarının Qurultayı ilk dəfə olaraq Şuşada keçirilmişdir. Hamımızın böyük arzusu idi ki, bir gün bu qurultay Şuşada keçirilsin, buna da nail olduq. Xaricdə yaşayan yüzlərlə azərbaycanlı doğma Şuşamıza gəlib burada öz ürək sözlərini deyə biliblər. Əlbəttə ki, dünya azərbaycanlılarının azad edilmiş torpaqlarda bərpa işlərinin aparılmasında da böyük rolu ola bilər. Artıq var, biz bunu görürük. Bax, bugünkü bizim videobağlantımız bunu əyani şəkildə göstərir.

Bildiyiniz kimi, biz azad edilmiş torpaqları müasir mütərəqqi texnologiyalara əsaslanmış böyük bir məkan kimi görmək istəyirik və indi olduğumuz Ağalı kəndinin timsalında bunu görürük. Ona görə aparıcı Qərb ölkələrinin texnologiyaları, o cümlədən tibb sahəsində və digər sahələrdə burada tətbiq edilərsə, əlbəttə ki, biz istədiyimizə nail ola bilərik.

Bu gün biz videoformatda görüş keçirərək bir-birimizi görürük. Amma arzu edirəm ki, siz buraya da gələsiniz, azad edilmiş digər yerlərdə, o cümlədən Ağalı kəndində də olasınız və bu gediş-gəliş daimi olsun.

Mən Qurultay zamanı xaricdə yaşayan soydaşlarımıza üz tutaraq demişdim ki, istərdim, hər biriniz heç olmasa ildə bir dəfə Azərbaycana, Qarabağa, Zəngəzura gələsiniz və bizim bu canlı bağlantımız, qəlbdən-qəlbə gedən bu bağlar daha da möhkəm olsun. Bu gün burada iştirak etdiyiniz üçün sizə təşəkkürümü bildirirəm.

Həkim **Məsud Aşina**: Təşəkkür edirəm, cənab Prezident, biz hər zaman hazırıq. Mən özüm də Şuşa Qurultayında iştirak etdim. Mənim üçün çox qürurlu gün idi. Mən sonuncu dəfə 1984-cü ildə Şuşada olmuşdum. Artıq bu il Şuşaya gəlmişdim. Çox böyük həyəcan keçirdim. Biz hər zaman orada olmalıyıq, həmişə bir yumruq kimi Sizin yanınızda olmalıyıq.

**Prezident İlham Əliyev:** Sağ olun. Qarabağ Azərbaycandır!

**Azərbaycanlı həkimlər:** Qarabağ Azərbaycandır! Sağ olun.

**x x x**

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kənddəki uşaq bağçasında yaradılan şərait barədə məlumat verildi. Həmçinin kənd tam orta məktəbinə baxış zamanı distant təhsil həllərinin təqdimatı keçirildi.

Bakıdakı Heydər Əliyev adına Müasir Təhsil Kompleksi ilə canlı bağlantıda Prezident İlham Əliyev dedi: Əminəm ki, Ağalı məktəbi ilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin arasında əlaqələr bundan sonra da davam edəcək. Burada oxuyan uşaqlar gələcəklər Bakıya, sizin şagirdlərinizlə, eyni zamanda, müəllim heyəti ilə görüşəcəklər. Yəni, bu təmaslar davamlı olmalıdır, həm distant təhsillə bağlı, eyni zamanda, canlı təmaslara da böyük ehtiyac var. Yaxın günlərdə ilk vətəndaşlar burada məskunlaşacaqlar. Ondan sonra yaxşı olardı ki, siz müəllimlər və eyni zamanda, uşaqlar buraya gələsiniz, bu gözəlliyi görəsiniz, necə deyərlər, bu videobağlantı artıq canlı bağlantıya keçsin.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçasının binasında monolit dəmir-beton, xarici və daxili divarların hörgü işləri, kommunikasiya xətlərinin çəkilişi və damın quraşdırılması üzrə işlər tam başa çatdırılıb, daxili və xarici bəzək işləri görülür. Göründüyü kimi, "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır.

Dövlətimizin başçısına və birinci xanıma "Ağıllı kənd" layihəsinə dair stendin təqdimatında "Ernst & Young" şirkəti ilə birgə hazırlanmış "İqtisadi səmərəliliyin təhlili"nin əsas məqamları, kəndin perspektiv inkişaf planı və kənd bazarının planı, həmçinin şəhər evi tipli üç nəfərədək ailələrin məskunlaşması üçün evlərin planı barədə məlumat verildi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndinin sakinləri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**x x x**

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kənddəki uşaq bağçasında yaradılan şərait barədə məlumat verildi. Həmçinin kənd tam orta məktəbinə baxış zamanı distant təhsil həllərinin təqdimatı keçirildi.

Bakıdakı Heydər Əliyev adına Müasir Təhsil Kompleksi ilə canlı bağlantıda **Prezident İlham Əliyev** dedi: Əminəm ki, Ağalı məktəbi ilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin arasında əlaqələr bundan sonra da davam edəcək. Burada oxuyan uşaqlar gələcəklər Bakıya, sizin şaridlərinizlə, eyni zamanda, müəllim heyəti ilə görüşəcəklər. Yəni, bu təmaslar davamlı olmalıdır, həm distant təhsillə bağlı, eyni zamanda, canlı təmaslara da böyük ehtiyac var. Yaxın günlərdə ilk vətəndaşlar burada məskunlaşacaqlar. Ondan sonra yaxşı olardı ki, siz müəllimlər və eyni zamanda, uşaqlar buraya gələsiniz, bu gözəlliyi görəsiniz, necə deyərlər, bu videobağlantı artıq canlı bağlantıya keçsin.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçasının binasında monolit dəmir-beton, xarici və daxili divarların hörgü işləri, kommunikasiya xətlərinin çəkilişi və damın quraşdırılması üzrə işlər tam başa çatdırılıb, daxili və xarici bəzək işləri görülür. Göründüyü kimi, “Ağıllı kənd”də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır.

Dövlətimizin başçısına və birinci xanıma “Ağıllı kənd” layihəsinə dair stendin təqdimatında “Ernst & Young” şirkəti ilə birgə hazırlanmış “İqtisadi səmərəliliyin təhlili”nin əsas məqamları, kəndin perspektiv inkişaf planı və kənd bazarının planı, həmçinin şəhər evi tipli üç nəfərədək ailələrin məskunlaşması üçün evlərin planı barədə məlumat verildi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndinin sakinləri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

- Əziz dostlar, ilk növbədə, sizi qarşıdan gələn Müstəqillik Günü münasibətilə təbrik edirəm. Sizə və bütün Azərbaycan xalqına daim rifah, xoşbəxtlik arzulayıram. Müstəqillik Günü ərəfəsində biz sizinlə görüşürük, Ağalı kəndində, dirçələn Ağalı kəndində. Bunun çox böyük rəmzi mənası var. Çünki Ağalı kəndinin yenidən qurulması və belə müasir vəziyyətə gətirilməsi müstəqilliyimizin möhkəmlənməsindən asılı idi. Bu gün hər bir Azərbaycan vətəndaşı və əminəm, hər bir insan ümumiyyətlə görür ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir.

İlk Xalq Cümhuriyyəti yaradılanda vəziyyət fərqli idi. Əlbəttə, rus imperiyasının dağılması nəticəsində Azərbaycan xalqı 104 il bundan əvvəl müstəqilliyə qovuşdu. Ancaq birinci respublika çox yaşaya bilmədi, süqut etdi, cəmi iki ilə yaxın müddət ərzində yaşamışdır. Düzdür, bir çox önəmli addımlar atılmışdır və Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini biz daim hörmətlə anırıq. Ancaq, eyni zamanda, onu da bilməliyik ki, müstəqillik cəmi iki il çəkdi. Ondan sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi, müstəqilliyi qoruya bilmədi və Azərbaycan xalqı azadlıqdan məhrum edildi. Bununla bərabər, hamımız yaxşı bilirik ki, o vaxt Ermənistan millətçiləri xalqımıza və gənc Xalq Cümhuriyyətinə qarşı təcavüzə başlamışdılar və bunun nəticəsində Azərbaycan xalqı böyük əzablar yaşamışdır.

Onu da artıq nəinki Azərbaycanda, dünyada bilirlər ki, dövlət müstəqilliyimiz elan olunandan bir gün sonra Azərbaycan Xalq Cümhuriyyəti bizim qədim şəhərimiz olan İrəvanı Ermənistana təhvil verdi və bu, bağışlanmaz bir cinayət idi. Beləliklə, bizim qədim diyarımız bizdən ayrı düşdü.

Amma Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayandan bir neçə ay sonra Zəngəzur da bizim əlimizdən alındı. Bu tarixi də hər kəs bilməlidir, 1920-ci ilin noyabrında sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız Qərbi Zəngəzur Azərbaycandan ayrıldı və Ermənistana verildi. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlər boyu yaşamışdır və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri, bütün kəndlərin milli tərkibi Azərbaycan xalqına məxsus idi.

Müasir Azərbaycan müstəqilliyə qovuşandan sonra da vəziyyət təxminən eyni idi. Çünki iki il ərzində - 1991-ci ilin oktyabrından 1993-cü ilə qədər Ermənistan Azərbaycana qarşı növbəti təcavüz etmişdir və müstəqillik elan olunandan dörd ay sonra Ermənistan dövləti xalqımıza qarşı Xocalı soyqırımını törətmişdir. Ondan üç ay keçəndən sonra Şuşa işğal olundu, Laçın işğal olundu və 1993-cü ilin aprelində Kəlbəcər işğal olundu. Beləliklə, Ermənistanla Qarabağ arasında canlı bağlantı yaradıldı.

Biz 1993-cü ildə də eyni vəziyyətlə üzləşə bilərdik. Yəni, müstəqilliyimiz faktiki olaraq böyük təhlükə altında idi, sözdə var idi, amma de-fakto yox idi. Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi. Müstəqillik, əsl müstəqillik məhz odur ki, sən müstəqil siyasət apara bilirsən, yoxsa yox. Əks təqdirdə bu, sadəcə olaraq, şərti xarakter daşıyır.

1993-cü ildən başlayaraq xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət edəndən sonra əsl müstəqillik həyatımız başlamışdır. Bu gün burada olmağımız, Ağalı kəndinin açılışında iştirak etməyimiz məhz müstəqilliyimizin möhkəmlənməsinə bağlıdır. Nə XX əsrin əvvəllərində, nə də sonlarında müstəqilliyimiz möhkəm olmamışdır. Ona görə xalqımız böyük faciələrlə üzləşmişdi. Həm Şərqi Zəngəzur, həm Qarabağ işğala məruz qaldı. Ovaxtkı hakimiyyət torpaqlarımızı qoruya bilmədi. Ancaq bu gün müstəqilliyimiz möhkəmdir və bunun nəticəsində biz İkinci Qarabağ müharibəsində Qələbə qazandıq, tarixi Qələbə qazandıq. Bunun nəticəsində düşməni diz çökdürdük və bunun nəticəsində bu gün biz buradayıq.

Biz müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük. Siyasi cəhətdən tam müstəqilik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir.

Biz iqtisadi cəhətdən müstəqilik. Bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil. Bunu yaxın tarix göstərib. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax, bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir. Bu haqda Azərbaycan xalqı müntəzəm olaraq məlumatlandırılır.

Siyasi və iqtisadi müstəqillik imkan verdi ki, biz öz həyatımızı bildiyimiz kimi quraq, Azərbaycan xalqının qədim ənənələri, dəyərləri əsasında dövlət quraq və bu dövlətdə rahat yaşayaq. Bu gün dünyada gedən proseslər hər birimizin gözü önündədir. Azərbaycan sabitlik, təhlükəsizlik diyarıdır, deyə bilərəm ki, adasıdır. Bunu artıq bütün dünya görür və bilir. Əlbəttə, biz müstəqil olmasaydıq, yəni, sözün əsl mənasında, müstəqil olmasaydıq, erməni işğalına son qoya bilməzdik. Çünki bu işğalı şərtləndirən hansı amillər olub, əlbəttə ki, xarici amillər. Ermənistan özü nə hərbi, nə siyasi, nə iqtisadi cəhətdən hətta orta səviyyəli dövlət sayıla bilməz. İndi Ermənistandakı vəziyyət göz qabağındadır. Əlbəttə, biz bu xarici amilləri nəzərə almalıyıq. Amma, eyni zamanda, bu, bizi dayandıra bilməzdi. Müharibənin ilk günlərindən son gününə qədər mən demişdim ki, heç kim və heç nə bizi dayandıra bilməz. Ancaq Ermənistan rəhbərliyi bizə tarix verməlidir, nə vaxt bizim torpağımızdan rədd olur, onda biz dayanmağa hazırıq və sözümüzə də əməl etdik. Ona görə əgər müstəqil siyasət aparmasaydıq, ola bilər ki, bu xarici amillər, Ermənistanın xarici havadarları, onların bəzilərinin bizə hədə-qorxu gəlməsi bizi bu işdən çəkindirə bilərdi. Ancaq çəkindirmədi. Çünki güclü iradə göstərdik, xalqımız birləşdi və bunun da təməlində, əlbəttə ki, həmrəylik, milli qürur, ləyaqət və güc dayanır.

Bu gün güc amili ön plandadır. Mən bu haqda hələ on il bundan əvvəl demişdim. Mənim çıxışlarımın hamısı mətbuatda var. Dedim ki, beynəlxalq hüquq işləmir. Biz özümüzü aldatmamalıyıq, daha güclü olmalıyıq, güc toplamalıyıq. Lazım olarsa, düşməni güc yolu ilə torpağımızdan qovmalıyıq. Bunu demişəm də, bunu etmişəm də.

Bundan sonra da güc amili dünyada hakim olacaq. Bunu indi yaxın tarix də göstərir. Ona görə bundan sonra da güclü olmalıyıq və güclü oluruq. Bu gün iqtisadi göstəricilərimiz çox müsbətdir. Deyə bilərəm ki, dünya miqyasında ən sürətlə inkişaf edən ölkələrdən biri Azərbaycandır. Hərbi gücümüzü də artırırıq. Müharibədən sonra yeni silahlı birləşmələr yaradılır, yeni texnika alınır və bundan sonra da biz bunu edəcəyik. Çünki biz güclü olmasaq, istədiyimiz kimi yaşaya bilmərik. Biz istəyirik ki, azad yaşayaq. Biz istəyirik ki, bundan sonra heç kim bizim işimizə qarışmasın. Buna ehtiyac yoxdur. Biz elə gözəl dövlət qurmuşuq ki, bu gün bir çoxları buna həsəd aparır. Heç kim gəlib bizə dərs oxumasın, məsləhət verməsin, öyrətməsin. Buna ehtiyac yoxdur.

Mən Prezident kimi hər dəfə bu cəhdləri dəf edəndə xalqa arxalanıram, dövlətimizin gücünə arxalanıram, o cümlədən hərbi, iqtisadi və siyasi gücünə. 44 günlük Vətən müharibəsi həm xalqımızın gücünü, həm də mənəvi keyfiyyətlərini göstərdi. Biz ermənilərdən fərqli olaraq dinc əhaliyə qarşı müharibə aparmamışıq. Biz ermənilərdən fərqli olaraq etnik təmizləmə aparmamışıq. Biz Ermənistandan fərqli olaraq şəhər və kəndləri yerlə-yeksan etməmişik. Biz azərbaycanlıyıq, bu, bizə yaraşmaz. Bizim təfəkkürümüz, bizim adət-ənənələrimiz və dədə-babalardan qalan miras bunu qoymaz. Bütün dünya bunu gördü ki, azərbaycanlılar necə məharətlə, peşəkarlıqla, fədakarlıqla və ləyaqətlə vuruşdular, öz vəzifə borclarını yerinə yetirdilər və Qarabağ münaqişəsini müharibədən sonra siyasi yollarla həll etdilər. Biz bu məsələni həll etmişik, Ermənistan istəsə də, istəməsə də bunu bütün dünya qəbul edir. Biz Dağlıq Qarabağ münaqişəsini həll etmişik. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Qaldı ki, Dağlıq Qarabağ inzibati ərazisinə, bu ərazi Azərbaycan ərazisində yoxdur. Ona görə beynəlxalq qurumların leksikonunda Dağlıq Qarabağ sözü yoxdur və son Brüssel görüşü bunu bir daha göstərdi. Düzdür, Ermənistanda indi bu məsələ ilə bağlı yenə də hay-haray qaldırıblar və necə deyərlər, başlarını divara vururlar, amma bu, reallıqdır və onlar bu reallıqla barışmağa məcburdurlar.

Dağlıq Qarabağ münaqişəsi həll olunub, Minsk qrupu öz fəaliyyətini başa vurub. Minsk qrupu ilə bağlı mən öz fikirlərimi demişdim, bir daha təkrar etməyə ehtiyac yoxdur və indi postmünaqişə dövrüdür. Biz bu dövrdə yaşayırıq və postmünaqişə dövründə də biz gündəliyi diktə edirik və müharibədən keçən ilyarım ərzində nəyi istəmişiksə ona nail olmuşuq. Nəyi demişəmsə buna biz nail olmuşuq, ya da ki, nail oluruq. Birincisi, bütün dünya, aparıcı ölkələr və aparıcı beynəlxalq təşkilatlar yeni reallıqları qəbul ediblər. Bu, çox vacib idi, çünki başqa cür də ola bilərdi. Bu, bizim çox böyük siyasi uğurumuzdur. İkincisi, bizim gündəliyimiz artıq aparıcı beynəlxalq təşkilatlar tərəfindən əsas kimi götürülür. Mən demişdim ki, biz Ermənistanla sərhədləri müəyyən etməliyik. Ermənistan bundan imtina edirdi, ilyarım imtina edirdi. Amma nəticə nə oldu? Mayın 24-də Azərbaycan-Ermənistan sərhədində komissiyaların birinci görüşü keçirildi. Bunun çox böyük mənası var. Həm o nöqteyi-nəzərdən ki, biz bu sərhədləri müəyyən edəcəyik və bu, çox vacibdir. Çünki ermənilər o sərhədləri də zəbt etmişlər. Digər tərəfdən bu, avtomatik olaraq Ermənistanda revanşist, faşist qüvvələr tərəfindən Azərbaycana qarşı irəli sürülən ərazi iddialarına da rəsmən son qoyur. Çünki əgər biz sərhədləri müəyyən ediriksə, hansı dırnaqarası "Dağlıq Qarabağ" statusundan söhbət gedə bilər?! Qarabağ zonası var, Qarabağ diyarı var. Bu, Azərbaycan ərazisidir və bütün dünya bunu qəbul edir. Ona görə Azərbaycan-Ermənistan sərhəd delimitasiyası üzrə komissiyaların birinci iclasının çox böyük əhəmiyyəti var.

Digər məsələ, biz demişdik ki, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi imzalanmalıdır. Ermənistan bundan boyun qaçırmağa can atırdı. Çünki sülh müqaviləsi ölkələrin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması deməkdir. Amma nəticə etibarilə biz buna da nail olduq və artıq Azərbaycan öz işçi qrupunu müəyyən edib. Daha bir vacib məsələ, Zəngəzur dəhlizinin açılmasıdır. Ermənistan hər zaman buna da maneçilik törətməyə çalışırdı. Amma yenə də, Brüssel görüşünün rəsmi açıqlamasına baxın, artıq həm dəmir yolu, həm avtomobil yolunun Mehridən, Zəngəzurdan keçməsi müəyyən olunub. Yəni, biz buna da nail oluruq və mən demişdim ki, nail olacağıq. Yəni, biz gündəliyi diktə edirik. Nəyin hesabına? Əlbəttə ki, müharibənin nəticələrinin hesabına. Çünki biz qalib dövlətik, Ermənistan məğlub edilmiş dövlətdir. Bu reallığı hər kəs qəbul etməlidir və edir. Əlbəttə ki, bu amil Azərbaycan-Ermənistan təmasları əsnasında ön plandadır.

Digər səbəb nədir? Bizim gücümüz. Ermənistan xarici dəstək olmadan ayaqda dura bilməz. Bunu onlar da yaxşı bilirlər. Amma biz? Biz müharibəni bütün təzyiqlərə, hədə-qorxulara rəğmən elə aparmışıq və istədiyimizə nail olmuşuq. "Öldü var, döndü yoxdur" demişik, buna əməl etmişik və indi qalib xalq kimi üzümüz ağ, alnımız açıq yaşayırıq.

Əlbəttə, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Amma bununla bərabər, biz heç bir qeyri-real tələb də irəli sürmürük. Biz deyirik ki, ərazi bütövlüyümüzü tanıyın, gəlin sərhədləri müəyyən edək, hərə öz ölkəsində yaşasın, bir-birinin işinə qarışmasın. Biz bunu deyirik və mənim tərəfimdən irəli sürülmüş sülh müqaviləsi üçün 5 əsas prinsipin mahiyyəti də budur. O cümlədən bir-birinə qarşı ərazi iddialarından əl çəkmək prinsipi də böyük önəm daşıyır və Ermənistan rəhbərliyi bu 5 prinsipi qəbul edib. İndi nə isə əlavə etmək istəyir, amma əsas fundamental prinsiplər budur. O ki qaldı, ermənilərin Azərbaycanda yaşamasına - istər Qarabağ bölgəsində, istər başqa yerlərdə bu məsələdə heç bir problem yoxdur. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bütün xalqların nümayəndələri rahat yaşayırlar, bütün hüquqlardan istifadə edirlər. Heç vaxt Azərbaycanda milli, dini zəmində ayrı-seçkilik olmayıb və olmayacaq. Ona görə Azərbaycanda

yaşayan ermənilərin hüquqları, təhlükəsizliyi Azərbaycanda yaşayan digər xalqların təhlükəsizliyi, hüquqları qədər önəmlidir. Burada hansısa xüsusi imtiyazdan söhbət gedə bilməz. Bir də ki, dünyada, Avropada təcrübə var. İndi Avropada müxtəlif konvensiyalar var. Həm Avropa Şurası ölkələri bu konvensiyalara qoşulublar, həm Avropa İttifaqı ölkələri çərçivəsində qaydalar və rəsmi sənədlər var. Orada hər şey göstərilib və biz bu ümumbəşəri trend, yəni, meyil məcrasında gedirik. Ermənistan əgər hansısa xüsusi tələb irəli sürərsə bilməlidir ki, bizim də bir çox tələblərimiz ola bilər. Bax, buraya çox da uzaq olmayan məsafədə bizim qədim torpağımız Qərbi Zəngəzurdur. Biz Ermənistana qarşı ərazi iddiası ilə çıxış etmirik ki? Etmirik. Amma əgər onlar bizə qarşı ərazi iddiası ilə çıxış edəcəksə, biz niyə etməməliyik? Tarix var. Hər kəs açsın baxsın kitablara, ensiklopediyalara: nə vaxt Qərbi Zəngəzuru bizdən ayırıb Ermənistana verdilər? 1920-ci ilin noyabrında.

O ki qaldı, ermənilərin Azərbaycanda yaşamasına, bu tarixi də hər kəs yaxşı bilir. Rus-İran müharibəsindən sonra XIX əsrin əvvəllərində İrandan və Şərqi Anadoludan ermənilər kütləvi surətdə köçürülüb və Azərbaycanda, Qarabağda məskunlaşdırılıb. Bunu biz hamımız yaxşı bilirik. O ki qaldı, 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına, onun da heç bir əsası yox idi. Bu, qanunsuz bir addım idi, sadəcə olaraq, bir saat bombasını Azərbaycanın canına yerləşdirmək, istənilən an onu partlatmaq və xalqımızı məhv etmək məqsədi daşıyırdı. Heç bir əsası yox idi ki, orada hansısa bir muxtar vilayət yaradılsın. Özü də Şuşanı da salmışdılar onun içinə.

Mən nə üçün bunu deyirəm, çünki Ermənistanda faşistlər hələ, necə deyərlər, baş qaldırmağa cəhd göstərirlər və onlara elə gəlir ki, əgər onlar hakimiyyətdə olsaydılar müharibənin nəticələri başqa cür ola bilərdi. Qətiyyən yox! Onlara elə gəlir ki, əgər onlar hakimiyyətə gəlsələr, nə isə əldə edə bilərlər. Qətiyyən yox! Əksinə, əgər istəmirlərsə ki, onların başı bir daha əzilsin, otursunlar və bu tərəfə heç baxmasınlar. Biz hələ ki, səbirlə bu mənzərəni izləyirik. Amma bunu Ermənistan faşistləri - bizə hürməyə çalışan faşistlər bilsinlər ki, hər an onların dərsini verməyə bir daha hazırıq, necə ki, İkinci Qarabağ müharibəsi zamanı. İndi kimdir Ermənistanda meydan sulayan? İkinci Qarabağ müharibəsi zamanı Qarabağdan dovşan kimi qaçan Sarkisyan-Köçaryan cütlüyü. Əgər onlar belə qəhrəman idilərsə, niyə qaçmışdılar? Oturardılar, vuruşardılar. Hər ikisi Xankəndidə idi, o cümlədən onların keçmiş müdafiə naziri. İndi bizi hədələməyə çalışırlar. Niyə qaçmısınız dovşan kimi? Axı, gərək bunu unutmasınlar. Bizim gücümüzü hər an görüb buna adekvat addım atsınlar.

Biz isə bundan sonra müzəffər xalq kimi yaşayacağıq. Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü bərpa etdik, həm ədaləti bərpa etdik, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq. Bax, həyat qayıdır - Zəngilana, başqa yerlərə, Şuşaya. Yaxşı bilirsiniz ki, bu bölgənin inkişafı üçün nə qədər böyük işlər görülür. İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək.

Dünən mən Zəngilan şəhərinin Baş planı ilə tanış oldum. Hesab edirəm ki, ən gözəl variantı seçdik. Bu sahədə təcrübəsi olan beynəlxalq şirkət Baş planı təqdim etdi və mən dedim ki, Zəngilan şəhəri park şəhərinə çevrilməlidir. Yəni, Zəngilanın təbiəti o qədər gözəldir ki, biz təbiətə bir zərrə ziyan vurmamalıyıq, əksinə, təbiəti daha da zənginləşdirməliyik, xüsusilə nəzərə alsaq ki, ermənilər Bəsitçay təbii qoruğunu da məhv etmişlər. O məşhur palıd ağaclarını da kəsmişlər, Oxçuçayı da zəhərləmişlər. Vejnəlidə də bizim qızıl yataqlarımızı istismar edərkən heç bir ekoloji normaya riayət etməmişlər. Biz təbiəti qorumalıyıq və Zəngilan şəhərinin artıq dünən Baş planı təsdiq olunandan sonra inşaat işləri başlanacaq.

Əlbəttə ki, bunu artıq bilməyən yoxdur, birinci pilot layihə məhz Zəngilanda icra edildi, Ağalı kəndində. Bir il bundan əvvəl inşaat işləri başlamışdır. İndi 200 evdən ibarət gözəl kənd salınıb - “Ağıllı kənd”. Bu gün bu kəndlə tanış olarkən, - bilirsiniz, mən dəfələrlə burada olmuşam, - görürəm ki, doğrudan da böyük, necə deyərlər, mütərəqqi bir addım atmışıq.

Bilirəm ki, Ağalı kəndində yaşayan ailələrin sayı 200-dən çoxdur. Ona görə yeni layihə təqdim edildi. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulur. Məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, bütün xidmətlər – “ASAN”, “DOST”, kiçik və orta biznesə dəstək, hər şey burada var. Bir o qalıb ki, 30 ilə yaxın həsrət içində yaşayan insanlar gəlsinlər, burada rahat yaşasınlar, müzəffər xalq kimi əbədi yaşasınlar. Belə də olacaq. Bundan sonra həm Zəngilan rayonunda, həm digər rayonlarda, indi Baş planları təsdiq edilmiş rayonlarda inşaat işləri daha sürətlə gedəcək.

Mən sizi tarixi hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

x x x

Ağalı kənd sakini **Fərmayıl İsmayılov**: Cənab Prezident. Biz çox qürur hissi duyuruq ki, həqiqətən də bugünkü gün bir Ağalı kənd sakini kimi mənim həyatımda tarixə yazılası bir gündür. Çünki bu gün mən Sizinlə bir masa ətrafında əyləşmişəm. Bu, mənim həyatımda tarixə yazılan bir gündür. Bu, mənə nəsib olduğu üçün Sizə minnətdarlığımı bildirirəm. Dərin təşəkkürümü bildirirəm ki, Siz tarixi Qələbə qazanan bir Prezident kimi vaxt tapıb bizimlə görüşə gəlmisiniz. Bu, bizim üçün qürurverici bir haldır, şəxsən mən bunu çox yüksək dəyərləndirirəm. Çünki biz bu 28 il müddətində, - mən şəxsən özümdən danışıram, - valideynlərimizin qəbirlərini ziyarət edə bilmirdik, gecə-gündüz onu yuxuda görürdük. Kəndimizdə bir daş var idi, mən həmişə onu yuxuda görürdüm, öz tay-tuşlarıma da danışırdım ki, belə bir yuxu görürdüm, o daşı həmişə gedib görmək istəyirdim. Öz həyətimizə gedə bilmirdim. Amma Siz onu bizə bəxş etdiniz.

Sizə dərin təşəkkürümüzü bildiririk. Allah Sizi həmişə var eləsin, bizim başımızın üstündən əskik etməsin. Biz də Ağalı kəndinin sakinləri həmişə Sizin siyasətinizi dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Həyata keçirdiyiniz quruculuq işlərində əlimizdən gələni etməyə canla-başla hazırıq.

Çox sağ olun, var olun, Allah Sizi qorusun.

**Prezident İlham Əliyev**: Çox sağ olun.

x x x

Ağalı kənd sakini **Gəray Hüseynov**: Cənab Prezident. Sizi qədim Zəngəzur diyarının ən gözəl guşələrindən biri olan Zəngilanımızda salamlayırıq. Cənab Prezident, bir ilə yaxındır ki, bu Ağalı kəndinin təməlini qoymusunuz. Artıq bu gün Ağalı kəndi Sizin sayənizdə çox gözəl şəkildə tikilib, qurulub, yaradılıb. Sizə öz dərin təşəkkürümü bildirirəm, Sizə cansağlığı arzulayıram ki, Ağalı camaatı üçün belə gözəl şəraiti yaratmısınız. Sizi əmin edirəm, bizim Ağalı sakinləri səbirsizliklə o günü gözləyirlər ki, tezliklə bu kəndə köçüb yaşasınlar. Çox sağ olun.

**Prezident İlham Əliyev**: Sağ ol.

x x x

Ağalı kənd sakini **Gülüş Səmədli**: Hörmətli Ali Baş Komandan, dəyərli Birinci vitse-prezidentimiz Mehriban xanım. Sizləri əzəli torpağımızda - Zəngilanda salamlamaq mənim üçün qürurverici hadisədir. Bu, mənim Zəngilana ilk səfərim deyil, üçüncü səfərimdir. İlk səfərim Sizinlə təməlqoyma mərasimində olmuşdu. Az müddət ərzində Zəngilanda dirçəlişi görmək həqiqətən bizə qürur verir. Az müddətdə xeyli dəyişiklik olmuşdur. Eyni zamanda, biz Azərbaycan xalqı olaraq, Zəngilan sakinləri olaraq hər zaman Sizin siyasətinizi dəstəkləyir, bir yumruq kimi Sizin ətrafınızda birləşirik.

Zəngilanda "Ağıllı kənd"in təməlinin qoyulması və bu gün "Ağıllı kənd"in ərsəyə gəlməsi təkcə Azərbaycan Respublikasında ilk deyil, eyni zamanda, MDB ölkələrində də ilkdir. Biz bununla bütün dünyaya sübut etdik ki, yoxdan var yaratmışıq. Yəni, biz az müddətdə xeyli dirçəliş etmişik. Şəxsən mən Zəngilan rayonunun ən gənc sakini və həm də hüquqşünas olaraq canla-başla gəlib burada məskunlaşıb xalqıma xidmət etməyi arzulayıram. İnşallah, o günləri də səbirsizliklə gözləyirəm. Çünki mən bilirəm ki, burada həm gənclər, həm də yaşlı sakinlər üçün xeyli iş yerləri var. Mən də öz hüquqşünas ixtisasıma uyğun olaraq işlə təmin olunacağıma və xalqıma vicdanla xidmət edəcəyimə əminəm.

Bir daha Sizlərə təşəkkür edirəm. Allah Sizləri var eləsin. Biz hər zaman Sizinləyik.

x x x

**Prezident İlham Əliyev**: Sağ ol. Mən çox şadam ki, gənclər də öz dədə-baba yurduna qayıtmağa çox həvəslidirlər. Mən bunu alqışlayıram. İkinci Qarabağ müharibəsi başa çatandan sonra mən göstəriş vermişdim ki, keçmiş məcburi köçkünlər arasında sorğu keçirilsin, kim qayıtmaq istəyir, kim qayıtmaq istəmir. Çünki bilirsiniz, həyat elə şeydir ki, hər şey ola bilər. 30 il, 27 il böyük bir zaman kəsiyi idi. Məsələn, Zəngilan 27 il işğal altında idi, digər şəhər və rayonlarımız da bir qədər çox, bir qədər az. Elə insanlar var ki, artıq onlar həyat qurublar, haradasa işləyirlər, həyatdan da razıdırlar və heç yerə getmək istəmirlər, şəhərdə yaşayırlar, Bakıda, Sumqayıtda. İndi böyük şəhərdən kiçik şəhərə, kəndə qayıtmaq o qədər də asan məsələ deyil. Bunu hər kəs anlamalıdır. Nəzərə alsaq ki, qayıdış da könüllü olmalıdır və biz

elə şərait yaratmalıyıq ki, hər kəs qayıtmaq istəsin. Ona görə dedim ki, sorğu keçirək və nəticələrinə baxaq. Çünki biz indi böyük işlərə start veririk, yaşayış evləri, məktəblər, xəstəxanalar – bütün bunlar hesablanmalıdır nə qədər adam yaşayacaq. Çünki böyük məsrəfdir. Mənə məlumat verildi ki, məcburi köçkünlərin mütləq əksəriyyəti qayıtmaq istəyir. Bu, məni çox sevindirdi. Mən belə də təxmin edirdim. Bu, bir daha göstərdi ki, xalqımız öz ulu babalarının yurduna nə qədər bağlıdır. Hətta Zəngilanı görməyənlər Zəngilanda yaşamaq istəyirlər. Necə ki, Vətən müharibəsində Qarabağı heç vaxt görməyənlər Qarabağ uğrunda ölümə getməyə hazır idilər və ölümə də getmişdilər. Üç minə yaxın şəhidimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Ancaq insanların qayıdışı üçün şərait olmalıdır. Bax, biz birinci layihəni icra etdik, bunu təqdim etdik, həm Ağalı kəndinin sakinlərinə, həm də bütün Azərbaycana. Bizim gələcək planlarımız da belədir. İndi birinci mərhələdə hər rayonda bir çox kəndlər seçilib ki, ilk növbədə orada işlər aparılacaq. Ondan sonra insanlar qayıtdıqca, əlbəttə ki, bütün qalan yerləri də bərpa edəcəyik. Əlbəttə, ilk növbədə, böyük şəhərlərin Baş planları təsdiq edilməli idi. Məsələn, Ağdam, Füzuli və Şuşa şəhərlərinin Baş planları təsdiq olunub, dünən isə Zəngilan şəhərlərinin Baş planı təsdiqləndi, artıq işlərə başlanılmışdır. İndi Ağdamda yaşayış binaları inşa edilir, Füzulidə də hazırlıq işləri gedir, Zəngilanda isə gedəcək. Yəni, bu, böyük bir prosesdir və onu da bildirməliyəm ki, biz bu işi dövlət büdcəsi hesabına edirik. Heç bir yerdən heç bir yardım almamışıq, heç bir kredit almamışıq, heç bir ianə, yaxud da ki, bir hədiyyə almamışıq, öz gücümüzə arxalanırıq, necə ki, həmişə belə yaşamışıq, gücümüz qədər nailiyyətlər də əldə etmişik.

Bu il də investisiya proqramı təsdiq olunub və proqrama əlavələr də ediləcək. Mən bu gün bunu bəyan etmək istəyirəm. Biz dövlət büdcəsinə əlavələr etməliyik, çünki iqtisadi göstəricilər daha yaxşıdır. Gəlirlərimiz nəzərdə tutulandan daha çoxdur. Ona görə biz bu əlavə gəlirləri və iqtisadi imkanlarımızı səfərbər etməliyik ki, vaxt itirmədən azad edilmiş torpaqlarda daha böyük həcmdə iş görək. İndi hökumətə tapşırılıb, yəqin yaxın gələcəkdə Milli Məclis bu məsələyə baxacaq ki, biz daha çox vəsait ayıraq. Mən demişəm, iqtisadiyyatımız nə qədər güclü inkişaf edərsə, biz azad edilmiş bütün əraziləri o qədər tez bərpa edəcəyik.

Ancaq hər kəs bilməlidir ki, bu, asan məsələ deyil. Azad edilmiş ərazilərin miqyası dörd Lüksemburq ölkəsi qədərdir, bir Livan ölkəsinə bərabərdir, yəni, təsəvvür edin, nə qədər böyük iş nəzərdə tutulur. Onu da hamımız bilməliyik ki, minatəmizləmə işi hələ də davam edir və əlbəttə ki, burada hər şey, bütün ərazilər minalardan təmizlənib. Əlbəttə, burada yaşayacaq insanlar bunu nəzərə almalıdırlar ki, ancaq minalardan təmizlənmiş ərazilərə gedə bilərlər. Çünki bu təhlükə hələ də var, ermənilər həm işğal zamanı, həm də müharibədən sonra torpağımızdan çıxmaq üçün onlara vaxt verildiyi zaman yenə də bu çirkin əməllərə əl ataraq bir çox minalar basdırmışlar.

Bu gün biz Müstəqillik Günü ərəfəsində görüşürük. Onu da deməliyəm ki, keçən il Müstəqillik Günündə mən Ağdam şəhərində idim, Ağdam sakinləri ilə görüşmüşdüm və Ağdam şəhərinin Baş planını təsdiqləmişdim. Bu il də planlaşdırırdım ki, Müstəqillik Günündə burada olum. Ancaq bildiyiniz kimi, sabah qardaş ölkənin - Türkiyənin Prezidenti Azərbaycana gələcək və biz Müstəqillik Gününü bərabər qeyd edəcəyik. Ona görə mən bir gün əvvəl gəldim, amma yenə də Müstəqillik Günü ərəfəsində. Çünki bunun böyük rəmzi mənası var, budur müstəqillik, budur azadlıq. Xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən Şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq. Bu gün "Böyük Qayıdış" dediyimiz prosesə start verildi. "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır. Sizi təbrik edirəm.

**x x x**

Sonra xatirə şəkli çəkildi.

**x x x**

Görüşdən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Aqroservis" ASC tərəfindən təqdim edilən "ağıllı kənd təsərrüfatı" texnikaları ilə tanış oldular.

Məlumat verildi ki, "Ağıllı kənd" təsərrüfatı idarəetmə sistemində ən müasir texnoloji yeniliklər tətbiq olunacaq. Belə ki, burada yaradılacaq iqlim stansiyaları bitki xəstəlikləri ilə bağlı erkən xəbərdarlıq əldə etməyə, suvarmanı planlı şəkildə aparmağa və hava məlumatını almağa imkan verəcək. Bundan başqa,

burada zərərvericilərin uzaqdan izlənilməsinə və əkin ərazilərinin, araşdırma sahələrinin mövsümi olaraq yüksək keyfiyyətli fotoşəkillərini çəkə bilən sistemlər də quraşdırılacaq.

Həmçinin heç bir sahə məhdudiyyəti olmadan sərbəst hərəkət edən və ərazidə təhlil aparan skaner, əməliyyatları səmərəli şəkildə həyata keçirmək üçün süni intellekt və proqnozlaşdırıcı analizə sahib platforma, məhsulun yetişdirilməsi zamanı ortaya çıxa biləcək problemləri vaxtında aşkarlaya biləcək dron texnologiyaları da yüksək məhsuldarlığın əldə olunmasında mühüm rol oynayacaq.

Diqqətə çatdırıldı ki, Zəngilan pivot suvarma sistemləri də ən müasir texnoloji yeniliklərlə təchiz olunacaq. Burada 5 pivot sistemi quraşdırılacaq ki, bu da 157 hektar ərazinin suvarılmasına imkan verəcək.

Daha sonra dövlətimizin başçısı və birinci xanım “Arximed” tipli hidroelektrik stansiya, alternativ enerjinin istehsalı üçün süni göl və 62 nömrədən ibarət otel kompleksində aparılan işlərlə tanış oldular.

Məlumat verildi ki, süni gölün yaradılması üzrə qazma və 3-cü gil izolyasiya qatının kipləşdirilmə işləri başa çatdırılıb, 4-cü qat gil izolyasiya işləri davam edir.

Göründüyü kimi, Ağalı kəndində “Ağıllı kənd” konsepsiyasının hər üç komponenti – ağıllı dövlət idarəçiliyi, ağıllı infrastruktur və xidmətlər, eyni zamanda, ağıllı təsərrüfat və biznes mühiti yaradılıb.

**AZƏRTAC**
**2022, 27 may**

## Prezident İlham Əliyev: Bu gün gözəl Zəngilan torpağında həyat qururuq

Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü, həm ədaləti, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə çıxış edərkən söyləyib.

Zəngilana, başqa yerlərə, Şuşaya həyatın qayıtdığını vurğulayan dövlətimiz başçısı deyib: "İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək".

**AZƏRTAC**
**2022, 27 may**

**Könül Nurullayeva: Zəngilanda əhalinin rifahı və rahat yaşaması üçün əlverişli infrastruktur qurulub**

Müstəqillik günü ərəfəsində Böyük Qayıdışa start verildi. Əvvəlcədən də planlaşdırıldığı kimi, ilk addım Zəngilanın Ağalı kəndində atıldı. “Ağıllı kənd” konsepsiyasının hər üç komponenti – ağıllı dövlət idarəçiliyi, ağıllı infrastruktur və xidmətlər, eyni zamanda, ağıllı təsərrüfat və biznes mühitinin yaradıldığı Ağalı kəndi 30 ildən sonra öz sakinlərini qarşılamağa hazırdır. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulur. Əhalinin rifahı və rahat yaşaması üçün burada əlverişli infrastruktur qurulub.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.

Deputat bildirib ki, Ağalı kəndinin müasir şəhər standartları səviyyəsində yenidən qurulması dövlətimizin gücünün, müstəqilliyimizin möhkəmlənməsinin təzahürüdür. Qarabağın bərpasını öz maliyyə imkanları hesabına aparan Azərbaycan bu gün işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi irimiqyaslı işlərə məhz özünün siyasi və iqtisadi müstəqilliyi sayəsində nail olub.

Zəngilanda beynəlxalq hava limanının da bu il istifadəyə veriləcəyini diqqətə çatdıran K.Nurullayeva deyib: “Zəngilanda istifadəyə veriləcək aeroport Qarabağın strateji baxımdan vacib nəqliyyat qovşağına çevrilməsini şərtləndirir. Bu, həm də Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

Qarabağın bərpası konsepsiyasına uyğun olaraq, azad olunmuş ərazilərdə tarixi, dini və mədəni abidələr də orijinal üslubun qorunması şərtilə bərpa olunur. Təəssüf ki, digər ərazilərdə olduğu kimi, Zəngilanda da düşmən məscidlərimizdə donuz saxlayıb, onlardan tövlə kimi istifadə edib. 44 günlük müharibə həm də bu bəşəri irsə qarşı cinayətə də son qoydu. Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində bundan sonra əbədi olaraq azan səsi eşidiləcək”.

Deputat qeyd edib ki, dini və mədəni abidələrin bərpası ilə yanaşı, azad olunmuş ərazilərdə İşğal və Zəfər muzeyləri də yaradılır. Zəngilanın İşğal və Zəfər muzeyləri kompleksinə gələn hər kəs Ermənistanın işğal siyasətinin müharibənin məhz ətraf mühitə vurduğu dağıdıcı təsirləri barədə məlumat ala biləcək. “Artıq Zəngilanın Baş planı da hazırdır. Dövlətimizin başçısı qeyd etdi ki, Baş plan təsdiq olunandan sonra inşaat işlərinə start veriləcək. Eyni zamanda, bu il də investisiya proqramı təsdiq olunub və proqrama əlavələr də ediləcək”.

“Baş planın konseptual əsasını “rahat yaşayış”, “yaşıl və təmiz”, “mütərəqqi innovasiyalar” kimi şəhər yanaşmaları təşkil edir. Bu da 30 ildən sonra doğma yurduna qayıdan insanların normal həyat şəraitinin təmin olunmasına şərait yaradacaq”, - deyə Könül Nurullayeva vurğulayıb.

**AZƏRTAC**
**2022, 28 may**

## Azərbaycan Prezidentinin Zəngilan rayonuna səfəri Gürcüstan mətbuatının diqqət mərkəzində olub

Gürcüstanın aparıcı kütləvi informasiya vasitələri (KİV) Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş Zəngilan rayonuna səfəri və burada keçirdiyi görüşlərdə söylədiyi fikirləri geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, gaxa.ge, aktual.ge, 24news.ge informasiya portallarında, 1 tv.ge televiziyasında və AGFM radiosunda bir sıra materiallar yayımlanıb.

Azərbaycan, ingilis və gürcü dillərində oxuculara təqdim olunan xəbərlərdə Prezident İlham Əliyevin səfəri və keçirdiyi görüşlər barədə məlumatlar oxuculara təqdim olunub.

**Xətayi Əzizov**
AZƏRTAC-ın xüsusi müxbiri
Tbilisi

**AZƏRTAC**
**2022, 28 may**

**Deputat: Zəngilandan verilən mesajlar tarixi həqiqətə, beynəlxalq hüquqa və ədalətə söykənir**

Mayın 27-də Zəngilana səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən böyük quruculuq işlərindən danışaraq bu sırada Ağalı kəndində “Ağıllı kənd” layihəsinin birinci mərhələsinin açılışında bir sıra mühüm məsələlərə kompleks şəkildə toxundu. Dövlətimizin başçısı hər şeydən əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə başlayan müstəqillik tariximizlə bağlı fikirlərini bildirərək, onu hazırkı reallıqlarla əlaqələndirdi. Dövlətimizin başçısı diqqətə çatdırdı ki, əsl müstəqillik məhz müstəqil siyasət apara bilməkdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu söyləyib.

Deputat bildirib ki, Azərbaycan özünün əsl müstəqilliyinə böyük dövlət xadimi Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra qovuşub. Doğrudan da, əldə etdiyimiz tarixi Zəfərin qiymətləndirilməsi zamanı keçdiyimiz yola baxarkən bir daha qəti əmin oluruq ki, bu tarixi Zəfərə yalnız müstəqil siyasət yürütməklə nail olmaq mümkün idi. Tarixi təcrübəmizdə və siyasi keçmişimizdə elə acı nümunələr var ki, onlar məhz müstəqil milli siyasi iradənin tam nümayiş etdirilə bilməməsi səbəbindən başımıza gəlib. 1918-ci ildə tarixi torpaqlarımız olan Qərbi Azərbaycanın, İrəvanın, 1920-ci ildə Qərbi Zəngəzurun Ermənistana verilməsi hər nə qədər tarixi proseslərlə bağlı idisə, bir o qədər də həmin şərtlər içərisində müstəqil siyasətin olmaması ilə əlaqələndirilməlidir.

Hazırda Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyini, azad olunmuş torpaqlarımıza “Böyük Qayıdış” prosesinin başlandığını deyən H.Babaoğlu bildirib ki, 10 min kvadratkilometrdən çox ərazi nəhəng tikinti, yol nəqliyyat və enerji kommunikasiyalarının çəkilişi meydançasına çevrilib. Azərbaycanın irəli sürdüyü 5 baza prinsipi əsasında regionumuzun sülh gündəmi müəyyən edilib, Zəngəzur dəhlizinin açılması ilə bağlı razılıq əldə olunub, Şuşa regionun və türk dünyasının mədəniyyət mərkəzlərindən birinə çevrilməkdədir.

“Ermənistan tarixdə bu günə qədər heç vaxt yaşamadığı məğlubiyyətə məhkum olunub. Azərbaycana qarşı ən müxtəlif iddialardan geri çəkilməyə məcbur edilib. Bütün bunların memarı isə Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevdir. Zəngilandan verilən mesajlar da məhz yaradılmış bu reallığın açdığı imkanlara əsaslanır. Bu mesajlar tarixi həqiqətə, beynəlxalq hüquqa və nəhayət ədalətə söykənir”, - deyə deputat vurğulayıb.

**AZƏRTAC**
**2022, 30 may**

**Deputat: “Ağıllı kənd” layihəsinin açılışı azad edilmiş ərazilərimizə Böyük Qayıdışın başlanmasıdır**

Azərbaycan xalqı haqsızlığa, ədalətsizliyə qarşı həmişə barışmaz mövqedə olub. Mübarizlik ruhu xalqımızın canında-qanındadır. Xeyirin şərə həmişə qalib gəldiyi kimi, Azərbaycan-Ermənistan münaqişəsində də haqq-ədalət qələbə çaldı.

Azərbaycan haqsızlığa 30 il dözdü. Bunun da səbəbi var idi. Çünki xarici havadarlarına arxalanan Ermənistanı yerinə oturtmaq üçün güclü iqtisadiyyata və orduya malik olmaq lazım idi. 2020-ci ilin sentyabr-noyabr aylarında ordumuz döyüş meydanında düşmənə yerini göstərdi. Ölkəmiz məhz müstəqillik dövründə qazandığı güc, qüdrət, yürütdüyü məqsədyönlü siyasət nəticəsində işğala son qoydu. Bu gün isə həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, Böyük Qayıdış prosesi başlayır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov söyləyib.

Dövlətimizin başçısının Zəngilanda “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimindəki çıxışında mühüm mesajlar verdiyini diqqətə çatdıran deputat vurğulayıb ki, Ağalı kənd sakinləri ilə görüş, “Ağıllı kənd” layihəsinin açılışı işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdışın başlanması deməkdir. “Artıq bu prosesə start verilib. Bərpa-quruculuq işləri sürətlə davam edir. Birinci pilot layihə məhz Zəngilanın Ağalı kəndində icra edilib. Ağalıda bir il bundan əvvəl başlanan inşaat işləri uğurla başa çatdırılıb və 200 evdən ibarət müasir tipli kənd salınıb. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi nəzərdə tutulur. Ağalı kəndində məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, bütün xidmətlər – ASAN, DOST, kiçik və orta biznesə dəstək xidmətləri mövcuddur. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu yaxınlarda Zəngilana səfər etmələri, “Ağıllı kənd” layihəsinin birinci mərhələsinin açılışı azad edilmiş ərazilərimizə Böyük Qayıdışın başlanmasıdır”, - deyə M.Məmmədov qeyd edib.

Deputat dörd ilə yaxın davam edən Birinci Qarabağ müharibəsinin gedişində Ermənistan silahlı qüvvələri tərəfindən 20 minə yaxın azərbaycanlının qətlə yetiriliyini bildirib. Deyib ki, o vaxt 50 mindən çox insan yaralanıb. 4750 nəfər əsir və ya itkin düşüb, girov götürülüb. 877 şəhər, kənd və qəsəbə qarət edilib və yandırılıb. İşğal olunmuş ərazilərdə Azərbaycanın tarixi, milli və mədəni irsi amansızlıqla məhv edilib. M.Məmmədov təəssüflə bildirib ki, o vaxt dörd ilə işğal olunmuş torpaqlarımızı Vətən müharibəsində cəmi 44 günə azad edərək ərazi bütövlüyümüzü bərpa etdik.

Ermənistanın acınacaqlı vəziyyətdə olmasını onun işğalçılıq siyasətinin nəticəsi kimi qiymətləndirən M.Məmmədov postmünaqişə dövründə gündəliyi Azərbaycanın diktə etdiyini vurğulayıb. Deyib ki, hazırda Azərbaycan sülh sazişinin bağlanması ilə bağlı ölkəmizin təkliflərini irəli sürüb. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Belçikanın Brüssel şəhərində keçirilən üçtərəfli görüş sülh danışıqları prosesinin yeni bir mərhələsidir. Bu görüşdə Nikol Paşinyanın Azərbaycanın irəli sürdüyü beş baza prinsipi çərçivəsində sülh danışıqlarını qəbul etməsi ilə bağlı razılıq əldə olunub. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Ermənistanla sərhədlərimiz müəyyən olunmalıdır. Sərhədlərin delimitasiya və demarkasiyası avtomatik olaraq Ermənistanda revanşist, faşist qüvvələr tərəfindən Azərbaycana qarşı irəli sürülən ərazi iddialarına da rəsmən son qoyulması deməkdir. Qarabağ diyarı Azərbaycan ərazisidir və bütün dünya bunu qəbul edir. Ona görə Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə komissiyaların birinci iclasının çox böyük əhəmiyyəti var.

İşğaldan azad olunmuş ərazilərdə görülən işlərin asan başa gəlmədiyini qeyd edən M.Məmmədov həyata keçirilən infrastruktur layihələrinin geniş vüsət aldığını diqqətə çatdırıb.

**AZƏRTAC**
**2022, 1 iyun**

**Avropa İttifaqı nəşrində “Ağalı ağıllı kənd” haqqında məqalə dərc olunub**

Avropa İttifaqının nüfuzlu “ The Parliament” nəşrində “Ağalı ağıllı kəndi” layihəsinin də həyata keçirilməsinə cavabdeh olan Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin sədri Mirzə Əliyevin “Avropa İttifaqı üçün bir model təklif edən ən müasir Ağıllı Kənd” sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Avropa auditoriyası bu iddialı layihənin həyata keçirilməsinin gedişi ilə tanış edilir. Məqalədə deyilir ki, “Ağalı ağıllı kənd” Azərbaycan layihəsi Avropada ağıllı kəndlərin BMT-nin “Dayanıqlı İnkişaf Məqsədləri” (DİM) proqramına nail olmaqda hansı əsas rol oynaya biləcəyinə bir nümunədir.

2022-ci il aprelin 28-də Avropa Komissiyası Avropa İttifaqının 2030-cu ilə qədər iqlimə münasibətdə neytral və ağıllı yüz şəhər yaradılması proqramında iştirak edəcək 100 şəhərin adını açıqlayıb.

Məqalədə müəllif yazır ki, Aİ-nin oxşar missiyası həm Aİ-nin özündə, həm də qonşu ölkələrdə “ağıllı kəndlər” üçün də nəzərdə tutula bilərdi, çünki kənd rayonları yalnız aqrar sektorla əlaqədar olmayan “ağıllı” yanaşmanın köməyi ilə həll edilməli olan real və mürəkkəb inkişaf problemləri ilə üzləşirlər.

Konsepsiyanın artıq geniş şəkildə vüsət aldığı Aİ-nin qonşu ölkələrində bu, kəndlərin bərpası və yenidən qurulması səyləri üçün faydalı ola bilər. Bunun bariz nümunəsi Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun 2022-ci ilin may ayında ilk qayıdan sakinlərini qəbul edən Ağalı “ağıllı kənd” layihəsidir.

Ağalı kəndi minalardan təmizlənərək xarabalıqlardan yenidən qurulmuş, burada yeni obyektlər, intellektual idarəetmə mərkəzi, kənd təsərrüfatı xidməti idarəsi, tikiş fabriki, ailə tibb mərkəzi, uşaq bağçası, orta məktəb fəaliyyətə başlamışdır. Hər bir bina lif izolyasiyası, elektrodlu su qızdırıcısı, günəş batareyaları və kəndi müasir şəhər tipli qəsəbəyə çevirən digər “yaşıl” texnologiyalarla təchiz edilib.

“Ağalı ağıllı kənd” layihəsi beş əsas sahəni əhatə edir: ağıllı infrastruktur, ağıllı idarəetmə, ağıllı energetika, ağıllı təhsil və səhiyyə xidmətləri, həmçinin ağıllı kənd təsərrüfatı, məşğulluq və biznes sektoru. Layihə su, enerji və yol infrastrukturunun vahid intellektual platformaya inteqrasiyasına yönəlib. Burada yüksək sürətli genişzolaqlı rabitə və fiber optik internetə çıxış var. Bütün tullantıların idarə edilməsi dövrü yenidən təşkil edilib. Əhalinin rəqəmsal savadlılığının, o cümlədən onlayn tibbi məsləhətlər və bankomat apteklər vasitəsilə artırılması nəzərdə tutulub. Ağıllı ictimai təsərrüfatlarının tikintisi və istifadəçiyə istiqamətlənən, məlumatlarla və rəqəmsal texnologiyalar əsasında idarəolunan ağıllı icmanın yaradılması planlaşdırılır.

“Ağalı ağıllı kənd” layihəsi “təmiz və sərfəli enerji”, “sağlamlıq və rifah”, “yoxsulluğun olmaması”, “düzgün istehlak və istehsal”, “ləyaqətli iş və iqtisadi artım” və “iqlim mühafizəsi meyarları” da daxil olmaqla bir sıra mühüm tələblərə cavab verir. Layihə həm də iqtisadi səmərəliliyi baxımından uğurlu olub. İqtisadi səmərəliliyinin ilk qiymətləndirmələri və təhlili göstərib ki, “ağıllı kənd” layihəsinin əsaslandığı intellektual həllər özünü doğruldub və əvvəlki ənənəvi həllərlə müqayisədə əhəmiyyətli enerji qənaət effektinə malikdir. Həyata keçirilən layihə sayəsində Ağalı kəndi yüksək inkişaf etmiş kənd təsərrüfatı və turizm infrastrukturuna malik beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevriləcəkdir.

Ağalıya köçmək istəyənlərin çoxluğunu nəzərə alaraq, Azərbaycan hökuməti qəsəbəni genişləndirmək və işğaldan azad edilmiş ərazilərin “sıfır emissiya” zonasına çevrilməsi proqramına uyğun olaraq, Qarabağ iqtisadi rayonunda oxşar “ağıllı kəndlər”in yaradılmasında bu nümunəvi modeli tətbiq etmək qərarına gəlib. Bir sıra xarici şirkətlər və beynəlxalq təşkilatlar “Ağalı ağıllı kənd” proqramının və Azərbaycanın digər bölgələrində bu kimi layihələrin realizə edilməsində iştirak etməkdə maraqlı olduqlarını bildiriblər.

Müasir rəqəmsal həllərin tətbiqi yolu ilə ucqar kənddə şəhər rahatlığının təmin edilməsi BMT-nin DİM-lərinə uyğun olaraq gələcək nəsillər üçün davamlı gələcəyin yaradılması üçün ön plana çəkilməlidir.

Ağıllı kəndlər ucqar rayonlara innovativ, texnoloji investisiyaların cəlb edilməsində, həmçinin həm Aİ, həm də qonşu ölkələrdə innovasiya mərkəzləri, klasterlər və texnoparkların yaradılmasında həlledici rol oynaya bilərlər.

Vüqar Seyidov
AZƏRTAC-ın xüsusi müxbiri
Brüssel

**AZƏRTAC**
**2022, 15 iyun**

**Abutalıb Səmədov: Zəngilanda aparılan bərpa-quruculuq işləri bizi qürurlandırdı**

Siyasi partiya nümayəndələrinin, politoloqların və siyasi şərhçilərin bugünkü Zəngilan səfəri çox uğurlu qiymətləndirməlidir. Belə ki, iki ildir ölkəmizdə iqtidarla siyasi partiyalar arasında aparılan dialoqun növbəti nəticəsi kimi bu səfəri məhsuldarlığına görə müsbət dəyərləndirmək olar.

Bu fikirləri AZƏRTAC-a Zəngilana səfər çərçivəsində müsahibə verən Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov söyləyib.

Partiya sədri deyib: "Bu gün Zəngilanda aparılan bərpa-quruculuq işləri ilə tanış olduq. Görülən işlər bizi həm sevindirdi, həm də qürurlandırdı. Arzu edirik ki, işğaldan azad olunmuş digər ərazilərimizdə də bu cür infrastruktur layihələri, gözəl kəndlər salınsın. Təbii ki, bu işdə Azərbaycana güclü dəstək də lazımdır. Bunun üçün Qərb maliyyə təşkilatları və digər qurumlar ölkəmizə maddi vəsaitlər ayırmalıdır. Lakin, biz bunun əksini müşahidə edirik. Belə ki, bu kimi təşkilatlar Ermənistanı himayə edir, onlara ciddi maliyyə yardımları edirlər. Biz Qərb təşkilatlarının ədalətli davranaraq Azərbaycana istər minaların təmizlənməsində, istərsə də digər işlərdə dəstək verməsinə ümid edirik".

**AZƏRTAC**
**2022, 24 iyun**

**Araz Əlizadə: Zəngilana edilən səfər siyasi dialoqun təşviqi istiqamətində uğurlu nəticələr verə bilər**

Zəngilana edilən səfər siyasi dialoqun təşviqi istiqamətində uğurlu nəticələr verə bilər. Belə ki, dövlətimizin başçısının təşəbbüsü ilə həyata keçirilən bu cür səfərlərin faydalı olacağını düşünürəm. Həmçinin ölkəmizdə dialoq mühitinin formalaşdırılması da bu yöndən birliyimizi daha da möhkəmləndirəcək.

Bu fikirləri AZƏRTAC-a Zəngilana səfər çərçivəsində müsahibə verən Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə söyləyib.

O, bugünkü səfərin əhəmiyyətindən bəhs edib. Bu cür səfərlərin vacibliyi vurğulayıb: "Bu gün biz Cəbrayıl və Zəngilanda olduq. Cəbrayılda ermənilər tərəfindən basdırılmış minaların zərərsizləşdirilməsi ilə də tanış olduq. Bundan əlavə, Zəngilanda Həkəri çayına balıq buraxılması prosesi və Ağalı kəndində "Ağıllı kənd" layihəsi ilə yaxından tanış olduq, məlumatlar əldə etdik. İnanırıq ki, yaxın vaxtlarda məcburi köçkünlər öz yurdlarına qayıdacaqlar. Dövlətimiz də bu istiqamətdə fasiləsiz işlər həyata keçirir".

**AZƏRTAC**
**2022, 24 iyun**

**Zəngilanda icra olunan bərpa-quruculuq layihələri ilə tanışlıq**

Ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, tanınmış politoloqların və siyasi şərhçilərin, habelə media nümayəndələrinin bu gün Zəngilan rayonuna səfəri təşkil olunub. Səfər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə reallaşıb.

AZƏRTAC xəbər verir ki, ölkədə siyasi dialoq ənənə və təcrübəsinin daha da dərinləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsünə əsasən, mütəmadi olaraq müxtəlif səpgili layihələr icra olunur. Azərbaycan ictimaiyyəti mövcud istiqamətdəki davamlı təşəbbüslərin şahididir. Təsadüfi deyil ki, dövlətimizin başçısı siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürlərə davamlı olaraq müraciət edir.

Mövcud kontekstdə işğaldan azad olunmuş ərazilərə siyasi partiya rəhbərləri üçün birgə səfərlərin təşkili təcrübəsi xüsusi siyasi çəkiyə malikdir.

Xatırladaq ki, ölkənin demokratik məzmunlu siyasi dialoq təcrübəsini zənginləşdirən siyasi partiya rəhbərlərinin birgə səfərləri daha öncə Ağdam və Şuşa şəhərlərinə təşkil olunub. Belə ki, partiya rəhbərlərinin və politoloqların ilk birgə səfəri ötən il martın 17-də Ağdam şəhərinə, ikinci birgə səfər oktyabrın 7-də Şuşa şəhərinə təşkil edilib. Ölkə siyasiləri üçüncü dəfə Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə cari il iyunun 15-də Şuşa şəhərində keçirilmiş "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" adlı beynəlxalq konfransda iştirak etmək üçün birgə səfərə çıxıb, Azərbaycanın siyasi tarixində ilk dəfə olaraq müxalif siyasi partiyalar iqtidar tərəfindən təşkil olunmuş rəsmi dövlət tədbirində iştirak ediblər.

Növbəti, dördüncü birgə səfərin ünvanı Zəngilan rayonudur. Cari ilin iyunun 24-də keçirilmiş səfərdə 40 siyasi partiyanın 46 nümayəndəsi təmsil olunub. Təşkil olunmuş səfərdə siyasilərlə yanaşı, tanınmış politoloqlar və siyasi şərhçilər, habelə jurnalistlər iştirak ediblər.

Qeyd edək ki, bu səfərin ilk ünvanı Cəbrayıl rayonu olub. Burada səfər iştirakçılarına Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən aparılan minatəmizləmə fəaliyyəti barədə geniş məlumat verilib. Düşmən tərəfindən basdırılmış minaların zərərsizləşdirilməsi prosesini izləmək fürsəti yaradılıb. Səfər iştirakçıları, həmçinin Füzuli-Zəngilan (Ağbənd) avtomobil yolunda Agentlik tərəfindən görülən işlər barədə geniş məlumatlandırılıb, eyni zamanda, sahələrdə aparılan minatəmizləmə əməliyyatlarında mexaniki minatəmizləmə maşınlarının işi ilə də tanış olublar. Sahələrdə aparılan minatəmizləmə əməliyyatlarında minaaxtaran itlərlə təmizləmə proseslərini də səfər iştirakçılarına izləmək imkanı yaradılıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən verilmiş məlumatları dinləyən səfər iştirakçıları mina xəritələrinin Azərbaycana təhvil verilməməsi faktını rəsmi İrəvanın növbəti hərbi cinayəti kimi qiymətləndiriblər.

Mina xəritələrindən Ermənistanın siyasi spekulyasiya məqsədilə istifadə etdiyini qeyd edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev mövcud istiqamətdə həqiqətlərin beynəlxalq ictimaiyyətinin diqqətinə çatdırılması prosesində bütün siyasi partiyaların fəal iştirakının əhəmiyyətini vurğulayıb.

Aparılan fikir mübadiləsi çərçivəsində qeyd olunub ki, mülki əhalinin ölümünə və insan faciəsinə səbəb olan Ermənistanın mina xəritələri ilə manipulyasiyalarına son qoyulmalı və beynəlxalq ictimaiyyət bu hərbi cinayətlərə qarşı adekvat tədbirlər görməlidir.

Səfər iştirakçıları sonra Zəngilanda Həkəri çayına balıq buraxılmasında iştirak ediblər. Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev səfər iştirakçılarına Həkəri çayı, bu ərazilərin flora və faunası haqqında məlumat verib. Buraxılan balıq növləri barədə səfər iştirakçılarını məlumatlandırıb. O, Həkəri çayına üç min balığın buraxıldığını bildirib.

Siyasi partiya nümayəndələri, tanınmış politoloqlar və siyasi şərhçilər 2021-ci ilin aprelində təməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulmuş və cari il mayın 27-də dövlətimizin başçısının iştirakı ilə birinci mərhələsinin açılışı olmuş "Ağıllı kənd" layihəsi ilə yaxından tanış olmaq imkanı qazanıblar. Zəngilanda səfər iştirakçılarını qarşılayan Aqrar Xidmətlər Agentliyinin sədri Mirzə Əliyev qonaqlara layihə haqqında geniş məlumat verib. Qeyd edək ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. Burada 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir.

Səfər çərçivəsində iştirakçılar Ağalı kəndində yaradılmış Dövlət Xidmətləri Mərkəzi ilə tanış olublar. Burada “Azərpoçt” MMC-nin rayon şöbəsi, “ASAN xidmət” Mərkəzi, DOST Mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcək. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək.

Daha sonra səfərdə iştirak edən siyasilər Ağalı kəndində “Gillmed” tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi ilə də tanış olublar.

Səfər iştirakçılarına Qarabağın “Yaşıl enerji” zonasına çevrilməsi prosesində Zəngilanın xüsusi rolu haqqında da geniş məlumat verilib. Eyni zamanda, ölkə siyasiləri Zəngilandan keçən logistik layihələr haqqında da məlumatlandırılıblar. Səfər iştirakçılarına inşa olunan Zəngilan Beynəlxalq Hava Limanı, ümumi uzunluğu 124 kilometr olacaq Zəngilan-Horadiz avtomobil yolu, eləcədə Horadiz-Zəngilan-Ağbənd beynəlxalq dəmir yolu haqqında da məlumat verilib. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni beynəlxalq bir yol olacaq.

Səfər çərçivəsində siyasilər Zəngilanın turizm potensialı ilə də tanış olublar. Onlara məlumat verilib ki, gözəl meşələr, dağlar, bulaqlar, çaylar və Beynəlxalq Hava Limanı, həmçinin dəmir və avtomobil yolları Zəngilanda turizmin inkişafı üçün zəmin yaradır. Səfər iştirakçılarına bildirilib ki, Zəngilan rayonunun turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaq. Burada otellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Yaradılacaq yeni infrastruktur layihələri Zəngilana qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq. Səfərdə iştirak edən ölkə siyasiləri Bəsitçay Dövlət Təbiət Qoruğunu da ziyarət ediblər.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə reallaşan siyasi dialoq çərçivəsində təşkil olunan bu cür səfərlər siyasi proseslərin iştirakçıları arasında sağlam əməkdaşlıq münasibətlərinin və demokratik məzmunlu dayanaqlı dialoq ənənələrinin dərinləşməsinə xidmət edir. Siyasi proseslərdə iştirak edən tərəflər arasında işgüzar mühitin və sağlam münasibətlərin qorunması məqsədilə atılan addımlar siyasi partiya rəhbərləri tərəfindən fəal şəkildə dəstəklənir. Təşviq olunan dialoq mühiti konstruktiv əməkdaşlığı, dövlət naminə şəxsi ambisiyalardan imtina olunmasını, milli həmrəyliyi, habelə etibarlı münasibətləri tərənnüm edir. Bu mənada ölkəmizdə siyasi dialoq mühitinin təşviqinə yönəlmiş təşəbbüslər ilk növbədə Prezident İlham Əliyevin dövlət siyasətinin demokratik məzmunundan xəbər verir. Bu cür demokratik təcrübələri və Azərbaycanın siyasi reallığını nəzərə alaraq, deyə bilərik ki, siyasi dialoq vahidliyi milli birliyi, həmrəyliyi, sabitliyi, təhlükəsizliyi və dayanıqlı inkişaf mühitini təmin edən əsas demokratik mexanizmlərdən biridir.

Sonda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Zəngilana səfərin əhəmiyyəti barədə fikirlərini bölüşüb. Burada iştirak edən qonaqlara öz təşəkkürünü bildirib.

**AZƏRTAC**
**2022, 24 iyun**

## Siyasi partiya nümayəndələrinin, tanınmış politoloq və siyasi şərhçilərin Zəngilana səfəri başlayıb

Ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, tanınmış politoloq və siyasi şərhçilərin, habelə media nümayəndələrinin bu gün Zəngilan rayonuna səfəri təşkil olunub. Səfər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə reallaşır.

AZƏRTAC xəbər verir ki, Zəngilana təşkil olunan səfər çərçivəsində iştirakçılar işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən aparılan minatəmizləmə fəaliyyəti, habelə “Böyük qayıdış”ın rəmzi olan “Ağıllı kənd” və “Yaşıl enerji” layihələri çərçivəsində görülmüş işlərlə tanış olacaq, habelə Bəsitçay Dövlət Təbiət Qoruğunu ziyarət edəcəklər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən bu səfər sayca dördüncüdür. Siyasilər arasında sağlam əməkdaşlıq mühitinin formalaşması, habelə konstruktiv münasibətlərin bərqərar olunmasına xidmət edən bu cür layihələr bilavasitə Prezident İlham Əliyevin dövlət siyasətində demokratik prinsip və dəyərlərə üstünlük verməsinin təzahürüdür.

Xatırladaq ki, ölkənin demokratik məzmunlu siyasi dialoq təcrübəsini zənginləşdirən siyasi partiya rəhbərlərinin birgə səfərləri daha öncə Ağdam və Şuşa şəhərlərinə təşkil olunub. Belə ki, partiya rəhbərlərinin və politoloqların ilk birgə səfəri ötən il martın 17-də Ağdam şəhərinə, ikinci birgə səfər oktyabrın 7-də Şuşa şəhərinə təşkil edilib. Ölkə siyasiləri üçüncü dəfə Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə cari il iyunun 15-də Şuşa şəhərində keçirilmiş “Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir” adlı beynəlxalq konfransda iştirak etmək üçün birgə səfərə çıxıb, Azərbaycanın siyasi tarixində ilk dəfə olaraq müxalif siyasi partiyalar iqtidar tərəfindən təşkil olunmuş rəsmi dövlət tədbirində iştirak ediblər.

**AZƏRTAC**
**2022, 24 iyun**

## Brüsseldə Azərbaycanın "Ağıllı kənd" modelini təbliğ edən tədbirlər keçirilib

Avropa Parlamentində erməni işğalından azad olunmuş Azərbaycanın Zəngilan rayonundakı Ağalı kəndində uğurla həyata keçirilən "Ağıllı kənd" layihəsinin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Avropa Parlamentinin özündə birləşdirən "Ağıllı kənd"lər üzrə parlament qrupunun 45 üzvü ilə yanaşı, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin sədri Mirzə Əliyev və Azərbaycanın Belçikadakı səfiri Vaqif Sadıqov iştirak ediblər.

Mirzə Əliyev Azərbaycanın azad olunmuş ərazilərində həyata keçirilən yenidənqurma işləri barəsində ətraflı məlumat verib, Ağalı "Ağıllı kənd" layihəsi çərçivəsində görülmüş işləri avroparlamentarların diqqətinə çatdırıb, tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıb.

Ən yüksək beynəlxalq standartlara cavab verən bu layihə çərçivəsində həmin kənddə yaşayacaq vətəndaşların rifah səviyyəsinin yüksəldilməsi və bu məqsədlə ən müasir rəqəmsal, həmçinin texnoloji həllərin tətbiqi böyük maraqla qarşılanıb. Tədbirdə yaşıl enerji mənbələri, enerji səmərəliliyi, ağıllı kənd təsərrüfatı üsullarının istifadəsi ətrafında geniş fikir mübadiləsi aparılıb. Avropa Parlamentinin üzvləri ölkəmizdə bu istiqamətdə qazanılmış təcrübə ilə yerində tanış olmaq üçün Azərbaycana səfər etmək niyyətində olduqlarını bildiriblər.

Eyni zamanda, Brüsseldə yerləşən Avropa Ağıllı Kəndlər Forumunun təşkilatçılığı və Belçikadakı Azərbaycan səfirliyinin dəstəyi ilə keçirilmiş növbəti təqdimatda Avropa Parlamentinin deputatları, Avropa Komissiyasının rəsmiləri, Belçikadakı diplomatik korpusun əməkdaşları, tədqiqat mərkəzlərinin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Tədbirdə Avropa Parlamentinin üzvü, Avropa Ağıllı Kəndlər Forumunun həmsədri Frank Boqoviç və səfir Vaqif Sadıqov layihənin əhəmiyyətini vurğulayıblar. Daha sonra, Aqrar Xidmətlər Agentliyinin sədri Mirzə Əliyev qonaqları Ağalı "Ağıllı kənd" layihəsi çərçivəsində görülmüş işlər haqqında məlumatlandırıb.

Növbəti tədbirdə Ağalı "Ağıllı kənd" layihəsini təqdim etmək məqsədilə Avropa Komissiyasının Xarici Fəaliyyət Xidməti, Qonşuluq Siyasəti və Kənd Təsərrüfatı üzrə Baş Direktorluqlarının rəsmiləri ilə görüş keçirilib. Görüş zamanı Mirzə Əliyev sözügedən layihə barədə təqdimatla çıxış edib və sualları cavablandırıb.

**Vüqar Seyidov**
AZƏRTAC-ın xüsusi müxbiri
Brüssel

**AZƏRTAC**
**2022, 30 iyun**

**Sabahdan Zəngilanın Ağalı kəndinə sakinlərin köçürülməsinə başlanılır**

İyulun 19-da Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa – Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsinə başlanılacaq.

AZƏRTAC xəbər verir ki, Abşeron rayonunun Masazır kəndi ərazisində məcburi köçkünlər üçün salınmış yaşayış kompleksində bununla əlaqədar tədbir keçiriləcək.

Qeyd edək ki, Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk qədəmləridir. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

Yeni Ağalı kəndinə birinci mərhələdə 41 ailə köçürülür.

İlkin mərhələdə köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin hər birinin sakinləri var.

Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları əsasında, şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparılıb. Püşkatma bir müddət bundan əvvəl Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin Repatriasiya Departamentdə keçirilib.

Ağalıya köçürülən ilk sakinlər arasında təqaüdçü, tələbə, evdar qadınlar olmaqla yanaşı, mühəndis, satıcı-kassir, gözətçi, bağban, aqronom, müəllim, həkim, kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər və s. xidmət, səhiyyə və təhsil sahələri üzrə ixtisaslaşmış kadrlar var. Köçürülən ailələrə peşələrinə uyğun iş yerləri təklif olunub.

Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaradıb. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olunublar. Bu sahədə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətlənib və hazırda ardıcıllıqla həyata keçirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva da məcburi köçkünlərlə bağlı məsələlərə daim xüsusi həssaslıqla yanaşır, onların problemlərinin həllinə kömək göstərir.

**AZƏRTAC**
**2022, 18 iyul**

## Xüsusi nümayəndə: Zəngilanın bərpası işlərində BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri nəzərə alınır

Zəngilan dağıntılara ən çox məruz qalmış rayonlardan biridir. Zəngilanın yenidən qurulması və bərpası işlərində BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri nəzərə alınmaqdadır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev Şuşada keçirilən konfransda Zəngilanda indiyədək gerçəkləşən və həyata keçiriləcək layihələr haqqında danışarkən bildirib.

V.Hacıyev işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın artıq başladığını diqqətə çatdırıb. Bildirib ki, Zəngilanda "Ağıllı kənd" layihəsi həyata keçirilib. O, bu layihənin reallaşdırıldığı Ağalı kəndində indiyədək 200 evin inşasının tamamlandığını və 150 evin tikintisinin planlaşdırıldığını deyib.

Prezidentin xüsusi nümayəndəsi Zəngilanda hava limanının inşasının davam etdiyini də bildirib. O, həmçinin Zəngilanda ekoturizm və aqroturizm, eləcə də günəş enerjisindən istifadə üçün əlverişli şəraitin olduğunu qeyd edib. Deyib ki, bununla da regionun təbiətinə zərər vermədən bölgəni elektrik enerjisi ilə təmin etmək mümkün olacaq.

**AZƏRTAC**
**2022, 27 avqust**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda olublar**
*(19 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan rayonunda da olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Ağalı kənd orta məktəbinin şagird-müəllim kollektivi və sakinlərlə görüşüb, Arximed turbini tipli Su Elektrik Stansiyasını işə salıb, Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olub, Zəngilan şəhərində ilk yaşayış binasının və məktəbin təməlqoyma mərasimlərində iştirak ediblər.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanın Ağalı kəndində sakinlərlə görüşüblər**
*(19 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan rayonunun Ağalı kəndində olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Ağalı kənd orta məktəbinin şagird-müəllim kollektivi ilə və sakinlərlə görüşüblər.

Ağalı kənd məktəbində təhsil alan şagirdləri salamlayan **Prezident İlham Əliyev** dedi:

-Uşaqlar, gedək məktəbi göstərin mənə, gəlin, gedək.

**Mehriban xanım Əliyeva:** Dayanıblar, bəlkə, əvvəl şəkil çəkdirək?

**Prezident İlham Əliyev:** Şəkil çəkdirək, elə məktəbin önündə.

**Mehriban xanım Əliyeva:** Gəlin, şəkil çəkdirək.

**Prezident İlham Əliyev:** Gedək, göstərin məktəbinizi, baxaq uşaqlar burada necə oxuyurlar? Sinif otaqlarına baxaq. Sən neçənci sinifdə oxuyursan?

**1-ci şagird:** Altıncı sinifdə.

**Prezident İlham Əliyev:** Bundan əvvəl harada oxuyurdun?

**Şagird:** Sumqayıtda 30 nömrəli tam orta məktəbdə.

**Prezident İlham Əliyev:** Sumqayıtda. Bəs sən?

**2-ci şagird:** Mən də Sumqayıtda.

**Prezident İlham Əliyev:** Sən də Sumqayıtda. Bəs sən?

**3-cü şagird:** Mən də Sumqayıtda 15 nömrəli tam orta məktəbdə.

**Prezident İlham Əliyev:** Sumqayıtda.

**4-cü şagird:** Mən Mərdəkanda 181 nömrəli tam orta məktəbdə.

**Prezident İlham Əliyev:** İndi necə? Ağalı kəndi xoşunuza gəlir?

**Məktəblilər:** Bəli.

**Prezident İlham Əliyev:** Çox gözəl. Uşaqlar həvəslə oxuyurlar?

**Qadın müəllim:** Əlbəttə, çox böyük həvəslə. Ümumiyyətlə, məktəbə gəldikləri vaxt buranı gördükdə inanın ki, o qədər çox gözəl hisslər yarandı. Sevinirdilər ki, çox gözəl məktəbdə təhsil alacaqlar.

**Prezident İlham Əliyev:** Uşaqlar gəliblər öz dədə-baba torpağına. İndi görürsünüz, necə də gözəldir sizin doğma torpağınız, Vətəniniz, Ağalı kəndi.

**Mehriban xanım Əliyeva:** Soruşuram, Sumqayıtdan daha gözəldir, deyir, bəli.

**Prezident İlham Əliyev:** Sumqayıt da gözəl şəhərdir, böyük şəhərdir. Amma buranın, əlbəttə ki, xüsusi gözəlliyi var, təbiət, hava, iqlim.

**Şagird:** Bura Sumqayıtdan daha yaxşıdır. Buranın havası daha qəşəngdir.

**Prezident İlham Əliyev:** Bax, sizi biz qaytarmışıq, havası da təmizdir, təbiəti də gözəldir, hər tərəf dağlar, meşələr. Burada həyat qaynayacaq. Bir azdan sonra başqa kəndlərdə də evlər tikiləcək, Zəngilan şəhərində də evlər tikiləcək. Ağalı birinci layihədir, siz də azad edilmiş torpaqlara ilk gələn uşaqlarsınız. Şadam ki, böyük həvəslə gəlmisiniz və sizin valideynləriniz də böyük həvəslə gəliblər. Çünki valideynlərin də çoxu yəqin ki, Ağalını heç görməyiblər. Onlar da işğal dövründə dünyaya gəliblər. Amma torpaq çəkir insanı. Sizin burada olmağınız onu göstərir ki, biz azad edilmiş torpaqları tezliklə abadlaşdıracağıq və bu gün hələ də Sumqayıtda, Bakıda, digər rayonlarda yaşayan keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdacaqlar, burada quracaqlar, yaşayacaqlar, uşaqlar böyüdəcəklər.

**Şagirdlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Siz də yaxşı oxuyun. Çünki yaxşı oxumaq təkcə sizin üçün yox, ölkəmiz üçün lazımdır. Çünki sizin kimi uşaqlar gələcəkdə ölkəmizi idarə edəcəklər. Ona görə gərək siz bilikli olasınız, savadlı olasınız, həmişə vətənpərvər olasınız. Vətənpərvər olmaq üçün hər bir Azərbaycan vətəndaşının çox böyük haqqı var. Çünki biz bu torpaqlara qan tökərək qayıtmışıq. Bizim qəhrəman şəhidlərimiz öz canlarını fəda ediblər ki, bax, siz və sizin kimi yüz minlərlə azərbaycanlı öz dədə-baba torpağına qayıtsın. Sabah Zəngilanın, Zəngilan şəhərinin azad olunmasının ikinci ildönümüdür. Zaman tez keçir, ancaq artıq böyük quruculuq işləri görülür. Sizin əsas vəzifəniz oxumaqdır, valideynlərin, müəllimlərin sözünə baxmaqdır və gələcəkdə yaxşı vətəndaş olmaqdır.

**Mehriban xanım Əliyeva:** Dərslərdən sonra nə edirsiniz? Burada hava yaxşıdır, yəqin bayırda oynayırsınız, görüşürsünüz. Orada - Sumqayıtdakı məktəbdə qalan dostlarınızla yəqin ki, ünsiyyətiniz var,

danışırsınız. Onları da dəvət etmək olar, hərdənbir gəlsinlər, sizə dəysinlər. Burada işlər gedir. Haradadır sizin evləriniz? Buradan görünür sizin evlər?

**Şagird:** Bəli, bizim ev görünür, ikimərtəbəlidir.

**Mehriban xanım Əliyeva:** Oradakı ikimərtəbəli?

**Şagird:** Bəli.

**Prezident İlham Əliyev:** Darıxmırsınız burada?

**Şagirdlər:** Xeyr.

**Mehriban xanım Əliyeva:** Gözəl qızlar.

**Məktəbli qız:** Siz daha gözəlsiniz. Hələ də inanmıram mən Sizinlə görüşürəm, həyəcanlandım.

**Mehriban xanım Əliyeva:** Azərbaycanın işğaldan azad olunmuş belə bir gözəl yerində belə gözəl qızlarla bir yerdə olmaq mənim də çox böyük arzum idi.

**Məktəbli qız:** Deyə bilərəm ki, qalereyamdakı fotoların çoxu Sizin şəklinizdir.

**Mehriban xanım Əliyeva:** Eləmi? Şəkil çəkirsən?

**Məktəbli qız:** Xeyr, ümumiyyətlə, hərdənbir.

**Mehriban xanım Əliyeva:** Baxırsan?

**Məktəbli qız:** Bəli.

**Mehriban xanım Əliyeva:** Çalışacağam tez-tez gəlim sizin yanınıza, İnşallah.

**Məktəbli qız:** İnşallah.

**Prezident İlham Əliyev:** Gedək, kəndin mərkəzinə baxaq.

**Qadın sakin:** Biz Ağalı sakinləri üçün Sizin sayənizdə çox gözəl, möhtəşəm şərait yaradılıb. Çox sağ olun, var olun həmişə.

**Prezident İlham Əliyev:** Çox yaxşı ki, qayıdıblar və qayıdırlar da. Görürəm, uşaqlar da həvəslə, ürəkdən deyirlər, çox sevinirlər ki, burada yaşayırlar. Buraya gələnlər işlə təmin olunublar?

**Qadın sakin:** Bəli, hörmətli cənab Prezident. “Kapital Bank”, “ASAN xidmət”.

**Prezident İlham Əliyev**: İşləyirlər orada?

**Qadın sakin:** Bəli. Xəstəxana, “Gil MED” fəaliyyət göstərir. Çox gözəldir, möhtəşəmdir.

**Prezident İlham Əliyev:** Qonaqlar da gəlirlər buraya, xarici nümayəndələr.

**Qadın sakin:** Xarici qonaqlar da gəlirlər, bəli. Dünyanın ən qabaqcıl ölkələrindən qonaqlarımız olur, çəkilişlər olur. Bu, bizi də sevindirir.

**Prezident İlham Əliyev:** Bəli, bəli, bilirəm. Onlar da görürlər ki, biz artıq qayıtmışıq.

**Qadın sakin:** Kəndimiz çox gözəldir, çox sağ olun. Hər bir sakin deyir ki, Allah Prezidentimizin canını sağ eləsin.

**Prezident İlham Əliyev:** İnşallah, bütün şəhərlər, kəndlər belə olmalıdır.

**Qadın sakin:** İnşallah, Sizin sayənizdə. Çox sağ olun, hörmətli cənab Prezident.

**Prezident İlham Əliyev:** Bilirsiniz, birinci layihədir, davamı da gəlir.

**Digər qadın sakin:** Sizi xoş gördük, cənab Prezident.

**Prezident İlham Əliyev:** Xoş gördük, necəsiniz?

**Qadın sakin:** Xoşbəxtəm ki, Sizinlə görüşmək mənə nəsib oldu. 1990-cı ildən mənim üç balam mülki şəhiddir.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Qadın sakin:** Özüm də Zəngilanda müəllim işləmişəm, yoldaşım da. Sizin hamınıza böyük hörmətimiz var.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Qadın sakin:** Allah Ulu Öndərimizə rəhmət eləsin, Sizləri var eləsin. Siz ki, bizə bu şəraiti yaratmısınız, bu gün biz gəlib burada nəfəs alırıq, çox şükür, Ordumuz var olsun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Allah Ordumuzu qorusun! Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Çox şükür ki, Sizi gördük.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin, amin. Sağ olun. Burada yaşayışınız necədir? Şərait necədir? Yaxşıdır?

**Qadın sakin:** Yaxşıdır, əladır. Düzü mən hələ ev almamışam.

**Prezident İlham Əliyev:** Eviniz yoxdur hələ?

**Qadın sakin:** Mənə Sumqayıtda ev veriblər, hələ oradayam. İndi deyirlər ki, sizin növbəniz çatanda verəcəyik.

**Prezident İlham Əliyev:** Özünüz Ağalıdansınız?
**Qadın sakin:** Bəli, Ağalıda müəllim işləmişəm.
**Prezident İlham Əliyev:** Onda sizə mütləq ev verilməlidir.
**Qadın sakin:** Çox sağ olun, Allah razı olsun. Əksəriyyəti mənim şagirdlərimdir.
**Prezident İlham Əliyev:** Sizə də hələ verilməyib?
**Digər qadın sakin:** Bizə verilib, ikimərtəbəli ev verilib.
**Prezident İlham Əliyev:** Necədir, razısınız?
**Qadın sakin:** Çox razıyıq. Əla, hər şey yaxşıdır, öz qaydasındadır.
**Prezident İlham Əliyev:** Çox yaxşı, uşaqlar da razıdırlar. Mən soruşuram, uşaqlar razısınız? Deyirlər, bəli. Sumqayıta qayıtmaq istəmirlər.
**Qadın sakin:** Ayaqlarım tutulmuşdu, həqiqətən, mən buraya gələndən ayaqlarım bir az açılıb, yeriyə bilirəm. Çox şükür, havası da, suyu da gözəldir.
**Prezident İlham Əliyev:** Əlbəttə, gözəldir, doğma torpağı, havası, suyu - hər şeyi.
**Mehriban xanım Əliyeva:** Hər şeyi gözəldir.
**Qadın sakin:** Siz də hamıdan gözəlsiniz. Allah Sizdən razı olsun.
**Mehriban xanım Əliyeva:** Çox sağ olun.
**Prezident İlham Əliyev:** Çox sağ olun.
**Qadın sakin:** Mehriban xanım salam, necəsiniz? Xoş gəlmisiniz kəndimizə.
**Prezident İlham Əliyev:** Salaməleyküm.
**Kişi sakin:** Cənab Prezident, Sizinlə görüşmək istəyirəm, olar?
**Prezident İlham Əliyev:** Salam, nə var, nə yox, necəsən?
**Kişi sakin:** Sizinlə fəxr edirik, cənab Prezident. Sizin uğurlu siyasətinizlə fəxr edirik. Allah Sizə dəyməsin.
**Prezident İlham Əliyev:** Necə yaşayırsınız?
**Kişi sakin:** Gözəl yaşayırıq. Allah Sizə dəyməsin. Allah Sizi bizim başımızın üstündən əskik etməsin.
**Prezident İlham Əliyev:** Sağ ol.
**Kişi sakin:** Ümummilli Liderimiz cənab Heydər Əliyevə Allah qəni-qəni rəhmət eləsin. Allah Sizə dəyməsin, cənab Prezident.
**Prezident İlham Əliyev:** Sağ ol. Sən əvvəl harada yaşayırdın?
**Kişi sakin:** Mən Ağcabədi rayonunda yaşayırdım, burada işləyirəm.
**Prezident İlham Əliyev:** Özün bu kənddənsən?
**Kişi sakin:** Xeyr, Ağcabədi rayonundanam.
**Prezident İlham Əliyev:** Burada hansı sahədə işləyirsən?
**Kişi sakin:** Hazırda "Xan çinar"da ofisiant işləyirəm. Sizə təşəkkür edirəm ki, bizə belə günlər yaşadırsınız. Minnətdarıq, cənab Prezident.
**Prezident İlham Əliyev:** Çox yaxşı, sağ ol.
**Qadın sakin:** Salam, xoş gördük, cənab Ali Baş Komandan, Sizə təşəkkür etmək istəyirəm.
**Prezident İlham Əliyev:** Salam, bəli, sizinlə görüşmüşdük.
**Qadın sakin:** Keçən görüşümüzdə Sizə söz verdiyim kimi, burada vətəndaşlarımıza hüquqşünas olaraq xidmət göstərirəm. Bəli, hazırda prokurorluğa qəbulun birinci mərhələsini keçmişəm. Növbəti mərhələyə hazırlaşıram. İnşallah, xeyirlisi.
**Prezident İlham Əliyev:** Çox yaxşı.
**Qadınlar:** Çox şadıq, çox sağ olun.
**Sakin:** Olar növbəti şəklimizi çəkim?
**Prezident İlham Əliyev:** Əlbəttə, bizim şəklimiz var, amma, əlbəttə, olar.
**Qadın sakin:** Çox sağ olun. Minnətdaram, təşəkkürlər.
**Prezident İlham Əliyev:** Burada işləyirsiniz, yoxsa yaşayırsınız?
**Kişi sakin:** Yaşayırıq.
**Prezident İlham Əliyev:** Yaşayırsınız. Ev veriblər?
**Kişi sakin:** Bəli, torpaq sahəli.
**Prezident İlham Əliyev:** Razısınız?
**Kişi sakin:** Min şükür.
**Prezident İlham Əliyev:** O vaxt burada yaşayırdınız?

**Kişi sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Bəs, sonra harada yaşayırdınız?

**Kişi sakin:** Bakıda yaşayırdıq.

**Prezident İlham Əliyev:** Deyəndə ki, Ağalıya gəlmək olar, bunu necə qarşıladınız? Həvəslə?

**Kişi sakin:** Qanlı göz yaşları ilə çıxmışdıq, sevinc göz yaşları ilə qayıtdıq. Bu günümüzə min şükür.

**Prezident İlham Əliyev:** Allaha şükür.

**Kişi sakin:** Allah Sizi həmişə var eləsin.

**Sakinlər:** Şəkil çəkdirək.

**Prezident İlham Əliyev:** Bəli, çəkdirək.

**Kişi sakin:** Şükür Allaha. Allah bu günü bizə qismət elədi, bu günü də gördük.

**Prezident İlham Əliyev:** Allaha şükür.

**Kişi sakin:** Allah razı olsun, Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** Siz harada yaşayırdınız?

**Kişi sakin:** Elə bu kənddə.

**Prezident İlham Əliyev:** Bəs, işğal dövründə harada yaşayırdınız?

**Kişi sakin:** İşğal dövründə orduda idim, döyüşdə idim. 1996-cı ildə tərxis olub, Bakı şəhərində yaşadım.

**Prezident İlham Əliyev:** Bakıda yaşadınız.

**Kişi sakin:** Bəli, Bakıda yaşadım. Şükür Tanrıya, o qədər buranın arzusunda idik, o qədər buranın duasında idik. Allaha min şükür.

**Qadın sakin:** Həsrətini çəkirdik. Prezidentimizin sayəsində biz torpaqlarımızda çox gözəl şəraitdə yaşayırıq.

**Digər qadın sakin:** Şükür Sizi verənə.

**Kişi sakin:** Yatsaq yuxumuza girməzdi, çox gözəl. Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** Əlbəttə, mən deyirdim ki, biz mütləq qayıdacağıq. Deyirdim ki, öz torpaqlarımıza qayıdacağıq və qayıtdıq. İndi burada yaşayırıq. Sizin də qayıdışınız bunu göstərir ki, keçmiş köçkünlərin hamısı öz doğma torpaqlarına qayıdacaq. Çünki bəziləri hesab edirdilər ki, indi 30 il keçib, heç kim qayıtmaz. Amma baxın, görün, siz də qayıtmısınız.

**Kişi sakin:** Biz buranın həsrəti ilə yaşayırdıq.

**Prezident İlham Əliyev:** Bəli, indi buralar əvvəlkindən də gözəl olub.

**Qadın sakin:** Çox gözəl olub. Allah Sizdən razı olsun.

**Digər qadın sakin:** İndi müasir şəraitə də uyğunlaşmışıq, çox sağ olun. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Bəli, şərait də yaxşıdır. İndi bütün xidmətlər də var.

**Qadın sakin:** Olar Sizinlə şəkil çəkdirək?

**Prezident İlham Əliyev:** Bəli, əlbəttə, olar.

**Digər qadın sakin:** İkinci dəfədir Sizinlə görüşürük. Gözəl Prezidentimizlə fəxr edirik.

**Qadın sakin:** Mənim oğlum da, yoldaşım da burada xidmət edib.

**Prezident İlham Əliyev:** Hərbidə olub?

**Qadın:** On ildir hərbçidir. Cəbrayılda yaralanmışdı. Sizin sayənizdə bizə burada ev veriblər. Çox minnətdarıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Burada xoşbəxt yaşayın.

**Digər qadın:** Hörmətli Prezident, icazə verin, mən də Sizinlə şəkil çəkdirim.

**Prezident İlham Əliyev:** Əlbəttə, buyurun. Sağ olun.

**Kişi sakin:** Salam. Necəsiniz?

**Qadın sakin:** Biz Sizi görməyə çox şad olduq.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük. Nə gözəl baladır. Neçə yaşı var?

**Qadın sakin:** Onaylıqdır. İlk sakin kimi, xoş gəlmisiniz deyir. Şəkil çəkdirək.

**Prezident İlham Əliyev:** Bəli, çəkdirək. Gələcək bax, budur.

**Digər qadın sakin:** Bəli. Sizin sayənizdə. Çox sağ olun, hər şeyə görə təşəkkür edirik. Belə gözəlliklərə, bizim qayğımıza qaldığınıza görə çox sağ olun, cənab Prezident. Bizə bu cür şərait yaratmısınız.

**Prezident İlham Əliyev:** Bu uşağa böyüyəndə danışarsınız ki, hansı əziyyətdən keçmisiniz.

**Digər qadın sakin:** Mütləq. O, Sizin şəklinizi böyüdəcək. Bu da mənim övladımdır və biz Sizinlə qürur duyuruq. Çox sağ olun, cənab Prezident, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Doğma Vətənində böyüyəcək.
**Qadın sakin:** Bəli, həqiqətdir.
**Prezident İlham Əliyev:** Sağ olun.
**Digər qadın sakin:** Yeni Ağalının təməli qoyulan gündən oğlum burada işləyir.
**Prezident İlham Əliyev:** İnşaatda işləyib?
**Qadın:** Bəli.
**Prezident İlham Əliyev:** Sağ olun. Burada vəziyyət necədir, yaxşıdır?
**Kişi sakin:** Yaxşıdır, əladır.
**Qadın müəllim:** Cənab Prezident, olarmı müəllim kollektivi ilə şəkil çəkdirək?
**Prezident İlham Əliyev:** Əlbəttə, çəkdirək. Müəllimlər də Ağalıdandırlar?
**Qadın müəllimlər:** Bəli, çox sağ olun, təşəkkür edirik.
**Prezident İlham Əliyev:** Necə yaşayırsınız burada?
**Qadın sakin:** Sağ olun, çox yaxşı.
**Prezident İlham Əliyev:** İşləyirsinizmi?
**Qadın sakin:** Mən burada işləyirəm.
**Prezident İlham Əliyev:** Harada, hansı sahədə işləyirsiniz? Kafedə?
**Qadın sakin:** Bəli, Allah köməyiniz olsun, həmişə var olasınız.
**Prezident İlham Əliyev:** "Xan çinar"da nə bişirirsiniz? Çox sağ olun, salamat qalın.
**Kişi sakin:** Çox sağ olun. Allah ömrünüzü uzun eləsin.
**Gənc qız:** Şəkil çəkdirə bilərəm?
**Prezident İlham Əliyev:** Əlbəttə.
**Qadın:** Mən Sizinlə çəkdirdim, bayaqkı qaranlıq düşdü.
**Prezident İlham Əliyev:** Sən çəkdirdin, gəl, bir də çəkdirərik.
**Kişi sakin:** Cənab Prezident, xoş gəlmisiniz bizim bu yurda.
**Prezident İlham Əliyev:** Salam, xoş gördük.
**Kişi sakin:** Hörmətli Prezident, hörmətli Ali Baş Komandan, hörmətli Sərkərdə. Siz Azərbaycan xalqının döyüş tarixini yazdınız. Biz Sizin bu işinizlə fəxr edirik. Hörmətli Prezident, birinci növbədə, Sizə təşəkkürümü bildirirəm.
**Prezident İlham Əliyev:** Çox sağ olun.
**Kişi sakin:** Vətən müharibəsi əlilləri adından minnətdaram.
**Prezident İlham Əliyev:** Sizin neçə yaşınız var?
**Kişi sakin:** Mənim 76 yaşım var.
**Prezident İlham Əliyev:** Burada, Ağalıda yaşamısınız?
**Kişi sakin:** Bəli, bu kənddə. Bu kənddə rəhbər vəzifədə işləmişəm.
**Prezident İlham Əliyev:** Kənddə hansı rəhbər vəzifədə?
**Kişi sakin:** 1977-ci ildə rəhmətlik Ulu Öndər Heydər Əliyev məni qəbul edib. Burada kolxoz sədri vəzifəsinə təsdiq edib.
**Prezident İlham Əliyev:** Hə, kolxoz sədri. Sizə deyəndə ki, Ağalıya qayıtmaq olar, həvəslə qayıtmısınız.
**Kişi sakin:** Həvəslə.
**Prezident İlham Əliyev:** İndi Ağalı necədir? Yeni Ağalı xoşunuza gəlir?
**Kişi sakin:** Yeni Ağalı şəhərdir.
**Qadın sakin:** Çox gözəldir, Sizin sayənizdə.
**Kişi sakin:** Sizin sayənizdə. Mən şəhidlərin, qazilərin, şəhid analarının, atalarının qarşısında baş əyirəm. Onlara minnətdarıq. Bir də bir söz deyim gülməyin mənə, seçki komissiyasının sədri Məzahir Pənahova deyin kağız-kuğuzu korlamasın, bizim Prezidentimiz həmişəlik seçilib.
**Prezident İlham Əliyev:** Onu özünüz deyərsiniz ona.
**Kişi sakin:** Tapmıram axı, onu.
**Prezident İlham Əliyev:** Çox sağ ol.
**Kişi sakin:** İcazə verin, şəkil çəkdirək.
**Prezident İlham Əliyev:** Bəli, buyurun.
**Sakinlər:** Çox sağ olun.
**Uşaq:** Cənab Prezident, olar Sizinlə şəkil çəkdirim?

**Prezident İlham Əliyev:** Burada 3-4 nəsil ağalılı var. Siz, balaca uşaqlar, gənclər, gəlin, elə hamınız ağsaqqalla bərabər gəlin.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Burada xoşbəxt yaşayın. Allah cansağlığı, uzun ömür versin.

**Sakin:** Cənab Prezident, olar?

**Prezident İlham Əliyev:** Əlbəttə, gəl.

**Qadın sakin:** Salam, həmişə Siz gələsiniz.

**Prezident İlham Əliyev:** Salam, çox sağ olun.

**Qadın sakin:** Allah razı olsun, Allah cansağlığı versin. Çox xahiş edirəm, kollektivimizlə şəkil çəkdirək.

**Prezident İlham Əliyev:** Yaxşı, siz də gəlin.

**Kişi sakin:** Çox sağ olun, təşəkkür edirik, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun. Böyüyəndə hansı peşəyə sahib olmaq istəyirsən?

**Uşaq:** Hərbçi.

**Prezident İlham Əliyev:** Qəhrəman Azərbaycan hərbçisi.

**Uşaq:** Biz Vətənimizi qorumalıyıq.

**Prezident İlham Əliyev:** Bəli, düzdür.

**Digər uşaq:** Mən həkim olmaq istəyirəm.

**Prezident İlham Əliyev:** Bəs sən?

**Məktəbli qız:** Hərbçi.

**Prezident İlham Əliyev:** Sən də hərbçi olmaq istəyirsən? Maşallah!

**Kişi sakin:** Cənab Prezident, Sizə bir sözüm var. Çoxdandır ki, bu, mənim ürək sözümdür. Siz dünyanın ən birinci Prezidentisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Həqiqətən bunu ürəkdən deyirəm, Sizə minnətdaram.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Çox təşəkkür edirəm. Uşaqlardan da soruşuram böyüyəndə hansı peşəyə sahib olmaq istəyirsiniz? Deyirlər hərbçi. Bax, bu da sizin işinizdir. Qız da deyir ki, hərbçi olmaq istəyirəm. Vətəni qorumaq istəyirlər. Yenə şəkil çəkdirək? Məktəbin önündə çox çəkdirdik. Gəl, qızım, siz də durun. Biz çox şəkil çəkdirdik. Bunlar hamısı internetdə çıxacaq. Gedək.

**Qadın sakin:** Adam buradan getmək istəmir.

**Prezident İlham Əliyev:** Bəli, biz tez-tez sizə qonaq gələcəyik.

**Qadınlar:** İnşallah, həmişə yolunuzu gözləyirik.

**Prezident İlham Əliyev:** Gələcəyin hərbçiləri, sağ olun.

**Qadın sakin:** Olar Sizinlə şəkil çəkdirək?

**Prezident İlham Əliyev:** Necə? Biz şəkil çəkdirdik.

**Qadın sakin:** Mənimlə.

**Prezident İlham Əliyev:** Hə, yaxşı, bir dəfə də çəkdirək.

**Qadın sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun, salamat qalın, burada xoşbəxt yaşayın.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olublar**
*(19 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov dövlətimizin başçısına və birinci xanıma hava limanı barədə məlumat verdi.

Bildirildi ki, Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edəcək.

Perronun sahəsi 60 min kvadratmetrdir. Hava limanı ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.

Müasir dünya tələblərinə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərmək imkanına malik olacaq. Terminal daxilində VIP-zal, kafe, tibb məntəqəsi və ofis otaqları mövcuddur.

Aeroportda tam avtomatlaşdırılmış hava hərəkətinə nəzarət və aviasiya rabitəsi sistemləri ilə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi tikilib.

Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq İtaliyanın və Almaniyanın aparıcı istehsalçılarının müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilib. Qısa müddətdə ILS/DME instrumental eniş sistemləri, VOR/DME marşrutu üzrə hava gəmisi naviqasiya vasitələri, avtomatlaşdırılmış aviasiya və meteoroloji müşahidə sistemləri, ilkin və ikinci dərəcəli radar sistemləri quraşdırılaraq istifadəyə verilib. Bütün sistemlər ICAO və Eurocontrol-un beynəlxalq aviasiya kataloqlarında qeydiyyatdan keçib.

Zəngilan Beynəlxalq Hava Limanının ərazisində yardımçı binalar, transformator binası, qazanxana və su çənləri inşa edilib.

Uzunluğu təxminən 10 kilometr olan 35 kilovoltluq ikidövrəli elektrik kabel xətti çəkilib. 230 metr dərinlikdə artezian quyusu qazılaraq su çıxarılıb.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Onu da deyək ki, Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

**Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyası işə salınıb**
*(19 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyasının işə salınması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısına və birinci xanıma stansiya barədə məlumat verdi.

Bildirildi ki, Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsi çərçivəsində keyfiyyətli ekoloji mühitin yaradılması və enerjidən səmərəli istifadə edilməsi üçün dayanıqlı enerji mənbələrinə üstünlük verilib.

Bu baxımdan, kəndin dayanıqlı enerji ilə təmin edilməsi üçün Həkəri çayı üzərində Almaniyanın "Rehart GmbH" şirkəti tərəfindən istehsal olunan və hər biri 212 kilovat olmaqla 3 hidravlik turbindən və müvafiq hissələrdən ibarət Arximed turbini tipli Su Elektrik Stansiyası inşa edilib. Üç ədəd generatorun quraşdırıldığı stansiya Ağalı kəndinin elektrik enerjisinə tələbatını tam təmin etmək gücünə malikdir.

Arximed qurğusunun digər enerji istehsal sistemləri ilə müqayisədə ən böyük üstünlüyü ondan ibarətdir ki, təzyiqsiz sudan enerji istehsal edə bilir, asan quraşdırılır və iqtisadi baxımdan sərfəlidir.

Prezident İlham Əliyev Stansiyanı işə saldı.

Diqqətə çatdırıldı ki, balıqların Arximed turbinlərinin içindən keçə bilməsi və elektrik enerjisinin balıq ölümünə səbəb olmadan istehsal edilməsi ətraf mühitin qorunması baxımından xüsusi əhəmiyyətə malikdir.

Qeyd edək ki, Arximed turbinlərinin istismar müddəti 50-60 il proqnozlaşdırılır.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

**Prezident İlham Əliyev Zəngilanda ilk yaşayış binasının təməlini qoyub**
*(19 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan şəhərində ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma binanın daxil olduğu yaşayış məhəlləsi barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 2.06 hektar olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Zəngilan şəhərinin mərkəzi küçəsində, məktəb və biznes zonanın yaxınlığında yerləşəcək, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun olacaq. Bu məhəllədə ümumilikdə 10 bina tikiləcək. Bunlardan 6-nın ikimərtəbəli, 4-nün isə üçmərtəbəli olması planlaşdırılır.

Məhəllədəki binaların inşasında modern və minimalistik memarlıq yanaşmalarından, həmçinin milli naxış elementlərindən də istifadə ediləcək.

Tədbirdə yaşayış məhəlləsi barədə videoçarx nümayiş olundu.

Dövlətimizin başçısı Zəngilan şəhərində ilk yaşayış binasının təməlini qoydu.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

**Zəngilan şəhərində məktəb binasının təməli qoyulub**
*(19 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan şəhərində məktəb binasının təməlqoyma mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma 960 şagird yerlik tam orta məktəbin binası ilə bağlı məlumat verdi.

Bildirildi ki, Zəngilan şəhərinin mərkəzində, yaşayış kompleksinin yaxınlığında inşa olunacaq məktəbin ərazisi 1,6 hektar sahəni əhatə edəcək. Üçmərtəbəli məktəb modul siniflərdən, böyük amfiteatrdan, açıq sinif otaqlarından, oyun, idman meydançalarından və giriş hissədən ibarət olacaq.

Qeyd edək ki, Prezident İlham Əliyev 2022-ci il sentyabrın 7-də Zəngilan şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Dövlətimizin başçısı təhsil müəssisəsinin təməlini qoydu.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfərə gəlib**
**Zəngilan Beynəlxalq Hava Limanında ilk rəsmi qarşılanma**
*(20 oktyabr 2022-ci il)*

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Zəngilan Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.

**AZƏRTAC**
**2022, 20 oktyabr**

**Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub**
**Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər**
*(20 oktyabr 2022-ci il)*

Oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsdilər.

Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış oldular.

"Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov Azərbaycan və Türkiyə prezidentlərinə hava limanı barədə məlumat verdi.

Bildirildi ki, Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edəcək.

Perronun sahəsi 60 min kvadratmetrdir. Hava limanı ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.

Müasir dünya tələblərinə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərmək imkanına malik olacaq. Terminal daxilində VIP-zal, kafe, tibb məntəqəsi və ofis otaqları mövcuddur.

Aeroportda tam avtomatlaşdırılmış hava hərəkətinə nəzarət və aviasiya rabitəsi sistemləri ilə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi tikilib.

Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq İtaliyanın və Almaniyanın aparıcı istehsalçılarının müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilib. Qısa müddətdə ILS/DME instrumental eniş sistemləri, VOR/DME marşrutu üzrə hava gəmisi naviqasiya vasitələri, avtomatlaşdırılmış aviasiya və meteoroloji müşahidə sistemləri, ilkin və ikinci dərəcəli radar sistemləri quraşdırılaraq istifadəyə verilib. Bütün sistemlər ICAO və "Eurocontrol"un beynəlxalq aviasiya kataloqlarında qeydiyyatdan keçib.

Zəngilan Beynəlxalq Hava Limanının ərazisində yardımçı binalar, transformator binası, qazanxana və su çənləri inşa edilib.

Uzunluğu təxminən 10 kilometr olan 35 kilovoltluq ikidövrəli elektrik kabel xətti çəkilib. 230 metr dərinlikdə artezian quyusu qazılaraq su çıxarılıb.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Onu da deyək ki, Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur.

**AZƏRTAC**
**2022, 20 oktyabr**

**Azərbaycan və Türkiyə prezidentləri Zəngilanda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər**
*(20 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, kompleksə tanışlıq zamanı prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırdılar.

**Jurnalist:** Xeyirli-uğurlu olsun.

**Prezident İlham Əliyev:** Salam.

**Jurnalist:** Bir il əvvəl gələndə də açılış var idi.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** O vaxt daha yeni təməllər qoyulurdu. Baxın, indi necə olub?

**Jurnalist**: Yaşıl sahəyə çevrilib.

**Prezident Rəcəb Tayyib Ərdoğan**: Heyvanlar da gətirildi xaricdən. Həm bunları çoxaldırlar, həm də kəsim aparılır. Abdulkadir də burada məsul şəxsdir.

**Jurnalist:** Cənab Prezident, kompleks daha da böyüyəcəkmi?

**Prezident İlham Əliyev:** Abdulkadir bəydən asılıdır.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Rəhbər odur, o, necə istəsə, elə də olacaq.

**Abdulkadir:** Təbii ki, böyüyəcək. İnşallah, Laçında davam edəcəyik.

**Prezident İlham Əliyev:** Təbii ki, böyüməlidir. Çünki cəmi bir il ərzində belə böyük işin görülməsi artıq gözəl bir nümunədir.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Dünya artıq kənd təsərrüfatına, heyvandarlığa yönəlib. Başqa çarələri yoxdur.

**Prezident İlham Əliyev:** Keçən il biz burada idik. Boş bir sahə idi, heç nə yox idi. Keçən ilin oktyabr ayında təməlini qoyduq. İndi baxın, bir il keçib, görün, nə qədər gözəl işlər görülüb.

**Jurnalist:** Bundan sonra hava limanı harada açılacaq?

**Prezident İlham Əliyev:** Laçında.

**Jurnalist:** Nə zaman açılacaq?

**Prezident İlham Əliyev:** 2024-cü, yaxud 2025-ci ildə ola bilər.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** O qədər də uzatma.

**Prezident İlham Əliyev:** Çünki orada bir dənə də düz yer yoxdur. Böyük torpaq işləri görməliyik. Çünki uçuş-enmə zolağını salmaq üçün biz dağları kəsirik. Odur ki, əsas vaxt ona gedir. Hələ ki, inşaat işləri başlanmayıb. Hələ biz bir il o dağları kəsə-kəsə gedirik. İnşallah, iki ildən, bəlkə də iki il yarımdan sonra Laçında da hava limanı olacaq. İnşallah, Qardaşım da gələcək, bərabər açacağıq.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** İnşallah.

Sonra dövlət başçıları kompleksə tanış oldular.

Məlumat verildi ki, layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib. Hər iki prezidentin iştirakı ilə ötən il əkin aparılan buğda və arpanın biçini başa çatdırılıb.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan "Dost Aqropark"ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış heyvanlardan alınan ət məhsullarının paketlərinin üzərinə "Made in Qarabağ" etiketlərinin ilk nümunələrini vurdular.

Dövlət başçıları "Dost Aqropark"ın nəzdində yaradılan Zəngəzur Ağır Atletika Klubunun açılışında da iştirak etdilər. Açılış mərasimində Türkiyənin və Azərbaycanın ağır atletika üzrə milli komandalarının üzvləri, klubun həvəskar idmançıları prezidentlərlə söhbət etdilər.

Diqqətə çatdırıldı ki, "Dost Aqropark"ın ikinci və üçüncü mərhələləri üzrə işlər də sürətlə davam etdiriləcək. Layihənin bütün mərhələlərinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. Qarabağda

istehsal olunan məhsulların “Made in Qarabağ” brendi ilə dünya bazarına çıxarılması üçün “Aqro Market” də qurulacaq.

Qeyd edək ki, “Dost Aqropark” türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Ötən bir il ərzində “Dost Aqropark”da birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb.

Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı “Dost Aqropark” ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq. Kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.

**X X X**

Daha sonra konsert proqramı təqdim edildi və kompleks barədə videoçarx nümayiş olundu.

**X X X**

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış etdilər.

**Prezident İlham Əliyev dedi:**

- Bu gün Zəngilan rayonunun tarixində unudulmaz bir gündür. Qardaş ölkənin sayın Cümhurbaşqanı, qardaşım Rəcəb Tayyib Ərdoğan Zəngilana təşrif buyurub. Bu, bizim üçün böyük bayramdır, bütün Azərbaycan xalqı üçün böyük bayramdır.

Əziz qardaşımı və onunla bərabər Azərbaycana gəlmiş bütün türk bacı-qardaşlarımızı səmimiyyətlə salamlayıram, “Xoş gəlmisiniz!” deyirəm. Biz düz bir il bundan əvvəl, bax, burada idik, o zaman bura boş sahə idi, heç nə yox idi. Burada “Aqropark”ın təməlini qoyduq. Bu gün artıq burada görülən işlərlə tanış olarkən bir daha gördük ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və hər bir sahədə gözəl nəticələr verir.

Burada qeyd olundu ki, bu gün Zəngilan üçün xüsusi bir gündür. Düz iki il bundan əvvəl oktyabrın 20-də Zəngilan şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilmişdir. Zəngilanın 27 illik işğalı sona çatmışdır. Məhz bu gündə Zəngilanda olmağınız, əziz qardaşımla bərabər Zəngilan Hava Limanının və bu “Aqropark”ın açılışını etməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır. Bu “Aqropark”ın yaradılmasında əməyi olan hər bir kəsə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Burada qeyd olundu ki, bu, birinci özəl sərmayədir. Artıq bu “Aqropark”ın genişləndirilməsi və digər rayonlarda bu kimi aqroparkların yaradılması bu gün də müzakirə edilmişdir. Xeyirli olsun, uğurlu olsun!

**X X X**

**Prezident Rəcəb Tayyib Ərdoğan dedi:**

- Hörmətli qardaşım İlham Əliyev ilə birlikdə bir il əvvəl burada bu “Aqropark”ın təməlini qoymuşduq. İndi qardaşımla birlikdə görülən işləri, qoyulan sərmayəni bu gün birlikdə gözlərimizlə gördük. İndiyədək təxminən 3 min baş cins qaramalın buraya gətirilməsini və bunun, İnşallah, hədəf olaraq 10 min başa çatdırılmasını, haradan-haraya deyərək müəyyən etdik.

Müharibəni görmüş və bu müharibə nəticəsində insanların yaşayışı üçün tamamilə yararsız hala salınmış bu yerlər indi bərəkətli torpaqlara çevrilib. Gələrkən İlham qardaşımla bu barədə danışdıq, indi qısa vaxtda – iki-iki il yarım ərzində su anbarını da inşa edəcəyik dedi. Bu anbar sayəsində buralar daha bərəkətli torpaqlara çevriləcək. Bu bərəkətli torpaqlarda, İnşallah, heyvandarlıqla yanaşı, buğda, qarğıdalı, arpa yetişdiriləcək.

Səhv etmirəmsə, Yunus Əmrə şeirlərinin birində yazırdı ki, Allah bir buğda dənəsindən, bir sünbüldən yüz minlərlə dənə yaradır. İndi burada da bunun bənzərini görəcəyik. Bu sünbüllər, İnşallah, dənələrə çevriləcək və buradan Azərbaycana, Türkiyəyə və bütün dünyaya göndəriləcək. Bunu unutmayaq, artıq heyvandarlığın, kənd təsərrüfatının dünyada mühüm yer tutmalı olduğu bir zamana giririk. Əminəm

ki, İlham qardaşım bu sahədə çox önəmli bir addım atır, bunu reallaşdırır. Bura artıq bir taxıl anbarı, heyvandarlıq baxımından bir bərəkət tarlası və bir çox ölkənin də, İnşallah, qapısını döyəcəyi bölgəyə çevriləcək.

Mən başda İlham qardaşım olmaqla "Dost Aqropark"ın rəhbərlərinə çox-çox təşəkkür edirəm, onları təbrik edirəm.

İnşallah, bu torpaqların bərəkətli torpaqlar olaraq əbədi qalmasını diləyirəm.

Gördüyünüz kimi, indi əlimdə qızıl qulplu qayçı var. Bu, ikincidir. Hava limanını açarkən bir dənə aldıq, birini də indi aldıq. Aqroparkımız xeyirli olsun.

**x x x**

Daha sonra dövlət başçıları "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışını bildirən lenti kəsdilər.

**AZƏRTAC**
**2022, 20 oktyabr**

**Türkiyə və Azərbaycan prezidentlərinin Zəngilan Beynəlxalq Hava Limanının açılışını birgə etmələri möhtəşəm dostluğun daha bir nişanəsidir**

Türkiyə və Azərbaycan prezidentlərinin Zəngilan Beynəlxalq Hava Limanının açılışını birgə etmələri möhtəşəm dostluğun daha bir nişanəsi, rəmzidir. Türkiyə Prezidentinin bu gün bu açılışda iştirak etməsi tam dostluğun göstəricisidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Vitse-prezidenti Fuat Oktay İstanbulda Azərbaycan mediasına açıqlamasında ifadə edib.

Zəngilan Beynəlxalq Hava Limanının möhtəşəm olduğunu qeyd edən Vitse-prezident yeni aeroportun Azərbaycan və iki qardaş ölkənin birliyi üçün xeyirlərə vəsilə olmasını diləyib.

**Günel Məlikova**
**AZƏRTAC-ın xüsusi müxbiri**
**İstanbul**

**AZƏRTAC**
**2022, 20 oktyabr**

**Cavanşir Feyziyev: Zəngilan keçmişdə olduğu kimi, indi də Azərbaycan üçün mühüm strateji əhəmiyyət kəsb edən bölgədir**

Bu gün Zəngilanın işğaldan azad olunmasından iki il ötür. Zəngilan rayonu 1993-cü il oktyabrın 30-da Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Rayon işğal edilərkən 1 şəhər, 5 qəsəbə və 83 kənddən ibarət idi. Həmin vaxta sayı 45 mindən çox olan Zəngilan əhalisi işğaldan sonra ölkəmizin 43 rayonunda müvəqqəti məskunlaşmağa məcbur olmuşdu. 2020-ci il oktyabrın 20-də Vətən müharibəsinin alovu Zəngilana da çatdı və 27 il düşmən işğalı altında qalmış qədim Zəngilan torpaqları müzəffər Ordumuz tərəfindən azad edildi.

Vaxtilə Gəncə quberniyasının tərkibində olan Zəngəzur qəzası Qubadlı, Laçın, Zəngilan, Qafan, Mehri və Sisyan rayonlarını əhatə edirdi və bütün dünya tərəfindən tarixi türk torpaqları kimi tanınırdı. 1918-ci ildə Azərbaycanın müstəqilliyinin tanınması müqabilində öz dövlətini elan etmək üçün İrəvan ərazisini əldə edən ermənilər elə o zamandan ətraf bölgələrə, o cümlədən Zəngəzur qəzasına göz dikmişdilər. Tarixdə ilk dəfə öz dövlətini elan etmiş ermənilər imperiyaya köpək sədaqətini göstərmək üçün Rusiyada hakimiyyətə gəlmiş bolşeviklərə Cənubi Qafqazı işğal etmək üçün hər cür yardım göstərirdilər.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Cavanşir Feyziyev söyləyib.

O bildirib ki, 1920-ci il aprelin 28-də müstəqil Azərbaycanın işğalından sonra ermənilər metropoliyadan öz mükafatını tələb etməyə başladılar. Lenin hakimiyyəti Zəngəzur qəzasının yalnız 3 bölgəsini - Laçın, Qubadlı və Zəngilan rayonlarını Azərbaycan ərazisində saxlamaqla Zəngəzur torpaqlarının şimal-qərb hissəsini sovet Ermənistanına birləşdirdi. Bununla da ərazinin tarixi, iqtisadi və demoqrafik tarazlığı pozuldu və ermənilərin gələcəkdə daha geniş ərazilərə iddia etməsi üçün zəmin yarandı.

“2020-ci il oktyabrın 20-də erməni işğalından azad olunmuş Zəngilanın ilk görüntüləri ürək ağrıdıcı idi. Digər bölgələrimizdə olduğu kimi, erməni vandalları Zəngilanı da yerlə yeksan edib, yüzlərlə tarixi-mədəni abidələrimizi, o cümlədən bəzilərinin tarixi bizim eradan əvvəlki dövrlərə aid olan qədim nekropolları dağıdıb, Zəngilan ərazisindəki faydalı qazıntı yataqlarını qeyri-leqal olaraq vəhşicəsinə istismar ediblər. Rayon ərazisi vulkanik materiallarla yanaşı, həm də bir sıra faydalı qazıntılarla - tikinti daşı, qızıl yatağı, qara mərmər yatağı, əhəng xammalı və susuzlaşdırılmış soda üçün əhəng daşı ilə zəngindir. Rayon ərazisindən keçən bol sulu Araz, Oxçuçay, Bəsitçay və Həkəri çayları işğal dövründə həddindən artıq çirkləndirilmişdi. Rayonun meşə örtüyü qırılıb yandırılmış, bütövlükdə bölgənin ekologiyasına uzun müddət bərpa oluna bilməyəcək dərəcədə ziyan vurulmuşdu.

Zəngilanın işğaldan azad edilməsi xalqımızın mənəvi bütövlüyünün bərpası demək idi. Zəngilanın işğaldan azad olunması ilə 132 kilometrlik Azərbaycan-İran sərhədi tam bərpa edildi. İndi Xudafərin körpüsünün hər iki tərəfindən doğma qardaşlar bir-birinə boylanıb sevinə bilirlər. Müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi mühəndis-istehkam qurğuları tikildi və geniş miqyaslı sərhəd mühafizə tədbirləri görüldü. Bu gün İran-Azərbaycan sərhədi sülh və əmin-amanlıq sərhədidir”, - deyə C.Feyziyev qeyd edib.

Deputat diqqətə çatdırıb ki, Zəngilan indi də keçmişdə olduğu kimi Azərbaycan üçün mühüm strateji əhəmiyyət kəsb edən bölgədir. Zəngilandan keçəcək Zəngəzur dəhlizi ölkəmizin qərb bölgələrini Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirəcək. Bu dəhlizin açılması ilə uzun illər blokadada qalmış Naxçıvan Muxtar Respublikasının nəinki qərb bölgələrimizlə, eyni zamanda, bütün bölgə dövlətləri ilə birbaşa əlaqəsi təmin olunacaq. Bu, həm də tarixi Azərbaycan ərazisi olan qədim Zəngəzura yenidən qayıdışımızı təmin edəcək.

Hazırda tikintisi sürətlə aparılan Horadiz-Zəngilan-Ağbənd dəmir yolu Böyük İpək Yolunun bərpasını təmin edəcək Zəngəzur dəhlizinin vacib seqmentidir. Dəhlizin açılması strateji məqsədlərimizə xidmət etməklə yanaşı, həm də geniş iqtisadi perspektivlər açacaq.

“Azad Zəngilan Böyük Qayıdışın ilk ünvanlarından biridir. Vətən müharibəsindən dərhal sonra başlanılmış bərpa-quruculuq işləri sürətlə davam edir. Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi iştirakı və nəzarəti altında Zəngilanda aparılan quruculuq işləri müasirliyi və innovativliyi ilə bir çox dünya ölkələrinin də diqqətini cəlb edir. Ölkəmizdə ilk “ağıllı kənd” və “ağıllı şəhər” konsepsiyalarının məhz Zəngilanda tətbiq olunması, bütövlükdə rayonun “yaşıl enerji” zonasına çevrilməsi ilə Zəngilan dünyanın ən müasir yaşayış məntəqələrindən biri olacaq. Zəngilanda hava limanının tikilməsi isə tezliklə bölgəni tanınmış turizm ünvanlarından birinə çevirəcək”, - deyə o qeyd edib.

Deputat qeyd edib ki, 27 ilin həsrəti başa çatmaq üzrədir. Zəngilan sakinləri artıq evlərinə qayıdırlar. Tezliklə bu torpaqlarda qurulacaq toy-büsat məclisləri, el şənlikləri, mədəniyyət tədbirləri Zəngəzuru yeni və azad həyata qaytaracaq. Bu azadlıq bir də heç zaman itirilməyəcək.

**AZƏRTAC**
**2022, 20 oktyabr**

**Vüqar Rəhimzadə: Azad Zəngilan həyatının yeni mərhələsini yaşayır**

İki il öncə dövlətimizin qətiyyəti, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində torpaqlarımızın 30 illik işğalına son qoyuldu, ərazi bütövlüyümüz təmin edildi, tarixi Zəfərimiz dünyaya səs saldı. Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci tarixli üçtərəfli Bəyanatın imzalanmasına qədər ordumuzun Zəfər yürüşünü addım-addım izlədikdə hər anın tariximizə Qələbə səhifəsi kimi yazıldığını böyük qürur hissi ilə qeyd edirik. Azərbaycan Silahlı Qüvvələri 2020-ci il oktyabrın 18-də Zəngilan rayonunun azad edilməsi uğrunda əməliyyata başladı. Oktyabrın 20-də Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa növbəti Qələbə müjdəli müraciətində Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Birinci Muğanlı kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad edildiyini bildirdi. Ümumilikdə Zəngilan döyüşləri nəticəsində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Zəngilan şəhəri, rayonun 4 qəsəbəsi və 49 kəndi işğaldan azad edildi. Fərəhli haldır ki, qalibiyyətimizin rəmzi olan üçrəngli bayrağımız bu gün digər torpaqlarımız kimi, Zəngilanda da qürurla dalğalanır. Xalqımız bu anları səbirsizliklə gözləyirdi və əmin idi ki, dövlətimizin uğurlu və düşünülmüş siyasəti nəticəsində torpaqlarımız tarixi sahiblərinə qovuşacaq. Dövlətimizin başçısı İlham Əliyev hər bir çıxışında bu əminliyi ifadə edirdi ki, biz bu torpaqlara qayıdacağıq. Qarabağ Azərbaycandır!

Otuz il düşmən tapdağı altında qalan, tamamilə dağıdılan, yerlə-yeksan olunan torpaqlarımızda iki ildir həyat qaynayır. Bərpa-quruculuq işlərinin ölçüyəgəlməzliyi görülən işlərin miqyasında özünün aydın ifadəsini tapır. Bu gün digər işğaldan azad edilən torpaqlarımız kimi, Zəngilan da həyatının yeni mərhələsini yaşayır.

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında bildirib.

Vüqar Rəhimzadə vurğulayıb ki, iki ildir torpaqlarımızın işğaldan azad edildiyi tarixləri qeyd etdiyimiz üçün qürurluyuq: “Biz bu torpaqlara gec-tez qayıtmalı idik. Azərbaycan bu illər ərzində hər bir sahədə gücləndi, artıq tarixə qovuşan Qarabağ münaqişəsinin həlli üçün möhkəm hüquqi baza formalaşdı, müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordumuzun maddi-texniki bazası möhkəmləndirildi, döyüş ruhu artdı, gənclərimizə torpaq, Vətən sevgisi aşılandı. Müstəqilliyimizin bərpasının ilk illəri ilə bugünümüzü müqayisə etdikdə tamamilə fərqli bir Azərbaycanı görməklə yanaşı, ordumuzun gücü, qüdrəti beynəlxalq səviyyədə təqdir edilir, ən əsası ordu quruculuğu sahəsində görülən işlər gənclərimizi daha da ruhlandıraraq onların hərbi xidmətə böyük ruh yüksəkliyi ilə getmələrini şərtləndirir. Hansı ki, müstəqilliyimizin bərpasının ilk illərində vəziyyət tamamilə fərqli idi. Orduda fərarilik baş alıb gedirdi, gənclərimiz hərbi xidmətdən yayınırdılar. Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşıb. Bu, dövlətimizin uğurlu və gələcəyə hesablanmış siyasətinin nəticəsidir. Ulu öndər Heydər Əliyev daim bu çağırışı edirdi ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordun olmalıdır.”

“Dövlətimizin başçısı İlham Əliyevin digər sahələr kimi, ordu quruculuğuna göstərdiyi diqqət və qayğı tarixi Zəfərimizdə özünün aydın ifadəsini tapdı”, - söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, 44 günün hər anında irəliyə doğru addımlayan, torpaqlarımızın işğaldan azad edilməsindən qürurlanaraq, döyüş ruhunu daha da artıran Azərbaycan əsgərləri canları, qanları ilə tarix yazmaqla bir daha sübut etdilər ki, torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!

Vüqar Rəhimzadə vurğulayıb ki, bugünümüzün əsas hədəfi azad edilmiş torpaqlarda bərpa-quruculuq işlərini uğurla başa çatdırmaq və soydaşlarımızın tam şəkildə Böyük Qayıdışını həyata keçirməkdir: “Artıq Böyük Qayıdışın ilk addımı atıldı. İşğaldan azad edilmiş bütün şəhər və kəndlərimiz “ağıllı şəhər” və “ağıllı kənd” strategiyası əsasında qurulur. Zəngilanın Ağalı kəndi bu layihənin reallaşdığı ilk məkan oldu. Bu il iyul ayının 19-dan Zəngilanın Ağalı kəndinə əhalinin dörd mərhələdə köçürülməsinə start verildi. Köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib. Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər. Bu gün Ağalı kəndinin sakinləri onlar üçün yaradılan şəraitdən məmnundurlar. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan rayonuna səfərləri çərçivəsində Ağalı kəndinin sakinləri ilə görüşdülər. Sakinlər burada onlar üçün müasir tələblərə cavab verən hər bir şəraitin yaradıldığını böyük məmnunluq hissi ilə qeyd etdilər. Bu gün artıq hər bir yeniliyi bu kəndin timsalında görmək mümkündür”.

YAP Xətai rayon təşkilatının sədri bu mühüm məqamı da xüsusi qeyd edib ki, işğaldan azad edilmiş ərazilərimizdə istifadəyə verilməsi nəzərdə tutulan üç Beynəlxalq Hava Limanından daha birinin - Zəngilan Beynəlxalq Hava Limanının bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılışı oldu: "Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış oldular. Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Şərqi Zəngəzurun mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti bu diyarın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır. Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur. Atılan bu kimi mühüm addımlar tarixi Qələbəmizin beynəlxalq aləmdə təsdiqinə, eyni zamanda, bu torpaqların malik olduğu turizm imkanlarından səmərəli istifadəyə geniş imkanlar yaradır. Ümumilikdə hər bir bölgənin inkişafında yol infrastrukturu mühüm əhəmiyyət kəsb edir. Dövlət başçısı İlham Əliyev bu ərazilərdə bərpa-quruculuq işlərinə start verilən zaman ilk olaraq infrastruktur layihələrinin uğurlu icrasını qarşıya mühüm vəzifə kimi qoydu".

Vüqar Rəhimzadə bildirib ki, Prezident İlham Əliyevin işğaldan azad edilmiş digər ərazilərimiz kimi, Zəngilana da hər səfəri yeni sosial obyektlərin təməlinin qoyulması və açılışı ilə yadda qalır: "Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonunun işğaldan azad edilməsinin ikinci ildönümündə bu rayona səfərləri də bu baxımdan zəngindir. Belə ki, dövlətimizin başçısı və birinci xanım Ağalı kənd orta məktəbinin şagird-müəllim kollektivi və sakinlərlə görüşdülər, Arximed turbini tipli Su Elektrik Stansiyasını işə saldılar, Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış oldular, Zəngilan şəhərində ilk yaşayış binasının və məktəbin təməlqoyma mərasimlərində iştirak etdilər. Göründüyü kimi atılan addımların davamlılığı ölkəmizin iqtisadi imkanlarının, xalqımızın nə qədər qurucu xalq olduğunun təqdimatıdır".

**AZƏRTAC**
**2022, 20 oktyabr**

# Ərəb mediası Zəngilanda hava limanının açılış mərasimi, Türkiyə və Azərbaycan prezidentlərinin birgə mətbuat konfransını geniş işıqlandırıb

Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Cəbrayıl şəhərində mətbuata birgə bəyanatları və Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi ərəb mediasının diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, “CNN Arabia” telekanalı Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı illə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi ilə bağlı reportaj yayımlayıb. Telekanalın xəbərlər proqramında efirə gedən süjetdə diqqətə çatdırılıb ki, Azərbaycanın işğaldan azad olunmuş Zəngilan şəhərində fəaliyyətə başlayan bu hava limanı bu ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur.

Nüfuzlu “Al-Şarq” qəzetində dərc edilmiş xəbərdə isə Rəcəb Tayyib Ərdoğanın Türkiyənin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərinə dəstək verməkdə davam edəcəyi barədə fikirləri önə çəkilib. Materialda qeyd olunub ki, Türkiyənin dövlət başçısı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportun tikintisində türk şirkətlərinin də iştirakını iftixar mənbəyi kimi xarakterizə edib.

“Əl Xalic” nəşrində isə Azərbaycan və Türkiyə liderlərinin Cəbrayıl şəhərində keçirdikləri birgə mətbuat konfransında Cənubi Qafqazda dayanıqlı sülhün təmin edilməsi, Ermənistan hökumətinə Türkiyə və Azərbaycanla münasibətlərin normallaşdırılması üçün yaranmış fürsətdən istifadə olunmasının zəruriliyi barədə fikirləri yer alıb. Xəbərdə, həmçinin prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü və Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmələri barədə məlumatlar da yer alıb.

Misirin “Yeni dünya xəbərləri”, Əlcəzairin “Əl Hərir” portalları, həmçinin SkyNews” və “Əl Cəzirə” telekanallarının saytlarında da Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi və Azərbaycan və Türkiyə dövlət başçılarının birgə mətbuat konfransı haqqında xəbərlər yayımlanıb.

**Oqtay Bayramov**
AZƏRTAC-ın xüsusi müxbiri
Qahirə

**AZƏRTAC**
**2022, 21 oktyabr**

**Politoloq: Zəngilan aeroportunun açılışı Zəngəzurun Qafqazın ən önəmli turizm məkanlarından birinə çevriləcəyini göstərir**

Bu gün Azərbaycan dünyaya örnək olan mənzərə yaradıb. 30 il işğal altında qalan Qarabağ erməni vandalizmi nəticəsində böyük dağıntılara məruz qalmışdı. Ağdamı, Füzulini, Cəbrayılı və işğaldan azad edilən digər əraziləri görən hər kəs burada baş verən insanlıqdankənar hərəkətlərin nəticələrini təəssüflə qarşılayır. Bütün bunlara baxmayaraq, Azərbaycan dövləti ən qısa zamanda ciddi işlər görərək, Qarabağda dağıntıların nəticələrini aradan qaldırır, oraya yeni həyat verir. Dövlətimizin başçısının iradəsi və qətiyyəti sayəsində keçmiş məcburi köçkünlər artıq işğaldan azad edilən bölgələrə dönürlər. Ağalı kəndinin timsalında Qarabağda, ümumiyyətlə, regionda ilk olan yeni şəhərsalma elementlərindən istifadə edilib. Prezident İlham Əliyev mütəmadi olaraq Qarabağa səfərlər edir, quruculuq işləri ilə birbaşa yerində tanış olur. Qarabağın dirçəldilməsi dövlətimizin başçısının daim diqqət mərkəzindədir. Qalib ölkənin qalib vətəndaşları indi Qarabağın necə inkişaf etdiyini, burada hansı genişmiqyaslı işlərin aparıldığını böyük maraq və qürurla izləyirlər.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) baş məsləhətçisi, politoloq Tural İsmayılov söyləyib.

Politoloq qeyd edib ki, Prezident İlham Əliyevin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına səfəri 44 günlük Vətən müharibəsi zamanı tarixi qələbələrin qazanıldığı günlərə təsadüf edir. Dövlətimizin başçısı Qarabağdakı hər bir yeniliyi və inkişafı şəxsən idarə edir. Onun sıx iş qrafikinə rəğmən, işğaldan azad edilən bölgələrə mütəmadi səfərləri dediklərimizin əyani sübutudur. Prezident İlham Əliyev Qarabağda istifadəyə verilən infrastruktur layihələrinin, müasir tikililərin açılışlarını edir, həmçinin Qarabağda yaşamağa başlayan insanlarla görüşlər keçirir.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə sayca ikinci olan aeroportun - Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsi Qarabağ və Zəngəzurun gələcəkdə Qafqazın ən önəmli turizm məkanı olacağını göstərir. Bu bölgələr Azərbaycanın turizm potensialı baxımdan ən inkişaf etmiş regionlarına çevriləcək. Növbəti illərdə işğaldan azad edilmiş Laçında da hava limanının istifadəyə verilməsi nəzərdə tutulur. Hazırda isə paytaxt Bakıdan Füzuliyə, Zəngilana çox qısa vaxtda çatmaq mümkündür. Eyni zamanda, həyat bərpa olunduqdan sonra Qarabağdakı hava limanları mühüm turizm səyahət mərkəzlərindən biri olacaq.

Azərbaycanın müasir hava nəqliyyatı infrastrukturunun daha da inkişafı üçün uzun illər ərzində böyük işlər görülüb. Ölkəmiz Qafqazın ən böyük hava limanı olan Heydər Əliyev Beynəlxalq Aeroportuna malikdir. Ümumilikdə Qarabağ zonasında tikilən hava limanlarının məhz bu üç ərazidə olması həmin bölgənin coğrafi əhəmiyyətini bir daha nümayiş etdirir.

Ekspert qeyd edib ki, eyni zamanda, Azərbaycanın strateji müttəfiqi olan Türkiyə dövlətinin başçısının növbəti dəfə Qarabağa gəlməsi, Zəngilanda aeroportun açılışına qatılmasının mühüm siyasi mesajları var. Türkiyə regional aktordan qlobal siyasi gücə çevrilib. Araz sahillərində Türkiyə Prezidentinin səsləndirdiyi fikirlər dosta da, düşmənə də mesaj xarakteri daşıyırdı. Qardaş ölkə bir daha göstərdi ki, Azərbaycan yalnız deyil. Türkiyə-Azərbaycan həmrəyliyi ölkəmizə nifrət bəsləyənlərə hər zaman layiqli cavab verəcək.

“Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Qarabağa səfərləri zamanı Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli–Cəbrayıl hissəsi də istifadəyə verildi ki, bu yolun Qarabağın nəqliyyat qovşağında mühüm əhəmiyyəti var. Cəbrayıl rayonu ərazisində yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksi layihələri erməni işğalçılığı dövründə məhv edilmiş flora və faunanın bərpası yönündə danılmaz əhəmiyyətə malikdir. Cəbrayılda və Qubadlıda "Azərişıq" ASC-nin yarımstansiyaları və Rəqəmsal İdarəetmə Mərkəzlərinin təməli qoyuldu ki, Qarabağda ərazi infrastrukturunun formalaşmağında görülən işlərin tərkib hissəsi beynəlxalq aləmdə də diqqətlə izlənilir. Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyasının işə salınması da çox əhəmiyyətlidir.

Azərbaycan dünyaya model dövlətdir. Cəmi iki il ərzində Qarabağda terrora məruz qalmış yurdlardan firavan yaşayış yerləri ərsəyə gətirildi və proses sürətlə davam edir",- deyə STM-in baş məsləhətçisi vurğulayıb.

**AZƏRTAC**
**2022, 21 oktyabr**

## Zəngilanda hava limanının açılması bölgənin parlaq gələcəyinin müjdəsidir

Azərbaycan xalqının qəhrəmanlıq dastanı olan "Dəmir yumruq" əməliyyatının əhəmiyyətli hissələrindən biri də Zəngilanın Ermənistan işğalından azad olunmasıdır. Bu, Vətən müharibəsi dövründə Silahlı Qüvvələrimizin həyata keçirdiyi ən sürətli və qısa zamanda Qələbə ilə başa çatan əməliyyatı kimi Zəfər tariximizin parlaq səhifəsidir. Zəngilanın erməni işğalçılarından təmizlənməsi düşməni xeyli sarsıtdı, təcavüzkar orduda ruh düşkünlüyünü artırdı, məğlubiyyətlərini sürətləndirdi. Azərbaycan Ordusunda və xalqında isə qələbəyə olan inamı möhkəmləndirdi, digər rayonlarımızın da işğaldan qurtarılmasına yol açmış oldu. Bu məqamda mən əməliyyatın əsas iştirakçısı olan Sərhəd Qoşunlarımızın fədakarlığını xüsusi qeyd etmək istərdim. Onlar göstərdikləri şücaətlə bir daha təsdiqlədilər ki, Azərbaycan Silahlı Qüvvələrinin bütün qoşun növləri və birləşmələri peşəkar səviyyədə istənilən əməliyyatı uğurla başa çatdırmağa qadirdirlər. Sərhədçilərimizin yüksək döyüş qabiliyyəti və əzmkarlığı sayəsində İranla dövlət sərhədimiz bərpa edildi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Onun sözlərinə görə, ermənilərin vəhşilikləri, vandal hərəkətləri bu rayondan da yan keçməyib, düşmən uzun illər burada talançılıqla, xislətlərinə uyğun olan dağıntılarla məşğul olublar: "Hətta ekoloji terrora da əl atıblar. Azərbaycan isə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə buranı bərpa edir, əvvəlki halından da daha gözəl vəziyyətə gətirilməsi istiqamətində fəal iş aparılır. Artıq bunun bəzi real nəticələri ortadadır. Yeri gəlmişkən, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın oktyabrın 19-da bölgəyə - Cəbrayıl və Qubadlıya səfərlərini qeyd etmək istərdim. Burada dövlətimizin başçısı Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun Şükürbəyli-Cəbrayıl hissəsinin açılışını etdi, Cəbrayıl Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə və Qubadlı Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə mərkəzlərinin, həmçinin Qubadlıda İşğal və Zəfər muzeylərinin təməlini qoydu. Eləcə də dövlətimizin başçısı və birinci xanım bu rayonlarda görülən işlərlə, həyata keçirilən layihələrlə tanış oldular. Qısa müddət ərzində görülən bu cür genişmiqyaslı işlər ölkəmizin iqtisadi qüdrətinin nümayişi ilə yanaşı, həm də yenidən qurulan bölgənin işıqlı gələcəyindən xəbər verir. Təbii ki, artıq icrasına start verilmiş Böyük Qayıdışın tam reallaşması üçün infrastrukturun yaradılması, sosial obyektlərin inşası son dərəcə vacib məqamdır. Dövlətimiz bu istiqamətdə plana uyğun olaraq, sistemli və sürətli qaydada işləri ən yüksək səviyyədə davam etdirir. Qubadlıda, o cümlədən digər işğaldan azad edilmiş ərazilərdə İşğal və Zəfər muzeylərinin yaradılması mühüm layihələrdən biridir. Sakinlər, bölgəyə səfər edəcək qonaqlar və turistlər, həmçinin gələcək nəsillər bu muzeylər sayəsində Ermənistanın işğal əməlləri, törətdikləri hərbi cinayətlər, vəhşiliklər, eləcə də yenilməz Azərbaycan Ordusunun rəşadəti, qəhrəmanlıqları ilə ətraflı tanış ola biləcəklər".

"Davamlı olaraq Şərqi Zəngəzura və Qarabağa səfərlər edən, görülən işlərə bilavasitə özü nəzarət edən dövlətimizin başçısı İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birgə işğaldan azad edilməsinin ikinci ildönümündə Zəngilanda oldular. Burada Arximed turbini tipli Su Elektrik Stansiyası işə salındı, ilk yaşayış binasının və məktəbin təməlqoyma mərasimi baş tutdu. Prezidentin Ağalı kəndinə səfərini xüsusilə qeyd etmək istərdim. Bilirik ki, Prezident İlham Əliyev respublikamızın rayonlarına səfər edərkən vətəndaşlarla görüşür, söhbətlər aparır. Burada da elə oldu. O, öz ata-baba yurduna qayıdan ağalılarla görüşdü, səmimi söhbətlər apardı, fotolar çəkdirildi. Həmin məqamları izləyərkən mənim diqqətimi kənd sakinlərinin simasındakı xoşbəxt təbəssüm daha çox çəkdi. Artıq məcburi köçkün həyatının ağrılarından, el həsrətindən xilas olan sakinlər öz yurdlarında böyük sevinc və fərəh hissi ilə yaşayırlar", - Milli Məclisin deputatı deyib.

"Dövlətimizin başçısının rayona səfəri çərçivəsində öz möhtəşəmliyi ilə yadda qalan, bölgənin hərtərəfli inkişafına stimul verəcək, nəqliyyat-logistika imkanlarını daha da genişləndirəcək Zəngilan Beynəlxalq Hava Limanının açılışı oldu. Bu əlamətdar tədbirdə dost və qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı, Prezident İlham Əliyevlə bərabər hava limanının rəmzi açılışını bildirən lenti kəsməsi bir daha bəyan edir ki, Azərbaycan və Türkiyə dar gündə də, şad gündə də biri-birinin yanındadır. Bunun heç bir izahı yoxdur, bu yalnız qardaşlıq duyğularının təcəssümüdür. Tarixən belə olub, indi də belədir, heç kimdə şübhə yoxdur ki, bu, gələcəkdə də belə olacaq. Çünki burada söhbət qan qardaşlığından, bir atanın, bir ananın övladlarından gedir. Həm Prezident İlham Əliyev, həm də Rəcəb Tayyib Ərdoğan iki qardaş ölkəni və onların xalqlarını biri-birinə daha da yaxınlaşdırdılar, əlaqələrini genişləndirdilər. Məhz bu, gələcək nəsillər üçün böyük bir nümunədir", - deyə S.Möhbalıyev vurğulayıb.

“Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışını etdilər. Əminəm ki, kompleks bölgədə kənd təsərrüfatının inkişafında, sakinlərin məşğulluğunun təmin olunmasında, həm də hər iki ölkənin ərzaq təchizatında mühüm rol oynayacaq. Eləcə də Cəbrayılda yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksi Şərqi Zəngəzurun və Qarabağın dirçəlişinə, daimi iş yerlərinin açılmasına, bu sahədə mütəxəssislərin yetişməsinə, meşə təsərrüfatının genişlənməsinə gətirib çıxaracaq”, - deyə AHİK sədri əlavə edib.

**AZƏRTAC**
**2022, 21 oktyabr**

**Yaponiya portalı Zəngilan Beynəlxalq Hava Limanının açılışı barədə məlumatlar yayıb**

Yaponiyanın “ajmedia.jp” portalı Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Zəngilan Beynəlxalq Hava Limanın açılış mərasimində iştirakı barədə məlumatlar yayımlayıb.

AZƏRTAC xəbər verir ki, yapon və ingilis dilində yayılan məlumatlarda Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cəbrayıl şəhərində mətbuata birgə bəyanatına da geniş yer verilib.

Həmçinin məlumatlarda bu hava limanının regionun inkişafında mühüm rol oynayacağından bəhs edilib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sözləri sitat gətirilib: “İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ən müasir ikinci hava limanını açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyil”.

Məlumatlarda işğaldan azad olunan ərazilərdəki quruculuq işləri, Böyük Qayıdış, həmçinin Zəngilan Beynəlxalq Hava Limanının tikintisi ilə yanaşı, Azərbaycan və Türkiyə dövlət başçılarının mətbuat bəyanatlarından mühüm məqamlar da əksini tapıb.

**Vüqar Ağayev**
AZƏRTAC-ın xüsusi müxbiri
Tokio

**AZƏRTAC**
**2022, 21 oktyabr**

**Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilan Beynəlxalq Hava Limanının açılışını birgə etməsi rəmzi məna daşıyır**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana növbəti səfəri tarixi önəm kəsb edir. Çünki bu səfər zamanı Azərbaycan-Türkiyə qardaşlığını təcəssüm etdirən və regionun gələcək inkişafında önəmli rol oynayacaq addımlar atıldı. Dövlət başçılarının Zəngilan Beynəlxalq Hava Limanının açılışını birgə etməsi tarixi hadisədir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva söyləyib.

O bildirib ki, Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilan Beynəlxalq Hava Limanının açılışını birgə etməsi rəmzi məna daşıyır. Tarixi türk torpağı olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi Azərbaycan qədər Türkiyənin də qələbəsi idi və 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana verdiyi mənəvi və siyasi dəstək bunu bir daha təsdiqləyir. Bu hava limanı, həmçinin Zəngəzur dəhlizinin də əhəmiyyətini artıracaq.

Deputatın sözlərinə görə, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında, bundan başqa, Cəbrayıl rayonu ərazisində yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin təməlqoyma mərasimində iştirak etdilər. Prezidentlərimiz tərəfindən təməli atılan Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyası Zəngəzur dəhlizinin bir hissəsidir. Zəngəzur dəhlizi nəinki Azərbaycanın, həmçinin regionun iqtisadi inkişafına böyük töhfələr verəcək. Bu dəhliz vasitəsilə Naxçıvan Muxtar Respublikasının Azərbaycana quru yolla birləşdirilməsi də bu tarixi diyarımızın Azərbaycan iqtisadiyyatına daha da reinteqrasiyasına səbəb olacaq.

“Beləliklə, Zəngəzur dəhlizinin Azərbaycan iqtisadiyyatında çox böyük rolu olacaq. Bu dəhlizin ən üstün cəhətlərindən biri ondan ibarətdir ki, nəinki Azərbaycanla Naxçıvan arasındakı nəqliyyat əlaqələrinin şaxələndirməsinə, həmçinin Xəzər və Aralıq dənizlərindən başlayaraq Cənub-Şərqi Asiya və Mərkəzi Asiya ilə Avropa arasındakı nəqliyyat-logistika xətti olacaq. Zəngəzur dəhlizi Azərbaycanı öz ayrılmaz hissəsi olan Naxçıvanla, həmçinin Türkiyə ilə birləşdirəcək”, - deyə S.Fətəliyeva bildirib.

Deputat qeyd edib ki, Cəbrayıl şəhərində dövlət başçılarının mətbuata birgə bəyanatla çıxışları zamanı Prezident İlham Əliyevin dediyi kimi, bu gün regional işlərdə, hətta dünya çapında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib.

“Şanlı Zəfərin tarixi əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, bütün bu şanlı tarix bizim müştərək tariximizdir. İkinci Qarabağ müharibəsinin ilk saatlarından Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə edərək bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam etdi. Bu, bizə əlavə güc verirdi, bu, bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qarşısını aldı. Beləliklə, Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Şərqi Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük. Türkiyə şirkətləri bu işlərdə fəal iştirak edirlər. “Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu, bizim üçün böyük xoşbəxtlikdir. İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi. Keçən il biz Şuşada Şuşa Bəyannaməsini imzaladıq və Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldu”, - deyən dövlətimizin başçısı onu da bəyan etdi ki, bu amil bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq, eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır. Prezident Rəcəb Tayyib Ərdoğan isə qeyd etdi ki, Türkiyə qardaş Azərbaycana bütün imkanları ilə dəstək olmaqda davam edəcək. “Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır. Yəni, artıq bütün Qarabağla bağlı atılan bu addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur”, - deyən Prezident Ərdoğan onu da bildirib ki, Ermənistan ilə müzakirələrdə səmimi addımlar atan və müsbət təkliflər irəli sürən Azərbaycan əsas hədəfinin davamlı sülh, firavanlıq və sabitlik olduğunu ortaya qoyub”, - deyə deputat diqqətə çatdırıb.

Sevinc Fətəliyeva həyata keçirilən layihələrin Azərbaycan və Türkiyənin regionda önəmini daha da artıracağını vurğulayıb. Bu da o deməkdir ki, güclənən Azərbaycan-Türkiyə birliyi regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasında əsas amildir.

**AZƏRTAC**
**2022, 21 oktyabr**

**Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilan və Cəbrayıl rayonlarına səfərləri Gürcüstan mətbuatının diqqət mərkəzindədir**

Gürcüstanın aparıcı informasiya portalları və televiziyaları Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın Zəngilan və Cəbrayıl rayonlarına səfərləri, iştirak etdikləri tədbirlər və çıxışlar zamanı səsləndirdikləri fikirlərə geniş yer veriblər.

AZƏRTAC xəbər verir ki, gaxa.ge, aktual.ge, 24news.ge, interpress.ge informasiya portalları və 1.tv, maestro tv. televiziya kanallarının müxtəlif dillərdə yayımladığı materiallarda hər iki ölkə başçısının maraqlı fikirləri yer alıb.

Dövlət başçılarının Zəngilan aeroportunun açılışında, eləcə də Cəbrayılda iştirak etdikləri digər tədbirlərdə söylədikləri fikirlərə dair müxtəlif xəbərlər paylaşılıb.

**Xətayi Əzizov**
AZƏRTAC-ın xüsusi müxbiri
Tbilisi

**AZƏRTAC**
**2022, 21 oktyabr**

**Deputat: Zəngilan Beynəlxalq Hava Limanının inşası bölgənin yeni reallıqlar əsasında inkişafını göstərir**

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində ikinci, Şərqi Zəngəzurun isə ilk hava limanı - Zəngilan Beynəlxalq Hava Limanı da qısa müddətdə yüksək standartlar əsasında inşa edildi və istifadəyə verildi. Ötən gün Azərbaycan və Türkiyə prezidentlərinin açılış mərasimində iştirak etməsi, səslənən bəyanatlar bölgənin yeni reallıqlar əsasında inkişafının göstəricisidir. Mərasimin məhz Zəngilanın işğaldan azad olunmasının 2-ci ildönümündə baş tutması, Türkiyə Prezidentinin Azərbaycanda, Zəngilanda və Cəbrayılda olması təbii ki xüsusi məna daşıyır. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, Azərbaycan və Türkiyə bərpa edilən Qarabağda və Zəngəzurda da bir yerdədir. Zəngilan Beynəlxalq Hava Limanı Azərbaycanın qəhrəmanlıq dastanından sonra indi də Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva söyləyib.

O vurğulayıb ki, Azərbaycan bu gün həm Qarabağın, həm də Şərqi Zəngəzurun hava məkanının təhlükəsizliyini təmin etmək gücündədir. Füzuli Beynəlxalq Hava Limanından sonra Zəngilanda da aeroportun qısa müddətdə inşası işğaldan azad olunmuş ərazilərdə bərpa prosesinin sürətlə və plan üzrə getdiyini bir daha təsdiqləyir. Hər iki limanın inşası həm siyasi, həm iqtisadi, həm də tarixi əhəmiyyət daşıyır. Azərbaycan azad olunmuş ərazilərə qayıtdığı kimi, Qarabağın və Şərqi Zəngəzurun hava məkanında da artıq sərbəst və təhlükəsiz şəkildə uçuşlar həyata keçirir.

Hava limanlarının inşasının bu ərazilərdə nəqliyyat infrastrukturunun kompleks həllinin tərkib hissəsi olduğunu diqqətə çatdıran K.Nurullayeva deyib: "Nəzərə alsaq ki, Füzuli və Zəngilan hava limanları beynəlxalq statuslu hava limanlarıdır və burada həm sərnişindaşıma, həm də yükdaşımaların həyata keçirilməsi gələcəkdə bölgənin iqtisadi baxımdan dirçəlməsi üçün geniş imkanlar açır. Hava limanları iqtisadi baxımdan vacibdir. Çünki Qarabağın və Şərqi Zəngəzurun böyük iqtisadi potensialının reallaşması, burada istehsal ediləcək məhsulların daxili bazara, o cümlədən xarici bazara ixrac edilməsi baxımından hava limanları mühüm əhəmiyyət kəsb edir.

Yeni aeroportların uçuş-enmə zolağı Beynəlxalq Mülki Aviasiya Təşkilatının bütün tələblərinə uyğun müvafiq avadanlıqlarla təchiz olunub. Bu, hava limanına istənilən tip təyyarələrin qəbul edilməsinə imkan verəcək.

Hazırda Laçında da nadir hava limanı inşa olunmaqdadır. Relyefin mürəkkəbliyinə və tələb olunan maliyyə vəsaitinin çoxluğuna baxmayaraq, Azərbaycan Füzuli və Zəngilan Beynəlxalq Hava Limanının inşasını reallaşdırmaqla həm ilk təcrübə yaradır, həm də təbii ki, bölgənin bərpasını sürətləndirir. Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi təbii ki, həm bu bölgədə yaşayan insanların rifahını təmin edəcək, həm də bölgənin turizm imkanlarını artıracaq. Bununla da, işğaldan azad olunmuş ərazilərimiz iri nəqliyyat qovşağına çevriləcək".

Deputatın sözlərinə görə, azad olunmuş ərazilərdə aparılan bərpa prosesi böyük qayıdışın təmin olunmasına hesablanıb. Soydaşlarımız bərpa işlərindən sonra azad edilən ərazilərə qayıdaraq, öz dədə-baba yurdlarında təhlükəsiz şəraitdə yaşayacaqlar. Prezident İlham Əliyevin də söylədiyi kimi, bütün keçmiş məcburi köçkünlər qayıdacaqlar. Dövlət onların qayıdışı üçün bütün tədbirləri görür.

**AZƏRTAC**
**2022, 21 oktyabr**

**Ukrayna və Moldova mediası Zəngilan aeroportunun açılışına geniş yer ayırıb**

Ukrayna və Moldovanın aparıcı KİV-ləri Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Zəngilan Beynəlxalq Aeroportunun açılışına geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, Ukraynanın "Ukrinform" informasiya agentliyi, "Goodnews", Moldovanın "Noi", "Tv8" və digər xəbər portallarında dərc olunan məqalələrdə Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açılış mərasimində iştirak etdikləri vurğulanıb.

Qeyd edilib ki, Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edəcək. Məqalələrdə, həmçinin işğaldan azad edilən ərazilərdə növbəti beynəlxalq aeroportun Laçında inşa edildiyi yazılıb.

**Emil Hüseynli**
**AZƏRTAC-ın xüsusi müxbiri**
**Kiyev**

**AZƏRTAC**
**2022, 21 oktyabr**

**Türkiyə mediası: Prezident Rəcəb Tayyib Ərdoğan Zəngilan aeroportunun ilk rəsmi qonağı oldu**

Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri, Prezident İlham Əliyev tərəfindən Zəngilan Beynəlxalq Hava Limanında qarşılanması, eləcə də səfərə bağlı digər mühüm məqamlar Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb. Türkiyə mediası yazır ki, Prezident Rəcəb Tayyib Ərdoğan Zəngilan Beynəlxalq Hava Limanının ilk rəsmi qonağı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cəbrayıl şəhərində mətbuata birgə bəyanatı Anadolu Agentliyi, “TRT Haber”, “TGRT”, “Haber Global”, “Haber Türk” telekanalları və digər media orqanları tərəfindən canlı yayımla dünya ictimaiyyətinə təqdim olunub.

Həmçinin “TRT Avaz”, “CNN Türk” və başqa telekanallar, “Milliyet”, “Hurriyet”, “Sabah” və digər qəzetlər, xəbər agentlikləri başda olmaqla, ölkənin aparıcı media qurumları Türkiyə dövlət başçısının Azərbaycana səfərinin tarixi əhəmiyyətini, göstərilən yüksək qonaqpərvərliyi fərqli sərlövhələrlə günün baş xəbəri kimi işıqlandırıblar.

İşğaldan azad olunan ərazilərimizdəki quruculuq işlərini, Böyük Qayıdışı, həmçinin Zəngilan Beynəlxalq Hava Limanının tikintisini hər zaman diqqət mərkəzində saxlayan Anadolu Agentliyi Türkiyə dövlət başçısının Azərbaycana 20 oktyabr tarixli səfərinin bütün təfərrüatını bir neçə dildə yayıb. Həmçinin Azərbaycan və Türkiyə dövlət başçılarının mətbuat bəyanatlarından mühüm məqamlar fərqli sərlövhələrlə ictimaiyyətə çatdırılıb.

“TGRT” telekanalı səfərə dair canlı yayımları şərhlər əsasında təqdim edib. “TRT Haber” isə mövzu ətrafında bir neçə xüsusi reportaj yayıb.

Mövzunu “Zəngilan Hava Limanı inkişaf dastanıdır” sərlövhəsi ilə gündəmdə saxlayan “Milliyet” qəzeti oxuculara bir daha çatdırıb ki, Azərbaycan Ermənistanın işğalından azad etdiyi ərazilərində həyata keçirdiyi nəhəng layihələrlə xariqələr yaradır.

Ölkənin ən populyar qəzetlərindən olan “Sabah” isə “Qardaş qüruru” sərlövhəsi altında yaydığı analitik məqalədə Azərbaycan və Türkiyədə aparılan quruculuq işlərinin əhəmiyyətini xatırladaraq əminliklə bildirir ki, işğaldan azad olunan Azərbaycan ərazilərində qurulan istehsalat müəssisələrinin məhsulları Qarabağ brendi ilə dünya bazarlarına yol açacaq.

**Sabir Şahtaxtı**
AZƏRTAC-ın xüsusi müxbiri
Ankara

**AZƏRTAC**
**2022, 21 oktyabr**

**Zəngilandan dünyaya sülh mesajı verən türk gücü**

Azərbaycan tarixinin şanlı səhifəsi olan Zəfər savaşının qürurlu ildönümlərini yaşamaqdayıq. 30 il ərzində işğal tarixlərini sızıntı və qüssə ilə qeyd edən xalqımız indi həmin yurdların azad olunma günlərinin sevincini yaşayır. Azərbaycan Prezidentinin birbaşa nəzarəti və rəhbərliyi altında işğaldan azad olunmuş bölgələrdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri isə bu sevinci bir qədər də artırır. 44 gün ərzində cəbhə meydanında Ali Baş Komandan, diplomatiya masasında fövqəlsiyasətçi olan Azərbaycan Lideri bu gün eyni qüdrət və bacarıqla yenidənqurma işinə rəhbərlik edir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin sədrinin müavini Fəzail İbrahimli söyləyib.

Fəzail İbrahimli bildirib ki, işğaldan azad olunmuş ərazilərdə digər infrastruktur layihələrlə yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə Füzuli, Zəngilan və Laçında beynəlxalq hava limanlarının tikintisinə başlanmış, regionun inkişafında strateji əhəmiyyət kəsb edən 3 hava limanının inşa edilməsi postmüharibə dövründə həyata keçirilən genişmiqyaslı işlərin əsasını təşkil edir. Təxminən bir il öncə müasir standartlar əsasında tikilmiş Füzuli Beynəlxalq Hava Limanının açılışının ardınca Zəngilanda da belə bir hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağının və oraya yenidən həyatın qayıtmasının bariz nümunəsidir. Qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bölgədəki quruculuq işlərinə “Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisi” deyə qiymət verməsi də təsadüfi deyildi. Dünyanın həm siyasi, həm iqtisadi baxımdan indiki çalxalanma dönəmində Azərbaycanın işğal dönəmində xaraba qoyulmuş yurdlarımızda gördüyü işlər fantastikdir. Zəngilan Hava Limanı isə xüsusi geostrateji əhəmiyyətə malikdir. Zəngəzur dəhlizinin açılması ilə iqtisadi baxımdan ən sərfəli Şərq-Qərb marşrutunun mühüm bölgəsi olan bu rayon qlobal logistik layihələrin mərkəzinə çevriləcək. Biz bölgədə davamlı sülhün və hərtərəfli normallaşmanın tərəfdarıyıq. Bu coğrafiyadan keçəcək quru və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi-ticari fürsətlər yaradacaq.

“Təbii ki, hər bir açılışın, təməlqoyma mərasiminin dövlətimizin iqtisadiyyatı üçün mühüm önəmi var. Şübhəsiz ki, belə bir hadisəni daha əhəmiyyətli edən Füzuli Beynəlxalq Hava Limanında ilk rəsmi qarşılanmanın həyata keçirilməsi və bu ilk uçuşun qardaş Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə gerçəkləşməsidir. Geostrateji cəhətdən bu yolun təməlinin qoyulması və Zəngəzur dəhlizinin reallaşması üçün atılan ən mühüm addımın gerçəyə çevrilməsi, ələlxüsus da, qardaş dövlətin başçısının bu önəmli mərasimdə şəxsən iştirakı hadisənin ağırlığını, sanbalını tarixiləşdirir, siyasi-iqtisadi əhəmiyyətini genişləndirir. Azərbaycanın haqlı davasında bir an belə yanından uzaq olmayan qardaş Türkiyə dövlətinin hazırda da bu birliyi, bu səmimiyyəti ən yüksək səviyyədə göstərməsi, dövlət səviyyəsində Azərbaycanın bu diyarı cənnətə çevirmə missiyasında yanında yer almasını Zəngilan Hava Limanının açılışında hər iki xalq olaraq bir daha sevinclə və fərəhlə izlədik. Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz. İki qardaş ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir. Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs bundan yalnız faydalanacaq”, - deyə Milli Məclis sədrinin müavini qeyd edib.

Azərbaycanın və Türkiyənin bu gün regionda yeni reallıq yaratdığını vurğulayan Fəzail İbrahimli deyib: “Qarabağ savaşı böyük Qələbəmizlə başa çatandan sonra Cənubi Qafqaz çox ciddi və mühüm bir başlanğıca qədəm qoyur. O başlanğıcın adı Sülh, Sabitlik və İnkişafdır! Türkiyə Prezidentinin Hava Limanının açılışından sonra Cəbrayıl rayonunda “Dostluq Meşəsi” Kompleksinin təməlqoyma mərasiminə qatılması, Azərbaycan Prezidenti ilə birgə burada ağac əkməsi və əraziyə ceyran buraxılması. Həm də bunun mesajı idi. Bu gün bölgədə əsas söz sahibi artıq Türkiyə və Azərbaycandır, İkinci Qarabağ müharibəsində qalibiyyət regionda Türkiyə-Azərbaycan müttəfiqliyinin ən yüksək zirvəsidir. Bu müttəfiqlik məhz Şuşa Bəyannaməsi ilə rəsmiləşdi. Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan təkcə iki türk dövlətinin qardaşlığını inkişaf etdirmir, həm də türk dünyasının birləşməsinə aparır”.

**AZƏRTAC**
**2022, 21 oktyabr**

**Zəngilan aeroportu Zəngəzur dəhlizi ilə bağlı infrastrukturun yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir**

Prezident İlham Əliyevin 2021-ci ildə imzaladığı Fərmana əsasən, işğaldan azad olunmuş ərazilərimizi birləşdirən yeni iqtisadi rayonlar yaradıldı. Fərmanda məqsəd ərazilərin iqtisadi potensialından, nəqliyyat–kommunikasiya, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etmək və bütün bunları vahid proqram əsasında aparılmasıdır. Yeni yaradılan iqtisadi rayonlardan biri də Zəngilanın daxil olduğu Şərqi Zəngəzur iqtisadi rayonudur. Bilirik ki, Azərbaycan Xalq Cümhuriyyətinin Zəngəzur qəzası olub və onun şərq və qərb hissəsi var idi. Təəssüf olsun ki, Zəngəzur qəzasının qərb hissəsi sonralar əsassız və qanunsuz olaraq Ermənistana verilib. Zəngilan rayonu coğrafi mövqeyinə görə Şərqi və Qərbi Zəngəzuru birləşdirən dəhliz, Qərbi Zəngəzura açılan qapıdır. Ona görə məhz belə bir iqtisadi və hərbi baxımdan strateji mövqedə yerləşən rayonda hava limanının tikilməsi nəqliyyat–kommunikasiya imkanlarının genişləndirilməsi baxımından çox vacibdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ana Vətən Partiyası sədrinin müavini, politoloq Yalçın Hacızadə söyləyib.

Politoloq qeyd edib ki, torpaqlarımızın işğaldan azad olunmasından keçən qısa müddətdə həmin bölgələrdə aparılan bərpa və yenidənqurma işləri, Füzuli Beynəlxalq Hava Limanından sonra Zəngilanda da aeroportun açılışı Azərbaycanın postmünaqişə dövrü üçün böyük planlarının göstəricisidir.

Bu hava limanı bütün növ təyyarələrin, o cümlədən ağır yük təyyarələrini də qəbul edəcək potensialdadır. Həmçinin Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsinə, Zəngəzur dəhlizinin hava nəqliyyat infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Bütün bunlar da Zəngəzur dəhlizinin açılacağı, ərazilərin beynəlxalq logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırır.

"Azərbaycan xalqı üçün bütün bunları sevincli edəcək daha bir hadisə hər zaman belə açılışlarda ölkəmizə səfər edərək bizə dəstək verən qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakıdır. Səfər qısa müddətli olsa da, bir çox nazirlərin, hökumət rəsmilərinin və iş insanlarının iştirakı ilə rəsmi dövlət səfərinə bərabər şəkildə təşkil edilib. Əlbəttə ki, bu Azərbaycana böyük dəstək, eyni zamanda, regiondakı yeni vəziyyəti qəbul etməyən, hərbi təlimlər keçirərək bizə hədə-qorxu gələcəyini fikirləşən, Ermənistanı sülhdən uzaqlaşdırmağa çalışan və revanş xəyallarına sürükləyən qüvvələrə böyük mesajdır.

Türkiyə Azərbaycan münasibətləri sülhə, yenidənqurmaya, regionun iqtisadi, nəqliyyat – kommunikasiya imkanlarından bərabər şəkildə birgə faydalanmağa söykənir. Amma Ermənistan havadarlarının məqsədi regiona təsir etmək məqsədilə müharibənin, təcavüzün davam etməsinə çalışmaqdır.

Prezidentlərin çıxışlarında belə qüvvələrin kimlər olduğunu, ikiüzlü siyasətlərini davam edəcəkləri halda onları nələrin gözlədikləri açıq şəkildə bəyan edildi. Türkiyə Prezidenti Ərdoğanın "baxıram sağıma, soluma, görürəm ki, Cəbrayılı nə günə qoyublar. Qardaşımdan soruşdum buralara ATƏT, Avropa İttifaqı gəlib baxıbmı? Dedi, gəlməyiblər, çünki bilirəm, üzləri qaradır. Bu məsələlərə görə beynəlxalq Haaqa məhkəməsinə müraciət etmək lazımdır, qoy küncə sıxılsınlar" deməsi, Azərbaycanı öz torpaqlarını azad etdiyi üçün "işğalçı" adlandıran Emmanuel Makrona, əsassız, tələm-tələsik Ermənistana nümayəndələr göndərən beynəlxalq təşkilatlara etiraz və "bizim əlimizdə sizə təsir edəcək daha güclü hüquqi əsasları olan vasitələr var" deməkdir", - deyə Yalçın Hacızadə vurğulayıb.

O əlavə edib ki, Türkiyə Azərbaycan münasibətləri ulu öndər Heydər Əliyevin əsasını qoyduğu "iki dövlət bir millət" tezisinə əsaslanaraq Şuşa Bəyannaməsi kimi strateji müttəfiqliyi özündə əks etdirən sənədin imzalanmasına qədər şərəfli yol keçib.

Politoloq, həmçinin qeyd edib: "Görüşdə Prezident İlham Əliyevin Türkiyə - Azərbaycan birliyi bəzi qüvvələrin müdaxiləsinin qarşısını aldı. Bu gün bu birliyin, qardaşlığın növbəti təntənəsidir. Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu, bizim üçün böyük xoşbəxtlikdir. Şuşa Bəyannaməsi bizi rəsmən müttəfiq edib. Bu birlik bölgədə çox önəmli bir amildir. Bu sülh, sabitlik amilidir" açıqlaması Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin bu birliyə verdiyi önəmin, qiymətin göstəricisidir.

Yeni və müasir texnologiyaların istifadəsi, insanların rahatlığının təmin olunması və ətraf mühitin qorunması kimi komponentlərə əsaslanan bərpa və yenidənqurma işləri bəzi qüvvələri qıcıqlandırsa və məyus etsə də, Azərbaycan öz məqsədlərini əzmlə yerinə yetirir. Ölkəmiz, həmçinin ərazinin sahibi kimi bölgənin inkişafını və təhlükəsizliyini təmin edəcək siyasi, iqtisadi və hərbi gücə malik olduğunu açıq şəkildə dünyaya nümayiş etdirir".

**AZƏRTAC**
**2022, 22 oktyabr**

**Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilanda hava limanın açılışında iştirakları ölkələrimizin birliyinin, qardaşlığının təntənəsidir**

Ölkəmizin tarixində çox əlamətdar hadisə olan Zəngilan Beynəlxalq Hava Limanının açılışı məhz rayonun işğaldan azad olunmasının ikinci ilinin tamamında baş tutdu. Vətən müharibəsinin ilk saatlarından Azərbaycanın yanında olduğunu bəyan edən qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın hava limanının açılışında iştirak etməsi ölkələrimizin birliyinin və qardaşlığının təntənəsidir.

Bu barədə Milli Məclisin deputatı Cavid Osmanov AZƏRTAC-a açıqlamasında deyib.

“Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimindən sonra Cəbrayıl şəhərində dövlət başçılarının mətbuata verdikləri birgə bəyanat zamanı Prezident İlham Əliyev bildirdi ki, Türkiyə Prezidentinin Azərbaycanda, Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır. Ölkəmizin inamlı Qələbəsinə diqqət çəkən Prezident İlham Əliyev iki il öncə Zəngilan azad olunduqdan bir neçə gün sonra Qubadlının erməni işğalından azad edildiyini və Azərbaycan Ordusunun bir qruplaşmasının Laçın, digər qruplaşmasının isə Şuşaya istiqamətləndiyini xatırlatdı. Noyabrın 8-də alınmaz qala sayılan Şuşa erməni işğalından azad edilib, Azərbaycan Bayrağı qaldırılıb və ondan sonra Ermənistan təslim olub. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev bu şanlı tarixi Azərbaycan və Türkiyənin müştərək tarixi olduğunu qeyd edib. Qardaş Türkiyənin ölkəmizə siyasi və mənəvi dəstəyi savaşın son gününə qədər davam etdi. Türkiyə-Azərbaycan birliyi bu gün isə bərpa edilən Qarabağ və Zəngəzurda yenə də görünür. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır”, - deyə deputat vurğulayıb.

“Prezident İlham Əliyev bildirdi ki, inşaat və yol çəkilişi işlərində Türkiyə şirkətləri bizimlə bərabər çalışır. Qısa müddət ərzində Türkiyə şirkətləri tərəfindən böyük işlər görülüb. Avtomobil və dəmir yolları çəkilir, ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel, habelə ümumi uzunluğu 12 kilometr olan 84 körpü tikiləcək. Bu işlərin bir qisminin artıq inşa edildiyini söyləyən Prezident İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru tam bərpa etmək üçün daha böyük işlərin görüləcəyini qeyd etdi. Bölgənin ilk özəl sərmayəsi “Dost Aqropark” da diqqət mərkəzində olub”, - deyə Cavid Osmanov əlavə edib.

Onun sözlərinə görə, mətbuata bəyanatında dövlətimizin başçısı erməni vandalizminin miqyası haqqında danışarkən vurğulayıb ki, işğal dövründə ermənilər bütün şəhərlərimizi, kəndlərimizi yerlə bir ediblər. Yalnız dağılmış binalar qalıb. Bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilib. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar, qayıtmağa yer olmasın. Lakin ermənilərin düşündüyü kimi olmadı, artıq ərazilərimiz işğaldan azad olunub və bütün keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdacaqlar. Keçmiş qaçqınların qayıdışı üçün dövlətimiz hər nə lazımdırsa edir, gecə-gündüz davamlı olaraq həyata keçirilən bərpa-quruculuq işlərində türk şirkətləri də yaxından iştirak edirlər. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilan və Cəbrayıla səfərini, hava limanının açılışında iştirakını Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsi adlandırdı. Azərbaycanın qardaş Türkiyə kimi qüdrətli dostunun olması ölkəmiz üçün böyük xoşbəxtlikdir. Bu birlik İkinci Qarabağ savaşı zamanı bəzi qüvvələrin müdaxiləsinin qabağını aldı və savaşdan sonrakı dövr Türkiyə-Azərbaycan birliyini daha da gücləndirdi. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxdı. Şuşa Bəyannaməsinin imzalanması bunu sübut edən ən əsas amildir. Məhz Şuşa Bəyannaməsi ilə Türkiyə və Azərbaycanı rəsmən müttəfiq oldular. Bütün sahələrdə müttəfiq olan Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir.

“Prezident İlham Əliyev qardaş Türkiyənin son illər böyük uğurlu yol keçərək dünya çapında güc mərkəzinə çevrildiyinə diqqət çəkdi. Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır. Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. İnamla irəliləyən, nəhəng layihələr gerçəkləşdirən Türkiyə isə bölgədə söz sahibi, dünyada önəmli güc mərkəzidir”, - deyə Milli Məclisin deputatı qeyd edib.

**AZƏRTAC**
**2022, 22 oktyabr**

**Azərbaycan-Türkiyə qardaşlığının Zəngilan və Cəbrayıldan mesajları xüsusi məna daşıyır**

Prezident İlham Əliyevin qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Zəngilan Beynəlxalq Hava Limanının, "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışını etməsi, Cəbrayılda Qumlaq stansiyasının, "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlini qoyması böyük iqtisadi və siyasi əhəmiyyət kəsb edir. Xüsusilə də, Ermənistan və İranla həmsərhəd olan Zəngilanın işğaldan azad olunmasının 2-ci ildönümündə, eyni zamanda, baş verən regional hərbi-siyasi proseslər fonunda Türkiyə Prezidentinin Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır.

Bunu Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov AZƏRTAC-a açıqlamasında deyib.

O bildirib ki, Zəngilan Beynəlxalq Hava Limanının açılışı ölkəmizin həyatında çox əlamətdar hadisə oldu. Eyni zamanda, hava limanının açılışı Qarabağ və Şərqi Zəngəzurun sürətlə inkişafına öz töhfəsini verəcək. Heç şübhəsiz ki, bu hava limanının inşası və açılışı Azərbaycana strateji-hərbi və sosial-iqtisadi üstünlüklər qazandırır.

Ramil Vəlibəyov əlavə edib ki, qısa müddət ərzində Qarabağda və Şərqi Zəngəzurda böyük miqyasda bərpa və quruculuq işlərinin həyata keçirilməsi bir daha Azərbaycan dövlətinin qətiyyətinin, iradəsinin və qüdrətinin nümayişidir.

"Prezident İlham Əliyevin qeyd etdiyi kimi bu gün bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyi görünür. Bütövlükdə isə Zəngilanda və Cəbrayılda bir daha Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsi yaşandı. Şuşa Bəyannaməsi ilə bütün sahələrdə rəsmən müttəfiq olan Türkiyə və Azərbaycanın birliyi bölgədə çox önəmli bir amilə çevrildi. Artıq faktdır ki, ikinci Qarabağ müharibəsindən sonra Türkiyə-Azərbaycan qardaşlığı və birliyi daha da yüksək pilləyə qalxıb. Bu gün Azərbaycan və Türkiyə bayraqları Qarabağda və Şərqi Zəngəzurda da bir yerdə dalğalanır. Prezident İlham Əliyevin bildirdiyi kimi bu, ürəkdən gələn duyğulardır, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və zəmanəmizin tələbidir", - deyə YAP Nizami rayon təşkilatının sədri vurğulayıb.

**AZƏRTAC**
**2022, 22 oktyabr**

**Azərbaycan və Türkiyə liderlərinin Zəngilanın azad olunmasının ikinci ildönümündə bir yerdə olmaları böyük mənəvi-siyasi önəm daşıyır**

Azərbaycan-Türkiyə birliyi sarsılmazlığını bu dəfə də Zəngilan və Cəbrayıldan dünyaya nümayiş etdirdi. Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etdilər. Həmçinin Türkiyə Prezidentinin Azərbaycana səfəri çərçivəsində dövlət başçıları “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər, Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoyublar. Bundan başqa Türkiyə və Azərbaycan prezidentləri Cəbrayıl rayonu ərazisində yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin təməlqoyma mərasimlərində birgə iştirak ediblər. Bütün bu tədbirlər Azərbaycan və Türkiyənin həm dar gündə, həm də xoş günlərdə, quruculuq işlərində hər zaman bir yerdə olduqlarının və bundan sonra da bir olacaqlarının bütün dünyaya növbəti nümayişi oldu.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı bildirib.

Deputat Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümündə bir yerdə olmalarının böyük mənəvi-siyasi önəm kəsb etdiyini vurğulayaraq deyib: “Azərbaycan və Türkiyə dövlət başçılarının keçirdikləri təkbətək görüşdən sonra prezidentlər mətbuata birgə bəyanatlarla çıxış etdilər. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında Zəngilan şəhərinin işğaldan azad edilməsinin ikinci ildönümündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cəbrayıl və Zəngilana səfər etməsinin xüsusi məna kəsb edən önəmli hadisə olduğunu qeyd etdi. Dövlətimizin başçısı bir daha diqqətə çatdırdı ki, Zəngilanın azad olunması Vətən müharibəsinin gedişində həlledici qələbələrdən biri olub. Bu zəfərdən bir neçə gün sonra Qubadlı erməni işğalından azad edildi və Azərbaycan Ordusunun bir qruplaşması Laçına, digər qruplaşma isə Şuşaya istiqamət götürdü. Alınmaz qala sayılan Şuşa noyabrın 8-də erməni işğalından azad edildi. Azərbaycanın Şuşa Zəfərindən sonra Ermənistan təslim oldu. Prezident İlham Əliyev xüsusi olaraq vurğuladı ki, bu şanlı tarix Azərbaycan və Türkiyənin müştərək tarixidir. Çünki İkinci Qarabağ müharibəsi başlanan ilk saatlardan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri durdurdu. Bu, o deməkdir ki, ölkələrimiz faktiki olaraq hər zaman biri digərinin müdafiəsində durmağa hazır olub”.

Azərbaycan ilə Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsinin əhəmiyyətindən də danışan A.Naxçıvanlı qeyd edib: “Dövlətimizin başçısı da vurğuladı ki, Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Qeyd edək ki, bu birlik Azərbaycan və Türkiyə prezidentləri tərəfindən 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanmış “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” ilə əsl müttəfiqlik səviyyəsinə yüksəlib. Prezident İlham Əliyevin də dediyi kimi, Şuşa Bəyannaməsi hər iki ölkənin xalqlarına ciddi gözaydınlığı, eyni zamanda, bütün dünyaya ciddi mesajdır. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün söylədiyi “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” və dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyevin səsləndirdiyi “Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir” ifadələrinin Şuşa Bəyannaməsində xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirilməsi iki qardaş ölkə arasındakı bütün strateji əlaqələrin ən yüksək səviyyədə durduğunu və artıq bu əlaqələrin yeni tarixi mərhələyə keçid etdiyini göstərir. Bu gün ölkəmizin hər bir guşəsində yanaşı dalğalanan Azərbaycan və Türkiyə bayraqları ölkələrimizin, xalqlarımızn birliyinin ən bariz nümayişidir”, - deyə Aqiyə Naxçıvanlı fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2022, 22 oktyabr**

## Deputat: Türkiyə Prezidentinin Zəngilan aeroportunun açılışında iştirakı ölkəmizə yönələn təhdidlərə açıq mesaj oldu

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur 30 illik erməni əsarətindən qurtularaq yenidən canlanmağa başlayıb. Bu ərazilər 30 ildə erməni vəhşiliklərinin və vandallıqlarının şahidi olub. Şəhərlər, kəndlər, tarixi-mədəni abidələr, qəbiristanlıqlar dağıdılıb, viran edilib.

İki il əvvəl Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz torpaqlarımızı düşmən tapdağından azad etdi, dövlətimiz isə həmin ərazilərdə keçmiş məcburi köçkünlərin layiqli həyat şəraitini təmin etməyə başladı. 30 il əsarətdə qalmış torpaqlarımız iki ildir çiçəklənmə dövrünə qədəm qoyub. Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərini heç bir xarici maliyyə dəstəyi olmadan yenidən qurur və bərpa edir. İcra olunan meqalayihələrin çərçivəsi çox genişdir. 2021-ci ildə Füzulidə Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, qısa zaman kəsiyində Zəfər yolunun tikilməsi və hazırda işğaldan azad olunmuş ərazilərdə salınan yüksək standartlara uyğun avtomobil, dəmir yolları, yaradılan enerji infrastrukturu regionun gələcəyinin necə olacağı ilə bağlı qabaqcadan təsəvvür formalaşdırmağa imkan verir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Badamov söyləyib.

Deputat qeyd edib ki, baş planları təsdiq olunan şəhərlərdə artıq tikinti işlərinə başlanılıb. Böyük Qayıdışın ilk qədəmləri Ağalıda oldu. Dövlətimizin başçısı keçmiş məcburi köçkünləri öz doğma yurdlarına qaytarmaqla bərabər, onları daim diqqətdə saxlayır, yaşayış şəraitləri ilə tanış olur, arzu və istəklərini dinləyir. Oktyabrın 19-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağalıda orta məktəbin şagird-müəllim kollektivi və kənd sakinləri ilə görüşü məhz yüksək diqqətin göstəricisidir. Kənd sakinləri ilə səmimi söhbət edərək şəkillər çəkdirən dövlətimizin başçısı öz sadəliyini bir daha nümayiş etdirdi. Bu gün Ağalı sakinləri Prezident İlham Əliyevə sevgi və məhəbbətlərini, minnətdarlıqlarını bildirirlər. Əminliklə söyləmək olar ki, tezliklə digər keçmiş məcburi köçkünlər də “ağıllı” konsepsiyası əsasında yenidən qurulmuş doğma yurdlarına qayıdacaqlar”.

A.Badamov bildirib ki, Zəngilana səfəri zamanı Prezident İlham Əliyev Arximed turbini tipli Su Elektrik Stansiyasını işə saldı, Zəngilan şəhərinin ilk yaşayış binasının və məktəbinin təməlqoyma mərasimlərində iştirak etdi. Bununla da Zəngilan şəhərinin tikintisinə start verildi. Zəngilanın işğaldan azad edilməsi günündə istifadəyə verilən Zəngilan Beynəlxalq Hava Limanı özünün ilk sərnişinləri olaraq ali qonaqları qəbul etdi. Hava limanının açılış mərasimində Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı Türkiyə-Azərbaycan qardaşlığının göstəricisi olmaqla yanaşı, ulu öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” və Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir!” ifadələrinin real həyatda özünü əks etdirdiyini bir daha sübuta yetirdi. 44 günlük Vətən müharibəsinin ilk günündə Türkiyə Prezidentinin hər cür yardımla sonadək Azərbaycanın yanındayıq deməsi haqq işimizi qısa zamanda bitirməyimizə imkan verdi.

O əlavə edib ki, müharibənin sona çatdığı iki ildə Türkiyə bütün sahələrdə yanımızda olmağa davam edir. Qardaş ölkənin və Azərbaycan şirkətlərinin çiyin-çiyinə çalışması böyük layihələrin tez və keyfiyyətlə həyata keçirilməsinə imkan verir. Prezident Ərdoğanın Zəngilan Hava Limanın açılışında iştirakı həm də bu gün ölkəmizə yönələn təhdidlərə qarşı mesaj oldu. Bu, o deməkdir ki, Azərbaycan yalnız deyil və Türkiyə hər zaman ölkəmizin yanındadır. Oktyabrın 20-də açılışı olmuş Zəngilan Beynəlxalq Hava Limanının siyasi, iqtisadi və hərbi əhəmiyyəti çox böyükdür. Qeyd edə bilərik ki, hava limanları inkişaf, təhlükəsizlik və sabitlik deməkdir. Beləliklə, xalqımız tarixin ən şərəfli və qürurlu günlərini yaşayır. Bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız başı dik, qürurla və firavan yaşayacaq.

**AZƏRTAC**
**2022, 23 oktyabr**

**Pərvin Kərimzadə: Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsi mühüm tarixi hadisədir**

Vətən müharibəsində şanlı Qələbə qazanılmasından az vaxt ötməsinə baxmayaraq, Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərimizin bərpası istiqamətində yüksək nəticələr əldə edib. Belə ki, son iki ilə yaxın müddətdə həmin ərazilərdə möhtəşəm layihələrin təməli atılıb və onların bir hissəsinin icrası artıq başa çatıb. Dövlətimiz işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışı ləyaqətli şəkildə təmin etməyi hədəfləyib. Bir qədər bundan əvvəl ilk sakinlərin işğaldan azad edilmiş ərazilərə köçürülməsinə start verildi. Zəngilan rayonunun Ağalı kəndində yaradılan “ağıllı kənd” işğaldan azad olunmuş ərazilərdə salınan ilk yaşayış məntəqəsidir. Oktyabrın 20-də isə Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsi növbəti bir tarixi hadisə oldu.

Bu fikirləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə AZƏRTAC-a açıqlamasında deyib.

O bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 20-də ölkəmizə səfər edərək Zəngilan Beynəlxalq Hava Limanının açılışında iştirak etməsi, eləcə də digər tədbirlərə qatılması, Şərqi Zəngəzurun bərpası istiqamətində bir sıra layihələrin təməlini Azərbaycan Prezidenti İlham Əliyevlə birgə atması dövlətlərimizin qardaşlığının nümunəsinin növbəti təntənəsidir. Zəngilan Hava Limanı ən müasir standartlar səviyyəsində inşa olunub. Zəngilan Beynəlxalq Hava Limanı Şərqi Zəngəzurun və Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır. O da məlumdur ki, Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər. “Dost Aqropark” türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Ötən bir il ərzində “Dost Aqropark”da birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb. Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı “Dost Aqropark” ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək. Bundan başqa, dövlət başçıları Cəbrayıl rayonu ərazisində yaradılacaq “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin təməlqoyma mərasimində iştirak etdilər. Prezidentlərimiz tərəfindən təməli atılan Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyası Zəngəzur dəhlizinin bir hissəsidir.

YAP İdarə Heyətinin üzvü vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri böyük vüsət alıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında görülən işlərlə tanış olub, yeni təməllər atıblar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar. Qubadlının Baş planın əsasında insanların yenidən təbiətlə qovuşması, komfortlu qonşuluq ərazilərinin təşkili, canlı rayon mərkəzi və sakit hərəkət strategiyaları dayanır. Qubadlının təbii imkanları nəzərə alınaraq şəhər parkları, meşə-parklar, çaykənarı bulvar, həmçinin ictimai bağlar şəhərin əsas simasını təşkil edəcək. Burada yerləşəcək yaşayış məkanlarının ərazi planlaşdırılmasında yaşıl sahələr, ortamərtəbəli və azmərtəbəli binaların, həmçinin həyətyanı sahəsi olan fərdi evlər üçün zonaların yerləri müəyyənləşdirilib. Bu səfərdə ən yaddaqalan məqamlardan biri isə Böyük Qayıdışın ilk müjdəsi olan Ağalı kəndinin sakinləri ilə görüşdür. Doğma yurdlarına qayıdan insanların çöhrəsindəki xoşbəxtlik, doğma yurda qayıdış sevinci aydın şəkildə hiss olunurdu. Müzəffər Ali Baş Komandan başda olmaqla bu sevinci xalqımıza yaşadan qəhrəman döyüşçülərimizə, şəhidlərimizə və qazilərimizə hər zaman borcluyuq.

**AZƏRTAC**
**2022, 23 oktyabr**

**Moldovanın nüfuzlu telekanalı Ağalı kəndindən "Xarabalıqlar içində həyat" sərlövhəli xüsusi reportaj hazırlayıb**

Moldovanın nüfuzlu "Prime" telekanalı "Xarabalıqlar içində həyat" sərlövhəli xüsusi reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, telekanalın jurnalisti Yelena Derjanskaya və operator Ruslan Şolkan Zəngilan rayonuna gedərək Ağalı kəndində gördüklərini lentə alıblar. Reportajda vurğulanır ki, Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı geri alınan ərazilərində bərpa və yenidənqurma işləri davam edir. Azərbaycanlı qaçqınların öz Vətənlərinə qaytarılması olan ən iddialı layihələrdən biri də "ağıllı kənd"dir. Bir vaxtlar torpaqları yandırılan və evləri uçuran ərazi indi 300-dən çox insanın yaşadığı ultra müasir kəndə çevrilir.

"Biz Zəngilan rayonunun Ağalı kəndindəyik. Burada uşaq bağçası, məktəb, supermarket, bank, xəstəxana var, burada cəmi 325 sakin yaşayır. Amma hər şey o qədər də sadə deyil. Bir il əvvəl indiki yerli sakinlərin böyük əksəriyyəti məcburi köçkünlər idi və onlar indi öz doğma yurdlarına qayıtmışlar. Səliqəli yaşıl örtüklü evlər, təzə qazon, günəş enerjisi ilə işləyən küçə işıqları və "Zəhmət olmasa təmiz saxlayın!" lövhələri. Azərbaycanın cənub-qərbindəki Ağalı kəndinə çatanda özünü ideal kənd kəndinin reklamının çəkiliş meydançasında hiss edirsən", - deyə reportajda qeyd edilir.

Bu kənd xarabalıq bir yerdə cəmi bir ildə salınıb. 30 ilə yaxındır ki, bu ərazi Ermənistanın işğalı altında olub. Lakin İkinci Qarabağ müharibəsi zamanı yenidən Bakının nəzarətinə keçib.

Ağalı kəndindən hazırlanan geniş reportajda kənd sakinlərindən müsahibələr də alınıb. Görülən işlər geniş təqdim olunub.

**Emil Hüseynli**
AZƏRTAC-ın xüsusi müxbiri
Kişineu

**AZƏRTAC**
**2022, 21 noyabr**

## Prezident: Ağalı kəndi Qarabağın yenidən qurulmasının nümunəvi modeli olacaq

Ağalı kəndi Qarabağın yenidən qurulmasının nümunəvi modeli olacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransın açılışındakı çıxışında deyib.

Ağalı kəndinin sakinlərinin artıq məskunlaşdıqlarını qeyd edən dövlətimizin başçısı bildirib: "Bu, yalnız Qarabağın işğalı dövründə əziyyət çəkmiş keçmiş köçkünlər qarşısında bizim mənəvi borcumuzun təzahürü deyil. Biz Qarabağın və Zəngəzurun bərpasını bütün ölkənin yenidən qurulmasının modeli hesab edirik".

**AZƏRTAC**
**2022, 25 noyabr**

**Xarici jurnalistlər Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər**

Xarici ölkələrdəki ispandilli kütləvi informasiya vasitələrində fəaliyyət göstərən bir qrup jurnalist İsraildəki Azərbaycan diasporunun dəstəyi ilə Azərbaycana səfər edib.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində xarici jurnalistlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, xarici işlər nazirinin müavini Fariz Rzayev, gənclər və idman naziri Fərid Qayıbov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ilə görüşüblər. Qonaqlara Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, Qarabağ həqiqətləri, Ermənistanın 30 illik işğal zamanı törətdiyi cinayətlər, dini-mədəni abidələri məhv etməsi, 44 günlük Vətən müharibəsi dövründə cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrinə raket hücumları barədə ətraflı məlumat verilib.

Xarici jurnalistlər noyabrın 29-da işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. İki rayonun ərazisində Ermənistanın vəhşicəsinə törətdiyi dağıntıların və vandallıq aktlarının şahidi olan jurnalistlər foto və video çəkilişlər aparıb, Xudafərin körpüsündə və Zəngilanın Ağalı kəndində olublar. Onlara post-müharibə dövründə minaların təmizlənməsi, aparılan irimiqyaslı bərpa və yenidənqurma işləri, “ağıllı kənd” konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürüldüyü barədə müfəssəl məlumat verilib.

Qeyd edək ki, qrupun tərkibində “El Español” onlayn jurnalının, “La Vanguardia” (Barselona) və “La Razón” (Madrid) qəzetlərinin, “SIC”, “Mediaset España”, “La Vanguardia”, “Haaretz” media qurumlarının, “The Jerusalem Post Magazine” və “The Berlin Quarterly” jurnallarının əməkdaşları yer alıblar.

**AZƏRTAC**
**2022, 29 noyabr**

**Azərbaycanda akkreditə olunan diplomatlar və hərbi attaşelər Zəngilan və Qubadlıya səfər ediblər**

Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik korpusun üzvləri, o cümlədən hərbi attaşelər dekabrın 10-da Zəngilan və Qubadlı rayonlarına səfər ediblər.

Səfərdə iqamətgahı Bakı və Ankarada yerləşən 70-ə yaxın səfirlik və 10-dan çox beynəlxalq təşkilatın nümayəndələri - səfirlər, rəhbər şəxslər və digər diplomatlar, hərbi attaşelər, həmçinin Türkiyənin müvafiq dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, ümumilikdə 150-yə yaxın iştirakçı Bakı və Ankara şəhərlərindən təyyarələrlə Zəngilan Beynəlxalq Hava Limanına gəliblər.

Qeyd edək ki, Ankaradan eniş edən təyyarə, oktyabrın 20-də Azərbaycan və Türkiyənin dövlət başçıları tərəfindən rəsmi açılışı olan Zəngilan Beynəlxalq Hava Limanına gələn ilk beynəlxalq sərnişin reysi kimi tarixə düşüb.

Digər tarixi ilk isə viza prosedurları ilə bağlı olub. Belə ki, Zəngilan aeroportunun tarixində ilk dəfə olaraq xarici vətəndaşlara vizalar yerində "ASAN Viza" sistemi vasitəsilə rəsmiləşdirilib.

Diplomatlar və hərbi attaşelər əvvəlcə Zəngilan Beynəlxalq Hava Limanı ilə tanış olublar. Hava limanının direktoru Vüqar Həsənov qonaqlara aeroport haqqında məlumat verib.

Səfər Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamına əsasən, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülmüş işlər və qarşıda duran planlara dair brifinqlə davam edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Zəngilan və Qubadlı rayonlarının tarixi, demoqrafik vəziyyəti, strateji əhəmiyyəti və iqtisadi potensialı, Ermənistanın 30 ilə yaxın hərbi işğalı nəticəsində vurulmuş ziyan haqqında ətraflı məlumat verib. Hikmət Hacıyev Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən işğaldan azad olunduqdan sonra burada həyata keçirilən irimiqyaslı bərpa və yenidənqurma işləri barədə danışıb, mina problemi, Zəngəzur dəhlizi və Azərbaycanın sülh gündəliyi kimi məsələlər üzrə ölkəmizin mövqeyini diqqətə çatdırıb.

Daha sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Zəngilan və Qubadlı şəhərlərinin baş planları barədə təqdimatla çıxış edib.

Digər çıxış edənlər - Azərbaycan Respublikası Prezidentinin Zəngilan, Qarabağ və Şuşada xüsusi nümayəndələri Vahid Hacıyev, Emin Hüseynov və Aydın Kərimov qonaqlara görülən işlər barədə məlumat veriblər.

Brifinqdən sonra iştirakçılar Zəngilan şəhərinə yola düşüblər. Yolüstü Oxçuçayın keçdiyi ərazidə onlara Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi tərəfindən Ermənistanın və bir sıra əcnəbi şirkətlərin məqsədyönlü şəkildə çaya tullantılar buraxmaqla törətdiyi ekoloji terror, vurulmuş ziyan barədə məlumat verilib.

Zəngilan şəhərində iştirakçılar Ermənistanın törətdiyi dağıntıların miqyası və hazırda həyata keçirilən bərpa və yenidənqurma işləri, o cümlədən Heydər Əliyev Fondu tərəfindən inşa edilən yeni məscid, habelə ilk yaşayış binası, məktəb və digər layihələrlə yaxından tanış olublar.

Daha sonra Zəngilan rayonunun Ağalı kəndinə gələn xarici qonaqlara "Ağıllı kənd" layihəsi, kənd infrastrukturu, Arximed turbini tipli Su Elektrik Stansiyası barədə məlumat verilib.

Səfər Qubadlı şəhərində davam etdirilib. Qubadlıda qonaqlar Ermənistanın viran qoyduğu şəhərdə aparılan bərpa və yenidənqurma işləri ilə tanış olub, şəhər mərkəzinə və həyata keçirilən infrastruktur layihələrinə baxıblar.

Sonda səfərdə iştirak edən səfirlər və rəhbər şəxslər, diplomatik korpusun digər üzvləri və hərbi attaşelər, habelə Türkiyə Respublikasının dövlət qurumlarının nümayəndələri Zəngilan Beynəlxalq Hava Limanından xüsusi çarter reysləri ilə Bakı və Ankara şəhərlərinə yola salınıblar.

**AZƏRTAC**
**2022, 10 dekabr**

**Ağalı kəndi Küveyt səfirini heyrətləndirib**

Bu regionda bərpa işlərinin sürətlə davam etdiyinin şahidi oldum. İnanıram ki, burada həyat yenidən canlanacaq. Bugünkü səfər məndə xoş təəssüratlar yaratdı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Küveyt Dövlətinin ölkəmizdəki səfiri Abdullah Məhəmməd Almauidi deyib.

Diplomat bildirib: “Biz Zəngilanda olarkən Ağalı kəndini ziyarət etdik. Qısa zaman ərzində bu qədər işin görülməsi heyrətamizdir. Qubadlı şəhərinin planı ilə də tanış olduq. Bu şəhər gələcəkdə çox gözəl olacaq”.

**AZƏRTAC**
**2022, 10 dekabr**

**Fergus Auld: Zəngilan gələcəkdə çox gözəl olacaq**

Düşünürəm ki, regionda sabitlik və inkişaf üçün daim irəli baxmaq lazımdır. Bu ərazilərin, həmçinin Zəngilan şəhərinin Baş planı ilə tanış olduq. Bura gələcəkdə çox gözəl olacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld deyib.

Zəngilanın onda xoş təəssürat yaratdığını bildirən səfir qeyd edib: "Şəhər haqqında fikirlərim müsbətdir. Zəngilan Beynəlxalq Hava Limanı çox gözəldir, modern üslubda tikilib. Bizim buraya səfərimizin maraqlı olacağına əminəm".

**AZƏRTAC**
**2022, 10 dekabr**

**Zəngilan aeroportu Belçika səfirini nə ilə təəccübləndirib?**

Biz bu regionda inkişafın əlamətlərini görməyə başlamışıq. Azərbaycan hökuməti Zəngilanda yenidənqurma və bərpa işlərinə ciddi investisiyalar yatırır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Belçika Krallığının ölkəmizdəki səfiri Mişel Pitermans söyləyib.

Səfir bildirib ki, ərazinin gələcəyi çox yaxşı olacaq: “Zəngilan Beynəlxalq Hava Limanının belə tezliklə və çox müasir üslubda tikilib istifadəyə verilməsi məni təəccübləndirdi. Azərbaycan buraya tezliklə əhalinin qayıtması üçün kənd və şəhərləri yenidən qurur, bərpa edir. Regionun planı ilə də tanış olduq. Bu ərazilərdə görüləcək işlər möhtəşəmdir”.

**AZƏRTAC**
**2022, 10 dekabr**

**Türkiyədəki diplomatik korpusun nümayəndələri Zəngilana yola düşüblər**

Türkiyədə fəaliyyət göstərən və ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin, o cümlədən xarici ölkələrin səfirlərinin, hərbi attaşelərin və beynəlxalq təşkilatların təmsilçilərinin, qardaş ölkənin bəzi dövlət qurumlarının əməkdaşları ilə birlikdə dekabrın 10-da Zəngilan və Qubadlıya səfəri başlayıb.

AZƏRTAC xəbər verir ki, xarici diplomatlar Türkiyənin Ankara şəhərindən təyyarə ilə Zəngilana yola düşüblər.

Ankaranın Esenboğa Hava Limanından yola salınan diplomatlar Zəngilan Beynəlxalq Hava Limanda qarşılanıb müəyyən edilmiş dislokasiya üzrə hərəkət edəcək, o cümlədən Qubadlı ərazisində olacaqlar.

Bir gün nəzərdə tutulan səfər çərçivəsində xarici qonaqlara Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətinin acı nəticələri, xalqımıza və ölkəmizə qarşı erməni vandalların həyata keçirdiyi bəşəri cinayətlər, eləcə də 44 günlük Vətən müharibəsində qazanılan rəşadətli Zəfər barədə həqiqətlər, həmçinin düşməndən geri alınan ərazilərimizdə aparılan fundamental quruculuq işləri barədə yerindəcə məlumat veriləcək.

Xatırladaq ki, Türkiyədə fəaliyyət göstərən və ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, o cümlədən xarici ölkələrin səfirləri, hərbi attaşelərin və beynəlxalq təşkilatların təmsilçiləri ilk dəfə cari ilin avqustun 26-da Qarabağa, o cümlədən Füzuli və Şuşaya səfər ediblər.

Bu səfər çərçivəsində xarici diplomatlar avqustun 27-də Şuşada işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işləri və planlar, postmünaqişə dövründə minatəmizləmə əməliyyatları və şəhərsalma potensialından istifadə edilməsi, ümumi beynəlxalq əməkdaşlıq imkanlarına dair konfransda iştirak ediblər.

**Sabir Şahtaxtı**
AZƏRTAC-ın xüsusi müxbiri
Ankara

**AZƏRTAC**
**2022, 10 dekabr**

**Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi təyin olunub - SƏRƏNCAM**

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncama əsasən, Vahid Rasim oğlu Hacıyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi təyin olunub.

Qeyd edək ki, bundan əvvəl o, Prezidentin Zəngilanda xüsusi nümayəndəsi vəzifəsində çalışırdı.

**AZƏRTAC**
**2022, 30 dekabr**

**Prezident: Zəngilanlıların doğma torpağına qayıtmaları tarixi hadisədir**

Bu il Ağalı kəndində həyat artıq bərpa edilib. Birinci layihə icra edilmişdir və zəngilanlılar öz doğma torpağına qayıtmışlar.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirib.

Bunu tarixi hadisə adlandıran dövlətimizin başçısı qeyd edib: "Çünki müharibədən iki il keçmədən – cəmi ilyarımdan sonra biz artıq birinci keçmiş köçkünləri öz doğma torpaqlarına qaytarmışıq, onlar üçün gözəl şərait yaratmışıq. Bu, bir daha onu göstərir ki, dövlətimiz güclüdür və iradəmiz yerindədir. Eyni zamanda, bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bizim vətəndaşlarımız öz dədə-baba torpaqlarına bağlıdır, necə deyərlər, torpaq çəkir. Hətta heç vaxt o yerləri görməyən gənclər, uşaqlar, məktəblilər böyük həvəslə Ağalıya qayıdırlar və bu, bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, məcburi köçkünlər qayıdış gününü səbirsizliklə gözləyirlər".

**AZƏRTAC**
**2022, 31 dekabr**

**Estoniyalı deputat: Zəngilanda bərpa və yenidənqurma işləri sürətlə həyata keçirilir**

Zəngilanda qısa zamanda - iki il ərzində tikilən aeroport və salınan “ağıllı” kənd valehedicidir. Azərbaycanın Zəngilanla bağlı çox böyük planları var.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Estoniya parlamentinin üzvü Ester Karuse deyib.

Zəngilan şəhərində bərpa və yenidənqurma işlərinin sürətlə həyata keçirildiyini vurğulayan deputat deyib: “Mən iki il sonra buraya qayıdıb indi aparılan işlərin nəticələrini görmək istərdim. İnanıram ki, burada həyat yenidən canlanacaq, şəhər möhtəşəm görünüşə malik olacaq".

**AZƏRTAC**
**2023, 23 may**

**Bakıda keçirilən konfransın iştirakçıları Azərbaycanın Zəngilan rayonunda olublar**

Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə “Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizliyin və sabitliyin təşviqində milli parlamentlərin rolu” mövzusunda Bakıda keçirilən konfransın iştirakçıları mayın 23-də Azərbaycanın Zəngilan rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, səfərdə ATƏT PA-nın sədri Marqareta Sederfelt, Monteneqro Parlamentinin sədri Daniyela Curoviç, ATƏT PA-nın Baş katibi Roberto Montella, Litva Seyminin vitse-spikeri Yonas Yarutis, ATƏT PA-ya üzv dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Qonaqları Milli Məclisin deputatı, ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, qurumun İqtisadi məsələlər, elm, texnologiya və ətraf mühit üzrə baş komitəsinin sədri Azay Quliyev, deputat İqbal Məmmədov və Azərbaycanın ATƏT yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli müşayiət ediblər.

Səfər çərçivəsində qonaqlar təyyarə ilə Zəngilan Beynəlxalq Hava Limanına gəliblər. Onlara burada Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə tikilmiş hava limanının texniki imkanları barədə məlumat verilib.

Sonra qonaqlar Zəngilan rayonunun Cahangirbəyli kəndinə gəliblər. Burada onlara Şərqi Zəngəzur rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Zəngilan və digər ərazilərimizin Ermənistanın işğalı altında olduğu dövrdə necə viran edilməsindən, bütün əhalinin öz doğma yurdlarından didərgin düşərək məcburi köçkün olmalarından söz açıb. Diqqətə çatdırılıb ki, işğaldan azad edilmiş ərazilər, o cümlədən Zəngilan rayonu Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında bərpa olunur. Xüsusi nümayəndə həyata keçirilən quruculuq işləri və perspektivdə nəzərdə tutulan planlar barədə də danışıb, Cahangirbəyli kəndinin bərpa işləri, kəndin inkişaf planı barədə məlumat verib.

Sonra ANAMA-nın sədr müavini Samir Poladov ərazidə basdırılan minalar və onların axtarışı barədə məlumat verib. Burada qonaqlara mina partlayışı nümayiş etdirilib.

Sonra qonaqlar Zəngilan şəhərində Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə, yerlə-yeksan edilmiş binaların qalıqlarına baxıblar.

Qonaqların diqqətinə çatdırılıb ki, işğal illərində Ermənistan meşələrimizi və qoruqlarımızı məhv edib, təbii sərvətlərimizdən qanunsuz istifadə edib, Ermənistandan Azərbaycan ərazisinə axan transsərhəd çaylar da daxil olmaqla, torpağı və çayları çirkləndirib.

Yolboyu qonaqlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən 30 illik işğalının dağıdıcı nəticələrini öz gözləri ilə görüblər. Qonaqlara işğal dövründə Azərbaycanın şəhər və qəsəbələrinin, mədəni, dini abidələrinin, kitabxanaların işğalçı qüvvələr tərəfindən dağıdıldığı, xaraba qaldığı barədə məlumat verilib.

Daha sonra qonaqlar Zəngilanın Ağalı kəndinə yola düşüblər.

Qonaqlara bildirilib ki, Ağalı kəndi “Ağıllı kənd” layihəsi çərçivəsində tamamilə yenidən bərpa olunan və işğaldan azad edilmiş ərazilərə qayıdan keçmiş məcburi köçkünlərin yenidən məskunlaşdığı yaşayış məntəqəsidir. Onlara “Ağıllı kənd” və “Yaşıl enerji” layihələri çərçivəsində görülmüş işlərlə bağlı geniş məlumat verilib.

Milli Məclisin və ATƏT PA-nın birgə təşkilatçılığı ilə Bakıda keçirilən konfransın iştirakçıları Ağalı kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi, ASAN xidmət mərkəzi və digər yeni tikililərlə tanış olublar. Qonaqlar burada kənd sakinləri ilə söhbət ediblər və onlarla xatirə şəkli çəkdiriblər.

**AZƏRTAC**
**2023, 23 may**

**ATƏT PA-nın sədri Zəngilan rayonuna gedərək ərazilərimizin yenidən qurulması prosesi ilə tanış olacaq**

Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə “Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu” mövzusunda Bakıda keçirilən beynəlxalq konfrans gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradıb.

AZƏRTAC xəbər verir ki, bunu ATƏT Parlament Assambleyasının sədri xanım Marqareta Sederfelt Prezident İlham Əliyev ilə görüşdə deyib.

ATƏT Parlament Assambleyasının sədri bildirib ki, nümayəndə heyəti ilə birlikdə Zəngilan rayonuna səfər edəcək, ərazilərimizin yenidən qurulması prosesi ilə tanış olacaq.

Hazırda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində media müstəvisində müsbət bəyanatların olduğunu qeyd edən Marqareta Sederfelt söhbət əsnasında sülh gündəliyi ilə maraqlanıb.

**AZƏRTAC**
**2023, 23 may**

**Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarının Zəngilana səfəri başlayıb**

Milli Məclisin və ATƏT Parlament Assambleyasının (PA) birgə təşkilatçılığı ilə Bakıda keçirilən "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda beynəlxalq konfransın iştirakçıları mayın 23-də Zəngilan rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, qonaqlar işğal dövründə ermənilər tərəfindən törədilmiş dağıntıları və vandalizm aktlarının izlərini öz gözləri ilə görəcək, Zəngilan şəhərində həyata keçirilən yenidənqurma işləri, həmçinin "Ağıllı kənd" Konsepsiyası əsasında yenidən salınan Ağalı kəndi, dəmir yolu infrastrukturu və "Azərişıq" ASC-nin "yaşıl enerji" obyektləri ilə tanış olacaqlar.

**AZƏRTAC**
**2023, 23 may**

**Rüstəm Minnixanov Zəngilan şəhərində görülən işlərlə tanış olub**

İyunun 17-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Zəngilan şəhərində görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Rüstəm Minnixanova Zəngilan şəhərindəki Konqres Mərkəzinin tikintisi ilə bağlı məlumat verilib.

Bildirilib ki, Konqres Mərkəzinin layihələndirilən ərazisi 2,2 hektardır. Burada Mərkəzin binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Konqres Mərkəzi 605 yerlikdir. Buradakı restoranın isə 240 yerlik olması nəzərdə tutulub. Bu ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq.

Qeyd olunub ki, ekoloji memarlıq konsepsiyasına əsasən Mərkəzin damı yaşıllıq zolağı və günəş panelləri ilə əhatə ediləcək. Konqres Mərkəzində beynəlxalq və ölkə səviyyəli müxtəlif tədbirlər keçiriləcək.

Sonra Tatarıstanın Rəisi Zəngilan məscidinin tikintisi ilə tanış olub.

Bildirilib ki, Zəngilan məscidi "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunur. Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz vandalizmə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub. Rayonun işğaldan azad edilməsi nəticəsində buradakı tarixi, memarlıq abidələri də erməni əsarətindən qurtulub.

Otuz ilə yaxın işğal dövründə dağıdılan, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesində Heydər Əliyev Fondu müstəsna xidmət göstərir. Qarabağdakı dini abidələrin, məscidlərin bərpası işləri sürətlə davam etdirilir.

Məlumat verilib ki, Zəngilan məscidinin bərpasının təməl daşı dövlətimizin başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə 2021-ci il aprelin 26-da qoyulub, bərpa işləri fasiləsiz həyata keçirilir.

Tatarıstanın Rəisi Zəngilan şəhərini gəzərək ermənilər tərəfindən törədilmiş dağıntılarla tanış olub.

**AZƏRTAC**
**2023, 17 iyun**

**Prezident İlham Əliyev Zəngilan Konqres Mərkəzinin tikintisi ilə tanış olub**
*(4 may 2023-cü il)*

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan Konqres Mərkəzinin tikintisi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Konqres Mərkəzinin layihələndirilən ərazisi 2,2 hektardır. Burada Mərkəzin binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Konqres Mərkəzi 605 yerlikdir. Buradakı restoranın isə 240 yerlik olması nəzərdə tutulub.

Bu ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq.

Ekoloji memarlıq konsepsiyasına əsasən, Mərkəzin damı yaşıllıq zolağı və günəş panelləri ilə əhatə olunacaq. Konqres Mərkəzində beynəlxalq və ölkə səviyyəli müxtəlif tədbirlər keçiriləcək.

**AZƏRTAC**
**2023, 4 may**

**Prezident İlham Əliyev Zəngilan şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib**

*(4 may 2023-cü il)*

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına layihə barədə məlumat verildi.

Bildirildi ki, inzibati bina Zəngilan şəhərinin mərkəzində, əsas küçələrin kəsişməsində yerləşir. Bu ərazi əsas ictimai obyektlərə, təhsil müəssisələrinə, peşə məktəbinə, memorial parka və məscidə yaxındır.

Qeyd olundu ki, üçmərtəbəli bina quruluşuna görə şəhərin müxtəlif yerlərindən görünə biləcək. İnzibati binanın daxili atrium quruluşda layihələndirilib. Binanın ardıcıl quruluşu isə iki hissəni birləşdirir. İnzibati binanın külək turbinləri şəklində olan fasad strukturu damın kənarı boyunca düzülüb. Dam örtüyü günəş panelləri ilə əhatə olunur. Damın quruluşu binanın daxilinin təbii işıqlanmasına imkan verir və böyük tədbirlərin keçirilməsi üçün əlavə yer imkanı yaradır.

Bir sıra dövlət və hökumət qurumlarının yerli idarə, şöbə və bölmələrinin fəaliyyət göstərəcəyi binada müxtəlif tipli iclas və təlim otaqları, həmçinin çoxfunksiyalı xidmət sahələri yaradılacaq. İnzibati binanın ətrafında müxtəlif istirahət məkanları və iaşə obyektləri fəaliyyət göstərəcək.

Layihə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

## “Azərenerji” ASC-nin Zəngilanda “Sarıqışlaq” Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanışlıq

*(4 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də “Azərenerji” ASC-nin Zəngilan rayonunda “Sarıqışlaq” Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Araz çayının sol qolu olan Oxçuçayın üzərində yerləşən stansiyanın qoyuluş gücü 10,5 meqavatdır. Su Elektrik Stansiyasında orta illik elektrik enerjisi istehsalı 26,7 milyon kilovat-saat nəzərdə tutulur.

Qeyd olundu ki, yeni stansiya binasının tikintisi, perimetr boyu hasarlama işləri yekunlaşıb. Maşın zalı, aqreqatlar, generatorlar, idarəetmə panelləri, rele mühafizəsi, avtomatika və idarəetmə panellərində məsafədən idarəetmə kompüterlərinin quraşdırılması üzrə işlər icra edilir. Həmçinin “Şayıflı” Kiçik Su Elektrik Stansiyasından çıxan suyun “Sarıqışlaq” SES-ə ötürülməsi məqsədilə nəzərdə tutulmuş derivasiya borusunun çəkilməsi üzrə işlər davam edir. Derivasiya tipli su elektrik stansiyasının suqəbuledicisi ilə stansiyaarası məsafə 5239 metrdir. “Sarıqışlaq” SES-in turbinlərindən keçən suyun heç bir itki olmadan “Zəngilan” KSES-ə ötürülməsi istiqamətində işlər davam etdirilir.

Bu stansiyada 110 kilovoltluq açıq paylayıcı qurğunun tikintisi, istehsal olunacaq elektrik enerjisinin enerjisistemə inteqrasiyası və stansiyada avtomatik idarəetmə sisteminin qurulması da nəzərdə tutulub. Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək “Sarıqışlaq” SES-də il ərzində 33,2 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

Dövlətimizin başçısına Zəngilan, Laçın və Kəlbəcər rayonlarında tikilən Su Elektrik stansiyaları barədə də məlumat verildi.

Bildirildi ki, hazırda “Azərenerji” tərəfindən Zəngilan və Laçın rayonlarında 7 yerdə ümumi gücü 70,5 meqavat olan Su Elektrik stansiyalarının tikintisi aparılır. Oxçuçayın üzərində yerləşən və Zəngilan rayonunun ərazisində yaradılan “Şayıflı”, “Sarıqışlaq”, “Zəngilan” və “Cahangirbəyli” Su Elektrik stansiyaları yeni tikilir və həmin stansiyaların hər birinin gücü 10,5 meqavat olmaqla, ümumilikdə 42 meqavat təşkil edəcək. Laçın rayonundakı 14,25 meqavat gücündə “Ağbulaq”, 8,25 meqavat gücündə “Mişni” və 6 meqavat gücündə “Alxaslı” stansiyaları isə yenidən qurulur.

Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək bu stansiyaların hər biri rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olmaqla yanaşı, stansiyalara Bakıdan və digər yerlərdən nəzarət etmək əlçatan olacaq. Su Elektrik stansiyalarında il ərzində ümumilikdə 230 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsalı nəzərdə tutulub.

Həmçinin diqqətə çatdırıldı ki, hazırda Laçın və Kəlbəcər rayonlarında daha 9 yerdə ümumi gücü 76,8 meqavat olan Su Elektrik stansiyalarının tikintisinə başlanılır. Laçın rayonu ərazisində “Mirik”, “Qaraqışlaq”, “Ağbulaq”, “Zabux” və Kəlbəcərdəki “Zar” Su Elektrik stansiyaları tamamilə yenidən qurulacaq. Eyni zamanda, Kəlbəcər rayonu ərazisində “Nadirxanlı”, “Yuxarı Vəng”, “Aşağı Vəng” və işğaldan azad edilən Murov dağın aşağı istiqamətində “Toğanalı” Kiçik Su Elektrik stansiyaları yeni layihə əsasında tikiləcək.

Qeyd edək ki, bu günədək “Azərenerji” tərəfindən 11 yerdə ümumi gücü 53,6 meqavat olan Kiçik Su Elektrik stansiyaları yenidən qurulub. Onlardan ümumi gücü 27 meqavat olan 5 stansiya Kəlbəcər rayonunda açılışa hazır vəziyyətə gətirilib.

Beləliklə, böyük Zəfərdən sonra işğaldan azad edilən ərazilərdə tikilən Su Elektrik stansiyalarının ümumi sayı 25-ə çatdırılacaq və 200 meqavata yaxın ekoloji cəhətdən təmiz, hidro yaşıl enerji istehsal etmək mümkün olacaq.

**AZƏRTAC**
**2023, 4 may**

**Zəngilanda otel kompleksinin təməli qoyulub**
*(4 may 2023-cü il)*

Mayın 4-də Zəngilanda otel kompleksinin təməlqoyma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksin layihəsi barədə məlumat verdi.

Bildirildi ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Otel müasir səviyyədə inşa olunacaq, rayona səfərə gələnlərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.

Diqqətə çatdırıldı ki, 110 nömrədən ibarət olacaq otel binasında konfrans, iclas və banket zalları, fitnes və spa mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. Otel kompleksinin ərazisində, həmçinin 15 kottec də qonaqların istifadəsinə veriləcək.

Bir sözlə, müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi otel kompleksi müasir standartlar səviyyəsində inşa olunacaq.

Sonra Prezident İlham Əliyev otel kompleksinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

**Təməli qoyulan Zəngilan Rayon Mərkəzi Xəstəxanası ən müasir tibbi avadanlıqla təchiz olunacaq**
*(4 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına xəstəxana binasının layihəsi barədə məlumat verildi.

Bildirildi ki, Baş plana əsasən, yeni xəstəxananın ümumi ərazisi 4,5 hektardır. 91 çarpayılıq xəstəxananın ərazisində yoluxucu xəstəliklər şöbəsi və bir sıra texniki təyinatlı binalar olacaq. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək xəstəxanada müayinə və müalicə işinin aparılması üçün hər cür şərait yaradılacaq. Beləliklə, doğma yurdlarına qayıdacaq rayon sakinləri bu səhiyyə ocağının istifadəyə verilməsi ilə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar.

Prezident İlham Əliyev Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlini qoydu.

Qeyd edək ki, əhalinin sağlamlığının qorunması və vətəndaşlara keyfiyyətli tibbi xidmətin göstərilməsi dövlətimizin başçısının daim diqqəti mərkəzindədir. Bu baxımdan işğaldan azad edilən ərazilərdə də tibbi xidmətin səmərəli təşkili və həyata keçirilməsi üçün genişmiqyaslı işlər görülür.

**AZƏRTAC**
**2023, 4 may**

**Zəngilanın Cahangirbəyli kəndində birinci mərhələdə 1200 nəfərin məskunlaşdırılması nəzərdə tutulur**

*(4 may 2023-cü il)*

Mayın 4-də Zəngilan rayonunun Cahangirbəyli kəndinin təməlqoyma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə kəndin inkişaf planı barədə videoçarx nümayiş olundu.

Dövlətimizin başçısına kənddə görüləcək işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, kəndin layihələndirilən ərazisi 179,5 hektardır. Kənd perspektivdə 2520 nəfər əhalinin (573 ailə) yaşaması üçün planlaşdırılıb. Cahangirbəyli kəndində birinci mərhələdə iki, üç, dörd və beş otaqlı olmaqla ümumilikdə 242 fərdi evin tikintisi nəzərdə tutulur.

Qeyd edildi ki, birinci mərhələdə burada 1200 nəfərin məskunlaşdırılması planlaşdırılır. Cahangirbəylidə fərdi evlərlə bərabər, bloklaşdırılmış üçmərtəbəli binaların inşası da nəzərdə tutulur.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və qonaq evi, çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, sənətkarlıq emalatxanası, tibb məntəqəsi, mərasim zalı, iaşə obyektləri və digər müəssisələr olacaq.

Prezident İlham Əliyev Cahangirbəyli kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 4 may**

**Azərbaycan Prezidenti İlham Əliyev və Tatarıstanın Rəisi Rüstəm Minnixanov Zəngilan rayonunun Ağalı kəndində olublar**
*(17 iyun 2023-cü il)*

İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Zəngilan rayonunun Ağalı kəndində olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və Rüstəm Minnixanov elektromobillərlə Ağalı kəndini gəzdilər.

Qeyd edək ki, bu günədək Böyük Qayıdış çərçivəsində Zəngilanın Ağalı kəndinə ümumilikdə 86 ailə - 420 nəfər köçürülüb. Ağalıda məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunublar.

Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediliblər. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və sair çalışırlar. Köçürülmüş əhali üçün bütün infrastruktur yaradılıb.

Prezident İlham Əliyev və Rüstəm Minnixanov Ağalı sakinləri ilə görüşüb söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salaməleyküm.

**Sakinlər:** Salaməleyküm, cənab Prezident, xoş gəlmisiniz.

**Rüstəm Minnixanov:** Salaməleyküm.

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Qadın sakin:** Həmişə Siz gələsiniz, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Necəsiniz? Necə yaşayırsınız?

**Sakinlər:** Sağ olun, cənab Prezident, Allah Sizə ömür versin. Biz yaxşıyıq, Sizin sayənizdə hər şey yaxşıdır, əladır. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə kömək etsin. Biz Sizin sayənizdə burada yaşayırıq. Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakinlər:** Sağ olun, cənab Prezident. Allah Sizi qorusun!

**Prezident İlham Əliyev:** Salam, necəsən? Qızım, sən də gəl.

**Qadın:** Salam, xoş gəlmisiniz. Gəlin, uşaqlar, şəkil çəkdirək.

**Prezident İlham Əliyev:** Necə yaşayırsınız burada?

**Qadın**: Mən Bakıdan gəlmişəm.

**Prezident İlham Əliyev:** Qonaq gəlmisiniz?

**Qadın:** Bəli, qonaq gəlmişik.

**Minnixanov (balaca qıza):** Adın nədir?

**Qız:** Xədicə.

**Prezident İlham Əliyev:** Bəs sənin adın nədir?

**Oğlan:** Yusif.

**Prezident İlham Əliyev:** Nəvələrinizdir. Sənin adın nədir?

**Qız:** Mələk.

**Prezident İlham Əliyev:** Necəsən?

**Qız:** Yaxşıyam.

**Qadın sakin:** Cənab Prezident, Ağalıya xoş gəlmisiniz. Allah Sizə kömək olsun.

**Digər qadın:** Cənab Prezident, bu gün bu qızın ad günüdür, onunla bir şəkil çəkdirərsiniz?

**Prezident İlham Əliyev:** Ad günüdür? Təbrik edirəm.

**Qadın:** Allah Sizin canınızı sağ etsin ki, bizə bu günləri qismət etdiniz.

**Digər Qadın:** Cənab Prezident, Sizə dərin təşəkkürümüzü bildiririk. Sizinlə dəfələrlə görüşmüşük, yəqin tanımış olarsınız.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Bəli, bəli.

**Qadın:** Ağalıya xoş gəlmisiniz, həmişə Siz gələsiniz. Siz gələndə biz çox sevinirik. Görürsünüz, Sizi uşaqlar da nə qədər çox istəyirlər.

**Sakinlər.** Allah Sizi var eləsin. Sizinlə fəxr edirik. Bizim Prezidentimiz dünya lideridir.

**Qadın:** İnşallah, həmişə yolunuz açıq, işiniz uğurlu olsun.

**x x x**

Söhbət zamanı xatirə şəkilləri çəkdirildi.

**AZƏRTAC**
**2023, 17 iyun**

**“Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında“Avto Lizinq Azərbaycan” MMC-nin açılışı olub Azərbaycan Prezidenti İlham Əliyev və Tatarıstanın Rəisi Rüstəm Minnixanov açılışda iştirak ediblər**

*(17 iyun 2023-cü il)*

İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Cəbrayıl rayonunda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında “Avto Lizinq Azərbaycan” MMC-nin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov görülən işlər barədə məlumat verdi.

Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Sənaye Parkının logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. Park yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

Bildirildi ki, bu Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Parkın prioritet istiqamətləri kimi, logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin və sairin təşkili müəyyənləşdirilib. Sənaye Parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. Parkın ərazisi tam olaraq minalardan və hərbi sursatlardan təmizlənib. Sənaye Parkında fəaliyyət göstərəcək işçilərin və sahibkarların rahatlığının təmin edilməsi məqsədilə mobil şəhərcik salınıb.

Ölkəmizdəki digər mövcud sənaye parklarında olduğu kimi, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir. Eyni zamanda, rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hər cür təşkilati dəstək göstərilir.

Prezident İlham Əliyev və Rəis Rüstəm Minnixanov “Avto Lizinq Azərbaycan” MMC-nin açılışını bildirən rəmzi lenti kəsdilər.

Məlumat verildi ki, Rusiya və Azərbaycan birgə müəssisəsi olan “Avto Lizinq Azərbaycan” MMC tərəfindən “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının 3 hektar ərazisində texniki servis mərkəzi yaradılıb. Mərkəz yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət göstərilməsi sahəsində hab rolunu oynayacaq. Mərkəzdə işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan 1500-dək avtomobilə, həmçinin yüklərin daşınmasını həyata keçirəcək tranzit avtomobillərə və digər texnikalara peşəkar xidmət göstəriləcək.

Mərkəzdə texniki xidmət bloku, təmir emalatxanası, gözləmə zalı, tədris otağı, anbar, portal tipli avtoyuma məntəqəsi və xidməti otaqlar yaradılıb. Texniki təmir emalatxanasında mühərriklərin və digər aqreqatların, elektrik avadanlıqlarının, pnevmatik və hidravlik qurğuların təmiri sahələri, daxili yanma mühərriklərinin yuyulması məntəqəsi fəaliyyət göstərəcək.

Burada, həmçinin mehmanxana, ehtiyat hissələri mağazası və digər xidmət sahələri istifadəyə verilib. Bununla yanaşı, Mərkəzdə mobil təmir və texniki servis briqadaları da fəaliyyət göstərəcək ki, bu da işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan bütün texnikalara yerində xidmət göstərməyə imkan yaradacaq.

Ümumi investisiya həcmi 10,2 milyon manat olan müəssisənin inşasına artıq 9,4 milyon manatdan çox investisiya yatırılıb. Müəssisənin fəaliyyətə başlaması məşğulluğun təmin edilməsinə də töhfə verəcək.

**AZƏRTAC**
**2023, 17 iyun**

**Azərbaycan Prezidenti İlham Əliyevin Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub**
*(17 iyun 2023-cü il)*

İyunun 17-də Zəngilan rayonunun Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Tatarıstan Respublikasının Rəisini salamlayan **Prezident İlham Əliyev** dedi:

-Hörmətli Rüstəm Nurqaliyeviç, bir daha xoş gəlmisiniz. Mən yeni görüşümüzə çox şadam. Əlbəttə, bu gün birgə Mərkəzin açılışı əlamətdar hadisədir. Lakin daha vacibi bizim sizinlə ünsiyyətimizdir. Mən bizim həm Kazanda, həm də Bakıda görüşlərimizi məmnuniyyətlə yada salıram. Şadam ki, Sizinlə müəyyən etdiyimiz hər şey, o cümlədən "Araz Vadisi" Sənaye Parkının birinci obyekti, - bu, qardaş Tatarıstanın obyektidir, - icra olunur. Yəni, biz ərazilərin bərpası işinə belə münasibətə görə çox minnətdarıq. Əlbəttə ki, biz müəyyənləşdirdiyimiz əməkdaşlıq proqramının tam həyata keçəcəyinə ümidvarıq.

Biz burada məsləhətləşmələrə gələn və sonrakı planlar üzrə qərar qəbul edən nümayəndə heyəti ilə artıq fikir mübadiləsi aparmışıq. Əlbəttə, sənaye kooperasiyasında, energetikada, neft-qaz sahəsində perspektivlər böyükdür. Təbii ki, mədəni əməkdaşlıq da çox vacib sahədir. Tatarıstan və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, dostluq münasibətləri saxlayırlar. Əlbəttə ki, bizim aramızdakı münasibətlər Rusiya və Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə böyük töhfədir və bizim dövlətlərarası səviyyədə planlaşdırdığımız, həyata keçirdiyimiz hər bir məsələ kimi çox səmərəli, dinamik şəkildə inkişaf edir.

Beləliklə, bir daha xoş gəlmisiniz. Sizə burada - həm Cəbrayılda və Zəngilanda, həm də sabah Bakıda xoş səfər arzulayıram.

**x x x**

**Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov** dedi:

-Hörmətli İlham Heydər oğlu, hər şeydən əvvəl gözəl ölkədə olmaq imkanına, Sizin dəvətinizə görə təşəkkür etmək və əlbəttə, Sizə - Azərbaycan Prezidentinə və bizim Prezidentə minnətdarlığımı bildirmək istərdim. Biz ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə regional səviyyədə də ciddi töhfə veririk.

Tatarlara və azərbaycanlılara gəlincə, biz dil baxımından da tarixən çox yaxınıq. Siz bu qəsəbədəki vətəndaşlarınızla danışırsınız və mən praktik olaraq hər şeyi başa düşürəm. Əlbəttə, bu gün biz tikintisi davam edən məsciddə olduq. Bütün bunlar bizə çox yaxındır və bütün bunlar bizi çox yaxınlaşdırır. Bizim birinci Prezidentimiz Mintimer Şaymiyev, onun və Tatarıstanın yaxın dostu Heydər Əliyev münasibətlərimizin möhkəm təməlini qoyublar.

**AZƏRTAC**
**2023, 17 iyun**

**Tatarıstanın Rəisi Rüstəm Minnixanov Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə Zəngilan Beynəlxalq Hava Limanından Bakıya yola düşüblər**
*(17 iyun 2023-cü il)*

Ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə iyunun 17-də Zəngilan Beynəlxalq Hava Limanından Bakıya yola düşüblər.

**AZƏRTAC**
**2023, 17 iyun**

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub**

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

Sənədə əsasən, 26 avqust – Laçın şəhəri günü, 4 oktyabr – Cəbrayıl şəhəri günü, 17 oktyabr – Füzuli şəhəri günü, 20 oktyabr – Zəngilan şəhəri günü, 25 oktyabr – Qubadlı şəhəri günü, 8 noyabr – Şuşa şəhəri günü, 20 noyabr – Ağdam şəhəri günü, 25 noyabr – Kəlbəcər şəhəri günü kimi hər il təntənəli şəkildə qeyd olunacaq.

Sərəncamda vurğulanır ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

"Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı", - deyə sənəddə qeyd olunub.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun hazırda yenidən qurulduğunun, ərazilərin minalardan təmizləndiyinin, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparıldığının vurğulandığı Sərəncamda deyilir: "Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir".

**AZƏRTAC**
**2023, 31 iyul**

**Prezident İlham Əliyev Zəngilan rayonunun Alıbəyli kəndinin təməlini qoyub**
*(28 sentyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Alıbəyli kəndinin təməlini qoyub.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına Alıbəyli kəndi barədə məlumat verdi.

Alıbəyli kəndi Həkəri çayının sahilində, Bərgüşad silsiləsinin ətəyində, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun üzərində yerləşir. İşğaldan azad olunmuş ərazilərin ümumi planına əsasən, Alıbəyli kəndi Birinci Alıbəyli, İkinci Alıbəyli, Sarıl və Xumarlı kəndləri ilə birlikdə layihələndirilir. Kəndin mövcud məskunlaşma ərazisi 103,5 hektar sahəni əhatə edir. Layihələndirilən ərazinin sahəsi isə 170,3 hektardır.

Bildirildi ki, Alıbəyli kəndində 2568 sakin üçün 498 fərdi evdən və 144 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin layihələndirilməsi nəzərdə tutulur. Birinci mərhələdə 772 sakin üçün 197 fərdi evin layihələndirilməsi və tikilməsi planlaşdırılır.

Kənddə inzibati bina, klub icma mərkəzi və qonaq evi, idman sağlamlıq mərkəzi, məktəb binası, bazar kompleksi, mərasim zalı, iaşə obyektləri və digər müəssisələr olacaq.

Qeyd olundu ki, Alıbəyli kəndində əhali üçün tələbata uyğun ümumilikdə 462 şagird yerlik iki tam orta məktəb binasının tikintisi planlaşdırılır. Birinci mərhələdə 143 şagird yerlik məktəb binası inşa olunacaq. Üçmərtəbəli məktəbin ərazisində həm şagirdlər, həm də əhali üçün qaçış zolağı olan geniş idman meydançasının yaradılması nəzərdə tutulur.

Kənddə məskunlaşacaq əhali üçün ümumilikdə 160 yerlik iki uşaq bağçası da inşa olunacaq.

Əhalinin resurslardan istifadəsini əlçatan etmək məqsədilə geniş istifadə olunan qeyri-yaşayış obyektləri bir neçə mövqedə yerləşdirilib.

Sonra Alıbəyli kəndinin inkişaf planı barədə videoçarx nümayiş etdirildi.

Prezident İlham Əliyev Alıbəyli kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 28 sentyabr**

**Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışı olub**
*(28 sentyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışını edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, ərazisi 2,2 hektar olan Zəngilan Konqres Mərkəzi Kompleksi iki hissədən ibarətdir. Kompleksə daxil olan 600 yerlik korpusda ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün müasir standartlara uyğun şərait yaradılıb. Digər korpusda isə kiçik həcmli müxtəlif çoxfunksiyalı tədbirlərin keçirilməsi üçün zal, mətbəx və VIP otaqlar mövcuddur.

Məlumat verildi ki, Zəngilan Konqres Mərkəzi Kompleksi yerli və xarici mütəxəssislər cəlb olunmaqla altı ay ərzində inşa edilib. Kompleksin tikintisinin qısa müddətdə başa çatdırılması üçün üçnövbəli iş qrafiki tətbiq olunub. Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşlarının da fəal iştirakı ilə tikinti işləri yüksək keyfiyyətdə və standartlara uyğun şəkildə aparılıb.

Kompleksin ərazisində yaşıllıq zonaları, yerüstü parklanma sahəsi mövcuddur. Mərkəzin binasının dam hissəsində günəş panelləri yerləşdirilib.

Gələcəkdə bu mərkəzdə ölkə və beynəlxalq əhəmiyyətli müxtəlif tədbirlərin keçirilməsi mümkün olacaq.

**AZƏRTAC**
**2023, 28 sentyabr**

**Prezident İlham Əliyev “AzərEnerji” ASC-nin “Cahangirbəyli” Su Elektrik Stansiyasının açılışında iştirak edib**
*(28 sentyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Cahangirbəyli” Su Elektrik Stansiyasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, “AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə yeni “yaşıl enerji” potensialının yaradılması ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2022-ci ilin payız aylarında “AzərEnerji” ASC tərəfindən Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində dörd yerdə hər birinin gücü 10,5 meqavat, ümumi gücü 42 meqavat olan su elektrik stansiyaları (SES) silsiləsinin tikintisinə başlanılıb. Artıq “Sarıqışlaq”, “Şayıflı” və “Zəngilan” SES-lərdə işlər yekunlaşmaqdadır, “Cahangirbəyli” SES-də isə işlər tamamlanıb.

Bildirildi ki, “Cahangirbəyli” SES üçün tikilən maşın zalında 5,25 meqavat gücündə Avropa istehsalı olan yaşıl sertifikatlı frensis tipli iki ekoturbin, generatorlar, məsafədən idarəedilən rəqəmsal avadanlıqlar quraşdırılıb. Stansiyada il ərzində 30 milyon kilovat-saatdan çox elektrik enerjisi istehsal ediləcək.

Prezident İlham Əliyevin cari ilin mayında tikintisinə baxış keçirdiyi bu 4 stansiyadan ibarət 42 meqavatlıq “Zəngilan” Su Elektrik Stansiyalar Silsiləsi işğaldan azad edilən ərazilərdə tamamilə yeni inşa edilən ilk ən böyük enerji istehsalı layihəsidir. Bu layihə rekord müddətdə - cəmi bir ilə ərsəyə gəlib. İndiyədək nə Azərbaycanda, nə də digər yerlərdə bu sayda, bu gücdə və bu müddətdə SES-lərin tikilməsi faktına rast gəlinməyib.

Bu dörd stansiyanı su ilə təmin etmək üçün “AzərEnerji” tərəfindən dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Eni 450, uzunluğu 250 metr olan qurğunun su tutumu 400-450 min kubmetrə bərabərdir. Bu qurğunun yaradılması enerji istehsalından əlavə, kənd təsərrüfatı və ekoloji cəhətdən olduqca əhəmiyyətli hadisədir. Baş suqəbuledicinin tikilməsi 30 il müddətində çirklənən çay yatağının təmizlənməsinə, flora və faunanın dirçəlməsinə də yardım edəcək.

Baş suqəbuledicidən çayın suyunun 35 faizi məcrasında saxlanılmaqla 23 kilometr məsafədə qoşa derivasiya boruları çəkilib. Borudan çıxan su təkrar çaya buraxılır. “Cahangirbəyli” SES-in ətrafında 8 mindən çox ağac əkilib.

Dövlətimizin başçısı “Cahangirbəyli” Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, Oxçuçay üzərindəki SES-lərin tikilməsi ilə bağlı Dövlət Ekoloji Ekspertiza Agentliyinin təşkilatçılığı və aidiyyəti dövlət qurumlarının, media və qeyri-hökumət təşkilatlarının iştirakı ilə açıq ictimai dinləmələr keçirilib və layihəyə yüksək qiymət verilib.

İşğaldan azad edilən ərazilərdə bolsulu çaylar üzərində “AzərEnerji” tərəfindən tikilən və gələcəkdə inşa olunacaq 370 meqavat gücündə SES-lər say və güc baxımından ölkənin digər yerlərində fəaliyyət göstərən azsulu çayların üzərində yerləşən 1060 meqavat gücündə böyük SES-lərdən üç dəfə az olmasına baxmayaraq, daha çox enerji istehsal edəcək. Çünki əsasən Azərbaycan ərazisində formalaşan bolsulu və iti axan dağ çayları üzərində tikilən yeni stansiyalar ölkənin digər yerlərindəki stansiyalardan fərqli olaraq, suyun azalan vaxtı da məhsuldar işləyir. Belə ki, avqust-sentyabr aylarında istehsal həcmi 25-30 faizə düşsə də, aprel-may aylarında 80 faizdən yuxarı olur və ilin bütün fəsillərində orta hesabla 40-42 faiz güclə çalışır. Digər yerlərdə isə bu göstərici 10-12 faizdir.

Beləliklə, işğaldan azad edilən ərazilərdə tam yeni tikilən 4 stansiyadan ibarət “Zəngilan” su elektrik stansiyaları silsiləsində il ərzində 130 milyon kilovat-saatdan artıq “yaşıl enerji” istehsal ediləcək. Bu da alternativ enerji mənbələrinə keçiddə çox böyük rol oynamaqla, Prezident İlham Əliyevin regionu “Yaşıl enerji” zonasına çevirməklə bağlı tapşırığının icrasına mühüm töhfədir. Silsilə SES layihəsi regionun enerji və iqtisadi inkişafına töhfə verməklə bərabər, əhalinin məşğulluğu baxımından da əhəmiyyətlidir.

**AZƏRTAC**
**2023, 28 sentyabr**

**Azərbaycan Prezidenti İlham Əliyev Zəngilan kəndinin təməlini qoyub**
*(28 sentyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda Zəngilan kəndinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Zəngilan kənd inzibati ərazisinə daxil olan bu kənd şəhər mərkəzindən 3,1 kilometr məsafədə, Oxçuçayın sahilində, Zəngilan-Mincivan yolunun üzərində düzənlik ərazidə yerləşir. Baş plana əsasən, Zəngilan kəndi İçəri Müşlan və Məlikli kəndləri ilə birlikdə layihələndirilib. Kəndin layihələndirilən ümumi ərazisi 111,3 hektardır.

Zəngilan kəndində 1631 sakin üçün 306 fərdi evin və 102 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin tikilməsi nəzərdə tutulur. Birinci mərhələdə Zəngilan kəndinə 489 sakinin köçürülməsi üçün 127 fərdi ev tikiləcək.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı və qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq.

Bu kənddə də əhalinin resurslardan istifadəsini əlçatan etmək məqsədilə geniş istifadə olunan qeyri-yaşayış obyektləri bir neçə mövqedə yerləşdiriləcək.

Zəngilan kəndində 294 şagird yerlik tam orta məktəb, 60 və 40 yerlik iki uşaq bağçası da inşa olunacaq.

Dövlətimizin başçısı kəndin inkişaf planından bəhs edən videoçarxa baxdı.

Prezident İlham Əliyev Zəngilan kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 28 sentyabr**

**Zəngilan şəhərində 2-ci yaşayış kompleksinin təməli qoyulub**
*(28 sentyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 2-ci yaşayış kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Bildirildi ki, Zəngilan şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. Şəhərdə daha əvvəl təməli qoyulan 110 mənzildən ibarət ilk yaşayış kompleksinin layihələri hazırdır və yaxın vaxtlarda tikinti işlərinə başlanacaq.

Məlumat verildi ki, "Böyük Qayıdış" proqramına uyğun olaraq, növbəti yaşayış məhəllələrinin salınması çərçivəsində 410 mənzildən ibarət yeni yaşayış komplekslərinin tikintisi nəzərdə tutulur. İkinci yaşayış kompleksi Qələbə və Memorial parkların yaxınlığında, şəhərin azsıxlıqlı zonasında yerləşməklə, əsasən "taunhaus" tipli evlərdən ibarət olacaq. Plana əsasən, burada 87 mənzil nəzərdə tutulur.

Prezident İlham Əliyev 2-ci yaşayış kompleksinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 28 sentyabr**

**Heydər Əliyev Fondu tərəfindən inşa edilən Zəngilan şəhər məscidində görülən işlərlə tanışlıq**
*(28 sentyabr 2023-cü il)*

Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən inşa edilən Zəngilan şəhər məscidində görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına məsciddə görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı illərdə Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən tövlə kimi istifadə olunub. İşğal altındakı ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində də bərpa-tikinti işləri başlanılıb. Heydər Əliyev Fondu tərəfindən təşkil olunan yerli və xarici ekspertlərdən ibarət işçi qrup məscidin mövcud binasını qiymətləndirib, binanın konservasiyası və bərpasına, o cümlədən bu ərazidə yeni məscidin tikilməsinə qərar verilib.

Zəngilanda inşa olunan məscidin təməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2021-ci il aprelin 26-da qoyulub.

Ötən müddətdə yeni məscidin layihəsi işlənilib və tikintiyə başlanılıb. Məscidin inşası "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib.

Hazırda məscidin daxili interyerində işlər davam etdirilir, o cümlədən ərazidə abadlaşdırma işləri aparılır. Layihənin 2024-cü ilin aprelində başa çatdırılması nəzərdə tutulur.

**AZƏRTAC**
**2023, 28 sentyabr**

**Zəngilan şəhərində 3-cü yaşayış kompleksinin təməli qoyulub**
*(28 sentyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 3-cü yaşayış kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Qeyd olundu ki, yaşayış kompleksi iki sahəyə bölünüb və hər biri üçün özünəməxsus konsepsiya hazırlanıb. Binaların memarlıq baxımından fərqliliyini təmin etmək məqsədilə onlar müxtəlif üslubda layihələndirilib.

Məlumat verildi ki, ümumi sahəsi iki hektar olan yaşayış kompleksində tikiləcək 3, 4 və 5 mərtəbəli çoxmənzilli binalar 8 blokdan və 192 mənzildən ibarət olacaq.

Prezident İlham Əliyev 3-cü yaşayış kompleksinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 28 sentyabr**

**Prezident İlham Əliyev Zəngilan şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak edib**
*(28 sentyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 4-cü yaşayış kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Bildirildi ki, kompleksin inşa olunacağı ərazi şəhərin ortasıxlıqlı çoxfunksiyalı zonasında, inzibati mərkəzin yaxınlığında yerləşir. Bu yaşayış kompleksinin ərazisi iki hektardır. Şəhərin təsdiq edilmiş Baş planına uyğun olaraq, kompleksdə 3, 4 və 5 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Konsepsiyaya əsasən, buradakı yaşayış binalarının 131 mənzildən ibarət olması planlaşdırılır.

Prezident İlham Əliyev 4-cü yaşayış kompleksinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 28 sentyabr**

**Zəngilan şəhərində 160 yerlik uşaq bağçasının təməli qoyulub**
*(28 sentyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 160 yerlik uşaq bağçasının təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, uşaq bağçası bir hektar ərazidə inşa olunacaq. Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx, camaşırxana yaradılacaq. Burada uşaqların rahatlığı, ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün hər cür şərait təmin ediləcək.

Bağçanın həyətində oyun meydançaları salınacaq, avtodayanacaq və digər zəruri infrastruktur yaradılacaq.

Prezident İlham Əliyev uşaq bağçasının təməlini qoydu.

Qeyd edək ki, Azərbaycanda uşaqların təlim-tərbiyəsinə, sosial müdafiəsinin gücləndirilməsinə, vətənpərvər ruhda və sağlam yetişmələrinə daim xüsusi diqqət yetirilir. Bu məsələ işğaldan azad olunan ərazilərdə də diqqət mərkəzində saxlanılır. Hər cür şəraitə malik uşaq bağçalarının inşası Azərbaycan dövlətinin gələcəyimiz olan uşaqlarla bağlı bütün məsələlərə xüsusi həssaslıqla yanaşdığını bir daha sübut edir. İşğaldan azad olunmuş ərazilərdə bu cür müəssisələrin yaradılması bərpa edilən şəhər və kəndlərimizin simasına da əlavə rəng qatır.

**AZƏRTAC**
**2023, 28 sentyabr**

**Zəngilanda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib**
**Prezident İlham Əliyev Forumun açılış mərasimində çıxış edib**
*(29 sentyabr 2023-cü il)*

Sentyabrın 29-da BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin**
**çıxışı**

- BMT-nin Məskunlaşma Proqramının hörmətli icraçı direktoru.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Zəngilana xoş gəlmisiniz. Sizi burada - Azərbaycanın qədim bölgəsində, Şərqi Zəngəzurda salamlayıram. Bu gün bu region Azərbaycanın bütün Qarabağ bölgəsi kimi, sıfırdan yenidən inşa edilir.

İlk olaraq bütün qonaqlarımıza təşəkkürümüzü bildirirəm. Bu gün burada 53 ölkədən qonağımız var. 200-ə yaxın xarici qonaq və ümumilikdə 400 iştirakçı bu gün bizimlədir. Bu, bizim ikinci Azərbaycan Milli Şəhərsalma Forumumuzdur, bizim dostluğumuzun təzahürüdür. Bizim birgə marağımızın təzahürüdür ki, işğal dövründə tamamilə dağıdılmış əraziləri yenidən inşa edək.

Xüsusi olaraq, xanım icraçı direktora təşəkkür etmək istəyirəm ki, bizim təşəbbüsləri daim dəstəkləyib, şəhərsalma ilə bağlı dəyərli tövsiyələrini verib və verir. Biz sıfırdan yeni şəhər və kəndlər inşa edirik. Ona görə də burada müasir texnologiyalar tətbiq etməliyik ki, bununla da keçmiş köçkünlərimizə ən yaxşı şərait yaradaq. Onların bir hissəsi artıq qayıdıbdır.

Ötən il biz birinci Şəhərsalma Forumunu Ağdam şəhərində keçirmişdik. Həmin şəhər də sıfırdan inşa edilir, çünki o, işğal dövründə darmadağın edilmişdir.

Zəngilan azad olunmuş ərazilərin ilk bölgəsidir ki, artıq burada keçmiş məcburi köçkünlər evlərinə qayıdıb. Ağalı "ağıllı kəndi"nə, - burada videoda da siz onu gördünüz, - ötən bahar aylarında həyat qayıdıb. Orada sakinlər xoşbəxt yaşayırlar. Mən Ağalı kəndində dəfələrlə olmuşam - sakinlərin qayıdışından əvvəl və sonra. Mən onun şahidi oldum ki, oraya qayıdan insanlar öz köklərinə nə dərəcədə bağlıdırlar. Heç zaman öz vətənini görməyən gənc nəsil qayıdıb. Bu, onu nümayiş etdirir ki, Azərbaycan xalqı öz köklərinə necə dərindən bağlıdır. Bütün keçmiş məcburi köçkünlər səbirsizliklə gözləyirdilər ki, bizim torpaqlar azad edilsin və onlar qayıtmaq imkanına malik olsunlar. Onlar bu imkandan 30 il ərzində Ermənistan tərəfindən məhrum edilmişdi. Ancaq üç il əvvəl biz bu işğala son qoyduq.

Bu gün Zəngilan beynəlxalq tədbirə ev sahibliyi edir. Bu, yenidən inşa edilmiş Konqres Mərkəzi dünən açılıb. Təkcə bu bina deyil, Zəngilanın müxtəlif istiqamətlərində fəal işlər gedir. Dediyim kimi, ilk "ağıllı kənd" Zəngilan rayonunda yerləşir. Bu şəhərin Baş planı artıq təsdiq edilib. Biz infrastruktura böyük vəsait ayırmışıq, bir neçə yaşayış layihəsi icra edilməkdədir. 2025-ci ildə, ola bilər bir az da tez, Zəngilan şəhərinin ilk sakinləri qayıdacaqlar.

Biz Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik, çünki onun coğrafi mövqeyi bunu labüd edir. Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir və ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası da bu bölgənin inkişafı baxımından mühüm faktor olmuşdur. O, insanlar üçün asan çıxışı təmin edəcəkdir. Gələcəkdə isə, əminəm ki, Zəngilanda xarici turistlərin sayı çox olacaqdır. Çünki bu bölgə Azərbaycanın ən gözəl guşələrindəndir. Meşələri, çayları, gölləri və misilsiz ekosistemi olan Zəngilan bizim ən böyük sərvətimizdən biridir. Əminəm ki, vaxt keçdikcə bu, turistlər tərəfindən ən çox sevilən bölgə olacaq.

Zəngilan Beynəlxalq Hava Limanı azad olunmuş ərazilərdə inşa edilmiş ikinci hava limanıdır. Üçüncüsü isə hazırda Laçında inşa edilir və iki il ərzində o hava limanı da istifadəyə veriləcək.

Eyni zamanda, biz sovet dövründə mövcud olan dəmir yolu xəttini bərpa edirik. Çünki işğal dövründə həmin dəmir yolları Ermənistan qüvvələri tərəfindən sökülüb. Bu gün Horadizdən Zəngilana çəkilən dəmir yolunun inşası fəal fazadadır və tezliklə bu nəqliyyat dəhlizinin bu mühüm hissəsi hazır

olacaq. Bu, Azərbaycanın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək layihədir. Oradan isə həmin dəmir yolu İran və Türkiyəyə keçəcək və nəhayət Avropaya çatacaq. Tezliklə biz bu layihəni istifadəyə verəcəyik. Yəni, Zəngilan çox vacib nəqliyyat mərkəzi olacaq. Dəmir yolu xətləri, hava limanı - bu gün bu istiqamətdə altı və dörd zolaqlı avtomagistrallar inşa edilir. Paytaxt Bakıdan bütün bu istiqamətlərdə 2000 kilometrdən çox yeni magistral yollar inşa olunur. Yəni bu, irihəcmli tikinti layihələridir və azad olunmuş hər bir rayon xüsusi Baş plana malikdir.

Biz Zəngilanda təkcə pilot yaşayış layihəsi deyil, həmçinin pilot kənd təsərrüfatı layihəsi həyata keçiririk. “Dost Aqropark” adlanan bu layihə Azərbaycan və Türkiyə şirkətlərinin birgə müəssisəsidir və həmin aqropark artıq fəaliyyətdədir. Hesab edirəm ki, Zəngilan gələcəkdə Azərbaycanın qida təhlükəsizliyinə töhfə verəcək. Artıq 6000 baş anqus cinsindən olan qaramal idxal edilib, onların sayı 10 minə çatdırılacaq. Burada, Laçın və Kəlbəcərdə də böyük yaşıllıq ərazilər var və hər zaman, keçmişdə də bu ərazidə maldarlıq inkişaf etmişdir. Ona görə də burada bu potensial var.

Eyni zamanda, yeni iş yerləri yaradılır, çünki buraya - evlərinə, Vətəninə qayıdan insanlar işlə təmin edilməlidir. Bizim Böyük Qayıdış Proqramımızın bir tərkib hissəsi də məşğulluqdur, eyni zamanda, aşağı faizli, imtiyazlı kreditlərin verilməsi və təbii ki, sosial infrastrukturun inşası. Zəngilanda artıq böyük bir məktəb binası inşa edilməkdədir. Zəngilan məscidinin inşası yekunlaşır. O, ermənilər tərəfindən məhv edilən qədim məscidin yanında inşa edilib. Bizim işğal altında olmuş bütün torpaqlarımızdakı 67 məsciddən 65-i məhv edilmişdir, 2-si isə yarı dağıdılmış vəziyyətdə olmuşdur. Bu isə, əlbəttə, Azərbaycana qarşı urbisid və kultursidin təzahürüdür.

Bu gün isə bu torpağın sahibləri, əsl sahibləri qayıdıb, sürətli inkişaf baş verir. Böyük Qayıdış Proqramı haqqında danışarkən deyə bilərəm ki, həmin proqram bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Təkcə bərpa etmək deyil - burada müasir texnologiyalar, “ağıllı şəhər” və “ağıllı kənd”lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələri istifadə edilir.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bu günədək bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırdığımız minimum büdcə 2,4 milyard ABŞ dolları olacaqdır. Bu, təbii ki, parlamentdə yenidən müzakirə ediləcək və dediyim kimi, Azərbaycan bunu öz şəxsi dövlət vəsaiti hesabına həyata keçirir. Biz heç bir maliyyə dəstəyi, heç bir maliyyə yardımı almırıq. Burada istisna iki qardaş ölkədir – Özbəkistan və Qazaxıstan prezidentləri çox səxavətli şəkildə bizə biri məktəb, biri isə incəsənət mərkəzini hədiyyə edib. Özbəkistan Füzulidə məktəb tikdi, digəri isə yekunlaşmaq üzrədir.

Yəni, bu, Azərbaycan üçün çox böyük maliyyə yüküdür. Ancaq Böyük Qayıdış Proqramının icrası bizim üçün bir nömrəli vəzifədir.

İnsanlar erməni işğalından çox əziyyət çəkiblər, çətin şəraitdə yaşayıblar, mənəvi çətinliklərlə üzləşiblər. Onlar özlərinin haqlı hüquqlarından məhrum ediliblər, öz Vətənlərindən məhrum ediliblər, qəbiristanlıqlarını ziyarət etməkdən məhrum ediliblər. Yeri gəlmişkən, qəbiristanlıqların böyük bir hissəsi işğalçı qüvvələr tərəfindən tamamilə dağıdılıb. Onlar bu imkanı, bu fürsəti 30 il gözləyirdilər ki, buraya qayıda bilsinlər. İkinci Qarabağ müharibəsi - bizim şanlı Qələbəmizlə bitən müharibə onlara bu şəraiti yaratdı. Bu gün onların bizdən gözləntiləri odur ki, onları tezliklə bu yerlərə qaytaraq.

Böyük Qayıdış Proqramı və onun icrası artıq imkan vermişdir ki, keçmiş məcburi köçkünlər Laçın şəhərinə qayıtsınlar, Füzuli şəhərinə qayıtsınlar, Ağalı kəndinə qayıtsınlar, Talış və Zabux kəndlərinə qayıtsınlar. Yəni, bu gün 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiqlənib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə çox böyük, irihəcmli yaşayış layihələri həyata keçiriləcək, xüsusən də Şuşa və digər şəhərlərdə. Bu, bizim proqramın tərkib hissəsidir.

Digər bir element infrastrukturdur. Məsələn, dünən mən burada - Zəngilanda 10 meqavat gücündə yeni Su Elektrik Stansiyasının açılışını etdim. Ancaq növbəti altı ay ərzində onun imkanları 40 meqavata çatdırılacaq. Azad olunmuş ərazilərdə bu gün 90 meqavat həcmində hidroelektrik enerji artıq təmin edilir. Yəni, azad olunmuş bütün ərazilərimiz yenidən bizim mərkəzi şəbəkəmizə qoşulur və tam inteqrasiya edilib. Bizim azad olunmuş ərazilərdə hidroelektrik enerjinin həcmi bu ilin sonunadək 170 meqavat, 2024-cü ilin sonuna qədər 270 meqavat olacaq. Bu da təbii ki, bizim yaşıl enerji gündəliyimizə böyük töhfə olacaq. Çünki Şərqi Zəngəzur və Qarabağın 10 min meqavat yaşıl enerji potensialı var. Buraya həm günəş, həm külək, həm də su elektrik stansiyaları aiddir. Bu, Azərbaycanın potensialının cüzi bir hissəsidir. Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisinin potensialı 157 qiqavat təşkil edir. Tezliklə, Azərbaycan yaşıl enerjini ixrac edən ölkə olacaqdır. Hətta yaşıl hidrogen ixrac ediləcəkdir. İlkin hesablamalara görə,

bizim potensialımız çox böyükdür. Günəş enerjisinə gəldikdə, artıq Cəbrayıl rayonunda 240 meqavat həcmində yeni stansiya tezliklə icra olunacaq. Ümid edirəm ki, bu layihəyə gələn il başlanılacaq.

Enerji potensialı, nəqliyyat, yaşayış layihələri - bunların hamısı bizim gündəliyimizin tərkib hissəsidir. Əminəm ki, biz bütün vəzifələrə, hədəflərə nail olacağıq və növbəti üç ildə 100 mindən çox keçmiş məcburi köçkünü evlərinə qaytaracağıq. Yeri gəlmişkən, qeyd edim ki, artıq 2300 məcburi köçkün evlərinə qayıdıb və ilin sonunadək onların sayı 5500-ə çatdırılacaq.

Diqqətinizə çatdırmaq istədiyim digər məsələ odur ki, Ermənistanın işğalından əziyyət çəkən köçkünlərimiz 30 il ərzində Azərbaycanın müxtəlif bölgələrində yaşayırdılar. Hökumət hər il onlar üçün 300-500 milyon ABŞ dolları arasında vəsait ayırırdı ki, yeni yaşayış layihələri icra edilsin, yeni yaşayış məntəqələri tikilsin. 300 mindən çox məcburi köçkün yaxşı şəraitlə, yeni mənzillərlə, evlərlə təmin edilmişdir. Ancaq torpaqlarımız azad edilən kimi, biz sorğu keçirdik və onların mütləq əksəriyyəti evlərinə qayıtmaq arzusunu ifadə etdilər. Bu gün artıq qayıtmaq istəyən insanlardan ibarət növbə yaranıb. Onlar Bakıdan, ölkəmizin ikinci böyük şəhəri Sumqayıtdan, Gəncədən və digər bölgələrimizdən qayıtmaq istəyirlər. Onlar şəhərlərdən kəndlərə qayıtmaq istəyirlər. Yəni, bunu da düzgün qiymətləndirmək lazımdır. Bu gün hər kəs urbanizasiyadan danışır. Bizdə də bu mövzu var. Bizim bu problemimiz uzun illərdir yaşanır - insanlar bölgələrdən, kəndlərdən şəhərə can atır. Çünki şəhərdə daha çox iş yerləri, məşğulluq imkanları var və özləri üçün daha yaxşı şərait yaratmaq istəyirlər. Amma bu gün biz onun şahidiyik ki, Bakıdan, Sumqayıtdan, Gəncədən, Mingəçevirdən, digər şəhərlərdən kəndlərə axın baş verir. Bu isə ilk növbədə Azərbaycan xalqının öz Vətəninə nə dərəcədə bağlı olduğunu göstərir. Onlar öz vətənlərində, əcdadlarının vətənlərində yaşamaq istəyirlər.

Hesab edirəm ki, bu gün burada - Zəngilanda, növbəti günlərdə Forumun Bakıda davam etdiyi müddətdə müzakirələr təkcə şəhər planlaması və inkişafa dair təcrübə mübadiləsi ilə bağlı olmayacaq, regionun gələcəyi barədə də fikir mübadiləsi aparılacaq. Biz bu regionun gələcəyini necə görürük? Diqqətinizə çatdırmaq istəyirəm ki, bizə qarşı 30 il ərzində etnik təmizləmə, işğal və ərazilərimizin məhvi həyata keçirilib, bir milyondan çox azərbaycanlı evlərindən didərgin salınıb. Onların 200 mindən çoxu hazırkı Ermənistan ərazisindən deportasiya olunub. Bizim şəhərlərimiz, kəndlərimiz darmadağın edilib. Otuz il ərzində işğalçı qüvvələr bizə buraya qayıtmağa imkan vermirdi və beynəlxalq ictimaiyyətin münaqişənin dinc yolla həllinə dair bütün səylərini bloklayırdılar. Təsəvvür edirsinizmi, 1992-ci ildən 2020-ci ilə qədər danışıqlar aparıldı. Sonsuz, mənasız danışıqlar aparılırdı və onların nəticəsi sıfır idi. Danışıqlara vasitəçilik edən ölkələrə baxsaq, görərik ki, onlar istəsəydilər, buna çoxdan nail olmuşdular. Baxın, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü, üç nüvə ölkəsi - onlar keçmiş Minsk qrupunun həmsədrləri idi. O qrup ki, işğala son qoymaq üçün mandatı var idi və bu, ATƏT-in çətiri altında həyata keçirilirdi. Amma bizim üçün digər hüquqi çərçivə də var idi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var idi ki, onlar bizim ərazilərimizin işğaldan qeyd-şərtsiz və tam azad olunmasını tələb edirdi. Onlar 1993-cü ildə qəbul edilmişdi. Onlar kağız üzərində qalmışdı. Çünki siyasi iradə yox idi və məlum idi ki, Ermənistan bunu istəmir. Onlar status-kvonu əbədi saxlamaq istəyirdilər. Onlar bizim torpaqlarımızı daim öz nəzarətində saxlamaq istəyirdilər. Onlar bu yerlərdə, o cümlədən burada - Zəngilanda qanunsuz məskunlaşma aparırdılar. Ola bilər ki, bu, Zəngilanda o qədər də geniş vüsət almamışdı, amma Laçında, Kəlbəcərdə, Şuşada minlərlə qeyri-qanuni sakin məskunlaşdırılmışdı. Onlar Yaxın Şərqdən və digər ölkələrdən, diaspor tərəfindən dəvət edilmişdilər.

Ermənistan beynəlxalq hüququn normalarını və qaydalarını kobud şəkildə pozurdu. Cenevrə Konvensiyasına əsasən, cinayət törədirdi. Ancaq beynəlxalq ictimaiyyət bu ölkəyə qarşı sanksiya tətbiq etmədi. Onları heç ictimai şəkildə qınamadılar. Onlara açıq şəkildə çağırış etmirdilər ki, öz qoşunlarını bizim ərazimizdən çıxarsın.

Beləliklə, İkinci Qarabağ müharibəsinin başlaması təkcə Ermənistanın işğal siyasəti ilə bağlı deyildi, bu məsələni həll etməyə mandatı olan ölkələrin bunu gözardı etməsi idi. Sülhə nail olmaq olardı, bu, mümkün idi. Azərbaycan hər zaman danışıqlar masasında konstruktiv idi. Biz 28 il ərzində ədalətin bərpa edilməsini gözlədik. Nəticədə isə bunu özümüz etməli olduq. Biz 44 gün ərzində bunu etdik. 44 günlük müharibə qaçılmaz idi. İlk olaraq artıq sadaladığım səbəblərdən, ikincisi isə Ermənistan bu məsələni dondurmaq istəyirdi. Hesab edirdi ki, Azərbaycanda yeni yetişən nəsil Qarabağı unudacaq. Amma onlar böyük səhvə yol verdilər. Bu gün Füzulidə, Laçında, Zabuxda, Ağalıda, Talışda təhsil alan yüzlərlə məktəbli bu torpaqları görməyib. Çünki Azərbaycan xalqının yaddaşından bu tarixi, bu torpaqları heç kim silə bilməz. Aydın idi ki, Ermənistan vəziyyəti məhz bu şəkildə öz nəzarəti altında saxlamaq istəyirdi.

Düşünürdülər ki, nə sülh, nə müharibə - davamlı danışıqlar məhz belə də sürəcək. Eyni zamanda, yeni Ermənistan hakimiyyəti ilə bağlı ümidlər də tədricən boşa çıxdı.

Əvvəlki hökumət, nəzər salsaq aydın görərik ki, Ermənistan kriminal hərbi cinayətkarlar tərəfindən idarə olunan bir rejim idi. İki prezident özləri Xocalı soyqırımında iştirak edənlər idi. Onlar buna görə cavab verməlidirlər, məsuliyyət daşımalıdırlar. Onlar Azərbaycan torpaqlarını talayanlar idi. İyirmi il ərzində onlar əllərindən gələni edirdilər ki, bizim işğal olunmuş torpaqlarımızda bu taktikanı işlətsinlər, həmin taktikanı Ermənistanda da tətbiq etməyə başladılar.

Bu gün də erməni xalqı onlara nifrət edir. Ancaq hazırkı Ermənistan hakimiyyəti ilə bağlı olan ümidlər şişirdilmişdi. İndiki Ermənistan hakimiyyəti istəsəydi, Azərbaycanla sülhə gələrdi, bunu edə bilərdi. Azərbaycan buna hazır idi, beynəlxalq vasitəçilər bunu bilirdilər. Keçmiş həmsədrlər bilirdi ki, biz bunu Azərbaycanın ərazi bütövlüyünün bərpası əsasında dinc yolla həll etməyə hazır idik. Biz Azərbaycandakı erməni azlığın hüquqlarını bərpa etməyə, təmin etməyə hazır idik. İndi isə müharibədən sonra və sonuncu hərbi əməliyyat ki, baş verdi, on gün əvvəl biz yenidən bunu bəyan etdik: Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik. Artıq biz onlara bu məsələ ilə bağlı, reinteqrasiya ilə bağlı öz baxışımızı təqdim etmişik, onların dini, təhsil, mədəni, bələdiyyə hüquqları - beynəlxalq konvensiyalara uyğun olaraq bütün bu məsələlər həll ediləcək. Bu, Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, bizim konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək.

Ancaq İkinci Qarabağ müharibəsindən əvvəlki vəziyyətə qayıdanda, hesab edirəm ki, hazırkı Ermənistan hakimiyyəti bu fürsəti əldən verdi. Onlar bizi düzgün qiymətləndirmədilər, öz imkanlarını düzgün qiymətləndirmədilər. Onların planları var idi ki, bizə qarşı xarici hərbi yardım olunacaq. Onlar təbii ki, burada ciddi yanıldılar. Aydın məsələ idi ki, Azərbaycan öz ərazisində döyüşlər aparırdı. Bu, bizim hüququmuz idi. Bizə BMT Nizamnaməsinə uyğun olan özünümüdafiə hüququnu tanıyan məsələ idi. Üç il bundan öncə Ermənistan kapitulyasiya etməli oldu. Bəs, bundan sonra nə baş verdi? Demək olar ki, biz dərhal sülh danışıqlarına başladıq. Otuz il ərzində münaqişədən, soyqırımından, nifrətdən əziyyət çəkən xalq və ölkə ciddi siyasi iradə göstərdi, siyasi addım atdı: biz sülh təklif etdik. Biz müvafiq komissiyaların yaradılmasını təklif etdik ki, sərhədin delimitasiyası aparılsın. Ancaq Ermənistan buna müsbət cavab vermədi. Həmin bu yeni sülh danışıqları heç bir tərəqqiyə gətirib çıxarmadı. Üç il ərzində bunu etmək olardı. Yenidən yanlış hesablama, yenidən hansısa xarici himayədarlara arxalanma yenidən çətin və mürəkkəb vəziyyət yaratdı.

Ermənistan hökumət rəsmilərinin, xüsusilə yüksək səviyyəli rəsmilərin ritorikasına baxsanız, bu gün onlar bizi heç etmədiyimiz məsələlərdə ittiham edirlər. Ermənistanın hazırkı rəhbəri 2019-cu ildə Xankəndidə tribunadan bəyan etdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bu da bizim qırmızı xəttimiz idi. Ona qədər heç kəs belə bir ifadə işlətməmişdi. Bu da təbii ki, atəşkəsin pozulması idi: yəni, əhəmiyyətsiz, mənasız danışıqlara nə ehtiyac var? Ermənistanın rəhbəri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış bir hissəsinin Ermənistana məxsus olduğunu rəsmi şəkildə deyirsə, burada hansı danışıqlardan söhbət gedə bilər? Buna baxmayaraq, biz yenə də hesab edirdik ki, bəlkə bu, siyasi yanlışlıqdır. Lakin bundan sonra Ermənistanın müdafiə naziri bəyan etdi ki, Ermənistan bizimlə yeni ərazilər uğrunda yeni müharibəyə hazırdır. Yəni, onlar bizi yeni işğalla hədələyirdilər. Belə çıxır ki, bizim ərazimizin 20 faizinin işğalı onlara kifayət etmirdi. Onların planı var idi ki, Bakıya çatsınlar, hətta Xəzər dənizində çimsinlər. Onların planlarında tanklarla Bakıya gəlmək var idi. Ancaq Ermənistana məxsus tanklar bu gün bizim Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Bir çox yanlışlıqlar, yanlış hesablamalar, bizim potensialımızı, qüvvəmizi və gücümüzü nəzərə almamaq – bu, region üçün ciddi bir fəlakətə səbəb oldu.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması üçün hətta yenə də şans var idi. Ancaq onlar Azərbaycana qarşı bütün ərazi iddialarına son qoymalı idilər. Onlar ziddiyyətli bəyanatlara son qoymalı idilər. Bir tərəfdən deyirdilər ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar. Digər tərəfdən isə sentyabrın 2-də Ermənistanın rəhbəri qondarma rejimin rəhbərinə onun müstəqilliyi ilə bağlı təbrik məktubu göndərmişdi. Yəni, bu, necə mümkün ola bilər? Bu o demək idi ki, utancverici məğlubiyyətdən üç il sonra, öz məlumatlarına görə, 12 min fərarisi olan, bizim ərazilərimizdən sprinter kimi qaçan həmin Ermənistan bizə qarşı yeni ərazi iddiası irəli sürür.

Bu, artıq qırmızı xəttin növbəti dəfə pozulması idi. 9 sentyabr tarixində artıq bu, neçənci qırmızı xəttimiz idi. Qondarma Dağlıq Qarabağın qondarma "parlament"i 22 nəfərin səsi ilə "Dağlıq Qarabağ rejimi"nin "prezidenti"ni seçdi və həmin o "prezident" öz çıxışında qeyd etdi ki, biz status uğrunda mübarizə aparacağıq. Yəni, bu nə deməkdir və biz buna necə cavab verməliyik?! Biz buna necə dözə bilərdik? Əlbəttə, biz buna dözə bilməzdik. On gün bundan əvvəl baş verən hadisələrin səbəbi Ermənistan

baş nazirinin məsuliyyətsiz siyasəti və onun himayədarlıq etdiyi Qarabağdakı separatçılar idi, onların hərəkətləri idi.

Antiterror tədbiri 24 saatdan az müddətdə həyata keçirildi. Bunun nəticəsi nə oldu? Biz davam etdikmi? Xeyr! Bizim belə bir niyyətimiz yox idi. Biz nəticədə harada istəsəydik orada dayanacaqdıq. Bunu demək o qədər də çətin deyil. Ancaq bizim niyyətimiz bundan ibarət deyildi. Biz Ermənistanın ərazi bütövlüyünü tanımışıq, bunu bəyan etmişik və bunu səmimi deyirik. Yəni, bizim başqa niyyətlərimiz olsaydı, əməliyyat sentyabrın 20-də dayanmazdı. Mən bunu hər kəsin bilməsini istəyirəm. Bunu Ermənistan hakimiyyəti də bilsin, onun arxasında duran himayədarları da bilsin, bu gün Azərbaycana qarşı qəbuledilməz planlar cızan tərəflərə buradan mesaj verirəm: Bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki, bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir.

Sentyabrın 20-dən sonra artıq zaman yetişib ki, bizim nümayəndələr əyləşsin və sülh sazişinin layihəsi üzərində işləsin. 20 sentyabrda biz suverenliyimizi artıq bərpa etmişik. Bundan sonra da sülh sazişinin tezliklə imzalanması daha asan olacaqdır. Bununla yanaşı, təbii ki, gərək sərhədlərin delimitasiyası üzərində fəal surətdə çalışaq və uzun müddət sürən bu qarşıdurmaya son qoyaq. Azərbaycanda biz sülh istəyirik. Zəngilanda bu gün gördükləriniz onu sübut edir ki, biz sülh istəyirik, biz bu əraziləri bərpa etmək istəyirik, soydaşlarımızı vətəninə qaytarmaq istəyirik. Biz Qafqazda sülh və sabitlik istəyirik. Bu, mümkündür və seçim Ermənistanındır.

2020-ci il noyabrın 8-də Şuşa Ordumuz tərəfindən azad olundu və bu, bizim iradəmizin təzahürü idi. Bundan iki gün sonra Ermənistan kapitulyasiya aktına imza atdı və Azərbaycan 30 illik işğala son qoydu. Aprelin 23-də biz Ermənistanla sərhəddə sərhəd-keçid məntəqəsini yaratdıq və ərazi bütövlüyümüzü tam təmin etdik. Çünki bütün sərhədlərimizə nəzarəti bərpa etdik. Əlbəttə, sentyabrın 20-də biz öz suverenliyimizi bərpa etdik. Yəni, artıq "boz" zonalar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulubdur. Bu, bizim güclü siyasi iradəmizin göstəricisidir. Bu, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir və bu, yaxşı siqnaldır, - bəziləri hələ də qisasçılıq, revanşist ideyalarla yaşayırlar, - bu, onlara güclü siqnaldır ki, bu fikirlərdən daşınsınlar.

Biz 20 sentyabrda Qarabağdakı Ermənistan ordusuna bəyan etdik: silahlarınızı yerə qoyun və oraları tərk edin. Belə də oldu və bu, baş verdi. Yəni, biz sözümüzə, vədimizə əməl edirik, ona sadiqik. Əminəm ki, Ermənistan hökuməti bu hadisələri düzgün şəkildə təhlil etsə, "Qarabağ Ermənistandır!" bəyanatından sonra - 2019-cu ildə verilən bəyanatdan sonra 20 sentyabradək baş verənləri düzgün təhlil etsə, sülh əlçatandır. Bu, gələcəklə bağlı bizim baxışımızdır. Bu, regionun gələcəyi ilə bağlı baxışımızdır və hesab edirəm, beynəlxalq aktorlar və qonşular görəcəklər ki, bizim münasibətimiz konstruktivdir.

Əziz qonaqlar, hörmətli dostlar, bir daha Şərqi Zəngəzura, Zəngilana xoş gəlmisiniz. Foruma uğurlar arzu edirəm.

**x x x**

Sonra BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxış etdi.

**Xanım Maimuna Mohd Şərifin**
**çıxışı**

- Təşəkkür edirəm, cənab moderator!

Zati aliləri, cənab Prezident İlham Əliyev.

Çox hörmətli nazirlər, xanım Vladanka Andreyeva.

Hörmətli nümayəndə heyəti, xanımlar və cənablar.

Hamınızın sabahınız xeyirli olsun. Mən çalışıb Azərbaycan dilində tələffüz etdim. Ümid edirəm, doğru tələffüz etdim. Burada 2-ci Milli Şəhərsalma Forumunda - Azərbaycan hökumətinin təşkilatçılığı, cənab Prezident İlham Əliyevin himayəsi ilə keçirilən ikinci Forumda iştirak etməkdən məmnunluğumu bildirirəm. Bildiyiniz kimi, qlobal, kifayət qədər Ümumdünya Şəhərsalma Günü Qafqaz regionunda oktyabrın gələn bazar ertəsi günü qeyd edilir və əslində, məhz şəhərlər inkişafın və bərpanın hərəkətverici qüvvəsidir.

Cənab Prezident, Sizin üzərinizə götürdüyünüz öhdəliyə əsasən, Zəngilanda keçirilən 2-ci Azərbaycan Milli Şəhərsalma Forumu həqiqətən təqdirəlayiqdir. Əsas məqsəd bildiyiniz kimi, daha yaşıl,

daha sağlam inkişaf, sözün həqiqi mənasında, təqdirəlayiqdir. Təbiətlə ahəngdar şəkildə, eləcə də su resurslarının, eyni zamanda, məhz məkanın düzgün idarə edilməsi ilə Siz şəhər vətəndaşları üçün daha parlaq gələcəyi təmin etmiş olursunuz. BMT-nin Baş katibi Antonio Quterreş də bu yaxınlarda Nyu-Yorkda Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə bağlı keçirilən tədbirdə qeyd etmişdi ki, DİM-in bərpa planına kifayət qədər ehtiyacı var və artıq bütün dünyanın gözləri üzv dövlətlərə yönəlib.

Cari Milli Şəhərsalma Forumunda Azərbaycan hökuməti, bütün aidiyyəti qurumlar, eləcə də yerli icra hakimiyyəti, idarəetmə qurumları illik platformada üzərinə götürdüyü Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı müvafiq olaraq məlumat, hesabat verirlər. BMT də aidiyyəti qurum olaraq, yeni şəhərsalma gündəliyi çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərini, eyni zamanda, ərazi, iqtisadi və ətraf mühit planlamasını özündə ehtiva edir. Bəli, Milli Şəhərsalma Forumu məhz ən ali zirvədən tutmuş, - söz düşmüşkən, Azərbaycanın həqiqətən də bariz nümunəsi fonunda - milli səviyyədə keçirilən belə bir şəhərsalma forumu ölkələr üçün, nümayəndələr üçün də 2024-cü ildə Qahirədə keçiriləcək müvafiq tədbir üçün həqiqətən də mühüm platformadır. BMT-nin Baş Assambleyasının 78-ci sessiyasında qeyd olunduğu kimi, günümüzdə artıq köhnəlmiş, qeyri-funksional və ədalətsiz bir nizamda məhz memarlıq gələcəkdə DİM-lərin inkişafına mühüm töhfə verə bilər. Milli səviyyədə isə bütün bu işlər, iqtisadi, sosial ərazi planlaşdırılması Azərbaycanın təbii ki, Zəngilanda nümayiş etdirdiyi inkişafla paraleldir. Burada inklüziv, düzgün ərazi yanaşması milli inkişaf planında vəhdət halı almışdır.

Çox hörmətli tədbir iştirakçıları, keçən il vurğuladığım kimi, əsas xidmətlər üzrə boşluğu doldurmaq, eyni zamanda, evlərlə bağlı idarəetmə yalnız və yalnız resurs və məlumatlar strateji şəkildə doğru-düzgün idarə edildikdə mümkün olacaqdır. Milli Şəhərsalma Forumunun keçirilməsi ilə üzv ölkələr və şəhər rəhbərləri 11-ci Dayanıqlı İnkişaf Məqsədinə və bütün digər DİM-lərə nail olmaq üçün düzgün siyasətin həyata keçirilməsi baxımından mühüm məlumatlar əldə edə bilirlər. Bəli, bunlar bir-biri ilə kəsişən, eləcə də milli, mərkəzi və yerli idarəetmə qurumlarına milli inkişaf proqramı siyasətinin real əməli tədbirlərlə müsbət nəticələrə gətirib çıxarmasına rəvac verir. Üzv dövlətlərə dəstək göstərmək üçün BMT-nin Məskunlaşma Proqramı Milli Şəhərsalma Forumuna öz töhfəsini verməkdədir. Qeyd edim ki, mənim komandam burada - 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda iştirak edir. Məhz burada, bu yüksək səviyyəli tədbirdə əldə olunan məlumat və alətlər, bildiyiniz kimi, noyabrda keçiriləcək növbəti tədbirdə istifadə ediləcəkdir.

Mən çoxsaylı tanış simaları regionda görməyimə çox şadam. Sözün həqiqi mənasında, Azərbaycan hökumətinin səxavəti ilə biz öz dəstəyimizi qonşu ölkələrə də çatdıra bilirik. Çox şadam ki, Türk Dövlətləri Təşkilatının birinci regional şəhərsalma forumu sabah Bakıda keçiriləcək. Biz qarşılıqlı əməkdaşlıq sayəsində məhz üzv dövlətlərdən, yerli idarəetmə qurumlarından, tərəfdaşlardan faydalanaraq gələn il Qahirədə keçiriləcək milli Foruma hazırlıq prosesinə də artıq təkan vermiş oluruq.

Cənab Prezident, BMT-nin Məskunlaşma Proqramının bu ilin iyununda Nayrobidə keçirilən ikinci sessiyasında davamlı şəhərsalmaya dəstəyinə görə Azərbaycan hökumətinə təşəkkürümü bildirirəm. Sizin BMT-nin Nayrobi şəhərindəki bölməsində daimi nümayəndənizin təyin olunmasından çox şadıq.

Ümid edirəm ki, builki Milli Şəhərsalma Forumunun nəticələri Konvensiyaya üzv olan tərəflərin 2023-cü ilin dekabrında Dubay şəhərində təşkil ediləcək tədbirdə Sizin dayanıqlı şəhərsalma ilə bağlı əsas mesajlarınızı çatdıracaq. Şəhərsalma ilə bağlı Konvensiyaya üzv olan tərəflərin nazirlər səviyyəsində iclası bu il dekabrın 6-da Dubay şəhərində keçiriləcək.

Hazırda isə, cənab Prezident, vəd etdiyim kimi, planlaşdırma ilə bağlı müvafiq konsepsiya sənədinin təqdim edilməsi üçün Cəbrayıl rayonunda iki ərazi seçilmişdir. Mən də Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müvafiq dəstəyinə görə təşəkkürümü bildirirəm. BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva öz növbəsində BMT-nin ölkədəki komandası olaraq bu təşəbbüslərə dəstək göstərir. UN-HABITAT şəhərlərin yenidən bərpası və icmaların özlərinin daha yaxşı gələcəyini qurması istiqamətində səylərini dəstəkləyir. BMT-nin Məskunlaşma Proqramının ikinci sessiyasındakı qərarından ilhamlanaraq, səmərəli, çoxtərəfli ruhundan çıxış edərək, bütün üzv dövlətlərə üz tutaraq demək istəyirəm: biz qanunun aliliyi prinsipinə, BMT-nin xartiyasına riayət etməklə, eləcə də İnsan Haqları Bəyannaməsinə xitabən inkişafı davamlı edə bilərik. Ancaq bütün cəmiyyətlə, hamılıqla birgə inklüzivliyə və müxtəlifliyə xitabən xüsusi öhdəlik götürməklə inkişaf edə bilərik. Mən bütün bunlara Sizin dəstəyinizlə nail olacağımıza əminəm. 2023-cü ildəki Ümumdünya Məskunlaşma Günü gələn bazar ertəsi Sizin çox gözəl Bakı şəhərində - Xəzər dənizinin sahillərində qeyd ediləcəkdir.

Təşəkkür edirəm, çox sağ olun!

**x x x**

Müxtəlif çağırış və qeyri-müəyyənliklər qarşısında iqtisadi cəhətdən inkişaf edə biləcək davamlı şəhərlərin qurulması ilə bağlı strategiyaların müzakirəsi, fikir mübadiləsi və əməkdaşlıq üçün müxtəlif maraqlı tərəfləri, ekspertləri, siyasətçiləri və icmaları bir araya gətirən Forumun açılış mərasimindən sonra tədbir müxtəlif mövzularda sessiyalarla davam edib. Əvvəlcə "Birgə yenidənqurma - regional dayanıqlılıq və davamlı inkişaf üçün əməkdaşlıq imkanları" adlı xüsusi sessiya təşkil olunub.

Sonra "Dayanıqlı və davamlı inkişaf: strategiyalar, fəaliyyət istiqamətləri və beynəlxalq əməkdaşlıq imkanları" adlı birinci sessiyada yenidənqurma - azad edilmiş ərazilərin reabilitasiya strategiyaları, birgə hərəkət, əlaqələndirmə və regional iqtisadi inkişaf üçün nəqliyyatın imkanlarının gücləndirilməsi, rifah və sülh üçün körpülər qurmaq, münaqişələrin həllində və şəhərsalmanın inkişafında beynəlxalq əməkdaşlığın rolu kimi məsələlər müzakirə edilib.

"Viranlıqdan dayanıqlılığa: parlaq gələcəyə aparan yol" adlı ikinci sessiyada gizli təhlükə ilə mübarizə - minalarla çirklənmə və onun dayanıqlı inkişafa təsiri, regional mərkəzlərin dirçəlişi, Qarabağda əməkdaşlıq imkanlarından söhbət açılıb, Zəngilan şəhərinin Baş planı ilə tanışlıq olub.

Sonda tədbir iştirakçıları Ağalı "ağıllı kənd"inə səfər edib və Zəngilanda sürətlə aparılan yenidənqurma layihələri ilə tanış olublar.

Qeyd edək ki, NUFA2-nin növbəti sessiyaları paytaxt Bakıda təşkil olunacaq və oktyabrın 1-də yekunlaşacaq. Oktyabrın 2-də isə paytaxtımız ilk dəfə olaraq Ümumdünya Məskunlaşma Gününə ev sahibliyi edəcək. Həmin gün nüfuzlu beynəlxalq ekspertlər və dövlət rəsmiləri "Dayanıqlı şəhər iqtisadiyyatı. Şəhərlər inkişafın və bərpanın aparıcı qüvvəsi kimi" mövzusu altında əlçatan və keyfiyyətli şəhər həyatının təşviqi və dayanıqlı şəhərlərin inkişafı üzrə çağırışların müzakirəsini aparacaqlar.

**AZƏRTAC**
**2023, 29 sentyabr**

**Prezident: Torpaqlarımızda separatçılığa son qoyulub, bu, bizim güclü siyasi iradəmizin göstəricisidir**

2020-ci il noyabrın 8-də Ordumuz tərəfindən Şuşanın azad olunması bizim iradəmizin təzahürü idi. İki gün ondan sonra Ermənistan kapitulyasiya aktına imza atdı və Azərbaycan 30 illik işğala son qoydu.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı deyib: "Aprelin 23-də (2023-cü il – red.) Ermənistanla sərhəddə sərhəd-keçid məntəqəsini yaratdıq və ərazi bütövlüyümüzü tam şəkildə təmin etdik. Çünki bütün sərhədlərimizə nəzarəti bərpa etdik. Əlbəttə ki, sentyabrın 20-də (2023-cü il – red.) biz öz suverenliyimizi bərpa etdik. Yəni, artıq "boz" zonalar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulub. Bu, bizim güclü siyasi iradəmizin göstəricisidir. Bu, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir. Bu, yaxşı siqnaldır, - bəziləri hələ də qisas, revanşist ideyalarla yaşayırlar, - bu, onlara güclü siqnaldır ki, bu fikirlərdən imtina etsinlər".

**AZƏRTAC**
**2023, 29 sentyabr**

## Prezident İlham Əliyev: 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiq edilib

İndiyədək 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiq edilib və 30 kəndin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı deyib.

Qarşıdan gələn illərdə xüsusilə Şuşa və digər şəhərlərdə çox böyük, iri həcmli yaşayış layihələrinin həyata keçiriləcəyini xatırladan dövlətimizin başçısı deyib ki, bu, bizim Proqramın tərkib hissəsidir.

**AZƏRTAC**
**2023, 29 sentyabr**

**Azərbaycan Prezidenti: Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik**

Biz Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik. Çünki onun coğrafi yerləşməsi bunu labüd edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı bildirib.

"Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir, ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası bu bölgənin inkişafı baxımından mühüm amil olmuşdur. O, insanlar üçün asan çıxışı təmin edəcək. Gələcəkdə isə əminəm ki, Zəngilanda xarici turistlərin sayı çox olacaq. Çünki bu bölgə Azərbaycanın ən gözəl diyarlarındandır - meşələri, çayları, gölləri. Misilsiz ekosistemə malik olan Zəngilan bizim ən böyük sərvətlərimizdən biridir", - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**
**2023, 29 sentyabr**

**Prezident İlham Əliyev Zəngilan şəhərinə ilk qayıdışın vaxtını açıqladı**

Bütün keçmiş məcburi köçkünlər səbirsizliklə gözləyirdilər ki, torpaqlar azad edilsin və onlar qayıtmaq imkanına malik olsunlar. Onlar Ermənistan tərəfindən 30 il ərzində bu imkandan məhrum edilmişdilər. Ancaq üç il bundan əvvəl biz işğala son qoyduq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən “Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi” mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı söyləyib.

Zəngilanın Baş planının artıq təsdiq edildiyini bildirən dövlətimizin başçısı deyib ki, burada infrastruktura böyük vəsait ayrılıb, bir neçə yaşayış layihəsi icra olunmaqdadır. “2025-ci ildə, ola bilər bir az da tez Zəngilan şəhərinin ilk sakinləri qayıdacaqlar”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

**AZƏRTAC**
**2023, 29 sentyabr**

**Prezident: Ağalı kəndinə həyat qayıdıb, orada sakinlər xoşbəxt yaşayırlar**

Zəngilan azad olunmuş ərazilərin ilk bölgəsi idi ki, artıq keçmiş məcburi köçkünlər buraya evlərinə qayıdıblar. Ağalı ağıllı kəndinə həyat qayıdıb, orada sakinlər xoşbəxt yaşayırlar.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı deyib.

Dövlətimizin başçısı bildirib: "Mən şahidi oldum ki, oraya qayıdan insanlar öz köklərinə nə qədər bağlıdırlar. Heç vaxt öz vətənini görməyən gənc nəsil qayıdıb. Bu, onu nümayiş etdirir ki, Azərbaycan xalqı öz köklərinə necə dərindən bağlıdır".

**AZƏRTAC**
**2023, 29 sentyabr**

**Böyük Qayıdışın Zəngilan mərhələsi**

1990-cı illərdə Sovet İttifaqının süqutu İkinci Dünya müharibəsindən sonra beynəlxalq siyasi sistemdə mühüm transformasiyalara səbəb oldu. Bu hadisə bütün müsbət nəticələrinə baxmayaraq həm də gözlənildiyi kimi dünya üçün uzunmüddətli yeni problemlər də yaratdı.

Postsovet məkanında iqtisadiyyatın iflic olması səbəbindən milyonlarla insanın əmək miqrasiyası, yeni məskunlaşma bölgələrində yerli əhali ilə gəlmələr arasında yaranan ziddiyyətlər, mənəvi və psixoloji sarsıntılar yenicə müstəqil olmuş ölkələrdə insanların yaşam keyfiyyətini əhəmiyyətli dərəcədə aşağı saldı. Ən ağrılı proseslər isə keçmiş ittifaqın müxtəlif bölgələrində alovlanan milli münaqişələr və bu münaqişələr nəticəsində on minlərlə insanın həlak olması, milyonlarla insanın qaçqın və məcburi köçkünə çevrilməsi XXI əsrdə insanlığın üzləşdiyi ən böyük faciə kimi yeni tariximizə yazıldı. Keçmiş sovetlər ərazisində "Dağlıq Qarabağ münaqişəsi" adlandırılan ilk belə münaqişə xalqımızın tarixinə kədərli bir faciə kimi yazıldı.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Cavanşir Feyziyev deyib.

Deputat qeyd edib ki, Ermənistanda və Qarabağ bölgəsində sovet strateqləri tərəfindən süni şəkildə yaradılmış bu münaqişə 30 il ərzində bölgədə böyük itkilərə və dağıntılara səbəb oldu. Eyni zamanda, Abxaziya, Cənubi Osetiya, Dnestryanı, Donbas münaqişələri də oxşar ssenarilər əsasında həyata keçirildi və geniş bir coğrafiyada uzunmüddətli "partlamamış minalar" effekti yaratdı.

Nəhayət, bu minalardan biri – Qarabağ minası 2020-ci ildə partladı. Qırx dörd günlük müharibədə növbəti dəfə hər iki tərəfdən birlikdə 10 mindən çox insan həyatını itirdi. Lakin nəticə 30 illik çıxılmaz bir vəziyyətdən xilas olmaq üçün yeni presedent yaratdı. Dünyanın bütün aparıcı güclərinin iradəsinin əksinə olaraq Azərbaycan Prezidenti İlham Əliyevin cəsarəti və qətiyyəti sayəsində dünya 30 il əvvəl postsovet ərazisində yaradılmış etno-siyasi münaqişələrdən xilas olmağın ən düzgün və səmərəli yolunu real təcrübədə təsdiq etdi. Torpaqlarımız işğaldan azad olundu, dövlətimiz bütün ərazisi üzərində öz suverenliyini bərpa etdi.

"Son 3 il ərzində ölkəmizdə sürətlə baş verən hərbi-siyasi hadisələrin fonunda həm də işğaldan azad olunmuş torpaqlarımızda 30 il ərzində erməni işğalçıları tərəfindən məqsədli şəkildə aparılmış dağıdıcılıq əməlləri ilə üzləşdik. Bir milyona yaxın qaçqın və məcburi köçkünlərin qoyub çıxdığı şəhərlər və kəndlər viran edilmiş, ərazilər sıx şəkildə minalarla örtülmüş və bölgənin bütün infrastrukturu məhv edilmiş, tarixi-mədəni abidələrimiz yer üzündən silinmişdir. Azərbaycan dövləti bu çağırışın qarşısında da qətiyyət göstərməkdə israrlı olduğunu nümayiş etdirdi. Prezident İlham Əliyev bütün şəhərlərin və kəndlərin dünyada mövcud olan ən yüksək standartlar əsasında yenidən tikilməsi barədə qərar verdi. Miqyası və tətbiq olunan texnologiyaların müasirliyi ilə heyrətləndirən nəhəng layihələr artıq həyata keçirilməkdədir. Azad olunmuş bölgələrimizdə həyata keçirilən abadlıq və quruculuq işləri də dünya miqyasında münaqişələrdən sonra ərazilərin bərpa olunması işləri üçün ən parlaq örnək olmaqdadır. Zəngəzurda keçirilən 2-ci Milli Şəhərsalma Forumunda 53 ölkədən 200-ə yaxın xarici qonağın iştirak etməsi dünya miqyasında Azərbaycanın yaratdığı nümunələrə marağın yüksək olduğunu nümayiş etdirdi", - deyə Cavanşir Feyziyev bildirib.

Deputat xatırladıb ki, sentyabrın 29-da Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində Prezident İlham Əliyev çıxış etdi. Dövlətimizin başçısı Forum iştirakçılarına bölgənin tarixi, Ermənistan tərəfindən işğalı və azad olunması haqqında ətraflı məlumat verdikdən sonra Şərqi Zəngəzur və Qarabağ rayonlarında aparılan quruculuq işlərindən danışdı. Prezident bildirdi ki, Zəngilan mühüm nəqliyyat qovşağıdır. Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir. Şəhərin Baş planı artıq təsdiqlənib, infrastruktura böyük vəsait ayrılıb və bir neçə yaşayış layihəsi icra edilməkdədir. Ölkə Prezidenti, həmçinin qeyd etdi ki, 2025-ci ildə şəhərin ilk sakinləri Zəngilana qayıdacaqlar. Prezident öz çıxışında vurğuladı ki, Böyük Qayıdış Proqramı bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Abadlaşdırılan ərazilərdə müasir texnologiyalara əsaslanan "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Burada müasir şəhərsalma texnologiyalarının ən yeni nümunələri tətbiq edilir. Prezident bildirdi ki, bu günədək 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiqlənib və 30 kəndin təməli qoyulub. Böyük Qayıdış Proqramının icrası nəticəsində artıq keçmiş məcburi köçkünlər Laçın və Füzuli şəhərlərinə, Ağalı, Talış və Zabux kəndlərinə qayıdıblar. Prezident məcburi köçkünlərin Zəngilana qayıdışı və layiqli həyat şəraiti ilə təmin olunması üçün görülən və görüləcək çoxsaylı layihələr barəsində məlumat verdi.

Qarabağ bölgəsində həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən danışan Prezident İlham Əliyev Forum iştirakçılarına bildirdi ki, Qarabağın erməni əhalisinin hüquqları Azərbaycan dövləti tərəfindən tam şəkildə təmin ediləcək. Onların dini, təhsil, mədəni, bələdiyyə və digər hüquqları təmin ediləcək. Bütün işlər Azərbaycanın iştirakçısı olduğu konvensiyalara, Konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun şəkildə həyata keçiriləcək.

Prezident İlham Əliyev bəyan etdi ki, 44 günlük müharibədən sonra bütün sərhədlərimizə nəzarət bərpa olunub və torpaqlarımızda separatçılığa son qoyulub. Regionda sülh bərqərar olunmalı və Cənubi Qafqaz ölkələri arasında konstruktiv əməkdaşlığa

**AZƏRTAC**
**2023, 3 oktyabr**

## Zəngilanda Azərbaycanla İran arasında avtomobil körpüsünün təməlqoyma mərasimi keçirilib

Oktyabrın 6-da Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu” çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib və tikinti işlərinə başlanılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə Baş nazirinin müavini, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev və İranın yol və şəhərsalma naziri, Komissiyanın İran tərəfdən həmsədri Mehrdad Bəzrpaş iştirak ediblər.

Araz çayı üzərindən tikintisi başlanılan körpünün koordinatları və texniki parametrləri, körpüyə yaxınlaşma yolu layihəsi, ərazidə yaradılacaq müvafiq sərhəd-gömrük məntəqəsinin göstəriciləri, çayın əvvəlki məcrasına qaytarılma məqsədilə görüləcək sahilbərkitmə və məcratəmizləmə tədbirləri və İran ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında inşa ediləcək yeni dəmiryolu xətti və körpülərinin planları barədə aidiyyəti dövlət qurumları tərəfindən Şahin Mustafayevə və Mehrdad Bəzrpaşa ətraflı məlumat verilib.

Həmsədrlər avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun göstəricilərinin ölkələrin ərazisindən keçən tranzit yükdaşımalarının artımına və Naxçıvan Muxtar Respublikasına gediş-gəlişin asanlaşdırılmasına xidmət göstərəcəyini xüsusi qeyd ediblər. Belə ki, 7 gediş-gəliş xətləri olacaq dövlət sərhədindən buraxılış məntəqəsinin, eləcə də avtomobil körpüsünün gündəlik qəbul edə biləcək yük-nəqliyyat vasitələrinin sayı ən azı 1100 təşkil edəcək.

**AZƏRTAC**
**2023, 6 oktyabr**

**“Beynəlxalq nəqliyyat-logistika dəhlizi: Zəngilandan inkişaf impulsları” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçiriləcək**

Noyabrın 16-17-də Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi və Elm və Təhsil Nazirliyinin (ETN) İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə “Beynəlxalq nəqliyyat-logistika dəhlizi: Zəngilandan inkişaf impulsları” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçiriləcək.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, konfransda beynəlxalq nəqliyyat dəhlizlərinin Avrasiya kontinentində iqtisadi inkişafa təsiri, Zəngəzur dəhlizinin açılması və mövcud nəqliyyat sistemlərinə inteqrasiyası, bu sistemlərin inkişaf etdirilməsi və rəqəmsallaşdırılması, dəhliz boyu ölkələrdə innovativ gömrük mexanizmlərinin tətbiqi problemləri müzakirə olunacaq.

Konfransda yerli və xarici dövlət qurumlarının, beynəlxalq təşkilatların, beyin mərkəzlərinin əməkdaşları, alimlər, beynəlxalq nəqliyyat şirkətlərinin rəhbərləri iştirak edəcəklər.

Konfrans noyabrın 16-da Zəngilan Konqres Mərkəzində (Zəngilan şəhəri) və 17-də “Baku Marriott Boulevard” otelində (Bakı şəhəri) əyani formada keçiriləcək. Məruzə və müzakirələrin internet üzərindən açıq izlənməsi imkanı təmin ediləcək.

**AZƏRTAC**
**2023, 11 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olublar**
*(23 dekabr 2020-ci il)*

Xəbər verdiyimiz kimi, dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, Qubadlıya gedən yolda avtomobili özü idarə edən Prezident **İlham Əliyev** dedi:

-Cəbrayıl rayonunun ərazisindəyik. Azad edilmiş torpaqlardayıq. Sağ tərəfdə ermənilər tərəfindən dağıdılmış kəndlərimizdir. Gedirik Qubadlı rayonuna.

Dağıdılmış üzüm bağları. Bütün kəndlər dağıdılıb. Yolun sol və sağ tərəflərində olan dirəklər torpaqlar işğaldan azad olunandan sonra qısa müddət ərzində qoyulmuşdur.

Bütün kəndlər dağıdılıb. Düşmən bu cinayətlərə görə cavab verəcək. Bütün kəndlərimiz, tarixi abidələrimiz, dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Bütün dünya bunu görməlidir.

Sovet vaxtından qalan abidə. İkinci Dünya müharibəsinə həsr edilmiş abidədir. Onu da dağıdıblar.

Növbəti dağıdılmış kənd.

**Birinci xanım Mehriban Əliyeva**: Kəndin adı nədir?

**Prezident İlham Əliyev:** Göyərçin Veysəlli kəndi. Erməni faşistlər tərəfindən dağıdılıb. Heç İkinci Dünya müharibəsi zamanı faşistlər belə vəhşilik törətməyib. Görün, biz hansı vəhşi düşmənlə üz-üzə idik, biz hansı şər qüvvələri məğlub etdik?! Bölgəmizi, Qafqazı faşistlərdən azad etdik. Bütün bu kəndləri bərpa edəcəyik. Ancaq, ilk növbədə, bütün kəndlər, o dağıntılar sənədləşdiriləcək, uçota alınacaq.

Zəngilan rayonunun ərazisindən keçirik.

Babaylı kəndi. Bu da dağıdılıb.

Bir dənə də salamat bina yoxdur. Baxın, bütün binalar dağıdılıb. Köhnə qəbiristanlıq.

Zəngilan rayonunun gözəl mənzərəsi, səfalı məkan. Hamısını bərpa edəcəyik. Bu da Üçüncü Ağalı kəndi. Görünür burada ermənilər yaşayıblar. Amma görün nə gündə yaşayıblar. Mən deyəndə ki, işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, budur bunun sübutu. Bizim kəndimizə gəliblər, kəndimizin böyük hissəsini dağıdıblar.

Ermənilərin zəbt etdikləri evlərimiz. İndi Üçüncü Ağalı kəndinin sakinləri yəqin ki, tanıyar bu ev kimindir. Gələsən, başqasının torpağını zəbt edəsən, insanları evsiz-eşiksiz qoyasan, onların evində yaşayasan, xarabalığa çevirəsən, sonra da deyəsən ki, bu, qədim erməni torpağıdır. Saxtakarlar, oğrular, yalançılar, vəhşilər bizim torpaqlarımızı 30 ilə yaxın müddət ərzində işğal altında saxlayıblar. Bütün bu videosənədlər hüquqi müstəvidə bizim təzminat davamız üçün əşyayi-dəlil olacaq.

Birinci Ağalı kəndi. Bura da dağıdılıb. Amma bəzi evlər qalıb. Ermənilər bizim evlərimizdə yaşayıblar. Bundan sonra özümüz yaşayacağıq öz evlərimizdə. Onlar da getsinlər öz vətənlərində yaşasınlar.

Seləli kəndi. Bu kənd də dağıdılıb. Görün nə günə qoyublar. Mən hələ müharibədən əvvəl deyirdim ki, bizim bütün kəndlərimiz, şəhərlərimiz talan edilib. Ermənilər dam örtüklərini, pəncərə çərçivələrini, hər şeyi aparıblar. Açıq-aşkar oğurluq ediblər, bizim torpaqlarımızı istismar ediblər.

Evin yarısını söküb, o biri tərəfdə yaşayıb. Baxın, nə günə qoyublar. Talançılar!

Vəhşi düşmən keçib bu torpaqlardan, dağıdıb ki, heç vaxt Azərbaycan əhalisi buraya qayıtmasın. İnşallah, hamımız qayıdacağıq. Hər şey dağıdılıb.

**Birinci xanım Mehriban Əliyeva:** Yəqin ora hərbi hissədir.

**Prezident İlham Əliyev:** Orada artıq Azərbaycan bayrağı ucaldılıb. Hərbi hissələr tikiblər ki, torpaqlarımızı əbədi işğal altında saxlasınlar, amma rədd etdik onları, qovduq torpaqlarımızdan. Torpaqların sahibləri qayıdır.

Baxın, ağacları necə qırıblar. Baxın, vəhşi düşmən neyləyib, bütün ağacları kəsib. Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər açın gözlərinizi, baxın. Sizin parlamentləriniz qətnamələr qəbul edib. Bizim üçün o qətnamələrin heç bir əhəmiyyəti yoxdur, bir kağız parçasıdır. Amma iş ondadır ki, bizə qarşı yenə əsassız ittihamlar irəli sürülür. Fransa parlamentinin deputatları, Belçika, Hollandiya parlamentlərinin deputatları, baxın, sizin sevimli ermənilər nələr ediblər bu torpaqlarda? Açın xəritəyə

baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr. Azərbaycanı ittiham edirlər.

Qubadlının Xanlıq kəndi. Xanlıq kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Ermənilər bizim bu tarixi, qədim kəndimizə eybəcər ad veriblər. Xanlıq kəndi Qubadlı rayonunun ərazisində yerləşir. Biz indi Qubadlı rayonunun ərazisindəyik. Ermənilər Xanlıq kəndində özləri üçün hərbi istehkam, hərbi baza qurmuşdular. Xanlıq kəndində qanunsuz məskunlaşma aparılmışdı. Xaricdən gətirilən ermənilər burada qanunsuz yollarla yerləşdirilmişdilər. Bu da hərbi cinayət sayılır. Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Baxın, xaricdən gələn ermənilər üçün xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salınıb.

Kənd təsərrüfatı texnikası. XX əsrin 50-ci illərində istehsal olunub. Xaricdə yaşayan ermənilər cinayət törədiblər. Xaricdən erməniləri gətirib bizim torpaqlarımızda məskunlaşdırıblar. Xanlıq qəsəbəsində azərbaycanlıların evlərini söküb sonra ermənilər üçün evlər tikiblər. Bu da ermənilərin maşını. Bax, bu maşınları sürürdülər onlar. Bu da bizim qəhrəman əsgərlərimizin adları. Öz adlarını yazıblar bu evlərin üzərində. Biləsuvar, Şabran, Sabirabad, Şuşa, Oğuz. Bax, qanunsuz məskunlaşmaya cavab budur. Bu da ermənilərin növbəti maşınları, baxın.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəldilər, burada hərbçilərlə görüşdülər.

**Prezident İlham Əliyev:** Salam uşaqlar.

**Əsgərlər**: Sağ olun!

**Prezident İlham Əliyev**: Nə var, nə yox, necəsiniz?

**Əsgərlər:** Çox sağ olun!

**Prezident İlham Əliyev:** Xidmət necə keçir?

**Əsgərlər**: Əla. Hər şey yaxşıdır.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Bu, ermənilərin bizim qədim kəndimizdə saldığı bir qəsəbədir. Bizim evlərimizi söküb, ondan sonra da xaricdən gələn ermənilərin pulu ilə bu qəsəbə salınıb. İndi biz burada yaşayırıq. Siz burada məskunlaşmısınız, xidmət göstərirsiniz. Biz öz doğma torpaqlarımıza qayıtmışıq. Bu torpaqları döyüş meydanında azad etmişik. Düşməni öz torpaqlarımızdan qovmuşuq, bax, sizin kimi əsgərlərin sayəsində. Bütün dünya gördü ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti nəyə qadirdir.

Gəlin uşaqlar, gəlin.

**Əsgərlər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Xoş gördük. Bu, bizim qədim torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb.

**Əsgər:** Ay maşallah, igiddir, əsl igid.

**Prezident İlham Əliyev:** Salam, salam. Sonra şəkil çəkdirək.

Döyüş meydanında gücümüzü göstərdik. Erməniləri torpaqlarımızdan qovduq. Azərbaycan bayrağını torpaqlarımızda ucaltdıq. Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdik, döyüş meydanında, danışıqlar yolu ilə yox. Bizim başımızı aldadırdılar. Bu 27 il ərzində ermənilər burada özləri üçün qəsəbə salıblar, xaricdən erməniləri gətiriblər. Xanlıq qəsəbəsinə bir eybəcər erməni adı veriblər.

**Əsgərlər**: “Onları iti qovan kimi qovduq” sözləriniz şüarımızdır.

**Prezident İlham Əliyev:** Gördülər bizim gücümüzü. Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli.

**Əsgərlər:** Var olun, var olun, var olsun Azərbaycan! Allah Sizi bizim başımızın üstündən əskik etməsin!

**Prezident İlham Əliyev:** Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi. Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.

**Əsgərlər:** Sizin başçılığınız və iradəniz sayəsində.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Əsgərlər**: Biz sizinlə fəxr edirik. Yaşasın Azərbaycan!

**Prezident İlham Əliyev:** Yaşasın Azərbaycan əsgəri!

**Əsgərlər:** Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev:** Gəlin, şəkil çəkdirək.

**Əsgər**: Ad gününüz mübarək, yüz yaşayın, Allah ömrünüzü uzun eləsin!

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşdülər.

**Prezident İlham Əliyev:** Qubadlı rayonunun ərazisindən iki böyük çay keçir: Həkəri çayı və Bazarçay. Onlardan biri də budur, baxın. Çox güman ki, bu, Həkəri çayıdır. Bura isə Aşağı Mollu kəndidir. Şəhidimiz Əsgərov Rüfətin şəkli. Allah rəhmət eləsin! Bütün şəhidlərimizə Allah rəhmət eləsin!

**Birinci xanım Mehriban Əliyeva:** Allah rəhmət eləsin!

**Prezident İlham Əliyev**: Qubadlı rayonunun gözəl mənzərəsi. Yenə də dağıdılmış kənd. Hər şeyi yenidən quracağıq, yolları da, bütün infrastrukturu da. Gözəl mənzərədir.

Bu da yəqin ki, Bazarçaydır. Çünki Qubadlının bir tərəfindən Həkəri çayı axır, digər tərəfindən Bazarçay, bax, buradan görünür. Ona Bərgüşad çayı da deyirlər. Qəzyan kəndi. Bax, ermənicə nəsə yazıblar orada. Bunu sökmək lazımdır, gəlin sökün.

Diləlimüskənli kəndi. Bu kənd də dağıdılıb. Bütün evlər dağıdılıb. Bir-iki ev qalıb, orada da düşmən yaşayıb. Bu da Saray kəndidir. Saray kəndi Qubadlı şəhərinin yaxınlığında yerləşir. Bu kənd də dağıdılıb.

Baxın, Qubadlı şəhərini düşmən nə günə qoyub. Bütün binalar dağıdılıb. Ancaq özləri üçün hərbi hissə tikiblər. Bu da Qubadlı şəhəri. Bu, yəqin ki, onların anbarları olub. Bu ev də sökülüb. Qubadlı şəhərinin girəcəyində ermənilər hərbi baza tikiblər. Gün də çıxdı. Təbiət də bizi alqışlayır, salamlayır. Sahibləri gəlib bu torpağa. Gör nə gündədir Qubadlı şəhəri? Nə günə qoyub düşmən bizim şəhərimizi?

Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı.

Dövlətimizin başçısı burada çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidova mən Milli Qəhrəman adını Aprel döyüşlərindən sonra verdim, göstərdiyi qəhrəmanlığa görə. Allah ona rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan hərbçiləri, o cümlədən Şükür Həmidov dövlət tərəfindən yüksək döyüş ordenləri ilə təltif edilmişdir.

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, bizim növbəti istiqamətimiz Qubadlı rayonu idi və şəhərdə ermənilər güclü istehkam qurmuşdular. İndi şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar dağıdılıb, sökülüb və yol boyunca Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bütün kəndləri, qəsəbələri dağıdılıb. Ancaq burada, şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdirilib. Bu, özlüyündə hərbi cinayətdir. Bu cinayətə və bütün digər cinayətlərə görə Ermənistan dövləti cavab verəcəkdir.

Qubadlını azad etmək üçün, ilk növbədə, biz bu yüksəklikləri götürməli idik. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Eyni zamanda, Ermənistan ərazisindən bizə atəş açılırdı. Nəzərə alsaq ki, Azərbaycan Ermənistan ərazisinə keçmək fikrində deyildi və mən bunu müharibə zamanı dəfələrlə bildirmişdim. Onlar hesab edirdilər ki, bu imkanlardan istifadə edib, bizim hücumumuzun qarşısını ala bilərlər. Buradan, Qubadlı şəhərindən Ermənistan sərhədinə, bax, o istiqamətdən 5 kilometr məsafədir. Həm oradan ağır artilleriya ilə, həm də bu yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək bizim əsgərlərimizi, hərbçilərimizi atəşə tutmuşlar. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər.

Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim

tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi - gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda, strateji yüksəkliklər ələ keçiriləndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün.

Düşmən bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya gedəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Biz Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığnaq, Çanaxçı və Daşaltı kəndini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu.

Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat – bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət göstərir. Bu da böyük nailiyyətdir. Biz mütləq o bölgələri də, o rayonları da döyüşərək alacaqdıq. Amma çox itkilər verə bilərdik, xüsusilə Ağdam istiqamətində, hər tərəf minalanmışdı və bir neçə müdafiə xətti var idi. Eyni zamanda, xüsusilə hava şəraitini nəzərə alsaq, Kəlbəcər, Laçın rayonlarının döyüşlə azad edilməsi də böyük itkilərə gətirib çıxaracaqdı. Artıq qış başlamışdı, yolları buz bağlamışdı. Kəlbəcərə Göygöl rayonundan keçmək üçün saatlarla vaxt lazımdır.

Ona görə noyabrın 10-da imzalanmış Bəyanatın çox böyük əhəmiyyəti var. Təbii ki, əgər biz o günə qədər böyük ərazini işğalçılardan azad etməsəydik, düşmənin belini qırmasaydıq, düşmən ordusunun məhv edilməsində istədiyimizə nail olmasaydıq, əlbəttə, düşmən onun üçün bu alçaldıcı sənədə qol

qoymazdı. Biz onu məcbur etdik, torpaqlarımızdan qovduq və mən verdiyim sözə həmişə olduğu kimi sadiq qaldım. Müharibənin ilk günlərindən demişdim, Ermənistan rəhbərliyi açıq-aşkar bəyan etməlidir ki, nə vaxt, hansı tarixdə bizim torpaqlarımızdan çıxır. Tarix verməlidir bizə. Əgər bu olarsa, biz müharibəni dayandırarıq. Amma bizə tarix verilmədi. Çalışırdılar ki, müxtəlif yollarla xarici ölkələri bu işlərə qoşaraq öz çirkin əməllərini davam etdirsinlər, işğalı davam etdirsinlər. Əgər Ermənistan rəhbərliyi o vaxt mənim sözümə baxıb düzgün addım atsaydı, belə alçaldıcı vəziyyətə düşməzdi. Mən demişdim ki, axıra qədər gedəcəyik və axıra qədər də getdik, lazım olan anda dayandıq, üç rayonu bir güllə atmadan, bir itki vermədən qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, bax, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub, bizim qabağımızda diz çöküb və düzgün nəticə çıxarmalıdır. Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar.

Biz öz istəyimizə nail olduq. Dekabrın 10-da Zəfər paradı keçirildi. Zəfər paradında biz düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasını nümayiş etdirdik və öz hərbi potensialımızı nümayiş etdirdik. Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. İndi gələn ilin büdcəsi müzakirə olunur. Mənim təşəbbüsümlə hərbi xərclər artırılır. İlk növbədə, ona görə ki, müharibə zamanı biz bir çox silah-sursatdan istifadə etdik, onları bərpa etmək lazımdır. Eyni zamanda, müasir texnikanın bundan sonra da alınması nəzərdə tutulur. Bundan sonra da ordumuzun müasirləşdirilməsi, ordumuzun döyüş potensialı, ordumuzun peşəkarlığı daim diqqət mərkəzində olacaqdır.

Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır. Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik.

Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanır, bütün dəymiş ziyan hesablanacaq. Bizim torpaqlarımız istismar edilirdi, təbii ehtiyatlarımız istismar edilirdi. Zəngilan rayonunda qızıl yatağı istismar edilirdi. Azad edilmiş digər ərazilərdə də, həmçinin. Bütün bunların hesabını Ermənistan dövləti verəcək. Bununla paralel olaraq bütün bərpa işləri təmin ediləcək və biz bütün şəhər və qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik, insanlar buraya qayıdacaq və biz öz torpağımızda bundan sonra əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi öz torpağımızdan çıxara bilməz.

Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!

**x x x**

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşdülər.

**Prezident İlham Əliyev**: Zəngilan. Zəngilan şəhərinə az qalıb.

Düşmən Zəngilanda da hər şeyi dağıdıb. Baxın, dağılmış evlər. Baxın, bu evi nə günə qoyublar.

Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaltdı.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəldilər.

Məscidin qarşısında çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib.

Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz ermənliləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl, gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu “dost ölkəyə” 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan “beynəlxalq məmurlar” öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.

**x x x**

**Prezident İlham Əliyev:** İndi isə Zəngilandan Bakıya qayıdırıq. Yolboyu Zəngilanın gözəl təbiətini seyr edirik. Görün, necə gözəl yerlərdir. Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, İnşallah.

İndi istiqamət Bakı şəhəridir. Çəkilişi aparan Mehriban xanıma da təşəkkürümü bildirirəm. Xahiş edirəm özünü də çəksin.

**Birinci xanım Mehriban Əliyeva:** Dərin hörmət və məhəbbətlə sizin Mehriban.

**Prezident İlham Əliyev:** Sağ olun, əziz bacı və qardaşlar. Qarabağ Azərbaycandır!

**AZƏRTAC**
**2020, 24 dekabr**

**İşğaldan azad olunan Bəsitçay Dövlət Təbiət Qoruğu füsunkar gözəlliyinə qovuşur**

Bəsitçay Dövlət Təbiət Qoruğu Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə 1974-cü ildə yaradılıb. Qoruq Azərbaycanın cənub-qərbində, Zəngilan rayonu ərazisində Bəsitçayın dərəsində yerləşir. Qoruq müvafiq ərazinin landşaft kompleksini, xüsusilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qoruğun adı dərəsində yerləşdiyi çayın adı ilə bağlıdır. Bəsitçay respublika qoruqlarının ən kiçiyidir və sahəsi 107 hektardır. Meşə ilə örtülü sahənin əsas ağac cinsi Şərq çinarıdır. Qoruğun yerləşdiyi ərazi əsasən dağlıq olub, dəniz səviyyəsindən hündürlüyü 600-800 metrə qədərdir. Sağ sahil dik yamaclı dağlardan, sol sahil isə təpəliklərdən ibarətdir. Çay dərəsi boyunca ensiz allüvial düzənlik uzanır. Buradakı dağlar Bəsitçayın qolları ilə xeyli parçalanıb. Qoruq ərazisi qışı quraq keçən mülayim-isti iqlim tipinə aiddir. Yayının isti olması səciyyəvidir. İllik yağıntının miqdarı 600 mm-dir.

Ərazinin iqlim şəraiti çinar meşəliyinin təbii bərpası və inkişafı üçün çox əlverişlidir. Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində əsasən allüvial-meşə torpaqları yayılıb. Çay dərələrinin yamaclarında, qoruğun ətraf sahələrində qəhvəyi dağ-meşə torpaqları inkişaf edib. Çayın yatağı boyu və kiçik terraslarda inkişaf etmiş allüvial torpaqlar əsasən çinar meşələri altındadır. Burada daşlı-çınqıllı ərazilər də müəyyən sahəni tutur. Bunların hamısında çinar bitir və inkişaf edir.

Bəsitçay Dövlət Təbiət Qoruğunun 100 hektarı çinar meşələri olub. Onlar Bəsitçayın və onun qolu Şıxauzçayın dərəsində yerləşib. Burada həm təmiz, həm də qarışıq çinar meşəliyi yayılıb. Qarışıq çinarlıqlarda qoz, dağdağan, tut, söyüd, qovaq və digər ağaclar, yemişan, itburnu, murdarça, qaratikan və sair kollar bitir. Qoruqdakı çinar ağaclarının orta yaşı 165 il, orta hündürlüyü 35 metr, orta diametri isə 1 metrdir. Qoruğun ətraf sahələrində, bəzən də özündə canavar, çöl donuzu, porsuq, cüyür, dovşan, müxtəlif gəmiricilər və sair məməlilərə, kəklik, turac, göyərçin və digər quşlara rast gəlinib.

Otuz ilə yaxın müddət ərzində erməni təcavüzkarlarının işğal altında saxladığı qoruq ciddi ekosidə məruz qalıb. Bəsitçay Dövlət Təbiət Qoruğu işğaldan azad edildikdən sonra ölkə rəhbərinin sərəncamı ilə bərpa edilməyə başlanılıb. Mövcud vəziyyətin qiymətləndirilməsi üçün işğaldan azad olunmuş ərazilərə ezam olunan monitorinq qrupunun araşdırmalarına əsasən məlum olub ki, erməni vandalizmi nəticəsində qoruğa aid olan 85 hektar meşə ilə örtülü sahənin 42 hektardan çox hissəsi tamamilə məhv edilib. Çoxyaşlı Şərq çinarı ağacları kəsilib, köklərinin itirilməsi üçün müxtəlif partladıcı maddələrdən istifadə edilib, ərazidə yanğınlar törədilib və Qoruğun inzibati binası dağıdılıb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 11 oktyabr**

**Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl və Laçında yerquruluşu işləri yekunlaşaraq kadastr sisteminə miqrasiya olunub**

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə dövlət torpaq kadastr uçotu işləri davam etdirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

Nazir bildirib ki, yerquruluşu işləri çərçivəsində indiyədək 718.406,5 hektar ərazidə çöl ölçmə işləri aparılıb. Zəngilan (70.860 hektar), Qubadlı (79.876 hektar), Kəlbəcər (195.406 hektar), Cəbrayıl (104.936,5 hektar) və Laçın (177.417 hektar) rayonları üzrə işlər yekunlaşdırılaraq müvafiq kadastr sisteminə miqrasiya olunub, Füzuli (45.636 hektar) və Ağdam (44.275 hektar) rayonları üzrə isə işlər aparılır.

**AZƏRTAC**
**2023, 18 oktyabr**

## Bu gün Zəngilan Şəhəri Günüdür

### Zəngilanın işğaldan azad olunması Qarabağ düyününün açılmasında həlledici oldu




Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olunub və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Vətən müharibəsinin 24-cü günü - 2020-ci il oktyabrın 20-si hərb tariximizə Zəngilan şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi həkk olunub. Dövlətimizin başçısı 2023-cü il iyulun 31-də imzaladığı müvafiq Sərəncama əsasən şəhərin işğaldan azad edildiyi 20 oktyabr tarixi Zəngilan Şəhəri Günü kimi qeyd olunur. Sərəncam işğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyır.



AZƏRTAC Zəngilan şəhəri ilə bağlı bəzi qeydlərini təqdim edir.

Xatırladaq ki, Zəngilan rayonu Ermənistan və ona dəstək verən dövlətlər tərəfindən 1993-cü il oktyabrın 29-da işğal olunub. İyirmi yeddi illik işğal dövründə erməni cinayətlərinə şahidlik edən rayon tamamilə dağıdılıb, zəngin təbii ehtiyatlarını ermənilər talayaraq xarici ölkələrə daşıyıb.



Bir vaxtlar 29 oktyabr tarixi Azərbaycanın dilbər guşələrindən olan Zəngilan rayonunun işğal günü kimi qeyd olunurdu. Artıq həmin günlər geridə qaldı. 27 ildən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz Vətən müharibəsində yeni tarix yazıb. İkinci Qarabağ müharibəsində Zəngilan rayonunun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə Ordumuz aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində üç il əvvəl oktyabrın 20-də Zəngilanı işğaldan azad etməyə nail olub. 2020-ci il dekabrın 23-də isə Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaldıb.

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Zəngilan şəhəri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri işğaldan azad edilib. 44 günlük Zəfər yürüşündə hər gün qələbə xəbərləri gəlirdi. Prezident İlham Əliyev bu xoş xəbərlərdən birini də 2020-ci il oktyabrın 20-də xalqa çatdırdı: “Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Əziz xalqım, əziz zəngilanlılar, füzulililər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!”



İran və Ermənistanla həmsərhəd olan Zəngilan strateji cəhətdən vacib əhəmiyyət kəsb edir. Rayon rəşadətli Ordumuz tərəfindən işğaldan azad edildikdən sonra Azərbaycanın Zəngəzur bölgəsinə nəzarət imkanları yaranıb. Bu da gələcək perspektivlər baxımından önəmlidir. Həmçinin Ağbənd qəsəbəsi və Vejnəli yüksəkliyinin düşməndən təmizlənməsi ilə Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsi bərpa edilib. Dövlət sərhədi nəzarətə götürülməklə Ermənistana gətirilən hərbi yüklərin qarşısı alınıb. Bundan başqa, Qubadlı istiqamətindən gələ biləcək erməni qüvvələrinin mühasirəyə salınması və qısa zamanda təmizlənməsi asanlaşıb. Ermənistanın işğalına davam etməsi üçün İrəvan-Gorus-Laçın-Şuşa-Xankəndi yolu əhəmiyyətli idi. Zəngilanın işğaldan azad edilməsi ilə bu yolun əsas hissəsi Ordumuzun nəzarətinə keçdi, eyni zamanda, Qarabağ düyününün açılmasında həlledici oldu. Zəngilanın Bartaz, Sığırt, Şükürataz və daha beş adsız yüksəkliyinin azad olunması isə Ordumuza vizual üstünlük qazandırıb, təhlükələri önləyib.



Ordumuzun arsenalında müasir silahlar, avadanlıqlar, uçuş aparatları mövcuddur. Aydın məsələdir ki, bunun qarşısında düşmən tab gətirə bilməzdi. Bunun nəticəsi olaraq, əvvəlcə 2016-cı il Aprel hadisələrində zərbəendirici pilotsuz uçuş aparatları heyətinin yüksək peşəkarlığı nəticəsində düşmənə dəqiq və sarsıdıcı zərbələr endirildi. Vətən müharibəsində əldə olunan nailiyyətlər məhz ilk dəfə 2016-cı ildə müasir uçuş vasitələrinin tətbiqi ilə qazanılan uğurların davamı idi. Zəngilan rayonunda Bartaz yüksəkliyinin düşməndən azad edilməsi zamanı havada və döyüş meydanında üstünlüyü tam ələ alan pilotsuz uçuş aparatları sayəsində onun illər boyu güvəndiyi hərbi güc dəmir tullantısına çevrilib. Bu döyüş əməliyyatları zamanı "Harop" və "Bayraktar-TB2" PUA-larının birgə döyüş tətbiqi üzrə unikal hərbi təcrübə formalaşdırılıb.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində "Üç nöqtə" əməliyyatı xüsusilə bölmələrimizin uğuru ilə nəticələnib. Bir gün əvvəl ərazinin havadan kəşfiyyatı aparılıb, düşmən haqqında məlumat, onun yerləşmə yeri, canlı qüvvəsi, texnikası, atəş mövqeləri dəqiqləşdirilərək müvafiq qərarların qəbul olunması üçün komanda məntəqəsində təhlil olunub. Növbəti gün gecə saatlarında kiçik çevik qruplar tərəfindən sızma əməliyyatı icra olunaraq düşmənə sarsıdıcı zərbələr endirilib və onlar geri qaçmağa məcbur olublar. Zərbəendirici pilotsuz uçuş aparatları vasitəsilə düşmən dərinliklərindəki artilleriya qurğuları, yaxınlaşmaqda olan texnika məhv edilib. İkinci Qarabağ müharibəsində bölmələrimiz tərəfindən Ağbənd qəsəbəsinin işğaldan azad olunması və dövlət bayrağımızın əraziyə sancılması hər birimiz üçün qürurvericidir. O zaman Arazboyu ərazilərdə yaşayan soydaşlarımız hərəkətlərimizi kənardan müşahidə edərək bunu alqışlarla qarşılayır, şüarlar səsləndiriblər. Onlar bu ərazilərin əsl sahiblərini gördükləri üçün çox seviniblər.

Ümumiyyətlə, "Üç nöqtə" əməliyyatının aparıldığı ərazi strateji baxımdan çox əhəmiyyətlidir. Belə ki, düşmən geri çəkilərək həmin ərazilərdə mövqelənib, Ordumuzun bölmələrinə müqavimət göstərməyə hazır idi. Həmin uğurlu əməliyyat nəticəsində Ağbənd qəsəbəsindən Vejnəli, Bartaz istiqamətinə şəxsi heyətin hərəkəti təmin olunub. Hazırda bu ərazi sərhədçilərimiz tərəfindən mətinliklə qorunur. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu istənilən tapşırığı Azərbaycan sərhədçisi hər zaman icra etməyə hazır və qadirdir.

Bölmələrimizin döyüş əməliyyatları Zəngilanın Ağalı kəndindən başlayıb. Həmin döyüşlər zamanı Azərbaycan Ordusunda vətənpərvərlik ruhu çox yüksək səviyyədə idi. Zəngilan rayonunun nəzarətimizə keçməsindən sonra bir çox yaşayış məntəqələrinin azad olunması üçün əlverişli şərait yaranıb.




Azərbaycan 44 günlük Vətən müharibəsi yekunlaşdıqdan dərhal sonra düşmən tapdağından xilas edilən ərazilərdə sürətli şəkildə yenidənqurma işlərinə başlayıb. Strateji əhəmiyyətə malik avtomobil və dəmir yollarının keçəcəyi Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanda tikilən Beynəlxalq Hava Limanının 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılış mərasimi olub. Bu Hava limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas amillərdəndir. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən 2021-ci il oktyabrın 26-da təməli qoyulan Zəngəzur dəhlizinin-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.



Bundan əlavə, Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsi həyata keçirilib. 2022-ci il mayın 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər. Beləcə, ötən il iyulun 19-da Ağalı kəndinə əhalinin köçürülməsinə başlanıb. Böyük Qayıdışın da başlanğıcı olan bu proses tariximizdə çox yaddaqalan hadisə olub.



Qeyd edək ki, Zəngilan rayonunun azad olunmasında iştirak etmiş əsgər və zabitlərimizin igidliyini dövlətimiz yüksək qiymətləndirib. Zəngilanda və rayonun strateji yerlərində aparılan döyüş əməliyyatlarında tarixi Qələbəyə imza atan Dövlət Sərhəd Xidmətinin və Müdafiə Nazirliyinin hərbi qulluqçuları Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə görə medallarla təltif ediliblər.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılıb. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın, Füzuli şəhərlərinə məcburi köçkünlərin qayıdışı təmin olunub.

Azad olunan ərazilərdə hazırda bərpa-quruculuq işlərinin aparılması sakinləri sevindirir. Artıq Zəngilanda bir çox yenidənqurma işləri görülüb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə Zəngilanın "Ağıllı kənd"ində müasir, yeni evlər inşa olunub. Kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Keçmiş məcburi köçkünlərin öz yurd-yuvalarına qayıdışını, həyata keçirilən infrastruktur layihələrini görəndə hər birimizdə qürur hissi yaradır.



**AZƏRTAC**
**2023, 20 oktyabr**

**Zəngilan Şəhəri Gününü böyük fəxarət hissi ilə qeyd edirik – AÇIQLAMA**

Bu gün Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də başladığı əks-hücum nəticəsində işğaldan azad olunmuş Zəngilan Şəhəri Günüdür. Hazırda böyük fəxarət hissi ilə üç il əvvəl oktyabrın 20-də Zəngilanın düşmən işğalından xilas olunması gününü qeyd edirik.

Bunu AZƏRTAC-a hərbi jurnalist, ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov deyib.

Hərbi jurnalist bildirib ki, bizim qəhrəman övladlarımız sentyabrın 27-dən başladıqları döyüş əməliyyatlarının miqyasını genişləndirərək, Vətən müharibəsinin 24-cü günü Zəngilan rayonu ərazisinə daxil oldular. Həmin ərazidən mənfur düşmən ordusunu geri çəkilməyə məcbur etdilər. Oktyabrın 20-də Zəngilan rayonunun bir neçə yaşayış məntəqəsi işğaldan azad olundu və bunu Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı öz tviter səhifəsində xalqa müraciətində elan etdi.

Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində Zəngilan rayonu ərazisinə ordumuzun daxil olması məlumatını çatdıraraq demişdi: “Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Əziz xalqım, əziz zəngilanlılar, füzulililər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq!

Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!”

Ekspertin sözlərinə görə, Silahlı Qüvvələrimiz Zəngilanı azad edərkən ermənilərə çox ağır zərbə vurdu və düşmən xeyli canlı qüvvəsini və texnikasını itirdi. Zəngilan rayonu azad olunmaqla Ordumuz Ermənistanla sərhədə çıxdı. Həmin vaxtdan sonra rayonun azad olunmasında iştirak edən qəhrəman əsgərlərimizə “Zəngilanın azad olunmasına görə” medalı təsis olunaraq təqdim olunub.

Dövlətimizin başçısının bu ilin iyulunda imzaladığı Sərəncama əsasən şəhərin işğaldan azad edildiyi 20 oktyabr tarixi hər il Zəngilan Şəhəri Günü kimi qeyd olunur. Sərəncam işğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi Qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

“Xatırladım ki, 1993-cü il oktyabrın 29-da Ermənistan silahlı qüvvələri Zəngilan rayonunu işğal etmişdi. O vaxt hələ ordumuz kifayət qədər formalaşmamışdı. Zəngilan rayonu uzun müddət ermənilərin işğalı altında qaldı və düşmən Zəngilan şəhərini və rayonun kəndlərini viran qoydu. Orada olan müqəddəs məzarlıqları, dini və tarixi-mədəni abidələrimizi dağıtdı. Hazırda Zəngilanda dövlətimiz tərəfindən bərpa-quruculuq işləri aparılır. Orada artıq aeroport tikilib.

Bir sözlə, bu gün bizim üçün əziz və Qarabağın ayrılmaz hissəsi olan Zəngilanın azad olunması günüdür. Qarabağ müharibəsinin iştirakçısı kimi Zəngilandan olan müqəddəs şəhidlərin ruhu qarşısında baş əyirəm. Yəni, nə qədər ki, Azərbaycan var, qoy Zəngilanda və digər işğaldan azad olunmuş ərazilərimizdə dalğalanan bayrağımız, eləcə də ölkəmizin suverenliyi, ərazi bütövlüyü daim və əbədi olsun”, - deyə ehtiyatda olan polkovnik vurğulayıb.

**AZƏRTAC**
**2023, 20 oktyabr**

**Zəngilanlılar bu gün sevinclə evlərinə qayıdırlar**

“Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli Fərmanında Zəngilan rayonu Şərqi Zəngəzur iqtisadi rayonuna daxil edilib. Zəngilan rayonunun ərazisi Oxçu çayının sahilində, dağ ətəyindədir. Kiçik Qafqaz dağ silsiləsinin cənub-şərqində, Araz çayının hər iki sol sahilində yerləşir. Qərbdə və şimal-qərbdə Qərbi Zəngəzurla, cənubda və cənub-şərqdə İran İslam Respublikasının Şərqi Azərbaycan ostanı ilə həmsərhəddir. Zəngilan rayonunun ərazisi orta və aşağı dağlıq sahədə yerləşir, mürəkkəb və parçalanmış səth quruluşuna malikdir. Rayon ərazisindən Araz, Oxçuçay, Həkəri, Bəsitçay çayları keçir. Həkəri və Oxçu çayları rayonun cənub və şərq sərhədindən axan Araz hövzəsinə aiddir. Bəsitçayın dərəsində nadir çinar meşəsi (Bəsitçay qoruğu) mövcud olub.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycan Tarixi şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru dosent Alı Balayev söyləyib. Bildirib ki, Zəngilanın bir yaşayış məntəqəsi kimi təqribən 1400 ilə yaxın yaşı var. XX əsrin 60-70-ci illərində təsərrüfat işləri zamanı rayonun ərazisində tapılan küp qəbirlər (küp qəbirlər Şimali Azərbaycanda eramızdan əvvəl II əsrdən eramızın əvvəllərinə kimi mövcud olub) və eramızdan əvvəl IV-II əsrlərə aid edilən və əksəriyyəti Makedoniyalı İsgəndərin adına zərb olunan onlarla sikkə ərazinin lap qədim zamanlardan beynəlxalq ticarətdə mühüm rol oynadığından xəbər verir: “XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası Hicri tarixin 15-ci ilində, yəni 636-cı ildə qoyulub. Zəngilan rayonunun ərazisi müxtəlif dövrlərdə ayrı-ayrı inzibati ərazi dəyişikliklərinə məruz qalıb. Çar Rusiyasının işğalınadək bölgə ərazisinin Bəsitçaydan qərbə tərəf hissəsi Naxçıvan, şərqə tərəf hissəsi isə Qarabağ xanlığının tərkibində idi. XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra aparılan ərazi-inzibati bölgüsü nəticəsində 1868-ci ildə Yelizavetpol (Gəncə) quberniyası, quberniyanın tərkibində Şuşa, Yelizavetpol (Gəncə) və Zəngəzur qəzaları yaradıldı. Yeni bölgüyə əsasən Zəngilan rayonunun ərazisi Zəngəzur qəzasına daxil edildi.

1925-ci ilə aid sənədlərdə Zəngilan bölgəsi Cəbrayıl qəzası tərkibində göstərilir. 1929-cu ildə Zəngilan rayonunun Nüvədi, Tuğut, Ernəzir kəndləri, 1946-cı ildə isə 4 min hektar meşə sahəsi Azərbaycan SSR-dən alınıb Ermənistan SSR-ə verilib.

Zəngilan rayonu 1930-cu ildə təşkil edilib, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1931-ci il 24 noyabr tarixli Qərarı ilə Qubadlı rayonu 18 kənd sovetliyi ilə birlikdə Zəngilan rayonu ərazisinə daxil edilib. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1933-cü il 14 mart tarixli Qərarı ilə Qubadlı rayonu bərpa edilib və 18 kənd sovetliyi Zəngilan rayonundan alınaraq Qubadlı rayonuna birləşdirilib. Rayon mərkəzi 1957-ci ilədək Pirçivan adlanıb, 1967-ci ildən onun adı dəyişdirilərək Zəngilan şəhəri adlandırılıb. İri yaşayış məntəqələri Zəngilan şəhəri və şəhər tipli Mincivan qəsəbəsidir. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 1963-cü il 4 yanvar tarixli qərarı əsasında Qubadlı rayonu ləğv edilib və ərazisi Zəngilan rayonunun tərkibinə verilib. Lakin bu ləğv olunmadan qısa bir müddət sonra Qubadlı rayonu yenidən bərpa olunub".

Alı Balayev Zəngilanın müharibə alovunun qasırğasını 1990-cı ildən daha tez-tez hiss etməyə başladığını söyləyib: “Ermənilər dəmir yolunu bağlayaraq, qatarları saxlayır, azərbaycanlıları girov götürürdülər. 1992-ci ilin əvvəlindən isə rayonun sərhəd kəndləri döyüş zonasına çevrilmişdi. 1992-ci il yanvar ayının sonunda Ermənistan silahlı qüvvələrinin Zəngilana mütəşəkkil hücumları başlayır. Fevralın 1-də erməni quldurları Günqışlaq, Qazançı, Dərəli və Vejnəli kəndlərinə basqın edirlər. Aprelin 9-da Ermənistan silahlı birləşmələri Qazançı, Seyidlər, Dərəli, Ağkənd, Pirveys, Günqışlaq kəndlərinə soxulur. İki həftə sonra Qazançı və Dərəli kəndləri azad edilsə də, Seyidlər kəndi mühasirədə qalır. Növbəti hücum iyunun 29-da başlayır, iyulun 6-da düşmən rayon mərkəzini atəşə tutur. Qısa fasilədən sonra oktyabrın 20-də ermənilərin döyüş təyyarələri rayon mərkəzini bombalayır. Dekabrın 10-da Seyidlər kəndi yenidən ermənilər tərəfindən işğal olunur. Beləliklə 1992-ci ilin sonunda Zəngilan rayonunun 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəklikləri düşmənin əlinə keçir. Bununla da rayonun işğalının əsası qoyulur. 1993-cü ildə döyüşlər ara vermir. Yaz aylarında ermənilərin hücumları daha da intensivləşir. Martın 2-də Aşağı Gəyəli və Canbar kəndləri işğal olunur. İki gün sonra Şayıflı və ətraf kəndlərə düşmən hücumları genişlənir. Rayon mərkəzi atəş altında qalır. Belə bir şəraitdə çətinliklərə baxmayaraq mərd əhali təslim olmur, düşmən hücumları dəf edilir. İyulun 19-da Qızıldaş qəsəbəsi döyüş meydanına çevrilir. Avqustun 25-də erməni hərbi birləşmələri genişmiqyaslı hücuma keçərək, daha 5 kilometr irəliləyir. Oktyabrın sonuna yaxın rayon

tam mühasirə vəziyyətinə düşür. Oktyabrın 25-26-da Sığırt və Bartaz yüksəklikləri işğal olunur. Bununla da Zəngilan rayonunun mühasirəsi başa çatır.

Rayon işğal edilərkən Zəngilan 1 şəhər, 5 qəsəbə və 79 kənddən ibarət idi. Zəngilan rayonunun məcburi köçkünləri Bakıda və respublikamızın 43 rayonunda müvəqqəti məskunlaşırlar. 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi zamanı Zəngilan rayonundan şərqdə yerləşən Cəbrayıl rayonunda düşmən qüvvələrinə sarsıdıcı zərbə vurulması və 30-dan çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi, Azərbaycan Silahlı Qüvvələrinin Zəngilan rayonunun inzibati hüdudlarına çatmasına şərait yaratdı. 27 ildən sonra oktyabrın 20-də rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunu düşməndən azad etdi.

Hazırda işğaldan azad olunmuş Zəngilanda böyük quruculuq işləri gedir. Doğma yurd-yuvasını odun-alovun içində qoyub gələn zəngilanlılar bu gün sevinc göz yaşları ilə evlərinə qayıdırlar”.

**AZƏRTAC**
**2023, 20 oktyabr**

**Zəngilanın Ağalı kənd sakinləri aktiv məşğulluq proqramları ilə əhatə olunublar**

20 Oktyabr - Zəngilan Şəhəri Günü ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Zəngilanın Ağalı kəndinə gördüyü işlərə aid məlumat hazırlayıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Böyük Qayıdışın başlanğıcı olan Zəngilanın Ağalı kəndinə köçürülən sakinlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aktiv məşğulluq proqramları ilə əhatə olunublar. Nazirlik tərəfindən onlardan 120 nəfər ərazidəki vakansiyalar, 33 nəfər "İşsizin dostu" proqramı üzrə işlə təmin edilib, 11 nəfər üçün özünüməşğulluq proqramı üzrə kiçik təsərrüfatlar yaradılıb. 26 nəfər isə peşə hazırlığı kurslarına cəlb olunub. Hazırda daha 31 sakinin məşğulluğuna dəstək işləri aparılır.

İşğaldan azad edilmiş bölgələrimizin DOST xidmətləri ilə əhatə olunması istiqamətində ilk addım kimi 2022-ci ilin may ayında Ağalıda ilk "Smart DOST" xidmət məntəqəsi də açılıb. Ötən dövrdə bu məntəqədə 19 sakinə xidmət göstərilib.

Xatırladaq ki, dövlət başçısının 2023-cü il 31 iyul tarixli Sərəncamına əsasən 20 Oktyabr – Zəngilan Şəhəri Günü kimi qeyd edilir

**AZƏRTAC**
**2023, 20 oktyabr**

**Zəngilan Şəhəri Günündə hərbçilərin iştirakı ilə yürüş keçirilib**

20 Oktyabr – Zəngilan Şəhəri Günündə hərbçilərin iştirakı ilə yürüş təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Zəngilan Şəhidlər xiyabanı ziyarət edilərək Vətənimizin azadlığı uğrunda canından keçən əziz şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Zəngilan Şəhəri Günü münasibətilə Zəngilan Konqres Mərkəzinin qarşısında yürüş keçirilib. Yürüşdə Daxili İşlər Nazirliyinin, o cümlədən Daxili Qoşunların əməkdaşları, eləcə də Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti iştirak edib.

Düz 3 il bundan öncə Zəngilan şəhəri 44 günlük Vətən müharibəsində düşmən tapdağından azad edilib.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 20 Oktyabr – Zəngilan Şəhəri Günü kimi qeyd olunur.

**AZƏRTAC**
**2023, 20 oktyabr**

**Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 2027-ci ilədək 5 qəsəbə və 24 kəndin salınması planlaşdırılıb**

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 2022-2026-cı illər ərzində 24 kəndin tikilməsi planlaşdırılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Şərqi Zəngəzur İqtisadi rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Növrəs Cəfərov Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən "Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin Böyük Qayıdışa töhfələri" mövzusunda paneldə bildirib.

Onun sözlərinə görə, "Böyük Qayıdış"a dair 1-ci Dövlət Proqramına görə 2022-2026-cı illər ərzində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 3 şəhər mərkəzi, 5 qəsəbə və 24 kəndin salınması planlaşdırılıb.

İcraçı direktor qeyd edib ki, Böyük Qayıdışın ilk ünvanı sayılan Zəngilan rayonunun Ağalı kəndi artıq məskunlaşıb. Belə ki, kəndə 649 nəfərdən ibarət 133 ailə köçürülüb.

**AZƏRTAC**
**2023, 20 oktyabr**

**Böyük Qayıdış: Daha 95 nəfər Ağalıya yola salınıb**

Oktyabrın 26-da Abşeron rayonunun Masazır kəndindən Zəngilan rayonunun yenidən salınmış Ağalı kəndinə növbəti köç karvanı yola salınıb. Belə ki, Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 17 ailə - 95 nəfər bundan sonra doğma yurdda yaşamağa başlayacaqlar. Onlar ermənilərin işğal dövründə tamamilə dağıtdıqları 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin sakinləridir.

AZƏRTAC xəbər verir ki, bununla da indiyədək Ağalı kəndində daimi məskunlaşan ailələrin sayı 150, yəni 744 nəfərə çatacaq. Kəndə köçürülmə davam etdiriləcək.

Ağalı sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları-şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma yolu ilə aparılıb. Püşkatma oktyabrın 20-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Repatriasiya Departamentində keçirilib.

Yolasalma mərasimində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Zəngilan Rayon İcra Hakimiyyətinin nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

**AZƏRTAC**
**2023, 26 oktyabr**

**Ağalı kəndinə köç edən ailələrə mənzillərin açarı təqdim edilib**

Oktyabrın 26-da Böyük Qayıdış Proqramı çərçivəsində Zəngilan rayonunun Ağalı kəndinə 95 nəfərdən ibarət 17 ailənin növbəti köçü baş tutub.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Bakıdan yola salınan keçmiş məcburi köçkünləri doğma ata-baba yurdlarında Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin də iştirakı ilə onlara mənzillərin açarı təqdim edilib və ailələr yeni evlərində yerləşiblər.

Bu günədək Zəngilan rayonunun Ağalı kəndinə ümumilikdə 150 ailə, 744 nəfər köçürülüb.

Köçürülən sakinlər müvafiq qurumlar tərəfindən peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediləcək, müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və digər yerlərdə çalışacaqlar.

Köçürülmüş əhali üçün bütün infrastruktur şərait - dövlət xidmətləri mərkəzi, məktəb, bağça, bank, poçt, ictimai iaşə obyektləri və digər imkanlar mövcuddur.

Həmçinin oktyabrın 28-də də Ağalı kəndinə növbəti köç baş tutacaq. Bu dəfə isə 24 ailə öz doğma yurduna qayıdacaq.

**AZƏRTAC**
**2023, 26 oktyabr**

**Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib - QƏRAR**

Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib.

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı Qərar imzalayıb.

Xatırladaq ki, Zəngilan şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il oktyabrın 29-da işğal olunub. Vətən müharibəsində şanlı Qələbə qazanan rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 20-də şəhəri işğalçılardan azad edib.

**AZƏRTAC**
**2023, 1 noyabr**

**Zəngilanın Ağalı kəndinə infotur təşkil edilib**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramına əsasən, məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılması tədbirləri çərçivəsində Zəngilan rayonunun Ağalı kəndinə infotur təşkil edib.

AZƏRTAC xəbər verir ki, infotur iştirakçılarına Dövlət Proqramında təsbit olunmuş tədbirlərin icrası və Prezident İlham Əliyevin verdiyi tapşırıqların yerinə yetirilməsi ilə bağlı görülən işlər barədə məlumat verilib. İşğaldan azad edilmiş ərazilərdə "ağıllı kənd" konsepsiyası əsasında tikilən ilk yaşayış məntəqəsində - Ağalı kəndində geri qayıdan əhalinin yaşayış şəraiti ilə yaxından tanış olan infotur iştirakçıları buradakı məktəbə, uşaq bağçasına, tibb müəssisəsinə və digər infrastruktur obyektlərinə baş çəkib, sakinlərlə söhbətləşiblər.

İnfoturda müxtəlif özəl yaradıcılıq subyektlərinin rəhbərləri və əməkdaşları, o cümlədən məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri ilə bağlı Dövlət Komitəsinin tərəfdaşı olan şirkətlərin nümayəndələri iştirak ediblər.

**AZƏRTAC**
**2023, 4 noyabr**

**Komitə: Zəngilanın təsdiq edilən Baş planında şəhərin 40,5%-ni yaşıllıqlar təşkil edir**




Zəngilan şəhərinin Baş planı aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, Zəngilanın Baş planının hazırlanması üçün nüfuzlu beynəlxalq şəhərsalma təşkilatı – İsveçrənin “sa_partners” şirkətini və Bakı Dövlət Layihə İnstitutunu əməkdaşlığa cəlb edib.

Baş planın konsepsiyasına əsasən, Zəngilan logistika, turizm və ticarət, bərpa olunan enerji, müasir innovasiyalar mərkəzi kimi inkişaf etdiriləcək. Şəhərin beynəlxalq əhəmiyyəti nəqliyyat dəhlizinin üzərində yerləşməsi onun strateji məntəqə rolunu gücləndirəcək, sürətli inkişafına töhfə verəcək. Şəhərin bilavasitə yaxınlığında ən müasir dünya standartlarına uyğun inşa edilərək artıq istismara verilmiş Zəngilan Beynəlxalq Hava Limanı, inşası davam edən magistral dəmir və avtomobil yolları onu əhəmiyyətli regional logistik mərkəzə çevirəcək.

Eyni zamanda, şəhər gözəl iqlimi, mənzərəli landşaftı, yaşıl çayətrafı bulvarı və digər ictimai məkanları, habelə “ağıllı şəhər”, “ağıllı mobillik” və “yaşıl enerji” yanaşmaları, zövqlü memarlığı, rahat şəhər mühiti və müasir sosial infrastrukturu sayəsində yüksək həyat keyfiyyəti ilə seçiləcək.




Zəngilan şəhərində yaşayış ərazilərinin və ictimai məkanların uğurlu plan həlli yüksək yaşıllaşdırma göstəricilərinə nail olmağa imkan verir. Belə ki, Baş plana uyğun olaraq şəhər ərazisinin 135,2 ha (40,5%) sahəsini yaşıllıqlar təşkil edir. Şəhərlərdə ümumi istifadədə olan yaşıllıq sahəsinin bir adama düşən norması qanunvericiliklə 8-10 m2 nəzərdə tutulduğu halda, Zəngilan şəhərində bu göstərici 44,7 m2 təşkil edəcək.

Şəhərin Baş Planı ilə ümumi ərazisi – 333 ha, əhali sayı isə – 16000 nəfər olacaq.

Şəhərdə yaradılacaq əsas təhsil, inzibati, səhiyyə və mədəniyyət obyektləri:

- 960 uşağın təhsil alacağı 4 məktəbəqədər təhsil müəssisəsi,
- 2880 şagird yerlik 3 ümumtəhsil müəssisəsi,
- mərkəzi rayon xəstəxanası və ambulator poliklinika,
- inzibati bina,
- mədəniyyət mərkəzi,
- İşğal və Zəfər muzeyləri kompleksi və s.

Şəhərdaxili küçə-yol şəbəkəsinin uzunluğu 29 km, velosiped yollarının uzunluğu isə 14,6 km kimi nəzərdə tutulmuşdur.

Şəhərin memarlıq simasını milli ənənələri özündə qoruyan müasir və minimalist həllər, eləcə də zəngin təbiəti, sağlam və yaşıl mühiti formalaşdıracaq. Binaların inşasında əsasən yerli materiallardan istifadə olunacaq. Fasadlarda təbii daş və boya, taxta elementlərinə üstünlük veriləcək.

Şəhərin Baş planı əsasında ilk mühüm layihələr artıq reallaşdırılmışdır. Bunlar, təbii ki, Zəngilan Beynəlxalq Hava Limanı və 29 sentyabr 2023-cü il tarixində dövlət başçısının da iştirak etdiyi II Milli Şəhərsalma Forumuna ev sahibliyi etmiş Zəngilan Konqres Mərkəzidir.

Eyni zamanda, hazırda şəhərdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təməli qoyulmuş bir sıra layihələr sürətlə həyata keçirilməkdədir:

- 630 ailənin yaşayacağı 4 yaşayış məhəlləsi;
- 960 yerlik tam orta məktəb;

- 160 yerlik uşaq bağçası;
- 91 çarpayılıq mərkəzi rayon xəstəxanası;
- inzibati bina;
- İşğal və Zəfər muzeyləri kompleksi.

**AZƏRTAC**
**2023, 6 noyabr**

**Zəngilanda hərbçilərin iştirakı ilə Bayraq Yürüşü təşkil olunub**

8 Noyabr - Zəfər Günü Zəngilanda da qeyd edilib. Hərbçilərin Ağalı kəndində Bayraq Yürüşü təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə dövlət qurumlarının nümayəndələri, rayon ictimaiyyəti və Ağalı kəndinin sakinləri iştirak ediblər.

Əvvəlcə Zəngilan şəhərində Şəhidlər xiyabanı ziyarət olunub, Vətən uğurunda canlarını fəda etmiş qəhrəmanların əziz xatirəsi dərin ehtiramla yad edilib. Daha sonra yürüşə start verilib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 8 noyabr**

## Zəngilanda silahların və partlamamış vasitələrin aşkar olunması istiqamətində tədbirlər davam etdirilir

Zəngilan Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayon ərazisində silahların və partlamamış vasitələrin aşkar olunması istiqamətində tədbirlər davam etdirilir.

DİN-in mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, polis əməkdaşları rayonun Keçikli kəndi ərazisində xidmətdə olan zaman 5 avtomat, 1 pulemyot, 1 qumbaraatan, 1 snayper tüfəngi, 18 piyada əleyhinə mina aşkar edilib və müvafiq qaydada götürülüb.

Faktla bağlı araşdırma aparılır.

**AZƏRTAC**
**2023, 24 noyabr**

**Zəngilanda partlayıcı vasitələr aşkarlanıb**

Zəngilan Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayon ərazisində partlamamış sursatların aşkar olunması istiqamətində tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, polis əməkdaşları rayonun Sarıqışlaq kəndi ərazisində 3 müxtəlif çaplı top mərmisi və 3 barıt atımı aşkar edərək aidiyyəti üzrə təhvil veriblər.

Faktla bağlı Zəngilan Rayon Polis Şöbəsində araşdırma aparılır.

**AZƏRTAC**
**29 noyabr, 2023**

**Zəngilanın Ağalı kəndində yaşıllaşdırma işlərində Dendrologiya İnstitutunda becərilən bitkilərdən istifadə olunub**

Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin təşəbbüsü ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası məqsədilə "Yaşıl həyat" layihəsi həyata keçirilir.

Dendrologiya İnstitutundan AZƏRTAC-a bildirilib ki, Zəngilan rayonunun Ağalı kəndi ərazisində bitki örtüyünün taksonomik tərkibinin təhlili, bitki növlərinin introduksiyası, genofondun bərpası istiqamətində tədqiqatların aparılması, biomüxtəlifliyin genişləndirilməsi və davamlı istifadəsinin həyata keçirilməsi məqsədilə müəssisənin təcrübə sahəsində becərilən dekorativ ağac və kol bitki kolleksiyasından istifadə edilib. Ağalı kəndi ərazisinə Avropa zeytunu, payız gülü, dimorfateka, yumru birgöz, Amerika aqavası, piramidal sərv, piramidal tuya, qızılgül, Xan çinar, rozmarin, qazon aparılaraq orta məktəb və ətraf ərazilərdə yaşıllaşdırma işləri görülüb.

Dendrologiya İnstitutunun işçi qrupu tərəfindən Zəngilan rayonuna ekspedisiya təşkil edilib. Tədqiqat ərazisində monitorinq keçirilərək bitki növlərinin bioloji xüsusiyyətlərinin öyrənilməsi istiqamətində müşahidələr aparılıb. İstifadə edilən dendrofloranın taksonomik tərkibinin kompleks tədqiq olunması davam etdirilir.

**AZƏRTAC**
**4 dekabr, 2023**

**Otuz ölkəni təmsil edən xarici ekspertlər Zəngilanda bir araya gəliblər**

Dekabrın 5-də 30 ölkəni təmsil edən 60 xarici ekspertin iştirakı ilə Zəngilanda "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu çərçivəsində panel müzakirə keçirilib.

AZƏRTAC-ın Zəngilana ezam olunan müxbiri xəbər verir ki, ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən panel müzakirədə dünyanın müxtəlif ölkələrindəki nüfuzlu beyin mərkəzlərinin və akademik qurumların nümayəndələri iştirak ediblər.

İşğaldan azad edilmiş ərazilər üzrə xüsusi nümayəndələrin çıxışları ilə keçirilən ilk panel müzakirədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov salamlama nitqi ilə çıxış edib.

Sonra panel ADA Universitetinin prorektoru, eləcə də İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadənin moderatorluğu ilə işə başlayıb.

"Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu çərçivəsində panel müzakirələrdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxış ediblər.

Tədbirdə, həmçinin Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov panel müzakirənin çıxışçısı qismində iştirak ediblər.

Müzakirələrdə xarici ekspertlərə Qarabağda aparılan bərpa və quruculuq işləri, işğaldan azad edilmiş ərazilərə qayıdış prosesində Azərbaycan modeli barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Panelin ikinci hissəsi Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin direktoru Fərid Şəfiyevin moderatorluğu ilə baş tutub.

ADA Universitetinin professoru Gülməmməd Məmmədov, Bosniya və Herseqovina Prezidenti kabinetinin üzvü İsmet Kadiç, Efiopiyanın Xarici məsələlər İnstitutunun əməkdaşı Daraskedar Tayen, Gürcüstanın "Rondeli" Fondunun üzvü Şota Utiaşvili, İngiltərənin Cənubi Uels Universitetinin professoru Ali Varda və ABŞ-ın Ceymstaun Fondunun tədqiqatçısı Marqarita Asenova sözügedən paneldə çıxış ediblər.

Çıxışlarda repatriasiya prosesindəki dünya təcrübəsindən, işğaldan azad edilmiş ərazilərdəki icma quruculuğu və inteqrasiya prosesindən danışılıb.

Tədbir sual-cavab sessiyası ilə başa çatıb.

Sonra iştirakçılar Zəngilanın Ağalı kəndinə səfər edərək buradakı "Ağıllı kənd" konsepti ilə yaxından tanış olublar. Qonaqlara "Ağıllı kənd" pilot layihəsinin icrası barədə məlumat verilib. Bildirilib ki, böyük həcmdə maliyyə tələb edən bu layihə Qarabağdakı quruculuq prosesini və Azərbaycan iqtisadiyyatının inkişafını özündə əks etdirir.

AZƏRTAC-ın Zəngilana ezam olunan müxbiri xəbər verir ki, "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu çərçivəsində panel müzakirələrdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxış ediblər.

Tədbirdə, həmçinin Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov panel müzakirənin çıxışçısı qismində iştirak ediblər.

Müzakirələrdə xarici ekspertlərə Qarabağda aparılan bərpa və quruculuq işləri, işğaldan azad edilmiş ərazilərə qayıdış prosesində Azərbaycan modeli barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Panelin ikinci hissəsi Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin direktoru Fərid Şəfiyevin moderatorluğu ilə baş tutub.

Dekabrın 5-də 30 ölkəni təmsil edən 60 xarici ekspertin iştirakı ilə Zəngilanda "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu çərçivəsində panel müzakirə keçirilir.

AZƏRTAC-ın Zəngilana ezam olunan müxbiri xəbər verir ki, ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən panel müzakirədə dünyanın müxtəlif ölkələrindəki nüfuzlu beyin mərkəzlərinin və akademik qurumların nümayəndələri iştirak edirlər.

İşğaldan azad edilmiş müxtəlif ərazilər üzrə xüsusi nümayəndələrin çıxışları ilə keçirilən ilk panel müzakirədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov salamlama nitqi ilə çıxış edib.

Sonra panel ADA Universitetinin prorektoru, eləcə də İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadənin moderatorluğu ilə öz işinə başlayıb.

**Eyyub Ələsgərov**

**AZƏRTAC**
**5 dekabr, 2023**

## Zəngilanda “Bilim hər yerdə” layihəsinə start verilib

Dekabrın 18-də Zəngilan rayonunun Ağalı kənd orta məktəbində “Bilim hər yerdə” layihəsinə start verilib.

Layihə “ASAN xidmət”in “İnnovasiyalar Mərkəzi”, “Bilim Bakı” mərkəzləri tərəfindən reallaşdırılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbir çərçivəsində mərkəzin müəllimləri tərəfindən 100-ə yaxın şagirdə riyaziyyat, dizayn, təbiət elmləri, texnologiya, astronomiya, sahibkarlıq sahəsində müxtəlif təlimlər, ustad dərsləri keçirilib, proseslərin vizual izahı üçün müşahidələr və təcrübələr aparılıb.

Həmçinin maarifləndirici, intellektual oyunlar təşkil olunub və “Bilim şou” nümayiş etdirilib.

Sonda şagirdlərə sertifikatlar və hədiyyələr təqdim olunub.

Layihənin məqsədi ucqar ərazilərdə yaşayan 6-14 yaş arası şagirdləri müasir elmlə tanış etmək, onların proqramlaşdırma və texnoloji bacarıqları öyrənmələrinə şərait yaratmaq, innovasiya və texnologiya sahəsində məlumatlılığı artırmaqdır.

Layihənin sponsoru “Final çay”dır.

Xatırladaq ki, “Bilim Bakı” mərkəzi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Türkiyə Texnologiya Komandası Fondunun əməkdaşlığı ilə yaradılıb. Məqsəd 6 -14 yaşlı şagirdlərin texnologiya, innovasiya, elm və sahibkarlıq sahəsində bilik və bacarıqlarını inkişaf etdirmək, onlara məktəbdə öyrədilən anlayışları tətbiqi təlimlər vasitəsilə əyani nümayiş etdirmək, gündəlik həyatda elm və texnologiyanın ekvivalentini göstərmək və nəzəriyyəsi məlum olan elmi hadisələrin praktikada necə işlədiyini müşahidə etmək imkanlarını yaratmaqdır.

**AZƏRTAC**
**19 dekabr, 2023**

**125 saylı Zəngilan-Qubadlı DSK-sı üzrə azad olunan ərazidə 4 seçki məntəqəsi fəaliyyət göstərəcək**

Fevralın 7-nə təyin olunan növbədənkənar prezident seçkisi Zəngilan və Qubadlı rayonlarında 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsi üzrə 4 məntəqədə keçiriləcək. Həmin məntəqələrdən 3-ü Zəngilan, 1-i isə Qubadlı rayonu ərazisində yerləşir.

Dairə Seçki Komissiyasının sədri Əli Mönsümov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, dairə üzrə Zəngilan və Qubadlı rayonlarında yerləşən seçki məntəqələrində səsvermə prosesinə hazırlıq işləri gedir. Məntəqələrdən biri Zəngilanın Ağalı kənd tam orta məktəbində yerləşən 33 saylı seçki məntəqəsidir. Bu günə qədər həmin məntəqə üzrə 994 seçici qeydə alınıb ki, onlardan da səsvermə hüququ olan 603 nəfər Ağalıda məskunlaşan sakinlərdir. Kənd üzrə ilk dəfə səsvermədə iştirak edənlərin sayı isə 31 nəfərdir. Ən yaşlı seçici isə 1933-cü il təvəllüdlüdür.

Əli Mönsümovun sözlərinə görə, 33 saylı seçki məntəqəsinə yaxın ərazilərdə çalışan işçilər də bu məntəqədə səsvermədə iştirak edə biləcəklər. Zəngilan rayonu ərazisində çalışan işçilərin səsvermədə iştirakı üçün fəaliyyət göstərəcək digər seçki məntəqəsi Alıbəyli kəndi ərazisində yerləşən 61 saylı məntəqədir. Bu günədək məntəqə üzrə 570 nəfər seçici qeydə alınıb. Üçüncü seçki məntəqəsi isə Ağbənd qəsəbəsindəki 62 saylı seçki məntəqəsidir və burada 561 seçicinin qeydiyyatı aparılıb.

125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsinin Qubadlı rayonu üzrə fəaliyyət göstərəcək seçki məntəqəsi isə Xanlıq kəndi ərazisində yerləşən 63 saylı seçki məntəqəsidir və bu günədək məntəqə üzrə 1466 seçici qeydiyyata alınıb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**9 yanvar, 2024**

**Zəngilanda ekoloji məsələlər üzrə işçi qrupun bu il üçün ilk iclası keçirilir**

Yanvarın 26-da Zəngilan şəhərində yerləşən Konqres Mərkəzində Ekoloji məsələlər üzrə işçi qrupun bu il üçün ilk iclası keçirilir.

AZƏRTAC xəbər verir ki, işçi qrupun iclasında ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Prezidentin Xüsusi Nümayəndəliyinin böyük məsləhətçisi, Ekoloji məsələlər üzrə işçi qrupun üzvü Nərgiz Qaracayeva və işçi qrupun digər üzvləri iştirak edirlər.

İclasda Cəbrayıl rayonunda kəhrizlərin bərpası yolu ilə ətraf mühitin dayanıqlı inkişaf həlləri, Şərqi Zəngəzur iqtisadi rayonunun sosial-iqtisadi inkişafında ekoloji amillərin qiymətləndirilməsi, Azərbaycan-Türkiyə əməkdaşlığı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə meşəçilik sahəsində görülmüş işlər, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında bərpa-quruculuq, layihələrinin icrası zamanı ekoloji dayanıqlılığın təmin olunması, işğaldan azad edilmiş ərazilərdə bərk məişət tullantılarının idarə olunması, hidrometeoroloji müşahidə şəbəkəsinin bərpası və yenidən qurulması məsələləri müzakirə edilir.

Həmçinin Zəngilan və Cəbrayıl rayonlarının su təchizatı sistemləri, Şərqi Zəngəzur iqtisadi rayonunda yol-tikinti layihələri, ərazidə mövcud mineral xammal yataqlarının vəziyyəti və istifadə perspektivləri, işğaldan azad edilmiş ərazilərdə ekoloji mühitin bərpası prosesi ərazi planlaşdırılması aspektləri, ekoloji qiymətləndirmə və yaşıllaşdırma layihələri üzrə aparılan minatəmizləmə fəaliyyəti haqqında məsələlər ətrafında müzakirə aparılır.

**Göyçək Mahmudlu**
**Nicat Əlili**
**Vüsal Tağıyev**

**AZƏRTAC**
**26 yanvar, 2024**

**Zəngilanda Ekoloji məsələlər üzrə işçi qrupunun iclası keçirilib**

Yanvarın 26-da Zəngilan şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 və 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətlərinin nümayəndələri iştirak edib.

İclasda işçi qrup üzvləri və dəvət olunan digər qurumlar tərəfindən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında bərpa-quruculuq işləri, layihələrinin icrası zamanı ekoloji dayanıqlığın təmin olunması, Azərbaycan-Türkiyə əməkdaşlığı çərçivəsində Cəbrayıl rayonunda meşəçilik sahəsində görülmüş işlər, Zəngilan və Cəbrayıl rayonlarında aparılan içməli və tullantı su sistemlərinin yenidən qurulması işləri, Cəbrayıl rayonunda kəhrizlərin bərpası və su ehtiyatlarının idarə olunmasında onlardan istifadə perspektivləri, yol-infrastruktur layihələrinin icrası zamanı ətraf mühitə minimum təsirə nail olunması, yol tikintisi işlərində tələb olunan xammal təminatı, faydalı qazıntı yataqlarından səmərəli istifadənin təşkili, işğaldan azad edilmiş ərazilərdə ekoloji qiymətləndirmə və yaşıllaşdırma layihələri üzrə aparılan minatəmizləmə fəaliyyəti, bərk məişət tullantılarının idarə olunması və Şərqi Zəngəzur iqtisadi rayonununda icra olunan layihələrin ekoloji qiymətləndirilməsi məsələləri müzakirə edilib.

**Göyçək Mahmudlu**
**Nicat Əlili**
**Vüsal Tağıyev**

**AZƏRTAC**
**26 yanvar, 2024**

**Cəbrayıl, Qubadlı və Zəngilanda hərraca çıxarılacaq yataqlar açıqlanıb**

Cəbrayıl rayonunun Tulus mişar daşı yatağının 48.3 hektar ərazisi, Tinli və Göyçərçin Veysəlli sement xammalı yataqlarının isə müvafiq olaraq 20.3 və 20 hektar ərazisi hərraca hazırlanır.

AZƏRTAC xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədr müavini Azər Şükürov Ekoloji məsələlər üzrə işçi qrupunun bu gün Zəngilanda keçirilən iclasında deyib.

A.Şükürov, həmçinin Zəngilan rayonu üzrə Bartaz-2 tikinti daşı yatağının 15 hektar ərazisinin, Qubadlı rayonu üzrə isə Hacılı mişar daşı yatağının 20 hektar ərazisinin hərraca hazırlandığını da diqqətə çatdırıb.

**Göyçək Mahmudlu**
**Nicat Əlili**
**Vüsal Tağıyev**

**AZƏRTAC**
**26 yanvar, 2024**

**Zəngilanın Alıbəyli kəndində seçkinin gedişatını 11 müşahidəçi izləyir**

125 saylı Zəngilan-Qubadlı seçki dairəsi üzrə işğaldan azad olunan ərazilərdəki məntəqələrdə günorta saatları olmasına baxmayaraq fəallıq müşahidə edilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Zəngilan rayonunda seçkilərin keçirildiyi məntəqələrdən biri də Alıbəyli kəndi ərazisində yerləşən 61 saylı seçki məntəqəsidir. Seçki məntəqəsinin sədri Gülnaz Mahmudova bildirib ki, məntəqə üzrə ümumilikdə 615 seçici qeydə alınıb və seçicilər Zəngilan rayonu ərazisində çalışan işçilərdir. Məntəqədə seçkinin gedişatını izləyən 11 müşahidəçi var.

61 saylı seçki məntəqəsində səs verənlərdən biri də Hacıqabul rayon sakini Heybət Rzazadədir. O, ilk dəfə səsvermə hüququndan işğaldan azad olunan ərazilərdə istifadə etdiyi üçün özünü qürurlu sayır.

"Hər bir azərbaycanlı kimi mən də səsvermədə iştirak edirəm. Mənim üçün bu gün çox əlamətdardır. Çünki işimlə əlaqədar olaraq Zəngilandayam və ilk səsvermə hüququmdan da məhz işğaldan azad olunan ərazilərdə istifadə etdim. Bizlərə belə tarixi anları yaşadan şəhidlərimizə rəhmət diləyir, qazilərimizə şəfa arzulayıram", - deyə o bildirib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**7 fevral, 2024**

**Ermənistan silahlı qüvvələrinin mövqelərindən Zəngilan istiqamətində Ordumuzun mövqelərinə atəş açılıb, bir hərbçi yaralanıb – VİDEO**

Fevralın 12-də saat 13:37 radələrində Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə atəş açılıb.

DSX-dən AZƏRTAC-a bildiriblər ki, təxribat nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu əsgər Xəlilzadə Pərviz Ağakişi oğlu yaralanıb. Hərbi qulluqçu helikopterlə ixtisaslaşmış tibb müəssisəsinə təxliyə edilib.

Baş vermiş hadisə, o cümlədən qarşı tərəfdən atəşin açılması anı videomüşahidə kameraları vasitəsilə qeydiyyata alınıb.

Hazırda əməliyyat şəraiti sabitdir və bölmələrimizin nəzarəti altındadır.

Ermənistan tərəfinin bu növbəti təxribatına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**AZƏRTAC**
**12 fevral, 2024**

https://video.azertag.az/site/video/200506

**Zəngilan rayonu ərazisində açıq sahədə yanğın baş verib – VİDEO**

Fövqəladə Hallar Nazirliyinin (FHN) “112” qaynar telefon xəttinə Zəngilan rayonunun Cahangirbəyli kəndi ərazisində yanğın baş verməsi barədə məlumat daxil olub.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məlumatla əlaqədar dərhal FHN-in Dövlət Yanğından Mühafizə Xidməti Zəngilan rayon Yanğından Mühafizə Hissəsinin qüvvələri çağırış üzrə cəlb olunub.

Yanğınsöndürənlərin həyata keçirdikləri təcili və təxirəsalınmaz tədbirlər nəticəsində açıq ərazidə baş vermiş yanğın daha geniş sahəyə yayılmasına imkan verilmədən söndürülüb.

Yanğın nəticəsində 13 ha sahədə qamışlıq və kol-kos yanıb. Ətraf ərazilər, o cümlədən yaxınlıqdakı obyektlər yanğından mühafizə olunub.

**AZƏRTAC**
**15 fevral, 2024**

https://video.azertag.az/site/video/200809

## 30 ildən sonra Zəngilanda ilk toy - FOTO VİDEO

Zəngilanın Ağalı kəndində 30 ildən sonra ilk dəfə toy mərasimi təşkil olunub.

Bəyin atası Baloğlan İsmayılov bu xoş gündə təəssüratlarını AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşərək deyib: “Bu günləri çoxdan arzulayırdıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Müzəffər Ali Baş Komandanımız, qəhrəman Ordumuz sayəsində bu günləri yaşayırıq. Həsrətini çox çəkmişdik. Bu, bizim arzularımız idi, onlar çin oldu. Şükürlər olsun ki, öz kəndimizdə toy edirik. Qarabağ torpağına toy yaraşır, “Cəngi” yaraşır. Bəyimiz də, mən də döyüşçü olmuşuq. İkimizin də arzusu olub ki, bu torpaqlarda yaşayaq. İndi o arzumuz gerçəkləşib”.

Qeyd edək ki, dövlətimiz tərəfindən yenidən qurulan Ağalıda 871 sakin yaşayır.

**A. Yavərzadə**

**AZƏRTAC**
**17 fevral, 2024**

https://video.azertag.az/site/video/201073

**İşğaldan azad edilmiş ərazilərdə müasir hidrometeoroloji stansiyalar qurulub**

Hidrometeoroloji şəbəkənin bərpası üzrə işğaldan azad edilmiş ərazilərdə yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə 10 çay (Araz, Bəsitçay, Oxçuçay, Həkəriçay, Barguşadçay, Zabuxçay, Tutqunçay, Tərtərçay, Kircələnçay, Quruçay) üzərində 11 avtomat hidroloji stansiya yaradılıb və həmin stansiyalardan mütəmadi qaydada məlumatlar Milli Hidrometeorologiya Xidmətinin Situasiya mərkəzinə ötürülərək təhlil olunur.

AZƏRTAC xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Əkbər Əsgərov "Qarabağ bölgəsində su kanalizasiya infrastrukturunun yenidən qurulması" adlı tədbirdə çıxışı zamanı bildirib.

Rəis müavini qeyd edib ki, "İşğaldan azad edilmiş ərazilərdə meteoroloji müşahidələrin öyrənilməsi" layihəsi çərçivəsində Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında bütün lazımi sensorlarla təchiz edilmiş 5 avtomat meteoroloji stansiya quraşdırılıb və həmin stansiyalardan mütəmadi qaydada daxil olan məlumatlar Milli Hidrometeorologiya Xidmətinin Situasiya mərkəzinə ötürülərək təhlil olunur.

“Proqramın icrası çərçivəsində 1 dast dopler hava radarının və 1 dəst aeroloji stansiyanın quraşdırılması məqsədilə işğaldan azad edilmiş ərazilərdə tədqiqat işləri aparılıb. Həmin stansiyaların 2024-cü ildə quraşdırılması nəzərdə tutulur. Bu stansiyaların fəaliyyət göstərməsi regionun iqlim şəraitinin qiymətləndirilməsinə, əldə olunan məlumatların kəmiyyət və keyfiyyətinin, meteoroloji proqnoz və xəbərdarlıqların dəqiqliyinin alınmasına və həmin ərazilərdə fəaliyyəti nəzərdə tutulan sahələrdə drometeoroloji xidmət səviyyəsinin artırılmasına imkan verir”, - deyə Əkbər Əsgərov vurğulayıb.

**AZƏRTAC**
**2024, 21 fevral**

**Zəngilanın Alıbəyli kəndinin yenidən salınması işlərinə başlanılıb - konseptual layihə - FOTO**

Yenidən salınacaq Zəngilanın Alıbəyli kəndində öz ata-baba yurdlarına geri qayıdacaq keçmiş məcburi köçkünlər üçün dayanıqlı şərait və məskunlaşma imkanları yaradılacaq.

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Şərqi Zəngəzur 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətindən məlumat verilib.

Artıq bu istiqamətdə işlərə başlanılıb.

Alıbəyli kəndinin konseptual layihəsinin bir hissəsini təqdim edirik.

**AZƏRTAC**
**2024, 21 fevral**

**Ağalı kəndində Şərqi Zəngəzur Regional Məşğulluq filialının xidmət şöbəsi istifadəyə verilib**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi işğaldan azad edilmiş ərazilərə köçürülən sakinlərin dayanıqlı məşğulluğunun təminatı sahəsində tədbirləri davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əhalinin məşğulluq xidmətlərinə əlçatanlığının təmini məqsədilə Zəngilan rayonunun Ağalı kəndində agentliyin Şərqi Zəngəzur Regional Məşğulluq filialının xidmət şöbəsi istifadəyə verilib.

Xidmət şöbəsində məşğulluq xidmətləri ilə bağlı müraciət edən sakinlərin qeydiyyatı aparılaraq, onların məşğulluq imkanları qiymətləndirilir. Fərdi məşğulluq proqramları tərtib edilməklə sakinlərin aktiv məşğulluq proqramlarına cəlb olunması, habelə onlara karyera məsləhəti xidmətlərinin göstərilməsi işləri aparılır.

**AZƏRTAC**
**2024, 23 fevral**

**Sahibkarlar Şərqi Zəngəzur iqtisadi rayonuna səfər ediblər**

İşğaldan azad edilmiş ərazilərimizdə fəaliyyət göstərməkdə maraqlı olan sahibkarlar Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan və Cəbrayıl rayonlarına səfər ediblər. Səfər çərçivəsində "Zəngilan və Cəbrayıl rayonlarında yaradılan investisiya imkanları" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri Osman Xaliyev sahibkarlar və investorlar üçün yaradılan yeni imkanlar, azad edilmiş ərazilərdə investisiya layihəsi həyata keçirmək istəyən sahibkarlıq subyektlərinə tətbiq olunan güzəştlər barədə ətraflı məlumat verib. Eləcə də fondun müvəkkil kredit təşkilatları vasitəsilə verilən güzəştli kreditlərlə bu ərazilərdə sahibkarlığın dəstəklənməsindən bəhs olunub.

Tədbir çərçivəsində SİF-in "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" zəmanət və subsidiya mexanizmi təqdim edilib. Bildirilib ki, regionda fəaliyyət göstərən sahibkarların məbləği 5 milyon manatadək, müddəti 7 ilədək, illik faiz dərəcəsi 15 faizədək olan biznes kreditlərinin 90 faizədək hissəsinə dövlət zəmanəti verilir və həmin kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılır. Bununla yanaşı, kreditin müddətinin yarısından çox olmamaqla 36 aya qədər güzəşt müddəti tətbiq edilir.

Sahibkarlar Zəngilanın Ağalı kəndində və Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası"nda yaradılan şəraitlə tanış olublar.

**AZƏRTAC**
**2024, 27 fevral**

**Polis Ağalıda şagirdlərin iştirakı ilə ilk dəfə maarifləndirmə tədbiri keçirib**

Zəngilan Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Ağalı kənd tam orta məktəbində narkomaniya əleyhinə və erkən nikah hallarına qarşı maarifləndirmə tədbiri keçirilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, tədbirdə çıxış edən rayon polis şöbəsinin rəisi, polis polkovniki Bəkir Cabbarov narkotik vasitələrin insan orqanizminə, şüur sisteminə mənfi təsir göstərməsindən danışıb. O, narkotiklərə qurşananların müalicəsinin çox çətin proses olmasından, insanın fiziki və mənəvi cəhətdən dəyərsizləşməsindən, ailəsi, yaxın ətrafı üçün ciddi problemlər yaratmasından söhbət açıb.

Erkən nikah mövzusuna da toxunan Bəkir Cabbarov, bu cür problemlərin baş verməməsi üçün təhsilin vacibliyindən danışıb. Gənclərə mütləq şəkildə sağlam həyat tərzi keçirməyi, mütəmadi şəkildə mütaliə ilə məşğul olmalarını tövsiyə edib.

Daha sonra çıxış edənlər narkotik asılılığın və erkən nikahın fəsadlarından, cəmiyyət üçün doğurduğu təhlükələrdən danışıblar.

Sonda suallar cavablandırılıb.

**AZƏRTAC**
**2024, 29 fevral**

**Köçü planlaşdırılan sakinlərə məşğulluq tədbirləri ilə bağlı məlumat verilib**

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına köçə hazırlıq və məşğulluq üzrə işçi qrupunun Biləsuvar rayonunda görüşü keçirilib.

Görüş Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Cəbrayıl Rayon İcra Hakimiyyəti tərəfindən birgə təşkil edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, köçü planlaşdırılan bir qrup keçmiş məcburi köçkünün iştirak etdiyi görüşdə Böyük Qayıdış proqramına uyğun olaraq işğaldan azad olunmuş ərazilərə köçürülən şəxslərin məşğulluğunun təmin edilməsi sahəsində görülən və planlaşdırılan işlərə dair müzakirələr aparılıb. Eyni zamanda, Dövlət Məşğulluq Agentliyinin funksional istiqamətləri və layihələri barədə təqdimat edilib.

İşğaldan azad olunmuş ərazilərin sakinlərinin aktiv məşğulluq proqramları ilə əhatə olunması istiqamətində aparılan işlər barədə məlumat verilib. Daha sonra görüş iştirakçılarının sualları cavablandırılıb.

**AZƏRTAC**
**2024, 29 fevral**

**İşğaldan azad olunan ərazilərdə işəgötürənlərin kadr ehtiyaclarının qarşılanması üzrə görüləcək birgə işlər müzakirə olunub**

Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Şərqi Zəngəzur Regional Məşğulluq filialı tərəfindən "İşəgötürənlərin kadr ehtiyaclarının qarşılanması istiqamətləri" mövzusunda dəyirmi masa təşkil edilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə fəaliyyət göstərən işəgötürənlər və digər qurumların nümayəndələri iştirak edib.

İlk olaraq iştirakçılara agentliyin fəaliyyəti ilə bağlı məlumat verilib. İşğaldan azad olunan ərazilərimizdə fəaliyyət göstərən işəgötürənlərin kadr ehtiyaclarının qarşılanması istiqamətləri, peşə hazırlığının təşkilinin əhəmiyyəti və işğaldan azad olunmuş ərazilərdə hazırda icra olunan digər məşğulluq tədbirləri diqqətə çatdırılıb və həmin mövzularda müzakirələr aparılıb.

Həmin ərazilərə köçürülən vətəndaşların dayanıqlı məşğulluğunun təmin olunmasında işəgötürənlərin rolundan bəhs olunub. İşğaldan azad olunan ərazilərdə işəgötürənlərin kadr ehtiyaclarının qarşılanması üzrə görüləcək birgə işlər müzakirə edilib.

**AZƏRTAC**
**2024, 2 mart**

**Ağalıda uşaqların çərşənbə sevinci**

Gündən-günə abadlaşan Zəngilanın Ağalı kəndində uşaqlar da əlamətdar günləri sevinclə qeyd edirlər. Od çərşənbəsi Ağalı kənd körpələr evi-uşaq bağçasının kollektivi üçün yaddaqalan olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, uşaq bağçasının balaca sakinləri Od çərçənbəsini sevinclə qarşılayıblar. Təhlükəsizlik qaydaları nəzərə alınmaqla bağçanın həyətində kiçik tonqal qalanıb. Ocaq kənarında Baharın gəlişini xəbər verən səməni qoyulub. Müəllim və uşaqlar birlikdə tonqal ətrafında “Yallı” gediblər. Balacalar tonqal üstündən atlanıb, həmçinin milli musiqi sədaları altında rəqs edərək əylənib, Baharın gəlişinə aid şerlər səsləndirib, tapmaca oyunu oynayıblar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**5 mart, 2024**

**DİM Laçın şəhərində, Zabux kəndində və Füzulidə yerləşən məktəblərdə buraxılış imtahanı keçirir**

Martın 10-da Dövlət İmtahan Mərkəzi (DİM) Laçın, Füzuli və Zəngilan rayonlarında buraxılış imtahanı keçirir. DİM ilk dəfə yeni istifadəyə verilmiş Laçın şəhər 2 nömrəli tam orta məktəbdə, Zabux kənd tam orta məktəbində və Füzulidə M.Uluqbəy adına 1 nömrəli məktəbdə buraxılış imtahanı keçirir.

Bu barədə AZƏRTAC-a DİM-dən məlumat verilib.

Xatırladaq ki, bu gün DİM respublikanın 33 şəhər və rayonunda tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirir və bu imtahanlarda 53 min 102 şagirdin iştirakı nəzərdə tutulur.

**AZƏRTAC**
**10 mart, 2024**

**Buraxılış imtahanı işğaldan azad olunan ərazilərdə ümumilikdə 4 binada təşkil edilib**

Martın 10-da Dövlət İmtahan Mərkəzi (DİM) işğaldan azad olunan ərazilərdə tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib.

Dövlət İmtahan Mərkəzinin Bərdə regional bölməsindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, buraxılış imtahanı Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb, Laçın rayonu 2 nömrəli tam orta məktəb, Laçın rayonu Zabux kənd tam orta məktəbi və Zəngilan rayonu Ağalı kənd tam orta məktəblərində təşkil edilib. İmtahanın idarə olunmasına 4 ümumi rəhbər, 4 imtahan rəhbəri, 4 nəzarətçi-müəllim, 4 buraxılış rejimi əməkdaşı (mühafizə) cəlb olunub. İşğaldan azad olunan ərazilərdə ümumilikdə 4 binada keçirilən imtahanlarda 18 şagird iştirak edib. İmtahan bütün binalarda eyni vaxtda başlanıb və 3 saat davam edib.

İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, imtahanın keçirildiyi binalarla müntəzəm əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, şagirdlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Martın 11-dən etibarən DİM-də imtahan protokollarının və cavab vərəqlərinin emalı aparılacaq.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**10 mart, 2024**

**Ağalı kəndində Yel çərşənbəsinin tonqalı qalanıb – VİDEO**

İşğaldan azad olunan Zəngilanda həyat yenidən canlanır. İllərdir Vətən həsrəti ilə yaşayan Ağalı sakinləri artıq bayramları öz doğma kəndində qarşılayır. Bu gün isə sakinlər Ağalıda Yel çərşənbəsinin tonqalını alovlandırıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ağalı kəndində Yel çərşənbəsi də yaddaqalan keçib. Yel çərşənbəsində keçəl və kosa uşaqlara əyləncəli anlar yaşadıb, öz boxçalarından onlara şəkərbura, paxlava, qoğal və digər şirniyyatlar hədiyyə ediblər. Həmçinin yumurta döyüşdürüb, digər oyunlar oynayıblar.

Kəndin mərkəzində Yel çərşənbəsinin tonqalı alovlandırılıb, yallı və şən musiqi sədaları altında rəqslər olub.

Qeyd edək ki, Böyük Qayıdış layihəsi çərçivəsində Ağalıda 175 ailə olmaqla, 871 nəfərin məskunlaşması təmin olunub.

**AZƏRTAC**
**12 mart, 2024**

https://video.azertag.az/site/video/202833

**Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu**

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan Diplomatiya Akademiyası İnkişaf və Diplomatiya İnstitutu, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu tərəfindən "Əhalinin geri qayıdışının və ərazilərə inteqrasiyasının təmin edilməsi məqsədilə məcburi köçkünlər arasında sosioloji sorğunun keçirilməsi və ilkin proqnozların hazırlanması" layihəsi həyata keçirilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi mətbuat xidməti departamentindən AZƏRTAC-a bildiriblər ki, layihənin Dövlət Komitəsində təşkil olunmuş təqdimatında onun məqsəd və məramı barədə ətraflı məlumat verilib. Layihənin koordinatoru Rəsmiyyə Abdullayeva diqqətə çatdırıb ki, sorğu zamanı məcburi köçkünlərin qayıdışla bağlı arzu və təklifləri öyrənilib, onların doğma yurda dönüş barədə qərarlarına təsir edən amillər müəyyənləşdirilib, ilkin proqnozlar hazırlanıb.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdışa dair I Dövlət Proqramı Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma, iqtisadi dirçəliş üçün bütün zəruri şəraitin yaradılmasını nəzərdə tutur. Hazırda Dövlət Proqramının Tədbirlər Planı üzrə intensiv iş aparılır, qayıdış prosesi uğurla davam etdirilir.

Layihə çərçivəsində "fokus-qrup" sorğular tədqiqatın əsas metodu kimi seçilib. Sorğulara Şuşa, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Füzulidən olan 170 respondent cəlb olunub.

Sorğu zamanı keçmiş məcburi köçkünlərin 95 faizinin öz doğma yurd-yuvasına qayıtmaq niyyətində olduğu bir daha təsdiqlənib.

Dövlət Komitəsinin məsul əməkdaşlarının iştirakı ilə keçirilən təqdimatda tədqiqatın nəticələri geniş müzakirə edilib, rəy və təkliflər bildirilib. Tədqiqata dair yekun hesabatda bunların nəzərə alınacağı bildirilib.

**AZƏRTAC**
**2024, 13 mart**

**Ağalı sakinləri İlaxır çərşənbəni qeyd ediblər – FOTO VİDEO**

Zəngilan rayonun Ağalı kəndində Novruz bayramı münasibətilə bayram tədbiri təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, İlaxır cərşənbədə bayram tonqalı qalanıb və musiqiçilərin iştirakı ilə konsert keçirilib.

**AZƏRTAC**
**2024, 19 mart**

https://video.azertag.az/site/video/203595

**AFAQ layihəsi çərçivəsində Zəngilanda qadın fermerlərə dəstək göstərilib**

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "PAŞA Holding"in dəstəyi ilə icra olunan Aqrar Fəaliyyətli Azərbaycan Qadınları (AFAQ) layihəsi çərçivəsində qadın fermerlərlə növbəti görüş Zəngilan rayonunda keçirilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, dəstək tədbirindən Zəngilan rayonunun Ağalı kəndindən olan və layihə mərhələlərini uğurla tamamlayan 14 fermer qadın faydalanıb.

Əvvəlcədən aparılan qiymətləndirmə sorğularına əsasən, 9 qadın fermerin hər birinə təsərrüfatlarının ehtiyacları üzrə 100 toyuq və 3 aylıq yem ehtiyatı verilib, ehtiyac duyulan invertarlarla təmin olunub.

Bundan əlavə, 5 qadının hər birinə 1200 olmaqla, ümumilikdə, 6000 ağac və dekorativ güllərin tingləri verilib. Ağacları yetişdirməkdə əsas məqsəd yeni salınan qəsəbələrin abadlaşdırılması və yaşıllaşdırılmasında istifadə etməkdir.

AFAQ layihəsi kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən qadınların dəstəklənməsi, onların bilik və bacarıqlarının artırılması, maliyyə və digər resurslara çıxışlarının asanlaşdırılması məqsədi ilə icra edilir. Bu günədək 330 təsərrüfatın qiymətləndirilməsi aparılıb, tələblərə cavab verən 473 fermerə təlimlər keçirilib. Ümumilikdə, 20 region üzrə 233 qadına müvafiq avadanlıqlar və aktivlərlə dəstək göstərilib.

**AZƏRTAC**
**2024, 19 mart**

**İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün aktiv məşğulluq proqramlarını davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, həmin proqramların bir istiqaməti olaraq, Agentlik:

- Laçın şəhəri və Laçının Zabux, Sus, Bəylik, Güləbird kəndləri,
- Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi,
- Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi,
- Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri,
- Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri,
- Kəlbəcər şəhəri,
- Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi,
- Xankəndinin Kərkicahan qəsəbəsi,
- Qubadlının Mahruzlu, Zilanlı kəndləri,
- Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri,
- Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri,
- Xocavəndin Xocavənd kəndi üzrə peşə hazırlığı kursları təşkil edir.

Peşə kurslarına həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilərlər.

Kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələrinə aid peşələr üzrə təşkil olunan kurslarda iştirak etməklə əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnmək və həmin peşələr üzrə işlə təmin olunmaq imkanına yiyələnmək mümkündür.

Peşə hazırlığı kurslarına, DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək və ya “sosial.gov.az” saytındakı “Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı” bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçmək olar.

Kursların müddəti 6 aya qədərdir və iştirak ödənişsizdir.

Peşə hazırlığı kursları işğaldan azad edilmiş digər ərazilərin sakinləri üçün də təşkil olunacaq.

**AZƏRTAC**
**4 aprel, 2024**

**Zəngilan rayonunun Ağbənd qəsəbəsində qida təhlükəsizliyinə nəzarətin təmin edilməsi məqsədilə struktur yaradılacaq**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi (AQTA) Agentliyi ölkə üzrə müvafiq nəzarət və tənzimləmə sistemi formalaşdırıb, bu istiqamətdə aktual və məqsədyönlü tədbirlər həyata keçirir. İdxal və ixrac əməliyyatları zamanı da qida təhlükəsizliyinə nəzarətin həyata keçirilməsinə tərəfimizdən ciddi önəm verilir. Həmin məqsədlə “Qırmızı körpü” qida təhlükəsizliyinə nəzarət məntəqəsinin tikintisi başa çatdırılıb və yaxın zamanda fəaliyyətə başlaması planlaşdırılır.

AZƏRTAC xəbər verir ki, bunu AQTA-nın sədri Qoşqar Təhməzli aprelin 5-də keçirilən “Azərbaycanda qida nəzarəti sisteminin qiymətləndirilməsi aləti” konsepsiyası üzrə tədbirdə deyib.

"Eyni zamanda, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası ilə əlaqədar Azərbaycan Respublikası ilə İran İslam Respublikası dövlət sərhədində, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun Ağbənd qəsəbəsi ərazisində qida təhlükəsizliyinə nəzarətin təmin edilməsi məqsədilə müvafiq strukturun qurulması nəzərdə tutulur. Yeri gəlmişkən, Agentlik xarici ölkələrdə fəaliyyət göstərən və məhsullarını respublikamıza idxal etmək niyyətində olan qida obyektlərinin təsdiqi prosesini də davam etdirir. Bu vaxtadək 350-yə yaxın xarici qida müəssisəsi Agentlik tərəfindən təsdiq olunub”, - deyə Q.Təhməzli qeyd edib.

**AZƏRTAC**
**5 aprel, 2024**

**Ağalıda keçirilən ilk əmək yarmarkasında 253 vakansiya təqdim olunub**

Zəngilan rayonunun Ağalı kəndində ilk dəfə əmək yarmarkası təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, yarmarka Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə gerçəkləşib. Aktiv məşğulluq tədbirində dövlət və özəl sektordan olan 26 işəgötürən iştirak edib və müxtəlif istiqamətlər üzrə 253 vakansiya təqdim olunub.

Agentliyin İdarə Heyəti sədrinin müavini Cəmaləddin Quliyev və xüsusi nümayəndəliyin əməkdaşı Aqil Qurbanov işəgötürənlərin təqdim etdiyi vakansiyalarla maraqlanıblar. Bildirilib ki, Böyük Qayıdış proqramı çərçivəsində diqqətdə saxlanılan əsas məsələlərdən biri də işəgötürənlərin kadrlara olan ehtiyaclarının ödənilməsidir. Yarmarkaya qatılan sakinlərə vakansiyalar, iş öhdəlikləri haqqında məlumat verilib, müraciət edən şəxslərin CV-ləri qəbul edilərək nəzərdən keçirilib, uyğun namizədlərin qeydiyyatı aparılıb.

Həmçinin iştirakçılara Agentlik tərəfindən azad olunan ərazilərdə icra edilən aktiv məşğulluq tədbirləri ilə bağlı məlumat verilib.

**AZƏRTAC**
**5 aprel, 2024**

## AZAL Zəngilanda keçirilən əmək yarmarkasında iştirak edib

"Azərbaycan Hava Yolları" QSC (AZAL) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən Zəngilan rayonunun Ağalı kəndində keçirilən əmək yarmarkasında iştirak edib.

AZƏRTAC xəbər verir ki, AZAL Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarının sakinlərinin işlə təmin olunması məqsədilə 15 vakansiya təqdim edib. Vakansiyalar siyahısında təhlükəsizlik inspektoru, yanğınsöndürən-xilasedici, yanğın avtomobili sürücüsü, daxiliyanma mühərriklərinin maşinisti, texnoloji avadanlıqların istismarı və təmiri üzrə mühəndis, təmirçi-çilingər, qazanxana operatoru və rabitə texniki yer alıb.

Əmək yarmarkasında AZAL-ın əməkdaşları ziyarətçilərə mövcud vakansiyalar haqqında məlumat verib, namizədləri qeydə alıb və kadr seçiminin səmərəliliyinin təmin edilməsi üçün məlumatların təhlilini aparıblar. Yarmarka zamanı təqdim olunan vakant yerlərə 20-yə yaxın vətəndaş müraciət edib.

Daxil olan bütün müraciətlər ən qısa zamanda diqqətlə nəzərdən keçiriləcək və tələblərə cavab verən namizədlər müsahibəyə dəvət ediləcəklər. Müsahibədən uğurla keçən namizədlər müvafiq vəzifə üzrə işlə təmin olunacaqlar.

AZAL Böyük Qayıdışa dair I Dövlət Proqramı aktiv şəkildə dəstəkləyir. Bugünkü gündə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində iki beynəlxalq hava limanı — Füzuli və Zəngilan aeroportları fəaliyyət göstərir. Hazırda bu hava limanlarında ümumilikdə 80-ə yaxın əməkdaş çalışır.

AZAL-ın Zəngilanda keçirilən əmək yarmarkasında iştirakı qurumun işğaldan azad olunmuş rayonlarda məşğulluğun təmin edilməsinə və sosial-iqtisadi inkişafın təşviq edilməsinə xüsusi diqqət ayırdığını vurğulayır.

Qeyd edək ki, yarmarkaya 23-ü özəl şirkət, 3-ü dövlət qurumu olmaqla 26 işəgötürən qatılıb. Təqdim olunan vakansiyaların ümumi sayı 253 təşkil edib.

**AZƏRTAC**
**6 aprel, 2024**

**Füzulidə, Laçında və Zabuxda orta təhsil səviyyəsi üzrə ilk dəfə buraxılış imtahanı keçirilib**

Xəbər verildiyi kimi, Dövlət İmtahan Mərkəzi aprelin 7-də ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib.

AZƏRTAC xəbər verir ki, həmçinin işğaldan azad olunmuş Laçın, Füzuli və Zəngilan rayonlarında da buraxılış imtahanı təşkil edilib. Belə ki, yeni istifadəyə verilmiş Laçın şəhər 2 nömrəli tam orta məktəbdə, Zabux kənd tam orta məktəbində və Füzulidə M.Uluqbəy adına 1 nömrəli məktəbdə ilk dəfə ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib.

**AZƏRTAC**
**7 aprel, 2024**

**Laçında ödənişsiz peşə hazırlıq kursları təşkil olunur**

Böyük Qayıdış proqramına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərimizə köçürülən sakinlərin fəal məşğulluq proqramları ilə əhatə olunması tədbirləri davam etdirilir. Yaxın zamanlarda sakinlər üçün həm də ödənişsiz peşə hazırlığı kurslarının təşkili nəzərdə tutulub və bu istiqamətdə işlərə start verilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün peşə hazırlığı kursları təşkil edilir. Həmçinin Laçın şəhəri və rayonun Zabux, Sus, Bəylik, Güləbird kəndləri üzrə kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələri üzrə peşə kurslarına həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilərlər.

Peşə hazırlığı kurslarına yazılmaq üçün işaxtaranlar, DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək, yaxud "sosial.gov.az" saytındakı "Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı" bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçə bilərlər. Kursların müddəti 6 aya qədərdir və iştirak ödənişsizdir.

Qeydə edək ki, proqramın tərkib hissəsi olaraq Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi, Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi, Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri, Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri, Kəlbəcər şəhəri, Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi, Xankəndinin Kərkicahan qəsəbəsi, Qubadlının Mahruzlu, Zilanlı kəndləri, Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri, Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri, Xocavəndin Xocavənd kəndi üzrə də peşə hazırlıq kursları təşkil olunur.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**7 aprel, 2024**

**Ağalı və Cocuq Mərcanlı kəndlərində sakinlərə tərəvəz şitilləri paylanılıb**

Zəngilanın Ağalı və Cəbrayılın Cocuq Mərcanlı kəndlərində sakinlərə həyətyanı sahələrdə yetişdirmək üçün yazlıq tərəvəz şitilləri paylanılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ağalı kəndində, ümumilikdə, 100 mindən çox, Cocuq Mərcanlıda isə 94 mindən artıq şitil "GreenTech" MMC tərəfindən sakinlərə hədiyyə edilib.

Xatırladaq ki, pomidor, xiyar, bibər, qarpız, yemiş, badımcan, kahı, kələm şitilləri sözügedən şirkət tərəfindən ötən il də sakinlərə təqdim edilmişdi və bu aksiyanın davamlı olması nəzərdə tutulur.

**AZƏRTAC**
**9 aprel, 2024**

**Ağbənd qəsəbəsindən Bartaz yüksəkliyi istiqamətində elektrik xəttinin çəkilişinə başlanılıb**

Zəngilan rayonunun Ağbənd qəsəbəsindən Bartaz yüksəkliyi istiqamətində 35 kV-luq izolyasiyalı xəttin çəkilişinə start verilib.

"Azərişıq" ASC-dən AZƏRTAC-a bildirilib ki, Qubadlı rayonu ərazisində də bir neçə istiqamətdə yenidənqurma işləri davam edir. 110/35/10 kV-luq Qubadlı yarımstansiyasından çıxan Fərcan xəttinin yeni dayaqları basdırılır. Sarılı Xəştab kəndi istiqamətində də yeni 35 kV-luq xəttin metal dayaqlarının basdırılması işləri davam etdirilir. Həmçinin, Uzumculuk deyilən ərazi və Güləbirt istiqamətlərində də işlər aparılır.

İki dövrəli Cəbrayıl-Horovlu 35 kV-luq ÖİN-3-lə (Özünüdaşıyan İzolyasiyalı Naqil) çəkilən kabel hava xəttinin layihə üzrə nəzərdə tutulan dayaqlarının əksəriyyəti əkilib, işlər davam edir. Həmçinin, yenidənqurma işləri çərçivəsində iki dövrəli 35 kV-luq ÖİN-3-lə (Özünüdaşıyan İzolyasiyalı Naqil) çəkilən Şükürbəyli xəttinin davamı olaraq Xudafərin xəttinin dayaqlarının basdırılması işləri aparılır.

**AZƏRTAC**
**15 aprel, 2024**

**ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 8-dən 14-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1, tank əleyhinə 5 mina və 725 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 476.7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

**AZƏRTAC**
**15 aprel, 2024**

**https://video.azertag.az/site/video/205023**